ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

cild 91, №5, 2024

ISSN 2409-8817
DOI: 10.69682

# ELMİ əsərlər

# НАУЧНЫЕ ТРУДЫ

# SCIENTIFIC WORKS

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

https://doi.org/10.69682/arti.2024.91.5
https://archive.org/details/elmi-s-rl-r.-arti.-2024-5 – Internet Archive
https://journals.indexcopernicus.com/search/details?id=122986 – Index Copernicus
https://journalseeker.researchbib.com/view/issn/2409-8817 – Researchbib
https://www.slideshare.net/slideshow/elmi-s-rl-r-arti-2024-vol-91-5-pdf/273299069 – SlideShare
https://www.calameo.com/books/00733599560fc04b337f6 – Calameo
https://isindexing.com/isi/viewjournal.php – International Scientific Indexing
http://olddrji.lbp.world/Search.aspx?J=Scientific%20Works&S=0 – Directory of Research Journals Indexing

**ISSN 2409-8817**
**DOI: 10.69682**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU**

# *ELMİ ƏSƏRLƏR*

**cild 91, № 5, 2024**

# *НАУЧНЫЕ ТРУДЫ*

**том 91, № 5, 2024**

# *SCIENTIFIC WORKS*

**volume 91, № 5, 2024**

**"Elmi əsərlər" 1934-cü ildən çıxır**
**İldə 6 nömrə nəşr olunur**
**Redaksiyanın ünvanı**:
Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 96
Tel: 493-96-21, 493-30-06

*Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi Şurasının iclasının qərarı ilə nəşr edilir.*

*Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin*
*11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.*

*Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə*
*tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir.*

**Baş redaktor**:
**Akif Abbasov** – *pedaqogika elmləri doktoru, professor*

**Baş redaktorun müavini**:
**Hümeyir Əhmədov** – *pedaqogika elmləri doktoru, professor*

**Baş redaktorun müavini**:
**İlham Cavadov** – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Məsul katib**:
**İradə Əmirəliyeva** – *pedaqogika üzrə fəlsəfə doktoru*

**Redaksiya heyəti**: **Emin Əmrullayev**, **Elnur Əliyev**, kimya ü.f.d., **Rüfət Əzizov**, siyasi.elm.ü.f.d. **Anar Nağıyev**, ped.ü.f.d., dos. **Ənvər Abbasov**, ped.e.d., prof. **Vidadi Xəlilov**, ped.e. d., prof. **Fərahim Sadıqov**, ped.e.d., prof. **Hikmət Əlizadə**, psixol.e.d., prof. **Ramiz Əliyev**, ped.e.d., prof. **İntiqam Cəbrayılov**, ped.e.d. **Piralı Əliyev**, ped.e.d., prof. **Şahin Tağıyev**, ped.e.d., prof. **Mübariz Əmirov**, ped.e.d., prof. **Novruz Musayev**

**Redaksiya Şurası**:
**B.H. Əliyev** (AMEA-nın müxbir üzvü, psixol. e.d., prof., Azərbaycan)
**A.N. Rəhimov** (Bakı Qızlar Universitetinin təsisçisi, ped.e.d., prof., Azərbaycan)
**N.D. Nikandrov** (Rusiya Təhsil Akademiyasının akademiki, ped.e.d., prof., Moskva)
**A.K. Kusainov** (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.e.d., prof., Almatı)
**O.M. Topuzov** (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.e.d., prof., Kiyev)
**İ.X. Karimova** (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.e.d., prof., Düşənbə)
**V. Briller** (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, Dr., prof. (Nyu-York)
**S.P. Lomov** (Moskva DPU-nun kafedra müdiri, RTA-nın akademiki, ped.elm.dok., prof., Moskva)
**Y.P.Zinçenko** (Moskva Dövlət Universitetinin psixologiya fakültəsinin dekanı, psixologiya elmləri doktoru, professor, Moskva)
**Ə.Ə. Şahin** (Hacettepe Universitetinin professoru, Türkiyə)
**Y. Romanenko** (dövlət idarəetmə elmləri doktoru, professor, Ukrayna)
**A.S. Sidenko** (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.e.d., prof., Moskva)
**N.V. Naumova** (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol. ü.f.d., dosent, Samara)
**Tran Mai Uos** (Banking Universitetinin baş müəllimi, fəlsəfə doktoru, dosent, Vyetnam)

**Redaksiya**: Lalə Məmmədli, Dinarə Əsədova, Günel Quluzadə, Oğuztoğrul Tahirli, Şükür Aslanov

© ARTİ, 2024

***Публикуется решением Ученого Совет Института Образования Азербайджанской Республики***

***Учредитель: Институт Образования Азербайджанской Республики***
***Сборник «Научные труды» зарегистрирован приказом № 23 от 11 июля 2002 г.***
***Министерства Юстиции Азербайджанской Республики***

***«Научные труды» издается с 1934 года.***

***Периодичность издания: 6 номеров в год.***
***«Научные труды» включены в список публикаций, рекомендованных решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики***

**Главный редактор**:
**Акиф Аббасов** – *доктор педагогических наук, профессор*

**Заместитель главного редактора**:
**Гумеир Ахмедов** – *доктор педагогических наук, профессор*

**Заместитель главного редактора**:
**Ильхам Джавадов –** *доктор философии по педагогике, доцент*

**Ответственный секретарь**:
**Ирада Амиралиева** – *доктор философии по педагогике*

**Редакционная коллегия**: **Эмин Амруллаев**, **Эльнур Алиев**, док.ф. по хим. **Руфат Азизов**, док.ф. по полит.н. **Анар Нагиев**, док.ф. по пед., доц. **Энвер Аббасов**, док. пед.н., проф. **Видади Халилов**, док. пед.н., проф. **Фарахим Садыгов**, док. пед.н., проф. **Хикмет Ализаде**, док. психол. н., проф. **Рамиз Алиев**, док. пед.н., проф. **Интигам Джабраилов**, док. пед.н. **Пирали Алиев**, док. пед.н., проф. **Шахин Тагиев**, док. пед.н., проф. **Мубариз Амиров,** док. пед.н., проф. **Новруз Мусаев**

**Редакционный совет**:
**Б.Г. Алиев** (чл.-корр. НАНА, док. психол.н., проф., Азербайджан)
**А.Н. Рагимов** (учредитель Бакинского Университета для Девушек, док. пед.н., проф., Азербайджан)
**Н.Д. Никандров** (акад. РАО, док. пед.н., проф., Москва)
**А.К. Кусаинов** (президент Казахстанской АПН, док. пед.н., проф., Алматы)
**О.М. Топузов** (вице-президент НАПН Украины, директор Института Педагогики, док. пед.н., проф., г. Киев)
**И.Х. Каримова** (вице-президент АО Таджикистана, док. пед.н., проф., Душанбе)
**В. Бриллер (**исполнительный директор по анализу сектора Высшего Образования Колумбийского Университета, д-р, проф., Нью-Йорк)
**С.П. Ломов** (зав.кафед. Московского ПГУ, акад. РАО, док. пед.н., проф., Москва)
**Ю.П.Зинченко** (декан психологического факультета МГУ, доктор психологических наук, профессор, Москва)
**А.А. Шахин** (профессор Университета Хаджеттепе, Турция)
**Е. Романенко** (доктор наук по государственному управлению, профессор, Украина)
**А.С. Сиденко** (вед. науч. сотруд. Академии Социального Управления, док. пед.н., проф., Москва)
**Н.В. Наумова** (зав. кафед. Самарской Гуманитарной Академии, док.ф.. по психол., Самара)
**Tran Mai Uoc** (старший преподаватель Университет Банкинга, д. филос., доц., Вьетнам)

**Редакция**: Лала Мамедли, Динара Асадова, Гюнель Гулузаде, Огузтогрул Тахирли, Шукюр Асланов

© ИОАР, 2024

*Published by the decision of the Academic Council of the Institute of Education of the Republic of Azerbaijan*

*Founder: Institute of Education of the Republic of Azerbaijan*
*The collection "Research Papers" was registered by order No. 23 of July 11, 2002 of Ministry of Justice of the Republic of Azerbaijan*

*"Research Papers" has been published since 1934.*

*Frequency of publication: 6 issues per year. "Research Papers" are included in the list of publications recommended by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan*

**Editor in Chief**:
**Akif Abbasov** – *doctor of pedagogical sciences, professor*

**Deputy Editor in Chief**:
**Humeyir Ahmadov** – *doctor of pedagogical sciences, professor*

**Deputy Editor in Chief**:
**Ilham Javadov** – *doctor of philosophy in pedagogy, associate professor*

**Executive Secretary**:
**Irada Amiraliyeva** – *doctor of philosophy in pedagogy*

**Editorial board**: **Emin Amrullaev, Elnur Aliyev**, Ph.D. in chemistry **Rufat Azizov**, Ph.D. in political sciences **Anar Naghiyev**, Ph.D. in ped., assoc. –prof. **Anvar Abbasov**, dok.of ped. sciences, prof. **Vidadi Khalilov**, dok.of ped. sciences, prof. **Farahim Sadigov**, dok.of ped. sciences, prof. **Hikmat Alizade**, dok.of psychol. sciences, prof. **Ramiz Aliyev**, dok.of ped. sciences, prof. **Intigam Jabrayilov**, dok.of ped.sciences **Pirali Aliyev**, dok.of ped. sciences, prof. **Shahin Taghiyev**, dok.of ped. sciences, prof. **Mubariz Amirov**, dok.of ped.sciences, prof. **Novruz Musayev**

**Editorial Council**:
**B.H. Aliyev** (Corresponding Member of National Academy of Sciences of Azerbaijan, doc. of psychological sciences, prof., Azerbaijan)
**A.N. Rahimov** (founder of Baku University for Girls, doctor of ped. sciences, prof., Azerbaijan)
**N.D. Nikandrov** (Academician of the Russian Academy of Education, dok. of ped. sciences, prof., Moscow)
**A.K. Kusainov** (President of the Kazakhstan Academy of Pedagogical Sciences, doctor of ped. sciences, prof., Almaty)
**O.M. Topuzov** (Vice-President of the National Academy of Pedagogical Sciences of Ukraine, Director of the Institute of Pedagogy, doctor of ped. sciences, prof., Kiev)
**I.Kh. Karimova** (Vice-President of Academy of Education of Tajikistan, doctor of ped. sciences, prof., Dushanbe)
**B.Briller** (Executive director of Higher Education Sector Analysis at Columbia University, Dr. prof., New York)
**S.P. Lomov** (Head of the department of the Moscow Pedagogical State University, Academician of the Russian Academy of Education, doctor of ped. sciences, prof., Moscow)
**Y.P. Zinchenko** (Dean of the faculty of psychology at Moscow State University, Doctor of psychology, prof., Moscow)
**A.A. Shahin** (professor at Hacettepe University, Turkiye)
**Y. Romanenko** (doctor of sciences in public administration, professor, Ukraine)
**A.S. Sidenko** (Leading researcher of the Academy of Social Management, doctor of ped. sciences, prof., Moscow)
**N.V. Naumova** (Head of the department of the Samara Humanitarian Academy, doctor of philosophy in psychology, Samara)
**Tran Mai Uoc** (Senior lecturer, Banking University, PhD, associate professor, Vietnam)

© IERA, 2024

## *COP29 ÇƏRÇİVƏSİNDƏ QLOBAL EKOLOJİ PROBLEMLƏRİN MÜMKÜN HƏLLİ YOLLARI*

## *ВОЗМОЖНЫЕ РЕШЕНИЯ ГЛОБАЛЬНЫХ ЭКОЛОГИЧЕСКИХ ПРОБЛЕМ В РАМКАХ COP29*

## *POSSIBLE SOLUTIONS TO GLOBAL ECOLOGICAL PROBLEMS WITHIN THE FRAMEWORK OF COP29*

*UOT 37.0*

***İradə Böyükağa qızı Əmirəliyeva***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-3319-7466*
*https://doi.org/10.69682/arti.2024.91(5).5-8*

## COP29-a EV SAHİBLİYİ EDƏCƏK ÖLKƏ – AZƏRBAYCAN

***Ирада Боюкага гызы Амиралиева***
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики,*
*доктор философии по педагогике*

## СТРАНА, КОТОРАЯ БУДЕТ ПРИНИМАТЬ COP29 – АЗЕРБАЙДЖАН

***Irada Boyukagha Amiraliyeva***
*leading scientific worker at the Institute of Education of the Republic of Azerbaijan,*
*doctor of philosophy in pedagogy*

## THE COUNTRY THAT WILL HOST COP29 – AZERBAIJAN

**Xülasə.** COP29 – 2024-cü il noyabrın 11-24-ündə Azərbaycanın paytaxtı Bakı şəhərində keçiriləcəkdır. Konfransa dünyanın 190-dan çox ölkəsindən 80-100 min nəfərə qədər nümayəndənin iştirakı gözlənilir. Konfransda iqlim dəyişiklikləri, onun törədə biləcək fəsadlardan, ekoloji böhran və onun aradan qaldırılması məsələlərindən söz açılacaq.

İqlim Dəyişikliyi ilə bağlı Çərçivə Konvensiyası insanları yaşıl dünya naminə həmrəy olmağa səsləyir. İqlim dəyişmələri dünyanın rahatlığını pozan bir bəladır.

Təqdim olunan məqalədə haqqında danışılan məsələləri üzərində dayanılır.

***Açar sözlər*: *COP, İqlim Dəyişikliyi ilə bağlı Çərçivə Konvensiyası, dəyişiklikləri, iqlim dəyişikliklərinin törədə biləcəyi fəsadlar, ekoloji böhran, ekoloji böhranın aradan qaldırılmasının mümkün yolları***

**Аннотация.** COP29 пройдет с 11 по 24 ноября 2024 года в столице Азербайджана, городе Баку. Ожидается участие от 80 до 100 тысяч делегатов из более чем 190 стран мира. На конференции будут обсуждаться изменения климата, возможные последствия, экологический кризис и вопросы его преодоления.

Рамочная Конвенция по изменению климата призывает людей объединиться ради зеленого мира. Изменения климата — бедствие, нарушающее благополучие мира.

В представленной статье акцентируется внимание на обсуждаемых вопросах.

***Ключевые слова:*** *COP, Рамочная конвенция по изменению климата, изменения, возможные последствия изменений климата, экологический кризис, возможные пути преодоления экологического кризиса.*

**Abstract.** COP29 will be held from November 11 to 24, 2024, in Baku, the capital of Azerbaijan. The conference is expected to host between 80,000 and 100,000 delegates from over 190 countries worldwide.

Topics will include climate change, its potential consequences, the ecological crisis, and ways to address these issues.

The Framework Convention on Climate Change calls on people to unite for the sake of a green world. Climate change is a disaster that disrupts the well-being of the planet.

The presented article focuses on the issues discussed.

***Keywords:*** *COP, Framework Convention on Climate Change, changes, potential consequences of climate change, ecological crisis, possible ways to overcome the ecological crisis.*

COP nədir? sualını belə cavablandırmaq olar: COP Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransıdır. Bu konfrans hər il təşkil olunur.

Ona müxtəlif ölkələr sədrlik edir. Bu il COP 29-a Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Bakıda keçiriləcək. Bu qərar COP 28-in 2023-cü ildə Dubayda keçirilmiş plenar iclasında qəbul olunmuşdur. Azərbaycan həmin sessiyaya sədrliyi həyata keçirəcək. Tədbir Bakı Stadionunda təşkil ediləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "COP29"un faydalılığından danışarkən demişdir: "COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik".

COP29-un “Fəaliyyət Çərçivəsi” aşağıdakı məsələlərin nəzərdən keçirilməsini planlaşdırır: “***Əsas hədəfimiz***

Qlobal istiləşməni 1,5°C səviyyəsində saxlamaq öhdəliyinin təmin olunması hər birimizin mənəvi borcudur. Lakin imkanlar tükənir və gələcəyimizi qorumaq üçün artıq bu gün diqqətimizi investisiyaların yatırılması məsələsinə yönəltməliyik. Bizim əsas prioritetimiz qlobal istiləşməni nəzarətdə və temperatur artımını 1,5°C-dən aşağı saxlamaq üçün emissiyaların azaldılması istiqamətində əsaslı, çevik və dayanıqlı fəaliyyət göstərmək, bu təşəbbüs çərçivəsində bütün tərəfləri bir araya gətirməkdir.

***Ambisiyaların artırılması və fəaliyyətə təkan***

Sədrliyin COP29 planı bir-birini qarşılıqlı şəkildə dəstəkləyən iki yanaşı istiqamətə əsaslanır. Ambisiyaların artırılmasını nəzərdə tutan birinci istiqamət bütün tərəflərin iddialı milli planlara və şəffaflığa sadiqliyini təmin etmək üçün əsas komponentləri özündə ehtiva edir. Fəaliyyətə təkan verməyi nəzərdə tutan ikinci istiqamət isə ambisiyaları fəaliyyətə çevirmək, emissiyaları azaltmaq, iqlim dəyişmələrinə uyğunlaşmaq, itki və zərəri aradan qaldırmaq üçün əsas vasitələrdən biri olan maliyyənin vacib rolunu əks etdirir.

***İnklüziv nəticələr üçün inklüziv proses***

COP29 Sədrliyi maraqlı tərəfləri dinləyir və onlarla əməkdaşlıq edir. Sədrlik hər kəsin səsinin eşidilməsinə və fikirlərinin nəzərə alınmasına, ortaq həllər vasitəsilə inklüziv nəticələrin əldə edilməsinə çalışır. Birlikdə müsbət irəliləyiş əldə edə biləcəyimizə inanırıq” [1].

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 1992-ci ildə insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını kəsmək üçün Rio-de-Janeyro şəhərində təşkil edilmiş Yer Sammitində imzalanan çox dəyərli bir sənəddir.

Tərəflər Konfransı İqlim Dəyişikliyi ilə bağlı Çərçivə Konvensiyasının yerinə yetirilməsinə nəzarəti həyata keçirən ali qərarverici orqan hesab edilir. Tərəflər Konvensiyanın üzvü olan 198 ölkədən ibarətdir.

İqlim Dəyişikliyi ilə bağlı Çərçivə Konvensiyası insanları yaşıl dünya naminə həmrəy olmağa səsləyir.

İqlim dəyişmələri dünyanın rahatlığını pozan bir bəladır.

XVIII əsrdən başlamaqda olan sənayeləşmə dövründən, o cümlədən XX əsrin ortalarından etibarən Yer kürəsinin iqlim sisteminə hədsiz mənfi təsirlər olmuş, başqa atmosfer tullantıları ilə bərabər, istixana effekti doğuran qazlar qlobal miqyasda sürətlə artmışdır.

Mənbələrdə deyilir: ”İqlim Dəyişmələri üzrə Hökümətlərarası Ekspertlər qrupunun qiymətləndirmə hesabatına görə, son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Temperaturun artması isə əsasən istilik effekti yaradan qazların - karbon dioksid ($CO_2$), metan ($CH_4$), azot oksidi və xlor-fülor birləşmələrin konsentrasiyasının artması ilə birbaşa bağlıdır. İqlim Dəyişmələri üzrə Hökümətlərarası Panel (İPCC) tərəfindən təqdim edilmiş məlumata görə, sənaye dövrünü əhatə edən son 250 ildə

atmosferdə məhz karbon qazının ümumi miqdarı 28%, metanın miqdarı isə 60% artmışdır” [3].

İnsan cəmiyyətinin inkişafı təbiətlə qarşılıqlı təmasda olmadan mümkün deyil. İnsanların tələbatını ödəmək və onun inkişafını təmin etmək üçün Yerin bərpa olunan və bərpa olunmayan sərvətlərindən intensiv şəkildə istifadə olunur. İnsan öz həyatı üçün vacib olan hər şeyi (enerji, qida və s.) təbiətdən alır. Təbiət insanın estetik tələbatının təminat mənbəyidir.

Elmi-texniki tərəqqinin sürətli vüsət alması ilə insanın təbiətə təsiri daha güclü xarakter alır. XX əsrdə bu təsir təbii amillərin təsiri ilə müqayisə edilə biləcək dərəcəyə çatmışdır ki, bu da insan cəmiyyəti ilə təbiət arasındakı qüvvələr nisbətində kəmiyyət və keyfiyyət dəyişikliyinə səbəb olmuşdur.

Elmi-texniki tərəqqi sayəsində insan cəmiyyəti təbiətə təsirin daha güclü vasitələrinə yiyələnmişdir. Bu nailiyyətlər insana mikro-və makroaləmə nüfuz etməyə, biosferdə baş verən təbii proseslərə təsir göstərməyə, Yerətrafı kosmik fəzaya müdaxilə etməyə və s. imkan verir.

Təbiətdə baş verən antropogen dəyi-şikliklər əksər hallarda pozitiv xarakter daşıyır. Lakin, təbii proseslərə müdaxilə edən insan bir sıra hallarda təbiət qanunauyğunluqlarını pozur və özü üçün arzuolunmaz fəsadlara səbəb olur. Sivilizasiyanın mövcudluğunun əsaslarını təhlükə altına alan təzadlardan ən başlıcası ətraf mühitin çirklənməsi və təbii ehtiyatların tükənməsidir. Ona görə də, insan cəmiyyəti qarşısında ekoloji böhranın aradan qaldırılması, təbiətin qorunması və təbii sərvətlərdən səmərəli istifadənin həyata keçirilməsi vəzifəsi durur.

Nəzərə almaq lazımdır ki, elmi-texniki tərəqqi insanın təbiətdən asılılığının bir formasını azaltmaqla bərabər, bir çox hallarda bu asılılığın daha çətin və təhlükəli formalarına səbəb olur.

Hazırda ekoloji problemlər yalnız sənayeyə deyil, eyni zamanda iqtisadiyyat, siyasət, mənəviyyat, hüquq, estetika, təbabət və s. sahələrə də nüfuz etdiyi üçün bu problemlərin həlli kompleks şəkildə aparılmalıdır. Bu problemlərin həlli yalnız elm və texnikanın müxtəlif sahələrində çalışan mütəxəssislərin birgə fəaliyyəti sayəsində mümkündür.

Ekoloji problemlərin müvəffəqiyyətli həllinə qadir olan mütəxəssislərin hazırlanması isə “Ekologiya” və “Ətraf mühitin mühafizəsi” və s. bu kimi kursların tədrisinə əsaslanmalıdır.[2]

Respublikamız bərpa olunan enerji ilə bağlı qabaqcıl ölkələr sırasında olmaq istəyir. Odur ki, zəngin külək və günəş potensialından faydalanır. **Su, günəş, külək** enerjisi istehsalından müvəffəqiyyətlə istifadə olunur. Yaşıl enerjinin yeni növü kimi, 2023-cü ilin fevralında Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə **yaşıl hidrogen(**aşağı karbonlu hidrogen) istehsalı araşdırmaları başlayıb. Ölkəmiz yaşıl enerji sahəsində liderliyə yiyələnməkdən ötrü hazırki enerji sistemini şaxələndirir.

Qarabağda genişmiqyaslı layihələr həyata keçirilir. Ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti əsas götürülərək, Qarabağ və Şərqi Zəngəzurun "yaşıl inkişaf" konsepsiyası həyata keçirilir, "ağıllı kənd", "ağıllı şəhər"lər meydana gəlir. İstilik effekti meydana gətirən qazların emissiyalarının azaldılması istiqamətində mühüm işlər görülür.

İqlim dəyişikliyi ilə bağlı mühüm beynəlxalq müqavilələrdən biri Paris sazişidir. Saziş 2015-ci ildə qəbul olunmuşdur. Haqqında danışılan saziş iqlim dəyişikliyinin azaldılması, uyğunlaşma və maliyyə və s. bu kimi problemləri özündə birləşdirir. Azərbaycan 170-dən çox ölkə ilə birlikdə hələ 2016-cı ildə Paris Sazişini imzalamışdır.

Saziş Paris yaxınlığında BMT-nin İqlim Dəyişikliyi Konfransında 196 tərəf tərəfindən nəzərdən keçirilmişdir. Paris sazişinin məramı ayrı-ayrı ölkələrə iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmağa kömək göstərmək və lazımi maliyyə dəstəyi verməkdir.

Müqavilə nəzərdə tutur ki, bu və ya digər ölkə öz qüvvələrini müəyyən etməli, planlaşdırmalı və vaxtaşırı hesabat verməlidir.

Bu dəyərli saziş 2016-cı il aprelin 22-də BMT-nin Nyu-Yorkdakı Baş Qərargahındakı mərasimdə imzalanmaq üçün hazırlanıb. Avropa İttifaqı sazişi ratifikasiya etdikdən sonra, 4 noyabr 2016-cı il tarixində qüvvəyə minməsi üçün dünyanın bir çox ölkəsi ratifikasiya etdi.

İqlim dəyişikliyi dedikdə, bir yandan istixana qazları vasitəsi ilə hərəkətə gələn qlobal istiləşmə, digər tərəfdən onun nəticəsində hava modellərində özünü büruzə verən böyükölçülü dəyişikliklər nəzərdə tutulur.

Təhsilalanlar – ümumtəhsil məktəbləri şagirdləri, ali və orta ixtisas məktəbləri tələbələri dünyanı gələcək nəsillər üçün qorumalıdırılar.

Bu saziş istixana qazı tullantılarını və insanın fəaliyyət göstərdiyi sahədə meydana gələn iqlim dəyişikliyi təhlükəsini azaltmaq üçün qlobal hədəf və fəaliyyət çağırışı edir.

Problemlərin yaranmasına yol verməmək, həmçinin Azərbaycanın və dünyanın "aşağı karbonlu" iqtisadiyyata keçidini dəstəkləmək üçün öyrənmə, tədris, fəaliyyətlər və məsuliyyətli sərmayə ilə bağlı tədbirlər görüləcəkdir. Eyni zamanda bərpa olunan enerji imkanları araşdırılacaqdır.

Bu xüsusda mənbələrdə oxuyuruq: "Azərbaycan da qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmamışdır. Son 100 ildə Azərbaycan ərazisində orta illik temperaturlar 0,4-1,3$^0$C-yə qədər artmışdır. İqlim dəyişmələri fonunda Azərbaycan daşqınlar, qar uçqunları, tufanlar, qasırğalar, dalğalanmalar, güclü küləklər, istiliklər, quraqlıqlar, buzlaqların əriməsi, şoranlaşma, torpaqların deqradasiyası, səhralaşma, yağıntıların və su ehtiyatlarının azalması və s. bu kimi ekstremal iqlim hadisələrinin təsirlərinə məruz qalır. İqlim dəyişmələri həm regional həm də qlobal səviyyədə insanların qida təhlükəsizliyini və suya çıxışını məhdudlaşdırır, aclıq, yoxsulluq və digər ağır sosial-iqtisadi nəticələrə, miqrasiyanın güclənməsinə səbəb olur, yoluxucu və xroniki xəstəlikləri artırır. Təsadüfi deyildir ki, Ümumdünya Səhiyyə Təşkilatı isə 21-ci əsrdə qlobal sağlamlıq üçün ən böyük təhlükə kimi iqlim dəyişmələrini göstərmişdir. Mütəxəssislərin fikrincə, gələcəkdə qlobal istiləşməni minimuma endirmək səyləri uğurlu olsa belə, dəniz səviyyəsinin artması, okean isti-liyinin və turşululuğunun yüksəlməsi kimi neqativ təsirlərin müəyyən hissəsinin əsrlər boyu davam edəcəkdir" [3].

Yer kürəsinin iqlimi həmişə dəyişikliyə məruz qalıb. Çox-çox illər əvvəl planetin iqlimi təbii hadisələrlə bağlı vaxtaşırı dəyişilirdi. Hazırda iqlim dəyişikliyindən söz düşəndə 1900-cü illərdən sonrakı dəyişikliklər anlaşılır.

Müasir dövrdə iqlim dəyişiklikləri təbii proseslərdən daha çox insan fəaliyyəti ilə əlaqədardır. İstixana effekti deyilən istilah son dərəcə böyük rol oynayır. Ona görə ki, bu, Yer kürəsini isti saxlayan qazlarla bağlıdır.

Məktəblilər iqlim dəyişiklikləri, onun yaratdığı fəsadlarla şagirdləri tanış edilməlidirlər. Şagirdlərlə aşağıdakı tədbirlərin təşkili məqsədəuyğundur: "Ətraf mühitin plastik materiallarla çirklənməsi ilə mübarizə", "İqlim, sülh və insanlıq", "İnsanların iqlim sisteminə təhlükəli müdaxiləsi".

**Problemin aktuallığı**. 2024-cü il noyabrın 11–24-ündə Azərbaycanın paytaxtı Bakı şəhərində COP29 keçiriləcəkdir. Tədbir nəinki Azərbaycan, həmçinin bütün Yer kürəsi üçün faydalıdır. Məqalədə bu barədə danışılır və qaldırılan problem son dərəcə aktualdır.

**Problemin yeniliyi.** COP29-nin keçirildiyi tədbirə dünyanın 190-dan çox ölkəsindən 80–100 min nəfərə qədər nümayəndənin iştirakı konfransın nə qədər əhəmiyyətli olduğunu göstərir və eyni zamanda yeni elmi problem olaraq diqqət mərkəzində dayanır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Yaşıl dünya naminə həmrəy olaq https://cop29.az/az
2. Ümumi ekologiya. https://imgs.su/upload/622/2721618666.pdf
3. İqlim dəyişmələri və Azərbaycan https://eco.gov.az/az/hidrometeorologiya/iqlim-deyismeleri

**E-mail:** amiraliyeva_i@mail.ru
**Redaksiyaya daxil olub:** 30.09.2024

*UOT 37.0*

***Təranə Mayıl qızı Əkbəri***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Şamaxı filialının baş müəllimi,*
*biologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0001-9293-4561*
*https://doi.org/10.69682/arti.2024.91(5).9-12*

# ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI EKOLOJİ TERRORU

***Тарана Майил гызы Акбари***
*старший преподаватель*
*Шамахинского филиала Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по биологии*

# ЭКОЛОГИЧЕСКИЙ ТЕРРОР АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА

***Tarana Mayil Akbari***
*senior lecturer*
*at Shamakhi branch of Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in biology*

# ARMENIA'S ECOLOGICAL TERRORISM AGAINST AZERBAIJAN

**Xülasə.** 1988-ci ildən Ermənistanın Azərbaycana qarşı ərazi iddiasını reallaşdırmaq məqsədilə apardığı müharibə nəticəsində Azərbaycan torpaqlarının 20%-i işğal edilmişdi. Uzun sürən işğaldan sonra 44 gün davam edən Vətən müharibəsi və 24 saatlıq lokal antiterror əməliyyatları zamanı 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızı rəşadətli Ordumuz tərəfindən azad edilmişdir. Lakin düşmən işğaldan azad etdiyimiz ərazilərdə özlərindən geriyə xarabalıqlar və ekoloji fəlakət qoyub gedib. Ermənistan 30 ilə yaxın bir müddətdə şüurlu surətdə təbiətimizi məhv etməyə çalışmış, Azərbaycana qarşı ekoloji terror həyata keçirmiş, işğal edilmiş ərazilərimiz də daxil olmaqla, təbii resursları kortəbii şəkildə istismar etmiş, istehsal tullantıları ilə içməli su hövzələrini çirkləndirmiş və ətraf mühitin ekoloji tarazlığını pozmuşdur. İşğal dövründə düşmən torpaqlarımızda, meşələrimizdə, milli parklarımızda, qoruqlarımızda böyük vandalizm aktları törədib, qiymətli ağaclar və digər nadir biomüxtəliflik nümunələri işğalçı qüvvələr tərəfindən məhv edilib.

Azərbaycanın içməli su mənbəyini təşkil edən çaylar Ermənistan ərazisindən axan kimyəvi, bioloji və digər radioaktiv tullantılarla çirkləndirilmişdir. İllər keçdikcə işğal olunmuş ərazilərdən axan su mənbələrinin çirklənməsi qiymətli balıq növlərinin itirilməsinə və balıq ehtiyatlarının tükənməsinə səbəb olub. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik 7 relikt göl və 10 su anbarı işğalçı Ermənistan tərəfindən ciddi antropogen təsirə məruz qalmışdır.

***Açar sözlər:*** *ekoloji terror, erməni vandalları, işğaldan azad edilmiş ərazilər, Azərbaycan Respublikasının Qırmızı Kitabı, biomüxtəliflik, Ermənistan, ətraf mühit*

**Аннотация.** С 1988 года 20% земель Азербайджана были оккупированы в результате войны, которую вела Армения с целью реализации своих территориальных претензий к Азербайджану. После длительной оккупации, в ходе 44-дневной Отечественной войны и 24-часовых локальных антитеррористических операций наши земли, почти 30 лет находившиеся в руках врага, были освобождены нашей храброй Армией. Однако на освобожденных нами от оккупации территориях враг оставил после себя руины и экологическую катастрофу. На протяжении почти 30 лет Армения сознательно пыталась уничтожить нашу природу, осуществляла экологический терроризм против Азербайджана, стихийно эксплуатировала природные ресурсы, в том числе наши оккупированные терри-

тории, загрязняла водоёмы с питьевой водой отходами производства, нарушала экологический баланс окружающей среды. За время оккупации враг совершил на наших землях величайшие акты вандализма, оккупационные силы уничтожили леса, национальные парки, заповедники, ценные деревья и другие редкие образцы биоразнообразия.

Реки, являющиеся источником питьевой воды Азербайджана, загрязнены химическими, биологическими и другими радиоактивными отходами, стекающими с территории Армении. Загрязнение источников воды, стекающих с оккупированных территорий, за прошедшие годы привело к гибели ценных видов рыб и истощению рыбных запасов. 7 экологически важных реликтовых озер и 10 водохранилищ на освобожденных территориях Азербайджана подверглись серьезному антропогенному воздействию со стороны оккупирующей Армении.

***Ключевые слова:*** *экологический терроризм, армянские вандалы, освобожденные территории, Красная книга Азербайджанской Республики, биоразнообразие, Армения, окружающая среда*

**Abstract.** Since 1988, 20% of Azerbaijan's lands have been occupied as a result of the war waged by Armenia to pursue its territorial claims against Azerbaijan. After a long occupation, during the 44-day Patriotic War and 24-hour local anti-terrorist operations, our lands, which had been in the hands of the enemy for almost 30 years, were liberated by our brave Army. However, in the territories we liberated from occupation, the enemy left behind ruins and an environmental disaster. For almost 30 years, Armenia deliberately tried to destroy our nature, carried out environmental terrorism against Azerbaijan, spontaneously exploited natural resources, including our occupied territories, polluted drinking water reservoirs with industrial waste, and disrupted the ecological balance of the environment. During the occupation, the enemy committed the greatest acts of vandalism on our lands; the occupying forces destroyed forests, national parks, nature reserves, valuable trees and other rare examples of biodiversity.

The rivers that are the source of Azerbaijan's drinking water are contaminated with chemical, biological and other radioactive waste flowing from the territory of Armenia. Over the past years, contamination of water sources flowing from the occupied territories has led to the death of valuable fish species and the depletion of fish stocks. 7 ecologically important relic lakes and 10 reservoirs in the liberated territories of Azerbaijan were subject to serious anthropogenic impact from the occupying Armenia.

***Keywords:*** *environmental terrorism, Armenian vandals, liberated territories, Red Book of the Republic of Azerbaijan, biodiversity, Armenia, environment.*

Ermənistan işğal etdiyi ərazilərimizdə ekoloji terror törədərək şəhər və kəndləri xarabalığa çevirmiş, maddi-mədəniyyət abidələrini yer üzündən silmiş, yeraltı və yerüstü sərvətlərimizi - mineral su mənbələrimizi, meşə fondlarımızı (meşə sahəsi 246,217 hektar) məhv etmişdir. 152 dövləti təbiət abidəsi, 5 ədəd geoloji obyekt, 155 növ faydalı qazıntı yatağı talan edilmişdir. Gəlir əldə etmək məqsədilə düşmən Zəngilan, Ağdam, Kəlbəcər, Qubadlı və digər rayonlarda qiymətli ağac növləri məhv edərək yarımfabrikat kimi xarici ölkələrə satıb. Qarabağın ən qiymətli flora və fauna ilə zəngin meşələri qırılaraq xarici ölkələrə daşınıb. Burada təbii tarazlıq pozulub, torpaq eroziyası başlayıb, meşə ekosisteminə öyrəşmiş quşlar və heyvanlar didərgin düşüb.

Ümumi sahəsi 8000 hektardan çox olan qiymətli çoxillik palıd, ardıc, fıstıq, vələs, şam, göyrüş və qoz ağaclarından ibarət sıx meşələrdən təşkil olunmuş unikal ekosistemin məhv edilməsi respublikamızın endemik biomüxtəlifliyinə çox ciddi zərbə vurmuşdur. Erməni faşistlərinin işğal olunmuş ərazilərdə törətdikləri bu vəhşiliklər, ekoloji terrorizmlə bağlı beynəlxalq təşkilatlarda dəfələrlə həyəcan təbili çalınsa da, bütün bunlar heç bir nəticə verməyib. "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş 24 növ fauna və 69 flora növü erməni işğalçılarının tapdağı altında qalmış 43 min hektar sahəsi olan xüsusi mühafizə olunan təbiət ərazilərində - Bəsitçay və Qaragöl Dövlət Təbiət qoruqlarında, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarında məhv edilmişdir.

Ölkəmizə qarşı aparılmış ekoloji terror bununla bitmir. 1999-cu ildən başlayaraq ermənilər işğal etdikləri ərazilərə və bu ərazilərə yaxın sahələrdə yanğınlar törədib. Nəticədə torpaq qatları, bitki və heyvan növləri geniş miqyasda məhv edilib. Belə ki, 2006-cı ildə 63 min 414 hektar, 2007-ci ildə 31 min 97 hektar, 2008-ci ildə 380 hektar, 2009-cu ildə isə 250 hektar ərazi qəsbkarlar tərəfindən yandırılıb. Bu ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitki-

ləri bitir. Bunlardan 70-i dünyanın heç bir yerində təbii halda bitməyən endemik bitkilərdir. Yüzlərlə növ ağac və kol bitkiləri (ayı fındığı, Araz palıdı, yalanqoz, Şərq çinarı, Hirkan şümşadı, Eldar şamı, söyüdyarpaq armudu, Qafqaz xədicəgülü, Qarabağ dağ laləsi, Şmidt dağ laləsi və s.) Ermənistanın işğalı müddətində məhv edilərək dünya florasından silinmək təhlükəsi qarşısında qalmışdır.

Qarabağ ərazisində 2000-dən çox adda bitki növünə rast gəlinir ki, bu da Azərbaycan florasının 42 faizini təşkil edir. Bölgədəki 127 fauna növü və 72 flora növü nadir və nəsli kəsilmək təhlükəsi altında olmaqla, Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na və "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na salınmışdır. Təbiət abidəsi statusuna malik 152 sayda ağac (Şərq çinarı, palıd, azat, armud və s.), 8 xüsusi qiymətli meşə sahəsi (Şərq çinarı, püstə, ayı fındığı, ardıc, azat, Araz palıdı, çaytikanı, pirkal), 6 ədəd geoloji-palentoloji obyekt ("Azıx", "Tağlar", "Xan", "Qaxal", "Divlər sarayı" mağarası, "Bazaltın sütunvari aralanması"), yaşı 120 ildən 2000 ilədək olan pasportlaşdırılmış 145 Şərq çinarı və digər təbiət sərvətləri uzun illər ağır və misli görünməmiş talanla üz-üzə qalmışdır. Kəlbəcər rayonunda 968 hektar ərazini əhatə edən "Qırmızı Kitab" a daxil edilmiş ayı fındığı ağacları da kütləvi şəkildə qırılmışdır.

Su ehtiyatlarının çirkləndirilməsi Ermənistanın ekoloji terror siyasətinin əsas təsir elementlərindən sayılır. Bu məsələdə ən mühüm məqam Azərbaycanın içməli su mənbəyini təşkil edən çayların Ermənistan ərazisindən axan kimyəvi, bioloji və digər radioaktiv tullantılarla çirklənməsidir. İllər keçdikcə işğal olunmuş ərazilərdən axan su mənbələrinin çirklənməsi qiymətli balıq növlərinin itirilməsinə və balıq ehtiyatlarının tükənməsinə səbəb olub ümumi tutumu 631 milyon $m^3$ olan 10 su anbarı, o cümlədən Tərtər çayı üzərində tikilmiş 560 milyon $m^3$ tutumu olan 100 min hektardan çox əkin sahəsinin suvarılması üçün nəzərdə tutulmuş Sərsəng su anbarı texniki qulluq göstərilmədiyi üçün ətraf rayonların sakinləri üçün potensial təhlükə mənbəyinə çevrilib, su anbarından aşağıda yerləşən dağətəyi və aran yaşayış məntəqələrinin 400 min sakini risk altındadır. Qeyd olunan faktlar nəzərə alınaraq, Avropa Şurası Assambleyası tərəfindən Azərbaycan və Ermənistanın sərhədyanı rayonlarının əhalisinin qəsdən su çatışmazlığı ilə bağlı 2085 saylı Qətnamə qəbul edilib. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik 7 relikt göl (Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə rayon ərazisində Tərtərin qolu olan Torağaçayda Qaragöl) və 10 su anbarı işğalçı Ermənistan tərəfindən ciddi antropogen təsirə məruz qalmışdır.

Son illərdə Azərbaycan ərazisində yeraltı sərvətlərin talanması Ermənistanda mədənçıxarma məhsullarının ixracının artmasına səbəb olub. Ölkənin iqtisadi potensialı baxımından mühüm əhəmiyyət kəsb edən 167 qızıl, gümüş, mis, qurğuşun, civə, kömür, müxtəlif növ tikinti materialları və digər faydalı qazıntı yataqları, o cümlədən yeraltı şirin və mineral su yataqları (Şirlan, Turşsu və s.) Ermənistan tərəfindən qanunsuz şəkildə istismar edilərək xarici ölkələrə ixrac olunmuşdur.

Bütün bunlar qarşısıalınmaz ekoloji problemlər yaratmaqla yanaşı, tək respublikamızın deyil, lokal miqyasda regionun, qlobal baxımdan planetimizin bioloji müxtəlifliyinə vurulan zərbədir.

**Problemin aktuallığı.** Ermənistanın həyata keçirdiyi terror siyasəti yalnız şəhərləri, kəndləri və ya orada yaşayan insanları hədəfə almır, həm də ekoloji tarazlığın pozulmasına yönəlib. Bu isə olduqca təhlükəli bir amildir. Bütün bunlar qarşısıalınmaz ekoloji problemlər yaratmaqla yanaşı, tək respublikamızın deyil, lokal miqyasda regionun, qlobal baxımdan planetimizin bioloji müxtəlifliyinə vurulan zərbədir. Ermənistan Azərbaycana qarşı etdiyi ekoloji terrora görə, beynəlxalq qanunlar qarşısında cavab verməlidir. Məqalənin də aktuallığı onun məhz belə bir vacib mövzuya həsr edilməsi və işğaldan azad olunmuş regionlarda ekoloji terrorun ictimailəşdirilməsi ilə bağlıdır.

**Problemin yeniliyi.** Məqalədə Ermənistanın 30 ilə yaxın bir müddətdə şüurlu surətdə təbiətimizi məhv etməyə çalışması, Azərbaycana qarşı ekoloji terror həyata keçirməsi, işğal edilmiş ərazilərimiz də daxil olmaqla, təbii resursları kortəbii şəkildə istismar etməsi, istehsal tullantıları ilə içməli su hövzələrini çirkləndirməsi və ətraf mühitin ekoloji tarazlığını pozmasından bəhs olunur.

**Problemin praktik əhəmiyyəti.** Məqalə ekoloqlar, gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Abbasbəyli, Əhməd. Ermənistan regionun ekoloji terror mənbəyidir / Ə. Abbasbəyli; V. Babayev; N. Qardaşxanova // Azərbaycan.- 2023,-19 iyul.- s.9.
2. Cəfərli, Elman. Region Ermənistanın ekoloji terroru ilə üz-üzədir / E. Cəfərli; Ç. Ramazanlı; P. Vəliyeva; N. Qardaşxanova // Azərbaycan.- 2023.- 13 iyul.- s.10.
3. Alioğlu, Salman. Erməni vəhşiləri Qarabağın və Şərqi Zəngəzurun təbiətinə qəsd ediblər . // Respublika.- 2022.- 2 avqust.- s.4.
4. Qarayeva, Sevinc. Ekoloji terrora məruz qalan çaylarımız : İşğalçı Ermənistanın su ehtiyatlarımıza vurduğu zərərin qiymətləndirilməsi və aradan qaldırılması üçün davamlı iş aparılır // 525-ci qəzet.- 2022.- 5may.- s.14.
5. Kərimov, Vüqar. İşğaldan azad olunmuş ərazilərdə ekoloji terror və böyük qayıdışın ekoloji aspektləri // Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bu günü və gələcəyi mövzusunda konfransın proqramı və materialları , Azərbaycan Milli Elmlər Akademiyası.- 2021.- 20-21 may.- s.25.
6. Hacıbalayev, Elnur. Ekoloji terror Araz çayına Ermənistan ərazisindən il ərzində 350 milyon kubmetr təhlükəli mənşəli sular axıdılır // Azərbaycan.- 2005, - 7 dekabr. - s.6.


**E-mail:** akbarietmp@gmail.com

**Redaksiyaya daxil olub:** 02. 07.2024

*UOT 37.0*

***Инара Самидали гызы Джафарова***
*преподаватель Азербайджанского Государственного*
*Педагогического Колледжа при Азербайджанском Государственном*
*Педагогическом Университете*
*https://orcid.org/0000-0001-5181-9946*
*https://doi.org/10.69682/arti.2024.91(5).13-16*

# «ГОД СОЛИДАРНОСТИ ЗА ЗЕЛЕНЫЙ МИР» — РЕЗУЛЬТАТ ВЕЛИКОГО ПОЛИТИЧЕСКОГО КУРСА НЕЗАМЕНИМОГО ЛИДЕРА

***İnarə Səmidəli qızı Cəfərova***
*Azərbaycan Dövlət Pedaqoji*
*Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji*
*Kollecinin müəllimi*

# “YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ” ƏVƏZOLUNMAZ LİDERİN BÖYÜK SİYASİ KURSUNUN NƏTİCƏSİDİR

***Inara Samidali Jafarova***
*teacher of the Azerbaijan State*
*Pedagogical College under the Azerbaijan State*
*Pedagogical University*

# "THE YEAR OF SOLIDARITY FOR A GREEN WORLD" IS THE RESULT OF A GREAT POLITICAL COURSE OF AN IRREPLACEABLE LEADER

**Аннотация.** Статья посвящена актуальному вопросу о проблемах экологии, которые всегда находились во внимании Великого Лидера. Основной целью реализуемой в Азербайджане экологической политики является эффективное использование природных ресурсов для удовлетворения потребностей нынешнего и будущих поколений. Последовательные действия и работы в этой области дали толчок к достижению новых успехов в области экологии и охраны окружающей среды.
***Ключевые слова:*** *экология, зеленый мир, природные ресурсы, сотрудничество, человек*

**Xülasə.** Məqalə Ulu Öndərin daim diqqətində olan ekoloji problemin aktual məsələlərinə həsr olunub. Azərbaycanda həyata keçirilən ekoloji siyasətin əsas məqsədi təbii sərvətlərdən indiki və gələcək nəsillərin ehtiyaclarını ödəmək üçün səmərəli istifadə etməkdir. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər və görülən işlər ekologiya və ətraf mühitin mühafizəsi sahəsində yeni uğurların əldə olunmasına təkan verib.
***Açar sözlər:*** *ekologiya, yaşıl dünya, təbii ehtiyatlar, əməkdaşlıq, insan*

**Abstract.** The article is devoted to the pressing issue of environmental problems that have always been in the attention of the great leader. The main goal of the environmental policy implemented in Azerbaijan is the efficient use of natural resources to meet the needs of current and future generations. Consistent actions and work in this area have given impetus to achieving new successes in the field of ecology and environmental protection.
***Keywords:*** *ecology, green world, natural resources, cooperation, people*

Обеспечение права граждан жить в здоровой окружающей среде и эффективно использовать природные ресурсы является важной составляющей проводимых в стране социальных реформ. В Азербайджане деятельность по охране окружающей среды и решению экологических проблем стала более интенсивной, чем в прошлые года.

Есть лидеры, которые творят национальную историю. Гейдар Алиев – лидер, создавший современную историю Азербайджана. История помнит его как настоящую легенду своего времени, сильного главу государства, самоотверженного человека и редкого человека, способного взять на себя сложную историческую задачу государственного строительства. Гейдар Алиев придавал особое значение природе Азербайджана, считал необходимым сохранить ее чистую целостность [1]. В годы, когда он возглавлял Азербайджан, большое внимание уделялось вопросам экологической стабильности и охраны окружающей среды, благоустройству и строительным работам в регионах и столице. В этот период под руководством общенационального лидера Гейдара Алиева были приняты важные решения, касающиеся экологических проблем, общественной ориентации, благоустройства земель. Руководствуясь, рекомендациями общенационального лидера, наше государство успешно продолжает свою деятельность в направлении защиты и восстановления богатых природных ресурсов Азербайджана. С этой целью воплощаются в жизнь столь же важные проекты, а также реализуются просветительские мероприятия по привлечению внимания общественности страны, местных и зарубежных организаций к решению экологических проблем. В продолжение этих работ 2010 год был объявлен в Азербайджане «Годом экологии». Под руководством Президента Ильхама Алиева в стране проводятся важные работы в направлении решения экологических проблем, национальных программ устойчивого социального развития. Для улучшения экологической ситуации приняты меры по экологическому развитию и восстановлению лесов.

Развитие промышленности и достижения научно-технического прогресса приводят к созданию новых инфраструктур и открытию рабочих мест. Это означает, что любое отношение к решению экологической проблемы является не только естественным, но и имеет политическое и идеологическое значение. Очень важно изучать современную экологическую ситуацию с точки зрения анализа социальных процессов, а также всего человечества. В связи с этим проект «Посади дерево!» играет важную роль. В рамках проекта, реализованного по инициативе Мехрибан Алиевой, президента Фонда Гейдара Алиева, и первого вице-президента Азербайджанской Республики, были озеленены около сотни гектаров земель. А также под руководством вице-президента Фонда Гейдара Алиева Лейлы Алиевой в рамках кампании «Международный Диалог и Защита Окружающей Среды» - IDEA проводится большая работа в области охраны окружающей среды. Для повышения эффективности природоохранных мероприятий необходимо создавать координацию среди молодежи, проводить просветительскую работу. На современном этапе большое значение имеет издание наглядных ресурсов по охране окружающей среды. Необходимо подготовить учебные материалы, опубликовать результаты научных исследований, проводимых в этой области, издавать массовую научную литературу. Важно проводить научные конференции, посвященный экологическим проблемам для обмена опытом и новыми экологическими идеями. Принимаются меры по улучшению экологической ситуации в крупных городах республики, особенно в Баку, Гяндже и Сумгаите. В контексте современных проблем, стоящих перед человечеством, искусственный интеллект предупреждает нас о возможных сценариях будущего. Принимая во внимание текущие тенденции, такие как рост населения, промышленное развитие и выбросы вредных веществ, прогнозы показывают, что существуют серьезные угрозы существованию всего человечества до 2050 года. Одной из глобальных проблем, волнующих сегодня мир, является изменение климата. Изменение климата и его влияние на живой мир все больше беспокоят мировое сообщество. Наша страна не осталась в стороне от влияния глобального изменения климата. Сельское хозяйство, водные ресурсы, лесное хозяйство, туризм, сектор здравоохранения и прибрежные зоны уязвимы к изменению климата в Азербайджане. В целях повышения внимания к борьбе с этой проблемой и

укрепления международной солидарности Президент Азербайджанской Республики Ильхам Алиев 25 декабря 2023 подписал Указ об объявлении 2024-го «Годом солидарности во имя зеленого мира». Этот указ еще раз доказывает, что Азербайджан входит в число первых стран, присоединившихся к глобальным инициативам. Решение принято в целях усиления борьбы с климатическими изменениями. В указе отмечается, что один из пяти национальных приоритетов социально-экономического развития Азербайджана до 2030 года определен как «Страна чистой окружающей среды и зеленого роста» [3]. Ведется работа по обеспечению эффективного использования источников энергии. В «Год солидарности за зеленый мир» освобожденные Карабах и Восточный Зангезур, а также Нахичеванская Автономная Республика были объявлены зелеными энергетическими зонами. Одним из важных вопросов широкомасштабного процесса восстановления и реконструкции, осуществляемого на освобожденных территориях, является охрана окружающей среды, восстановление богатых лесов, подвергшихся вандализму и варварству врага. За годы независимости произошли коренные изменения в сфере охраны экологического баланса и охраны окружающей среды в нашей стране, охраны природных ресурсов, в том числе полезных ископаемых, незаменимых природных благ для жизни человека, таких как вода, земля, воздух, лесные ресурсы и живой мир всегда были приоритетными вопросами в этой области. Основной целью реализуемой в Азербайджане экологической политики является эффективное использование природных ресурсов для удовлетворения потребностей нынешнего и будущих поколений. Последовательные действия и работы в этой области дали толчок к достижению новых успехов в области экологии и охраны окружающей среды.

Азербайджан является страной, обладающей большими запасами нефти и природного газа. Однако наша страна укрепляет свои позиции в освоении альтернативных энергетических ресурсов. По последним данным, в Азербайджане вырабатывается электроэнергия из возобновляемых источников. Общий объем производства электроэнергии составляет 1688 мегаватт или это около 20 процентов от общей мощности, а к 2030 году планируется увеличить этот показатель до 30 процентов. При этом Азербайджан увеличивает производство ветровой и солнечной энергии и рассматривает возможность экспорта 80 процентов этого энергоресурса. Согласно подписанным соглашениям и меморандумам о взаимопонимании, к 2030 году Азербайджан планирует производить до 5 тысяч мегаватт, т.е. 5 гигаватт солнечной и ветровой энергии. В Азербайджане также рассматривается проект создания подводного кабеля длиной 1100 км, который будет проложен по дну Черного моря в качестве основного канала подачи «зеленой» электроэнергии. Предполагается, что такая «подводная линия электропередачи» обеспечит доставку азербайджанской электроэнергии из Грузии в Румынию и может быть построена в течение 3-4 лет. Следует отметить, что подписан Меморандум о взаимопонимании по созданию Черноморского подводного кабеля, был подписан в Бухаресте 17 декабря 2022 года. Благодаря этому соглашению будут проведены работы по прокладке кабеля для подачи «зеленой» электроэнергии по дну Черного моря, что внесет ценный вклад в укрепление энергетической безопасности Европы. Этот маршрут, под которым будет пониматься. «Зеленый энергетический коридор» XXI века предусматривает передачу 3-4 ГВт зеленой энергии, благодаря политике Каспийский бассейн становится привлекательным центром сотрудничества для азиатских и европейских стран. безопасность стала одним из важнейших вопросов мировой повестки дня, роль Азербайджана, обладающего богатыми запасами нефти и газа, диверсифицированными транспортными маршрутами и имеющего репутацию надежного партнера, в развитии «зеленой энергетики» становится незаменимой. Кроме того, перспективы развития альтернативной энергетической базы в Азербайджане открывают потенциальные возможности для реализации различных проектов в области ветровой и солнечной энергетики, гидроэнергетики и

других направлений повестки «зеленой энергетики» для многих компаний, обладающих соответствующей компетенцией. В то же время общее изменение, происходящее в мировых энергетических базах, увеличивает необходимость совместного поиска путей стабилизации и обеспечения энергетической безопасности. В этом смысле Азербайджан становится глобальной и уникальной площадкой, открывающей возможности для детального обмена идеями и сотрудничества. COP29 представляет именно такую возможность, а участие мировых лидеров, государственных чиновников, учёных, неправительственных организаций и других заинтересованных сторон в этом престижном мероприятии, которое является показателем уважения и доверия международного сообщества к Азербайджану.

**Актуальность статьи.** Актуальность статьи заключается в решении современных проблем, стоящих перед человечеством, искусственный интеллект предупреждает нас о возможных сценариях будущего. Принимая во внимание текущие тенденции, такие как рост населения, промышленное развитие и выбросы вредных веществ, прогнозы показывают, что существуют серьезные угрозы существованию всего человечества.

**Научная новизна статьи.** Одной из глобальных проблем, волнующих сегодня мир, является изменение климата. Изменение климата и его влияние на живой мир все больше беспокоят мировое сообщество. Наша страна не осталась в стороне от влияния глобального изменения климата. Сельское хозяйство, водные ресурсы, лесное хозяйство, туризм, сектор здравоохранения и прибрежные зоны уязвимы к изменению климата в Азербайджане.

**Практическая значимость статьи.** Для повышения эффективности природоохранных мероприятий необходимо создавать координацию среди молодежи, проводить просветительскую работу. Необходимо готовить учебные материалы, опубликовать результаты научных исследований, проводимых в этой области, издавать массовую научную литературу. Важно проводить научные конференции посвященный экологическим проблемам для обмена опытом и новыми экологическими идеями.

**Литература:**


1. Распоряжение Президента Азербайджанской Республики Ильхама Алиева об объявлении 2024-года «Годом солидарности во имя зеленого мира» 25 декабря, 2023. https://president.az/ru/articles/view/62737
2. Гейдар Алиев и культура. В 3-х томах (Том I). -Баку: Нурлан, -2008, -150 с.
3. Распоряжение Президента Азербайджанской Республики об утверждении «Национальных приоритетов социально-экономического развития: Азербайджан 2030» 02 февраля 2021. https://president.az/ru/articles/view/62737


**E-mail:** inara-asadova@mail.ru
**Redaksiyaya daxil olub:** 24.09.2024.

*UOT 37.0*

***Kifayət Rəşid qızı Məmmədova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*Məktəbəqədər təhsilin proqramları şöbəsinin baş mütəxəssisi*
*https://orcid.org/0000-0003-1360-5909*
*https://doi.org/10.69682/arti.2024.91(5).17-21*

# “YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ” İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN TƏDBİRLƏRİN MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN DAVRANIŞ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASINA TƏSİRİ

***Кифаят Рашид гызы Мамедова***
*главный специалист отдела программ дошкольного образования*
*Института Образования Азербайджанской Республики*

# ВЛИЯНИЕ МЕРОПРИЯТИЙ СОЛИДАРНОСТИ ВО ИМЯ ЗЕЛЕНОГО МИРА НА ФОРМИРОВАНИЕ КУЛЬТУРЫ ПОВЕДЕНИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Kifayat Rashid Mammadova***
*senior specialist of the department of Preschool education programs*
*at the Institute of Education of the Republic of Azerbaijan*

# THE IMPACT OF EVENTS HELD IN CONNECTION WITH “THE YEAR OF SOLIDARITY FOR A GREEN WORLD” ON THE FORMATION OF BEHAVIORAL CULTURE IN PRESCHOOL CHILDREN

**Xülasə.** Məqalədə məktəbəqədər yaşlı uşaqların canlı və cansız təbiətə qarşı davranışının, ekoloji mədəniyyətinin formalaşmasına təsir edən amillərdən, ekoloji mədəniyyətin xüsusiyyətlərindən danışılır. Bununla bağlı olaraq məqalədə Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar respublikamızın bir sıra məktəbəqədər təhsil müəssisələrində keçirilən layihə və tədbirlərin uşaqlarda təbiəti qorumaq, ona qayğı və məhəbbətlə yanaşmaq hissinin, bacarıqlarının formalaşdırılması haqqında ətraflı məlumat verilir. Qeyd etmək lazımdır ki, məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimlərinin respublikamızda keçirilən bu kimi tədbirlərin məzmun və strukturundan faydalanaraq, şəbəkəli şəkildə fəaliyyət göstərmələri, müxtəlif fəaliyyət növləri zamanı tətbiq etdikləri praktik nümunələr, həmçinin valideynləri də bu işə cəlb etmələri uşaqları prosesin aktiv iştirakçısına çevirərək, onlarda canlı və cansız təbiətə qayğı göstərmək, yaşıllığı qorumaq, onlara qulluq etmək və s. kimi etik bacarıqların formalaşması və inkişafına zəmin yaradır.
***Açar sözlər:*** *davranış mədəniyyəti, məktəbəqədər yaşlı uşaq, inkişaf, tərbiyə, təlim, valideyn, tərbiyəçi-müəllim, yaşıl dünya, ekologiya, təbiətin qorunması, formalaşdırma, tədbirlər.*

**Аннотация.** В статье повествуется о факторах, влияющих на формирование поведения дошкольников по отношению к живой и неживой природе, экологической культуре, особенностям экологической культуры. В связи с объявлением 2024 года «Годом солидарности зеленого мира» в Азербайджанской Республике, в статье представлена подробная информация о формировании чувства бережного отношения и любви к природе, а также освящены проекты и мероприятия, проводимые в ряде дошкольных образовательных учреждений нашей республики. Следует отметить, что воспитатели-учителя дошкольных образовательных учреждений извлекают пользу из содержания и структуры подобных мероприятий, проводимых в нашей республике и действующих в сетевом режиме, практических примеров, которые они применяют в ходе различных видов деятельности, а также вовлечение родителей в эту работу, превращает детей в активных участников процесса.
***Ключевые слова*:** *культура поведения, дошкольник, развитие, воспитание, обучение, родитель, воспитатель-учитель, зеленый мир, экология, охрана природы, формирование, мероприятия.*

*Kifayət Rəşid qızı Məmmədov*

**Abstract.** The article talks about the factors influencing the formation of preschoolers' behavior towards living and inanimate nature, ecological culture, and the characteristics of ecological culture. In this regard, in connection with the announcement of 2024 as the "Year of Green World Solidarity" in the Republic of Azerbaijan, the article provides detailed information on the formation of skills and feelings of nature conservation, respectful attitude and love for it, as well as projects and events held in a number of preschool educational institutions of our republic. It should be noted that educators and teachers of preschool educational institutions benefit from the content and structure of such events held in our republic and operating in a network mode, practical examples that they apply in the course of various activities, as well as the involvement of parents in this work, turns children into active participants in the process, and in them lives and cares for inanimate nature, protects greenery, cares for it, etc. creates the basis for the formation and development of ethical skills.

***Keywords*:** *culture of behavior, preschooler, development, education, training, parent, educator-teacher, green world, ecology, nature conservation, formation, events.*

Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyəti onların ətrafdakılarla münasibətlərində nümayiş etdirdikləri xeyirxahlıq, dürüstlük, qayğıkeşlik, ədalətlilik, dostluq, yoldaşlıq, sədaqətlilik, tolerantlıq və s. kimi əxlaqi keyfiyyətlərlə təzahür edir. Bu kimi əxlaqi keyfiyyətlərin hələ kiçik yaşlardan başlayaraq uşaqların davranışında formalaşdırılması valideyn və tərbiyəçi-müəllimlərin qarşısında duran mühüm vəzifələrdəndir. Valideyn və tərbiyəçi-müəllimlərin müxtəlif fəaliyyət növlərinin təşkili zamanı bu kimi əxlaqi dəyərlərin uşaqların davranışlarına çevrilməsinə nail olmaları uşaqlarda empatiya hissinin formalaşmasına zəmin yaradır. Bu da öz növbəsində uşaqların ətrafdakılarla ünsiyyətini etik qaydalara uyğun qurmalarına təkan verir.

Məktəbəqədər yaşlı uşaqların davranışını əhatə edən sanitar-gigiyenik vərdişlər, qidalanma, ünsiyyət, ekoloji mədəniyyət və s. kimi komponentlər onların fəaliyyətləri zamanı inteqrativlik təşkil edir. Davranış komponentlərinin inteqrativliyi uşaqların ətraf mühitə qarşı sosial münasibətləri, mədəni-gigiyenik qaydalara əməl etmələri, qidalanmaları və s. zamanı sudan, meyvədən və digər təbiət nemətlərindən istifadə etmələri, əmək fəaliyyəti zamanı canlı və cansız təbiətə qulluq etmələri, onları qorumaları və s. ilə əks olunur. Sadalanan komponentlərin inteqrativliyi uşaqların təbiətə qarşı etik davranışla bağlı yiyələndikləri biliklərin onların bacarıqlarında möhkəmlənməsinə zəmin yaradır.

Məktəbəqədər yaşlı uşaqlarda təbiətə qarşı davranış bacarıqlarının formalaşdırılması və inkişafı prosesində davranış mədəniyyətinin bütün komponentlərinin, xüsusən də ekoloji mədəniyyətin xüsusi rolu vardır. Ekoloji mədəniyyətlə bağlı Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində deyilir: "I. Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır; III. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz" [1]. Təbiətin qorunmasının dövlət tərəfindən daim mühüm problemlərdən biri kimi dəyərləndirilməsi məktəbəqədər yaş dövrlərindən başlayaraq uşaqlarda elementar ekoloji bilik və bacarıqların formalaşdırılmasını, onlarla bu istiqamətdə rəngarəng fəaliyyətlərin təşkilini zəruriləşdirir. Qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən olunması məktəbəqədər yaşlı uşaqların ətraf aləmə, canlı və cansız təbiətə qarşı davranış mədəniyyətinin inkişaf etdirilməsi istiqamətində valideyn və tərbiyəçi-müəllimlərin apardıqları işlərə böyük təkandır [2]. Məktəbəqədər yaş dövrlərindən başlayaraq "Ekoloji mədəniyyətin inkişaf etdirilməsi istiqamətində uşaqlarla təşkil olunan fəaliyyətlər "ekoloji təhsil" adlanır. Bu fəaliyyətlər uşaqları ekoloji biliklərə yiyələnməyə, eləcə də ətraf mühitə qayğı göstəməyə, təbii ehtiyatlardan səmərəli istifadə etməyə təşviq edir [3, s. 1]. Ekoloji təhsil "*ekoloji maarifləndirmə və ekoloji davranış"* istiqamətlərində inkişaf etdirilir. Məktəbəqədər təhsil müəssisələrində müxtəlif fəaliyyət növlərində, xüsusən də Ətraf aləmlə tanışlıq və nitq inkişafı məşğələsində uşaqlara verilən ekoloji biliklər, onlarda formalaşdırılan ekoloji şüur bu istiqamətdə aparılan maarifləndirmə işinin əsas göstəriciləridir

[4, s. 22]. Uşaqların şüurlarındakı elementar ekoloji bilikləri praktik iş prosesinə tətbiq etmələri onların ekoloji bacarıqlarını formalaşdırır və bunlar zaman keçdikcə davranışlarında möhkəmlənir.

Aparılan araşdırmalara əsasən respublikamızın və dünyanın bir sıra tədqiqatçıları məktəbəqədər yaş dövrlərindən başlayaraq ekoloji mədəniyyətin inkişaf etdirilməsinin uşaqların təbiətə olan münasibətinə böyük təsir göstərdiyini qeyd edirlər. Bununla bağlı prof. AM.. Həsənov qeyd edir: "Ekologiya ilə bağlı əksər sənədlərdə ətraf mühitin qorunması və ekoloji tərbiyə məsələlərinin məktəbəqədər dövrdən başlayaraq həyata keçirilməsinin vacibliyi öz əksini tapır. Bu dövrdən başlayaraq uşaqlara təbiəti qorumaq, onun sərvətlərindən səmərəli istifadə etmək işində məsuliyyət hissi aşılanmasa, onlar bunu aydın dərk etməsələr, ətraf mühitin qorunmasında fəal rol oynaya bilməzlər" [5, **s.** 271]. A.M. Həsənov ekoloji tərbiyənin uşaq bağçalarında bir sıra konkret vəzifələrin həllinə xidmət etdiyini vurğulayaraq, həmin vəzifələri aşağıdakı ardıcıllıqla qeyd edir:

"1. Ekoloji tərbiyə uşaqlarda təbiətə, ətraf mühitə məhəbbət və rəğbət hissi yaratmalı, onları yaş və anlaq səviyyəsinə uyğun təbiətin mühafizəsində durmağa hazırılamalıdır.

2. Ekoloji tərbiyə uşaqlarda ekoloji baxışların və mühakimənin yaradılmasına kömək göstərməlidir.

3. Ekoloji tərbiyə bağça yaşlı uşaqları ekologiyanın müxtəlif sahələri üzrə müvafiq bilik, bacarıq və vərdişlərlə silahlandlrmalıdır. Ətraf mühiti dərindən dərk etmək üçün onun haqqında müvafiq təsəvvürlərə, biliklərə malik olmalıdır. Sadalanan bü vəzifələr ayrı-ayrılıqda deyil, bir-biri ilə qarşılıqlı əlaqədə həyata keçirilməlidir" [5, s. 272-273].

Xarici mənbələrə əsasən tədqiqatçı alimlərdən Y. Bauer, M.İ. Kuryk, N.V. Lysenko, Z.P. Plokhii və başqaları da ekoloji mədəniyyətin əsaslarının formalaşmasına kiçik yaşlardan başlamağın böyük əhəmiyyət daşıdığını vurğulayırlar. "M.Y. Bauer "Ekoloji təhsilin metodologiyası" adlı monoqrafiyasında uşaqlarda ekoloji mədəniyyətin inkişafı üçün xarakterik olan ən mühüm xüsusiyyətləri aşağıdakı ardıcıllıqla ayıraraq, bu xüsusiyyətlərin həm özümüzdə, həm də uşaqlarda formalaşdırmağın vacibliyini qeyd edir:

- uşaqlarda təbiətə müsbət münasibətlə bağlı dünyagörüşün formalaşdırılması və bunun dəyəryönümlü olması;

- uşaqda ekoloji düşüncə tərzinin, təbiətə və öz sağlamlığına müvafiq münasibətin yaradılması;

- ekoloji problemlərin həlli bacarıqlarının və təcrübələrin formalaşdırılması;

- ətraf mühitin mühafizəsi tədbirlərində birbaşa iştirakın təmin olunması;

- təbiəti dəyişdirən insan fəaliyyətinin müsbət və mənfi nəticələrinin təhlil olunması" [6, s. 4, 84].

Uşaqlarda davranışın digər komponentləri ilə yanaşı, ekoloji komponentin formalaşmasına məktəbəqədər təhsil müəssisələrində yaradılmış inkişafetdirici mühitin də böyük təsiri vardır. Bununla bağlı A. Boquş və N. Havriş tədqiqatlarında vurğulayırlar: "Ekoloji mədəniyyətin inkişafı üçün məktəbəqədər müəssisədə uşaqların təbii mühitdə fəal inkişafına kömək edən məkan yaradılmalı, onun daxilində müxtəlif fəaliyyət növləri təşkil olunmalıdır [7, s. 101]. Tədqiqatçılardan N. Yarışeva da "Uşaqların təbiətlə tanışlıq metodikası" adlı vəsaitində məktəbəqədər yaşlı uşaqların təbiətlə tanışlığı, ətraf mühitin mühafizəsi ilə bağlı müxtəlif fəaliyyət növlərinin rəngarəng yaradıcılıq işləri, innovativ texnologiyalarla təşkilinə geniş yer vermişdir [8, s. 92].

Son illər ümumbəşəri problemə çevrilmiş ekoloji tarazlığın pozulması onun qorunmasını, havanın, suyun, torpağın çirklənməsinin qarşısının alınmasını, yaşıllığın artırılmasını və s. əsas vəzifələrdən biri kimi qarşıya qoyur. Problemlə bağlı "Beynəlxalq aləmdə ətraf mühit komponentlərinin mühafizəsi, mövcud ekoloji problemlərin həlli istiqamətində mütərəqqi metodların tətbiqi həyata keçirilir" [9]. Hazırda respublikamızda da 2024-cü ilin "*Yaşıl dünya naminə həmrəylik ili"* elan edilməsi ilə əlaqədar olaraq xeyli işlər görülür. Bununla bağlı məktəbəqədər təhsil müəssisələrində keçirilən genişmiqyaslı tədbirlər uşaqlarda təbiəti qorumaq, ona qayğı ilə yanaşmaq hissinin inkişafına böyük təsir göstərir. Bu tədbirlərə cari ilin əvvəlindən Bakı şəhər 198 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçi-müəllimi Vəsilə Bayramovanın hazırladığı "1. Hədiyyələr hazırlayaq", "2. Novruz səmənisi", "3.Meyvə ağacları əkək", "4.Meyvə salatı hazırlayaq", "5. Təmizlik-abadlıqdır", "6. Su olmasa həyat olamaz", "7. Exoparka ekskur-

siya" mövzularında 7 istiqamətdə təşkil olunmuş "Məni yaşıl dünyada böyüt" layihəsinin məktəbəhazırlıq (5-6 yaş) qruplarında tətbiqinə başlanılmış və layihəyə Şamaxı şəhəri M.Ə. Sabir adına körpələr evi-uşaq bağçası, Lənkəran şəhər 17 nömrəli, Bakı şəhər Xətai rayonu 55 nömrəli, Qobustan, Şəki, Ağsu və s., ümumilikdə paytaxt və regionların 53-dən çox şəhər və kənd körpələr evi-uşaq bağçaları və uşaq bağçaları şəbəkəli şəkildə qoşulmuşlar. Layihənin tətbiqi zamanı yuxarıda sadalanan 1-ci mövzu üzrə – köhnəlmiş, istifadəyə yararsız əşyalara gözəllik qataraq, uşaqlarla birgə onlardan lazımlı əşyalar, məsələn, sınmış bankadan güldan, plastik su qablarından maraqlı əl işləri, hədiyyələr hazırlanmış, 2-ci mövzu üzrə - səməni qoyulması barədə məlumat verilmiş, səməni qoyulması işinə başlanılmış, uşaqlarla birgə ona davamlı olaraq qulluq edilmiş, 3-cü mövzu üzrə - bağçanın həyətindəki ağaclar müşahidə edilərək, yaşıllığı qorumağın əhəmiyyəti haqqında məlumat verilməsi, hər həftə ağacları sulayaraq, qulluq edilməsi, 4-cü mövzu üzrə - meyvələrdən müxtəlif formalı salatlar hazırlanması, 5-ci mövzu üzrə – həyətyani sahəni təmizləmək, ağacların dibinin yumşaldılması, gövdələrinin əhənglənməsi, quşların, pişiklərini yemlənməsi işləri aparılmış, 6-cı mövzu üzrə - suyu qənaətlə işlətməyin həyatımız üçün böyük əhəmiyyət daşıması, susuz həyatın mümkün olmaması haqqında söhbətlər aparılmış və 7-ci mövzu üzrə isə Exoparka ekskursiya edərək, yaşıl zonanı gəzmək və bitkilər və onlara qulluq haqqında uşaqların elementar bilik və bacarıqlara yiyələnmələri üzrə işlər aparılmışdır.

Digər bir layihəyə isə "Ağ Yelkən Gənclik" uşaq bağçasının təsisçisi Yuliya Kərimovanın və bağçanın icraçı-direktoru Viktoriya Mustafayevanın təşəbbüsü ilə başlanılmışdır. "Yaşıl Bağça" erkən yaş dövründə uşaqlarda ekoloji bilik və bacarıqların artırılması" mövzusunda olan bu layihə çərçivəsində cari ilin oktyabr ayından başlayaraq "4 oktyabr – Beynəlxalq heyvanların müdafiəsi günü", "21 noyabr – Beynəlxalq ağac günü", "22 aprel – Beynəlxalq Yer kürəsi günü", "5 iyun – Ümumdünya ətraf mühiti günü" mövzularının tətbiq olunması üzrə işlər aparılır. Layihənin tətbiqi 30-dan çox körpələr evi-uşaq bağçalarının tərbiyəçi-müəllimlərinin, uşaqların, eyni zamanda, valideynlərin ekoloji problemlər və onların həlli yolları barədə məlumatlarının artırılmasına xidmət edir. "1. Uşaqlarda ekoloji davranışın inkişafı" və "2. Nağıl və hekayələrin yazılması" istiqamətlərini əhatə edən layihəyə cəlb olunmuş məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimlərinin ekoloji mədəniyyətlə bağlı yazdıqları hekayə və nağılların cari ilin sonunadək kitab formasında nəşr olunması üzrə işlər aparılır.

Bakı şəhər Sabunçu rayonunun Zabrat qəsəbəsindəki 197, 282 və s. körpələr evi-uşaq bağçalarında da təbiətin qorunması istiqamətində bir sıra tədbirlər həyata keçirilmiş, suyun, havanın, torpağın çirklənməkdən qorunması, yaşıllığın artırılması və s. barədə uşaqlarla söhbətlər aparılmış, bağçanın həyətyanı sahəsində işlər görülmüşdür.

Ekologiyanın qorunması ilə bağlı Sumqayıt şəhər A. Şaiq adına 39 nömrəli körpələr evi-uşaq bağçasında da bu istiqamətdə tədbirlər təşkil edilmiş, bağçanın müdiri Musayeva Esmira xanımın təşəbbüsü ilə "Təbiəti araşdırırıq" layihəsinə başlanılmışdır. Layihə çərçivəsində "Su həyat mənbəyidir", "Suya qənaət edək", "Gül və ağac əkmə", "Quşları qoruyaq" və "Ekoloji guşənin hazırlanması" mövzuları bağçanın böyük (4-5 yaş) və məktəbəhazırlıq (5-6 yaş) qruplarında tətbiq olunur və digər uşaq bağçaları ilə də bu layihə əsasında şəbəkəli fəaliyyətlərin təşkil olunması istiqamətində işlər aparılır.

2024-cü ildə respublikamızın məktəbəqədər təhsil müəssisələrində bu kimi tədbirlərin təşkili uşaqlarda təbiətə qarşı məhəbbət və qayğı hissinin inkişafına əhəmiyyətli təsir göstərməklə, onlarda ekoloji səriştənin formalaşmasına zəmin yaradır. Bu kimi tədbirlərin təşkili, məşğələlərdə və digər fəaliyyət növləri zamanı bu istiqamətdə tətbiq olunan praktik işlər Məktəbəqədər təhsil proqramının (kurikulumun) 2. İdrakın inkişafı sahəsinin 4-5 və 5-6 yaş dövrlərini əhatə edən 2.1.3., 2.1.4., 2.1.5., 2.1.6 2.2.3 alt standartlarının reallaşması ilə uşaqlarda ekoloji mədəniyyətin formalaşmasına əlverişli şərait yaradır. Fəaliyyət zamanı bu alt standartların Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik inkişaf sahəsinin 1.1.4., 1.2.3., Estetik və yaradıcı inkişaf sahəsinin 3.1.2., 3.1.3., 3.1.4., 3.1.5., 4. və Sosial-emosional inkişaf sahəsinin 4.2.2., 4.2.3, 4.3.1 və s. alt standartları ilə inteqrativ şəkildə reallaşması

uşaqlarda davranışın ümumi komponentlərinin formalaşmasını və inkişafını təmin edir.

**Problemin aktuallığı.** Respublikamızda 2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması ilə bağlı ölkənin paytaxt və regionlarındakı uşaq bağçaları və körpələr evi-uşaq bağçalarında təşkil olunan tədbirlər uşaqların ekoloji mədəniyyətə yiyələnmələrində xüsusi əhəmiyyət kəsb edir. Bununla bağlı hazırlanmış layihələrin müxtəlif fəaliyyət növləri zamanı rəngarəng mövzularla təşkili uşaqlarda təbiətə məhəbbət, qayğı və s. bağlı bilik və bacarıqlar formalaşdıraraq, onlarda davranış mədəniyyətinin komponentlərinin inteqrativ şəkildə inkişafına təkan verir. Uşaqların təbiətin qorunması ilə bağlı yiyələndikləri bilikləri davamlı olaraq həm məktəbəqədər təhsil müəssisəsində, həm də ailədə praktikaya tətbiq etmələri, tərbiyəçi-müəllimlərin valideynlərlə bu istiqamətdə sistemli iş aparmaları etik meyarların uşaqların davranışında möhkəmlənərək, səriştəliliyə çevrilməsini təmin edir.

**Problemin elmi yeniliyi.** Məqalədə Respublikamızda 2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması ilə bağlı məktəbəqədər yaşlı uşaqların ekoloji bilik və bacarıqlara yiyələnmələrinə, davranış mədəniyyətinin inkişafına əhəmiyyətli təsir göstərən 5, yaxud 7 istiqamətdə müxtəlif mövzuları əhatə edən layihələrin məzmunu və tətbiqi məsələləri ümumiləşdirilir. 3-4 yaş (orta qrup), 4-5 yaş (böyük qrup) və 5-6 yaş (məktəbəhazırlıq qrupu) qruplarında tətbiq olunan bu layihələr uşaqları təbiətdəki tullantı materiallarından yararlı əşyalar hazırlamaq, quşlara yuva düzəltmək, yaşıllığı artırmaq və ona qulluq etmək, suya qənaət etmək, ekoloji guşə hazırlamaq, həyətyanı sahədə iməcilik etmək və s. fəaliyyətlərin iştirakçısına çevirir. Layihələr tərbiyəçi-müəllimlərlə valideynlərin, eyni zamanda, layihəyə cəlb olunmuş məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimlərinin bir-biri ilə qarşılıqlı əməkdaşlığını şəbəkəli şəkildə təşkil etmələrinə geniş şərait yaradır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə yer alan fikirlərdən, bəhs olunan layihələrin məzmunundan məktəbəqədər təhsil mütəxəssisləri, metodistlər, tərbiyəçi-müəllimlər, bu sahədə təhsil alan bakalavrlar, magistrantlar, tədqiqatçılar, valideynlər bəhrələnə bilərlər.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (30 mart 2009-cu il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, -2009, - 48 s.
2. Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // İ.H. Əliyev. – Bakı: 25 dekabr, 2023. https://president.az/az/articles/view/62737
3. Разенкова Д.Ф. Экологическая культура: социально-философские аспекты формирования: / Тема диссертации и автореферата по ВАК РФ 24.00.01, кандидат философских наук / - Москва, 2001. - 162 с.; (Экологическая культура: социально-философские аспекты формирования: Дис. … канд. филос. наук : 24.00.01.
4. O. Fushtei, I. Sarancha. Formation of environmental culture in preschool children // - Ukraine: Personality and Environmental Issues, - 2023. №2, - p. 21-25. https://www.researchgate.net/publication/372065461_FORMATION_OF_ENVIRONMENTAL_CULTURE_IN_PRESCHOOL_CHILDREN
5. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. / A.M. Həsənov. – Bakı: Nasir, - 2011. - 374 s.
6. Bauer M.Y. Methodology of Environmental Education. / M.Y. Bauer - Chernivtsi: Regional Education, - 2000). - 320 p.
7. Bogush A.M. Methods of Acquainting Children with the environment in a Preschool Educational Institution. Textbook for higher education institutions. / A.M. Bogush, N.V. Havrysh. - Kyiv: Slovo Publishing House, - 2008. - 408 p.
8. Yarysheva N.F. Methodology of Acquainting Children with Nature / N.F. Yarysheva. - Kyiv: Higher School, - 1993. - 324 p.
9. Qlobal ətraf mühit problemləri / Bakı: - 2024. https://eco.gov.az/az/ekoloji-siyaset/qlobale-etraf-muhit-problemleri


**E-mail:** k.memmedova@arti.edu.az
**Redaksiyaya daxil olub:** 01.10.2024.

# *AZƏRBAYCANIN TARİXİ MƏDƏNİYYƏT MƏRKƏZİ, QARABAĞIN BAŞ TACI – ŞUŞA*
# *ИСТОРИКО-КУЛЬТУРНЫЙ ЦЕНТР АЗЕРБАЙДЖАНА, ГЛАВНАЯ КОРОНА КАРАБАХА – ШУША*
# *THE HISTORICAL AND CULTURAL CENTER OF AZERBAIJAN, THE CROWN JEWEL OF KARABAKH – SHUSHA*

*UOT: 37.01*

**_Bibixanım Orucəli qızı İbadova_**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun şöbə müdiri,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*Əməkdar müəllim*
*https://orcid.org/0000-0002-1071-9399*
*https://doi.org/10.69682/arti.2024.91(5).22-26*

## AZƏRBAYCAN ƏDƏBİYYATINDA ŞUŞANIN TARİXİ ABİDƏLƏRİ

**_Бибиханум Оруджали гызы Ибадова_**
*заведующий отделом Института Образования Азербайджанской Республики,*
*доктор философии по педагогике, доцент*
*заслуженный учитель*

## ИСТОРИЧЕСКИЕ ПАМЯТНИКИ ШУШИ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

**_Bibikhanum Orujali Ibadova_**
*head of the department at the Institute of Education of the Republic of Azerbaijan,*
*doctor of philosophy in pedagogy, associate professor,*
*Honored teacher*

## HISTORICAL MONUMENTS OF SHUSHA IN AZERBAIJAN LITERATURE

**Xülasə**. Məqalədə Azərbaycanın füsunkar guşəsi olan Şuşanın yaranma tarixi, tarixi abidələri, misilsiz gözəlliklərinin təsviri, eləcə də müxtəlif illərdə işğalçıların hücumlarına məruz qalması faktlarının Azərbaycan ədəbiyyatında əks olunması məsələləri verilmişdir. Mövzu ilə bağlı müxtəlif janrlı əsərlər araşdırılmış, müəllifin fikirləri nümunələrlə əsaslandırılmışdır.
***Açar sözlər:*** *ədəbiyyat, tarixi abidələr, bulaqlar, işğal, zəfər*

**Аннотация.** В статье подчеркивается отражение в азербайджанской литературе очаровательного уголка Азербайджана, Шуши, истории ее создания, исторических памятников, описания ее несравненной красоты, а также фактов нападений на нее оккупантов в разные годы и т.д. Автор рассмотрел произведения различных жанров, относящиеся к теме, и обосновал свою точку зрения, приведя примеры из произведений.
***Ключевые слова:*** *литература, исторические памятники, родники, оккупация, победа*

**Abstract.** The article emphasizes the reflection in Azerbaijani literature of the charming corner of Azerbaijan, Shusha, the history of its creation, historical monuments, descriptions of its incomparable beauty, as well as facts of attacks on it by occupiers in different years, etc. The author reviewed works of various genres related to the topic and substantiated his point of view by giving examples from the works.
***Keywords:*** *literature, historical monuments, springs, occupation, victory*

Qayalar qaladır, Qalalar – qaya,
Bu yerlər tarixin daş səhifəsi,
Binalar ucadan baxar dünyaya,
Hər evin daşında bir əsrin səsi [7, s.3].

Azərbaycan ədəbiyyatı hər daşı, hər qayası tarix olan Şuşa haqqında yazılmış istər elmi-tarixi, istərsə də bədii əsərlərlə zəngindir. Bu əsərlərdə Şuşanın yaranma tarixi, onun inkişafı, misilsiz gözəlliyinin vəsfi, eləcə də müxtəlif illərdə işğalçıların hücumlarına məruz qalması və s. məsələlər əksini tapmışdır. Nümunə olaraq gətirilən bu şeir parçasında əsrlərin daş yaddaşında yaşayıb bina-bina ucalıb qalalaşan qədim yurd yerimizin əzəmətli görkəmi əksini tapmışdır.

Şuşa şəhərinin yaranma tarixi Mirzə Yusif Qarabağinin "Tarixi-Safi" əsərində: "...1166 [1752]-ci ildə Pənah xan xoş bir gündə Şuşa şəhərinin təməlini qoydu.... Şəhər cənub-qərbdən, şimal-şərqdən, həmçinin qərb və cənub tərəfdən piyada və qeyriləri üçün gediş-gəliş mümkün olmayan möhkəm hasar və təbii sıldırım qayalarla əhatə olunmuşdur" şəklində dəqiqliyi ilə verilmişdir [4, s.22].

Bu tarixi gerçəklik bədii sözün qüdrəti ilə dəfələrlə canlandırılmış və onun maddi-mənəvi dünyamızda nə dərəcədə tarixi əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılmışdır. Həmin tarixi fakt Azərbaycanın maarifpərvər şairi Həsənəli Qaradağlının "Qarabağın şəhəri" şeirində belə təsvir edilib:

*Bu şəhərin hüdudu şərq tərəf* ***Şüşü*** *çayı,*
*Var, belə qərb tərəf* ***Sarıbaba*** *yer deyilər,*
*Cənubu yenə* ***Şüşü****, bir də Daşaltı çayıdır,*
*Şimali* ***Xəlfəli*** *çay, belə olub sərhədlər* [6, s.33].

Araşdırma göstərir ki, yalnız çoğrafi mövqeyi deyil, onun bütün məhəllələri, memarlıq abidələri, can dərmanı olan sərin bulaqları görkəmli şair və yazıçılarımızın qələmi ilə geniş oxucu kütləsi üçün doğmalaşdırılmışdır.

Məsələn, 1871-ci ildə Xan qızı Natəvanın öz vəsaiti hesabına Şuşada yerləşən Xəlfəli dağından saxsı borularla şəhərə su çəkildi və iki böyük bulaq tikildi: "Xan qızı" və "Şor bulaq". "Xan qızı" bulağının çəkilişi barədə yazıçı-dramaturq İlyas Əfəndiyevin "Xurşudbanu Natəvan" pyesində də [1978] Natəvanın dilindən deyilir: *"Xurşidbanu. Tapşır, Şuşaya çəkdirdiyimiz bulağın mühəndisi Əbdürrəhim Talıbzadəni nahardan sonra mənim yanıma çağırsınlar* [3, s.190].

Həmçinin əsərdə Knyaz Xasayın *"Peterburqun, Parisin salonları üzümüzə açıq olduğu halda, axı, biz nə üçün Qalanı [Şuşanı-B.İ.] kəsdirib oturmuşuq" sualına cavab olaraq Xurşudbanu belə cavab verir: "Mən bu bulağı onlar üçün tikdirmişəm. Mən o bulağı qışın çovğununda yeddi-səkkiz kilometr piyada yol gedib, meşədən şirin su gətirən zəhmətkeş əhali üçün çəkdirmişəm".* [3, s.197].

Görkəmli şair Xəlil Rza Ulutürk "Şuşa səfəri" poemasında İsa bulağı, Qoşabulaq, Aydın bulağı, Bəylər bulağı, Buz bulaq, Səkili bulaq, Çömçə bulağı, Damcı bulağı, Bədəl bulağı, Dambulağı, Lilpər bulağı, Novlu bulaq, Şırşır bulağı, Armud bulağı, Hacı bulağı, Dərə bulağını "Şuşanın dirilik çeşməsi" adlandıraraq fikrini belə ümumiləşdirir:

*Biri daşdan çıxır, biri qayadan,*
*Hamısı ilgili, canbir, əlbirdir.*
*Üzdən ayrısa da, yerin altında,*
*Bütün bulaqların kökləri birdir* [6, s.502].

Eləcə də Ramiz Məmmədzadənin "Qarabağım", İsa Əvəzoğlunun "Şuşamızın zinətidir" şeirlərində Şuşa bulaqları böyük sevgi ilə vəsf edilir.

***"Şah bulaq"****dan içək bu gün,*
***"Çay bağça****"dan keçək bu gün,*
*Dincəlməyi seçək bu gün,*
*"****Xan bağı****"nı Qarabağın* [7, s.13].
***
***Sarıbab****a- cənnət yeri,*
***Turşsu*** *suyu can kövsəri,*
***İsa bulaq*** *– nazlı pəri*
*Şuşamızın şöhrətidir* [7,s.144].

Ədəbi əsərlərdə Şuşanın bu gün tarixi abidəyə çevrilən Qızıllı qaya, Qara qaya, Göy qaya, Ala qaya, Xəlfəli dərəsi, Mıxtökən dərə, Yusifcan gədiyi, Şimşəkvuran daş, Şuşa yaylası, Şotlanlı yaylağı, Keçili dağı, İsmayıl binəsi, Bəylər binəsi, Cıdır düzü böyük sevgi ilə vəsf olunmuşdur. Xalq şairi Səməd Vurğun "Qız qayası" şeirində Qarabağın səfalı guşələrindən İsa bulağı, Cıdır düzü, Çanaqqalanın gözəlliklərindən bəhs edir, Qız qayasına qalxaraq onun haqqında əfsanəni belə başlayır:

*Çıxmışam dağların göy yaxasına,*
*Doyunca baxmışam* ***Qız qayasına****.*
*Orda saqqalına yaş dama-dama,*
*Əfsanə söyləmiş bir qoca mənə...* [6, s.105]

Şuşanın tarixi yerlərindən sayılan Cıdır düzü, Topxana meşəsi, Xəzinə qayası poeziyamızda daha çox vəsf edilmişdir. Məsələn:

*__Topxana__dan baxıram mən dünyaya,*
*Başım üstdə __Cıdır düzü__ − bayrağım.*
*Bir örnəkdir bu gün Vətən dünyaya,*
*Sən dönməzsən, əyilməzsən torpağım*
[7,s.11].

Şuşa yalnız gözəlliklər, möhtəşəm abidələr yurdu deyil, həm də keşməkeşli tariximizin qanlı hadisələrinin şahidi olmuşdur. Xüsusilə 1905-ci ilin 16 avqust və 1906-cı ilin 12 iyulunda ermənilər tərəfindən törədilmiş faciələr C. Cabbarlının "1905-ci il" pyesində, M.S. Ordubadinin "Qanlı illər" əsərinin "Ağrılı Şuşa hadisələri. Yaxud avamlıq bəlası", "İkinci Şuşa faciəsi. Yaxud Qalaşçapovun hiyləsi" bölmələrində, Məhəmməd şah Qacarın Qarabağa hücumu Y.V. Çəmənzəminlinin "Qan içində", S. Vurğunun "Vaqif" pyesində, çar Rusiyası qoşunlarının Azərbaycana, o cümlədən Şuşaya gəlməsi İ. Əfəndiyevin "Hökmdar və qızı" pyesində əksini tapmışdır.

*"Şəhərlilər dəstə-dəstə Cıdır düzünə toplanıb, oradan __Topxananı__ başdan- başa tutmuş şah çadırlarına tamaşa edirdilər. Bəzən sakitlik olur, iki tərəf də dincəlməyə və ya yeməyə dalırdı. Bir də görürdün, top atışmaları başlandı, barıt tüstüsü ətrafı bürüdü. Bu atışmadan, təbii idi ki, heç bir nəticə çıxmayırdı. __Topxana__ ilə şəhərin arasında dərin bir uçurum var idi, bunun da dibindən __Daşaltı çayı__ axırdı. Oranı keçmək qətiyyən mümkün deyildi. Keçilsəydi belə sıldırım qayaları, şəhər barı və bürclərini almaq mümkün olan şeylərdən deyildi: on beş min igid gecə-gündüz şəhərin keşiyini çəkirdi.*

*Qala ilə Topxananın arasındakı keçidin ən dar yeri Xəzinə qayasının önü idi. Ağaməmməd şah bura plan tökdürüb, keçmək niyyətinə düşdüsə də, bir nəticə çıxmayacağını anlayıb vaz keçdi. Nəhayət, o acığa düşüb, İbrahim xanın yanına qasid vasitəsilə bir məktub göndərdi .Qasidin gözlərini bağlayıb, saraya gətirdilər. Məktubda yazılmışdı: "Fələyin mancanağı fitnə daşını sənin üstünə yağdırır, Sən də axmaqcasına şişənin [Şişə qalasının] içində gizlənmisən".... Vaqif məktubu alıb, bir də gözdən keçirdi, sonra arxasına yazdı: "Məni qoruyub saxlayan mən tanıdığımdırsa. İnanıram ki, o, Şişəni daşın içində də qoruyar"* [2, s. 635].

Tarix təkrar olunur. 1992-ci ildə Şuşanın ermənilər tərəfindən işğal olunması ədəbiyyatımızda yeni bir səhifə açdı: "Şuşa işğal dövründə". 28 ili əhatə edən həmin dövrdə qəlbi vətən eşqi ilə döyünən sənətkarlarımız bu sağalmaz nisgili, ağrı-acını əks etdirən yüzlərlə əsər yazdı. Bəxtiyar Vahabzadənin "Oxuma, bülbül", Cabir Novruzun "Şuşanın dağları başı dumanlı", İlyas Tapdığın "Şuşa oratoriyası", Günel Anarqızının "Şuşam", Zemfira Məhərrəmlinin "Sevgimi neylədin Daşaltı dərəsi", Pərvin Nurəliyevanın "Çarəsiz yalan", Nüşabə Məmmədlinin "Zəngulə", Ələmdar Quluzadənin "Bu qala bizim qala" əsərləri belələrindəndir. Demək olar ki, hər bir əsərdə Şuşanın tarixi yerləri xatırlanır, tarixi abidələrinin adı çəkilir.

*Bu bahar oxuma, bülbül, sən Allah!*
*Zülmətdir,*
*Yoluna şam tutanın yox,*
*__Şuşan__ ağlar qaldı, köçdü el-oba,*
*Şirin cəh-cəhinə dəm tutanın yox.*

*...Bu ilki bahardan bizə nə, vallah,*
*Gəlsə də, bu bahar bizimçün deyil.*
*Oxuma, oxuma, bülbül, sən Allah.*
*Açma, __xarı bülbül__, açma sən bu il* [6, s.333].

****

*Top atılar __"Topxana"__dan __"Daşaltı"da__ daşlar partlar,..*
*Şuşam geri alınmasa* [6, s.588].

****

*__Kirs__ dayanıb __Ziyarətlə__ yanaşı,*
*Sızıldayır hər qayası, hər daşı.*
*Zəfər çalsın ölüm-dirim savaşı*
*__Turşsu__ təki bir __yaylağın__ üstündə* [6, s.596].

****

*...Güllələbaran olub neçə min arzu,*
*Donub __"Xan qızı"nın bulağında__ su*
[6, s.604].

***

*__İsa bulağı__ da lap körpə kimi,*
*Ana laylasının həsrətin çəkir* [6, s.3].

****

*Bu da "__İsa bulağı"dır__...ilahi,*
*Çırpır ayna sinəsini daşlara...*
*Nədir suçu, nədir axı, günahı,*
*Qurumayır gözlərinin yaşları...* [6, s.3].

****

*__"Qırxqız yaylağı"__mız,*
*__Cıdır düzümüz__ ağlar.*

***Şuşa*** *bülbül haraylar,*
***Şuşa*** *Qədir soraqlar....*
***Şuşa*** *gözləyir bizi!* [6, s.670].
****
*Sıldırım qayalar, yollar dolayı,*
***"Ağzıyastı" kaha, Xanın sarayı.***
*Uca* ***"Qırxpilləkən", Daşaltı çayı,***
***Şəmilin tut bağı*** *yadıma düşdü.*

***"Səkili", "Alçalı", "Damcı", "Palçıqlı",***
***"Novlu", "Dərəbulaq", "Şırşır", "Çarıqlı".***
*Sıx meşə içində lap yaraşıqlı,*
*Gur* ***İsa bulağı*** *yadıma düşdü* [6, s.364].

Önəmli cəhət budur ki, bu əsərlərdə həsrətlə yanaşı, ümid də var. Hər kəs Şuşanın düşmən caynağından azad olunacağına inanır:

*Oğulların nərə çəkər!*
*Düşmənini qırar, tökər!*
*Yağıların bağrın sökər!*
*Azad olar lap tez Şuşam!*
*Ulu yurdum, ulu Şuşam!* [7, s.781]
********
*Gələcək tez bir zaman,*
*Çəkiləcək çən, duman.*
*Sancılacaq Şuşada*
*Zəfər bayrağım mənim,*
*Ay Qarabağım mənim!* [7, s.378]
***
*Vətən məhəbbəti, qoy bilsin hamı,*
*Ürəkdə sönməyən bir gur ocaqdır,*
*Bütün yurdumuzun zəfər bayramı,*
*Şuşadan, Şuşadan başlayacaqdır* [6, s. 567].

Həqiqətən də, Azərbaycan tarixinə 8 noyabr Zəfər Günü Şuşanın adı ilə yazıldı. Müzəffər Ordunun Ali Baş Komandanı prezident İlham Əliyevin 2020-ci ilin 8 noyabrında böyük sevinc, qürur hissi ilə söylədiyi "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" xəbəri 28 illik Şuşa həsrətinə son qoydu. Bu bənzərsiz hiss və duyğular milli qürurumuzun poeziyamızda təntənəsinə çevrildi:

*Anam Şuşa, nəhayət, ayrılıq sona çatdı,*
*Gözlərindən öpməyə-görüşməyə gəlmişəm!*
*"Dəmir yumruq" sahibi Ali Baş Komandanla,*
*Qəhrəmanlıq tarixin yazan ər oğullarla,*
*Canını səndən ötrü verən Şəhidlərinlə,*
*Düşmənin qabağında əyilməz Qazilərlə,*
*Duyğumu, sevincimi bölüşməyə gəlmişəm!*
[5, s. 142]

44 günlük Qarabağ müharibəsində dövlətlə xalqımızın birliyi, qəhrəman oğullarımızın şücaəti, vətənpərvərliyi yeni yaranan ədəbi əsərlərin leytmotivinə çevrildi. Əlbəttə, Şuşanın azadlığına gedən yol Qarabağımızın dilbər guşələrindən: Tərtər, Xankəndi, Ağdam, Füzuli, Ağdərə, Kəlbəcər, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın, Xocalı, Xocavənddən keçir.

Mirmehdi Ağaoğlu "Zəfərin izi ilə. Azad olunmuş ərazilərdən reportajlar toplusu" kitabında 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə səfəri zamanı gördüklərini qələmə almış, eləcə də Şuşanın Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Xan qızı Natəvanın sarayı, Seyidli məscidi, İsa bulağı, İkimərtəbəli karvansara, Şirin su hamamı, Mehmandarovların malikanəsi, Saatlı məscidi, Hacı Quluların malikanəsi və s. tarixi yerləri barədə ətraflı məlumat vermişdir [1].

Erməni vandalizmi tərəfindən məhv edilmiş, talanmış Qarabağın, o cümlədən Şuşanın tarixi abidələri bu gün dövlətimiz tərəfindən bərpa olunmaqdadır. Artıq Şuşada Gövhər ağa məscidindən azan səsləri eşidilir, hər il Cıdır düzündə "Xarı bülbül" festivalı keçirilir, yurdlarından didərgin düşmüş insanlar öz doğma elinə, obasına qayıdır. İndi söz ustadlarımız "Şuşaya Qayıdış dövrü" ilə bağlı ədəbiyyatımıza öz yeni töhfələrini verirlər ki, bu artıq Şuşamızın yeni həyatının bədii inikası ilə bağlıdır.

**Problemin aktuallığı**. Məlumdur ki, 28 il işğal altında olan Şuşanın tarixi abidələri erməni işğalçıları tərəfindən məhv edilmişdir. 44 günlük Vətən müharibəsində (II Qarabağ müharibəsi) işğal altında olan Azərbaycan əraziləri erməni tapdağından azad ediləndən sonra bu bölgədə, o cümlədən Şuşada tarixi abidələrimizin bərpası, qorunması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Tarixən Şuşa və onun tarixi abidələri Azərbaycanın şair və yazıçılarının ilham mənbəyi olmuş, əsərlərində geniş şəkildə işıqlandırılmışdır. Bu əsərlər xalqımızın milli-mədəni sərvəti olduğundan çox əhəmiyyətlidir. Onların tədqiqi, öyrənilməsi və gənc nəslə çatdırılması vətənpərvərlik tərbiyəsinin də aşılanmasına xidmət edir.

**Problemin yeniliyi.** Şuşanın tarixi abidələrinin Azərbaycan ədəbiyyatında bədii inikası araşdırılmış və müəllifin münasibəti bildirilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalədən bu sahədə tədqiqat aparan mütəxəssislər, ümumtəhsil məktəblərinin ədəbiyyat müəllimləri, tələbələr faydalana bilərlər.

**Ədəbiyyat:**


1. Ağaoğlu, M.M. Zəfərin izi ilə. *Azad olunmuş ərazilərdən ilk reportajlar toplusu,. /* M.M. Ağaoğlu. -Bakı: Mücrü, -2021.-304 s.
2. Çəmənzəminli, Y.V. Qan içində. Əsərləri, 3 cilddə. II cild. / Y.V. Çəmənzəminli. -Bakı: "Avrasiya Press", - 2005. - 663 s.
3. Əfəndiyev, İ.M. Seçilmiş əsərləri 3 cilddə, [II cild]. / İ.M. Əfəndiyev -Bakı: "Avrasiya Press", -2005.-336 s.
4. Qarabağnamələr, II kitab. / -Bakı: Şərq-Qərb, -2006.-288 s.
5. Şırlanlı, Ə.Ş. Sonsuz heyranlıq hissi. / Ə.Ş. Şırlanlı. -Bakı: MSV nəşr, -2023. -320 s.
6. Şuşa nəğmələri, 2 cilddə [I cild]. / -Bakı: Şuşa nəşriyyatı,- 2001. -800 s.
7. Şuşa nəğmələri, 2 cilddə [II cild]. / -Bakı: Şuşa nəşriyyatı,- 2001. -800 s.


**E-mail:** b.ibadova@arti.edu.az
**Redaksiyaya daxil olub:** 04.07.2024.

*UOT 37*

***Aydın Rzaxan oğlu İbişov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Cəlilabad filialının baş müəllimi*
*https://orcid.org/0009-0004-9017-4158*
*https://doi.org/10.69682/arti.2024.91(5).27-32*

# ŞUŞA ƏDƏBİ MÜHİTİ

***Айдын Рзахан оглы Ибишов***
*старший преподаватель Джалилабадского филиала Азербайджанского Государственного Педагогического Университета*

# ЛИТЕРАТУРНАЯ СРЕДА ШУШИ

***Aydin Rzakhan Ibishov***
*senior lecture at Jalilabad Branch of Azerbaijan State Pedagogical University*

# LITERARY ENVIRONMENT OF SHUSHA

**Xülasə.** Məqalədə Şuşa ədəbi mühitinin öyrənilməsi haqqında məlumat verilir. Şuşa ədəbi mühiti öz başlanğıcını, bu zəngin mənbədən götürmüşdür. Azərbaycanın hər yerində olduğu kimi, Qarabağ ərazisində də ilk ədəbi nümunələri el şairləri yaratmış və bu öz əksini şair və yazıçıların yaradıcılığında tapmışdır. Şuşa Azərbaycanın mədəniyyət mərkəzi olmaqla yanaşı, həm də görkəmli və istedadlı şəxsiyyətlərin, sənətkarların, yazıçıların, bəstəkarların, xanəndələrin vətənidir.
***Açar sözlər:*** *Şuşa şəhəri, şairlər, sənətkarlar, Azərbaycan klassikləri*

**Аннотация.** В статье дается информация об изучении литературной среды Шуши. Литературная среда Шуши берет свое начало из этого богатого источника. Как и везде в Азербайджане, на территории Карабаха первые литературные образцы создали народные поэты, что нашло свое отражение в творчестве поэтов и писателей. Шуша является не только культурным центром Азербайджана, но и родиной выдающихся и талантливых личностей, художников, писателей, композиторов, певцов.
***Ключевые слова***: *город Шуша, поэты, художники, азербайджанские классики*

**Abstract.** The article provides information on the study of the literary environment of Shusha. The literary environment of Shusha originates from this rich source. As elsewhere in Azerbaijan, the first literary samples were created in Karabakh by Russian poets, which is reflected in the works of poets and writers. Shusha is not only the cultural center of Azerbaijan, but also the birthplace of outstanding and talented personalities, artists, writers, composers, singers.
***Keywords:*** *Shusha city, poets, artists, Azerbaijani classics*

Dünya xalqları ədəbiyyatında olduğu kimi, Azərbaycan klassiklərinin yaradıcılığını da, ədəbi mühitlərsiz təsəvvür etmək mümkün deyildir və bu baxımdan Şuşa ədəbi mühitinin öyrənilməsi, tədqiqi olduqca vacib və aktualdır.

Azərbaycan həm Şərqin, həm də dünyanın ən zəngin ədəbi-bədii sərvətinə sahibdir. Bu qüdrətli sərvət öz başlanğıcını, yəqin ki, qədim tarixə malik xalq təfəkküründən, şifahi xalq yaradıcılığından alır. Şuşa ədəbi mühiti öz başlanğıcını, bu zəngin mənbədən götürmüşdür. Azərbaycanın hər yerində olduğu kimi, Qarabağ ərazisində də ilk ədəbi nümunələri el şairləri yaratmış və bu öz əksini şair və yazıçıların yaradıcılığında tapmışdır.

Şuşa Azərbaycanın dilbər guşələrindən biri tariximizin bizə əmanətidir. Şuşa şəhərinin təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan

tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad adlandırırdılar. Şuşa şəhərində 17 məhəllə olub.

Şuşa şəhəri məşhur ədiblərin, şairlərin, görkəmli sənətkarların vətənidir. Xalq arasında yaxşı deyiblər: "Şuşa sağlamlıq şəhəri, istedadların vətənidir!".

Azərbaycan Republikasının Elmlər Akademiyasının məlumatına əsasən, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 5 astronom, 18 memar, 16 həkim, 42-ə qədər müəllim və s. olub.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdir. Şuşanı "Kiçik Paris", "Qafqazın sənəd məbədi", "Azərbaycanın musiqisinin beşiyi", "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. Şəhəri 1905, 1920 və 1992-ci ildə 3 dəfə yandırılmış və 1992-ci il mayın 8-də erməni vandalları tərəfindən işğal edilmişdir. Şuşa şəhəri 8 noyabr 2020-ci ildə Azərbaycanın qəhrəman ordusu tərəfindən işğaldan azad edilmişdir.

Şuşa Azərbaycanın mədəniyyət mərkəzi olmaqla yanaşı, həm də görkəmli və istedadlı şəxsiyyətlərin, sənətkarların, yazıçıların, bəstəkarların, xanəndələrin vətənidir. Şuşa Azərbaycan mədəniyyətinə Q. Zakir kimi Azərbaycan ədəbiyyatında realizmin və satirik ədəbi cərəyanın banilərindən biri Məhəmməd bəy Aşiq, X.Natəvan, M.M.Nəvvab, Fatma xanım Kəminə, Həsənəli xan Qaradaği, N.Vəzirov, Əhməd bəy Ağaoğlu, S.Vəlibəyov, Nəcəfqulu bəy Şeyda, F.Köçərli, H.Vəzirov, Ə. Haqverdiyev, S.S.Axundov, Qəmər bəy Şeyda, Y.V. Çəmənzəminli, Ceyhun Hacıbəyli.

Hacı Hüsü (Azərbaycan muğam xanəndəsi), Bülbülcan (muğam xanəndəsi), Mirzə Sadıqcan (tarzən), C.Qaryağıoğlu (muğam xanəndəsi), Məcid Behbudov (muğam xanəndəsi), İslam Abdullayev (muğam xanəndəsi), Əhməd Ağdamski (opera müğənnisi), Şəmsi Bədəlbəyli (teatr rejisoru), Xan Şuşunski (muğam xanəndəsi), Barat Şəkinskaya (kino aktrisası), Mehdi Məmmədov (teatr rejissoru), Soltan Hacıbəyov (bəstəkar), Süleyman Ələsgərov və Zülfüqar Hacıbəyov (bəstəkarlar) və s.

Musiqi və poeziya beşiyi adlanan bu qeyri-adi şəhərdə, demək olar ki, Azərbaycanın ən məhşur mədəniyyət xadimləri yaşayıb yaradıblar. XVIII əsrdə Şuşa şəhərində Molla Pənah Vaqif kimi bir şeir tacidarı olub. Burada Qasım bəy Zakir yaşayıb yaradıb, Xan qızı Natəvanın şeir məclisləri dillər əzbərinə çevrilib. Məhəmməd bəy Aşiq Şuşa şəhərində dünyaya göz açmış, dini təhsil almış, şərq dillərini mükəmməl öyrənmişdir. O, Pənahəli xanın qardaşı, Behbudəli ağanın nəticəsidir. M.Aşiq Qarabağda Vaqif ədəbi məktəbinin ardıcıllarından biridir. Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" adlı təzkirəsində Məhəmməd bəy Aşiqin adı çəkilir, əsərlərində örnəklər verilir.

XVIII əsrdə isə Qarabağ xanlığının və onun paytaxtı Şuşa-Pənahabad şəhərinin yaranması ilə Şuşa ədəbi-mədəni mühiti, demək olar ki, çiçəklənmə, intibah mərhələsinə daxil olmuşdur. XVIII-XIX əsr Qarabağ ədəbi mühiti ən yeni ideya-estetik, xətti, ədəbi-üslubi meylləri və zənginliyi ilə təkcə Azərbaycanda deyil, bütün türk dünyasında, eləcə də Şərq ədəbiyyatında ön mövqelərə çıxır.

Savadlı elm və sənət adamlarını saraya cəlb etmək Qarabağda hələ Pənahəli xan dövründən bir qayda idi. M.Vəli Baharlı, Molla Pənah Vaqif kimi görkəmli şəxsiyyətlər müxtəlif vaxtlarda xan sarayına cəlb olunmuş və onlar öz fəaliyyətləri ilə Qarabağ xanlığının ictimai-siyasi həyatında mühüm rol oynamışlar. Bu ənənə xüsusilə İbrahimxəlil xanın dövründə geniş vüsət almışdı. Uzaqgörən Qarabağ hakimi təkcə yerli adamları deyil, həm də Qafqazın və qonşu dövlətlərin görkəmli şəxsiyyətlərini, ziyalılarını, mədəni və savadlı şəxslərini saraya dəvət edir, onların məsləhətlərindən bəhrələnir, istedadlarının inkişafına şərait yaradırdı.

Qarabağ şairləri nəhəng qartallar kimi Şuşa dağlarının poetik zirvəsində yuva salaraq öz fövqlərində poeziyaya rəng verirdilər. Görkəmli ədəbiyyatşünas, tarixçi, şuşalı Firudun bəy Köçərlinin qeyd etdiyi kimi Şuşa dağlarının bu poetik zirvəsində məskən salan şairlərin böyük ədəbi irsi ədəbiyyatımızı zənginləşdirmişdir.

Bu şairlərdən Mir Möhsün Nəvvab 1872-ci ildə evində, Məclisi-fəramuşan (unudulmuşların məclisi) ədəbi məclisini yaradır. Məclisin üzvləri: Mir Möhsün Nəvvab, Həsənəli bəy Qaradaği, Xurşidbanu Natəvan, Abdulla bəy Asi, Fatma xanım Kəminə (1841-1898), M.M.Katib (1833-1888) və b. idi. M.M.Nəvvabın "Təzkireyi-Nəvvab" təzkirəsində Qarabağdan çıxmış 100-dən çox şairin həyat və yaradıcılığı haqqın-

da məlumat verilmişdir. "Nəsihətnamə" əsərində cavanlara verdiyi nəsihətlərin sayı 500-dən artıq idi. Musiqiyə həsr etdiyi "Kəşfül-həqiqəti" məsnəvisində ilk dəfə olaraq dəstgah terminindən istifadə edir. O vaxt Qarabağda məlum olan altı dəstgahın adını çəkir: Rast,Mahur, Rahab, Şahnaz, Çahargah və Nəva.

XVIII əsrdə yaşayan Qarabağ şairləri Azərbaycan ədəbiyyatında ilk olaraq realist şeirin əsasını qoyaraq, XlX əsrdə realizm ədəbi metodunun yaranmasına və möhkəmləndirilməsinə, inkişafına səbəb olmuşdur.

İbrahimxəlil xanın qızı Ağabəyim ağa Tuti şərqdə ən müdrik qadın kimi məşhurlaşdı və İran şahı Fətəli şah dövründə şahlıq diplomatiyasının ən fəal istiqamətverici şəxslərdən oldu. Onun məşhur bayatısının vətənpərvərlik ruhu bu gün də öz ecazkar gücü ilə səslənməkdədir:

*Əziziyəm Qarabağ,*
*Şəki, Şirvan, Qarabağ,*
*Tehran cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ.*

*Əzizim Qarabağı,*
*Şən olsun Qarabağı,*
*Bir Allah vergisidir,*
*Oxnağı "Qarabağı".*

XVII-XVIII əsrlərdə Azərbaycan ədəbiyyatı şifahi xalq yaradıcılığının, əsasən, aşıq nümayəndələrinin əsərlərinin təsiri altında canlı həyata, xalq dilinə daha da yaxınlaşır. Azərbaycan folklorunun mühüm janrlarından biri olan bayatı janrının vətəni də Qarabağ elləri olmuşdur. İraqda, Bağdadda yaşayan Kərkük türklərinin nəsilləri, sayları Bayat boyuna bağlı olduğundan, indinin özündə də, bayatı burada ən zəngin janrdır və Kərkük türklərinin bayatıları olduqca məşhurdur.

XVII əsrin bayatı ustası da Qarabağın Güləbird kəndindən Sarı Aşıq olmuşdur. Sarı Aşıq haqqında XlX əsrin təzkirəçisi Qaradaği belə məlumat vermişdir: "Sarı Aşıq Qaradağ mahalındandır. Çox-çox qədim vaxtlarda gəlib Qaradağın Zəngəzur mahalında Həkəri çayının kənarında vaqe Güləbürt adlı qəryədə sükna edib". Son illər aşıq haqqında yazan araşdırıcılar təzkirəçinin "Qaradağ mahalı"ndan mülahizəsini dəqiqləşdirmiş və belə bir ümumi rəy üzərində diqqəti cəmləşdirmişdir ki, Qaradağ Cənubi Azərbaycanda olan mahal deyil, həm də Laçın rayonunun ərazisində bir kənddir. Burada həmin adda üç kənd olub. Bu kəndlərdən biri məhz Həkəri çayı sahillərində Məzməzək dərəsinin ağzında olmuşdur. Sarı Aşığın məzarı da Həkəri çayı sahillərində Qaradağlı kəndi yaxınlığındadır. Həmin kəndin üst tərəfindəki təpə indi də, "Aşıq yaylağı" adlanır. Aşığın sevgilisi Yaxşı isə Maqsudlu kəndindəndir.

Azərbaycan aşıq sənətinin qədim ənənəsinə görə bütün aşıqlar öz əsərlərində bu və ya digər dərəcədə özləri barədə məlumat verirlər. Belə ənənəni biz, Sarı Aşıq yaradıcılığında da görürük. Bəzi bayatılarında o özü, sevgilisi, yaşadığı yer haqqında müəyyən məlumatlar vermişdir. Belə bayatıların bir qismi son illər toplanıb üzə çıxarılmışdır.

*Mən aşıq ağzındayam,*
*Aləmin ağzındayam,*
*Əslim Qarabağlıdır,*
*Məzməzək ağzındayam.*

*Mən aşığam ha Kərim,*
*Dada yetiş ha Kərim,*
*Sizin olsun gen dünya,*
*Mənə bəsdi Həkərim.*

Ən məşhur ustad aşıqlarımız haqqında dastanlar–yarandığı kimi Sarı Aşıq haqqında da dastan vardır. Aşığın əsas yaradıcılığı bayatılardan ibarət olduğu üçün dastandakı hadisələr də bayatılar üzərində inkişaf etdirilir. "Sarı uşaq və Yaxşı" dastanı da ilk öncə aşığın özü tərəfindən düzülüb qoşulmuşdur. Bunlar sənətkarın həyatının müxtəlif sahələrini öyrənmək üçün mühüm əhəmiyyətə malikdir.

Aşığın Yaxşıya aşiq olması real həqiqətdir. Buna dair əldə sənədlər vardır. Məhəmməd bəy Aşıq Pəriyə məhəbbətini elan edərkən bayatılarının birində Aşıq ilə Yaxşının adlarını çəkmişdir:

*Tərlanın yaxşı pəri,*
*Qarışdı yaxşı pəri,*
*Mən Aşıqdan yaxşıyam,*
*Yaxşıdan yaxşı Pəri.*

A.Məmmədovanın XVI-XVII-XVIII və XIX əsrin əlyazmalarından götürüb çap etdiyi bayatıların da çoxusu məhz Aşığın adı ilə bağlıdır. Folklorşünaslığımızda Sarı Aşığın XVll əsrdə yaşadığı qeyd edilir.

XVIII əsrdə Qarabağa yaşamış, öz lirik şeirləri ilə şöhrət tapan görkəmli aşıqlarımızdan

biri də aşıq Valehdir. Aşıq Valehin bir sıra şeirlərini Hüseyn Müfti Əfəndi Qaibov, sonralar Firidun bəy Köçərli toplayıb saxlamışlar. F.Köçərli yazır: "Necə ki, fövqdə zikr olundu, Kərbəlayi Səfi, "Valeh", "Canıoğlu Kərbəlayi Abdullanın və Baba bəyin müasiri imiş. Məhəlli təvəllüdü Gülablı qəryəsidir ki, ata-babasının əsil vətənidir". Aşıq Valehin qəbri Abdal-Gülablı kəndində Salam təpəsi deyilən yerdə dağın döşündədir. Aşıq Valeh Qarabağda yaşamış məşhur Aşıq Səmədin şagirdi olmuşdur. Bunu aşığın şeirlərində görmək olar:

*Ustadım Səməddir, sakini-Abdal,*
*Görəm tək yüzünü nitqim olur lal,*
*Deyişəndə vermir hafizə macal,*
*Mən Valehəm, ona qürrə, sən nəsən?*

Valehin şeirləri əsasında "Valeh və Zərnigar" adlı bir dastan da var. "Qarabağ qaytağısı", "Qarabağ şərilisi" kimi saz havaları Valehin adı ilə bağlıdır.

Görkəmli dövlət xadimi və şair olan Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatının yeni istiqamətdə inkişafına istiqamət vermiş, Qarabağda – Şuşada ədəbi-poetik mühitin yaranması və inkişafında xüsusi xidmətləri olmuşdur. M.P.Vaqif yaradıcılığının bilavasitə təsiri altında Şuşa ədəbi mühitində Qasım bəy Zakir kimi nümayəndəsi yetişərək uzun müddət poetik inkişafın istiqamətini müəyyənləşdirir. XIX əsrdə ədəbi-mühitindən danışarkən Məhəmməd bəydən də qoşqu-qəzəllərindən nümunələr təqdim edilir. Məhəmməd bəy Aşiq qoşqularında gah öz adı, gah da aşiq təxəllüsü ilə çıxış edir. Şeirlərinin birində yazır:

*Bir neçə il özümü eşqə müğəyyəd qıldım,*
*Gah Aşiq adımı, gah Məhəmməd qıldım.*

Məhəmməd bəy Aşiq şeirlərinin çoxunu Aşıq Pəriyə həsr etmişdir. İlk Azərbaycan qadın aşığını da Qarabağ yetirmişdir. Aşıq Pəri şəxsiyyəti buna əyani sübutdur.

M.F.Axundzadə ənənələrinin davamçıları olan; Nəcəf bəy Vəzirov qələmə aldığı "Müsibəti-Fəxrəddin" faciəsi, Ə. Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar", faciələri ilə Azərbaycan ədəbiyyatı daha da zənginləşdi.

XIX əsr Qarabağ ədəbi-mədəni həyatının mühüm özəlliklərindən biri də Şuşada təzkirə, müxtəlif səpkili şeir toplularının və salnamələrin yaranmasıdır. Mirzə Yusif Qarabağinin "Məcmueyi-Vaqif və müasirini-digər", Həsənəli xan Qaradağinin "Xan Qaradaği təzkirəsi", Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" və digər elmi əsərlərin meydana gəlməsi poeziyanın öyrənilməsinə müəyyən imkanlar yaratmışdır.

Bizim bir çox ziyalılarımız Qarabağ-Şuşa mövzusunda gözəl, dəyərli əsərlər qələmə almışdır. İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı", "Xurşudbanu Natəvan" pyesləri, Əyyub Abbasovun "Zəngəzur" romanı, Bayram Bayramovun "Cıdır düzü", Aqil Abbasın "Dolu" romanı, Elçin Hüseynbəylinin "Əsrlər" povesti, Meyxoş Abdullanın "Əsir qadın" əsərləri bu qəbildəndir.

Poeziyamızda Səməd Vurğunun "Şuşa" şeiri ilə başlayan ənənə bu gün də davam etməkdədir. Şairin təsvir etdiyi ər-aslan oğullar Şuşanı heç vaxt əsarətdə qoymazdılar, necə ki qoymadılar:

*"...Əymə sən başını, başımın tacı,*
*Nəhayət tapılar dərdin əlacı.*
*Ər-aslan oğullar ayağa qalxar.*
*Ayaqlar altında qalan bayrağı,*
*Şuşa qalasının başına taxar.*
*Sən azad olarsan qəmdən, kədərdən,*
*Bağlı qapıların açılar birdən.*
*Açılar qaralmış Günəşin üzü,*
*Onda bayram edər bütün Yer üzü!"*

[6, s.154]

Şuşanın azad edilməsi Azərbaycanın bütün bölgələrində toy-bayrama çevrildi. Doğrudan da, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tarixi qələbə çağrışı bu arzularımızı həqiqətə çevirdi: Əziz Şuşa! Biz qayıtdıq! Biz səni dirçəldəcəyik!

2020-ci ilin 8 noyabr günü Şuşa şəhərinin Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, hünəri, əsgər və zabitlərimizin rəşadəti sayəsində düşməndən geri alınması xalqımızın ən böyük sevincinə səbəb oldu. Prezidentimiz cənab İlham Əliyev Şuşa şəhərini "Azərbaycan mədəniyyətinin paytaxtı " elan etdi.

Şuşa şəhərinin əhəmiyyəti nə idi?

Şuşa və ətrafındakı Dağlıq Qarabağ bölgəsindəki ən stratejik əhəmiyyətli yerlərdən biridir, ümumiyyətlə bölgənin "döyünən ürəyi" adlandırılır. XIX əsrin ortalarına qədər regionda yaşayan azərbaycanlı əhalinin mədəni və siyasi mərkəzi sayılırdı. Həmçinin, şəhər Dağlıq Qarabağda müdafiə onurğası rolunu oynayırdı.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri noyabrda şəhərin qayalıqlarını dırmaşaraq yüngül silah-sursatla Şuşaya daxil olmuşdur. Onlar tezliklə erməni qoşunlarını şəhərdən qovmuş və 8 noyabrda Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan qüvvələrinin Şuşanı işğaldan azad etdiyini bəyan etmişdir. Şuşanın işğaldan azad edilməsi müharibənin həlledici anı olmuş və Azərbaycana strateji üstünlük vermişdir. Döyüşdən bir neçə gün sonra Ermənistan məğlubiyyəti qəbul etmiş və Azərbaycan müharibədə qələbə çalmışdır.

Şuşa azad edildikdən sonra bir sıra musiqi festivalı keçirilməyə başladı. İlk Xarıbülbül Musiqi Festivalı–məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Qarabağ münaqişəsinin başlaması və Şuşa şəhərinin işğal olunması ilə festivalın keçirilməsi mümkün olmamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixi sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etmişdir. Bu sərəncamla Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olunmuşdur.

Xatırladaq ki, Şuşa şəhəri 2023-cü ildə həm də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı tərəfindən Türk Dünyasının Mədəniyyət Paytaxtı elan edilib. Budəfədəki "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında da TÜRKSOY-a daxil olan ölkələrin, regionların türkdilli ölkələrinin və xalqlarının yaradıcı kollektivləri iştirak edirdilər.

44 günlük müharibədə bütün sənət adamları kimi ziyalılarımızda bir yumruq kimi birləşdi. Tariximizin şanlı səhifəsi olan "Dəmir yumruq" əməliyyatı təkcə rəşadətli ordumuzun apardığı mübarizə deyil, Ali Baş komandanın siyasi və diplomatik mübarizəsi dünya azərbaycanlıların həmrəyliyinin və birliyinin nümayişi oldu. Nəticədə gecikmiş ədalət bərpa olundu, xeyir şər üzərində qələbə çaldı. Beynəlxalq qurumların illər ərzində edə bilmədiyini Azərbaycan əsgəri cəmi 44 günə həll etdi, bizlərə böyük qələbə sevinci qazandırdı. Bu gün ata-babalardan miras qalan əzəli və əbədi torpaqlarımızda üçrəngli bayrağımız qürurla dalğalanır və o bayraq yurdundan ayrı düşən soydaşlarımızın quruculuq işləri başa çatdıqca öz yurduna böyük qayıdışın uzaqda olmadığının işarəsidir.

"Vətən müharibəsi Azərbaycanın yeni tarixinə Qarabağla bağlı iki simvol bəxş etdi: Xarıbülbül və Dəmir Yumruq. Bunlardan birincisi Şuşanın (Qarabağın) azadlığının və bu yolda canından keçən şəhidlərimizin, ikincisi isə Zəfərin əsasında duran Lider-Xalq-Dövlət-Ordu birliyinin rəmzinə çevrildi" [4, s.52].

Qələbədən sonra isə "Dəmir Yumruq" həm də Azərbaycanın öz maraqlarını, sərhədlərini, ərazi bütövlüyünü müdafiə etmək əzmkarlığının simvoluna çevrilib. Bizə kəm gözlə baxan hər kəs bilməlidir ki, Dəmir Yumruq yerindədir.

Heydər Əliyevin yaratdığı tarixi səhifələri vərəqləyəndə, həmçinin onun şəxsiyyəti haqqında düşünəndə ilk təsəvvürdə dahi rəhbərin milli vətəndaş, siyasi dövlət xadimi kimi bənzərsiz siması canlanır. Bu dahi sima bir rəhbərin öz xalqına, millətinə, cəmiyyətimizin hər bir üzvünə təmənnasız xidmət etmək, öz sevincini xalqının xoşbəxt rifahında görmək istəyindən parlayır.

1982-ci il yanvarın 14-də Şuşada Vaqif məqbərəsinin ucadılması əslində Heydər Əliyevin mənəviyyata mədəniyyətə qoyduğu böyük abidə idi.

Ümummilli lider Heydər Əliyevin Şuşada şairin adına məqbərə ucaltması onun milli ruha xidmət edən poeziyası ilə bərabər, həm də milli diplomatiya tarixində oynadığı rolla bağlı idi

Ümummilli lider tərəfindən əsası qoyulan müstəqillik və dövlətçilik ənənələri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və I vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilməkdədir.

**Problemin aktuallığı.** Dünya xalqları ədəbiyyatında olduğu kimi, Azərbaycan klassiklərinin yaradıcılığını da, ədəbi mühitlərsiz təsəvvür etmək mümkün deyildir və bu baxımdan Şuşa ədəbi mühitinin öyrənilməsi, tədqiqi olduqca vacib və aktualdır.

**Problemin elmi yeniliyi.** Azərbaycan həm Şərqin, həm də dünyanın ən zəngin ədəbi-bədii sərvətinə sahibdir. Bu qüdrətli sərvət öz başlanğıcını, yəqin ki, qədim tarixə malik xalq təfəkküründən, şifahi xalq yaradıcılığından alır. Şuşa ədəbi mühiti öz başlanğıcını, bu zəngin mənbədən götürmüşdür. Azərbaycanın hər yerində olduğu kimi, Qarabağ ərazisində də ilk ədəbi nümunələri el şairləri yaratmış və bu öz əksini şair və yazıçıların yaradıcılığında tapmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə qeyd olunan fikirlər ali təhsil, ümumtəhsil məktəblərində dərs deyən müəllimlər eevə geniş ictimaiyyət üçün aktualdır.

**Ədəbiyyat:**


1. Cəlal M. XX əsr Azərbaycan ədəbiyyatı. / M.Cəlal, F. Hüseynov. - Baki: Maarif, -1969. – 346 s.
2. Əliyev, H. Təhsil millətin gələcəyidir. / H.Əliyev. - Bakı: Təhsil, - 2002. -574 s.
3. Mirzəzadə, A. Vətən müharibəsinin tarixi-siyasi dərsləri. / A. Mirzəzadə. - Bakı: Azərbaycan, - 2022. - 232 s.
4. Səfərli, Ə. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. / Ə. Səfərli, X.Yusifov. - Bakı: Maarif. -1982. - 385 s.
5. Abbasova, X. Şuşa-Azərbaycanın mədəniyyət paytaxtı. / X. Abbasova. - Bakı, - 2021. – 600 s.
6. Vurğun S. Seçilmiş əsərlər. / S.Vurğun. - Bakı: Maarif. - 2005. - 264 s.


**E-mail:** ibishov.59@mail.ru

**Redaksiyaya daxil olub:** 23.09.2024

## *ÜMUMPEDAQOJİ PPROBLEMLƏR*
## *ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ*
## *GENERAL PEDAGOGICAL PROBLEMS*

*UOT 37.0*

***Şərafət Aram qızı Baxışova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının dosenti,*
*pedaqogika elmləri doktoru*
*https://orcid=0000-0002-7848-2068*
*https://doi.org/10.69682/arti.2024.91(5).33-37*

# KAMİL İNSAN FORMALAŞDIRMAQ TƏHSİLİN ANA XƏTTİDİR

***Шарафат Арам гызы Бахышева***
*доцент кафедры Педагогики дошкольного образования Азербайджанского Государственного Педагогического Университета,*
*доктор педагогических наук*

# ФОРМИРОВАНИЕ СОВЕРШЕННОГО ЧЕЛОВЕКА – ГЛАВНОЕ НАПРАВЛЕНИЕ ОБРАЗОВАНИЯ

***Sharafat Aram Bakhishova***
*associate professor of the department of Pedagogy of preschool education at the Azerbaijan State Pedagogical University,*
*doctor of pedagogical sciences*

# FORMING A PERFECT PERSON IS THE MAIN LINE OF EDUCATION

**Xülasə.** Məqalədə göstərilir ki, məktəbəqədər təhsildə əsas dəyər uşaqdır. Məktəbəqədər yaş dövrü isə təkcə məktəb həyatına hazırlıq mərhələsi deyil, eyni zamanda insan həyatının ən məsuliyyətli, ən mühüm yaş dövrüdür ki, bu dövrdə insanda bütün mənəvi dəyərlərin təməli qoyulur.

Məlumdur ki, əxlaqi və mənəvi keyfiyyətlərin əsası erkən yaş dövründən qoyulmalıdır. Çünki yeni dünyanın gələcəyi böyüməkdə olan nəslin mənəvi-əxlaqi keyfiyyətlərə necə yiyələnməsindən asılıdır. Məhz bu baxımdan da bu gün insan amili qloballaşan dünyamızda getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Fiziki və mənəvi cəhətdən sağlam, mədəni və intellektual səviyyəsi yüksək olan vətəndaşlara malik ölkə dünyanın ən zəngin ölkəsi hesab olunması hamımıza məlumdur.

***Açar sözlər:*** *Kamil insan amili, əxlaqi və mənəvi keyfiyyətlər, erkən yaş dövrü, intellektual səviyyə, pedaqoji prinsiplər, tərbiyədə mükəmməl, bitkin nəzəri konsepsiya*

**Аннотация.** В статье показано, что главной ценностью в дошкольном образовании является ребенок. Дошкольный период – это не только этап подготовки к школьной жизни, но и самый ответственный и важный период в жизни человека, в течение которого в человеке закладываются основы всех нравственных ценностей.

Известно, что основы нравственных и духовных качеств следует закладывать с раннего возраста потому, что будущее нового мира зависит от того, насколько подрастающее поколение приобретет духовно-нравственные качества. Именно с этой точки зрения, сегодня человеческий фактор приобретает все большее значение в нашем глобализированном мире. Все мы знаем, что самой богатой страной в мире считается страна, граждане которой физически и морально здоровы, культурно и интеллектуально высоки.

***Ключевые слова***: *фактор совершенного человека, нравственные и духовные качества, ранний возрастной период, интеллектуальный уровень, педагогические принципы, совершенный в воспитании, исчерпанная теоретическая концепция*

**Abstract.** The article shows that the main value in preschool education is the child. The pre-school period is not only the stage of preparation for school life, but also the most responsible and important period of human life, during which the foundation of all moral values is laid in a person.

It is known that the foundation of moral and spiritual qualities should be laid from an early age. Because the future of the new world depends on how the growing generation acquires spiritual and moral qualities. It is from this point of view that today the human factor is gaining more and more importance in our globalized world. We all know that a country with citizens who are physically and morally healthy, culturally and intellectually high is considered the richest country in the world.

***Keywords:*** *Perfect human factor, moral and spiritual qualities, early age period, intellectual level, pedagogical principles, perfect, exhausted theoretical concept of education.*

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd olunduğu kimi, "...Azərbaycan xalqının milli, əxlaqi, humanist, mənəvi, mədəni, dəyərlərinə dərindən yiyələnən, ... ailəsini, Vətənini, millətini sevən və daim ucaltmağa çalışan, ...Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan İNSAN tərbiyə etməkdən ibarətdir [1].

Məktəbəqədər təhsildə əsas dəyər uşaqdır. Məktəbəqədər yaş dövrü isə təkcə məktəb həyatına hazırlıq mərhələsi deyil, eyni zamanda insan həyatının ən məsuliyyətli, ən mühüm yaş dövrüdür ki, bu dövrdə insanda bütün mənəvi dəyərlərin təməli qoyulur.

"Demokratiya və Təhsil" əsərində amerikalı ictimai xadim və filosof Con Dyui yazırdı ki, ən geniş anlamda təhsil həyatın sosial davamı üçün bir vasitədir. O qeyd edirdi ki, "Təhsil həyata hazırlıq deyil; təhsil həyatın özüdür"[6].

Təhsilin sosial əhəmiyyətinin digər bir göstəricisi ondan ibarətdir ki, cəmiyyət hər hansı böhranla üzləşdikdə, bu ilk növbədə öz əksini məhz təhsil sahəsində göstərir. Bu baxımdan hazırda təhsilin rolu və əhəmiyyəti daha fərqlidir. Yaşadığımız informasiya dövründə yeni faktlar və bilgilər sürətlə həyatımıza daxil olur. Cəmi bir neçə il bundan əvvəl öyrəndiyimiz bilgilər öz əhəmiyyətini itirir, bu yaxınlara kimi həqiqiliyinə əmin olduğumuz köhnə biliklərin yanlışlığı sübut olunur, dünya görüşümüzü kökündən dəyişə biləcək yeni biliklər meydana atılır. Yeni məlumatlara çıxışı olan insanların sayı da artmaqdadır. Elmi biliklərin yaradılmasının bugünkü tempi ilə biliklərin diffuziya dərəcəsi hətta "bilmək", "səriştəli olmaq" və "öyrənmək" kimi ənənəvi anlayışların özünü belə sual altına qoyur: 21-ci əsrdə artıq kimsə nəyisə tam bilməsinə arxayın ola bilməz [7].

Bir torpaq nə qədər münbit olursa olsun, ona həyat verən, bərəkətli edən yağışlardır. İnsanın da faydalı olması onun mənəvi tərbiyəsindəki feyz və bərəkətlə bağlıdır. Əgər bir millətin gəncləri öz gücünü mənəviyyat və fəzilət yolunda sərf edirsə, o millətin gələcəyi parlaqdır.

Bir dəfə qədim dövrün "əxlaq peyğəmbəri" hesab edilən Sokratdan soruşdular: "İnsanda ən çox nəyi qiymətləndirirsiniz?" Filosof tərəddüd etmədən cavab verir: "İnsanlığı". "Bəs insanlıq dedikdə nəyi başa düşmək olar?" – sualına isə mütəfəkkir: "İnsana layiq olan keyfiyyətləri" - deyə cavab vermişdir.

Bəli, insanlıq bəşəriyyətin əxlaqi sərvətlərinin qızıl fondunu təşkil edir. İnsan cəmiyyətinin yarandığı ilk gündən başlayaraq dövrümüzə qədər bu fond daim zənginləşmiş və zənginləşməkdə davam edir.

İndiki bəşəriyyət üçün ən zəruri islahat məhz insanlıq islahatıdır. İnsanlıq və humanizm prinsipi ailə tərbiyəsinin və ictimai tərbiyənin bütün sisteminin əsasını təşkil edir.

İnsan amili qloballaşan dünyamızda getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Çünki yeni dünyanın gələcəyi, taleyi həm də böyüməkdə olan nəslin mənəvi-əxlaqi keyfiyyətlərə necə yiyələnməsindən də asılıdır. Bu keyfiyyətlərin formalaşdırılması isə uşağın özünü öz şəxsi həyat fəaliyyətinin subyekti olduğunu dərk etdiyi andan təşəkkül tapdığını göstərir. Əxlaqi və mənəvi keyfiyyətlərin əsası erkən yaş dövründən qoyulmalıdır desək, yanılmarıq. Çünki fiziki və mənəvi cəhətdən sağlam, mədəni və intellektual səviyyəsi yüksək olan vətəndaşlara malik ölkə dünyanın ən zəngin ölkəsi hesab olunması hamımıza məlumdur.

Bizim görkəmli mütəfəkkirlərimizin əsərlərində də kamil insan yetişdirmək ideyasının irəli sürülməsini görürük və əsrlərin süzgəcindən keçən pedaqoji prinsiplərin bir sistem halını

aldığının şahidi oluruq. Məsələn, hazırda irəli sürülən "Hər kəsə bilik, bacarığına görə yanaşmaq" müddəasının təlim-tərbiyədə pedaqogikanın ən əsas tələblərindən biri kimi göstərilir. Lakin "Hər kəs ilə onların əqillərinin səviyyəsində danış" pedaqoji fikrini hələ o zaman dahi Məhəmməd Füzuli söyləmişdir. Bunu biz tarixə nəzər salsaq açıq aydın şahidi olarıq.

Tərbiyədə mükəmməl, bitkin nəzəri konsepsiya olmadan heç vaxt məqsədəuyğun tərbiyəyə nail olmaq mümkün deyil. Məhz bu baxımdan gözəl və kamil tərbiyə üçün dolğun tərbiyə nəzəriyyəsi lazımdır. Tarixə nəzər salsaq insanın mənəvi aləminin araşdırılması, öyrənilməsinin tarixinin çox qədim olduğunu görürük. Lakin keçmişlə müasirliyi müqayisə etdikcə humanist keyfiyyətlərin öyrənilməsində hələ də problemlərin olduğunu hiss edirik. Humanist keyfiyyətlər isə insan mənəviyyatının incisi sayılır, məhz bu baxımdan bəşəriyyətin görkəmli mütəfəkkirləri də bu problemə daima müraciət etmişlər.

Əsərlərində uşaq üçün ilk vaxtlar ana tərbiyəsinin çox vacib olduğunu qeyd edən Georq Vilhelm Fridrix Hegelin fikrincə, əxlaq uşaqda bir hiss kimi həkk olunmalıdır.

İnsan cəmiyyəti yaşadıqca onun varlığı ilə bağlı olan bir sıra problemlərin zaman geçdikcə müasir dövrə uyğun surətdə həll olunması vacib məsələlərdəndir. Bunu tarix sübut etmişdir. İnsanlar bütün dövrlərdə dünya sirlərini öyrənməyə cəhd göstərmişlər. Çünki hər hansı bir dövr üçün öyrənilmiş bəşəri problemin sonrakı dövrlərdə də onun öyrənilməsinə ehtiyac olduğu üçün buna yenidən səy göstərilir. Həqiqətən əxlaqın mərkəzində - insan, onun digər adamlarla əlaqələri, münasibətləri dayanmışdır. Bu əlaqə və münasibətlər tədricən daha da möhkəmlənərək onun mənəvi simasının həddi və xassəsi olur. Əxlaqi keyfiyyətlərin, xarakterin əlamətlərinin inkişafı əxlaq tərbiyəsinin nəticəsidir. Onların formalaşdırılması prosesində müəyyən tərəfləri ayırmaq olar: əxlaqi hisslər, əxlaqi adətlər, əxlaq haqqında təsəvvürlər və mühakimələr, davranışın əxlaq motivləri. Uşağın əxlaqi inkişafının bütün bu tərəfləri bir-biri ilə əlaqədardır, qarşılıqlı təsir nəticəsində formalaşır. Uşağın həyatında əxlaqi hisslərin çox böyük əhəmiyyəti vardır. Onlar uşağın duyğularını, qavrayışını, təsəvvürlərini, təxəyyülünü müəyyən dərəcədə zənginləşdirir.

Psixologiya və fiziologiyanın son nailiyyətlərinə əsaslanan K.D. Uşinski uşağın əqli inkişafı xüsusiyyətlərini açıb. Təlimin psixoloji mexanizmlərinin mahiyyətini tədqiq edən pedaqoq diqqətin, yaddaşın, təxəyyülün, emosiyaların, iradənin, düşüncənin psixoloji mexanizmlərinin təhlilini verib, təlim prosesində onların nəzərə alınması və inkişaf etdirilməsi zəruriliyini əsaslandırıb. Uşinski pedaqoq qarşısında "öyrənməyi öyrətmək" və şagirdə həyatda öz yolunu tapmağa kömək etmək vəzifəsini qoyurdu. Uşinski deyirdi: " Yalnız şəxsiyyət şəxsiyyəti müəyyən edə və onu inkişaf etdirə bilər, yalnız xarakterlə xarakter yaratmaq olar"[4].

Hazırda məktəbəqədər təhsil sahəsində islahatların aparılması vacibdir. Çünki bu gün savadlı, mənəvi keyfiyyətlərə malik, bacarıqlı, yaradıcı, kreativ düşünən, müxtəlif situasiyalardan baş çıxara bilən şəxsiyyətin formalaşdırılması məktəbəqədər təhsilin qarşısında dayanan əsas məqsədlərdəndir.

Məktəbəqədər təhsil sahəsində gedən inkişaf prosesi onun məzmununun dünya standartlarına uyğun aparılmasını tələb edir. Artıq yeni tipli məktəbəqədər təhsil müəssisələri yaradılmış, təlimin məzmunu yeniləşmiş, müasir tələblərə cavab verən proqram, metodik vəsaitlər hazırlanmışdır. Çünki yetişməkdə olan gənc nəslin bir şəxsiyyət kimi formalaşmasının, hərtərəfli harmonik inkişafının əsası təhsilin bünövrəsi sayılan məktəbəqədər dövrdə qoyulur. Bu baxımdan məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafında və şəxsiyyət kimi formalaşmasında məktəbəqədər təhsil müəssisələrinin üzərinə çox böyük məsuliyyət düşür.

B.B. Zankovski yazırdı: "Uşaq şəxsiyyət olmağa o vaxt başlayır ki, o, öz-özünü dərk edir, yavaş-yavaş inkişaf edir və ətrafdakı hər şeyi özündə toplayır. Elə bir zaman gəlir ki, uşaq özünü digərlərindən ayırmağı öyrənir və nəinki başqaları üçün, eləcə də özü üçün şəxsiyyət olmağa başlayır"[5].

Təcrübə göstərir ki, məktəbəqədər dövrdə uşaqların tərbiyəsi və təlimində yol verilən kiçik xətalar sonralar çox ciddi, qarşısı alınmaz nöqsanlar kimi özünü büruzə verir. Ona görə də həmin dövrdə heç bir şeyi nəzərdən qaçırmadan təhsil proqramı əsasında fəaliyyət göstərmək, uşaqları müstəqil fəaliyyətə hazırlamaq lazımdır.

Məktəbəqədər təhsil müəssisələri həcminə görə kiçik olsa da, funksiyasına görə ciddi və məsuliyyətli bir vəzifənin yerinə yetirilməsi ilə məşğul olur. Onun fəaliyyəti dövlətin, eyni zamanda valideynlərin diqqət mərkəzində dayanır. Bunun üçün fəaliyyətlərin istiqamətlərini aşkarlıq şəraitində müəyyənləşdirmək, bu məqsədlə faydalı arzu və təkliflərin nəzərə alınması zəruri hesab edilir. İlk növbədə, maraqlı olan tərəflərin fikirləri əsas götürülür. Eləcə də məktəbəqədər təhsil müəssisələrinin iqtisadi və digər problemlərinin həllində şəffaflığın nəzərə alınması vacib hesab edilir.

Müasir məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində demokratikliyin gözlənilməsi də zəruri prinsiplərdən hesab edilir. Müəssisənin fəaliyyətinin təşkilində, idarə olunmasında, məşğələlərin qurulmasında və s. ona istinad olunması məqsədəuyğundur.

Təhsilin yaradıcı şəxsiyyət formalaşdırmaq missiyası onun humanist xarakterini meydana çıxarır, yeni məzmunun müəyyənləşdirilməsində nəzərə alınır.

Məktəbəqədər təhsil müəssisələrində də təlim-tərbiyə prosesi və onun məzmunu humanist pedaqogika ideyalarına əsaslansa daha səmərəli nəticələr əldə etmiş olarıq. Humanizm bəşəri problemlərdən biri olduğu üçün insan şəxsiyyətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Uşaqlara kiçik yaşlarından humanist keyfiyyətlər formalaşdırmaq məqsədəuyğundur. Nəyin yaxşı, nəyin pis, nəyin xeyir, nəyin şər olmasını müəyyənləşdirmək, hadisələrə necə yanaşmağı öyrətmək, mühakimə yürütmək baxımından uşaqlarda humanist keyfiyyətlərin formalaşdırılması ən vacib məsələlərdəndir.

Bu sahədə görkəmli psixoloq, filosof və pedaqoqlar xeyli təqdirəlayiq işlər görmüşlər. Bu problemi görkəmli yazıçıların yazdıqları romanlarda, əfsanə, mif, nağıl və dastanlarda da cərəyan edən bütün hadisələr özündə əks etdirmişdir.

İnsanların əxlaqi münasibətlərinin kökləri çox dərin olsa da, mütərəqqi əxlaq nəzəriyyəçiləri əxlaqi tərəqqiyə xeyli kömək göstərmişlər. Humanizm "Qabusnamə", "Kəlilə və Dimnə", "Gülüstan", "Siyasətnamə", "Əxlaqi-Nasiri" və b. bir çox əxlaqi əsərlərin əsas qayəsini təşkil edir. Bu baxımdan da bu əsərlər yüz illər boyunca maraqla oxunmuşdur. Adları qeyd olunan əxlaqi əsərlər neçə-neçə nəslin mənəvi aləminə hakim kəsilmişdir. Hazırda gənclərimiz bu əsərləri yenə də sevə-sevə oxumalı və ondan faydalanmalıdırlar. Çünki adlarını çəkdiyimiz əsərlər həqiqi təsir gücünə malikdir. Əsərlərdəki hikmətli nəsihətlər gənclərimizi ağıllı düşünüb, nəticə çıxarmağa, hər hansı bir hadisə ilə qarşılaşarkən tez qərar qəbul etməməyə, səbirli və təmkinli olmağa, ata-analarının qədrini bilməyə, özündən kiçiklərə qayğı, böyüklərə hörmət etməyə, qocaların humanist qayğılarından nəticə çıxarmağa səsləyib.

Təhsilin və tərbiyənin milli zəmində yeniləşdirilməsi üçün gənc nəslin mənəvi sağlamlığına, milli dəyərlər əsasında tərbiyə olunmasına, daxilən təmizlənməsinə diqqət artırılmalıdır. Müasir mərhələdə təhsilin məzmunu milli psixologiyanın, milli tərbiyənin, milli mədəniyyətin əsasında yaratmaq mümkündür. Gənc nəslə xalqın keçdiyi tarixi yolu düzgün qiymətləndirməyi öyrətmədən gələcək üçün dürüst nəticələr çıxarmaq düzgün deyil. Hazırda milli dəyərə və məzmuna malik tərbiyə sistemimiz yaradılmalı, millətin öz soy-kökünə, adət-ənənələrinə uyğun kamil insan formalaşdırmaq təhsil islahatının ən vacib məqsədi olmalıdır.

Məktəbəqədər təhsilin məzmununun yeniləşməsi məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimlərindən bu sistemdə baş verən dəyişikliklərin bilməsini tələb edir.

Görkəmli mütəfəkkir Nizami Gəncəvi yaradıcılığının əsas mövzusu kamil insan probleminin həll olunmasından ibarətdir desək, səhv etmərik. Dahi Nizami müəllim-şagird münasibətləri haqqında qiymətli fikirlər söyləməklə unudulmaz müəllim obrazı yaratmışdır. O, yeniyetməlik və gənclik dövrlərini təlim-tərbiyə üçün çox qiymətli dövr hesab edərək, müəllimə, onun ağıllı məsləhətlərinə əsərlərində geniş yer vermişdir.

Nizamiyə görə, müəllim özünün dərin biliyi, yüksək mənəviyyatı, əxlaqı ilə seçilməlidir. Dahi mütəfəkkir müəllimin ikinci mühüm keyfiyyətini onun əxlaqında, mənəvi paklığında, təmizliyində görür, müəllim nümunəsinə, müəllim sözünə böyük əhəmiyyət verərək onun tərbiyəçi olmasına da diqqət yetirirdi. Onun təsvir etdiyi müəllimlər aqil, həm də gözəl mənəviyyatlı tərbiyəçidirlər və onların hərəkətləri, nümunələri ilə tərbiyə etdikləri qəhrəmanların mənəvi inkişafına, bir şəxsiyyət kimi formalaşmasına ciddi təsir göstərir. Nizami qəhrəmanları öz

müəllimlərinə böyük hörmət etmiş, hətta şahlıq tacına sahib olandan sonra belə öz müəllimlərini unutmamışlar. N. Gəncəvi müəllim-şagird münasibətləri haqqında qiymətli fikirlər söyləməklə unudulmaz müəllim obrazı yaratmışdır.

Prof. Ə. Ağayev "Təlim prosesi: ənənə və müasirlik" kitabında yazır: "Deməli, müasirlərimiz olan gənclərdə məntiqi, tənqidi, yaradıcı təfəkkürü, ünsiyyət mədəniyyətini formalaşdırmaq, onları praktik fəaliyyətə real olaraq hazırlamaq üçün istifadə etdiyimiz yeni metodların məqsədini klassik pedaqoji irsimizə söykənərək cilalamalı və bununla kamil insanın, fəal vətəndaşın yetişməsinə şərait yaratmalıyıq" [2]

Məktəbəqədər təhsil sisteminin əsas məqsədi bir tərəfdən şəxsiyyət formalaşdırmaq, digər tərəfdən təhsilalanda, yaradıcı qabiliyyətləri inkişaf etdirməkdir. Bu gün təhsilin məzmununun formalaşdırılmasında nəzəri biliklərlə yanaşı, praktik bilik və bacarıqların da inkişaf etdirilməsi ön plana keçir. Dövlətin son dövrlərdə təhsilin bünövrəsi sayılan məktəbəqədər təhsil üzrə verdiyi qərarlarda və konseptual sənədlərdə proqramların məzmununun uşaqların həm sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə, həm də intellektual inkişafına istiqamətlənməsi prioritet məsələ kimi irəli sürülür.

Hazırda uşaqlar internet və kompüter aləmində böyüyürlər. Müasir informasiya texnologiyaları uşaqların həyatının bir hissəsinə çevrilmişdir. Uşaqların müasir texnologiyalardan asılılığı sosial davranış və qaydaların pozulmasına da gətirib çıxarır ki, bu da onların adi real ünsiyyətə girə bilməməsi, öz hərəkətləri üzərində nəzarətin itirilməsi, vaxtın çox hissəsinin kompüter arxasında keçirməklə, telefona baxmaqla xarakterizə olunur.

Biz artıq elə bir sürətlə dəyişən dövrdə yaşayırıq ki, təhsil sahəsində atılan addımlar müasir tələblərlə deyil, gələcəyin perspektivləri üzərində köklənməli və kəmiyyətə deyil, keyfiyyətə yönəlməlidir. Bugünkü uşaqların inkişafı ilə müqayisədə zəmanəmiz məktəbəqədər yaşlı uşaqların inkişafını daha da sürətləndirir və bununla da təlimin məzmununa yenidən baxılmasını tələb edir. Bu baxımdan müasir cəmiyyətin məktəbəqədər təhsil sahəsinin qarşısında qoyduğu tələblərə cavab vermək üçün ilk növbədə uşaqların hərtərəfli inkişafına, valideynlərin maarifləndirilməsinə, tərbiyəçi-müəllimlərin və digər pedaqoji kadrların səriştəliliyinin formalaşdırılmasına yönələn tədbirlərin həyata keçirilməsi vacibdir.

Beləliklə, müasir dünyanın təhsil paradiqmasında daha aydın görünən xüsusiyyətlər diqqəti cəlb edir. Onlardan birincisi kamil insan formalaşması problemidir. Başqa sözlə, kamil insan formalaşması təhsilin ana xəttidir. Bütün digər fəaliyyətlər bu xətdə birləşərək ümumi məqsədin reallaşdırılmasına təkan verir.

**Problemin aktuallığı.** Məktəbəqədər dövrdə uşaqların tərbiyəsi və təlimində yol verilən kiçik xətalar sonralar çox ciddi, qarşısı alınmaz nöqsanlar kimi özünü büruzə verir. Ona görə də həmin dövrdə heç bir şeyi nəzərdən qaçırmadan təhsil proqramı əsasında fəaliyyət göstərmək, uşaqları müstəqil fəaliyyətə hazırlamaq lazımdır.

**Problemin elmi yeniliyi**. Məktəbəqədər təhsil müəssisələrində də təlim-tərbiyə prosesi və onun məzmunu humanist pedaqogika ideyalarına əsaslansa daha səmərəli nəticələr əldə etmiş olarıq. Humanizm bəşəri problemlərdən biri olduğu üçün insan şəxsiyyətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislər faydalana bilər.

**Ədəbiyyat:**


1. 1."Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu". Bakı, 19 iyun, 2009-cu il // Təhsil - xəbərləri. 2009 -cu il, № 6, s.12-57.
2. Ağayev, Ə.Ə. Təməldən əmələ. (ədəbi düşüncələr) / Ə. Ağayev. Z. Əsgərli. -Bakı: "Azpoliqraf", - 2009. -s.328.
3. Bəşirov A. Təhsil fəlsəfəsi ümumi fəlsəfənin tərkib hissəsidir.ARTİ-nin Elmi əsərləri. -Bakı: -2014. № 1. – s .3-5.
4. Uşinski, K.D. Seçilmiş pedaqoji əsərləri. / K.D. Uşinski. -Bakı: Azərnəşr, -1953. -s.113
5. Занковский, Б.Б. "Психология детства". / Б.Б. Занковский -М.: Наука, -1996. -с.250
6. John Dewey. Democracy and Education. Introduction to the Philosophy of Education. Free Press: - NY, 1997. -səh. 2-3
7. https://www.undp.org/sites/g/files/zskgke326/files/migration/az/5.pdf


**E-mail:** sharafat_baxishova1960@mail.ru

**Redaksiyaya daxil olub:** 12.09.2024.

*UOT 37.0*

***Лариса Владимировна Колесникова***
*доцент*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# ПРОБЛЕМЫ МОДЕЛИРОВАНИЯ В ПЕДАГОГИЧЕСКОЙ НАУКЕ: АНАЛИЗ И ПЕРСПЕКТИВЫ

***Larisa Vladimirovna Kolesnikova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-0436-4050*
*https://doi.org/10.69682/arti.2024.91(5).38-41*

# PEDAQOJİ ELMDƏ MODELLƏŞDİRMƏ PROBLEMLƏRİ: TƏHLİL VƏ PERSPEKTİVLƏR

***Larisa Vladimirovna Kolesnikova***
*associate professor at the Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# PROBLEMS OF MODELING IN PEDAGOGICAL SCIENCE: ANALYSIS AND PROSPECTS

**Аннотация.** Проблемы моделирования в педагогической науке являются серьезным вызовом для ученых и практиков в области образования. Однако, путем совместных усилий и развития новых методологий мы можем преодолеть эти препятствия и создать более точные и эффективные модели, способствующие повышению качества образования и успешному развитию обучающихся.
***Ключевые слова:*** *проблемы моделирования, результат обучения, образовательный процесс, качество образования, методология*

**Xülasə.** Pedaqoji elmdə modelləşdirmə problemləri təhsil sahəsində alim və praktiklər qarşısında ciddi problemdir. Bununla belə, birgə səylər və yeni metodologiyaların inkişafı ilə biz bu maneələri dəf edə, təhsilin keyfiyyətinin yüksəldilməsinə və tələbələrin uğurlu inkişafına töhfə verən daha dəqiq və effektiv modellər yarada bilərik.
***Açar sözləri:*** *modelləşdirmə problemləri, təlim nəticəsi, tədris prosesi, təhsilin keyfiyyəti, metodologiya.*

**Abstract.** Problems of modeling in pedagogical science are a serious challenge for scientists and practitioners in the field of education. However, through joint efforts and the development of new methodologies, we can overcome these obstacles and create more accurate and effective models that contribute to improving the quality of education and the successful development of students.
***Keywords:*** *modeling problems, learning outcome, educational process, quality of education, methodology.*

В современном мире педагогическая наука сталкивается с множеством вызовов, в том числе и с проблемами, связанными с процессом моделирования. Моделирование в педагогике играет ключевую роль в предсказании результатов образовательного процесса, оптимизации методов обучения и повышении эффективности учебного процесса. Однако, существуют определенные проблемы и ограничения, которые затрудняют процесс моделирования и требуют внимания со стороны научного сообщества и практикующих педагогов.

Моделирование образовательных процессов – это сложная задача, которая включает в себя учет множества переменных

и факторов, влияющих на процесс обучения и достижение учебных целей. Рассмотрим подробнее, какие именно факторы делают этот процесс настолько сложным.

Один из основных факторов, влияющих на сложность моделирования образовательных процессов, – это уникальные индивидуальные особенности каждого учащегося. Ученики имеют разные стили обучения, скорости усвоения материала, уровни мотивации, способности и предпочтения, которые необходимо учитывать при создании модели. Например, некоторые ученики предпочитают визуальные методы обучения, в то время как другие предпочитают аудиальные или кинестетические методы.

Контекст, в котором происходит обучение, также оказывает значительное влияние на процесс образования. Социокультурные факторы, такие как культурные особенности, социальный статус, языковые и этнические различия, могут существенно влиять на то, как учащиеся воспринимают информацию, общаются и учатся. Моделирование образовательных процессов должно учитывать эти различия и адаптироваться к разнообразным социокультурным контекстам.

Роль учителя в образовательном процессе также играет важную роль. Различные учителя могут применять разные методы обучения, иметь разный стиль преподавания, разную эффективность и степень подготовки. Учителя могут влиять на мотивацию и успехи учеников, их понимание материала и уровень учебной дисциплины. Моделирование образовательных процессов должно учитывать эти различия и принимать их во внимание при построении моделей.

Оценка результатов обучения – это сложный и многогранный процесс, который также добавляет сложности в моделирование образовательных процессов. Оценка может включать в себя как формативные, так и суммативные методы оценки, различные виды тестирования, практические работы, проектные задания и многое другое. Разработка модели, которая учитывает разнообразие методов оценки и их влияние на образовательный процесс, представляет собой сложную задачу.

Наконец, образовательные системы являются динамичными и постоянно изменяющимися, что также добавляет сложности в моделирование. Образование подвержено влиянию различных трендов, технологическим инновациям, изменениям в учебных планах и стандартах, а также социокультурным и экономическим изменениям. Моделирование образовательных процессов должно быть гибким и адаптивным, чтобы учитывать эти постоянные изменения и обеспечивать актуальность моделей.

В моделировании образовательных процессов одной из ключевых проблем является недостаток доступных и достоверных данных. Отсутствие качественных данных или их недостаточное количество создает значительные трудности при построении точных и надежных моделей, что затрудняет понимание и прогнозирование развития образовательных систем. Рассмотрим более подробно, какие именно аспекты делают эту проблему настолько значимой.

Одной из основных проблем является недостаточное количество количественных данных о различных аспектах образовательных процессов. Например, информация о характеристиках учеников (уровень образования родителей, домашняя обстановка, медицинская история и т.д.), методах преподавания, качестве учебных материалов и инфраструктуре учебного заведения может быть неполной или отсутствовать вовсе. Это затрудняет анализ и построение моделей, основанных на эмпирических данных.

Доступ к данным также является проблемой, особенно когда речь идет о конфиденциальных или защищенных данных, таких как учебные успехи учащихся или результаты стандартизированных тестов. В некоторых случаях, из-за законодательных ограничений или политики учебных заведений, доступ к этим данным ограничен или вообще недоступен для исследователей и ученых. Это препятствует использованию этих данных для построения более точных моделей образовательных процессов.

Даже при наличии данных их достоверность может вызывать сомнения. Некоторые данные могут быть подвержены искажениям или ошибкам при сборе или обработке, что снижает их ценность для моделирования. Например, данные, собранные путем анкетирования, могут быть подвержены субъективным искажениям из-за несоответствия ответов действительности или нечестного представления информации.

Для построения надежных моделей образовательных процессов необходимы данные на протяжении длительного времени, чтобы отслеживать долгосрочные тенденции и изменения. Однако, в реальности часто отсутствует система сбора и хранения долгосрочных данных об образовательных процессах, что делает невозможным анализ долгосрочных эффектов и последствий различных образовательных инициатив и изменений.

Еще одной проблемой является сложность в интеграции и связывании различных источников данных для создания комплексных моделей образовательных процессов. Данные могут храниться в различных форматах, находиться в разных базах данных или быть недоступными для публичного использования. Это создает трудности в обработке и анализе данных, что ограничивает возможности моделирования.

Недостаток достоверных данных является серьезным препятствием для моделирования образовательных процессов. Для разработки точных и надежных моделей необходимы качественные и доступные данные, отражающие разнообразные аспекты учебного процесса. Решение этой проблемы требует совместных усилий ученых, образовательных учреждений и правительственных организаций для улучшения систем сбора, хранения и распространения данных в образовании.

Валидация моделей играет ключевую роль в образовательной науке, поскольку она позволяет убедиться в точности и применимости разработанных моделей для решения конкретных образовательных задач. Однако, в процессе валидации возникают ряд ограничений, которые затрудняют полноценную проверку моделей и требуют внимательного рассмотрения. Давайте рассмотрим эти ограничения подробнее.

Один из основных ограничений валидации моделей в образовании связан с ограниченностью доступных ресурсов для проведения экспериментов. Реальные образовательные учреждения могут быть не готовы или не иметь возможности для проведения длительных исследовательских проектов или экспериментальных образовательных программ. Это затрудняет оценку эффективности моделей на практике и создает ограничения для проведения полномасштабных экспериментов.

Валидация моделей образовательных процессов часто сталкивается с проблемами в установлении причинно-следственных связей между внедрением конкретной модели и наблюдаемыми результатами обучения. Образовательные процессы могут быть влиянием множества факторов, что делает сложным определение, какие именно аспекты моделирования привели к изменениям в обучении и достижении учебных целей.

Оценка долгосрочных эффектов моделей является еще одним ограничением в процессе валидации. Образовательные изменения могут потребовать многих лет для полного осуществления, и результаты их влияния могут быть непредсказуемыми и сложными для измерения. Ограниченность времени и ресурсов делает невозможным проведение долгосрочных исследований, что ограничивает возможности оценки долгосрочных эффектов моделей.

Стандартизация оценочных методик также представляет собой ограничение в процессе валидации моделей. Различные образовательные учреждения или системы могут использовать различные методики оценки успеваемости или критерии для оценки эффективности обучения. Это затрудняет сравнение результатов и создание общих критериев для оценки эффективности моделей.

Ограничения валидации моделей в образовании являются серьезным вызовом для исследователей и практиков. Для преодоления этих ограничений необходимы

совместные усилия ученых, образовательных учреждений и правительственных организаций для разработки стандартов валидации, создания инновационных методик оценки.

**Актуальность проблемы.** В современной образовательной среде становится все более очевидной необходимость разработки и применения новых методологий в моделировании образовательных процессов. Это обусловлено рядом факторов, включая быстрое развитие технологий, изменение социокультурных условий, а также необходимость эффективного адаптирования образования к современным вызовам.

**Новизна проблемы.** Одним из основных аргументов в пользу развития новых методологий является сложность и динамичность современных образовательных систем. Традиционные методы и подходы могут оказаться недостаточными для эффективного реагирования на современные вызовы, такие как быстрое развитие технологий, изменение требований рынка труда и социокультурные изменения. Новые методологии должны быть способны адаптироваться к этим изменениям и обеспечивать актуальность и релевантность образования.

**Практическая значимость проблемы.** Развитие новых методологий также способствует интеграции междисциплинарных подходов в образовательном исследовании. Успешное моделирование образовательных процессов требует сотрудничества между специалистами различных научных дисциплин, таких как педагогика, психология, социология, информатика и другие. Новые методологии должны быть способны объединять различные методы и подходы для создания комплексных моделей образовательных процессов.

**Литература:**

1. Васильева Н.С. Моделирование образовательных систем. -Санкт-Петербург, 2016, -112 с.
2. Гаврилова Т. С. Модели и методы в педагогике. -Москва, 2015, -95 с.
3. Иванов М. П. Педагогическое моделирование: методология и практика. -Москва, 2019, -158 с.
4. Казакова Е.В. Современные подходы к моделированию в педагогике. -Санкт-Петербург, 2020, -88 с.
5. Смирнова И. В. Модели и методики в педагогической практике. -Москва, 2019, -127 с.

**E-mail:** larisa37288@gmail.com
**Redaksiyaya daxil olub:** 24.09.2024.

*UOT 159.9*

***Kübra Nazim qızı Mehtiyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/ 0009-0009-0097-049X*
*https://doi.org/10.69682/arti.2024.91(5).42-45*

# MÜASİR TƏHSİL SİSTEMİNDƏ YENİYETMƏLƏRİN İNTELLEKTUAL VƏ FƏRDİ İNKİŞAFININ NƏZƏRƏ ALINMASI

***Кюбра Назим гызы Мехтиева***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# УЧЕТ ИНТЕЛЛЕКТУАЛЬНОГО И ИНДИВИДУАЛЬНОГО РАЗВИТИЯ ПОДРОСТКОВ В СОВРЕМЕННОЙ СИСТЕМЕ ОБРАЗОВАНИЯ

***Kubra Nazim Mehtiyeva***
*teacher of the Azerbaijan State Pedagogical University*

# CONSIDERATION OF ADOLESCENTS' INTELLECTUAL AND PERSONAL DEVELOPMENT IN THE MODERN EDUCATION SYSTEM

**Xülasə.** Məqalədə müasir təhsil sistemində yeniyetmələrin intellektual və fərdi xüsusiyyətlərinin nəzərə alınmasından bəhs edir. Təhsil cəmiyyətin vəziyyətini və onun inkişaf istiqamətini əks etdirməklə yanaşı, ona güclü təsir göstərmək imkanlarından da istifadə edir. Halbuki təhsil elm və mədəniyyətin bir hissəsi kimi onun inkişafına təkan verən, şəxsiyyətin formalaşmasına təsir göstərən əsas vasitədir. Yeniyetməlik dövründə olan uşaqların intellektual və fərdi xüsusiyyətlərini nəzərə almaqla təhsil sistemində daha effektiv nəticə almaq mümkündür.
***Açar sözlər:*** *məktəb, təhsil, şagird, psixologiya, intellektual, fərdi, pedaqoji psixologiya*

**Аннотация.** В статье повествуется об учете интеллектуальных и индивидуальных особенностей подростков в современной системе образования. Образование не только отражает состояние общества и направление его развития, но и использует возможности оказывать на него сильное влияние. Однако образование как часть науки и культуры является основным средством, способствующим ее развитию и влияющим на формирование личности. Получить более эффективные результаты в системе образования можно, учитывая интеллектуальные и индивидуальные особенности детей в период подросткового возраста.
***Ключевые слова***: *школа, образование, ученик, психология, интеллектуальная, индивидуальная, педагогическая психология*

**Abstract.** The article talks about taking into account the intellectual and individual characteristics of teenagers in the modern education system. Education not only reflects the state of society and its development direction, but also uses opportunities to exert a strong influence on it. However, education as a part of science and culture is the main tool that promotes its development and influences the formation of personality. It is possible to get more effective results in the education system by taking into account the intellectual and individual characteristics of children in the period of adolescence.
***Keywords:*** *school, education, student, psychology, intellectual, individual, pedagogical psychology*

Təhsil cəmiyyətin vəziyyətini və onun inkişaf istiqamətini əks etdirməklə yanaşı, ona güclü təsir göstərmək imkanına malikdir. Hazırda təhsil paradiqmasında baş verən növbəti yeniləmə insan cəmiyyətinin postindustrial dövrə keçidi ilə bağlıdır və bu proseslər mütəxəssisin peşəkarlığına olan tələbləri müəyyən edir. Gələcək mütəxəssislərin məktəb yaşından

başlayaraq peşəkar inkişaf prosesinin müxtəlif mərhələlərini keçməsi vacibdir. Post-sənaye dövründə lazımi mütəxəssis statusuna nail olmaq üçün təkcə peşəkar bacarıqlara deyil, həm də tələb olunan yeni dövrü əks etdirən universal səriştələrə malik olmaq da vacibdir şərtlərdəndir.

Şəxsiyyətin intellektual imkanları daxili azadlıq və psixi sağlamlıq üçün zəruri şərt olmaqla, müasir insanın dəyişən sosial-iqtisadi şəraitə uyğunlaşmasına kömək edir və bütövlükdə cəmiyyətin inkişafında reqressiv meyllərə müqavimət göstərir. Hal-hazırda, sürətlə dəyişən dünyada uşaq və yeniyetmələrin inkişafının təbiətinə yenidən baxılması məsələsi aktuallaşır, çünki onun fərdi mərhələlərinin psixoloji məzmunu, həssas və kritik dövrlər haqqında məlumatların yenilənməsi lazımdır. Bu, yaşa bağlı imkanları və məhdudiyyətləri başa düşmək və uşağa öz potensialını reallaşdırmaqda köməklik təşkil etmək üçün lazımdır.

İnkişafın bütün tərəfləri keyfiyyətcə yenidən qurulur, yeni psixoloji formasiyalar yaranır və formalaşır, şüurlu davranışın əsasları qoyulur, sosial münasibətlər formalaşır. Bu transformasiya prosesi yeniyetmə uşaqların bütün əsas şəxsiyyət xüsusiyyətlərini müəyyənləşdirir ümumi təhsil təşkilatlarında təhsil tədris materialının strukturunda və məzmununda əhəmiyyətli dəyişikliklər və mürəkkəbləşmə, onun həcminin artması ilə əlaqədardır ki, bu da gənc yeniyetmələrə olan tələblərin səviyyəsini artırır. Onlardan çevik, universal, koqnitiv fəaliyyətdə məhsuldar, aydın və idrak problemlərinin həllində müstəqil olmaları gözlənilir. Gələcəyə diqqət yetirmək, peşəkar və şəxsi müqəddəratını təyin etmək üçün məqsədlərin qoyulması idrak proseslərinin inkişafı da daxil olmaqla, zehni inkişafın bütün prosesində əks olunur.

Yeniyetməlik idrak inkişafının xüsusi bir mərhələsidir, bu dövrdə uşaqların intellektual mexanizmlərinin düzgün şəkildə dəyişdirilməsi və "böyük tipli" intellektin formalaşması baş verir. İntellektual sahənin yenidən qurulması özünüdərketmə və özünütənzimləmə strukturunun formalaşması üçün əsasdır, mənəvi inkişafa əhəmiyyətli təsir göstərir, həmçinin yeniyetmə böhranının adekvat gedişatına kömək edir.

Yeniyetməlik və onun xüsusiyyətləri bütün dövrlərdə tədqiqatçıların diqqətini cəlb edən əsas mövzulardan olmuşdur. Bununla belə, əsas maraq ilk növbədə yeniyetməlik dövründə baş verən anatomik və fizioloji dəyişikliklər və onun emosional-iradi sferanın inkişafına təsiri, həmçinin yeniyetmənin özü və ətrafındakı insanlar, həmyaşıdları və böyüklərlə münasibətləri haqqında və sosial mühitdə tutduğu yeri haqqında təsəvvürlərindəki dəyişikliklərdir. Bu, dövrdə yeniyetmələrin təhsil fəaliyyətindən şəxsiyyətlərarası ünsiyyət sferasına yönləndirilməsinin səbəbi aparıcı fəaliyyət növündə dəyişməsi ilə əlaqədardır; Eyni zamanda, yeniyetməlik dövrünün ən vacib aspektlərindən biri - intellektual inkişafın dinamikası, əksər hallarda kənarda qalır.

İbtidai məktəb və yeniyetməlik uşaqlarının intellektual və şəxsi inkişaf dinamikasının izlənməsi nəticəsində belə bir nəticəyə gəlinmişdir ki, 7 yaşdan 14 yaşa qədər olan uşaqların intellektual və şəxsi inkişafı heteroxroniya və qeyri-bərabərliklə xarakterizə olunur ki, bu da psixi funksiyaların və xassələrin yetişməsinin hər bir fərd üçün müxtəlif sürətdə və vaxtda baş verməsi ilə xarakterizə olunur.

İxtisaslaşdırılmış təlim və onun intellekt göstəricilərinin dinamikasına təsiri ilə bağlı araşdırmalar xüsusi maraq doğurur, çünki müxtəlif təlim modellərini, xüsusən də riyaziyyat üzrə bir sıra kitablarda həyata keçirilən zənginləşdirmə modelini araşdırdıqda görürük ki, fizika, riyaziyyat təmayüllü siniflərdə oxuyan yeniyetmələrin idrak və şəxsi sahələrinin xüsusiyyətlərinin müqayisəli tədqiqi zamanı, Fizika və riyaziyyat kurslarında oxuyan tələbələr şifahi intellekt (xüsusilə analitik komponent) baxımından həmyaşıdlarından üstündürlər, lakin qeyri-verbal intellekt baxımından onlardan geridə qalırlar.

Erkən yeniyetməlik dövründə intellektual sahədə baş verən mühüm yeniliklərdən biri nəzəri təfəkkürün inkişafıdır: gənc yeniyetmələr üçün alınan məlumatları ümumiləşdirmək, ayrı-ayrı faktların arxasında ümumi qanunauyğunluqlar və faktlar axtarmaq vacibdir. Erkən yeniyetməlik dövrünün konkret olaraq intellektual sferaya olan tələbatını ödəmək üçün ümumi təhsil müəssisələrində verilmiş yaşın yaş xüsusiyyətlərini və intellektual təhsilin prinsip və vəzifələrini nəzərə almaqla intellektual təhsili təşkil etmək lazımdır.

İntellektual təhsil bu günün reallıqları və gələcəyin tələbləri ilə diktə olunan obyektiv ehtiyacdır. Bu gün iqtisadi və mədəni rəqabətdə o ölkələr qalib gəlir ki, gənc nəslin intellektual imkanlarının hərtərəfli inkişafı üçün şərait yaradılıb. Son illər ölkəmizdə intellektual inkişaf və təhsil probleminə çox böyük diqqət yetirilir. Gəlin intellektual təhsilin nə olduğuna baxaq.

Kiçik yaşlı uşaqların təbiət gözəlliklərinə sevgi, məhəbbət vacib bir məsələ kimi xalqı düşündürmüş və bu işdə ən mühüm rolu xalq ədəbiyyatı nümunələri oynamışdır. Əqli tərbiyənin mühüm vasitəsi kimi *yanıltmacların* yaradılmasının məqsədi diqqətin və nitqin inkişafına kömək göstərməkdən, dildə olan çətin sözləri yaxşı tələffüz etməyi bacarmaqdan, həmin sözləri tez-tez danışmaqla, təkrarlamaqla düzgün demək vərdişinə yiyələnməkdən, dildə olan qüsurları aradan qaldırmaqdan, diqqəti toplamaqdan, söz ehtiyatını zənginləşdirməkdən ibarətdir (Əliyev İ., 2009:175). Yanıltmaclarda bir-birinə uyuşmayan, deyilişi çətin olan sözlərdən istifadə olunur. Məsələn, «Qırx küp, qırxının da qulpu qırıq küp», «Bazarda nə ucuz? – Mis ucuz, duz ucuz, küncüt ucuz». Əgər uşaq sözləri düzgün və sərrast demək bacarığına yiyələnməyibsə, bunların hər hansı birini deyəndə mütləq çaşacaq, dili dolaşacaq. Çünki, bir-birinə oxşar olan bu sözləri təkrarlamaq adamı çaşdırır. Belə olduqda gülünc sözlər yaranır ki, deyən uşaq bir də o vəziyyətə düşməmək üçün həmin yanıltmacları dəfələrlə təkrarlayır, öz səhvlərini başa düşür, düzəldir və bunun nəticəsində düzgün tələffüz etmək vərdişinə yiyələnir. Yanıltmaclardan söz oyunlarında geniş istifadə olunur. Son dövrlərdə uşaqlar arasında yaranıb yayılan sözün son səsinə görə şəhər, kənd, çay, dəniz, şəxs, quş, heyvan, dağ və s. adı tapma oyunu da söz oyunları sırasında durur. Məsələn: uşaqlardan biri şəhər adı deyir: «Şəki». Növbəti uşaq bu sözün son səsinə uyğun olaraq «i» saiti ilə başlanan şəhər adı söyləməlidir: "İmişli". Bu qayda üzrə uşaqlar hamısı şəhər adı söyləyirlər: İrkutsk, Kiyev, Volqoqrad, Daşkənd, Dəməşq, Qori və s. Kim tapa bilməsə, o uduzmuş hesab edilir və udanın arzusuna müvafiq bir işin öhdəsindən gəlir.

Xalq uşaqların tərbiyəsində oyunun rolunu danmamış və unutmamış, başqa vasitələrlə yanaşı oyuna da xüsusi yer verilməsini vacib saymışdır. Xalq oyunları ən qədim dövrlərdən xalqın məişət həyatını, əyləncə dünyasını özündə əks etdirmək baxımından xüsusi maraq doğurur. Belə xalq oyunları mövzu, məzmun, yaranma yolu və formaları baxımından da çox zəngin və rəngarəngdir. Xalq oyunları uşaqlarda əxlaqi hiss və vərdişlərin tərbiyəsində, kollektivçilik xüsusiyyətlərinin inkişafında, yaxşılıq və pislik haqqında təsəvvürlərin yaranmasında, doğru və səhvin fərqləndirilməsində, xarakterik iradi əlamətlərin təşəkkülündə, dostluq, yoldaşlıq, məsuliyyət və s. kimi keyfiyyətlərinin formalaşması ilə yanaşı, uşaqların nitqlərinin inkişaf etdirilməsində rolu çox böyükdür. Xalq oyunları düzgün təşkil olunduqda, eləcə də onlara düzgün rəhbərlik edildikdə, uşaqlara dərin zövq verir. Oyunda hərəkətlərin gözəlliyinin başa düşülməsi, oyundan zövq almaq uşaqlarda əsasən, estetik tərbiyənin inkişafına təsir göstərir. Xalq oyunlarına misal olaraq: "Dəsmalı aldı qaç", "Usta şagird", "Yoldaş səni kim apardı", "Pula-pula", "Qələndər, ay qələndər", "Papaq aldı qaç", "Bənövşə", "Şənlik", "Əl üstə kimin əli" və s. qeyd etmək olar.

Beləliklə, göstərilən nümunələr bir daha sübut edir ki, məktəbəqədər dövrdə uşaqların tərbiyəsinin inkişaf etdirilməsində folklor nümunələrində zəngin material vardır və bunlar böyük pedaqoji əhəmiyyətə malikdir. Folklor nümunələrinin yaşamasına və bu günə qədər gəlib çatmasına səbəb isə tərbiyəedicilik qüvvəsini doğrultmaq və qoruyub saxlamaqdır. Folklor nümunələri hələ qədimdən ulularımızın gənc nəsli tərbiyə etmək vasitəsi olmuşdur və burada öz əksini tapmış tərbiyəvi fikirlər bu günün də tələblərinə cavab verir. Xalq böyüməkdə olan nəslin tərbiyəsinə məhz estetik tələblərlə yanaşaraq, həyatın bütün məqamlarında ona önəm vermişdir. Folklor nümunələrindən uşaq bağçaları ilə yanaşı ailələrdə də, uşaqların yaş, anlaq səviyyəsinə uyğun olaraq seçilib söylənilməli və onlara xalq tərəfindən təqdir olunan mənəvi keyfiyyətlər və tənqid olunan mənfi sifətlər barədə məlumat verilməlidir.

**Problemin aktuallığı.** Məktəbəqədər dövrdə uşaqların tərbiyəsində və yaradıcı inkişafında folklor nümunələrinin ideyaları ibrətamiz və əhəmiyyətlidir. İnsan həyatının qızıl dövrü adlandıran bu mərhələdən səmərəli istifadə olunmadıqda uşaqlarda formalaşmış yanlış təsəvvürlərin sonralar düzəldilməsi ciddi çətinliklə qarşılanır. Bütün bu prosesləri nəzərə alaraq folklor nümunələri uşaqların tərbiyəsinə təsir imkanları bu və ya digər şəkildə tədqiq edilsə də, bu sahədə onun məqsəd və vəzifələri öyrənilməmiş, ümumiyyətlə açıq qalmışdır. Apardığımız tədqiqat

bu problemin öyrənilməsinə və həlli yollarının araşdırılmasına həsr edilmişdir.

**Problemin elmi yeniliyi.** Bu məqalədə, ilk dəfə olaraq, uşaq bağçalarında folklor nümunələrindən istifadənin əhəmiyyəti araşdırılmış, məqsəd və vəzifələrinin əhəmiyyəti və həlli yolları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən təkliflər və nəticələr, müasir dövrdə uşaq bağçalarında folklor nümunələrindən istifadənin əhəmiyyəti müvəffəqiyyətlə həyata keçirilməsini təşkil etmək və uşaqların inkişafında nəzərə alınmasına köməklik göstərməkdir. Bu məlumatlar vasitəsilə istər tərbiyəçilər, istərsə də valideynlər uşaqların inkişafı, tərbiyəsi və təhsilini müvəffəqiyyətlə həyata keçirilməsini təşkil edə bilər.

**Ədəbiyyat:**

1. Əliyev İ. Azərbaycan etnopedaqogikası / İ. Əliyev. -Bakı: Elm və təhsil, -2009. -269 s.
2. Əliyev, İ. Təlim-tərbiyə prosesində etnopedaqoji materiallardan istifadə. / İ. Əliyev Bakı: Nurlan, -2005. -196 s.
3. Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı. / P. Əfəndiyev -Bakı: Maarif, -1992. -350 s.
4. Həşimov, Ə.Ş., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. / Ə.Ş. Həşimov. Bakı: Patronat, -1993. 272 s.
5. Həşimov, Ə.Ş. Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə. / Ə.Ş. Həşimov. -Bakı: Maarif, -1984. -238 s.
6. Həkimov, M. Xalqımızın deyimləri və duyumları. / M. Həkimov -Bakı: Maarif, -1986. -198 s.
7. Kazımov, N. Pedaqogika. / N. Kazımov, Ə. Həşimov. -Bakı: Maarif, -1996. -494 s.
8. Qafarlı, R. Uşaq folklorunun janr sistemi və poetikası. / R. Qafarlı. -Bakı: Elm və təhsil, -2013. -542 s.
9. Uşaq folkloru. -Bakı: Altun kitab, -2007. -96 s.

**E-mail:** yeganememmedova.doc@gmail.com

**Redaksiyaya daxil olub:** 09.09.2024

*UOT 373.2*

***Esmira German qızı Əliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/0009-0005-0288-5927*
*https://doi.org/10.69682/arti.2024.91(5).60-64*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN EKOLOJİ TƏRBİYƏSİ

***Эсмира Герман гызы Алиева***
*преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# ЭКОЛОГИЧЕСКОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Esmira German Aliyeva***
*teacher at the*
*Azerbaijan State Pedagogical University*

# ECOLOGICAL UPBRINGING OF PRESCHOOL CHILDREN

**Xülasə.** Məqalədə məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsinin formalaşdırılmasının mahiyyəti və onun təhlilindən bəhs edilir. Vurğulanır ki, ekoloji tərbiyə haqda fikirlər ilkin olaraq müxtəlif folklor nümunələrində, dini mənbələrdə və dastanlarda öz geniş əksini tapmışdır.

Ekoloji tərbiyənin müxtəlif komponentlərinin təhlilinə də məqalədə geniş yer verilir. Məşğələ prosesində bu işin tərbiyəçi-müəllim tərəfindən necə aşılanması da təqdim olunur.

***Açar sözlər:*** *məktəbəqədər, uşaq, ekoloji tərbiyə, formalaşdırma, təhlil, mahiyyət*

**Аннотация.** В статье повествуется о сущности формирования экологического воспитания дошкольников и его анализ. Подчеркивается, что идеи экологического воспитания изначально широко отражались в различных фольклорных образцах, религиозных источниках и эпосах.

В статье уделено достаточное место анализу различных компонентов экологического образования. Представлено также, как учитель-воспитатель прививает эту работу в процессе обучения.

***Ключевые слова:*** *дошкольное, ребенок, экологическое воспитание, формирование, анализ, сущность*

**Abstract.** The article discusses the essence of the formation of environmental education of preschool children and its analysis. It is emphasized that the ideas about ecological education were initially widely reflected in various folklore examples, religious sources and epics.

The analysis of various components of environmental education is given ample space in the article.

In the training process, it is also presented how to instill this work by the tutor-teacher.

***Keywords**: preschool, child, environmental education, formation, analysis, essence*

**Ekologiya** yunan sözü olub, iki hissədən ibarətdir. Eykos – ev, yurd, vətən və loqos – elm mənasını verir və yurd, ev, Vətən anlayışları ilə qarşılıqlı əlaqədə olan məsələləri – təbiətlə orqanizm arasındakı əlaqələri öyrənir. Deməli, canlı təbiət və onun ayrı-ayrı ünsürləri xarici aləmin qarşılıqlı münasibətlərini öyrənən elm **ekologiya** adlanır.

Ekoloji tarazlığın qorunub saxlanmasına bütün dünya xalqlarında rast gəldiyi kimi Azərbaycan folklorunda da geniş yer verilmişdir. Bunun səbəbi odur ki, insan təbii mühitsiz yaşaya bilməz. “Qurani–Kərim”də göstərilir ki, Allah bütün görünən nemətləri insan üçün yaratmışdır. Lakin insan Allahın verdiyi bu nemətləri dağıdıb məhv etməməlidir, öz rifahı naminə onu qoruyub saxlamalıdır. Azərbaycan şifahi xalq yaradıcı-

lığında təbiəti və onun sərvətlərini qorumaq üçün yasaqlara, qadağalara rast gəlirik.

"Balalı quşun yuvasını dağıtmazlar", "Bar verən ağacı kəsməzlər", "Axar suya tüpürməzlər" və s. O cümlədən atalarımızın alqışları var: "Axar suyun quruması", "Kölgən qalın olsun", "Yanan çırağın sönməsin" və s. Bu barədə bayatılarımız da vardır ki, bunların da bir neçəsini misal gətirmək olar.

Maral durduğu yerdə
Boynunu burduğu yerdə
Ovçunun qolu sınsın
Maralı vurduğu yerdə

Belə misallardan aydın olur ki, hələ ata–babalarımız öz öyüdlərində, nəsihətlərində insanları təbiəti qorumağa çağırırdı. Əgər bu gün biz təbiətlə vəhşicəsinə rəftar etsək, təbiət onun qisasını bizdən alacaq. Təmiz, saf bulaqlar quruyacaq, ağaclar məhz olacaq, onda da təbiətdə oksigen qıtlığı yaranacaq ki, bu da həyatın məhvi deməkdir. Təbiət bizi həm yedizdirir, həm də sağlamlığımızı qoruyur. Atalar deyib: "Əkiblər yemişik, əkirik yeyərlər". Bu nə deməkdir? Demək həyat intensiv surətdə inkişaf edir, insan isə bu inkişafın daşıyıcısıdır.

Təbiətə və ətraf mühitə münasibət, ekoloji tərbiyə folklor nümunələrinin mühüm hissələrindən biri olan "Kitabi-Dədə Qorqud" dastanında da öz əksini tapır. Dastanda hadisələr cərəyan etdiyi zaman 9-11-ci əsrlər hesab edilir. Dədə Qorqud hekayələrində təbiətlə birlikdə yaşamaq, təbiətə bağlı olmaq əsas məsələ hesab edilir. Dünyada yaşayan bütün insanların təbiətə hər zaman ehtiyacı olub və bunun ən konkret ifadəsi "Kitabi-Dədə Qorqud" dastanıdır. Türk inancına görə təbiətdəki hər canlının bir ruhu olduğu və bəzilərinin müqəddəs olduğu dastanda özünü göstərir. İnsanlar təbiətlə birlikdə yaşayarkən təbiəti canlı varlıq kimi görür, təbiətə hörmət edirlər.

"Kitabi-Dədə Qorqud dastanının bir çox yerində dağlar, daşlar, sular, quşlar kimi bir çox təbii varlıqlar danışılır və onlar üçün dualar edilir. Məsələn "Oğuzlar, dağlarla danışır, dağlara dua edir, lənət oxuyur, onların qocalmasından, yıxılmasından qorxur, onlara rəhmət diləyir, şəfa diləyir, and içir, salam verirlər".

Dastanın sonunda Dədə Qorqudun millət üçün etdiyi duada təbiətin çox əhəmiyyətli olduğu öz əksini tapır. Hər dəfə dağların, ağacların, suyun insanların həyatında çox mühüm yeri olduğu vurğulanır. Türk dastanlarında dağlar, çaylar, sular, ağaclar bir-birindən ayrılmazdır.

Türk mifoloji düşüncəsində təbiətlə birlikdə yaşayan insanlar həmişə təbiətə ehtiyac duymuşlar. İnsan psixoloji olaraq ehtiyac duyduğu varlığa hörmət etməli, ona yaxşı davranmalıdır. Qədim türk inancında türklər təbiətə olan ehtiyaclarına görə yer üzünə xeyirxahlıqla yanaşaraq onun yaxşılığından faydalanmış, ona zərər verməmişlər. "Yerin canlı varlıq kimi təsəvvür edilməsinə dair nümunələr ibtidai dövrlərdən bəri mövcud olmuşdur. Torpaq da canlı var-lıqdır, ona gözəl və yaxşı davranılmalıdır ki, insana bar versin.

Dastanda göründüyü kimi insanların təbiətə sevgi və hörməti qədim türk inancına əsaslanır. Türklərdə təbiət sevgisi İslamdan əvvəlki türk inanclarına söykənir.

"Türk mifologiyasında təbiətin canlı bir varlıq olduğuna dair çoxlu nümunəvi inanc və davranışlar vardır. Altaylılar üçün dağların, çayların və göllərin adları sadə, adi adlar deyil, ruhların xüsusi adını ifadə edir. Məsələn, Əbu-Kaan dağı, Süd gölü, Ağ-Qaya qayası kimi coğrafi məkanlar canlı varlıq olmaqla yanaşı, Tanrının yer üzündəki əksidir. Ekoloji şüur yaratmaq üçün köhnə türk inancının rəvayətlərindən faydalanmaq mümkündür. Türk mif təxəyyülündə yer, su ruhlarına inanan hər bir varlığın ruhu olduğu düşüncəsinə əsaslanaraq, yer üzündəki bütün varlıqlara hörmət etmək ideyası ətraf mühitə şüurlu perspektivlə yanaşma tərzini inkişaf etdirə bilər" (3, s. 3).

Azərbaycan folklorunda ekoloji tərbiyənin əsas problemlərindən biri də təbii mühiti öz arzu və istəklərinə yönəltməkdir. Bu məqsədlə xalq müdrikləri müxtəlif mərasimlər təşkil edir, xalq mahnıları oxuyurlar. Bu məqsədlə "Xıdır Nəbi" mərasimi keçirilir. Filologiya elmləri doktoru, professor Əsgər Qədimov Naxçıvanda keçirilən "Xıdır Nəbi" mərasiminin mifoloji qaynaqlarını araşdırmış, bu mərasimin aktuallığını yazın gəlişi ilə izah etmişdir. Araşdırmalardan aydın olur ki, "Xıdır Nəbi" mərasimi insanların təbiətə təsir etmək, onu öz istəklərinə uyğunlaşdırmaq və qış soyuq günlərini qovmaq məqsədi ilə yaradılmışdır. İnsanlar qışın soyuq ekoloji təsirlərindən xilas olmaq və yaz fəslinin təbii mühitini bərpa etmək üçün "Xıdır" adlı əfsanəvi şəxsiyyət yarat-mışlar.

Ekologiya dövlət tərəfindən də qorunmağa başlamış, hələ əsrimizin 20-ci illərində təbiəti qorumaq haqqında bir neçə dekret verilmişdir. Ekoloji tərbiyəyə dair müstəqillik dövründə daha ciddi qərarlar verildi, meşələrin salınması, təbiətin qorunması quşların, heyvanların qorunmasına xüsusi diqqət yetirilir. Odur ki, Azərbaycan Respublikası Konstitusiyasının II fəslinin 78-ci maddəsində deyilir ki, ətraf mühitin mühafizəsi hər bir şəxsin borcudur. Buradan da aydın olur ki, təbiəti qorumaq Azərbaycan Respublikasının hər bir vətəndaşının müqəddəs borcu və vəzifəsidir.

"İndi ekologiya dedikdə, ətraf mühitin – torpağın, suyun, havanın çirklənmədən qorunması və təmiz saxlanması başa düşülür.

Qeyd etməliyik ki, ekologiya XX əsrin elmidir. Yəni bu əsrdə kütləvi hal almış ekoloji böhran – kütləvi qırğın silahlarının hazırlanması və qeydiyyatdan keçirilməsi, kosmik uçuşlar, atom-nüvə reaktorları, kimya zavodları və kimyəvi məhsullar, sənayenin inkişafı naminə təbiətə təcavüz, meşələrin qırılması, çayların istiqamətinin dəyişdirilməsi, dağların partladılması, müharibələr və s. bu elmin yaranmasına səbəb olmuşdur. Beləliklə, pedaqogika elmində "ekoloji tərbiyə" məfhumu yaranmış və böyüməkdə olan nəslin ekoloji tərbiyəsi aktual problemə çevrilmişdir" (1, s.135).

Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək üçün ölkə vətəndaşlarının ekoloji mədəniyyətinin inkişaf etdirilməsi pedaqoq alimlər, tərbiyəçi-müəllimlər qarşısında mühüm vəzifə olaraq qoyulmuşdur. Ekoloji mədəniyyətin formalaşdırılması fasiləsiz olaraq ailədən, uşaq bağçalarından başlayaraq, orta məktəbdə və nəhayət ali məktəblərdə aparılmalıdır.

Uşaq bağçası uşaqların dünyagörüşlərinin genişlənməsi üçün bir mərhələdir. Təhsil sisteminin ilk pilləsi olan məktəbəqədər tərbiyə uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malikdir. Kollektiv həyata və eyni zamanda cəmiyyətə uyğunlaşmaq baxımından bağça 2-3 yaşlı uşaqlar üçün ilk sınaq meydanı olur.

Məlum olduğu kimi müasir dünyanın ən böyük problemlərindən biri **ekoloji problemdir.** Ekologiyanın pisləşməsi, ətraf mühitin çirklənməsi bütün ölkələrdə olduğu kimi respublikamızda da ciddi narahatlıq doğurur. Elə buna görə də Prezident İlham Əliyev 2006-cı il sentyabrın 26-da Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planı haqqında sərəncam imzalamışdır. Habelə Prezident sərəncamı ilə 2010-cu il "Ekologiya ili" elan edilmişdir. Atmosferi qorumaq, təbiətin simmetriyasının pozulmasının qarşısını almaq in-sanların müqəddəs borcudur. Çünki təbiəti qorumaqla insan özünü qoruyur. İnsan orqanizmi təbiətlə ahəngdarlıq təşkil edir.

**Ekoloji tərbiyə** məqsədyönlü, mütəşəkkil proses olub təbiətin qorunmasına dair bilik, bacarıq və vərdişlər sisteminə verilməlidir. Bu, həm də doğma yurda, torpağa dərin məhəbbətdir. Bu məhəbbət uşaqlara erkən yaşdan aşılanmalıdır. Bununla əlaqədar tərbiyəçi-müəllimin qarşısında bir sıra vəzifələr durur. Əgər tərbiyəçi-müəllim təbiəti özü sevirsə, onu uşaqlara da sevdirəcək. Təbiətin qoynuna uşaqları gəzintiyə çıxararkən onların diqqətini körpə otlara, çiçəklərə yönəldir, onun gözəlliyini uşaqlara çatdırır. Hər fəslin öz gözəlliyi var. Tərbiyəçi-müəllim ayrı–ayrı fəsillərin özünəməxsus gözəlliyini onlara göstərməli, başa salmalıdır. Uşaqlar çox vaxt çəyirtkənin, milçəyin, qarışqanın qıçını qırıb onun hərəkətinə, çapalamasına uzun müddət baxır, xoşlarına gəlir, bunu təkrar edir. Bunu müşahidə edən yaşlılar dərhal uşaqlarla söhbət aparmalıdır, onların da canlı olduğunu, yaşamaq haqqı olduğunu başa salmalıdır. Yalnız tərbiyəçi-müəllim uşaqları gəzməyə aparır. Tərbiyəçi-müəllim uşaqlardan birinin təzə açılmış gülü qırdığını, əlində əzdiyini, sonra da atdığını görür. Belə olduqda tərbiyəçi-müəllim söhbət aparır ki, əgər hər uşaq bu gülün birini qırsa burda heç nə qalmaz. Amma o güllər yerində olanda hamının zövqünü oxşayır, onlardan xoşu gəlir. Ona görə də gülləri, çiçəkləri, meyvə budaqlarını qırmaq olmaz.

Alimlər son zamanlar apardıqları tədqiqatdan bu nəticəyə gəlmişlər ki, uşaqlıq illərində canlılara, o cümlədən bitkilərə qarşı amansız olan uşaqlar böyüyəndə də qəddar olurlar.

Ekoloji tərbiyənin zəruri komponentlərindən biri **Vətən sevgisidir.** Təbiəti sevmək, onu qorumaq, Vətəni sevmək Vətəni qorumaqdır. Vətən torpağının hər bir qarışı göylərə baş

çəkən uca dağları, dərin dərələri, sıldırım qayaları, bərəkətli torpaqları, güllü-çiçəkli yarpaqları, şəfa bulaqları, bol sulu çayları, gölləri, Xəzər dənizi bizim üçün əzizdir. Təbiətin özünü, onun formasını və faunası dəyişdirir. Təbiətin qorunması, onun bitki və heyvanlar aləminin qorunub saxlanması bu gün də öz əhəmiyyətini itirməmişdir. İndi elə heyvanlar, elə quşlar, elə bitkilər var ki, artıq onların nəsli kəsilmək üzrədir. Bunun səbəbi nədir? İnsanların onlara qarşı qəddarlığı. Heyvan da, bitki də öz doğma yerini sevir, çox zaman onun yerini dəyişdirəndə o, məhv olur.

Ekoloji tərbiyə uşaqlarda ekoloji baxışların və mühakimənin yaradılmasına kömək göstərməlidir.

Məktəbəqədər yaşlı uşaqlar **ekoloji tərbiyənin mahiyyətini** bəsit formada olsa da dərk etməli, Vətənin təbiətini sevməli, təbii sərvətlərini qorumalı, onun yaxşılaşması və artırılmasında güclərinə müvafiq fəaliyyət göstərməlidirlər. Yalnız müşahidə etmək deyil, onun haqqında mühakimə yürütməyi, ətraf mühiti nə üçün qorumağın vacibliyini sadə şəkildə də olsa izah etməyi bacarmalıdırlar. Ekoloji tərbiyə bağça yaşlı uşaqları ekologiyanın müxtəlif sahələri üzrə müvafiq bilik, bacarıq və vərdişlərlə silahlandırılmalıdır. Ətraf mühiti dərindən dərk etmək üçün onun haqqında insanda eyni təsəvvürlə yanaşı bilik də olmalıdır. Belə bilik uşaqlara bəsit formada olsa da aşılanmalıdır.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində fəsillər üzrə torpaqda, suda və havada baş verən dəyişiklikləri bilmək də mühüm əhəmiyyət kəsb edir. Hər fəsildə təbiətdə baş verən dəyişikliklər onların biliyini, təbiət haqqında anlayışlarını zənginləşdirir, təbii sərvətlərə yanaşmada yeni imkanlar əldə etməsinə kömək edir.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində **təlim xarakterli gəzintilər** mühüm rol oynayır. Proqramın tələblərinə müvafiq olaraq təbiətin qoynuna təşkil edilmiş gəzinti zamanı uşaqların təbiət və onun qorunması haqqında bilikləri zənginləşir, onlar bir çox hadisələri gözləri ilə görürlər. Gəzintinin üstün cəhəti burasındadır ki, uşaqlar çayın, meşənin, gölün təmiz saxlanması, çirkab suların çaya, gölə axıdılmasının zərərini anlayır, eləcə də, təbiətdəki gözəlliyi əyani olaraq görür, bu sahədə mühakimə yürüdürlər.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində bir sıra üsullar vardır. Həmin üsullardan düzgün və yaradıcılıqla istifadə etmək lazımdır. Uşaqlara məlumatların verilməsi məqsədilə keçirilən məşğələlərin böyük əhəmiyyəti vardır. Təlim proqramının məzmununun dəyişdirilməsində və məşğələlərdə çalışmaq lazımdır ki, uşağa verilən hər bir yeni məlumat onun əvvəllər qazandığı biliklərlə əlaqəli olsun və mümkün qədər onu tamamlamağa xidmət göstərsin. Məşğələlərin təşkilində və keçirilməsində uşaqların qavrama qabiliyyətinin xüsusiyyətləri nəzərə alınmalıdır. Məşğələlər elə qurulmalıdır ki, uşaqların təbiətlə tanışlıq prosesində dünyagörüşləri, nitq və təfəkkürləri inkişaf etsin və onlarda ekologiyanı öyrənməyə meyl tərbiyə olunsun. Məşğələnin əsas məqsədi uşaqlara proqram materialını mənimsətməkdən başqa həm də sözlə yeni biliklər verməkdən və möhkəmlətməkdən ibarətdir. Bunun üçün müxtəlif metodlardan: təbiət obyektlərinin və yaşlıların əməyinin müşahidə edilməsi, didaktik oyunlar şəkillərdən müxtəlif materiallardan istifadə, bədii əsərlərin və hekayələrin oxunması, söhbətlərin aparılması və s. dən istifadə etmək olar. Məşğələ digər fəaliyyət formaları ilə sıx əlaqədardır. Hansı ki, onların biri digərini tamamlayır. Məşğələ zamanı uşaqlar öyrəndikləri bilik və bacarıqları gündəlik həyatda, əmək və oyunlarda tətbiq edirlər.

Ekoloji tərbiyə ətraf mühitin dərk olunması və təbiətə qayğı ilə yanaşmanın formalaşması proseslərindən keçir. Ekoloji cəhətdən savadlı insan dərk etməlidir ki, təbiət də onun özü kimi canlıdır. Təbiət güclüdür, ancaq bu güc tükənməz deyil. Təhsil ocaqlarında ekoloji təhsilin gücləndirilməsinin tərəfdarları hesab edirlər ki, uşağa kiçik yaşlarından təbiətə qayğı ilə yanaşmanı aşılamaqla biz onun şəxsiyyətinin formalaşmasına ciddi təkan vermiş oluruq. Başqa sözlə, yeni nəsildə vətəndaş şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri də məhz ekoloji təhsil və tərbiyə olmalıdır. Bu yolla gəncləri doğma torpağı və təbiəti sevməyə, ətraf mühitə biganəlikdən qaçmağa öyrədə bilərik.

Belə bir səhnənin şahidi çoxlarımız olmuşuq: kiçik yaşlı uşaq yediyi şokoladın kağızını açıb yerə atır, anası isə buna heç fikir də vermir. Bu nədir ki? Sadəcə kağız parçası. Həyat isə belə sadə və xırda problemlərin məcmusundan ibarətdir, çünki həmin uşaq böyüyüb bu dünya-

nın sakininə - istehlakçıya çevriləcək. Böyüyəndə onun küçəyə, yola atdığı tullantıların çəkisi və ölçüsü də artacaq. Ölkəmizdə avtomobildən yola hər hansı əşyanın atılmasına dair cərimə tətbiq olunur. Bununla belə, hamımız gün ərzində bir neçə dəfə bu qadağaya riayət etməyən sürücüləri görürük. Avtomobildən yola siqaret kötüyü atan sürücü həmin kiçik yaşlı uşağın gələcəyidir...

Antuan de Sent-Ekzüperi deyirdi ki, "biz hamımız Yer kürəsi adlı gəminin sərnişinləriyik. Deməli, bizim minəcək başqa nəqliyyat vasitəmiz yoxdur". Mütəfəkkirin bu sözləri nə vaxt dediyini və ekoloji durumun indi hansı həddə olduğunu nəzərə alsaq, ekoloji təhsil və tərbiyənin necə vacib olduğunu dərk edə bilərik. Yer kürəsi elə bir inkişaf mərhələsinə çatıb ki, onun yaradıcı, məsuliyyətli sakinlərə daha çox ehtiyacı var. Əgər belədirsə və biz ən kiçik yaşlarımızdan hədsiz istehlakçı ruhunda tərbiyə olunuruqsa, hansı məsuliyyətdən söhbət gedə bilər? Bu gün sivil dünyada insan tərbiyəsi prosesində ekoloji tərbiyəni nəzərə almamaq mümkünsüz görünür. Təbiətlə biz ən kiçik yaşlarımızdan üzüzə gəlirik. Və əslində məhz təbiət də bizim ilk müəllimimizdir...

Ekoloji təhsil, ilk növbədə, uşaqlarda insanpərvərlik, xoşməramlılıq, emosional həssaslıq və onları əhatə edən dünyaya maraq tərbiyəsidir və bu, uşaqlıqdan edilməlidir.

**Ekoloji tərbiyənin mahiyyəti** hər bir insanın təbiət hissini, onun aləmini, əvəzolunmaz dəyərini və gözəlliyini dərk etmək bacarığını mənimsəməsindədir; təbiətin yer üzündəki bütün canlıların həyatının və mövcudluğunun əsasını təşkil etdiyini dərk etmək; təbiətlə insanın dialektik davamlılığı və qarşılıqlı asılılığını da yaratmaq məhz bu aspektdə ən öndə duran məsələlərdən biridir.

İnsan ətraf aləmin bir hissəsidir və ümumi inkişafın qanunlarına tabedir. Müasir cəmiyyətdə yaşayan insanların bir çox problemləri var. Ancaq bəlkə də ən kəskin və aktual problemlərdən biri ətraf mühitin qorunması problemidir. Bəşəriyyətin gələcəyi hər bir insanın ekoloji mədəniyyət səviyyəsindən, onların həllində səriştəli iştirakından asılıdır. Bu şəraitdə onun bütün səviyyələrində ekoloji təhsil prioritet əhəmiyyət kəsb edir.

**Problemin aktuallığı.** Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsinin formalaşdırılmasının mahiyyəti və onun təhlili ilə bağlı məsələlər mühüm olması ilə seçilir. Çünki həmin məsələlər uşaqların formalaşması və inkişafları baxımından vacibdir.

**Problemin yeniliyi.** Tədqiqat işində ekoloji tərbiyəsinin formalaşdırılmasının mahiyyəti və onun təhlili üçün folklor nümunələr, fərmanlar və digər metodlardan istifadənin yolları tədqiqata cəlb edilir.

**Problemin praktik əhəmiyyəti.** Əldə olunmuş nəticələr ətraf aləmlə tanışlıq məşğələlərində tərbiyəçi-müəllimlərin istifadəsi üçün tövsiyə edilir. Tədqiqatdan əldə edilmiş nəticələrdən dərsliklərin, dərs vəsaitlərinin, elmi-metodik ədəbiyyatın və elmi-tədqiqat işlərinin hazırlanmasında istifadə oluna bilər.

**Ədəbiyyat:**


1. Bədəlova, Ə.S. Azərbaycan xalq pedaqogikası. Mühazirə mətnləri və seminar məşğələləri üçün materiallar). / Ə.S. Bədəlova. – Bakı: Müəllim, - 2018. -187 s.
2. Bədəlova, Ə.S. Təlim-tərbiyə / Ə.S. Bədəlova. – Bakı: ADPU-nun nəşriyyatı, - 2015. - 291 s.
3. Əliyev, R.M. Azərbaycan folkloru. / R.M. Əliyev. – Bakı: Elm və təhsil, - 2021. - 521 s.
4. Həsənov, A.M. Pedaqogika (Dərslik). / A.M. Həsənov, Ə.Ə. Ağayev. - Bakı: Nasir, - 2007. - 493 s.
5. https://nsportal.ru/detskii-sad/vospitatelnaya-rabota/2021/03/17/tsel-i-zadachi-ekologicheskogo-obrazovaniya-detey


**E-mail:** esmiraliyeva877@gmail.com
**Redaksiyaya daxil olub:** 04.09.2024.

UOT 373.2

**Könül Elxan qızı Nəsibova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/ 0009-0001-7952-6755*
*https://doi.org/10.69682/arti.2024.91(5).65-68*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA ŞƏXSİYYƏTİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Кёнуль Эльхан гызы Насибова**
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ОСОБЕННОСТИ РАЗВИТИЯ ЛИЧНОСТИ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

**Konul Elkhan Nasibova**
*teacher of the Azerbaijan State Pedagogical University*

# PERSONALITY DEVELOPMENT CHARACTERISTICS IN PRESCHOOL CHILDREN

**Xülasə.** Məktəbəqədər dövrdə uşaqların şəxsiyyət inkişafını nəzərdən keçirdikdə görürük ki, şəxsiyyət cəmiyyətdə inkişaf edən və ünsiyyət yolu ilə digər fərdlərlə münasibət quran, yaşadığı situasiyadan xəbərdar olan, özünə güclü nəzarət edən, vəziyyətin mürəkkəbliyini və nəticələrini dərk edən şəxsdir. Valideynlərin övladlarının şəxsiyyət prosesinin formalaşmasında şüurlu yanaşması vacibdir. Valideynlər uşaq şəxsiyyətinin inkişafında böyük rol oynayır, bununla belə, uşağın azad olmasına və özünü tapmasına bəzən mane olurlar.
***Açar sözlər:*** *məktəbəqədər yaş dövrü, uşaq, şəxsiyyət, inkişaf, xüsusiyyət.*

**Аннотация:** При рассмотрении развития личности детей в дошкольном периоде, мы выясняем, что личность – это человек, который развивается в обществе и устанавливает отношения с другими личностями посредством общения, осознает ситуацию, в которой он живет, обладает сильным самоконтролем и понимает сложность и последствия ситуации. Родителям важно осознанно подходить к процессу формирования личности своих детей. Родители играют большую роль в развитии личности ребенка, однако иногда мешают ребенку стать независимым и найти себя.
***Ключевые слова***: *дошкольный возраст, ребенок, возрастной период, личность, развитие, особенность*

**Abstract.** When we consider the personality development of children in the preschool period, we see that the personality is a person who develops in society and establishes relationships with other individuals through communication, is aware of the situation he lives in, has strong self-control, and understands the complexity and consequences of the situation. It is important for parents to take a conscious approach to the formation of the personality process of their children. Parents play a major role in the development of the child's personality, however, they sometimes prevent the child from becoming free and finding himself.
**Keywords:** *preschool age, child, personality, development, characteristic.*

Şəxsiyyətin inkişafı hər bir fərdin xüsusiyyətlərinin və ya mütəşəkkil davranış modelinin inkişafına aiddir. Bu, uşağın özünə və ətraf mühitə baxışını müəyyən edən emosional, idrak, motivasiya və temperament xüsusiyyətlərinin nəticəsidir.

Şəxsiyyət çox vaxt xarakter və temperament anlayışları ilə qarışdırılır. Əslində bəzən bu terminlər sinonim olaraq işlədilir, lakin bu anlayışlar şəxsiyyətlə eyni məna daşımır, bu anlayışlar şəxsiyyətin bir hissəsidir. Xarakter öyrənmə yolu ilə əldə edilir və bu öyrənmə insanın yaşadığı cəmiyyətin əxlaqi anlayışına və dəyər sisteminə uyğun davranış tərzini mənimsəməsidir. Temperament isə vegetativ sinir sisteminin xüsusiyyətləri və daxili sekresiya vəzilərinin az

və ya çox fəaliyyət göstərməsi kimi irsi fizioloji xüsusiyyətlərdən qaynaqlanır, yəni bədən kimyası buna təsir edir. Tez hirslənmək, soyuqqanlılıq, istiqanlılıq və s. Ümumilikdə deyə bilərik ki, şəxsiyyət xarakter və temperamenti özündə birləşdirən daha əhatəli bir anlayışdır.

İnkişafın digər sahələri kimi, uşağın şəxsiyyəti də iki əsas amilin qarşılıqlı təsirindən ibarətdir: irsiyyət və ətraf mühit. Lakin irsiyyət uşağın şəxsiyyət strukturuna onun fiziki və idrak strukturundan daha az təsir edir; Bu baxımdan ekoloji və sosial amillər daha mühüm rol oynayır. İrsiyyətin təsirini yeni doğulan körpələr arasındakı fərqlərdə də görə bilərik. Bəzi körpələr sakit, bəziləri aktiv, bəziləri isə nadinc olur. Lakin bu ilkin meyllərin hansı istiqamətdə inkişaf edəcəyi onların sosial mühitindəki amillərdən asılıdır. Məsələn, təbii olaraq sakit bir körpə anası tərəfindən diqqətdən kənarda qalırsa və ya ona davamlı olaraq sərt davranırsa, o, sonda əhval-ruhiyyəsiz və narahat bir uşağa çevrilə bilər, bir sözlə, şəxsiyyətin inkişafı əsasən sosial bir hadisədir və uşağın onun sosial mühiti ilə əlaqələri ilə sıx bağlıdır. Buna görə də şəxsiyyətin inkişafı bəzən sosiallaşma və ya sosial öyrənmə adlanır.

Şəxsiyyət məktəbəqədər yaş dövründə olan uşaqda formalaşmağa başlayır. Böyük məktəbəqədər yaşlı uşaqlar davranışında yaranan problemlərin inkişafını izləməyə imkan verən hərəkətləri və hərəkətləri müəyyən edən kifayət qədər sabit psixoloji xüsusiyyətlər inkişaf etdirirlər.

Məktəbəqədər uşaqlarda şəxsiyyətin inkişafı uşağın özü haqqında bilikləri, real həyatda yeri və başqaları ilə müqayisədə öz hərəkətlərini və hərəkətlərini qiymətləndirmək bacarığından ibarət olan özünüdərkin formalaşmasında izlənilə bilər. Böyük məktəbəqədər yaşda tənqidi təfəkkür yaranır və adekvat diferensiallaşdırılmış özünə hörmət formalaşır. Məktəbəqədər yaşlı uşaqlıq dövründə fərdi inkişafda əhəmiyyətli dəyişikliklər baş verir ki, bu da aşağıdakılarda əks olunur:

- ✓ Zehni fəaliyyətin motivasiya tərəfinin yenidən qurulmasında, idrak və sosial motivlərin üstünlük təşkil etməsi ilə özünü göstərir.
- ✓ Sosial mövqe, özünütənzimləmə bacarıqları və iradəsinin formalaşmasında.
- ✓ Praktik və idrak fəaliyyətində müstəqilliyin formalaşmasında.
- ✓ Dəyişən şərtlərə uyğunlaşma bacarığı.

Uşağın fərdi inkişafını özündə cəmləşdirən psixoloji yaşın ən dolğun strukturu L.S. Viqotski və onun məktəbinin mədəni-tarixi inkişaf nəzəriyyəsində təqdim olunur.

Bu nəzəriyyəyə görə, psixoloji yaş aşağıdakılarla müəyyən edilir:

- inkişafın sosial vəziyyəti;
- aparıcı fəaliyyət;
- inkişaf böhranlarının ziddiyyətləri;

Uşağın inkişafı uşağın şəxsiyyətindəki dəyişikliklərlə əlaqəli bir yaş mərhələsindən digərinə davamlı keçid kimi qəbul edilməlidir. Elə bir vaxt gəlir ki, uşağın artan imkanları, onun bilik, bacarıq və əqli keyfiyyətləri mövcud münasibətlər sisteminə, həyat tərzinə və fəaliyyətinə zidd olmağa başlayır. Başqa sözlə, uşağın yeni ehtiyacları ilə onları təmin etmək üçün köhnə şərtlər arasında ziddiyyət yaranır.

Şəxsi inkişaf prosesində uşaqlar dünyanı öyrənir və öz dünyagörüşlərini formalaşdırırlar. Bunun nəticəsində əxlaqi keyfiyyətlərin formalaşması baş verir. İstənilən yaşda uşaqların fərdi inkişafına diqqət yetirmək lazımdır. Uşağın yeni doğulmasından 6 yaşa qədər olan dövr arasında şəxsiyyətinin inkişafını nəzərdən keçirtsək aşağıda göstərilən dəyişiklikləri müşahidə edə bilərik.

Əvvəlcə körpənin təxminən bir yaş yarıma qədər inkişafını araşdıraq. Yeni doğulan körpənin ən vacib iki xüsusiyyətindən biri onun yaşaması üçün tamamilə başqalarından asılı olmasıdır. Əgər ona baxan, yedizdirən, qoruyan yoxdursa, körpə həyatını itirir. Bu əsas xüsusiyyət uşağın həyatının ilk anından başqa insanlarla (ana və ya ananı əvəz edən başqa şəxs və s.) ictimai münasibətdə olduğunu göstərir.

Yeni doğulmuş körpənin başqa bir mühüm xüsusiyyəti onun bütünlüklə öz ehtiyaclarını qarşılamağa yönəlməsidir. Bu xüsusiyyəti eqosentrik də adlandıra bilərik. Ancaq burada sözügedən eqoizm şüurlu şəkildə öz ehtiyaclarını ön planda tutmaq demək deyil.

Yaş yarımdan üç yaşa qədər olan dövrdə uşaq fiziki və psixoloji cəhətdən müstəqil olduqca, şəxsiyyət üçün yeni imkanlar yaranır. Çünki əzələ və hərəkət inkişafı sürətlənir və ayağa qalxan, yeriyən uşaq ananın qucağından uzanıb özbaşına hərəkət etməyə başlayır. Bu

illərin müsbət elementi muxtariyyət, mənfi elementləri isə utanc və şübhədir. Bu dövrdə uşağın sidiyə çıxmasında və defekasiyasında fəaliyyət göstərən əzələlər yetişməyə başlayır. Buna görə də, bu əzələlərin yetişməsi o deməkdir ki, artıq sidik və defekasiya könüllü olaraq edilə bilər. Beləliklə, uşaq istəsə onu saxlaya bilər və ya ifraz edə bilər. Beləliklə, iki əks istək, iki meyl ortaya çıxdı. Uşaq iki əks meyl arasında seçim etmək nöqtəsinə gəlir. Bu, uşaq üçün tamamilə yeni bir qabiliyyətin inkişafı deməkdir: tutmaq və ya tutmamaq; etmək və ya etməmək. Burada muxtariyyət hissi əks istəklər və meyllər arasında seçim etmək gücüdür.

Üç altı yaş aralığında olan uşaq ona çox güclü və gözəl görünən valideynləri kimi olmaq istəyir. Bu dövrün mövzusu uşağın özünü böyük və qüdrətli kimi qəbul edilən valideynləri ilə eynilikdə tapması, başqa sözlə, uşağın valideynləri kimi olmaq istəməsidir. Ana və atanın eyniləşdirilməsi ilə uşağın mənliyi inkişaf edir və uşaq yaşadığı cəmiyyətin rollarına, funksiyalarına və qaydalarına uyğun davranmağa başlayır; O, cəmiyyəti üçün yararlı olan alət və avadanlıqlardan istifadə etməyə, kiçik yaşlı uşaqlara qayğı göstərməyə, məsuliyyət hissini inkişaf etdirməyə meylli olur. Qazandığı güvən və muxtariyyət hissləri ilə mütənasib olaraq ətrafını yavaş-yavaş kəşf edir və ona nəzarət edir. Bu məqsədlə o, öz bədənini, cinsi fərqlərini, ümumiyyətlə, ətraf mühitdə baş verən hər şeyi araşdırmaq və öyrənmək üçün dərin, sonsuz bir meyl göstərir.

Bu dövrdə uşaqların davranışlarında yeniliklərə maraq üstünlük təşkil edir. Onların hərəkətləri təkcə real mühitə deyil, həm də fantaziyalarına qarşı təşəbbüskarlıq və iddialılıq formasındadır. Başqalarına hücum etməyin, aqressiv çıxışlar və suallarla insanların qulağına və beyninə girməyin; aqressiv hərəkətlərlə ətrafa tullanmaq, yeni şeylər öyrənməklə bağlı sonsuz həvəsləri ilə onlar üçün naməlum olan hər şeyə doğru tələsmək bu dövrün əsas xüsusiyyətlərindəndir. Uşağın təşəbbüskarlığı, iddialılığı və öyrənməyə həvəsi ona hər şeyi yerinə yetirmək bacarığı verir. Burada özünə yerləşən əsas element təşəbbüs hissidir. Qorxular, həddindən artıq günahlandırmalar, cəzalar və ya digər maneələr bu təşəbbüs hissinin inkişafını məhdudlaşdıra bilər. Bu maneələr gələcəkdə cinsi sahələrdə və sosial təşəbbüslərdə müxtəlif dərəcədə məhdudlaşdırma əlamətlərinə səbəb olur. Xülasə, 3-6 yaş arasında formalaşan müsbət şəxsiyyət elementi təşəbbüskarlıq hissidir. Təşəbbüs hissi müstəqil və sərbəst düşünmək, gələcəyə dair ambisiyaların olması və hərəkətə keçmək üçün rahatlıq və güc verir. Bu dövrün təhlükəli tərəfi həddindən artıq günahkarlıq hisslərinin inkişafıdır.

Məktəbəqədər yaşın sonunda düzgün diferensial heysiyyət və özünütənqid inkişaf edir. 3 yaşında uşaq özünü böyüklərdən ayırır; hələ də özü haqqında, keyfiyyətləri haqqında bilmir. 4-5 yaşlarında başqalarının fikirlərini dinləyir, böyüklərin qiymətləri və qiymətləndirmələrə münasibəti əsasında özünü qiymətləndirir; öz cinsinə uyğun hərəkət etməyə çalışır. 5-6 yaşda qiymətləndirmə davranış normalarının ölçüsünə çevrilir, qəbul edilmiş davranış normaları əsasında qiymətləndirir və başqalarını özündən daha üstün qiymətləndirir. 7 yaşında uşaq özünü daha düzgün qiymətləndirməyə çalışır.

Məktəbəqədər yaşlı uşağın könüllü davranışı əsasən əxlaqi prinsiplərin və etik standartların mənimsənilməsi ilə müəyyən edilir. İnkişafın böhranlı dövrlərində şıltaqlıq, inadkarlıq və neqativlik iradənin zəif inkişafından xəbər vermir.

Bu yaşda uşaqlar temperamentin təzahüründə dəyişkənlik, sinir sisteminin xüsusiyyətlərinin yetişməsi ilə xarakterizə olunur və temperament növü müxtəlif fəaliyyət növlərində davranışa təsir göstərir. Əsas şəxsiyyət keyfiyyətləri inkişaf edir, şəxsi keyfiyyətlər özünüdərketmənin təsiri altında formalaşır, xarakter inkişafı isə təqliddən təsirlənir. Müxtəlif fəaliyyət növlərində qabiliyyətlər intensiv şəkildə inkişaf etdirilir, istedad isə fəaliyyətdə özünü göstərir. Yaradıcılıq əsas xüsusiyyət kimi formalaşır.

Hər uşaq fərqli qoxular yayan fərqli iqlimin çiçəyi kimidir. Bəziləri su ilə, bəziləri susuz yaşayır. Bəzilərində qırmızı, bəzilərində mavi ornamentlər var. Bu baxımdan uşaqları bir-biri ilə müqayisə etmək tamamilə yanlışdır. Əhəmiyyətli olan - uşaqlarda rəngləri ortaya çıxarmaqda oynayacağımız roldur. Uşağımızı düzgün müşahidə etsək, onun güclü və zəif tərəflərini qərəzsiz üzə çıxarsaq, atacağımız addımları daha dəqiq müəyyən edə bilərik. İstər ailədə, istər məktəbəqədər təhsil müəssisəsində düzgün yönləndirilmiş hər bir uşaq cəmiyyət, gələcək, ətraf və dövlət üçün uğurlu bir şəxsiyyət kimi yetişir.

**Problemin aktuallığı.** Məktəbəqədər yaş şəxsiyyətin formalaşmasının ilkin mərhələsidir. Uşaqlarda tabeçilik, əxlaqi normaların mənimsənilməsi və davranış özbaşınalığının formalaşması, davranış normalarının mənimsənilməsi kimi mənfi və ya müsbət şəxsiyyət əlamətləri inkişaf edir. Baş verən problemlər ilə bağlı bir sıra nəzəriyyələr irəli sürülmüş, araşdırmalar və tədqiqatlar aparılmışdır. Buna baxmayaraq, eyni zamanda psixoloji və pedaqoji ədəbiyyatda və praktikada geniş araşdırılmasına baxmayaraq bu mövzu ilə bağlı amilləri nəzəri baxımdan işlənməyə ehtiyac vardır. Bu baxımdan məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin inkişafının yaş, cins və s. xüsusiyyətləri ilə bağlı araşdırılması dövrümüz üçün çox aktual məsələlərdəndir.

**Problemin yeniliyi**. Məqalədə uşaq şəxsiyyətinin xüsusilə də məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin inkişafı, məktəbəqədər yaş dövründə fiziki, psixi dəyişikliklə və bu dövr üçün xarakterik olan xüsusiyyətlərə təsir edən amillərdən bəhs edir. Digər tərəfdən məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin inkişafı ilə bağlı fikirlər diqqət mərkəzinə çatdırılır.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə irəli sürülən müddəalar və təkliflər məktəbəqədər təhsil işçiləri, müəllimlər və məktəbəqədər tərbiyə sahəsində təhsil alan bakalavr və magistrlar, pedaqoqlar və geniş ictimaiyyət üçün aktual və əhəmiyyətlidir. Həmçinin məqalədən mühazirə materiallarında istifadə etmək üçün uyğundur.

**Ədəbiyyat:**

1. Həsənova, P. Məktəbəqədər təhsildə pedaqoji ünsiyyət və onun müasir problemləri. // – Bakı: Məktəbəqədər və ibtidai təhsil, – 2022. № 2, – s. 48-56.
2. Senemoğlu, N. (1994). Okul öncesi Eğitim Programı Hangi Yeterlilikleri Kazandırmalı, Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi, 10, 21-30.
3. Сергиенко Е. А., Лебедева Е. И. Понимание обмана детьми дошкольного возраста в норме и при аутизме // Психологический журнал. -2003. -№4. –с.54.
4. Walker,S.(2005).Gender differences in the relationship between youngchildren’s peer related social competence and individual differences in theory of mind. The Journal of Genetic Psychology, 16 (3); 297-312. http://dx.doi.org/10.3200/GNTP.166.3.297-312

**E-mail:** samsung1918272@gmail.com
**Redaksiyaya daxil olub:** 16.09.2024.

# *İBTİDAİ TƏHSİLİN AKTUAL PROBLEMLƏRİ*
# *АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ*
# *ACTUAL PROBLEMS OF PRIMARY EDUCATION*

*UOT 373.2*

***Şəlalə İltizam qızı Seyidova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının direktor müavini,*
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*https://orcid.org/0000-0002-8191-8352*
*https://doi.org/10.69682/arti.2024.91(5).69-73*

## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ÖYRƏNMƏ MOTİVASİYASININ ARTIRILMASINDA KOMPÜTER TEXNOLOGİYALARININ ROLU

***Шалала Илтизам гызы Сеидова***
*заместитель директора Шамахинского филиала*
*Азербайджанского Государственного Педагогического Университета*
*докторант по программе доктора философии*

## РОЛЬ КОМПЬЮТЕРНЫХ ТЕХНОЛОГИЙ В ПОВЫШЕНИИ УЧЕБНОЙ МОТИВАЦИИ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

***Shalala Iltizam Seyidova***
*deputy director of the Shamakhi branch of the Azerbaijan State Pedagogical University,*
*doctorial student in the program of doctor of philosophy*

## THE ROLE OF COMPUTER TECHNOLOGY IN INCREASING THE LEARNING MOTIVATION OF PRIMARY CLASS STUDENTS

**Xülasə.** Məqalədə kiçik yaşlı məktəblilərin öyrənmə motivasiyasını inkişaf etdirmək üçün müasir kompüter texnologiyalarından istifadə problemi müzakirə olunur. Bu istiqamət təhsilin inkişafında ən perspektivli istiqamətlərdən biri hesab olunur. İKT-dən istifadə olunan dərslər ibtidai siniflərdə xüsusilə aktualdır. 1-4-cü sinif şagirdləri əyani-əməli təfəkkürə malikdirlər, ona görə də onların öyrənmələrini mümkün qədər yüksək keyfiyyətli illüstrativ materiallardan istifadə etməklə qurmaq çox vacibdir. Bu, təkcə görmə deyil, həm də qavrayış prosesində eşitmə, duyğular və təxəyyülləri əhatə edir. Məlumdur ki, ibtidai təhsilin qarşısında duran əsas vəzifə şagirdi təhsilini davam etdirmək üçün yetişdirmək və həyata hazırlamaqdır. Belə ki, ibtidai siniflərdə təlim prosesində istifadə olunan informasiya texnologiyaları şagirdlərin təxəyyül və qavrayışlarının formalaşmasına şərait yaradır, dərslərin daha dolğun və məzmunlu mənimsənilməsinə şərait yaradır. Dərslərin daha maraqlı təşkilinə də şərait yaranmaqla şagirdlərdə təlim motivasiyasının artmasına da səbəb olur.
***Açar sözlər:*** *motivasiya, kompüter texnologiyası, məktəbli, ibtidai sinif, təhsil, motivlər, uğur, motivlərin iyerarxiyası.*

**Аннотация.** В статье рассматривается проблема использования современных компьютерных технологий для развития учебной мотивации младших школьников. Данное направление считается одним из наиболее перспективных направлений развития образования. Уроки с использованием ИКТ особенно актуальны в начальных классах. Учащиеся 1-4 классов являются визуально-практическим мыслителями, поэтому важно структурировать свое обучение, используя как можно более качественные иллюстративные материалы. В процессе восприятия должно быть задействовано не только зрение, но и слух, эмоции и воображение. Известно, что основная задача начального образования – подготовить ученика к продолжению образования и подготовить его к жизни. Таким образом, информационные технологии, используемые в процессе обучения в начальных классах, создают условия для формирования воображения и восприятия учащихся, а также для более полного и осмысленного усвоения уроков. Создавая условия для более интересной организации уроков, они также повышают мотивацию учащихся к обучению.
***Ключевые слова:*** *мотивация, компьютерные технологии, школьник, начальные классы, образование, мотивы, успех, иерархия мотивов*

**Abstract.** The article discusses the problem of using modern computer technologies to develop learning motivation of young schoolchildren. This direction is considered one of the most promising directions in the development of education. Lessons using ICT are especially relevant in primary schools. Students in grades 1-4 are visual-practical thinkers, so it is important to structure their learning using the highest quality illustrative materials possible. It involves not only vision but also hearing, emotions and imagination in the process of perception. It is known that the main task of primary education is to train the student to continue his education and prepare him for life. Thus, the information technologies used in the learning process in primary classes create conditions for the formation of students' imaginations and perceptions, create conditions for a more complete and meaningful assimilation of lessons. By creating conditions for a more interesting organization of lessons, it also leads to an increase in the learning motivation of students.

***Keywords:*** *motivation, computer technology, schoolboy, elementary school, education, motives, success, hierarchy of motives.*

Son illər orta məktəblərdə kompüter texnologiyalarından istifadə geniş vüsət almışdır ki, bu da cəmiyyətin qlobal informasiyalaşması və internetin geniş yayılması ilə bağlıdır. Yeni kompüter texnologiyaları təlim prosesinin təşkili, sinfin və öyrənmənin idarəolunması üçün böyük imkanlar yaradır. Həm də müəllimə şagirdlərin tədris və dərsdənkənar fəaliyyətlərini təşkil etməklə şagirdlərin bilik əldə etmək üçün motivasiyasını artırması üçün geniş imkanlar verir. (1)

İnformasiya texnologiyaları bacarıqlarına malik olan müasir insan müasir cəmiyyətin həyatının ayrılmaz hissəsinə çevrilir. Bu gün kompüter savadı mövcud olan bir şəxsin xüsusi düşüncə tərzi var və həyatın problemli vəziyyətlərini, habelə onların həlli yollarını qiymətləndirmək üçün tamamilə fərqli bir yanaşma irəli sürür.

Təcrübə göstərir ki, yeni informasiya texnologiyaları olmadan nə müasir məktəbi, nə də müasir uşaqları təsəvvür etmək mümkün deyil. Buna görə də təhsil sisteminin müasirləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarından istifadəyə böyük rol verilir. (2)

Məlumdur ki, təhsilin əsas vəzifələrindən biri də uşaqlara informasiya texnologiyalarından istifadə etməyi öyrətməkdir ki, gələcəkdə onlar bu texnologiyalardan daim istifadə etməklə öyrənə bilsinlər. Bu cür texnologiyaların tətbiqi təcrübəsi bu sahədə böyük potensial imkanlardan danışmağa imkan verir. (3, s. 60-62):

Kompüter texnologiyası, şübhəsiz ki, akademik fənlərin ehtiyatlarını daha əhatəli şəkildə ortaya qoyur, geniş və məhsuldar işləməyə imkan verir. Ancaq ibtidai məktəb yaşlı uşaqlardan danışırıqsa, kompüterin həm də böyük maraq və motivasiya mənbəyi kimi xidmət etdiyini qeyd etmək lazımdır. Vurğulamaq lazımdır ki, İKT vasitələri bir çox pedaqoji problemlərin həlli üçün nəzərdə tutulmuş müxtəlif proqram-texniki vasitələrdən ibarətdir. Bilirik ki, şagird fəaliyyət prosesinin özü ilə maraqlanırsa, nəticələr əldə etməkdə, yeni keyfiyyətlər və qabiliyyətlər inkişaf etdirməkdə maraqlıdırsa - bunlar daxili motivlərdir. Bununla belə, müəyyən dərəcədə motiv həmişə daxili bir hərəkətverici qüvvə kimi çıxış edir. Şagirdin davranışı böyüklər tərəfindən idarə olunmalıdırsa, bu zaman xarici motivlər özünü göstərir (4, s.192). Müəllim və onun istifadə etdiyi resurslar məhz xarici hərəkətverici qüvvə kimi çıxış edir. Xarici motivin bir tərəfdən müəllimin səriştəsindən, digər tərəfdən onun istifadə etdiyi resurslardan asılı olaraq öz təsir gücünü göstərə bilər. Bu baxımdan kompüter texnologiyalarını xarici müsbət motivasiya mənbəyi saymaq olar.

Rus və xarici alimlər kompüter texnologiyalarının tədris prosesində tətbiqi sahəsində tədqiqatlarla məşğuldurlar: S.V. Panyukova (5, s. 120), İ.G. Zaxarova (6, s. 268), E.S. Polat (7, s. 272). Onlar qeyd edirlər ki, kompüter proqramlarını hazırlayarkən kiçik yaşlı məktəblilərin öyrənmə motivasiyasını inkişaf etdirmək üçün onlardan istifadənin xüsusiyyətlərini nəzərə almaq mütləqdir. Bu, tədris materialı ilə işləməkdə çətinlik yarandıqda şagirdə nəzarət və vaxtında kömək göstərməklə təmin edilə bilər. İnteraktivlik prinsipi bu problemi həll edir. Bir çox müəlliflər (Robert İ.V. (8, s. 400), V.A Krasilnikova. (9, s. 24) və s.) tədris kompüter proqramlarından istifadə zamanı interaktivlik prinsipinin nəzərə alınmasının vacibliyini qeyd edirlər.

İKT vasitələrindən istifadə edərək ibtidai sinif yaşlı uşaqlarda təlim motivasiyasının inkişafı üçün bir çox pedaqoji üsullar vardır:

- İnteraktiv testlərdən istifadə;

- Multimedia vasitələrindən istifadə (audiovizual, vizual, səs);
- İnteraktiv imla;
- Təhsil platformalarından istifadə;
- Rəqəmsal təhsil resursları;
- Elektron kitablar, dərsliklər;
- İnteqrasiya edilmiş dərslər, virtual ekskursiyalar və səyahət dərsləri, kəşfiyyat dərsləri, görüş dərsləri, hekayə dərsləri, yaradıcılıq dərsləri;
- İKT-dən istifadə ilə didaktik oyun;
- Video dərslər və təqdimatlar;
- İKT-dən istifadə ilə fiziki dəqiqələr;
- İnteraktiv lövhədən istifadə. (2. 16)

Çoxsaylı tədqiqatlar göstərir ki, sinifdə kiçik məktəblilərin motivasiyasını inkişaf etdirmək üsullarının effektivliyi aşağıdakı şərtlərdən daxilində mümkündür:

- sinifdə rahat psixoloji mühit yaratmaq;
- aparıcı sualların köməyi ilə cavabları şagirdin tapmasına təşviq etmək;
- tələbələrin qiymətləndirmə fəaliyyətinə cəlb edilməsi və bu əsasda özünəinamın formalaşdırılması;
- dərslərdə maraqlı əlavə materialdan istifadə (audio- video materiallar və s.);
- dərslərdə müzakirə dialoqunun yaradılması və müstəqilliyin aşılanması;
- real faktların təhlili;
- dərslərdə həvəsləndirmə və töhmətdən istifadə;

Apardığımız tədqiqatlar göstərdi ki, ibtidai sinifdə müasir informasiya texnologiyalarının imkanlarından düzgün istifadə aşağıdakılara kömək edir:

- idrak fəallığının artması;
- şagirdin fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi;
- müasir elektron tədris materiallarının köməyi ilə təlim məqsədlərinə nail olmaq;- kiçik məktəblilərdə özünütəhsil və özünü idarə etmə bacarıqlarının inkişafı;
- öyrənmənin rahatlıq səviyyəsinin artırılması, emosional gərginliyin artırılması;
- didaktik çətinliklərin azaldılması;
- kiçikyaşlı məktəblilərin sinifdə fəallığının və təşəbbüskarlığının artırılması;
- təhlükəsizlik qaydalarına riayət etməklə ibtidai sinif şagirdlərinin kompüter bacarıqlarına yiyələnməsi.

Beləliklə, kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində İKT-dən istifadə öyrənmə motivasiyasını artırmaq, şagirdlərin idrak və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün effektiv vasitələrdən biridir ki, bu da psixoloji, pedaqoji və metodoloji şəraitin düzgün qurulmasına zəmanət verir.

Tədqiqat zamanı müəyyən onu da etdik ki, fəal dərsin müxtəlif mərhələlərində İKT-nin imkanlarından istifadə edərkən idraki motivasiyanı yüksəltmək üçün müxtəlif fənlərin müxtəlif imkanları vardır. Tədqiqatı 4 fənn üzrə apardıq: I sinif – Riyaziyyat, II sinif - Azərbaycan dili, III sinif - Texnologiya, IV sinif – Həyat bilgisi fənləri üzrə müşahidələr təşkil etdik, müəllimlərlə birgə kompüter texnologiyaları əsasında yeni dərs nümunələri hazırlayıb həyata keçirdik. Belə dərslərdə təqdimatlara geniş yer verdik. Çünki təqdimatlar təlimin vacib və son dərəcə faydalı bir hissəsidir. Müəllim yalnız öyrənilən mövzuya dair informativ material nümayiş etdirə bilməz, həm də müəyyən düşüncə məntiqini formalaşdıra bilər. Kiçikyaşlı məktəblilərə edilən bütün təqdimatlar eyni məntiqi sxem üzərində qurulur:

**Cədvəl 1**

**İbtidai təhsil pilləsində tədris olunan fənlər arasından siniflər üzrə tədqiqatın aparıldığı fənlər və təsir göstərilən sahələr**

| fənn | Təsir göstərilən sahələr | Formalaşdırılan bacarıqlar |
|---|---|---|
| I sinif - Riyaziyyat | Hesablama əməllərini yerinə yetirmək, yazılı və şifahi hesablama alqoritmlərinə yiyələnmək, ədədi ifadələri hesablamalar, mətnli məsələləri həll etmək, ilkin ölçmə vərdişlərinə, fəza və həndəsi təsəvvür- | Kompüterdən istifadə edərək natural ədədlər və sıfır üzərində dörd hesab əməlini yerinə yetirir, onluq say sistemində rəqəmlərin ədədlərdə mövqeyini və xüsusi çəkisini (mərtəbə vahidlərini) müəyyənləşdirir, hesab əməllərində naməlum komponenti məlum komponentlərlə ifadə edir, kəmiyyətlərdən [pul, çəki, uzunluq, |

| | | |
|---|---|---|
| | lərə malik olmaq, verilmiş məlumatları təsnif etmək, riyazi bilikləri gündəlik həyatda tətbiq etmək vərdişləri formalaşdırmaq. | sahə, zaman] həyati məsələlərin həllində istifadə edir, sadə müstəvi fiqurların və fəza cisimlərinin xüsusiyyətlərini müəyyənləşdirir və təsvir edir, ədədi məlumatları toplayıb qeyd edir, sistemləşdirir, nümayiş etdirir və şərh edir. |
| II sinif - Ana dili | Oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqlarını mənimsəmək, lüğət ehtiyatını zənginləşdirmək, zəruri qrammatik qaydalara, ədəbi tələffüz normalarına əməl etmək, ekspressiv nitq bacarıqları nümayiş etdirmək. | Sərbəst, düzgün, sürətlə, şüurlu, ifadəli oxuyur, savadlı yazır, dialoq qurur, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir, oxuduğu və dinlədiyi mətnlərə münasibət bildirir, ayrı-ayrı mətnlərdən əsas faktları seçib qruplaşdırır, kiçikhəcmli mətnlər qurur, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, mədəniyyəti, incəsənəti, adət-ənənələri haqqında sadə təqdimatlar edir, bu proseslərdə elektron lüğətlərdən, uşaq ensiklopediyasından, elektron uşaq kitablarından istifadə etmək. |
| III sinif - Texnologiya | Müqayisə və çeşidləmə, ilkin emal, özünəxidmət və birgə fəaliyyət vərdişləri, sadə layihələndirmə, tərtibat, modelləşdirmə, dizayn, canlı təbiətə xidmət bacarıqları, ölçü, mütənasiblik, simmetriya və digər həndəsi anlayışları formalaşdırmaq, sadə konstruksiyalar və yaradıcı işlərin yerinə yetirilməsi üzrə qabiliyyətlər aşılamaq. | Materialları müqayisə edir və çeşidləyir, müvafiq texnoloji vasitələrdən (ölçmə, kəsmə, bicmə, birləşdimə və s.) istifadə edir, sadə məmulatlar hazırlayır, sadə məişət xidmətlərini yerinə yetirir, birgə fəaliyyət bacarıqları nümayiş etdirir, özünün və başqalarının hazırladığı məmulatlara münasibət bildirir, təhlükəsizlik texnikası və sanitariya-gigiyena qaydalarını şərh edir və praktik fəaliyyətdə onlara riayət edir, yaradıcılıq tələb edən sadə tapşırıqları yerinə yetirir, model və layihələr qurur. |
| IV sinif – Həyat bilgisi | İnsan hüquqları və azadlıqları, mənəvi-əxlaqi dəyərlər, həyat fəaliyyətinin təhlükəsizliyi, təbiət, insan-təbiət, insan-cəmiyyət münasibətləri haqqında zəruri məlumatları mənimsəmək, obyekt və hadisələri mahiyyətinə görə fərqləndirmək, onlara münasibət bildirmək, iqtisadi, ekoloji, kommunikativ fəaliyyətlər üzrə ilkin bacarıqlar formalaşdırmaq. | Öz hüquqlarını dərk etməsini, başqalarının hüquq və azadlıqlarına hörmətlə yanaşmasını, onu əhatə edən insanlara həssas münasibət bəsləməsini nümayiş etdirir, həmin məsələlərlə bağlı şəxsi fikirlərini bildirir, insan həyatı və sağlamlığının qorunması ilə bağlı ən zəruri qaydaları izah edir, düzlük, ədalətlilik, humanistlik, rəhmdillik nümayiş etdirir, bu mənəvi keyfiyyətlərin mahiyyəti barədə mülahizələrini şərh edir, iqtisadi biliklərdən məişətdə istifadə edir, təbiətə, ekologiyaya həssas və qayğıkeş yanaşmaqla təbiət hadisələri üzərində müşahidələr aparır, münasibət bildirir, cəmiyyətdə baş verən hadisələri yaşına uyğun şərh edir. |

Tədqiqat zamanı müxtəlif metodikaların modifikasiya edilməsi yolu ilə şagirdlər fəallaşdırılarkən də motivasiyanın artması halları müşahidə olundu. Tətbiq etdiyimiz metodikalara

- Şagirdlərin alqoritmik tapşırıqlara alışdırılması metodu. Bu metodda tapşırıqlar üçün eyni təlimat işlənilsə də, həll yolu tədricən mürəkkəbləşir. Hazırda məktəblərdə müasir İKT vasitələrinə hədsiz maraq göstərdiklərinə görə kompüter təlim tapşırıqlarının həllində də alqoritmlərə üstünlük verilir.
- Piktoqram metodu. Piktoqramlar obyekt və obrazları ifadə edən, yüksək səviyyədə müəyyənləşdirilmiş ümumi dil, kommunikasiya vasitəsi - simvollardır.
- Sınaq tapşırıqların həlli metodu. Şagirdlərə kompüter vasitəsi ilə vizual görüntülər nümayiş etdirilir. Sonra onların praktik təsviri istənilir. Mətnlər şəklində yazılanların görüntülərlə nə dərəcədə yaxın olması müzakirə edilir.
- Virtual ekskursiya metodu. Virtual ekskursiyada sınanılanlar obyekt və hadisələri müşahidə edirlər. Məsələn, kosmos, meşə həyatı,

okean dərinlikləri, tikinti, şəlalə, mədəniyyət abidələri və s.

- 7 söz metodikası. İlkin səsləndirmədə: 4 söz, ikinci səsləndirmədə 7 söz, deyilir. Sınanılanlar deyilən sözəri diqqətlə dinləyərək yadda saxlamalıdırlar.
- Fənlər üzrə anlayışları təsnifləşdirmə. Müxtəlif qarışıq anlayışlar verilir. Sınanılanlar verilmiş vaxtda onları fənlərə görə qruplaşdırırlar.
- Şulte cədvəlində rəqəmlərin axtarılması. İşin səmərəliliyi ardıcıl davamlılıqla müəyyən edilir.

Şagirdlər bu cür metodlarla hazırladıqdan sonra materialları İKT vasitələri ilə mənimsəməsi daha asan olur. Şagirdlərdə problemli vəziyyətlər yaranmır. Yaxud az yaranır. Tədrisin İKT vasitəsilə qurulmasına etibarlı zəmin yaranır. Hansısa problemi öyrənərkən şagirdlər əldə etdikləri təcrübə əsasında müxtəlif fərziyyələr irəli sürürlər. Öyrənmə asanlaşdıqca motivasiya yüksəlir.

**Problemin elmi yeniliyi.** Tədqiqat dərslərin daha maraqlı və təlim motivasiyasının yüksəldiyi mühiti qurmaq üçün həll yolları təqdim etməsi ilə elmi yenilik nümayiş etdirir.

**Problemin praktik əhəmiyyəti.** Kompüter texnologiyalarından istifadə vasitəsilə şagirdlərin təlimə motivasiyasının artırılması sahəsində apardığımız tədqiqatın nəticəsi özünü müxtəlif situasiyalarda doğrultduğu və ibtidai sinif müəllimləri üçün səmərəli həll yolları təqdim etdiyi üçün mühüm praktiki əhəmiyyət kəsb etdiyini qeyd edə bilərik.

**Problemin aktuallığı.** Müasir təhsil sistemində təlim motivasiyasını artırmaq, şagirdləri öyrənməyə cəlb etmək diqqət mərkəzində saxlanılır. Bu baxımdan İKT-dən istifadə imkanları da geniş tədqiq olunur. Xüsusən ibtidai siniflərdə əyani-obrazlı təfəkkürün inkişafı baxımından kompüter texnologiyalarının motivasiyanı yüksəltməsi aktual mövzu hesab olunur.

**Ədəbiyyat:**


1. Семенов А. П “Научить человека жить в информационном мире – важнейшая задача современной школы”. -2013
2. Razizadə, S. İbtidai siniflərdə təlimin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir edən amillər // - Naxçıvan: Beynəlxalq elmi konfransın materialları, 16-17 dekabr, 2014. - s. 60-62
3. Rəhmanov, R.R. Kompüterdən istifadənin psixofizioloji problemləri // - Bakı: Müasir təhsilin psixoloji problemləri mövzusunda Təhsil Problemləri İnstitutunun tədqiqat materialları toplusu, - 2012. - s. 144-194
4. Маркова, А.К. Формирование мотивации учения: книга для учителя / А.К. Маркова, Т.А. Матис, А.Б. Орлов.— Москва: Просвещение, 1990. — 192 с.
5. Панюкова, С.В. Концепция реализации личностно ориентированного обучения при использовании информационных и коммуникационных технологий. — М.: Изд-во ИОСО РАО, —1998. — 120 с.
6. Захарова, И.Г. Информационные технологии в образовании. — М.: Гардарики, 2003. — 268 с.
7. Полат, Е.С. Новые педагогические и информационные технологии в системе образования -М.: Издательский центр «Академия», 2002. — 272 с.
8. Роберт, И.В. Теория и методика информатизации образования. Психолого-педагогический и технологический аспекты. — М.: БИНОМ. Лаборатория знаний, 2014. — 400 с.
9. Красильникова, В.А. Информатизация образования: понятийный аппарат // Информатика и образование. — 2003. № 4. — с. 24.


**E-mail:** seyidova.s.h.h.4@mail.ru
**Redaksiyaya daxil olub:** 11.09.2024.

*UOT 373.2*

***Sima İsrafil qızı Mehdizadə***
*"Zəfər" liseyinin ibtidai sinif müəllimi*
*https://orcid.org/0009-0000-4385-432X*
*https://doi.org/10.69682/arti.2024.91(5).74-77*

# İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYAT DƏRSLƏRİNDƏ DİDAKTİK OYUNLARIN ROLU

***Сима Исрафил гызы Мехдизаде***
*учитель начальных классов лицея "Зафар"*

# РОЛЬ ДИДАКТИЧЕСКИХ ИГР НА УРОКАХ МАТЕМАТИКИ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Sima Israfil Mehdizade***
*primary school teacher at the 'Zafar' Lyceum*

# THE ROLE OF DIDACTIC GAMES IN MATHEMATICS LESSONS IN PRIMARY GRADES

**Xülasə.** İbtidai sinif yaşlı şagirdlərin təlim və tərbiyəsində didaktik oyunlar böyük rol oynayır. Bu cür oyunlar sayəsində şagirdlərin diqqətini cəmləşdirmək, marağını cəlb etmək mümkündür. Tədricən uşaqlarda riyaziyyat dərsinin özünə maraq oyanır ki, bu da uğurlu öyrənmə üçün zəruri şərtdir. Oyun fəaliyyəti uşaqların şəxsi keyfiyyətlərinin, qabiliyyət və bacarıqlarının inkişafını təmin edir.
***Açar sözlər:*** *riyaziyyat, məntiq, didaktik oyunlar, əməkdaşlıq, müəllim, şagird, motivasiya.*

**Аннотация**. Дидактические игры играют большую роль в обучении и воспитании учащихся начальных классов. Благодаря таким играм можно сосредоточить внимание учащихся и привлечь их интерес. Постепенно у детей появляется интерес к самому уроку математики, что является необходимым условием успешного обучения. Игровая деятельность обеспечивает развитие личностных качеств, умений и навыков детей.
***Ключевые слова:*** *математика, логика, дидактические игры, сотрудничество, учитель, ученик, мотивация*

**Abstract.** Didactic games play a big role in education and upbringing of primary school students. Thanks to such games, it is possible to focus students' attention and attract their interest. Gradually, children become interested in the mathematics lesson itself, which is a necessary condition for successful learning. Game activity ensures the development of children's personal qualities, abilities and skills.
***Keywords:*** *mathematics, logic, didactic games, cooperation, teacher, student, motivation.*

Məktəbə qədəm qoyarkən uşağın həyat tərzi kəskin şəkildə dəyişir, çünki təhsil onun əsas fəaliyyətinə çevrilir. Bu keçid kəskin olur, çünki o, nisbətən sərbəst xarakterli fəaliyyətlərdən (oyunlar) məcburi xarakter daşıyan fəaliyyətlərə keçir. Müvəffəqiyyətlə oxumaq üçün uşaq nəinki psixoloji cəhətdən təlim fəaliyyətinə hazır olmalı, həm də öyrənməyə güclü həvəs göstərməlidir. Buna görə də, öyrənmə motivasiyası kiçik yaşlı məktəblilər üçün xüsusilə vacibdir, bunun əsasını əvvəlcə ümumiyyətlə məktəbə maraq, yeni fəaliyyət növünə - öyrənməyə maraq təşkil edir, və yalnız öyrənməyə marağın müəllim tərəfindən daim dəstəkləndiyi bir şərtlə, uşaqda tədricən yeni biliklərə yiyələnməyə maraq yaranır.

İbtidai məktəbdə təhsilin ən mühüm vəzifələri bütün fənlərin tədrisi prosesində həyata keçirilir. Bununla belə, onların hər birinin öz

xüsusiyyətləri var. İbtidai siniflərdə riyaziyyatın öyrənilməsi zamanı əldə edilən fənn bilik və bacarıqları, riyazi dilə ilkin mənimsənilməsi əlaqəli fənlərin öyrənilməsinə dəstək, ümumi təhsil müəssisələrinin yuxarı siniflərində təhsilin əsasını təşkil edir. Eyni zamanda, ibtidai məktəbdə bu fənn şagirdlərdə ilk növbədə məntiqi, o cümlədən işarə-rəmzi, habelə planlaşdırma (tapşırıqlar üzrə hərəkətlər zəncirləri), biliklərin sistemləşdirilməsi və strukturlaşdırılması kimi idrak hərəkətlərinin inkişafı üçün əsasdır. Riyaziyyat fənni informasiyanın transformasiyası, modelləşdirmə, sistem təfəkkürünün elementlərinin formalaşdırılması, hesablama bacarıqlarının inkişafı üçün zəruridir.

Riyaziyyat universal təhsil fəaliyyəti kimi problemlərin həlli üçün ümumi texnikanın formalaşdırılması üçün xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, riyaziyyat şagird şəxsiyyətinin inkişafı üçün təsirli vasitədir. Psixoloqlar didaktik oyunların rolunu qiymətləndirərək, qeyd edirlər ki, didaktik oyunlar təkcə bilik və bacarıqların mənimsənilməsi forması olmamalıdır, həm də uşağın ümumi inkişafına, idrak maraqlarının formalaşmasına töhfə verməlidir.

Riyaziyyat təhsili konsepsiyasının ümumi müddəalarına əsaslanaraq ilkin riyaziyyat kursu aşağıdakı məsələlərin həlli üçün nəzərdə tutulmuşdur:

❖ kiçik yaşlı məktəblilərdə məntiqi və mücərrəd təfəkkürün formalaşmasına şərait yaratmaq;

❖ həm fənn, həm də inteqrasiya olunmuş həyat problemlərinin həlli əsasında gələcək təlim üçün zəruri olan fənn və ümumi təhsil bacarıqları toplusunu formalaşdırmaq;

❖ praktiki fəaliyyətdə tətbiqi, əlaqəli fənlərin öyrənilməsi, davamlı təhsil üçün zəruri olan riyazi bilik və bacarıqlar sisteminin güclü və şüurlu mənimsənilməsini təmin etmək;

❖ intellektual inkişafı təmin etmək, riyazi fəaliyyətə xas olan və cəmiyyətdə dolğun həyat üçün zəruri olan təfəkkür keyfiyyətlərini inkişaf etdirmək;

❖ ümumbəşəri mədəniyyətin bir hissəsi kimi riyaziyyat haqqında təsəvvür formalaşdırmaq, riyaziyyatın sosial tərəqqi üçün əhəmiyyətini dərk etmək;

❖ şagirdlərdə diferensiallaşdırılmış yanaşma əsasında riyaziyyata davamlı marağı formalaşdırmaq;

❖ qeyri-standart, əyləncə xarakterli tapşırıqlar əsasında riyazi və yaradıcılıq qabiliyyətlərini müəyyənləşdirmək və inkişaf etdirmək.

Didaktik oyun uşaqların öyrəndiyi fəaliyyət növüdür. Bu fəaliyyət növü həm fərdi, həm də kollektiv ola bilər. Bu, uşaqların fəallığının tərbiyəsində mühüm vasitədir və şagirdlərdə idrak prosesinə böyük maraq oyadır. Oyunların köməyi ilə istənilən tədris prosesi canlı və həyəcanlı olur, şən əhval-ruhiyyə yaradır, biliklərin mənimsənilməsi prosesini asanlaşdırır.

Didaktik oyunlar yalnız dərsin mövzusu ilə sıx əlaqəli olduqda istifadə olunur. Lakin onlar istənilən mərhələdə və istənilən dərs növündə həyata keçirilə bilər. Məsələn, bir qrup rəsm və obyektlərlə şagirdlərin zəruri hərəkətləri ilə müşayiət olunan yeni materialı izah etmək üçün bir oyundan istifadə edilə bilər. Materialı möhkəmləndirmək üçün dərslərdə hesablama hərəkətlərini və texnikalarını təkrar etmək üçün oyunlar istifadə olunur.

Didaktik oyunlar dərsin didaktik məqsədlərinə uyğun gələn tədris materialı ilə çox yaxşı gedir. Oyun müəyyən problemləri həll etməyə kömək edir:

- kiçik yaşlı məktəblilərin zehni qabiliyyətlərini inkişaf etdirmək;
-şəxsiyyət xüsusiyyətlərini inkişaf etdirmək, hər hansı bacarıqları inkişaf etdirmək;
- dərsə maraq oyatmaq;

Riyaziyyat dərslərində didaktik oyunların istifadəsi yaradıcılıq prosesini simulyasiya etməyə, sinifdə mikroiqlim yaratmağa imkan verir ki, bu da üfüqlərinizi, idrak fəaliyyətinizi və yaradıcı bacarıqların formalaşmasını genişləndirmək imkanlarının yaranmasına kömək edir. Oyunların köməyi ilə uşaqlar dərsi məcburi bir şey kimi qəbul etmirlər. Nəticədə, oyun şagirdlərin idrak fəaliyyətini stimullaşdırır və onlarda müsbət emosiyalar oyadır.

İbtidai siniflərdə riyaziyyat dərslərində didaktik oyunlar şagirdlərin qrup və cüt işlərində həyata keçirilə bilər. Şagirdlər qarşılıqlı nəzarətdən istifadə etməklə uşaqlarda özünənəzarət və özünə inamı formalaşdırmaqla yanaşı, dəftərlərini dəyişdirə və tapşırıqların düzgün yerinə yetirilməsini yoxlaya bilərlər.

İbtidai sinif şagirdləri üçün riyaziyyat dərslərində keçirilən qrup didaktik oyununa parlaq nümunə "riyazi balıqçılıq" oyunudur. Məq-

səd toplama və çıxma, vurma və bölmə üsullarını birləşdirməkdir. Komanda oyunu sinfin üç komandaya bölündüyü "riyazi estafet yarışıdır". Onların vəzifəsi nümunəni düzgün və tez həll etmək və estafeti komanda üzvünə ötürməkdir. Onların vəzifəsi nümunəni düzgün və tez həll etmək və estafeti komanda üzvünə ötürməkdir. Oyun zamanı uşaqlar tez sayma bacarıqlarını inkişaf etdirir və komanda ruhu yaranır ki, bu da tələbələr arasında şəxsiyyətlərarası münasibətləri yaxşılaşdırmağa kömək edir.



Riyaziyyat həndəsi fiqurların, tanqramların, geoboardların və digər alətlərin istifadəsini əhatə edir. Müəllim həmçinin uşaqların görmə qabiliyyətini tətbiq etmədən işləyəcəkləri materialları mümkün qədər sərbəst seçmələrini təmin edir.

Şagirdlərə müxtəlif rəngli həndəsi formalar verin və onlardan arı, çiçək, ev və ya başqa bir şey hazırlamağı xahiş edin. Son şəklin necə görünəcəyini göstərməyin. Onlar öz təxəyyüllərindən istifadə etsinlər və eyni zamanda həndəsi dizaynla məşq etsinlər. 5-10 dəqiqədən sonra obyektlər hazır olacaq, lakin onların əksəriyyəti fərqli olacaq. Bu, riyaziyyat deyil, təmiz yaradıcılıq və əyləncədir! İndi hər kəsi təəccübləndirəcək orijinal şəkli göstərə bilərsiniz.

Sonra riyazi hissəyə keçə və şagirdlərdən fiqurun ümumi dəyərini hesablamağı xahiş edə bilərsiniz, əgər arı təşkil edən trapesiya, məsələn, 75 qəpik, üçbucaq 35 qəpik, böyük romb 50 qəpikdirsə, kiçik romb isə 40 qəpikdir. Tapşırıqlar fərdi kartlarda verilə bilər və ya sadəcə lövhədə yazıla bilər. Arı fəaliyyəti həndəsi fiqurlarla ilk dəfə işləyən birinci sinif və hətta daha yuxarı yaşlı şagirdlər üçün uyğundur.



Hesab pazllarının hazırlanması da şagirdlərdə riyaziyyata maraq oyada bilər. Seçilmiş şəkli kompüterdə bir növ qrafik proqramdan istifadə edərək düzbucaqlılara bölmək lazımdır. Dördbucaqlının iki paralel tərəfi boyunca misallar, digər iki tərəfində isə digər düzbucaqlılardan nümunələrə düzgün cavablar yazmaq lazımdır. Sonra bu şəkil laminatlaşdırılmalı və xətlər boyunca düzbucaqlılara kəsilməlidir. Pazl aşağıdakı kimi yığılır. Uşaqlar yığından ilk rastlaşdıqları düzbucaqlı götürür və onun tərəflərindən biri boyunca yazılmış nümunəni həll edirlər. Məsələn, 13 + 17 = 30. Sonra üzərində 30 rəqəmi olan başqa bir düzbucaqlı axtarırlar və bu düzbucaqlıları yan-yana qoyurlar ki, nümunə tərəfi cavab tərəfinə toxunsun. Beləliklə, misaldan sonra bütün şəkil tezliklə görünəcək.

Riyazi krossvordun həll edilməsi də şagirdlərdə maraq yaradır.




1. Meduzanın neçə ayağı var?
2. Atalar sözünə sözü daxil edin: Bir baş yaxşı, amma... daha yaxşı.
3. Nağıllarda əjdahanın neçə başı var?
4. 6-nı çevirsəniz hansı rəqəmi alacaqsınız?
5. Bir həftədə neçə gün var?
6. Sözlər hərflərlə yazılır, bəs rəqəmlər?
7. Əlinizdə neçə barmaq var?

8. Atalar sözünə sözü daxil edin: Yeddi dəfə ölçün, -...bir kəsin?

9. Müəllimin dərsdə işinə görə şagirdə verdiyi şey necə adlanır?

10. Bir ildə neçə ay var?

**Həndəsi material ilə oyunlar.**

- Bu rəsmlər hansı həndəsi fiqurlardan hazırlanmışdır? Hansı fiqurlar daha çoxdur? Nə qədər?



**Problemin aktuallığı.** Riyaziyyat dərslərində didaktik oyun təkcə sizi valeh edir və düşündürmür, həm də şagirdin müstəqilliyini, təşəbbüskarlığını və iradəsini inkişaf etdirir, ona dostlarının maraqlarını nəzərə almağı öyrədir. Oyunun əsiri olan uşaqlar proqram materialını daha asan mənimsəyərək müəyyən bilik, bacarıq və bacarıqlara yiyələnirlər.

**Problemin elmi yeniliyi.** Didaktik oyun uşaqların zehni fəaliyyətini tərbiyə etmək üçün dəyərli bir vasitədir, zehni prosesləri stimullaşdırır və şagirdlərdə idrak prosesinə böyük maraq oyadır. Burada uşaqlar həvəslə əhəmiyyətli çətinliklərlə üzləşirlər, güclərini məşq edirlər, qabiliyyət və bacarıqlarını inkişaf etdirirlər. Bu, hər hansı bir tədris materialını həyəcanlandırmağa kömək edir, şən iş əhval-ruhiyyəsi yaradır və biliklərin mənimsənilməsi prosesini asanlaşdırır.

**Problemin praktik əhəmiyyəti.** Didaktik oyun təkrar və konsolidasiya, yeni materialın öyrənilməsi mərhələlərində istifadə edilə bilər. O, həm dərsin tərbiyəvi vəzifələrini, həm də idrak fəaliyyətinin artırılması vəzifələrini tam həll etməli və şagirdlərin idrak maraqlarının inkişafında əsas addım olmalıdır. İbtidai məktəb yaşlı uşaqların təlim və tərbiyəsində didaktik oyunlar xüsusilə zəruridir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. // - Bakı: Qanun, -2013.
2. Əhmədov A.Ə., Abbasov Ə.M. Məktəbəqədər təhsilin konseptual problemləri // - Bakı: Kurikulum – 2011. № 2, -. səh.8-15.
3. Əlizadə Ə. Ə. // Əsrin meqa meylləri: psixopedaqoji problemlər [Mətn]: III cild.- Bakı, 2008.- 501s.
4. Байрамукова, П. У. Методика обучения математике в нач. классах: курс лекций. / П. У. Байрамукова, А. У. Уртенова. -Ростов н / Д.: Феникс, -2009, -с.73.
5. Варегина, Ф.В. Дидактические игры и логические задачи на уроках математики в начальных классах школы: Уч. пособие. / Ф.В. Варегина, С.В. Смирнова, З.П. Чеботарь. -Тула, 2000. -с.13.


**E-mail:** sima.ismayilzade@mail.ru

**Redaksiyaya daxil olub:** 25.09.2024.

***ALİ MƏKTƏB HƏYATI***
***ВУЗОВСКАЯ ЖИЗНЬ***
***UNIVERSITY LIFE***

*UOT 378*

***Hüzürə Tapdıq qızı Hacızadə***
*Naxçıvan Dövlət Universitetinin akademik məsləhətçisi*
*https://orsid.org/0009 0000 0868 1734*
*https://doi.org/10.69682/arti.2024.91(5).78-82*

# TƏLƏBƏLƏRİN UNİVERSİTET HƏYATINA UYĞUNLAŞMASINDA ALİ MƏKTƏB MÜƏLLİMİNİN PEDAQOJİ MƏDƏNİYYƏTİNİN ƏHƏMİYYƏTİ

***Хузуре Тапдыг гызы Гаджызаде***
*академический советник*
*Нахчыванского Государственного Универстета*

# ЗНАЧИМОСТЬ ПЕДАГОГИЧЕСКОЙ КУЛЬТУРЫ ПРЕПОДАВАТЕЛЕЙ ВУЗА В АДАПТАЦИИ СТУДЕНТОВ К УНИВЕРСИТЕТСКОЙ ЖИЗНИ

***Huzura Tapdig Hajizade***
*academic advisor at the*
*Nakhchivan State University*

# THE IMPORTANCE OF THE PEDAGOGICAL CULTURE OF THE UNIVERSITY TEACHER IN THE ADAPTATION OF STUDENTS TO UNIVERSITY LIFE

**Xülasə.** İnsan birdən birə tanımadığı yeni bir həyata qədəm qoyanda bu onun üçün həm çox həyəcanlı, həm də çətin olur. Ali məktəbə yenicə gələn gənc tələbə çox qarışıq duyğular yaşayır. Həm sevincli olur, həm də yeni dostlar, yeni fənlər, müəllimlər və yeni bir tədris prosesi ilə tanış olur.

Məqalədə müəllimin pedaqoji mədəniyyəti ilə tələbələrin ali məktəbdə tədris prosesinin şərtlərinə uyğunlaşması prosesi arasındakı əlaqə araşdırılır; eyni ilə "uyğunlaşma" və "pedaqoji bacarıq" anlayışlarının mahiyyəti və məzmunu açılır. Ali məktəb müəlliminin pedaqoji məharəti bir-biri ilə əlaqəli bir çox komponentlərdən ibarət mürəkkəb bir sistem kimi qəbul edilir ki, bunlar arasında müəllimin şəxsi keyfiyyətləri, xüsusi pedaqoji qabiliyyətinin olması, yüksək təşkilatçılıq mədəniyyəti və ən əsası dərin peşəkar biliyi mühüm yer tutur. Həmçinin məqalədə ali tədris ocağının tədris prosesində mövcud olan ziddiyyətlərin bütöv bir kompleksinin təsviri verilmişdir və onların aradan qaldırılması imkanlarına yer verilmişdir. Bu ziddiyyətlərin aradan qaldırılması sayəsində tələbələrin təhsil prosesinə uyğunlaşması rahat şəkildə baş verə bilər. Araşdırmada həmçinin təhsil prosesinin idarə edilməsinin əsas fərqləndirici xüsusiyyətləri və təhsil prosesinin iştirakçıları arasında məhsuldar pedaqoji ünsiyyətin qurulmasına töhfə verən məsələlər xarakterizə olunur. Pedaqoji ünsiyyətin humanist üslubu humanizm və zəka, yüksək mənəvi mədəniyyət və məsuliyyət kimi şəxsi keyfiyyətləri olmadan mümkün deyil. Məqalədə Naxçıvan Dövlət Universitetinin tələbələri ilə keçirilən sorğunun nəticələri təhlil edilib təqdim olunmuşdur.
***Açar sözlər**: Ali məktəb, müəllim, tələbə, pedaqoji mədəniyyət, bilik, bacarıq, fəaliyyət.*

**Аннотация.** При вступлении человека в новую жизнь, с которой он не знаком, для него это одновременно очень волнительно и трудно. Юный студент, только что поступивший в университет, испытывает весьма смешанные эмоции. Это одновременно радостно, он знакомится с новыми друзьями, новыми предметами, учителями и новым процессом обучения.

В статье исследуется взаимосвязь педагогической культуры преподавателя и процесса адаптации студентов к условиям учебного процесса в высшей школе. При этом раскрываются сущность и содержание понятий «адаптация» и «педагогическое мастерство». Педагогическое мастерство препо-

давателя высшей школы рассматривается как сложная система, состоящая из множества взаимосвязанных компонентов, среди которых важное место занимают личностные качества учителя, специальные педагогические способности, высокая организационная культура и, главное, глубокие профессиональные знания. Также в статье описан целый комплекс противоречий в образовательном процессе вуза и указаны места их устранения. Благодаря устранению этих конфликтов адаптация студентов к образовательному процессу может происходить легко. В исследовании также характеризуются основные отличительные черты управления образовательным процессом и вопросы, способствующие установлению продуктивного педагогического общения между участниками образовательного процесса. Гуманистический стиль педагогического общения невозможен без таких личностных качеств, как гуманизм и интеллект, высокая моральная культура и ответственность. В статье проанализированы и представлены результаты опроса, проведенного среди студентов Нахчыванского Государственного Университета.

***Ключевые слова:*** *Высшая школа, преподаватель, студент, педагогическая культура, знания, умения, деятельность*

**Abstract.** When a person suddenly enters a new life that he does not know, it is both very exciting and difficult for him. A young student who has just arrived at the university experiences very mixed emotions. It is both joyful and meets new friends, new subjects, teachers and a new learning process. The article examines the relationship between the teacher's pedagogical culture and the process of students' adaptation to the conditions of the teaching process in the higher school; At the same time, the essence and content of the concepts of "adaptation" and "pedagogical skill" are revealed. The pedagogical skill of a high school teacher is considered as a complex system consisting of many interconnected components, among which the teacher's personal qualities, special pedagogical ability, high organizational culture and, most importantly, deep professional knowledge occupy an important place. Also, the article describes a whole set of contradictions in the educational process of the higher education institution and provides a place for their elimination. Due to the elimination of these conflicts, adaptation of students to the educational process can happen easily. The research also characterizes the main distinguishing features of the management of the educational process and the issues that contribute to the establishment of productive pedagogical communication between the participants of the educational process. A humanistic style of pedagogical communication is impossible without personal qualities such as humanism and intelligence, high moral culture and responsibility. In the article, the results of the survey conducted with the students of Nakhchivan State University were analyzed and presented.

***Keywords:*** *Higher education institution, teacher, student, pedagogical culture, knowledge, skills, activity.*

Bəzi anlar olur ki, insan həyatda istəyindən asılı olmayaraq yaşadığı mühiti, həyat tərzini, dostlarını ümumiyyətlə bütün həyatını dəyişdirmək məcburiyyətində qalır. Ali məktəbə qədəm qoyan tələbələr oxuduğu ilin ilk ilində həm bir çox peşəkar ali biliklərin mənimsənilməsi kimi mürəkkəb proseslərə, həmçinin yeni qeyri-adi stresli şəraitə uyğunlaşmaq kimi çətin proseslərlə qarşılaşır. Belə ki, universitetin birinci kursuna daxil olan gənc dərhal tələbə olmur. Yeni dostlara, yeni müəllimlərə, yeni tədris fənlərinə, eyni ilə tam fərqli təhsil alma rejiminə uyğunlaşmaq onlar üçün çətin bir prosesdir. Araşdırmalar bu istiqamətdə bir çox problemlərin olduğunu göstərir. Birinci kurs tələbələrinin ali məktəb həyatına uyğunlaşması üçün optimal şəraitin təmin edilməsi zəruridir. Tələbələrin fərdi imkanları nəzərə alınmaqla bu istiqamətdə pe-daqoji fəaliyyətin həyata keçirilməsinə nəzəri və praktiki baxımdan təhsil müəssisələrinin kifayət qədər hazır olmaması prosesi daha da çətinləşdirir. Həmçinin ali təhsilə yeni başlayan gənclər zəif adaptiv qabiliyyətli olduqları halda onların universitetdə tədris şəraitinə uyğunlaşmasını təmin edə biləcək pedaqoji qarşılıqlı əlaqə metodlarının inkişafında hələ də bir çox problemlər vardır. Tələbələrin ali təhsil şəraitinə uyğunlaşması problemi hər bir dövrdə aktualdır və hələ də mübahisəlidir. Tələbələrin onlar üçün yeni həyat tərzinə, intensiv elmi-idrak və sosial-mədəni fəaliyyətə uyğunlaşma prosesinin elmi nöqteyi nəzərdən öyrənilməsi son dərəcə vacib məsələlərdəndir. Ali təhsil sisteminə daxil olan müasir gənc bir çox dəyişikliklərə uğurla uyğunlaşmalıdır. Ali məktəbdə demək olar ki, hər şey fərqli olur: tələb və məsuliyyət səviyyəsi,

təhsil texnologiyaları, yaşayış şəraiti, həmçinin sosial və maliyyə təminatı şərtləri və s. Uyğunlaşma dövrü nəticəsində tələbələr nəinki yeni tələblər və qaydaları öyrənməli, həm də öz peşəkar perspektivlərini müəyyənləşdirməli, müxtəlif özünütəhsil texnologiyaları üzərində naviqasiya etməli, daimi peşəkar inkişafın dəyərini dərk etməlidirlər. Bu baxımdan, uyğunlaşma psixoloji xarakterli problemlərin həlli ilə yanaşı, ümumi mədəni və peşəkar səlahiyyətlərin inkişaf səviyyəsinə əhəmiyyətli təsir göstərir. Birinci kurs tələbələri ilə kifayət qədər uyğunlaşma işinin aparılmaması əksər hallarda gənclərin həyatın başqa sahələrinə yönləndirilməsinə səbəb olur. Birinci kurs tələbəsinin ali məktəbə uğurlu adaptasiyası tələbənin təkcə bir fərd kimi deyil, həm də gələcək mütəxəssis kimi gələcək inkişafı üçün əsasdır, çünki onun peşəkar inkişafı zamanı gənc mütəxəssisə əsasən ali təhsil müəssisəsinin formalaşdırdığı davranış modeli təsir edir Müasir Ali məktəblərdə tədris prosesinin təşkilinin yeni formaları təşkil edilsə də hələdə tədrisin ənənəvi formalarından da istifadə olunur. Bütün bu problemlər öz həllini gözləyir ki, bu da ali təhsil sistemində dərslərin təşkili və keçirilməsinin optimal formalarından istifadə etməklə tam asanlaşdırıla bilər. Hazırda təhsil insan həyatının bütün sahələrinə təsir göstərir. O cümlədən insan təhsil sahəsinə təsir təsir edən dəyişikliklər şəraitində yaşamağa məcburdur. Üstəlik insan tədris prosesində ən müasir informasiya texnologiyalarından səmərəli şəkildə istifadə etməyi bacarmalıdır. Aydındır ki, müasir təhsil günü-gündən yeni səviyyəyə yüksəlir və gənclərin həyatında ən mühüm prioritetlərdən birinə çevrilir. Cəmiyyətin sosial-iqtisadi tərəqqisinin əsas amillərindən biri olan təhsilin məzmunu bir sıra tələblərə cavab verməlidir. Belə ki, şəxsi və peşəkar sferada öz müqəddəratını təyin etmək və özünü həyata hazırlamaq istəyən şəxslərin inkişafı üçün optimal şəraitin yaradılması və onların sürətlə dəyişən ehtiyaclarını təmin etmək kimi tələblər həmişə aktualdır. Ali məktəbdə təhsil prosesi ümumi və peşə mədəniyyəti baxımından cəmiyyətin tələblərinə adekvat, eyni zamanda yüksək əqli inkişaf səviyyəsinə, peşəkar ixtisasa və peşə səriştəsinə malik yeni işçi tipinin hazırlanmasına uyğun olmalıdır. Yalnız bundan sonra elm və texnikanın müasir nailiyyətlərinə uyğun gələn tədris prosesində innovativ texnologiyalardan istifadə etdikdə təhsil işi cəlbedici ola bilər. Bu baxımdan məhz pedaqoji prosesin faktiki səriştəli qurulması, şəxsiyyət strukturunda özünütəşkiletmə sistemi pedaqoji məharətin təzahürü sayıla bilər ki, bu da ilk növbədə müəllimin şəxsiyyəti ilə bağlıdır. Ali məktəb müəlliminin peşə fəaliyyəti spesifikdir. Kadrların hazırlanmasına yönəlib, müəllimdən öz işində içtimai və həyati yetkinlik, peşəkar keyfiyyətlər, bilik, bacarıq və yaradıcılıq tələb edir. Təbiətinə görə, bu peşə, universitetin rutini ilə tənzimlənən şəraitdə əsasən zehni fəaliyyətdir. Başqa sözlə desək ali məktəb müəlliminin işi tələbələrin təhsili və tərbiyəsi, o cümlədən, təhsilini başa vurduqdan sonra onların peşə fəaliyyətinə hazırlanması ilə bağlı problemlərin həlli prosesidir. Universitet müəlliminin qüvvələrinin əsas tətbiq sahəsi müəyyən bir fənnin tədrisidir və həmçinin ali məktəbdə təşkil edilən və həyata keçirilən elmi, metodik, ictimai-siyasi və s. işlərdir. Müəllim müəyyən mənada əsas fiqurdur, onun peşə hazırlığı prosesində tələbə şəxsiyyətinin inkişafında strateji rolu vardır. Ali məktəblərdə pedaqoji işi professorlar, dosentlər, assistentlər, baş müəllimlər aparırlar.

Universitetlərdə müəllimlərə öz ixtisası üzrə tədris-metodiki iş, pedaqoji və istehsalat təcrübələrinə rəhbərlik, tələbələrin müstəqil dərsləri və həmçinin elmi-tədqiqat işləri həvalə edilir. Ali məktəb müəllimi peşə fəaliyyəti prosesində yüksək səviyyədə özünütəşkili təmin etməyə eyni ilə təhsil prosesini yüksək yaradıcı səviyyədə qurmağa kömək edən bütün keyfiyyətlər kompleksinə malik olmalıdır. Bu keyfiyyətlərdən ən mühümləri vətəndaşlıq və vətənpərvərlik, humanizm və ziyalılıq, yüksək mənəvi mədəniyyət və məsuliyyət, zəhmətkeşlik və operativlikdir. Pedaqoji məharət pedaqoji mədəniyyətin əsas komponentidir və o, şəxsiyyətin keyfiyyətləri ilə birlikdə inkişaf etmiş psixoloji-pedaqoji təfəkkürün, peşə-pedaqoji bilik, bacarıq və emosional-iradi ifadə vasitələrinin sintezi kimi müəyyən edilir. Pedaqoji mədəniyyət müxtəlif mövcudluq formalarında təzahür edən pedaqoji reallığın universal xarakteristikasıdır. Bu, pedaqoji fəaliyyətin bütün iyerarxik səviyyələrində, bütün sosial-psixoloji, texnoloji və mənəvi-estetik komponentlərində uğur qazanmasını təmin edən çoxşaxəli şəxsiyyət keyfiyyətidir; Ali məktəb müəlliminin pedaqoji mədəniyyə-

tinin həyata keçirilməsi və formalaşmasının xüsusiyyətləri fərdi yaradıcılıq, psixofizioloji və yaş xüsusiyyətləri, şəxsiyyətin müəyyən edilmiş sosial-pedaqoji təcrübəsi ilə müəyyən edilir. Pedaqoji sənətkarlıq müəyyən fəaliyyət növünün əsas texnikalarının mükəmməl mənimsənilməsinin həyata keçirildiyi xüsusi biliklərdən, həmçinin bacarıq və vərdişlərdən ibarətdir

A.S. Makarenkonun fikirlərinə görə tələbələr soyuqqanlılıq, quruluq, şiddət və hətta ayrı seçiciliyə görə müəllimlərini bağışlayacaqlar lakin bu mövzuda zəif bilikləri heç vaxt bağışlamayacaqlar. Onlar müəllimdə hər şeydən əvvəl inamlı və aydın biliyə, məharətə, sənətə, qızıl əllərə, lakonizmə, aydın düşüncəyə, daim işə hazır olmağa dəyər verirlər. Ozheqov demişdir ki, "Ustalıq istənilən sahədə yüksək sənətdir". Ümumiyyətlə pedaqoji elmdə pedaqoji ustalığın dərk edilməsinə müxtəlif yanaşmalar mövcuddur. Bəzi elm adamları pedaqoji bacarığı tələbənin ruhunun vəziyyətini hiss etmək, tədris olunan fənn sahəsində dərin peşəkar biliklərlə birləşən təbii qabiliyyət və bu əsasda əks əlaqə yaratmaq qabiliyyəti ilə əlaqələndirir. Digər alimlər hesab edirlər ki, pedaqoji ustalıq dərin bilik və intuisiya, tədrisə elmi yanaşma, elmi təhlil qabiliyyəti, təxəyyül və fantaziyanın birləşməsidir. Rus alimlərinin fikrincə "Pedaqoji bacarıq elmi biliklərin, bacarıqların, metodik sənətin və müəllimin şəxsi keyfiyyətlərin sintezidir". Həmçinin "Pedaqoji məharət müəllimin yaradıcılığında, tədris sənətinin daim təkmilləşdirilməsində, tələbənin inkişafını tərbiyə etməkdə özünü göstərən pedaqoji fəaliyyətin ən yüksək səviyyəsidir." Pedaqoji mədəniyyət normaların, davranış qaydalarının, pedaqoji taktikanın təzahürü, pedaqoji texnika, pedaqoji savad və təhsil deməkdir; Bu, pedaqoji dəyərlərin, müəllimin fəaliyyət metodlarının və peşəkar davranışının dinamik sistemidir, bu, peşəkar biliklərin ötürüldüyü təhsil səviyyəsidir. Pedaqoji elmin və peşə bacarıqlarının inkişaf etdirilməsinin əsası, ona dərinlik, hərtərəfli məna verən peşə bilikləridir. Bu sosial, fəlsəfi, psixoloji-pedaqoji, eyni zamanda digər elm sahələrinə aid olan, həmçinin müəllim şəxsiyyətinin ümumi mədəniyyətini formalaşdıran bilikdir. Müəllimin peşə biliyi bütün səviyyələrdə (metodiki, texnoloji, yaradıcı və informasiya-məzmun) eyni vaxtda formalaşmalı, təfəkkürün və pedaqoji şüurun əsasına çevrilməlidir. Dərin peşəkar bilik olmadan səmərəli pedaqoji proses təşkil edilə bilməz. Müəllimin dərin biliyə malik olmaması tələbələri nəinki lazımı biliklərdən məhrum edə bilər, həm də onların tədris prosesinə uyğunlaşmasına mane ola bilər və tələbələrdə öyrənmə həvəsinin itirilməsinə şərait yarada bilər. Ali məktəb müəllimləri yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında peşəkar fəaliyyətin subyektləri olmaqla yanaşı, həm də ölkədə baş verən siyasi, sosial-mədəni proseslərin, dəyişikliklərin fəal iştirakçılarıdır. Pedaqoji məharətin strukturu müəllimin şəxsiyyəti və fəaliyyəti ilə ifadə olunur. Müəllimin yaradıcılığı onun fəaliyyətinin ən yüksək xüsusiyyətidir, hər bir yaradıcılıq da müəllimin şəxsiyyəti ilə sıx bağlıdır. Müəllimin fəaliyyətinə üç komponent daxildir: - pedaqoji fəaliyyət; - pedaqoji ünsiyyət; - müəllim şəxsiyyəti. Müəllim şəxsiyyətində humanizm mütləqdir. Hər bir müəllim humanist olmalı, müəllimlik fəaliyyətində insanı ali dəyər kimi tanımalı, hər bir tələbənin şəxsiyyətinin əhəmiyyətini dərk etməli, tələbələrlə münasibətlərini inam və hörmət əsasında qurmalıdır. Pedaqoji prosesdə humanist ünsiyyət tərzindən istifadə müəllimin peşəkar ustalığının göstəricisidir. Naxçıvan Dövlət Universitetinin tələbələri ilə sorğu keçirərkən "müəllimin hansı keyfiyyətlərini ən əhəmiyyətli hesab edirsiniz" sualına, respondentlərin əksəriyyəti peşəkar biliklərlə yanaşı, ədalətlilik və xeyirxahlıq kimi keyfiyyətləri də adlandırıblar. Pedaqoji ünsiyyətin humanist üslubu humanizm və zəka, yüksək mənəvi mədəniyyət və məsuliyyət kimi şəxsi keyfiyyətləri olmadan mümkün deyil. Lakin müəllimin xüsusi idarəçilik qabiliyyəti də olmadan pedaqoji ustalıq mümkün deyil. Müəllimin tədris prosesini idarə etmək sənəti tələbələrin universitet mühitinə uyğunlaşması üçün böyük əhəmiyyət kəsb edir. Təhsil prosesini səmərəli şəkildə idarə etmək və müəyyən təlim nəticələrinə nail olmaq üçün müəllim və hər bir tələbə arasında məqsədyönlü, sistemli qarşılıqlı əlaqə olmalıdır. Prosesi idarə etmək dedikdə sadəcə tələblərlə sərt rəftar və tələbələrin fəallığını məhdudlaşdırmaq nəzərdə tutulmur. Əksinə gəncləri anlamaq, onların dərsdə aktivliyini təmin etmək, dərs prosesini maraqlı həyata keçirmək nəzərdə tutulur. Bəzi müəlliflərin fikrincə, təhsil prosesinin idarə edilməsinin fərqli xüsusiyyətləri belə izah olunur.

Idarəetmə zamanı kortəbii tənzimləmədən fərqli olaraq şüurlu və sistemli təsir göstərmək, müəllim və tələbə arasında səbəb-nəticə əlaqələrinin olması və s. Beləliklə, tələbənin universitetdə tədris prosesinə uyğunlaşmasının uğuru bir çox amillərdən, o cümlədən müəllimin pedaqoji məharətindən və onun özünəməxsus tədris tərzindən, müəllimin xüsusi pedaqoji qabiliyyətlərə məcburi malik olmasından asılıdır, lakin bununla belə ən əsas aparıcı amillərdən biri tələbənin şəxsiyyətinin strukturunda müsbət dəyişikliklərə nail olmaq üçün onun yüksək motivasiyası və təhsil nailiyyətlərinin əhəmiyyətini dərk etməsidir. Tələbələrin uyğunlaşması tələbələrin həyat fəaliyyətinin bir hissəsidir və birinci kursa daxil olan gənclərin fərdi psixoloji xüsusiyyətlərinin daim öyrənilməlidir. Onları motivasiya etmək və rahat şəkildə uyğunlaşmasına şərait yaratmaq lazımdır.

**Problemin aktuallığı**. Müəllimin peşəkar bacarığı, onun qabiliyyəti, pedaqoji ustalığı, öyrətmə metod və üsullarının həyata keçirmə səriştəsi, tələbələr ilə düzgün münasibətin qurulması və s. tələbələrin tərəfindən qiymətləndirmə və dəyərləndirilməsi.

**Problemin elmi yeniliyi**. Naxçıvan Dövlət Universitetinin tələbələri ilə keçirilən sorğunun nəticələri təhlil edilib, araşdırmalar aparılmışdır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Ирина Вячеславовна. Психологические особенности педагогического общения преподаватель студент в современном вузе: / диссертация на соискание ученой степени кандидата психологических наук) / -Смоленск, 2011.
2. Даутмерзаева Л.М. Образование как система и процесс в историческом аспекте // Материалы II Ежегодной итоговой конференции ППС ЧГУ 2013 г. Грозный, 2013. – с. 375–381.
3. Ершова А.П., Букатов В.М. Режиссура урока, общения и поведения учителя. – М.: Флинта, 1998. – 232 с.
4. Кан-Калик В.А. Учителю о педагогическом общении. – М.: Просвещение, -1987. – 190 с.
5. Rüstəmov, F. Ali məktəb pedaqogikası: Magistratura pilləsi üçün dərslik / F. Rüstəmov, T. Dadaşova. -Bakı: «Nurlan», - 2007.
6. İlyasov, M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri: Monoqrafiya / M. İlyasov. - Bakı: "Elm və təhsil", – 2018.


**E-mail:** hacizadehuzure@ndu.edu.az
**Redaksiyaya daxil olub:** 05.09.2024.

*UOT 159.9*

***Mədinə Zülfüqar qızı Həziyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Pedaqoji psixologiya kafedrasının müəllimi*
*https://orcid.org/0009-0005-3139-318X*
*https://doi.org/10.69682/arti.2024.91(5).83-86*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN TƏLİMƏ MOTİVASİYASI

***Медина Зульфугар гызы Газиева***
*преподаватель кафедры Педагогической психологии*
*Азербайджанского Государственного*
*Педагогического Университета*

## УЧЕБНАЯ МОТИВАЦИЯ СТУДЕНТОВ В ВУЗАХ

***Medina Zulfugar Khaziyeva***
*lecture of the department of Pedagogical psychology at the*
*Azerbaijan State Pedagogical University*

## LEARNING MOTIVATION OF STUDENTS IN UNIVERSITIES

**Xülasə.** Elmi məqalədə ali təhsil müəssisələrində tələbələrin təlimə motivasiyası araşdırılmışdır. Məqalədə qeyd edilir ki, öyrənmə motivasiyasının xarakteri və şəxsiyyətin xüsusiyyətləri mahiyyətcə təhsilin keyfiyyətinin göstəriciləridir. Uğurlu təhsil üçün motivasiya amili intellektdən az əhəmiyyət kəsb etmir. Elmi məqalədə insanın əmək fəaliyyəti ilə bağlı motivlər, tələbələrin fəaliyyətinin xüsusiyyətləri də öyrənilmişdir.
***Açar sözlər:*** *təlimə motivasiya, tələbatlar, təhsilin keyfiyyət göstəriciləri, motivlər, peşəyönümli motivasiya*

**Аннотация.** В научной статье исследована мотивация студентов высших учебных заведений. В статье утверждается, что характер учебной мотивации и личностные качества по своей сути являются показателями качества образования. Мотивационный фактор успешного обучения не менее важен, чем интеллект. В научной статье также изучены мотивы, связанные с трудовой деятельностью человека и особенностями деятельности студентов.
***Ключевые слова:*** *мотивация обучения, потребности, показатели качества образования, мотивы, профессиональная мотивация*

**Abstract.** The scientific article examines the motivation of students of higher educational institutions. The article argues that the nature of educational motivation and personal qualities are inherently indicators of the quality of education. The motivational factor for successful learning is no less important than intelligence. The scientific article also examines the motives associated with a person's work activity and the characteristics of students' activities.
***Keywords:*** *learning motivation, requirements, education quality indicators, motives, professional motivation*

Müasir dövrdə informasiya şəraitində ali təhsil müəssisələrinin əsas vəzifəsi sosial tərəqqini təmin edən gələcək fəal tələbə şəxsiyyətini formalaşdırmaqdır. Ona görə də şəxsiyyətin tərbiyəsi, ilk növbədə, onun tələbat və motivləri sisteminin işlənib hazırlanmasından ibarətdir. Deməli, motiv müəyyən tələbatların ödənilməsi ilə əlaqədar fəallığa təhrikdir. Motiv dedikdə, fəaliyyətə təhrik edən tələbatları, məqsəd, fəaliyyətin yönəldildiyi və icrası zamanı məhsula çevrilməli olan mövzu nəzərdə tutulur.

Öyrənmə motivasiyasının xarakteri və şəxsiyyətin xüsusiyyətləri mahiyyətcə təhsilin keyfiyyətinin göstəriciləridir. Uğurlu təhsil üçün motivasiya amili intellektdən az əhəmiyyət kəsb etmir. Müvəffəqiyyət üçün motivlərin yüksək əhəmiyyətliliyinin dərk edilməsi təlim prosesinin motivləşmə prinsipinin əsaslandırılmasına səbəb oldu. Motivləşmənin müxtəlif bölgülərində psixoloqların mühüm məsələlərə - motivləşmənin enerji və məzmun aspektləri arasındakı əlaqəyə dair mövqeyini ifadə edilir.

Təlim motivasiyası insan tərəfindən şüurlu fəaliyyət kimi həyata keçirilir. Bu təsirlər insanın həyat münasibətlərinin, istəklərinin, maraqlarının xüsusiyyətləri ilə bağlıdır, bu da onun motivasiyasının xarakterindən və təlim motivlərindən xəbər verir. İlk dəfə olaraq motivasiya termini A. Şopenhauer tərəfindən "Kifayət qədər səbəbin dörd prinsipi" adlı məqaləsində termin kimi, daha sonralar insan və heyvan davranışının səbəblərini izah etmək məqsədi ilə istifadə edilmişdir.

L.İ. Bojoviçin fikrincə, motivlər xarici aləmin predmetləri, təsəvvürlər, fikirlər, hiss və həyəcanlar ola bilər. Eyni zamanda motiv, motivasiya bir şəxs tərəfindən davranışın xarici və daxili amillərinin əlaqələndirilməsinin mürəkkəb mexanizmi kimi təzahür edir, müvafiq fəaliyyət formalarının meydana gəlməsini, onların istiqamətini, həyata keçirilmə yollarını müəyyənləşdirir.

E.Q. İzotova görə, motivasiya motivlərin məcmusudur. Motivasiya həm yerli, həm də xarici psixologiyada fundamental problemlərdən biridir. Onun müasir psixologiyanın inkişafı üçün əhəmiyyəti insan fəaliyyətinin mənbələrinin, onun fəaliyyətinin, davranışının motivasiyaedici qüvvələrinin təhlili ilə bağlıdır.

İnsanın əmək fəaliyyəti ilə bağlı motivləri üç qrupa bölmək olar: 1. Əmək fəaliyyətinin motivləri; 2. Peşə seçiminin motivləri; 3. İş seçmək üçün motivlər.

*Konkret fəaliyyət* son nəticədə həmin motivlərlə müəyyən edilir (əmək fəaliyyətinin motivləri peşə seçimi motivlərinin formalaşmasına, sonuncular isə iş yerinin seçilməsi motivlərinin formalaşmasına səbəb olur) [4].

*Peşə motivasiyası* peşəkarlığın və şəxsiyyətin inkişafında daxili hərəkətverici amil kimi çıxış edir, çünki yalnız onun yüksək səviyyədə formalaşması əsasında peşəkar fərdin təhsil və mədəniyyətini səmərəli şəkildə inkişaf etdirmək mümkündür. Bu müddəalar tələbə gənclərin peşə motivasiyasının inkişafı probleminə müraciətin əhəmiyyətini əsaslandırır, hər şeydən əvvəl tələbələrin - gələcək müəllimlərin peşə motivasiyasının inkişafı probleminin həllinin vacibliyi üçün əsas rol oynayır, çünki bu elmi müstəvidə şəxsiyyət və peşə arasında qarşılıqlı əlaqənin əsas məqamları vardır ki, burada təhsil prosesinin prioritet olduğu xüsusi bir şəkildə vurğulanır.

Eyni zamanda, peşə motivasiyası universitet təhsili sistemində formalaşır, tələbatların, münasibətlərin, maraqların, təlim tapşırıqlarının yerinə yetirilməsini təmin edir, şəxsiyyəti gələcək peşə fəaliyyətini daha dərindən öyrənməyə təhrik edir. Şüurda əks etdirən fəal tələbatlar (ali təhsil almaq, daha da özünü inkişaf etdirmək və peşəkar inkişaf üçün əsas əldə etmək, gələcəkdə sosial vəziyyətini yaxşılaşdırmaq) tələbəni gələcək peşə fəaliyyətinə yiyələnməyə təhrik edir və istiqamətləndirir. R.V. Qabdreev, A.V. Smirnov təlim motivasiyasının müxtəlif tiplərini, həmin fəaliyyətə təhrik edən üç növü müəyyən etmişlər [2].

*Birincisi,* şərti olaraq mənfi adlandırılan motivasiyadır. Təlimdə mənfi motivasiya dedikdə, şagirdin təhsil almadığı təqdirdə yarana biləcək bəzi narahatçılıqları və çətinlikləri dərk etməsi nəticəsində yaranan motivasiya nəzərdə tutulur. Bunlar daimi dərsə təhriklərdir. *İkincisi,* savadlı həmyaşıdları arasında öz haqsız mövqeyini dərk etməlidir. *Üçüncüsü,* təlim motivasiyası təhsil fəaliyyətindən kənarda heç bir uğurlu nəticəyə səbəb ola bilməz, çünki təlim arzu, istək və səy tələb edir. Yalnız motivasiyanın yenidən qurulması nəticəsində təlimin müsbət nəticələri yarana bilər. Şagirdlər arasında təlim motivasiyasının formalaşdırılmasını müasir məktəbin əsas problemlərindən biri adlandırmaq olar.

Onun aktuallığı təlimin məzmununun daim yenilənməsi, məktəblilər arasında müstəqil bilik əldə etmək və aktiv həyat mövqeyini inkişaf etdirmək ehtiyacının formalaşdırılması vəzifələrinin formalaşdırılması ilə əlaqədardır. Təlim və tərbiyə sahəsindəki ən kəskin problemlər tələbələrin əksəriyyəti arasında təhsil almaq üçün motivlərin olmaması ilə əlaqəli olduğundan, ali təhsil müəssisələrinin məzunlarının təhsil və tərbiyəsinin əsas göstəricilərinin azalması ilə nəticələndiyindən bu meyarın əhəmiyyəti aydın olur.

Təhsil fəaliyyəti müxtəlif məktəblilər üçün fərqli mənalara malikdir. Buna görə də, hər bir konkret vəziyyətdə tələbə üçün təlim motivasiyasının və tədrisin mənasının müəyyənləşdirilməsi məktəblilərə pedaqoji-psixoloji təsir tədbirlərinin müəyyənləşdirilməsində həlledici rol oynayır. Təlim prosesində şagirdlərə bir motiv deyil, motivlər sistemi təsir göstərir. Təcrübə göstərir ki, təlim fəaliyyətinə aktiv və yönəldilmiş xarakter verən bütün motivasiya münasibətləri quruluşa daxil olur və onun məzmun-semantik xüsusiyyətlərini müəyyənləşdirir. Göstərilən motivlər sistemi həm sabitlik, həm də dinamikliyi ilə xarakterizə olunan təlim motivasiyasını təşkil edir.

Adətən üç növ fəaliyyət mənbəyi var: *daxili, xarici, şəxsi.* Təlim motivasiyasının *daxili mənbələrinə* idrak və sosial tələbatlar (sosial olaraq təsdiqlənmiş hərəkətlər və nailiyyətlər arzusu) daxildir. Təlim motivasiyasının *xarici mənbələri* tələblər, gözləntilər və imkanları özündə birləşdirən tələbənin həyat şəraiti ilə müəyyən edilir. Tələblər davranış, ünsiyyət və fəaliyyətin sosial normalarına riayət etmək ehtiyacı ilə əlaqələndirilir. Gözləntilər cəmiyyətin təlimə münasibətini insan tərəfindən qəbul edilən və təhsil fəaliyyətinin həyata keçirilməsi ilə bağlı çətinliklərin öhdəsindən gəlməyə imkan verən davranış norması kimi xarakterizə edir. İmkanlar təlim fəaliyyətinin (məktəblərin, müəllimlərin, dərsliklərin, kitabxanaların və s.) həyata keçirilməsi üçün zəruri olan obyektiv şərtlərdir. Təlim fəaliyyətini motivasiya edən bu fəaliyyət mənbələri sistemində *şəxsi mənbələr* xüsusi yer tutur. Bunlara təhsil və digər fəaliyyətlərdə özünü inkişaf etdirmək, özünütəsdiq, maraqlar, tələbatlar, münasibətlər, standartlar, stereotiplər və digərləri daxildir. Təlim motivasiyasının daxili, xarici və şəxsi mənbələrinin qarşılıqlı əlaqəsi təlim fəaliyyətinin xarakterinə və onun nəticələrinə təsir göstərir. Bu mənbələrdən birinin olmaması təhsil sisteminin yenidən qurulmasına gətirib çıxarır [3].

Pedaqoji fəaliyyətin motivasiyası fəaliyyət motivasiyasının ümumi mexanizminə və yeni motivlərin formalaşmasına tabedir. O, məqsədin motivə çevrilməsi mexanizmi və ya motivi məqsədə köçürmək adını almışdı. Onun mahiyyəti ondan ibarətdir ki, əvvəllər hansısa motivlə həyata keçirməyə təşviq olunan məqsəd zaman keçdikcə müstəqil həvəsləndirici qüvvə qazanır, yəni özü motivə çevrilir. Buna görə də, tələbənin təlim fəaliyyətinin psixoloji məzmununun və strukturunun müəyyən edilməsi ali məktəbdə psixologiyanın ən mühüm vəzifəsidir. Yuxarıda göstərilənlərlə əlaqədar olaraq tələbələrin fəaliyyətinin xüsusiyyətlərinə aşağıdakılar daxil edilməlidir:

a) məqsəd və əldə edilən nəticələrin orijinallığı (müstəqil peşə fəaliyyətinə hazırlıq, bunun üçün zəruri olan bilik, bacarıq və bacarıqların mənimsənilməsi);

b) təhsil fəaliyyəti obyektinin xüsusi xarakteri (qarşıdan gələn peşə fəaliyyəti haqqında elmi biliklərin əldə edilməsi, əvvəlki nəsillərin təcrübəsini nəzərə alaraq zəruri bacarıq və bacarıqların formalaşdırılması və s.)

c) ciddi planlaşdırılmış şəraitdə tələbələrin fəaliyyətinin gedişi (kurikulum, təhsil müddətləri və dövrləri);

d) xüsusi fəaliyyət vasitələri (tədris və elmi kitablar, jurnallar, kompüter informasiya bazası, laboratoriya avadanlığı);

e) tələbə fəaliyyəti psixikanın fəaliyyətinin intensivliyi və yüksək intellektual stress ilə xarakterizə olunur, fəaliyyət zamanı müxtəlif səviyyələrdə həddindən artıq yüklənmə və ciddi şəkildə tənzimlənən diqqət (testlər, imtahanlar, müxtəlif standartlar, imtahan sənədlərinin müdafiəsi, layihələr və s.).

Tələbələrin fəaliyyətinin xüsusiyyətləri I kursda nadir hallarda dərhal görünür, çünki bu dövrdə orta məktəbdən ali təhsilə keçid zamanı kəskin dəyişiklik olduğu zaman uyğunlaşma və stresli vəziyyətdən çıxış yolu var. Təlim fəaliyyətinin həyata keçirilməsi şəraitində, sinif otaqlarında, təhsil müəssisəsində, yaşayış yerində təsir edir və son nəticədə onların təlim fəaliyyətinə təsir göstərir.

Ali təhsil müəssisəsində tələbənin fəaliyyəti məqsədlərinə, şərtlərinə, motivlərinə görə spesifikdir. Təlim-tərbiyə prosesinin effektivliyi bir çox amillərdən asılıdır. Onların arasında tələbələrin fəal idrak fəallığı mühüm rol oynayır. Bu fəaliyyəti idarə etmək üçün müəllim tələbələrin psixi idrak proseslərinin qanunauyğunluqlarını yaxşı bilməli və onları öz işlərində daim nəzərə almalıdır. Bundan əlavə o, sinifdə təsvir olunan dünyanın müxtəlif obyektləri və xüsusiyyətləri, habelə fəaliyyət metodları və üsulları haqqında konkret fikir formalaşdırmağa kömək edə biləcək təxəyyülə malik olmalıdır.

Psixoloji tədqiqatların göstərdiyi kimi, tələbələrin motivasiyası müxtəlifdir, o bir çox amillərdən asılıdır: tələbələrin fərdi xüsusiyyətləri, ən yaxın istinad qrupunun xarakteri, tələbə kollektivinin inkişaf səviyyəsi. Digər tərəfdən tələbənin davranışının motivasiyası həmişə onun mənsub olduğu qrupun baxışlarının, dəyərlərinin, yönəlişliyin əksidir. Odur ki, təsdiq olunmalıdır ki, tələbənin idraki, elmi, ictimai fəallığının mənbəyi, həmçinin müxtəlif fəaliyyətinin təhrikedici səbəbləri ali məktəbdə motivlərin mürəkkəb strukturudur.

Məsələn, tələbələrin təlim motivasiyası müəyyən bir fəaliyyətə daxil olan xüsusi bir motivasiya növü kimi müəyyən edilir. Təlim motivasiyasının bu və ya digər növü bir sıra amillərlə müəyyən edilir. Bu amillərə aiddir: *birincisi,* təhsil sisteminin özü, təhsil müəssisəsi; *ikincisi,* tədris prosesinin təşkili; *üçüncüsü,* tələbənin subyektiv xüsusiyyətləri; *dördüncü,* müəllimin xüsusiyyətləri və ilk növbədə onun tələbələrlə münasibətlər sistemi; *beşincisi,* təlim mövzusunun xüsusiyyətləri.

Pedaqoji prosesin həyata keçirilməsi bütün mürəkkəbliyi və cəlbediciliyi ilə məqsəddən fəaliyyət motivinə çevrilmişdir. Məqsəd, bir qayda olaraq, daha da mürəkkəbləşir. Peşə motivasiya problemi müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir. Məhz burada şəxsiyyət və cəmiyyət arasında qarşılıqlı əlaqənin əsas məqamları xüsusi bir şəkildə vurğulanır ki, bu zaman təhsil prosesi prioritet olur.

Universitet tələbələrinin peşəyönümlü motivasiyasının quruluşunu öyrənmək, təhsil sahəsində işləməyə sövq edən motivləri bilmək pedaqoji fəaliyyətin səmərəliliyinin artırılması problemlərini psixoloji cəhətdən əsaslı şəkildə həll etməyə imkan verəcəkdir. Motivasiya müxtəlif psixoloji konsepsiyalara riayət edən psixoloqlar arasında bir çox mübahisələrə səbəb olan mürəkkəb psixoloji hadisədir. Motivasiya fundamental problemlərdən biridir, onun müasir psixologiyanın inkişafı üçün əhəmiyyəti insan fəaliyyətinin mənbələrinin, onun fəaliyyətinin, davranışının motivasiyaedici qüvvələrinin təhlili ilə bağlıdır.

Motivasiya əksər müəlliflər tərəfindən insan davranışını və fəaliyyətini müəyyənləşdirən psixoloji cəhətdən müxtəlif amillər sistemi kimi başa düşülür. Tələbələrin təlim motivasiyası bir sıra ölçülərə malikdir: bu quruluş, funksiyaların ayrı-ayrı komponentləri tərəfindən həyata keçirilən real tədris prosesindəki təzahürlərin xüsusiyyətləri kimi təzahür edir. Tələbənin təlim fəaliyyətinin subyekti kimi psixoloji xarakteristikası belədir: tələbə ali təhsil institutu tərəfindən təşkilati olaraq birləşdirilmiş insanların spesifik birliyidir.

**Problemin aktuallığı.** Məqalədə qeyd edilir ki, öyrənmə motivasiyasının xarakteri və şəxsiyyətin xüsusiyyətləri mahiyyətcə təhsilin keyfiyyətinin göstəriciləridir. Bu baxımdan uğurlu təhsil üçün motivasiya amili önəmlidir.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə ali təhsil müəssisələrində tələbələrin təlimə motivasiyası araşdırılmış, insanın əmək fəaliyyəti ilə bağlı motivlər, tələbələrin fəaliyyətinin xüsusiyyətləri də öyrənilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Асеев, В.Г. Мотивация поведения и формирования личности. [Текст] / В.Г. Асеев – М.: Мысль, 2006. – 158с.
2. Габдреев Р.В., Смирнов А.В. Формирование мотивации учебно-позна- вательной деятельности студентов ВУЗа // Образование и саморазвитие. – 2008. – № 10. – С. 227–233.
3. Гордеева Т. О., Шепелева Е. А. Внутренняя и внешняя учебная мотивация академически успешных школьников //Вестник Московского университета. Сер. 14. Психология. 2011. № 3. С. 33–45.
4. Изотова, Е. Г. Мотивация учебной деятельности студентов вузов: особен- ности формирования и развития [Текст] / Е.Г. Изотова //Реализация стандар- тов второго поколения в школе: проблемы и перспективы: сборник научных статей третьей всероссийской интернет-конференции (октябрь – декабрь 2014 г.) / под науч. ред. Е. В. Карповой. – Ярославль: Изд-во ЯГПУ, 2014. – 190 с. – С. 54–59.


**E-mail:** hez9595@mail.ru
**Redaksiyaya daxil olub:** 12.09.2024.

## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*
## *ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ*
## *HISTORY OF THE SCHOOL AND PEDAGOGICAL THOUGHT*

*UOT 37.0*

***Adilə Həsən qızı Nəzərova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/ 0000-0002-4340-6882*
*https://doi.org/10.69682/arti.2024.91(5).87-90*

# NAXÇIVANDA HÜRUFİZM. HÜRUFİZM TƏLİMİNDƏ TƏRBİYƏVİ İDEYALAR

***Адила Гасан гызы Назарова***
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики,*
*доктор философии по филологии*

# ХУРУФИЗМ В НАХИЧЕВАНЬ. ВОСПИТАТЕЛЬНЫЕ ИДЕИ В УЧЕНИИ ХУРУФИЗМА

***Adila Hasan Nazarova***
*leading research at the Institute of Education of the Republic of Azerbaijan,*
*doctor of philosophy in philology*

# HURUFISM IN NAKHCHIVAN. EDUCATIONAL IDEAS IN THE TEACHING OF HURUFISM

**Xülasə.** Azərbaycanın və Yaxın Şərqin tarixində, ictimai-mədəni həyatında, ədəbiyyatında və xüsusilə fəlsəfi fikir tarixində xüsusi yeri olan hürufizm yaranan ilk illərdən etibarən həm cəmiyyət həyatına, həm də siyasi dairələrə nüfuz etmişdir.

Hürufilik təlimində, o cümlədən İ. Nəsiminin əsərlərində elm, irfan, təhsil, adicə oxumaq qabiliyyəti belə tərbiyə sayılır. Onun müsbət əxlaqi keyfiyyətlər formalaşdıran tərbiyəvi-didaktik görüşləri neçə-neçə nəsillərin mənəvi tərbiyəsində önəmli rol oynayır.
***Açar sözlər:*** *Naxçıvan, hürufilik təlimi, mübarizə, kamil insan, fəlsəfi ideyalar, təbiyə*

**Аннотация.** Хуруфизм, занимающий особое место в истории, общественной и культурной жизни, литературе и особенно в истории философской мысли Азербайджана и Ближнего Востока, с первых лет своего существования оказал большое влияние как на общественную жизнь, так и на политические круги.

В учении Хуруфизма, в том числе в произведениях И. Насими, воспитанием считалась наука, вероведение, образование и просто умение читать. Его воспитательно-дидактические взгляды, формирующие положительные моральные качества, играют важную роль в нравственном воспитании нескольких поколений.
***Ключевые слова:*** *Нахичевань, учение Хуруфизма, борьба, совершенный человек, философские идеи, воспитание*

**Abstract.** Letterism, which has a special place in the history, social and cultural life, literature, and especially in the history of philosophical thought of Azerbaijan and the Middle East, has been influential in both social life and political circles since the first years of its existence.

In the teaching of Hurufi, including in the works of I. Nasimi, science, lore, education, and simply the ability to read are considered education. His educational and didactic meetings, which form positive moral qualities, play an important role in the moral education of several generations.
***Key words:*** *Nakhchivan, teaching of hurufism, struggle, perfect man, philosophical ideas, nature*

Hürufilik təlimini ilk dəfə olaraq 1386-cı ildə Təbrizdə açıqlayan Nəimi öz ideyaları ilə insanları maddi dünyaya uymamağa, haqq-ədalətə, halallığa səslədiyi üçün o dövrün hakim dairələrinin marağına zidd olmuş, bu səbəbdən də təzyiqlərə məruz qalmışdır. Azərbaycana üz tutan Nəimi bir sıra traktatlar yazaraq yeni təlimin ideyalarını əvvəl Bakıda, sonra Naxçıvanda kifayət qədər yaymağa nail olmuşdur. Bu səbəbdən hürufilər Azərbaycanı "Sərzəmin-e-rəstaxiz" - (Oyanış yeri) adlandırırlar.

Hüruf sözü ərəbcə "hərf" sözünün cəm formasıdır. Hürufi isə mənsubiyyət bildirir və Hürufilik inanc sisteminə bağlı (şəxs, fikir, hərəkət və s.) anlamındadır. Hərf simvolizminin nə vaxt və necə yarandığı dəqiq bilinməsə də, sözün əsl mənasına eramızdan əvvəl IV-III əsrdən etibarən Yaxın Şərqdə Ellinistik-Qnostik dinlərdə meydana gəldiyi düşünülür. (1, 408) Gizli mənalar ehtiva etdiyi düşünülən hərf və rəqəmlərin insana və təbiətə təsir etdiyi inancına ilk dövrlərdə Misir, Yaxın Şərq və Hindistan sivilizasiyalarında, sonrakı dövrlərdə isə yəhudi, xristian və islam mədəniyyətlərində rast gəlinir.

Mənbələrə əsasən, sufi alimi, filosof şair, hürufizmin banisi Fəzlullah Nəimi (Fəzlullah bin Əbi Məhəmməd Nəimi Təbrizi) 1339-cu ildə İranda, Xəzər dənizinin cənub-şərqində yerləşən Astarabad şəhərində doğulmuşdu. Körpə yaşlarından atasını itirən Fəzlullah elmə yüksək maraq göstərmiş, İsfahanda, Məkkədə, Nişapurda və Xorasanda təhsil almış, gənc vaxtlarından dini və dünyəvi elmlərə yiyələnmiş, "Şeyx" dini rütbəsinə yiyələınmişdi.

Məlumdur ki, Nəiminin 6 əsəri var, amma yaradıcılığının əsasını 4 böyük əsəri – "Cavidnamə", "Məhəbbətnamə", "Əsrnamə" və "Vəsiyyətnamə" təşkil edir. (Digər 2-si: "Divan" və "Nevmnamə"dir.)

Naxçıvanda hürufizmin yayılması o dövrün ictimai-siyasi hadisələri ilə bağlıdır. O vaxtlar Azərbaycan da digər ətraf ölkələr kimi monqol işğalına məruz qalmışdı. 1385-ci ildə yüz minlik qoşunu ilə yürüş edən Qızıl Orda xanı Toxtamış Dərbəndi, Şirvanı ələ keçirmiş, Təbrizi mühasirəyə almışdır. Öncə əhaliyə təslim olduqları təqdirdə bağışlanacaqlarını elan edən xan sonra sözündən dönərək Təbrizi viran edir, əhalini qılıncdan keçirir. Təbrizdən sonra Mağaranı, Mərəndi və Naxçıvanı qarət edən Toxtamış 200 min nəfəri əsir alır. Əhali arasında monqollara nifrət artdıqca hürufilər xalqı istilaçılara qarşı mübarizəyə çağırırdılar. Toxtamışın zülmündən qurtarmağa çalışan xalq bu dəfə də Əmir Teymurun Azərbaycana yürüşü ilə üzləşir. Qısa zamanda Təbriz və Naxçıvan ələ keçirilir, bundan ehtiyatlanan Şirvanşah İbrahim Əmir Teymuru paylarla, hədiyyələrlə (mal, qızıl, qılınc, dəvə və qul olmaqla) qarşılayır və bu minvalla da müstəqillik əldə edir.

Bu hadisələrin baş verdiyi ərəfədə, o vaxtadək sufiliyi öyrənən İmadəddin Nəsimi də Nəimi ilə tanış olmuş, bəlağətli nitqi, şeirləri, çağırışları ilə Naxçıvanda hürufilərin fəaliyyətini və saylarını artırmışdı.

Ey bülbüli-qüdsi, nə giriftari qəfəssən,
Sındır qəfəsi, tazə gülüstan tələb eylə.

Nəsimi hürufiliyi qəbul edəndən sonra daha çox dini-fəlsəfi şeirlər yazmağa başlamışdır. Xüsusilə bu cür cəsarətli şeirləri şairin ədəbiyyat tarixində qalmasına səbəb olmuşdur.

Hürufilər Naxçıvanda Əlincə qalasında toplaşırlar, Əmir Teymur Naxçıvanı alsa da, Əlincə qalasının ala bilmir. Qalanı almağı israrla tələb etsə də, sərkərdələri onu inandırırlar ki, qoşunlarının qarşısında illərdir hamı aciz qalıb, ancaq Nəiminin gəlişindən sonra əhalinin müqaviməti artıb. Həm Əmir Teymurun, həm də Toxtamışın Azərbaycana yürüşləri zamanı Əlincə qalası 14 il mühasirədə qalmışdır. Əmir Teymurun oğlu Miranşah Azərbaycana hakim təyin olunsa da, hürufilərin gücü ilə qarşılaşır və burada möhkəmlənə bilmir. Bu səbəblə hürufilərin başçısı Fəzlullah Nəiminin edam əmri verilir. Hürufilər Nəimini gizlədirlər, amma 1394-cü ildə Əmir Teymurun əmri, Şirvanşah İbrahimin köməyi ilə Nəimi tutulur və Şirvanda həbs edilir. Əmir Teymurun oğlu Miranşah eyş-işrətlə məşğul olduğu üçün atası ilə aralarındakı soyuqluğu aradan qaldırmaq üçün 1401-ci ildə Naxçıvanda Nəimini işgəncə ilə edam etdirir. Nəiminin məhz Əlincə qalasında edam edilməsi simvolik xarakter daşıyırdı, Miranşah ona qarşı çıxan hürufilərə bildirmək istəyirdi ki, hökmümə qarşı gələnlərin aqibəti belə olacaq. Hürufilər bu edamdan sarsılsa da, Fəzlin ölümü barədə verilən fətvanı istehza ilə qarşıladılar, Teymurun qərarını "küfri-iman" adlandırdılar və ustadlarının cismani olaraq öldüyünü, ruhunun isə ölməzliyə qovuşduğunu bildirdilər. (3)

Nəiminin edamından sonra hürufilər onun cəsədinin parçalarını toplayıb bir türbədə dəfn etdilər. Tərəfdarlar da, xalq da bilirdi ki, Fəzlullah ideoloji təlimlərinə görə deyil, siyasi baxışlarına görədir, bu səbəbdən də, onlar hürufilik təlimlərinin yaymaqda fəaliyyətlərini davam edirdilər. Xalqın böyük bir qisminin bu ideologiyanı qəbul etməsini ehtiyacdan irəli gəldiyi qeyd olunur. İnsanın əzildiyi bir vaxtda, illərlə boyunduruq altında yaşamaqdan bezən, usanan xalqın bu ideologiyanın əsasında duran insana yüksək dəyər verilməsi, insanın uca, ali bir varlıq kimi göstərilməsi idi. Bu dini cərəyan Teymur istilalarına – yadellilərə qarşı mübarizənin bir qolu olaraq yaranmış və qısa zamanda yayılmışdı. Hürufiliyin yaranıb belə tez bir zamanda təşəkkül tapmasında əsas qayə bu idi ki, xalqın gözü açılsın, əhali yadellilərə qarşı mübarizəyə qalxsın. Hürufizm dünyagörüşü insanları öz mahiyyətini dərk etməyə, fəal mübarizəyə çağıran təlimdir. Bu səbəbdən qədim Naxçıvan diyarında hürufizm ideyalarını istismara, zorakılığa qarşı bir şüar kimi uzun müddət qoruyub saxlamışdır. Bu təlimin ustadları F. Nəimi və İ. Nəsimi ümumbəşəri ideyaları ilə xalqın yaddaşında ömürlük yer tutmuşdur.

Naxçıvanın Culfa rayonunun Xanağa kəndi yaxınlığında yerləşən Nəimi türbəsinin üzərində bir böyük (məzarının üzərində), altı kiçik (yəqin ki, əsərlərinin sayı nəzərə alınıb) günbəz var. XIII əsrə aid bu tarixi abidə el arasında "Xorasan Şeyxinin türbəsi" adlanır. Yerli xalq və turistlər tərəfindən daim ziyarət edilən Nəimi türbəsi indi də insanların inanc yeri kimi müqəddəsliyini qoruyur.

Hürufi iddiasına görə, dinlərin çoxluğu insanların parçalanmasına, müharibələrin yaranmasına səbəb olur. Vahid din altında bütün bəşəriyyətin birləşməsi ideyasını irəli sürən hürufilər eyni zamanda adət-ənənələri, inamı, dini qanunları fərqli olan xalqların, millətlərin eyni fikir və əqidə altında birləşməsi ideyasını irəli sürürdülər. Göründüyü kimi, hürufilik bütün bu ideyaları ilə yanaşı həm də tolerantdır, hürufilərin dini baxışları insan zəkasında, idrakında, təfəkküründə görünməmiş inqilab yaradır. Həm Nəiminin, həm də Nəsiminin əqidəsinin böyüklüyü, fəlsəfi vüsəti, fikir genişliyi insanın bir şəxsiyyət olaraq dünyagörüşünün formalaşmasında mühüm yer tutur.

Məlumdur ki, Azərbaycan müstəqil dünyəvi dövlətdir. Son dövrlərdə ölkəmizdə multikulturalizm şəraitində bütün dinlərə münasibət eynidir və bu dövlət tərəfindən tənzimlənir. Qanunlar əsasında formalaşdırılan tolerant cəmiyyətin ideya əsasları da məhz ədəbi-tarixi irsimizin tolerant təbiətindən qaynaqlanır. Bu baxımdan, müasir dövrün ictimai proseslərinin fonunda Nəsimi ideyalarının dərindən öyrənilməsi və şagirdlərə düzgün təbliğ edilməsi təhsil sisteminin dövlətçiliyimizin ideologiyası formasına çevrilmiş, tolerantlıq və multikulturalizm ənənələrin qorunmasında rolu olar. Bildiyimiz kimi, hürufilik ideyaları bütün dinlərin eyni bir vəhdətdə olmasının əsasını təşkil edir.

Hürufizm təlimində tərbiyəvi ideyalar xüsusilə dəyərləndirilir. Həm Nəiminin, həm də Nəsiminin ümumilikdə yaradıcılığı insan həyatının incəliklərindən və dərinliklərindən xəbər verən böyük bir hikmət, dərin məna, dövrünün haqsızlıqlarına qarşı etiraz, üsyan ifadə edən fikirlərin cəsarətli ifadəsidir.

İ. Nəsimi klassik ədəbiyyatda xüsusi yer tutan humanizm fəlsəfəsini yeni mərtəbəyə qaldırmışdır. Akademik İ. Həbibbəylinin qeyd etdiyi kimi, *"...Nəsiminin həyat və yaradıcılığının ali və orta məktəblərdə tədrisi, dərsliklərdə tutduğu yer məsələlərinə də yenidən qayıtmağa borcluyuq. Bütün dünya bu reallığı bir daha bilməlidir ki, İmadəddin Nəsimi cahana və zamana sığmayan, əbədiyaşar Azərbaycan şairidir. Nəsimi Azərbaycan ədəbiyyatı və ictimai fikri qarşısındakı böyük xidmətləri ilə ölməzlik qazanmış qüdrətli sənətkardır."* (2)

Məlumdur ki, məktəb qarşısında duran ən başlıca məsələlərdən biri təlimlə tərbiyənin vahidliyini təmin etmək, gənclərə elmlərin əsaslarını öyrətməklə bərabər, həm də onların fəal ictimaiyyətçi, ideya cəhətdən sağlam və mətin nəsil kimi böyüməsinə nail olmaqdır. Bu baxımdan klassik Azərbaycan şairi İmadəddin Nəsiminin nəsihətamiz şeirlərini öyrənmək gənclərin tərbiyəvi, əxlaqi cəhətdən saf, cəsarətli, ədalətli insan kimi yetişmələri üçün olduqca əhəmiyyətlidir.

Nəsimi həm həyatında, həm də qəzəllərində insanın məğrurluğunu əxlaqın əsası sayırdı.

Ərkansız olanlarla rəfiq olma, Nəsimi,
Yol əhli gözət, sən ədəb-ərkan tələb eylə.

Nəsiminin zəngin ədəbi-pedaqoji görüşləri müasir dövrdə milli pedaqogikada əxlaq tərbiyəsinə aid edilən keyfiyyətlərlə yanaşı, kamil insanın mənəvi simasının formalaşmasında mühüm rol oynayan cəsarətlilik, iradəlik, ədalətlilik, xeyirxahlıq və s. kimi digər müsbət keyfiyyətlərin təbliği baxımından böyük rol oynayır.

Nəsimi qəzəllərində həm də əqlin tərbiyəsi ön plandadır.

Çün səni gördü Nəsimi der bəavazibülənd:

Eşq ilə mən aşinayəm, əql ilə yad olmuşam.

Nəsimi şeirlərinin məzmunu, obrazlılığı, bədii gücü olduğu üçün onlarda daha effektiv nəticələr göstərə bilir, eyni zamanda Azərbaycan dilinin mənimsədilməsi üçün böyük vasitədir. *"...Nəsimi sözün həqiqi mənasında milli şairdir, onun poeziyasında külli miqdarda xalq dilində işlənən söz və ifadələr vardır."* (4, s. 127)

**Problemin aktuallığı.** İ. Nəsimi yaradıcılığı müasir humanitar, o cümlədən pedaqoji düşüncənin tələbləri kontekstində bütün aktualdır və milli mədəni-mənəvi dəyərlərin təbliği, bugünkü gənc nəslin həyat yolunun istiqamətlərini müsbət yöndən müəyyənləşməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

**Problemin elmi yeniliyi.** İ. Nəsiminin təfəkkür tərzinin yeniliyi cəmiyyətdə münasibətləri həqiqət və ədalət çərçivəsində tənzimləyirdi. Bütün dövrlərdə, xüsusən son onillikdə bu məsələdə dini maarifləndirmənin rolu təhsil sistemində də eynilə davam etdirilir.

**Problemin praktik əhəmiyyəti.** İ. Nəsiminin hürufizm ideyaları ilə zənginləşən, xüsusilə vətənpərvərlik, millət, xalq sevgisi, təbiətə məhəbbət və qayğı, insanlıq, xeyirxahlıq ruhunda yazılan şeirləri orta məktəb şagirdlərini tərbiyə edir.

**Ədəbiyyat:**


1. Aksu Hüsamettin Hurûfîlik, TDV İslam Ansiklopedisi, Türkiye Diyanet Vakfı Yayınları, 18. Cilt. -İstanbul, 1998. -s. 408-412
2. Həbibbəyli İ. Cahana sığmayan Azərbaycan şairi. // "Azərbaycan" qəzeti, 2019aaaaa. 16 yanvar.
3. Kətanov R, İranda doğulub Naxçıvanda dəfn edilən azərbaycanlı mütəfəkkir, 2019. https://azertag.az/xeber/iranda_dogulub_naxchivanda_defn_edilen_azerbaycanli_mutefekkir-1237324
4. Nəzərova A.H. Nəsimi yaradıcılığında dil və üslub: Terminologiya məsələləri, -Bakı: Elm, -2019, № 1. -288 s.


**E-mail:** adile1970@mail.ru

**Redaksiyaya daxil olub:** 08.10.2024.

## *TƏRBİYƏ TEXNOLOGİYALARI*
## *ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ*
## *UPBRINGING TECHNOLOGIES*

*UOT 37.0*

***Aygün Rəhim qızı Qafarova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Xəzər Universiteti*
*https://orcid.org/0009-0004-1260-129X*
*https://doi.org/10.69682/arti.2024.91(5).91-94*

# TƏLƏBƏLƏRİN AİLƏ HƏYATINA VƏ ÖVLAD TƏRBİYƏSİ İŞİNƏ HAZIRLANMALARI: PROBLEM BAXIMINDAN MÖVCUD ƏDƏBİYYATIN ÖYRƏNİLMƏSİ VƏ TƏHLİLİ

***Айгюн Рагим кызы Гафарова***
*докторант по программе доктора философии*
*Университет Хазар*

# ПОДГОТОВКА СТУДЕНТОВ К СЕМЕЙНОЙ ЖИЗНИ И ВОСПИТАНИЮ ДЕТЕЙ: ИЗУЧЕНИЕ И АНАЛИЗ СУЩЕСТВУЮЩЕЙ ЛИТЕРАТУРЫ С ТОЧКИ ЗРЕНИЯ ПРОБЛЕМЫ

***Aygun Rahim Gafarova***
*doctorial student in the program of doctor of philosophy*
*Khazar University*

# PREPARING STUDENTS FOR FAMILY LIFE AND RAISING CHILDREN: STUDY AND ANALYSIS OF EXISTING LITERATURE FROM THE POINT OF VIEW OF THE PROBLEM

**Xülasə**. Sevərək ərə getmək, evlənmək - gənclərin, qızlarının və oğullarının uğurlu nikaha və xoşbəxt ailəyə sahib olmaları hər bir valideynin arzusudur. Bunun üçün hər bir gənc ailə həyatına hazırlanmalıdır. Əvvəlcə ailədə, sonra təhsil müəssisələrində. Onlara həm də uşaqları tərbiyə etmək də öyrədilməlidir.

Məqalədə tələbələrin müstəqil ailə həyatına və gələcək uşaqlarının tərbiyə edilməsindən danışılır.

***Açar sözlər**: müstəqil ailə həyatı, müstəqil ailə həyatına hazırlıq, uğurlu nikah, xoşbəxt ailə, uşaqların tərbiyəsi*

**Аннотация**. Желанием каждого родителя является, чтобы у их дочерей и сыновей был удачный брак по любви и счастливая семья. Для этого молодежь должна быть подготовлена к семейной жизни. Вначале в семье, затем в учебных заведениях. Их также следует научить тому, как воспитывать детей.

В статье говорится о самостоятельной семейной жизни студентов и воспитании их будущих детей.

***Ключевые слова:** самостоятельная семейная жизнь, подготовка к самостоятельной семейной жизни, удачный брак, счастливая семья, воспитание детей*

**Abstract.** The desire of every parent is for their daughters and sons to have a successful marriage for love and a happy family. For this, young people must be prepared for family life. First in the family, then in educational institutions. They should also be taught how to raise children.

The article talks about independent family life of students and the upbringing of their future children.

***Key words**: independent family life, preparation for independent family life, successful marriage, happy family, upbringing children*

Ailə hər bir şəxsin doğulduğu, boya-başa çatdığı, qayğı və təhlükəsizliklə əhatə olunduğu, tərbiyə aldığı müqəddəs ocaqdır. Ailələr nə qədər möhkəm olsalar cəmiyyətimizin dayaqları da bir o qədər möhkəm olar.

Evlənməmişdən, ərə getməmişdən əvvəl gənc oğlan da, gənc qız da müstəqil ailə həyatına hazırlanmalıdır.

Ailə qurmaq deyəndə söhbət mağazadan, bazardan nə isə almaqdan getmir ki, xoşuna gəlmədikdə dəyişəsən. Statistikaya müraciət edərək söhbətimizi davam etdirməyə çalışaq. "Bu ilin yanvar-oktyabr aylarında Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən 46.100 nikaha daxilolma və 14.316 boşanma halları qeydə alınıb" [1].

Az qala nikah ittifaqı bağlama halı ilə boşanmalar eyni vəziyyətdədir. Arzuolunmaz vəziyyətdir. 10 ay ərzində 14 min 316 boşanma olmuşdur. Belə çıxır ki, gənclər düşünmədən, ölçüb-biçmədən, ailə həyatında üzləşə biləcəkləri problemləri nəzərə almadan evlənmişlər. Bəziləri ailə həyatını yalnız əlvan boyalarda görürlər. Bir balaca çətinlik yarananda sanki ailə həyatından, birgəyaşayışdan bezirlər.

Böyüməkdə olan nəslin ailə həyatına və övlad tərbiyəsi işinə hazırlanmasına uşaqlıq illərindən ailədə başlanılır. Sonra ümumtəhsil məktəbində (liseydə, gimnaziyada, texniki-peşə məktəbində) bu iş davam etdirilir. Məktəbdə ayrı-ayrı fənlərin, xüsusən ədəbiyyat, Azərbaycan dili, musiqi, həyat bilgisi, texnologiya, Azərbaycan tarixi və b. tədrisi zamanı ailə həyatına hazırlıq məsələləri diqqət mərkəzinə gətirilir. İbtidai siniflərdə bilavasitə ailəyə hazırlıq məsələlərindən danışılmır, bilvasitə bu işin üzərində dayanılır. Yaxşı evdarlıq səriştəsinə yiyələnmək, xörək bişirmək, paltar tikmək və yumaq, ütüləmək, ev yığışdırmaq, ata-ananın, özündən kiçiklərin qayğısına qalmaq, böyüklərin hörmətini saxlamaq, rayon və kənd yerlərində bağ-bağçada işləmək və s. Ailə həyatı ilə bağlı məsələlərdir.

Yuxarı siniflərdə ədəbiyyat dərslərində Azərbaycan yazıçı və şairlərin əsərləri ilə ("Leyli və Məcnun" və s.), bayatılar, laylalar, qoşmalarla, əzizləmə, oxşamalarla tanışlıq əsasında şəxsiyyətlərarası münasibətlər, oğlanla qızın dostluğu, məhəbbət (Vətənə, ata-anaya, bacı-qardaşa, rəğbət bəslədiyin şəxsə, xoşun gəldiyi qıza (oğlana) münasibət ailə həyatına hazırlıq baxımından zəngin material verir.

Ali təhsil müəssisələrində oxuyarkən imkanlar daha da genişlənir. Tələbələr artıq gənclik yaşlarındadırlar. Cinslərarası münasibətlər zəminində qızlarla oğlanlarda sevgi, rəğbət, bağlılıq, xoşagəlmə, vurğunluq, eşq, məhəbbət baş. Qaldırır. Bəziləri elə tələbəlik illərində nişanlanır, hətta evlənirlər də. Ali təhsil fənləri də, auditoriyadankənar tədbirlər də gənclərin müstəqil ailə həyatına və övlad tərbiyəsinə hazırlanmalarına kömək edir.

Vaxtilə ümumtəhsil məktəblərində Ailə həyatının etika və psixologiyası fənni keçilirdi. Professorlar Ə.Ə. Əlizadə və A.N. Abbasov "Ailə" dərsliyinin, "Ailə həyatının etika və psixologiyası" (müəllimlər üçün) və "Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat" (şagirdlər üçün) dərs vəsaitlərinin müəllifləri idilər. Bu fənn həftədə bir saat olmaqla tədris edilirdi. SSRİ dağılanda fənnin tədrisinə də ara verildi.

Pedaqoji kolleclərdə "Milli əxlaq və ailə etikası" fənni keçilməyə başlandı. Proqram və dərslik professor A.N. Abbasov tərəfindən hazırlanmışdı. Bir müddət sonra Azərbaycan Dillər Universitetində və Gəncə Dövlət Universitetində də haqqında danışılan fənn tədris edilməyə başlandı.

Hazırda bəzi universitetlərdə Ailə pedaqogikası fənni keçilir. Bu fənnin proqramını və dərsliyini də professor A.N. Abbasov yazmışdır. Bakı Qızlar Universitetində Ailə dəyərləri fənni tədris edilir. Bu fənnin proqramı da, dərsliyi də professor A.N. Abbasov tərəfindən qələmə alınmışdır.

Ona görə də təhsilalanların müstəqil ailə həyatına və gələcək övladlarının tərbiyəsi işini hazırlanması deyəndə prof. A.N. Abbasovun dərslikləri və tədqiqatları yada düşür. Qeyd etmək lazımdır ki, professor hələ 1995-ci ildə pedaqogika elmləri doktoru elmi dərəcəsi almaq üçün "Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Doktorluq dissertasiyasının müdafiəsi ərəfəsində onun "Ümumtəhsil məktəbi şagirdlərini ailə həyatına hazırlamağın bəzi məsələləri", "Təlim prosesində və dərsdənkənar tədbirlər zamanı şagirdlərdə ailə həyatının mənəvi və psixoloji əsaslarının formalaşdırılması"; professor Ə.Ə. Əlizadə ilə birgə "Ailə həyatının etika və psixologiyası kursunun tədrisinə dair (I və II hissələr), "Ailə hə-

yatının etika və psixologiyası" kursu üzrə tapşırıqlar sistemi", "Ailə həyatının etika və psixologiyası" kursunun tədrisinin ümumi məsələləri", prof. H.H. Əhmədovla birgə "Qız gəlin köçür" və s. kitabçaları; "Toydan əvvəl və sonra" kitabı nəşr edimişdir.

Bundan başqa, prof. A.N. Abbasovun elmi rəhbərliyi ilə L.A. Əliyeva psixologiya elmləri namizədi elmi dərəcəsi almaq üçün "Tələbələrin ailə həyatına hazırlanmasının psixoloji xüsusiyyətləri" (2005); T.V. Rüstəmli isə prof. İ.İ. Əliyevin elmi rəhbərliyi ilə pedaqoji elmlər namizədi elmi dərəcəsi almaq üçün "V-IX sinif şagirdlərinin ailə həyatına hazırlanmasında etnopedaqoji materiallardan istifadə üzrə işin imkan və yolları" (2006) mövzusunda dissertasiyas\ları müdafiə etmişdir.

Xarici ölkələrdə də bir sıra tədqiqatlar aparılmış, doktorluq və namizədlik dissertasiyaları yazılmışdır. S.M. Pitelinin "Tələbələrin ailə yaratmağa hazırlığının formalaşdıreılması" (2005), M.V. Syominanın "Universitetdə təhsil prosesində tələbələrin nikah və ailə münasibətlərinə şəxsi hazırlığının inkişafı üçün pedaqoji şərtlər" (2002), N.A. Salavatovanın "Şagirdləri nikah və ailə münasibətlərinə hazırlamaq üçün pedaqoji şərtlər: Dağıstan Respublikasının materialı əsasında" (2010), P.A. Reşetovun "Universitet tələbələrinin ailə həyatına hazırlanmasının təkmilləşdirilməsi üçün pedaqoji şərait" (2004) dissertasiyalarını nümunə gətirmək mümkündür.

Prof. A.N. Abbasovun "Milli əxlaq və ailə etikası" dərsliyi 4 bölmədən ibarətdir. "Milli əxlaq və ailə etikası" ümumi məsələləri" adlanan birinci bölmədə kursun öyrənilməsinin əhəmiyyəti və məqsədi diqqətə çatdırılır; əxlaqın yaranması və inkişafı; Azərbaycan folklorunda milli-mənəvi dəyərlər; "Avesta"da, İslan dinində, "Kitabi-Dədə Qorqud"da, Azərbaycan maarifçilərinin yaradıcılığında; imperiyalar dövründə və müstəqilliyimiz illərində milli mənəvi dəyərlər özünə yer almış; Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, Şah İsmayıl Xətayinin, Məhəmməd Füzulinin əxlaqi görüşləri öz ifadəsini tapmışdır.

Dərsliyin II bölməsi "Əxlaqın əsas kateqoriyaları"nı əhatə edir, vicdan, xeyirxahlıq və yaxşılıq, borc, şərəf və ləyaqət, namus, ismət, həya, məsuliyyət, həyatın mənası və xoşbəxtlik və s. barədə zəruri təəssürat yaradılır.

Dərsliyin "Ailə etikası" adlanan III bölməsində oğlan və qızların qarşılıqlı münasibətlərinin mənəvi əsasları, məhəbbət, sevənlərin davranış mədəniyyəti, gənclərin ailə həyatına hazırlanması, nikah, Azərbaycan ailəsi, ailə üzvlərinin hüquq və vəzifələri, ailənin mənəvi və psixoloji əsasları, ailə üzvlərinin gigiyenik mədəniyyəti, ailənin büdcəsi, boşanma və s. bu kimi məsələlərin üzərində dayanılır.

IV bölmə "Ailə və uşaqlar" adlanır. Gənc ailədə uşaq, ailədə uşaqların tərbiyəsi, ata və ana ilk tərbiyəçilərdir, ailədə tərbiyənin prinsip və metodlarından istifadə kimi məsələlər bu bölmədə araşdırılır.

Professorun "Ailə pedaqogikası" dərsliyində yuxarıda haqqında danışılan məsələlərdən başqa ailə tərbiyəsinin priyomları və vasitələri, ailənin funksiyaları, ailənin tipləri və quruluşu, ailənin aspektləri, gender problemi ailə münasibətlərində tolerantlıq uşaqların cinsi tərbiyəsi və s. bu kimi məsələlər işıqlandırılır.

"Milli əxlaq və ailə etikası" dərsliyində, qeyd etdiyimiz kimi, "Nikah" mövzusu var. Tələbələr bu mövzu ilə həvəs, maraq və məmnuniyyətlə tanış olurlar. Dərslikdə deyilir: "*Nikah* insan həyatında ən əlamətdar hadisədir. Bu da təbiidir. O, *ailənin hüquqi əsasıdır*. Məhəmməd peyğəmbər (s) bildirirdi:" Asimanın rəhmət qapıları dörd yerdə açılır: yağış yağanda, övlad ata-ananın üzünə baxanda, Kəbənin qapısı açılanda bə nikah baş verəndə".

Nikaha başqa sözlə kəbin, izdivac deyilir. Nikah evlənmənin rəsmiləşdirilməsi, qanuni şəklə salınmasıdır. Nikah şəxsiyyətin mənəvi saflığını və bəşər nəslinin firavanlığını qorumağa imkan verir, insanı bütün münasibətlərdə ucaldır" [4, s. 166].

Yuxarıda deyilənlərdən görünür ki, dərsliklərdə və tədqiqat əsərlərində həm ailə həyatına hazırlıq, həm də övlad tərbiyəsi məsələləri öz ifadəsini tapmışdır.

**Problemin aktuallığı**. Ailənin, məhəbbətin uğurlu olması, gələcəkdə doğulacaq uşaqların düzgün tərbiyə alması üçün böyüməkdə olan nəsil müstəqil ailə həyatına hazırlanmalıdır.

**Problemin yeniliyi**. Məqalədə təhsilalanların müstəqil ailə həyatına və övlad tərbiyəsinə hazırlanması məsələləri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**


1. Bu il qeydə alınan nikah və boşanmaların sayı açıqlanıb https://baku.ws/social/bu-il-qeyde-alinan-nikah-ve-boshanmalarin-sayi-achiqlanib
2. Əlizadə, Ə.Ə. Ailə: Ümumtəhsil məktəblərinin 9-cu sinifləri üçün dərslik / Ə.Ə. Əlizadə, A.H. Abbasov. – Bakı: Maarif, 1989. -256 s.
3. 3.Abbasov, A.N. Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi: Pedaqoji elmlər doktoru ...dis. Bakı, 1995.- 309 s.
4. Abbasov, A.N. Milli əxlaq və ailə etikası: Ali təhsil müəssisələrinin magistratura səviyyəsi üçün dərslik / A.N. Abbasov. -Bakı: Mütərcim, -2016.- 324 s.
5. Abbasov, A.N. Ailə pedaqogikası: Ali təhsil müəssisələri üçün dərslik. / -A.N. Abbasov. -Bakı: Mütərcim, -2019.- 272 s.
6. Abbasov, A.N. Ailə dəyərləri: Ali təhsil müəssisələri üçün dərslik. / -A.N. Abbasov. -Bakı: Mütərcim, -2024.- 104 s.
7. Əliyeva L.A. Tələbələrin ailə həyatına hazırlanmasının psixoloji xüsusiyyətləri: Psixoloji elmlər namizədi ...dis. Bakı, 2005.- 26 s.
8. Rüstəmli T.V. V-IX sinif şagirdlərinin ailə həyatına hazırlanmasında etnopedaqoji materiallardan istifadə üzrə işin imkan və yolları: Pedaqoji elmlər namizədi ...dis. Bakı, 2006.- 148 s.
9. Пителин, СМ. Формирование готовности студентов к созданию семьи: Диссертация…канд.пед.наук. М., 2005. -160 с.
10. Семина, М.В. Педагогические условия развития личностной готовности студенческой молодежи к брачно-семейным отношениям в образовательном процессе вуза: Диссертация…канд.пед.наук. М., 2002. -184 с.
11. Салаватова, Н.А. Педагогические условия подготовки учащейся молодежи к брачно-семейным отношениям: на материале Республики Дагестан: Диссертация…канд.пед.наук. Махачкала, 2010. -149 с.
12. Решетов, П.А. Педагогические условия совершенствования подготовки студентов вузов к семейной жизни: Диссертация…канд.пед.наук. Махачкала, 2004. -22 с.


**E-mail:** _quliyevkamal1@gmail.com

**Redaksiyaya daxil olub**: 02.10.2024-cü il

# *ŞAGİRDLƏRİN ÖZÜNÜTƏHSİL PROBLEMLƏRİ*
# *ПРОБЛЕМЫ САМООБРАЗОВАНИЯ УЧАЩИХСЯ*
# *PROBLEMS OF SELF-EDUCATION AMONG PUPILS*

*UOT 37.0*

***Mübariz Tahir oğlu Süleymanov***
*Bakı Dövlət Universitetinin Qazax filialının baş müəllimi*
*https://orcid.org/0000-0001-7544-3437*
*https://doi.org/10.69682/arti.2024.91(5).95-100*

## AZƏRBAYCAN MƏKTƏBLƏRİNDƏ YUXARI SİNİF ŞAGİRDLƏRİNİN ÖZÜNÜTƏHSİL FƏALİYYƏTİNİN NƏZƏRİ VƏ PRAKTİK MƏSƏLƏLƏRİ

***Мубариз Тахир оглы Сулейманов***
*старший преподаватель Газахского филиала Бакинского Государственного Университета*

## ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ВОПРОСЫ САМООБРАЗОВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧАЩИХСЯ СТАРШИХ КЛАССОВ В ШКОЛАХ АЗЕРБАЙДЖАНА

***Mubariz Tahir Suleymanov***
*senior lecturer at the Gazakh branch of Baku State University*

## THEORETICAL AND PRACTICAL ISSUES OF SELF-EDUCATION ACTIVITIES OF SENIOR PUPILS IN AZERBAIJANI SCHOOLS

**Xülasə.** Məqalədə Azərbaycan məktəblərində orta məktəb şagirdlərinin özünütəhsil fəaliyyətinin nəzəri və praktiki məsələləri əks olunub. Müəllif tələbələrin özünütəhsil fəaliyyətinin mahiyyətini və zəruriliyini açıqlayır. Orta məktəb şagirdlərinin özünütərbiyə fəaliyyəti prosesində istifadə olunan növləri, formaları, metodları, vasitələri və istiqamətləri göstərilir. Şagirdlərin sosial-mədəni dünyagörüşünü formalaşdırmaq, öyrənmə və tərbiyəvi xüsusiyyətlərini (estetik, fiziki, yaradıcılıq) inkişaf etdirmək məqsədi daşıyan tələbələr üçün özünütəhsil modeli təklif olunur. Müəllif ümumtəhsil məktəblərində özünütəhsil fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı üçün nəticələri və təklifləri də göstərir.
***Açar sözlər:*** *özünütəhsil, qabiliyyət, maraq, müstəqil iş, mütaliə, yaradıcı düşünmə, özünənəzarət*

**Аннотация**. В статье излагаются теоретические и практические вопросы самообразовательной деятельности учащихся старших классов в азербайджанских школах. Автор раскрывает сущность и необходимость самообразовательной деятельности учащихся. Указываются виды, формы, методы, средства и направления, используемые в процессе самообразовательной деятельности старшеклассников. Предлагается модель самообразования учащихся, в которой предназначены формирование социально-культурное мировоззрение, развивающее обучение, просветительские особенности учащихся (эстетические, физические, творческие). Автором также указываются результаты и предложения по совершенствованию и развитию самообразовательной деятельности в общеобразовательных школах.
***Ключевые слова:*** *самообразование, способности, интерес, самостоятельная работа, чтение, творческое мышление, самоконтроль*

**Abstract.** The article presents theoretical and practical issues of self-educational activities of senior pupils in Azerbaijani schools. The author reveals the essence and necessity of self-educational activities of pupils. The types, forms, methods, means and directions used in the process of self-educational activities of senior pupils are indicated. A model of self-education of pupils is proposed, which is intended to form a socio-cultural worldview, developmental learning, educational features of pupils (aesthetic, physical, creative).

The author also indicates the results and proposals for the improvement and development of self-educational activities in comprehensive schools.

***Keywords***: *self-education, ability, interest, independent work, reading, creative thinking, self-control*

Həyatın bütün sahələrində yeni texnologiyalar və kompüter texnikasının sürətli inkişafı dövründə özünütəhsil fəaliyyəti, onu həyata keçirmək gənclərin gələcək fəaliyyəti və iş qurması üçün çox əhəmiyyətlidir. İnformasiya bolluğu şəraiti gənclərin əksəriyyətini müstəqil olaraq öz üzərində çalışmağa sövq edir.

Gənclərin uğurlu şəxsiyyətyönlü inkişafında özünütəhsilə marağın formalaşması yuxarı sinif şagirdlərinin əksəriyyətinin həyatı zəruri tələbatına çevrilmişdir ki, bu da pedaqogika sahəsində özünütəhsillə bağlı yeni yanaşmalar və yolların axtarılmasına, tədqiqatların aparılmasına zərurət yaradır.

Ə.M. Abbasovun araşdırmalarından da gəldiyimiz məntiqi nəticə özünütəhsil məsələlərinə xüsusi diqqət yetiriliməsinə istiqamətlənmişdir: O, müasir təhsil haqqında yazır: "Ölkəmizdə təhsil sisteminin inkişafı, ilk növbədə, onun daha müstəqil qurum kimi fəaliyyət göstərə bilməsindən daha çox asılıdır. Bu gün təhsil quruculuğu üzrə aparılan işlərin başlıca məqsədində o dayanır: məktəb müstəqilliyi daha çox genişlənsin, özünü idarə edə bilmək funksiyası qazansın, müəllim və şagird fəaliyyətinin əsasını təşkil edən inkişaf dinamikasını izləyə bilsin, onun artmasını tənzimləsin və s." [4, s. 11-17].

Özünütəhsil şagirdlərin tələbatları əsasında yaranır, fəaliyyət və məişətdə, ətraf aləmi dərketmə prosesində, özünüreallaşdırmada və sosial mühitdə reallaşır.

Ə.Ə. Əlizadə yeniyetmə gənclərin şəxsiyyətinin formalaşmasında özünütərbiyə amilinə xüsusi əhəmiyyət verir: "Yeniyetməlik dövründə şagirdlərin həyati planları, adətən, onların arzu və xəyallarından ayrılmır. Başqa sözlə, əgər yeniyetmə oğlan və qızlar peşə haqqında söhbət edirlərsə, bu, sadəcə olaraq əsrarəngiz uşaq xəyalının ifadəsi kimi səslənir. Böyük məktəbli yaşı dövründə isə peşəseçmə reallaşır, çoxlu fantastik və ya mücərrəd imkanlardan ən real və ağlabatan variantlar ayırd edilir. Peşəseçmə böyük məktəbli üçün ən mühüm, təxirəsalınmaz və çətin işə çevrilir. ....Böyük məktəbli yaşı dövründə mənlik şüurunda meydana çıxan xüsusiyyətlər öz əksini şagirdlərin özünütərbiyə tələbatında tapır. Bu yaşda özünütərbiyə artıq sadəcə olaraq ayrı-ayrı davranış nöqsanlarının aradan qaldırılmasına və ya müvafiq müsbət keyfiyyətlərin inkişaf etdirilməsinə deyil, bütövlükdə şəxsiyyətin təşəkkülünə doğru yönəlir. Özünütərbiyə tərzləri və vasitələri də mürəkkəbləşir" [5, s.343].

Bu fikirlərin özünütəhsillə bilavasitə bağlılığı vardır. Çünki şəxsiyyətin tərbiyəsi, təşəkkülü özünütəhsil olmadan həyata keçə bilməz. Müəllifin yazdığı fikirlər yuxarı sinif şagirdlərinin özünütəhsillə əlaqədar qarşıya qoyduqları məqsədləri əks etdirir, lakin bunlar tədqiq etdiyimiz problemin məzmununa tam aydınlıq gətirmir.

Özünütəhsilin məqsədi şagirdlərin ağlını, zehni qabiliyyətlərini inkişaf etdirməkdir. Hər hansı sahədə bilikləri əldə etmək üçün məktəbdə verilən biliklər kifayət deyildir. Özünütəhsil zamanı şagirdlər biliyi müstəqil əldə edir ki, bu da onların təfəkkürünü, zehnini inkişaf etdirir, istədikləri biliyi mənimsəməyə imkan yaradır. Bu, məktəbdə zehni inkişafa təkan verən fənləri – xarici dilləri, tarixi, riyaziyyat fənlərini daha dərindən öyrənməyə, yaradıcılığı, dünyagörüşünü formalaşdırmağa şərait yaradır.

Özünütəhsilin reallaşdırılması üçün axtarıcılıq fəallığının olması vacib şərtdir. Axtarıcılıq fəallığı dedikdə, biz şagirdlərin hər hansı bir nəticəsi görünməyən situasiyanı dəyişməyə və yaxud münasibət bildirməyə yönələn davranışını nəzərdə tuturuq ki, burada da onun səmərəlilik dərəcəsi daim diqqət mərkəzində olur. Bu cür axtarıcılıq planlaşdırma və özünütəhsil fəaliyyətinin nəticələrinin proqnozlaşdırılmasının tərkib hissəsidir.

Özünütəhsilin məğzi ondan ibarətdir ki, şagirdlər əqli əməyin yeni texnikası, mədəniyyəti ilə tanış olur, özünün təkmilləşməsi üzərində müstəqil olaraq işləyir.

Özünütəhsil geniş pedaqoji imkanlara malikdir və yuxarı sinif şagirdlərinin hərtərəfli formalaşmasında (pedaqoji, psixoloji, fiziki, sosial-mədəni) böyük rolu vardır. Özünütəhsil şagirdlərdə biliklər sistemi, dünyagörüşü formalaşdırması ilə yanaşı, onları həyata hazırlayır, fəal və yaradıcı düşünməyi, hərəkət etməyi öyrədir, inkişaf etdirir və özünü daim təkmilləşdirməyə yönəldir. Müasir təhsil məhz bu cür səriştəli

şəxsiyyətlərin yetişdirilməsini tələb edir. Bu baxımdan da yuxarı sinif şagirdlərinin özünütəhsili üzrə məktəb təcrübəsi öyrənilmiş və ümumiləşdirilmişdir.

Bu gün təhsilin ən vacib məqsədlərindən biri özünütəhsili təlim prosesinə və təlimdənkənar fəaliyyətə daxil etmək üçün imkanların müəyyənləşdirilməsidir. Hazırda müəllimin şagirdi öyrətməsi deyil, onun təlim fəaliyyətini idarə etməsi ön plana çəkilir. Müşahidələr göstərmişdir ki, təlim prosesində şagirdlər müstəqil olaraq bilik və bacarıqların mənimsənilməsində çətinliklər çəkirlər. Bunun səbəblərindən biri fənnin tədrisində təhsilverici materialın kifayət qədər olmaması və təlim prosesinin strukturunda xüsusi mexanizmlərin göstərilməməsidir. Lakin özünütəhsilin mexanizmlərinin işlənməsi üçün müvafiq təhsil mühitinin olması da vacibdir. Həm müəllim, həm də şagirdlərin fəaliyyət göstərməsi üzrə özünütəhsil mexanizmlərinin və mühitin yaradılması müasir məktəbin qarşısında duran əsas vəzifələrdəndir.

Pedaqoji tədqiqatlarda şəxsiyyətin özünütəhsil fəaliyyətinin komponentlərinə müxtəlif yanaşmalar mövcuddur. A.K. Qromtseva "Məktəblilərdə özünütəhsilə hazırlığın formalaşması" adlı vəsaitində bir sıra komponentləri göstərmişdir: motivasiyalı (özünütəhsil fəaliyyətin könüllü növü olduğu üçün), hədəfə istiqamətlənməsi (özünün şəxsiyyət kimi qəbul edilməsi, ideallaın, həyati planların müəyyənləşdirilməsi), prosessual (yəni özünütəhsil fəaliyyətinin davamlı olması), təşkilati (özünütəşkiletmə, daha doğrusu iş üsullarının seçilməsi, vaxtın və özünənəzarətin planlaşdırılması), energetik (fəaliyyətin iradi və emosional tərəfi) və qiymətləndirmə" [8, s. 24–25].

Ümumtəhsil məktəblərində şagirdlərin müstəqil işi müəllimin verdiyi tapşırıqlar əsasında, bəzən müəllimin iştirakı ilə, bəzən də onun iştirakı olmadan, idraki çətinliklərin və tapşırıqların həllində əqli və fiziki gərginliyin aradan qaldırılması prosesində davam etdirilir. Özünütəhsildə isə şagird özü-özünə nəzarət edir.

Özünütəhsil fəaliyyətində üç səviyyə mövcuddur:

1.Məktəb təlimini müşayiət edən özünütəhsil təlim fəaliyyəti prosesində həyata keçirilir, öyrənmə özünütəhsili inkişaf etdirir.

2. Müəyyən vəzifələrə və tapşırıqlara müvafiq xüsusi özünütəhsil fəaliyyəti.

3. Özünütərbiyə üzrə spesifik özünütəhsil.

Özünütəhsil fəaliyyətində idrak və sosial motivlər aparıcı rol oynayır. Çünki bu fəaliyyət daim könüllü olaraq həyata keçirilir. Sözsüz ki, xarici motivlər də mövcuddur (ətrafdakı insanların fikri və təsiri, cəmiyyətdə öz mövqeyinin olması və s.). Özünütəhsilin predmeti məktəb proqramından əlavə biliklərin öyrənilməsidir.

Özünütəhsilin əsasını fəaliyyət üsulları, şəxsiyyətyönümlü fikirlər, ustanovkalar, keyfiyyət və bacarıqlar təşkil edir:

-qarşıya məqsədlər qoymaq, onlara nail olmaq üçün vasitə və üsullar axtarmaq, təhlillər etmək, öz fəaliyyətini qiymətləndirmək və s.;

-ətrafdakılara qarşı həssas və diqqətli olmaq, özünə və başqalarına qarşı tənqidi yanaşmaq;

-marağına uyğun düşüncəli seçim etmək və bunun üçün məsuliyyət daşımaq;

-özünütəhsilin yeni üsullarını istifadə etmək;

-bunların əsasında öz iradəsinə təsir edərək özünədəstək olmaq;

-şəxsi maraq və tələbatları daim genişləndirmək.

Özünütəhsilin ümumi istiqamətləri aşağıdakılardır:

- hüquqi;
-estetik;
-tarix;
-xarici dil;
-informasiya-kommunikasiya texnologiyaları;
-idman, sağlamlığın qorunması;
-müxtəlif maraqlar.

Şagirdlərin maraqlarından asılı olaraq bu siyahını artırmaq da olar.

Özünütəhsilin formaları.

Ümumilikdə, özünütəhsilin iki forması mövcuddur. Birincisi – təlim prosesində müstəqil işlərin artırılmasıdır (məktəb proqramından əlavə biliklərin əldə edilməsi). Özünütəhsilin bu forması uğurlu nəticə almaq və təlimin keyfiyyətini yüksəltmək üçün müəllimdən yeni forma və metodların işlənilməsini tələb edir. İkincisi - təlimdənkənar vaxtlarda yuxarı sinif şagirdlərinin müxtəlif istiqamətlərdə fəallığının artırılmasıdır.

Təlimdənkənar vaxtlarda şagirdlərin fəallığının artırılması bir sıra çətinliklərlə bağlıdır.

Birinci növbədə bu, şagird və müəllimlərin özünütəhsil prosesinə psixoloji aspektdən hazır olmaması ilə bağlıdır. İkincisi, təlim prosesinin informasiya-kommunikasiya təminatı hər yerdə müxtəlif səviyyədədir.

Təlim prosesində özünütəhsil aşağıdakı formalarda aparılır:

Qruplarla aparılan özünütəhsil. Müəllimin rəhbərliyi ilə şagirdlərin marağı əsasında aparılan özünütəhsil.

Fərdi özünütəhsil. Özünütəhsilin bu forması şagirdin öz istəyi, marağı əsasında həyata keçirilir.

Hər hansı təlim formasında şagirdlərin özünütəhsili prosesində intellektual təşəbbüslərin və təfəkkürün inkişafı üçün əsas vəzifə psixoloji-didaktik şəraitin yaradılmasıdır. Şagirdlər tədricən qruplarla iş fəaliyyətindən fərdi işə keçərək idrak fəaliyyətini genişləndirir, irəli sürülən məsələnin həlli üçün öz şəxsi fikrini söyləyirlər. Müəllimin əsas vəzifəsi şagirdin müsbət tərəflərini görmək və onları inkişaf etdirməkdir.

Təlimdənkənar özünütəhsilə şagirdlərin istədikləri fənlərə, İKT-yə, məişət texnikasına, dünyada gedən müxtəlif proseslərə marağı aid edilir. Məlumdur ki, bu cür özünütəhsil ev şəraitində də davam edir. Lakin yuxarıda qeyd olunduğu kimi, özünütəhsil özünütərbiyə ilə sıx bağlı olduğundan müəllimin ümdə vəzifələrindən biri də şagirdlərə daim düzgün istiqamət vermək, insanın mənəviyyatını cılızlaşdıran məlumat və saytlardan istifadəyə yol verməməyə, özünəhörmət hissi aşılamağa yönəltməkdir.

Hər bir fənnin tədrisində özünütəhsil həm təlim prosesində, həm də təlimdənkənar vaxtlarda aparılan pedaqoji işlərin vahidliyini gözləyir:

1. Təlim prosesində özünütəhsil (müəllimin rəhbərliyi ilə). Təlim prosesində şagirdlərin özünütəhsil fəaliyyətinin təşkilinin formaları bunlardır: seminar, ekskursiya, ekspedisiya, diskussiya, təlim oyunu, konfrans, turist gəzintisi, mühazirə.

2. Təlimdənkənar özünütəhsil formaları bunlardır: şagirdin şəxsi təşəbbüsü və müəllimin nəzarəti ilə aparılan tədqiqatçılıq və yaradıcılıq işləri.

Şagirdlərin şəxsi təşəbbüsü ilə aparılan özünütəhsilin məğzi ondan ibarətdir ki, onlar müstəqil olaraq müxtəlif mənbələrdən bilik əldə edirlər. Bu biliklərdən öz fəaliyyətlərində, şəxsiyyətinin inkişafında və şəxsi həyatında istifadə edirlər.

Qeyri-ənənəvi təlim formalarının tətbiqi çox güclü stimula malikdir. Bu dərslərin vasitəsi ilə şagirdlərin idrak maraqları inkişaf edir. Çünki təbiətinə görə şagirdlər əyləncəli məşğələləri çox sevirlər. İkinci səbəb isə odur ki, əyləncəli dərslərdə motiv daha güclüdür. Bu formanın tətbiqində T.M. Starodubsevanın materiallarından istifadə edilmişdir. Qeyri-ənənəvi təlim formaları prosesində gərginlik aradan götürülür, şagirdlərə emosional təsir göstərilir. "Şagird fəaliyyətinin təşkilinin qeyri-ənənəvi dərs formalarına bunlar aiddir: sosiodrama, layihə işləri, fəlsəfi stol, çay süfrəsi; hər hansı bir mövzunun, hadisənin, dəlilin təqdimatı; xeyirli sürprizlər günü, suallar zərfi, buraxılış rinqi və s.

"Sosiodrama" insanlar arasında hər hansı sosial qüvvələrin və personajların qruplarla təsiridir, insanların teatr vasitəsi ilə intensiv ünsiyyətidir.

"Çay süfrəsi" güclü təsirə malikdir, xüsusi psixoloji atmosfer yaradır, müxtəlif söhbətlər əsnasında münasibətləri yaxşılaşdırır, gərginliyi aradan qaldırır.

"Xeyirli sürprizlər günü" insanlara diqqət, sevinc paylamaq bacarığını aşılamağı öyrətmək üçün verilən tapşırıqlardan ibarətdir.

"Buraxılış rinqi" əvvəlki dövrlərin təhlili, gələcək planlar, dostluq atmosferinin yaradılması, qarşılıqlı anlaşma, insanlarla qarşılıqlı təsir bacarıqlarının formalaşdırılmasıdır" [9, s.3-4].

Yuxarıda göstərilən təlim formaları özünütəhsildə uğurlu nəticələr verir. Burada müəllimin məqsədi "öyrətmək", "izah etmək" və "göstərmək" deyil, qarşıya çıxan məsələlərin birgə həlli yollarının axtarıb tapılmasını təşkil etməkdən ibarətdir. Müəllim şagirdin özünütəhsil fəaliyyətində bu kiçik tamaşaların rejissoru qismində çıxış edir.

Qeyri-ənənəvi təlim formasının təşkili aşağıdakı mərhələlərdən ibarətdir:

-şagirdlər arasında vəzifələrin bölgüsü;

-məşğələnin ssenarisinin yazılması (konkret məqsədləri göstərməklə);

-tapşırıqların seçilməsi;

-qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi.

Özünütəhsilin əsas mənbələri bunlardır: televiziya, internet, ədəbiyyat (bədii söz, publi-

sistik, elmi-populyar əsərlər), video və audio məlumatlar, onlayn biliklər, ekskursiyalar, teatrlar, sərgilər, konsertlər, səyahətlər.

Özünütəhsil metodları.

1.Özünütəhsilin əsas metodlarından biri ədəbiyyat üzərində işləməkdir. Müasir dövrdə ədəbiyyatın üzərinə böyük məsuliyyət düşür – özünü sosiumun bir hissəsi kimi dərk edən, mənəvi dəyərlərə malik şəxsiyyətlərin yetişdirilməsi. Təmənnasızlığın, xeyirxahlığın, insani münasibətlərin qıtlığı zamanı ictimai həyatda bu problemin həllindən yalnız gənclərin deyil, həmçinin ölkənin gələcəyi asılıdır. Mütaliə şagirdlərin mənəvi inkişafında qüdrətli təsir vasitəsidir. Mütaliə etmək dünyanın müdrik insanları ilə ünsiyyətdə olmaq deməkdir. Müasir dövrdə informasiya bolluğu şəraitində kitabların vaxt sərf edilməsi baxımından sürətlə oxunması və dərindən dərk edilməsi məsələsi də meydana çıxır. Bu, lazımi informasiyanı axtarmaq qabiliyyətindən, onu düzgün və tez qiymətləndirməkdən, əldə edilmiş məlumatlardan təcrübəyə necə tətbiq etməkdən asılıdır. Sonra şagird bu məlumatları müstəqil olaraq öz fəaliyyətində istifadə edir.

2. Özünütəhsil prosesində müstəqil praktik tapşırıqların da yerinə yetirilməsi böyük əhəmiyyət kəsb edir. Bu tapşırıqlar şagirdin maraqlandığı sahə üzrə biliklərinin yoxlanılmasına, yeni biliklərin mənimsəmə səviyyəsinin müəyyənləşdirilməsinə və onların özünütəhsil prosesində təzahür etməsinə imkan verir.

3. İnnovativ texnologiyaların istifadə edilməsi özünütəhsil prosesində böyük rol oynayır.

4. Layihələrin işlənilməsi hər bir şagirdin fərdi idrak qabiliyyətlərini inkişaf etdirir, sosial mühitdə özünü təsdiq etməyə və reallaşdırmağa imkan verir.

5. Şagirdlərin yaradıcılıq fəaliyyətinə cəlb edilməsi.

6. Seminarlarda, treninqlərdə, kurslarda iştirak etməsi.

7. Dərketmə fəaliyyətinə müsbət təsir edən materiallardan istifadə etmək: mü-taliə, sənədli filmlərin baxılması və təhlili.

8. Ekskursiyalar, teatrlar, sərgilər, muzeylər, konsertlər və s.

Bu metodlardan istifadə etmək tələbə olmaq istəyən yuxarı sinif şagirdlərində vaxtdan səmərəli istifadə, işini planlaşdırmaq, kitabla və xüsusi ədəbiyyatla işləmək bacarığı formalaşdırır və onlarda axtarıcılıq qabiliyyətlərini inkişaf etdirərək öyrənmənin fasiləsizliyinə istiqamətləndirir.

Özünütəhsilin vasitələri.

Pedaqoji prosesin səmərəliliyi müəllimin yuxarı sinif şagirdlərinin özünütəhsilini necə idarə etməsindən, şagirdlərin buna hazır olmasından və müvafiq vasitələrin tətbiqindən asılıdır. Təlim prosesində hər bir müəllim öz şagirdinin şəxsiyyətinə (xüsusən də valideynləri ilə problemi olan) məqsədyönlü təsir edir, onların tərbiyəsini, təhsilini və inkişafını idarə edir. Beləliklə, pedaqoji prosesdə şagirdlər üçün şərait yaradaraq, müəllimlər onların özünütəhsili üzrə şüurlu subyektiv fəaliyyətini təmin edirlər.

Yuxarı sinif şagirdlərinin başqa özünütəhsil fəaliyyətinin vasitəsi öz təşəbbüsləri ilə planlaşdırılan və keçirilən tədbirlərdir (evdə öz planları üzrə görəcəkləri işlər, kollektiv tədbirlər, dərnəklərdə iştirak etmək və s.). Bu işlərin aparılması şagirdlərdən bütün səylərinin axtarıcılıq və sosial təcrübənin mənimsənilməsi üzrə səfərbər edilməsini tələb edir.

Özünütəhsil prosesində internet resurslarından istifadə geniş tətbiq olunur.

Özünütəhsilin vasitələrindən biri də elektron təhsil resurslarıdır. Müasir informasiya və kommunikasiya texnologiyaları şagirdlər üçün geniş imkanlar yaradır. Bu texnologiyalar öyrədən və öyrənən arasında qarşılıqlı təsiri təmin etmək üçün fəal surətdə tətbiq olunur və təlimin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir.

Beləliklə, apardığımız tədqiqat işi aşağıdakı nəticələrə gəlməyə imkan verdi:

Tədqiqat işi mövcud ziddiyyətləri və praktik tələbləri nəzərə alaraq yuxarı sinif şagirdlərinin özünütəhsil fəaliyyətində şəxsiyyətyönlü təlimin təşkilinə istiqamətləndi və müşahidələr göstərdi ki, məhz şəxsiyyətyönlü təlim özünütəhsil fəaliyyətinin əsas vasitəsidir.

Elmi-pedaqoji ədəbiyyatın təhlili və eksperimentin müəyyənedici mərhələsi yuxarı sinif şagirdlərinin özünütəhsil fəaliyyətinin meyarlarını müəyyənləşdirməyə imkan verdi. Bunlar aşağıdakılardır:

- şagirdlərin şəxsiyyətyönümlü inkişafının davamlı motivasiyası:(idrak motivasiyası; şagirdlərin bir-biri ilə ünsiyyət motivasiyası);
- təlim fəaliyyətində fəallıq;

- şagirdin bütün istiqamətlərdə inkişafı;
- özünüinkişaf, özünüdərk, özünü təsdiq etmək;
- yaşıdları və başqa insanlarla ünsiyyət qurmağı bacarmaq;
- yaradıcılıq keyfiyyətlərinin inkişafı;
- yeni ideyalarını verilməsi.

3. Pedaqoji eksperimentin öyrədici mərhələsində yuxarı sinif şagirdlərinin özünütəhsil fəaliyyətinin modeli tətbiq edildi. Modellin strukturunu özünütəhsil fəaliyyətinin inkişafına müsbət təsir edən müasir yanaşmalar, prinsiplər məcmusu kimi təqdim etmək məqsədəuyğun hesab edildi. Şagirdin özünütəhsil modelində təlimin məqsədi, motivasiyası, təşkilatçılıq qabiliyyətləri, prinsipiallıq, kommunikativlik, özünütənzimləməyə istinadən qurulur ki, bu da şəxsiyyətin səriştəliliyini təmin edir.

4. Modeli işləyərkən şagirdin şəxsi keyfiyyətlərinə və özünü reallaşdırmasına imkan verən metodik sistemin tətbiq edilməsi nəticəsində onların sosial-mədəni dünyagörüşünün formalaşması (müasir problemlərə diqqət yetirməklə dünyagörüşünün formalaşdırılması), inkişafetdirici (təhlil, müqayisə, ümumiləşdirmə, axtarıcılıq, əqli nəticə çıxarma və s.) və maarifləndirici xüsusiyyətlərinin (estetik, fiziki, sevimli məşğuliyyəti ilə əlaqədar qabiliyyətlərin və yaradıcılığın inkişaf etdirilməsi) inkişafı təmin edilmişdir.

5. Təqdim edilən model "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan tarixi fənni kurikulumunda (V-XI siniflər) irəli sürülən tələblərə cavab verir [2].

Ümumilikdə, özünütəhsil birincisi, şəxsiyyətin inkişafına təsir edir, digər tərəfdən isə həm intellektin inkişafına, həm də dünyagörüşünün genişlənməsinə müsbət təsir göstərir. Özünütəhsil öz məzmunu ilə praktik fəaliyyətin son nəticələrinin əldə edilməsinə xidmət edir ki, bu da təlimin keyfiyyətinin yüksədilməsinə müsbət təsir göstərir.

**Problemin aktuallığı**. Özünütəhsil şagirdlərin gələcəkdə uğurlu və şəxsiyyətyönlü inkişafını təmin edən təhsil formasıdır.

**Problemin elmi yeniliyi və praktik əhəmiyyəti**. Müasir təhsil sisteminin ən vacib məqsədlərindən biri də özünütəhsil təlim prosesinə və təlimdənkənar fəaliyyətə tətbiq etmək və bunun imkanlarını genişləndirmək, özünütəhsil mühitini müasir məktəblərdə yaratmaqdan ibarətdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. //Azərbaycan müəllimi. – 2013. 25 oktyabr, № 41, - s.2
2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). // -Bakı: Kurikulum. - 2008, № 1, - s.13
3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan tarixi fənni kurikulumunda (V-XI siniflər)
4. http://www.anl.az/down/meqale/az_muellimi/2010/avqust/130765.ht
5. Abbasov Ə.M. Ümumi təhsil pedaqoji mülahizələr müstəvisində. //Azərbaycan məktəbi. 2017, № 2, s.11-17
6. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: "Pedaqogika", - 2004. - 432 s. (s.343)
7. Pedaqoji anlayışlar lüğəti. https://portal.edu.az/index.php?r¬=docman/¬down¬load&id=3&mid=&lang
8. Брязгунова Е. Н. Самообразование как основа успешности человека / Педагогическое мастерство: материалы Междунар. науч. конф. (г. Москва, апрель 2012 г.). М.: Буки-Веди, 2012. с. 310-312.
9. Громцева А. К. Формирование у школьников готовности к самообразованию: Учебное пособие по спецкурсу для пед. ин-тов. — М.: Просвещение, 1983. — 144 с.
10. Стародубцева Т.М. Нетрадиционные формы занятий в учреждениях ДОД. //Дополнительное образование и воспитание. № 11, - 2016. - с.3-4.


**E-mail:** mubariz.suleymanov.74@bk.ru

**Redaksiyaya daxil olub:**24.09.2024

## *TƏHSİLDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ*
## *МОНИТОРИНГ И ОЦЕНИВАНИЕ В ОБРАЗОВАНИИ*
## *MONITORING AND EVALUATION IN EDUCATION*

*UOT 37.0*

***Aygün Bakixan qızı Verdiyeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Xəzər Universiteti*
*https://orcid.org/0000-0965-4532-1289*
*https://doi.org/10.69682/arti.2024.91(5).101-104*

# TƏLİM PROSESİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ SİSTEMİNİN ƏSAS ÜNSÜRLƏRI KİMİ DİAQNOSTİKA VƏ KORREKSİYA İŞLƏRİ

***Айгюн Бакихан гызы Вердиева***
*докторант по программе доктора философии*
*Университет Хазар*

# ДИАГНОСТИЧЕСКАЯ И КОРРЕКТИРУЮЩАЯ РАБОТА КАК ОСНОВНЫЕ ЭЛЕМЕНТЫ СИСТЕМЫ МОНИТОРИНГА И ОЦЕНИВАНИЯ В УЧЕБНОМ ПРОЦЕССЕ

***Aygun Bakikhan Verdiyeva***
*doctorial student in the program of doctor of philosophy*
*Khazar University*

# DIAGNOSTIC AND CORRECTIONAL WORK AS KEY ELEMENTS OF THE MONITORING AND EVALUATION SYSTEM IN THE EDUCATIONAL PROCESS

**Xülasə.** Bu məqalədə təlim prosesində monitorinq və qiymətləndirmə sisteminin əsas ünsürlərindən biri kimi diaqnostika və korreksiya işlərinin rolu araşdırılıb. Diaqnostika vasitəsilə tələbələrin bilik və bacarıq səviyyələrinin dəqiq müəyyən edilməsi, təlimdəki mövcud çatışmazlıqların aşkar olunması və nəticələr əsasında korreksiya tədbirlərinin tətbiqi vurğulanıb. Eyni zamanda, bu işlərin təlim prosesindəki effektivliyi artırmağa, tələbələrin fərdi inkişafını və uğur göstəricilərini yaxşılaşdırmağa necə kömək etdiyi izah edilib. Ümumilikdə məqalədə diaqnostika və korreksiya proseslərinin təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm bir vasitə olduğu önə çəkilib.
***Açar sözlər:*** *diaqnostika, korreksiya, monitorinq, qiymətləndirmə, təlim prosesi, təhsil keyfiyyəti, fərdi inkişaf, bilik və bacarıq.*

**Аннотация.** В данной статье рассматривается роль диагностики и коррекции как одного из основных элементов системы контроля и оценивания в учебном процессе. Подчеркнуто точное определение уровня знаний и умений обучающихся посредством диагностики, выявления имеющихся недостатков в обучении и проведения корректирующих мероприятий по результатам. При этом пояснялось, как данные работы помогают повысить эффективность учебного процесса, улучшить личностное развитие учащихся и повысить показатели успешности. В целом в статье было подчеркнуто, что диагностические и коррекционные процессы являются важным средством повышения качества образования.
***Ключевые слова:*** *диагностика, коррекция, мониторинг, оценивание, учебный процесс, качество образования, личностное развитие, знания и умения*

**Abstract.** This article examines the role of diagnostics and corrections as one of the main elements of the monitoring and evaluation system in the training process. Accurate determination of students' knowledge and skill levels through diagnostics, detection of existing deficiencies in training, and implementation of cor-

rective measures based on the results were emphasized. At the same time, it was explained how these works help to increase the effectiveness of the educational process, improve the personal development of students and improve success indicators. In general, in the article, it was emphasized that diagnostic and correction processes are an important tool in improving the quality of education.

***Keywords:*** *diagnosis, correction, monitoring, evaluation, training process, quality of education, personal development, knowledge and skills.*

Təhsildə, o cümlədən ali təhsildə təlimin səmərə və keyfiyyətinin yüksəldilməsində monitorinq-qiymətləndirmə sisteminin mühüm tərkib hissələri kimi diaqnostika və korreksiya işləri mühüm rol oynayır. Diaqnostika və korreksiya olmadan təlim prosesinin səviyyəsini, inkişaf dinamikasını düzgün və dolğun aşkara çıxarmaq, səmərəli idarə etmək mümkün deyildir. Müasir pedaqoji paradiqmalar baxımından təhsilalanların fəaliyyətinin diaqnostikası və korreksiyası məsələlərini öyrənmək və tənzimləmək mühüm nəzəri və praktik əhəmiyyət kəsb edir. Prof. Ə.Ə. Əlizadə və prof. H.Ə. Əlizadə yeni pedaqoji təfəkkür mövqeyindən şəxsiyyətin inkişafını səciyyələndirərək bu sahədə pedaqoji diaqnostikanın rolunu yüksək qiymətləndirmişlər: "Şəxsiyyətin psixoloji-pedaqoji diaqnostikasına xüsusi diqqət yetirilməlidir: onun maraqları, bacarıqları, mən anlayışı, xarakter xüsusiyyətləri, idrak fəaliyyətinin xüsusiyyətləri sistemli şəkildə öyrənilməlidir. Şəxsiyyətin inkişafının proqnozlaşdırılması lazımdır" (3, s. 59).

Diaqnostika müəyyən sahəni, prosesi öyrənmək əsasında onu təkmilləşdirmək vasitəsi kimi müxtəlif istiqamətlərdə tətbiq olunur. Psixologiyada, təbabətdə ondan geniş miqyasda istifadə edilir; müəyyən problemlərin həllində optimal diaqnostik metodların axtarışları intensiv xarakter almaqdadır. Psixoloji axtarışların mühüm bir istiqaməti uşaqların intellektual inkişafının diaqnostikası, onun metodlarının müəyyənləşdirilməsi ilə bağlıdır. Pedaqoji psixologiya aspektində təlim və psixi inkişaf, təfəkkürün, o cümlədən təhsilalanların müstəqil, yaradıcı və tənqidi təfəkkürünün inkişafı probleminə daha çox diqqət yetirilmişdir (Jan Riaje, A. Bine, L.S. Vıqotski, P.P. Blonski, V. Blum, C. Gilford, L.V. Zankov, Ə.S. Bayramov, Ə.Ə. Əlizadə və b.). Tədqiqatlarda yeni pedaqoji təfəkkür baxımından təhsilalanlara bir şəxsiyyət kimi yanaşmağı, onların inkişafı üçün lazımi psixoloji-pedaqoji şəraitin yaradılmasını və şəxsiyyətin diaqnostikasının həyata keçirilməsini təlim və tərbiyənin vacib şərti hesab edilir.

Təhsilalanların əqli inkişafı və onun əsas tərkib hissəsini təşkil edən təfəkkürün, müstəqil və yaradıcı düşünmə bacarığının diaqnostikası və inkişaf etdirilməsi təlim nəzəriyyəsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Tələbələrin (şagirdlərin) təlimdə öyrənmə qabiliyyətlərinin və öyrənməyə qabillik bacarığının diaqnostikası əqli inkişafın, təfəkkürün başlıca göstəricisi kimi çıxış edir. Bu məsələ pedaqoq və psixoloqların diqqətini müəyyən dərəcədə cəlb etsə də, diaqnostika nəzəriyyəsi və təhsil təcrübəsində sistemli şəkildə öz əksini tapmamışdır. Mövcud pedaqoji ədəbiyyatda monitorinq və qiymətləndirmə sisteminin mühüm tərkib hissələri kimi diaqnostika və korreksiya məsələlərinə lazımi dərəcədə yer verilmir, bu sahədə fərqli yanaşmalar mövcuddur. Bu da, öz növbəsində, məsələnin praktiki həllinə mənfi təsir göstərir; təlim prosesinin daha yaxşı öyrənilməsi və səmərəli idarə olunmasını çətinləşdirir.

Diaqnostikanın düzgün təşkili üçün ilk əvvəl pedaqoji diaqnostika, onun mahiyyəti, məqsəd və vəzifələrini nəzərdən keçirməyi, onlara aydınlıq gətirməyi vacib hesab edirik. Çünki yalnız belə konseptual yanaşma yolu ilə onun səmərəli öyrənilməsi və tətbiqini həyata keçirmək mümkündür. "Diaqnostika" anlayışı müxtəlif pedaqoji mənbələrdə müxtəlif şəkildə səciyyələndirilir: pedaqoji prosesin vəziyyətinin öyrənilməsi kimi (5, s. 415); öyrənilən obyekt və ya prosesə dair informasiyanın əldə edilməsi vasitəsi kimi (4, s. 251); təhsilin keyfiyyət göstəricilərinin öyrənilməsi vasitəsi kimi (2, s. 323); didaktik prosesin başvermə şəraitini, onun nəticələrini dəqiq üzə çıxarmaq, qiymətləndirmək və təhlil etmək vasitəsi kimi (6, s. 299) və s.

Diaqnostika ilə bağlı pedaqoji ədəbiyyatda nəzərdən keçirilən təriflər anlayışın əsas məğzini açsa da, onun mahiyyətini o qədər də tam əks etdirmir. Diaqnostika vəziyyəti sadəcə öyrənmək və nəticələri üzə çıxarmaqla məhdudlaşmır; onun əsas funksiyası vəziyyəti və nəticələri təhlil etmək, müşahidə olunan nöqsan və çatışmazlıqları, onları doğuran səbəbləri aşkara çıxa-

rıb, dəyərləndirməkdən ibarətdir. Bu baxımdan pedaqoji diaqnostikanın mahiyyətini aşağıdakı kimi səciyyələndirmək olar: pedaqoji diaqnostika – təlim (tərbiyə) prosesinin cərəyanetmə şəraitini, onun nəticələrini və bu nəticələrin əldə edilməsi vasitə və üsullarını, müşahidə olunan nöqsan və çatışmazlıqları, habelə onları doğuran səbəbləri üzə çıxarmağa, təhlil edib qiymətləndirməyə yönələn idarəetmə funksiyasıdır. Onun son məqsədi üzə çıxarılan nöqsan və çatışmazlıqların korrektə olunmasını, təlim prosesinin və təhsilalanların təlim fəaliyyətinin proqnozlaşdırılmasını, səmərəli inkişafını və idarə olunmasını təmin etməkdən ibarətdir.

Bəzən diaqnostika və yoxlama anlayışları eyniləşdirilir. Bu anlayışlar arasında ümumi, oxşar cəhətlər olsa da, fərqli cəhətlər də vardır; məsələn, diaqnostika yoxlamaya nisbətən daha geniş və dərin məna daşıyır. Belə ki, yoxlama təhsilalanların bilik və bacarıqlarını – mənimsəmənin nəticələrini müəyyən edir, lakin onların başvermə səbəblərini açmır. Diaqnozlaşdırma isə əldə edilən nəticələri onlara nailolma yolları və qaydaları ilə bir yerdə öyrənir, təlim məhsullarının formalaşma dinamikasını üzə çıxarmış olur" (6, s. 299).

Təlim prosesi ünsürlərinin belə təsnifatı şərtidir, çünki real təlim prosesində onlar vəhdət halında çıxış edir: qarşıya qoyulmuş məqsəddən asılı olaraq müxtəlif qarşılıqlı əlaqə və asılılığa girir, bir-birini şərtləndirir. Diaqnozlaşdırma daha çox nəzarət, yoxlama və qiymətləndirmə prosesləri ilə bağlıdır. Diaqnostikanın köməyi ilə nəzarət və yoxlama əsaslı şəkildə aparılır. Bu zaman tələbənin (şagirdin) sadəcə bilik və bacarıq səviyyəsi müəyyən edilmir, həm də mövcud nöqsan və çatışmazlıqlar, onların xarakteri, başvermə səbəbləri araşdırılır. Diaqnostikanın nəticələri müxtəlif vəzifələrin yerinə yetirilməsinə kömək edir: a) təhsilalanların bilik və bacarıqlarının vəziyyəti, səviyyəsi, kəsrləri aşkara çıxarılır; onların öz üzərlərində işləməsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün imkan yaradır; b) aparılan dəqiq diaqnostika sayəsində qiymətləndirmənin düzgünlüyü və obyektivliyi təmin olunur; c) diaqnozlaşdırma sistemində qiymət stimullaşdırma vasitəsi kimi yeni keyfiyyət qazanır: müəllimin qiymətləndirmə mülahizələri daha inandırıcı və əsaslı olmaqla, şəxsiyyətin özünü ifadəsinə kömək edir; bu da rəqabətyönlü cəmiyyət həyatında mühüm təhrikedici amil kimi çıxış edir; ç) diaqnostika həm də təhsilalanlarla, eləcə də təlim prosesinin təkmilləşdirilməsi ilə bağlı aparılacaq korreksiya və proqnozlaşdırma işlərini müəyyənləşdirməyə, təlimin metod, forma və texnologiyalarını yeniləşdirməyə imkan verir; d) diaqnostika təlimdə əksəlaqənin həyata keçirilməsini təmin edir. Bu da, öz növbəsində, təhsilalanların fəaliyyətinə müntəzəm nəzarət edilməsinə və təlim prosesində zəruri dəyişikliklər aparmaqla onun səmərəli idarə olunmasına kömək göstərir. Əks əlaqə vasitəsilə idarəetmə çox vaxt təlimin qüsursuz təşkilinə şərait yaradır; çünki müəyyən kəsirlər, səhvlər və kənaraçıxmalar olduqda müntəzəm düzəlişlər – korreksiya aparmaq, tələbənin (şagirdin) təhsil fəaliyyətinə vaxtında və məqsədyönlü şəkildə müdaxilə etmək, kömək göstərmək imkanı vardır.

Təlim prosesini idarə etmək məqsədlərinə müvafiq olaraq əks əlaqə müxtəlif informasiyalar əldə etməyə imkan verir: tələbə verilən tapşırığı icra edibmi; onu düzgün yerinə yetiribmi; səhvlərə yol veribmi; əgər səhvlər varsa, onların xarakteri nədən ibarətdir? və s.

Əks əlaqə tələbənin zehni və praktik fəaliyyətinin nəticəsi ilə bağlı müsbət və ya mənfi informasiyaları əks etdirməsindən asılı olaraq pozitiv və neqativ səciyyə daşıya bilər. Hər iki halda o, mühüm pedaqoji-psixoloji funksiyanı yerinə yetirir hətta cavab (tapşırığın icrası) səhv olduqda belə o, tələbəyə stimullaşdırıcı təsir göstərir; səhvə yol vermiş tələbə öz səhvləri və onların səbəbləri ilə tanış olmağa və onları aradan qaldırmağa səy göstərir.

Hər cür fəaliyyətin, o cümlədən təlim fəaliyyətinin uğuru və keyfiyyəti, ilk növbədə, təhsilalanların ona münasibətlərindən, maraq və tələbatından, müsbət motivasiyasından çox asılıdır "Motiv" (latınca "movere" – hərəkətə gəlmək, itələmək deməkdir) insanı müəyyən fəaliyyətə təhrik edən güclü amil kimi təlim prosesində həlledici rol oynayır. Psixologiyada motivasiya – motivlərin formalaşması və inkişafı prosesi, davamlı motivlərin məcmusu və çoxtərkibli psixoloji fenomen kimi səciyyələndirilir (3, s. 111).

Pedaqoji-psixoloji tədqiqatlar (Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə və b.) göstərir ki, təlim uğurları təkcə tələbənin (şagirdin) təlimə qabilliyi, bütövlükdə qabiliyyətləri ilə deyil, həm də təlim

motivasiyası ilə təmin olunur. Başqa sözlə, onun yaxşı oxuması üçün bütün digər şərtlərlə yanaşı, həm də təlim motivasiyasının formalaşması zəruridir. Məktəb təcrübəsində çoxlu qabiliyyətli tələbə və ya şagirdlərə təsadüf olunur ki, onlar sadəcə olaraq motivasiya çatışmazlığı ucbatından yaxşı oxuya bilmirlər (3, s. 115).

Təhsilalanların təlimə müsbət motivasiyasının formalaşdırılması məqsədyönlü prosesdir: onu inkişaf etdirmək, stimullaşdırmaq və təlimdə əlverişli şərait yaratmaq lazımdır. Psixologiyada təlim motivlərinin iki əsas qrupu fərqləndirilir: idrak və sosial motivlər. Tələbələrin təlimə münasibətlərində bu motivlər həlledici rol oynayır. Tədqiqat göstərir ki, müxtəlif tələbələrdə motivlərin müxtəlif növləri aparıcı yer tutur. Tələbə yeni biliklərin – fakt, hadisə və qanunauyğunluqların öyrənilməsinə maraq göstərirsə, bu halda onun təlim fəaliyyəti üçün geniş idrak motivləri səciyyəvidir. Tələbəni təlimdə biliklərin əldə edilməsi vasitə və metodları, yeni səmərəli müstəqil iş priyomları, yaradıcılıq axtarışları cəlb edirsə, bu halda təlim-idrak motivləri ön plana keçir. Əlavə mənbələrdən biliklər əldə etməyə çalışan, özünütəhsillə müntəzəm məşğul olan tələbələrdə özünütəhsil motivləri üstünlük təşkil edir. Təlimə borc və məsuliyyət hissi ilə yanaşan, kollektivdə və həyatda yaxşı mövqe tutmağa və başqalarının rəğbətini qazanmağa çalışan tələbədə sosial motivlər dominant rol oynayır (1, s. 123).

Diaqnostika və korreksiya işi iki istiqamətdə – həm təlim prosesinin səmərəli təşkilinə, həm də onun nəticələrinə – tələbələrin bilik və bacarıq səviyyələrinin aşkara çıxarılması və inkişafına yönəldilməlidir. Təhsilin keyfiyyəti baxımından çox vacib olan bu bacarıqların kortəbii şəkildə yox, məqsədyönlü və sistemli şəkildə formalaşdırılması ali təhsildə monitorinq və qiymətləndirmə sisteminin zəruri tərkib hissəsinə çevrilməlidir. Universitetin bütün fakültələrinin I kurslarda "İxtisasa giriş", "Təlim əməyinin elmi təşkili", "Tələbələrdə zehni və əməli müstəqil iş bacarıqlarının formalaşdırılması" və s. mövzularda xüsusi kurs və seminarların keçirilməsi vacibdir. Bu, tələbələrin keyfiyyətli təhsil alması, dərin biliyə və yüksək intellektual keyfiyyətlərə malik mütəxəssislər kimi yetişməsi, eləcə də yaradıcı fəaliyyətə hazırlanması baxımından böyük aktuallıq kəsb edir.

**Problemin aktuallığı.** Təlim prosesində diaqnostika və korreksiya işlərinin aktuallığı müasir təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi ilə bağlıdır. Hər bir tələbənin fərdi inkişafını təmin etmək və onların bilik, bacarıq səviyyələrinə uyğun tədris metodları tətbiq etmək vacibdir. Diaqnostika tələbələrin öyrənmə çatışmazlıqlarını vaxtında aşkar etməyə imkan verir, korreksiya isə bu çatışmazlıqların aradan qaldırılmasını təmin edir. Müasir təlim yanaşmalarının mərkəzində duran bu metodlar, həm müəllimlərin, həm də tələbələrin nailiyyətlərini dəqiq ölçmək və təlimin effektivliyini artırmaq baxımından əhəmiyyətlidir.

**Problemin yeniliyi.** Diaqnostika və korreksiya işlərinin interaktiv və texnoloji vasitələrlə inteqrasiyası, tələbələrin fərdi öyrənmə ehtiyaclarına daha uyğun yanaşmaların inkişaf etdirilməsi və bütün bu yeniliklərin təlimin daha şəffaf və effektiv olmasına imkan yaradılması və təhsil keyfiyyətini yüksəltmək üçün vacib hesab edilməsi daha ətraflı şəkildə araşdırılıb.

**Problemin praktik əhəmiyyəti**. Məqalə təlim prosesində diaqnostika və korreksiya işlərinin tətbiqi ilə təhsilin keyfiyyətini artırmaq və tələbələrin fərdi inkişafını dəstəkləmək baxımından əhəmiyyətlidir.

**Ədəbiyyat:**

1. Bayramov, Ə.S. Psixologiya. / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Ali məktəblər üçün dərslik. – Bakı: Çinar-çap, – 2006. – 620 s.
2. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. / N. Tusi. – Bakı: Elm, –1989. – 256 s
3. Ализаде, А.А. Теория и практика систематики: светлый путь современной школы / А. А. Ализаде, И. Н. Султанова. - Баку: АДПУ, - 2008. - 172 с
4. Гузеев, А.В. Оценочные шкалы в образовательной технологии // Начальная школа, – 2002. N5, – с.115-125
5. Педагогика (под ред. П.И. Пидкасистого). / – М.: Общество России, – 2002. – 640 с
6. Рустамов, Ф. Педагогическая наука в Азербайджане: организация, развитие и проблемы (1920-1991). / Ф. Рустамов. - Баку: Издание Бакинского университета, - 1998. - 484 с

**E-mail:** averdiyeva@khazar.org
**Redaksiyaya daxil olub:** 13.09.2024.

# *AÇIQ DƏRS PROBLEMİ*
# *ПРОБЛЕМА ОТКРЫТОГО УРОКА*
# *THE PROBLEM OF OPEN LESSON*

*UOT 37.0*

***Təranə Qeyis qızı Abdullayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*biologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-9151-8950*
*https://doi.org/10.69682/arti.2024.91(5).105-108*

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AÇIQ DƏRSLƏRİN TƏŞKİLİ

***Тарана Гейс гызы Абдуллаева***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по биологии*

## ОРГАНИЗАЦИЯ ОТКРЫТЫХ УРОКОВ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Tarana Geyis Abdullayeva***
*associate professor*
*at the Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in biology*

## ORGANIZATION OF OPEN LESSONS IN SECONDARY SCHOOLS

**Xülasə.** Məqalədə müstəqil Azərbaycanın təhsil sistemindəki yeniliklər araşdırılır, ümumtəhsil məktəblərində açıq dərslərin təşkili xüsusiyyətləri izah olunur. Müəyyən vaxtlarda təcrübəli, ustad, lider müəllimlər tərəfindən açıq dərslərin keçirilməsinin üstünlükləri göstərilir. Qabaqcıl təcrübənin öyrənilib yayılmasının təhsilin keyfiyyətinə müsbət təsiri aydınlaşdırılır. Təcrübəli müəllimlərin hər bir dərsinin həmkarları üçün açıq olması vurğulanır.
***Açar sözlər:*** *açıq dərs, ustad müəllim, motivasiya, fəal dərs, keyfiyyət, inteqrasiya, tədqiqat, dialoq*

**Аннотация.** В статье рассматриваются инновации в системе образования независимого Азербайджана, объясняются особенности организации открытых уроков в средних школах. Показаны преимущества проведения открытых уроков опытными, ведущими учителями в определенное время. Выяснено положительное влияние изучения и распространения передового опыта на качество образования. Отмечается, что каждый урок опытных учителей доступен для коллег.
***Ключевые слова:*** *открытый урок, опытный учитель, мотивация, активный урок, качество, интеграция, исследование, диалог*

**Abstract.** Innovations in the education system of independent Azerbaijan are discussed in the article, and the peculiarities of the organization of open classes in secondary schools are explained. The advantages of conducting open classes by experienced, masters, leading teachers at a certain time are shown. The positive influence of studying and spreading advanced experience on the quality of education has been revealed. It is noted that every lesson of experienced teachers is open to their colleagues.
***Keywords***: *open lesson, master teacher, motivation, active lesson, quality, integration, research, dialogue.*

Müstəqil Azərbaycanın təhsil sisteminin beynəlxalq sistemə inteqrasiyası sürətlə inkişaf edir. Yeni əsrdə cəmiyyətin inkişafı üçün yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət

formalaşdırılır. Azərbaycan təhsili qarşıya qoyulmuş yüksək mədəniyyətli, mütərəqqi dünyagörüşlü, insan hüquqları və azadlıqlarına hörmət edən müstəqil və yaradıcı düşünmə qabiliyyətinə malik, vətənpərvər şəxsiyyət yetişdirmək probleminin həllinə ciddi yanaşır. Bunun üçün müəllimlər tədrisin keyfiyyətinə diqqəti artırır, "reproduktor" rolundan imtina edərək biliklərin əldə edilməsində bələdçi rolunu seçirlər. Təlimin yeni texnologiyasını tətbiq edir, pedaqoji fəaliyyətində mütəmadi olaraq metodiki və professional səviyyəsini yüksəltməyə, elmi-nəzəri biliklərini artırmağa səy göstərirlər.

Müəllim tədris etdiyi fənnin mövzusu üzrə reallaşdırılacaq standartı, məqsədi tətbiq edəcək uyğun metodikanı müəyyənləşdirir. Dərsin səmərəli keçməsinə görə o əvvəlcədən: Dərsdə hansı bilik və bacarıqlar aşılanacaq? Onlar necə aşılanacaq? Hansı şəraitdə təşkil olunacaq? Təlim fəaliyyəti necə qiymətləndiriləcək? Kimi suallara cavab axtarır. Dərsdə reallaşacaq standarta uyğun təlim məqsədi üzrə iş aparılır. Belə ki:

-Dərsin mərhələləri və hər bir mərhələ üçün zaman fasiləsi, tapşırıqlar və metodlar müəyyənləşdirilir. Onun başlanğıcında mövzu, standart, təlim məqsədi, inteqrasiya, iş forması, iş üsulları, resurslar dəqiqləşdirilir. Dərsin mərhələləri aşağıdakı ardıcıllıq üzrə sistemləşdirilir [4, s. 101].

1.Motivasiya (probleminin qoyulması) mərhələsi fəal dərsin vacib komponenti olmaqla təfəkkür prosesini hərəkətə gətirir və şagirdlərin idrak fəallığına təkan verir.

2.Tədqiqatın aparılması (problemin həlli) mərhələsində tədqiqat sualını tamamlamaq üçün şagirdlərə tapşırıqlar verilir. Müəyyən bir iş formasında təqdimatlar hazırlanır.

3.İnformasiya mübadiləsi mərhələsində şagirdlər əldə etdikləri yeni informasiyaları digər iştirakçılara ötürür.

4.İnformasiyanın müzakirəsi mərhələsində şagirdlərin hazırladıqları təqdimatlar və informasiyalar müzakirə edilir. Düzgün və yanlış cavablar aydınlaşdırılır. Bu mərhələnin məqsədi yeni əldə edilmiş informasiyaları sistemləşdirmək və hazırlanan təqdimatlar arasındakı əlaqəni üzə çıxarmaqdan ibarətdir.

5.Nəticə və ümumiləşdirmə mərhələsində nəticəyə gəlmək üçün şagirdlərlə birlikdə informasiyalar ümumiləşdirilir və əldə edilmiş ideya, ilkin fərziyyələrlə müqayisə etdirilir.

6.Yaradıcı tətbiqetmə mərhələsində şagirdlərin biliyi möhkəmləndirilir. Əldə edilmiş nəticələrə əsasən praktik iş, yaradıcı tapşırıqlar, məsələ və misallar ilə şagirdlər yaradıcı fəaliyyətə cəlb olunur. Yaradıcı tətbiqetmə mərhələsinin tapşırıqlarına dərsdə vaxt çatmadıqda onlar evdə yerinə yetirilə bilər.

7.Qiymətləndirmə mərhələsində şagirdlərin təlimdəki fəaliyyətləri izlənilir, konkret meyarlar əsasında qiymətləndirilir.

Fəal (interaktiv) dərsdə şagirdlər biliyi müstəqil əldə edir, onlar təlim prosesinə fəal cəlb olunurlar, müəllim fasilitator mövqeyi nümayiş etdirir. Dərsdə yaradılmış öyrədici mühit şagirdlərin sərbəstliyini təmin edir. İnteraktiv dərs şagirdlər üçün elm aləminə edilən bir səyahətə bənzəyir. Şagirdlər belə dərslərdə tədqiqatçı rolunu oynayırlar [5, s.48].

Azərbaycan Respublikasının “Təhsil haqqında” qanununa [5] uyğun olaraq Tədris Mərkəzi 02 dekabr 2015-ci ildə “Açıq dərslərin təşkili, keçirilməsi və qiymətləndirilməsinə dair “Qaydaları” işləmişdir.

Şagirdlərimizin təlim-tərbiyəsində və inkişafında açıq dərslərin rolu böyükdür. Belə ki, açıq dərslər müəllimlərdə və şagirdlərdə məsuliyyət duyğusunu artırır;

-Şagirdlərin sosiallığına və onların cəmiyyətə daha rahat inteqrasiyasına kömək edir;

-Yüksək təcrübəyə malik müəllimlərin təcrübəsini gənclərlə praktik olaraq bölüşməsi üçün əvəzsiz vasitədir;

-Obyektiv müzakirə edilərək iştirak edən müəllimin öz səhvlərini görməsi və aradan qaldırması üçün metodik kömək göstərir;

-Valideynlərin tədris prosesinə cəlb edilməsini təmin edir.

-Onları həm kurikulumun tələbləri, həm də şagirdlərə yanaşma qaydaları ilə tanış edir;

-Şagirdlərin əməkdaşlıq, birlikdə fəaliyyət göstərmə bacarıqlarını inkişaf etdirir;

-Müəllimi daha çox axtarmağa, öz üzərində işləməyə məcbur edir;

-Məktəb rəhbərliyini müəllimlərin dərs keçdiyi sinifdəki ümumi vəziyyət, ayrı-ayrı şagirdlər haqqında məlumatlandırır.

-"Açıq dərs" özündə bir neçə mərhələni: dərsə hazırlıq, dərs prosesi, dərsin müzakirəsi birləşdirir[6, s.4-5].

Açıq dərsin gündəlik dərsdən bir sıra fərqləri mövcud olsa da, onlar bir-birindən köklü şəkildə fərqlənmir. Müəllim açıq dərsə hazırlaşarkən öz şagirdlərinə gələn qonaqları salamlamağı, zəruri məqamlarda özlərini təqdim etməyi öyrədir. Bu baxımdan açıq dərsə verilən tələblərə diqqətlə yanaşılır, yeni tipli açıq dərslər təşkil edilir. Son illər dünyanın bir çox ölkələrində, o cümlədən İngiltərə, Avstraliya, ABŞ, Kanada, Almaniyada müəllimlərin standartları təsdiq edilib. Standartlar müəllimlərin peşəkar bilik və bacarıqları-təhsilin məzmunu və üsulları, qiymətləndirmə bacarığı, müxtəlif xarakterli, tələbat və imkanlara malik uşaqlarla iş, tədris prosesinin planlaşdırılması və s. əhatə edir. Müəllim standartları 4 səviyyəni: məzun, ixstisaslı müəllim, yüksək ixtisaslı müəllim, lider müəllimi əhatə edir. Məhz açıq dərsi lider, bəzən yüksək ixtisaslı müəllim səviyyələrə malik olanların aparması məsləhətdir. Peşəkar, təcrübəli, yenilikçi müəllimin hər dərsi açıq dərs hesab olunur.

Müəllim şagirdlərinə hansı tarixdə açıq dərsləri olacağını elan edərkən həyəcanlı olsa da bunu şagirdlərinə büruzə vermir, dərsin hazırlıq mərhələsində texniki məsələlərlə məşğul olur. Açıq dərslərin təşkili məktəb rəhbərliyi və müəllimlərin üzərinə böyük məsuliyyət qoyur. İstənilən açıq dərs müəllimlə yanaşı, həm də məktəbin özünü təqdim etməsidir. Bu təqdimatın uğurlu olması ona hazırlıq prosesində məktəb rəhbərliyi və açıq dərs aparan müəllimin birgə əməkdaşlığı sayəsində ərsəyə gəlir.

Açıq dərs müəllim tərəfindən təlim–tərbiyənin keyfiyyətcə yüksəldilməsinə, yeniliklərin tətbiq edilməsinə yönəlmiş dərs nümunəsinin təqdim edilməsidir. Açıq dərslərdə müəllim və şagirdlərlə yanaşı sinif otağında müşahidəçi şəxslərdə iştirak edir. Dərsin kecirilməsi günü, saatı, yeri, mövzusu və məqsədi, həmçinin müşahidəçi kimi iştirak edəcək şəxslərin tərkibi əvvəlcədən planlaşdırılır. Açıq dərs adi dərslərdən müşahidəçilər üçün nümunə olması ilə fərqlənir [1, s. 94].

Yüksək təlim keyfiyyəti əldə etmiş müəllim müxtəlif kurs, treninq və təlim keçmiş qabaqcıl təcrübəyə malik yenilikləri öyrənir, dərslərində tətbiq edir, tədrislə bağlı qabaqcıl təcrübəni mənimsəyir açıq dərs vermək hüququ qazanır. Uğurlu açıq dərslərin təşkil edilməsi məktəb rəhbərliyinin peşəkarlığından və səriştəsindən, təhsillə bağlı hədəfləri vaxtında görməsindən, yeniliyə və müasir dünyagörüşə malık olmasından, ölkədə və dünyada gedən təhsil proseslərinə bələdliyindən çox asılıdır. Məktəb rəhbərliyi açıq dərs verəcək müəllimi müəyyənləşdirir . Belə ki, müəllimin fəaliyyətini müəyyən müddət müşahidə edir, nəticələrini ümumiləşdirir. Əldə olunmuş materiallar rəhbərlikdə müzakirə edilir və müsbət fikir formalaşdıqdan sonra müəllimlə məsləhətləşərək onun açıq dərsini iş planına daxil edir.

Açıq dərs verməyə hazırlaşan müəllim mövzunu seçir, mövzunun sadə, müşahidəçilər üçün maraqlı olmasına diqqət edir. Şagirdlərlə sinfin, öyrədici mühitin vəziyyəti ilə tanış olur.

Məktəb rəhbərləri pedaqoji prosesə nəzarət edərkən dərsin təkmilləşdirilməsinə, onun funksiyalarının genişləndirilməsinə, imkanlarının artırılması istiqamətində tədqiqatlar aparılmasına, onun mexanizmini, strukturunu, ayrı-ayrı cəhətlərini öyrənməyə və yeniləşdirməyə diqqəti artırır. Məktəb rəhbərləri bunun üçün müəllimlərinin iş metodunu müstəqil, yaradıcı şəkildə müəyyənləşdirməsinə şərait yaradır, rəsmi metodik qaydaların əsiri olmasına yol vermir, onları zorla müəllimlərinə qəbul etdirmir. Açıq dərslərin təşkili təlim işində təcrübə mübadiləsinə kömək edən vasitə kmi ən yaxşı dərs nümunələrini yaymaq məqsədi daşıyır. Müəllimləri öz işinə tənqidi yanaşmağa sövq edir və onları başqalarının qabaqcıl təcrübəsini öyrənməyə istiqamətləndirir [2, s.135].

Açıq dərslərin səmərəsi onların düzgün təşkilindən asılıdır. Belə dərslərin mövzuları proqramın nisbətən çətin bölmələrindən seçilir ki, onun keçilməsi nümunəsində müəllimlərə müvafiq mesajlar verilsin.

Açıq dərslərin cədvəlinin dərs ilinin əvvəlində metodbirləşmə və ya fənn metod komissiyalarının təqdimatına əsasən direktor müavini tərəfindən tərtib olunur, təsdiq edilir və məktəbin elanlar lövhəsindən asılır. Onun bir surəti təhsil şöbəsinin metod mərkəzinə göndərilir ki, məktəbdəki açıq dərslərlə digər məktəblərin müəllimləri, əməkdaşları tanış olsunlar.

Müəllim nəzərdə tutulan açıq dərsin planını əvvəlcədən tərtib edir. Planda dərsin məntiqi quruluşu, didaktik prinsipləri, əsas anlayışları, o cümlədən aşılanacaq bacarıq və vərdişlərin həcmi özünün dəqiq, yığcam ifadəsini tapır. Müəl-

lim plan əsasında dərsə ciddi hazırlaşır, dərs prosesində ən səmərəli vasitə və metodları bacarıqla tətbiq edir.

Açıq dərslərin müzakirəsi tənqid və özünütənqid ruhunda aparılır. Elmi-metodik prinsip və meyarlar ideya-siyasi, elmi-nəzəri və elmi-metodik baxımdan obyektiv təhlil olunur[4, s.151].

Açıq dərs müəllimləri daha çox düşündürən sualların cavablandırılmasına, rastlaşdıqları problemlərin həllinə kömək edir. O bir sıra sualları:

- Müəllim problemli təlimdən necə istifadə edir?
- Dərsi dialoq əsasında necə qurur?
- Müasir təlim metodlarını necə tətbiq edir?
- Əyani və texniki vasitələrdən istifadə qaydalarını necə həyata keçirir?
- Dərsdə İKT-dən istifadə imkanlarını necə reallaşdırır?
- Şagirdlərə diferensial yanaşma necədir? və s. cavablandırır.

Müzakirə zamanı bu məsələlər ətraflı aydınlaşdırılır, şagirdlərin fundamental təhsili, şəxsiyyət kimi formalaşması məsələlərinə xüsusi diqqət yetirilir, müsbət cəhətlərlə yanaşı, çatışmazlıqların hər biri qeyd olunur.

**Problemin aktuallığı.** Ümumtəhsil məktəb fənlərinin tədrisi keyfiyyətinin yüksəldilməsində açıq dərslərin təşkili və qiymətləndirilməsinin əhəmiyyəti böyükdür. Bu baxımdan məqalədə araşdırılan problem aktuallığı ilə seçilir. Məqalədə problemin həlli imkanları və yolları göstərilir.

**Problemin yeniliyi.** Ümumtəhsil məktəblərində tədris fənləri üzrə açıq dərslərin təşkili və qiymətləndirilməsi problemi ilk dəfədir ki, araşdırılır. Məqalədə ilk dəfə olaraq problemin həlli verilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və ümumtəhsil məktəblərinin müəllimləri, tələbələr, magistrant və doktorantlar faydalan bilərlər.

**Ədəbiyyat:**


1. Əhmədov, H.H. Pedaqogika. Ali məktəb tələbələri üçün dərslik. / H.H. Əhmədov. -Bakı: Təhsil NPM, -2013. -292 s
2. İsmixanov, M.A. Pedaqogikanın əsasları. Dərslik. / İsmixanov M.A . -Bakı: "Bakı Universiteti" nəşriyyatı, - 2011. - 290 s
3. İbrahimov, F. Pedaqogika: Ali məktəblər üçün dərslik. 2 cilddə / İbrahimov F., Hüseynzadə R. I cild, Bakı -Bakı: Mütərcim, -2012, - s. 699
4. Hacıyeva, H. Ümumtəhsil məktəblərində səriştəli təlimin əsas istiqamətləri. Dərs vəsaiti . / Hacıyeva H., Zülfüqarova. M. -Bakı: Müəllim , -2023. -162 s.
5. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu / İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 19 iyun 2009-cu il. -Bakı: Ozan, -2009. -18 s.
6. “Açıq dərslərin təşkili, keçirilməsi və qiymətlənlirilməsi qaydaları”./ Tədris Mərkəzinin "2" dekabr 2015-ci il tarixli 1595040100218400 nömrəli əmrinə 1 saylı Əlavə. -Bakı: 2015, -6s.


**E-mail**: tarana-abdullayeva@hotmail.com
**Redaksiyaya daxil olub:** 09.09.2024.

# SİNİFDƏNXARİC VƏ MƏKTƏBDƏNKƏNAR İŞ
# ВНЕКЛАССНАЯ И ВНЕШКОЛЬНАЯ РАБОТА
# EXTRACURRICULAR AND OUT-OF-SCHOOL ACTIVITIES

*UOT 371*

***Nabat Natiq qızı Əhmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının müəllimi*
*https://orcid/ 0009-0000-4880-8496*
*https://doi.org/10.69682/arti.2024.91(5).109-112*

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ SİNİFDƏNXARİC VƏ MƏKTƏBDƏNKƏNAR TƏDBİRLƏRİN TƏŞKİLİ FORMALARI

***Набат Натиг гызы Ахмедова***
*преподаватель кафедры Общей педагогики Азербайджанского Государственного Педагогического Университета*

## ФОРМЫ ОРГАНИЗАЦИИ ВНЕКЛАССНЫХ И ВНЕШКОЛЬНЫХ МЕРОПРИЯТИЙ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Nabat Natig Ahmadova***
*teacher at chair of General Pedagogy of the of Azerbaijan State Pedagogical University*

## FORMS OF ORGANIZING EXTRACURRICULAR AND OUT-OF-SCHOOL ACTIVITIES IN SECONDARY SCHOOLS

**Xülasə.** Elmi məqalədə ilkin olaraq sinifdənxaric, məktəbdənkənar anlayışların mahiyyətinə aydınlıq gətirilmişdir. Daha sonra dərnək məşğələləri, mədəni-kütləvi tədbirlər, müsabiqələr, idman yarışlarının keçirilməsi və təlimati-metodik işlər haqqında geniş məlumat verilmişdir. Sinifdənxaric tərbiyə işlərinin təşkili formaları fərdi, qrup, kollektiv, kütləvi iş formaları və onların həyata keçirilməsi istiqamətləri göstərilmişdir.
***Açar sözlər:*** *məktəbdənkənar müəssisə, sinifdənxaric tədbirlər, məktəb, müəllim, disput*

**Аннотация.** В научной статье изначально уточнена сущность понятий вне класса и вне школы. Далее была дана обширная информация о коллективных упражнениях, культурно-массовых мероприятиях, конкурсах, спортивных соревнованиях и учебно-методических работах. Формами организации внеклассной воспитательной работы являются индивидуальная, групповая, коллективная и массовая формы работы и указаны направления их реализации.
***Ключевые слова:*** *внешкольное учреждение, внеклассные мероприятия, школа, учитель, диспут*

**Abstract.** In the scientific article, the essence of concepts outside the classroom and outside the school is initially specified. Further, extensive information was given about collective exercises, mass cultural events, contests, sports competitions and educational and methodological works. The forms of organization of extracurricular educational work are individual, group, collective and mass forms of work and the directions of their implementation are indicated.
***Keywords:*** *out-of-school institution, extracurricular activities, school, teacher, debate*

Məktəblilərin məktəbdənkənar (dərsdənkənar) fəaliyyəti Dövlət Təhsil Standartının yeniliklərindən biridir. Yeni Baza kurrikulumun layihəsinə əsasən, o, məktəb təhsilinin məcburi elementinə çevrilib və pedaqoji kollektivin qar-

şısında şagirdlər üçün inkişaf mühitinin təşkili vəzifəsini qoyur.

Yeni Dövlət Təhsil Standartı təhsil və tərbiyə arasındakı əlaqəni müəyyən edir: tərbiyə təhsilin missiyası, dəyəryönlü bir proses kimi qəbul edilir. O, bütün növ təhsil fəaliyyətini əhatə etməli və nüfuz etməlidir: akademik və məktəbdənkənar.

Dövlət Təhsil Standartına uyğun olaraq məktəbdənkənar fəaliyyətin əsas məqsədləri tələbələrin cəmiyyətdə həyat üçün zəruri olan sosial təcrübə əldə etmələri üçün şəraitin yaradılması və cəmiyyət tərəfindən qəbul edilmiş dəyər sisteminin formalaşdırılması, çoxşaxəli inkişaf üçün şəraitin yaradılması, hər bir şagirdin sosiallaşması, tələbələrin asudə vaxtlarında sosial və intellektual maraqlarının aktivləşdirilməsini təmin edən təhsil mühitinin yaradılması, sağlam, yaradıcı inkişaf edən, vətəndaş məsuliyyəti və hüquqi özünüdərki inkişaf etmiş, həyat üçün hazırlıqlı şəxsiyyətin yetişdirilməsi, sosial əhəmiyyətli praktik fəaliyyətlərə qadir olan yeni şərait, könüllü təşəbbüslərin həyata keçirilməsidir.

Məktəblilərin məktəbdənkənar fəaliyyətləri, təhsil müəssisəsinin əsas təhsil proqramına uyğun olaraq, təhsil və sosiallaşma, maraqların inkişafı və universal təhsil fəaliyyətinin formalaşdırılması vəzifələrini yerinə yetirən məktəblilərin bütün növ fəaliyyətlərinin məcmusudur.

Məktəbdənkənar fəaliyyətlər dövlət təhsil standartının tələblərini tam şəkildə həyata keçirməyə imkan verən məktəbdə təhsil prosesinin ayrılmaz hissəsidir. Tədris prosesinin bu komponentinin xüsusiyyətləri bunlardır: şagirdlərə onların inkişafına yönəlmiş geniş fəaliyyət növlərinin təmin edilməsi; eləcə də sinifdənkənar işlərin konkret məzmunla doldurulması prosesində təhsil müəssisəsinin müstəqilliyi.

Əsas ümumi təhsil üçün Dövlət Təhsil Standartının tələblərinə uyğun olaraq, fərdi inkişaf sahələrində (idman və istirahət, mənəvi-əxlaqi, sosial, ümumi intellektual, ümumi mədəni) məktəbdənkənar fəaliyyətlər təşkil olunur.

Məktəbdənkənar tədbirlərin məqsədləri:

Şagirdlərin şəxsiyyətinin inkişafı və tərbiyəsi üçün şərait yaratmaq, vətəndaş kimliyinin əsaslarının formalaşmasını təmin etmək: öz vətəninə aidiyyət və qürur hissi, xalqın tarixinə və mədəniyyətinə hörmət, uşağın tərbiyəsi. əxlaq, əsas sosial rolları, norma və qaydaları mənimsəmək.

Tələbələrin asudə vaxtlarında sosial və intellektual maraqlarının aktivləşdirilməsini, inkişaf etmiş vətəndaş məsuliyyətinə və hüquqi özünüdərkə malik, yeni şəraitdə həyata hazırlanmış, sosial əhəmiyyətli praktik fəaliyyətə qadir olan sağlam şəxsiyyətin inkişafını təmin edən təhsil mühitinin yaradılması .

Sinifdənkənar tədbirlərin məqsədləri

1. Şagirdlərin cəmiyyətlə sıx qarşılıqlı əlaqədə ictimai faydalı və asudə vaxtlarının səmərəli təşkili.

2. Şagirdlərin müxtəlif sinifdənkənar fəaliyyətlərə cəlb edilməsi.

3. Tələbələrin təhsildən asudə vaxtlarında məşğulluğunun təşkili.

4. Ümumi problemlərin həllində müəllimlər, həmyaşıdlar, valideynlər və böyük uşaqlarla əməkdaşlığın təşkili və həyata keçirilməsi bacarıqlarının inkişafı.

5. Sağlam həyat tərzinin formalaşdırılması üçün əsas sosial dəyərlərə (şəxs, ailə, Vətən, təbiət, sülh, bilik, əmək, mədəniyyət) müsbət münasibətin inkişafı.

Şagirdlərin dərslərdəki fəaliyyəti kimi sinifdənkənar fəaliyyətlər də əsas təhsil proqramının mənimsənilməsində nəticələr əldə etməyə yönəlib. Amma ilk növbədə şəxsi və metamövzu nəticələrinin əldə edilməsidir. Bu, həm də sinifdənkənar fəaliyyətlərin xüsusiyyətlərini müəyyənləşdirir, bu müddət ərzində şagird nəinki çox öyrənməli, həm də hərəkət etməyi, hiss etməyi, qərar qəbul etməyi və s. öyrənməlidir.

Bu tədris ilində proqramın məqsədi uşaqların sərbəst seçim, mənəvi-əxlaqi dəyərləri və mədəni ənənələri dərk etmələri əsasında öz maraqlarını ifadə etmələri və inkişaf etdirmələri üçün şərait yaratmaqdan ibarət idi.

Sinifdənkənar tədbirlərin təşkilinin məqsədləri:

1. Həyat seçimləri üçün mənəvi-əxlaqi təlimatların işlənib hazırlanması, böyüklərə və başqalarına hörmətin aşılanması.

2. Cəmiyyətlə ünsiyyət dairəsini genişləndirmək, öz müqəddəratını təyin etməyə kömək etmək, sosial biliklərə yiyələnmək, sosial reallığı və gündəlik həyatı ilkin dərk etmək, "özünü" tapmağa kömək etmək.

3. Şagirdlərin fərdi inkişafı, intellektin inkişafı.

4. Ümumi mədəni qabiliyyətlərin, estetik biliklərin inkişafı, yaradıcı fəaliyyətdə təcrübənin, yaradıcılıq qabiliyyətlərinin inkişafı.

5. Bədən tərbiyəsi prosesinin təkmilləşdirilməsi və sağlam həyat tərzinin və təhlükəsiz həyat tərzinin təbliği.

6. Ekoloji mədəniyyətin formalaşması.

Bütün tədbirlər kitabxana, muzey, Uşaq İncəsənət Mərkəzi, uşaq idman məktəbi, musiqi məktəbi ilə sıx əlaqədə keçirilir. Demək lazımdır ki, həyata keçirilən bütün tədbirlər yüksək səviyyədədir ki, bunu artıq sinifdənkənar işlərin nəticələri və təsirləri haqqında demək olar.

Orta məktəb üçün cəmiyyətin tərbiyənin məzmunu aşağıdakı komponentlərdən ibarətdir:

- öz torpağına, onun mədəniyyətinə və mənəvi ənənələrinə məhəbbət;
- insan həyatının, ailənin, vətəndaş cəmiyyətinin, çoxmillətli rus xalqının, bəşəriyyətin dəyərlərinin dərk edilməsi və dərk edilməsi;
- digər insanlara hörmət, konstruktiv dialoq aparmaq, qarşılıqlı anlaşmaya nail olmaq, ümumi nəticələrə nail olmaq üçün əməkdaşlıq etmək bacarığı.

2. Şəxsi nəticələr

- əxlaq normaları və dəyərlər sistemində oriyentasiya;
- ictimai münasibətlərin və qarşılıqlı əlaqənin xüsusiyyətlərində oriyentasiya, sosial və siyasi hadisələr arasında əlaqənin qurulması;
- şüur, həyatın bütün aspektləri ilə yüksək dəyərinin tanınması? təzahürlər; sağlam və təhlükəsiz həyat tərzinin əsasları haqqında biliklər.
- vətəndaş vətənpərvərlik, Vətənə məhəbbət, öz ölkəsi ilə fəxr hissi;
- tarixə, mədəniyyət və tarixi abidələrə hörmət;
- ləyaqət, başqalarına qarşı mehriban münasibət, hər hansı zorakılığa qarşı dözümsüzlük və onlara müqavimət göstərməyə hazır olmaq;
- ailə dəyərlərinə hörmət, təbiətə sevgi, sağlamlığın, özünün və başqalarının dəyərinin tanınması və s.

3. Ünsiyyətin nəticələri:

- əməkdaşlıqda müxtəlif mövqelərin əlaqələndirilməsi;
- öz fikrini və mövqeyini formalaşdırmaq və arqumentasiya etmək;
- öz nöqteyi-nəzərini arqumentasiya etmək, öz mövqeyini rəqiblərə qarşı düşmənçilik etmədən müdafiə etmək bacarığı;
- öz fəaliyyətini planlaşdırmaq və tənzimləmək üçün nitqdən adekvat istifadə;
- qrupda işləmək bacarığı - işgüzar əlaqələr qurmaq.

4. Koqnitiv nəticələr:

- layihələndirmə və tədqiqat fəaliyyətinin həyata keçirilməsi;
- müəllimin rəhbərliyi altında müşahidə və təcrübə;
- kitabxana resurslarından və internetdən istifadə etməklə təkmil informasiya axtarışının həyata keçirilməsi.

Sinifdənkənar işlərin təşkilinin prinsipləri və xüsusiyyətləri

1. Uğur və sosial əhəmiyyət prinsipi. Məktəbdənkənar fəaliyyətlərin təşkilatçılarının səyləri uşaqlarda uğur qazanmaq ehtiyacını inkişaf etdirməyə yönəldilmişdir. Uşağın əldə etdiyi nəticələrin təkcə şəxsi əhəmiyyətli deyil, həm də başqaları, xüsusən də onun sinif yoldaşları, məktəb kollektivinin üzvləri, təhsil müəssisəsinin yaxın sosial mühitinin nümayəndələri üçün dəyərli olması vacibdir.

2. Sosial nizam prinsipi.

3. Dürüstlük prinsipi.

4. Fərdi-fəaliyyət yanaşması prinsipi.

5. Uşaq mərkəzçiliyi prinsipi (şəxsiyyət mərkəzdədir).

6. Humanist oriyentasiya prinsipi. Uşaqların maraq və tələbatları maksimum dərəcədə nəzərə alınır, məktəblilərin fərdiliyinin və subyektivliyinin formalaşması və təzahürü prosesləri dəstəklənir.

7. Dəyişkənlik prinsipi. Sinifdənkənar fəaliyyətlərin təşkilinin geniş çeşidi (istiqamətləri), formaları və üsulları yetişdirilir, uşaqlara sərbəst seçim və könüllü iştirak üçün real imkanlar verir, müxtəlif fəaliyyət növlərində onların güclü və bacarıqlarını sınamaq, öz nişlərini axtarmaq ehtiyacları, istəkləri, maraqları təmin etmək.

8. Yaradıcılıq prinsipi. Məktəbdənkənar fəaliyyətlərdə müəllimlər uşaqların yaradıcılıq fəaliyyətinin inkişafını, fərdi və kollektiv həyat yaradıcılığı ilə məşğul olmaq istəyini dəstəkləyirlər.

R. Hüseynzadə və M. İsmayılova yazır ki, "Məktəb müəllimi sinifdənxaric işləri canlandır-

malı, onu yeni tələblər səviyyəsində qurmalıdır" ( 2, s. 416)

Məktəbdənkənar fəaliyyətin tərbiyəvi nəticələri və təsirləri

Dərsdənkənar fəaliyyətin tərbiyəvi nəticəsi uşağın bu və ya digər sinifdənkənar fəaliyyət növündə iştirakı ilə bilavasitə mənəvi-əxlaqi mənimsənilməsidir. Məktəblilərin məktəbdənkənar fəaliyyətinin təhsil nəticələri üç səviyyəyə bölünür:

Birinci səviyyə şagirdin sosial biliklərə yiyələnməsi, sosial reallıq və gündəlik həyat haqqında ilkin anlayışdır. Bu səviyyəyə çatmaq üçün şagird-müəllim qarşılıqlı əlaqəsi xüsusi əhəmiyyət kəsb edir;

İkinci səviyyə tələbənin təcrübə qazanması və cəmiyyətin əsas dəyərlərinə müsbət münasibət, bütövlükdə sosial reallığa dəyərə əsaslanan münasibətdir. Bu səviyyəyə çatmaq üçün sinif səviyyəsində məktəblilər arasında qarşılıqlı əlaqə xüsusi əhəmiyyət kəsb edir. Uşaq dostu mühitdə əldə edilmişdir.

Üçüncü səviyyə tələbənin müstəqil sosial fəaliyyət təcrübəsi qazanmasıdır. Bu səviyyəyə çatmaq üçün şagirdin məktəbdən kənarda sosial aktyorlarla qarşılıqlı əlaqəsi vacibdir. Sosial aktorlarla qarşılıqlı əlaqədə əldə edilir.

Məktəblilərin məktəbdənkənar fəaliyyətinin nəticələrinin üç səviyyəsinin lakonik formalaşdırılması:

1-ci səviyyə - şagird sosial həyatı bilir və başa düşür;

2-ci səviyyə – tələbə ictimai həyatı dəyərləndirir;

3-cü səviyyə – tələbə ictimai həyatda müstəqil fəaliyyət göstərir.

Məktəbdənkənar fəaliyyətin hər üç səviyyəsinə nail olmaq bu fəaliyyətin tərbiyəvi təsirlərinin (uşaqların tərbiyəsi və sosiallaşmasının təsirləri) ehtimalını artırır, xüsusən:

- məktəblilərin kommunikativ, etik, sosial və vətəndaş səriştəsinin formalaşması;
- uşaqlarda sosial-mədəni şəxsiyyətin formalaşması: ölkə (rus), etnik, mədəni, gender və s.

**Problemin aktuallığı.** Necə adlandırılmasından asılı olmayaraq sinifdənxaric işin və məktəbdənkənar iş formaları şagirdləri maraq dairəsinə görə bir yerə birləşdirib onların fəaliyyətini genişləndirməkdə, yaradıcılıq qabiliyyətlərini artırmaqda, müvafiq sahələr (elm, texnika, mədəniyyət və s.) üzrə bilik, bacarıq və vərdişlərini inkişaf etdirməkdə, eləcə də əmək-istehsalat kollektivləri və yazıçıların, rəssamların, artistlərin yaradıcılıq təşkilatları ilə məktəblilərin əlaqəyə girmələrinə şərait yaratmaqda əlverişli rol oynayır.

**Problemin yeniliyi.** Sinifdənxaric və məktəbdənkənar anlayışlar arasındakı fərqli və oxşar xüsusiyyətlər açıqlanmışdır. Məktəbdənkənar təhsil müəssisələrinin əsas fəaliyyət istiqamətləri: dərnək məşğələləri, mədəni-kütləvi tədbirlər, müsabiqələr, idman yarışları və onların keçirilməsi, təlimati-metodik işlər qruplaşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkilinin pedaqoji əsaslarının öyrənilməsi baxımından gənc müəllimlərə faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Təhməzova, F. Məktəbdənkənar işin pedaqoji əsasları//-Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutu, Azərbaycan məktəbi jurnalı, - 2016. №2. -s.96-98.
2. Hüseynzadə, R. Tərbiyə işi və onun metodikası. Dərs vəsaiti. / R. Hüseynzadə, M. İsmayılova- Bakı: - 2012.- 430 s.
3. Bədəlova, Ə.S. Təlim-tərbiyə. / Ə.S. Bədəlova.-Bakı: ADPU, -2015.-294s.
4. Soltanova N. M. Ümumtəhsil məktəbində sinifdənxaric tərbiyə işlərinin forma və metodları. //Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97 illiyinə həsr olunmuş tarix və coğrafiya fakültəsi, ümumi pedaqogika kafedrasının "Təhsil sahəsində innovativ texnologiyaların tətbiqi və perspektivlər" mövzusunda magistrantların elmi-praktik konfransının materialları. –Bakı: ADPU,-3 iyun,- 2020, - s.3-5


**E-mail:** nabatahmadova377@gmail.com

**Redaksiyaya daxil olub:** 18.09.2024.

# *VALİDEYNLƏRİNİ İTİRMİŞ VƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARLA İŞ*
# *РАБОТА С ДЕТЬМИ, ПОТЕРЯВШИХ РОДИТЕЛЕЙ И ЛИШЕННЫХ РОДИТЕЛЬСКОЙ ОПЕКИ*
# *WORK WITH CHILDREN WHO HAVE LOST THEIR PARENTS AND ARE DEPRIVED OF PARENTAL CARE*

*UOT 37.0*

***Xalidə Ağadadaş qızı Talıbova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetin Cəlilabad filialının baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0003-1264-0390*
*https://doi.org/10.69682/arti.2024.91(5).113-117*

## VALİDEYNLƏRİNİ İTİRMİŞ VƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARLA TƏRBİYƏ İŞİNİN MƏZMUNU

***Халида Агададаш гызы Талыбова***
*старший преподаватель Джалилабадского филиала*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

## СОДЕРЖАНИЕ ВОСПИТАТЕЛЬНОЙ РАБОТЫ С ДЕТЬМИ, ПОТЕРЯВШИХ РОДИТЕЛЕЙ И ЛИШЕННЫХ РОДИТЕЛЬСКОЙ ОПЕКИ

***Khalida Aghadadash Talibova***
*lecturer at the Jalilabad branch*
*of the Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

## THE CONTENT OF UPBRINGING WORK WITH CHILDREN WHO HAVE LOST THEIR PARENTS AND ARE DEPRIVED OF PARENTAL CARE

**Xülasə**. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların tərbiyəsində o vəzifələr prioritet sayılır ki, onlar uşağın sosial münasibətlərin bütün sahələrində (iqtisadi, siyasi, mənəvi) tam iştirakını təmin etsin. Bu vaxt tərbiyə olunanın cəmiyyətlə, dövlətlə və dünya ilə bütövlükdə münasibəti onda formalaşmış humanist hisslərin əsasında qurulmalıdır.

Məqalədə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların tərbiyəsi işinin məzmunu, mahiyyəti açıqlanmışdır.
***Açar sözlər**:` valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, cəmiyyət, yeniyetmə*

**Аннотация.** В воспитании детей, потерявших родителей и оставшихся без попечения родителей, приоритетными считаются те задачи, которые обеспечивают полное участие ребенка во всех сферах общественных отношений (экономических, политических, нравственных). Между тем отношения воспитываемого с обществом, государством и миром в целом должны строиться на основе сформировавшихся у него гуманистических чувств. В статье раскрыто содержание, сущность работы по воспитанию детей, потерявших родителей и оставшихся без попечения родителей.
***Ключевые слова:** дети, потерявшие родителей и лишенные родительской опеки, общество, подросток*

*Xalidə Ağadadaş qızı Talıbova*

**Abstract.** In the upbringing of children who have lost their parents and are left without parental care, priority is given to those tasks that ensure the full participation of the child in all spheres of public relations (economic, political, spiritual). Meanwhile, the relationship of the child with society, the state and the world as a whole should be based on the humanistic feelings formed in him. The article reveals the content and essence of the work on the upbringing of children who have lost their parents and are left without parental care.

***Keywords:*** *children who have lost their parents and deprived of parental care, society, teenager*

*2006-2007-ci illərdə işlədiyim Təhsil Problemləri İnstitutun Tərbiyə problemləri şöbəsində kimsəsiz və baxımsız uşaqların tərbiyəsi ilə bağlı tədqiqat aparırdım. Tədqiqatla bağlı yolum "Ümid yeri" Uşaq Sığınacağı və Realibitasiya Mərkəzinə düşdü. Qapının zəngini basdım, tərbiyəçi qadın qapını açdı. Özümü təqdim etdim və Nigar xanımla görüşmək istədiyimi bildirdim. Koridorda uşaqlar oynayırdılar. Tərbiyəçi qadın Nigar xanımın qonağı olduğunu və mənim başqa vaxt gəlməyimi xahiş etdi. Biz sağollaşıb ayrıldıq. Bir gündən sonra yenə ora getdim. İçəri daxil oldum və Nigar xanımın məni nə vaxt qəbul edəcəyini gözlədim. Bu vaxt 4-5 yaşlarında bir oğlan mənə yaxınlaşdı. "Mən səni tanıyıram", – dedi. Çox təəccübləndim. Mən burada heç kimi tanımırdım. Uşaq bir az da ürəklənərək mənə yaxınlaşdı: "Sənin adın Xalidədir. Sən bura gəlmişdin. Mən səni həmin gün gördüm və gəlişini gözləyirdim". Biz tanış olduq. O gündən sonra mən "Ümid Yeri"nə tez-tez getdim və hər dəfə o uşaq məni qapının ağzında gözləyirdi.*

*Mən niyə bu hadisəni xatırladım? Valideynləri tərəfindən küçəyə atılmış bu uşağın xoşbəxt olmağa, ata-ana nəvazişi və diqqəti altında böyüməyə haqqı var. Gəlin bu haqqı qoruyaq.*

Ölkəmizdə müxtəlif səbəblər üzündən dövlət himayəsinə götürülən uşaqların sayı artır, onların sosial inkişafı ailədə yox, uşaq evlərində və internat məktəblərində həyata keçirilir. Uşaq evində və ya internat məktəbdə təhsil alan gənc cəmiyyətin bərabərhüquqlu üzvü kimi müstəqil həyata hazırlaşmalı və öz həyat yolunda rastlaşdığı ən mürəkkəb sosial problemlərin həllinə qadir olmalıdır. Kimsəsiz və yetim uşaqlarla aparılan mövcud pedaqoji iş sistemi bu vəzifələrin həllinə imkan vermir.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla aparılan tərbiyə işi müxtəlif xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər aşağıdakı amillərlə şərtlənir:

a) böyüklərlə ünsiyyət zamanı

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşağın şəxsiyyət kimi formalaşmasını təhrif edən əsas faktor onu əhatə edən böyüklərlə qarşılıqlı münasibətin çətin yaranmasıdır. Böyüklərlə ünsiyyətin məzmun və forması uşaqların ancaq tədbirlərdə qrup halında görüşü zamanı müəyyənləşdirilir ki, bu da istənilən effekti vermir.

Böyüklərlə ünsiyyətin təcrübi işi inzibati formada baş verir. Bu da onları belə bir qənaətə gətirir ki, tədbirlərdə böyüklərin etimadını, qayğısını qazanmaq lazımdır. Belə hal uşağı böyüyün ona verdiyi qiymətdən asılılığına, yüksək emosionallığın formalaşmasına və ilk növbədə, müstəqilliyin və təşəbbüskarlığın boğulmasına gətirib çıxarır.

b) həmyaşıdlarla ünsiyyət zamanı

Böyüklərlə ünsiyyətin zəifliyi həmyaşıdlar arasında diqqətə və xeyirxahlığa xüsusi tələbat yaradır. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar yoldaşlıq, rəqabətin sosial rolunun müəyyənləşdirilməsində çətinlik çəkirlər. Uşaq evi şəraitində onlar daim çərçivə daxilində qrup şəraitində və digər əlaqə formalarından məhrum edilmiş olurlar.

c) emosional-iradi münasibət zamanı

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşağın emosional–iradi xüsusiyyətləri aşağıdakılarla səciyyələnir:

- əhval-ruhiyyənin aşağı səviyyəli fonu ilə;
- emosiyaların zəif uyğunluğu ilə;
- emosional-ekspressiv ünsiyyət vasitələrinin eyniliyi ilə;
- əhval-ruhiyyənin tez-tez dəyişməsinə meyilliliklə (canlanma, ağlamağa, qışqırığa; yüksək əhval-ruhiyyə isə qaşqabaqlığa və təcavüzkarlığa keçir);
- emosional təzahürlərin eyniliyi, stereotipliyi ilə;
- mənfi həyəcanların yumşalması və tez yaddan çıxmasına səbəb olan emosionallıqla;
- tərif və xoş münasibətə qeyri-bərabər münasibətlə;

- qorxuya, narahatlığa, həyəcana (təhlükəyə qarşı) yüksək meyilliliklə;
- müsbət emosiyaların yeni təzahürlərinin əsas istiqamətləndirilməməsilə;
- həddindən artıq impulsivliklə;
- digər adamın emosional vəziyyətinin başa düşülməməsilə.

*d) özünüdüşünmə zamanı*

Özünüdüşünmənin bütün aspektlərinin inkişafı müəyyən xüsusiyyətlərə malikdir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün situativ bir anla yaşamaq səciyyəvidir. Bu, təcrübənin inkarına gətirib çıxarır və bu vaxt artıq baş vermiş epizodlar həyat hadisəsinə çevrilmir, mənimsənilmir və şəxsi psixoloji təcrübəyə daxil olmur. Bu da özünüqiymətləndirmənin inkişafına mənfi təsir göstərir.

Uşaq evində olan çatışmazlıqlardan biri də cinsi tərbiyənin düzgün aparılmaması ilə bağlıdır.

Bu və ya digər sosial rolu mənimsəyərkən, uşaq müəyyən problem və çətinliklərlə rastlaşır. Bunları biz sosiallaşdırmanın çətinlikləri adlandırırıq. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosaillaşdırılması reduksiya ilə, sosiallaşdırmanın əsas mənbələrinin zəifliyi ilə əlaqəlidir ki, bunlara da aşağıdakıları şamil etmək olar:

a) Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərin, qohumların sosial təcrübəsini mənimsəməyə, onlara bənzəməyə imkanları yoxdur, ya da ki, bu təcrübə mənfi xarakter daşıyır;

b) uşaq evinin mövcud yaşayış rejimində sosial əlaqə formaları məhduddur, nəticədə uşaqlar sosial münasibətlərin bütün xüsusiyyətlərini mənimsəyə bilmir, uşaq evi şəraitində uşaqda xüsusi rol mövqeyi – cəmiyyətdə dəstək və tərif tapmayan kimsəsizlik mövqeyi yaranır;

c) Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşağın ilkin uşaq təcrübəsi onun amasızlıqla bağlı yaranan ruh düşkünlüyü ilə bağlı olur və onlarda “dünyaya etibar bazasını itirmiş” kimi yetim fenomeni formalaşır. Nəticədə belə uşaqlar aqressiv, şübhəli, müstəqil yaşayışa inamsız olurlar;

d) Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşağın özünüidarəetmə prosesi də çətinləşir və bu vaxt yüksək nəzarət tədricən daxili özününəzarətə keçir. Bu da uşaq evində uşaqların həyatının təşkili xüsusiyyəti ilə əlaqədardır. Yəni burada nəzarət funksiyası bütövlükdə tərbiyəçilərin əlindədir.

“Uşaq evindəki pedaqoji kollektivin əsas məqsədi müstəqil, yetkin şəxsiyyət formalaşdırmaqdan ibarətdir. Yəni söhbət daxili resurslara arxalanaraq öz həyat mövqeyini yaradıcı şəkildə reallaşdırmağa qadir olan şəxsiyyətin formalaşdırılmasından, uşağın, onun fərdiliyinin əsasını təşkil edən mühüm insani keyfiyyətlərin (intellektual, motivasion, emosional, iradi, təcrübi, ekzistensiyalıq, özünüidarə sahələri) inkişaf etdirilməsi və təkmilləşdirilməsindən gedir” [2, s.3].

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların tərbiyəsində o vəzifələr prioritet sayılır ki, onlar uşağın sosial münasibətlərin bütün sahələrində (iqtisadi, siyasi, mənəvi) tam iştirakını təmin etsin. Bu vaxt tərbiyə olunanın cəmiyyətlə, dövlətlə və dünya ilə bütövlükdə münasibəti onda formalaşmış humanist hisslərin əsasında qurulmalıdır. Bunlar, ilk növbədə, aşağıdakılardan ibarətdir:

1. *Sosial savadlılığın formalaşdırılması,* yəni siyasi, iqtisadi, hüquqi, psixoloji bilik və bacarıqlar kompleksinə yiyələnmə. Bu prosesdə uşağın sosial münasibətlər sisteminə adekvat olaraq qoşulması və sosial özünümüdafiə funksiyasının reallaşdırılmasının təmin edilməsi nəzərdə tutulur.

2. *Ailə başçısı hissinin tərbiyəsi*. Burada öz həyatını qurmaq üçün lazımi qabiliyyətlərin formalaşdırılması, ailənin ləyaqətli və kamil olması ilə yanaşı, şüurlu analıq və atalıq mövqeyi əsasında qurulması nəzərdə tutulur.

3. *Əmək fəaliyyətinə hazırlığın tərbiyəsi.* Burada tərbiyə olunanların müxtəlif qabiliyyətlərinin inkişaf etdirilməsi, onların peşə seçməyə hazırlanması nəzərdə tutulur. İqtisadi hazırlıq isə imkan verməlidir ki, hər kəs öz həyat planlarını müstəqil reallaşdıra bilsin.

4. *Şəxsiyyətdə rəqabətlilik qabiliyyətinin formalaşdırılması.* İnsanın müəyyən davranış yolları, bacarığı ilə cəmiyyətdə yüksək mövqe tutmağa qadir olması nəzərdə tutulur.

5. *Vətəndaşlıq tərbiyəsi*. Burada tərbiyə olunanlarda şüurlu vətəndaşlıq məsuliyyətinin, vətəndaşlıq hissinin formalaşdırılması, cəmiyyətin və dövlətin idarə olunmasında iştiraketmə qabiliyyətinin aşılanması nəzərdə tutulur.

6. *Mənəvi dəyərlərin və humanist mövqeyin formalaşdırılması*: insanlara kömək etməyə və digər əxlaqi münasibətlərə hazırolma tərbiyəsi.

7. *Sağlam həyat tərzinin tərbiyəsi*. Səmərəli qidalanmaq, bədən tərbiyəsi və idmanla daim məşğul olmaq, ailə münasibəti mədəniyyəti, ziyanlı vərdişlərə mənfi münasibət nəzərdə tutulur.

"Yeni şəraitdə uşaq evlərində uşaqlarla aparılan işin təkmilləşdirilməsi yollarının müəyyənləşdirilməsi əsasında tərbiyə prosesinin humanistləşdirilməsi durur və bu hal aşağıdakı ideyaların reallaşdırılmasını nəzərdə tutur:

1. Uşağın subyektiv tərbiyəsi ideyası onun maraq və tələbatlarının nəzərə alınmasını, özünüreallaşdırması üçün şəraitin yaradılmasını, potensial imkanlarının açılmasını, məşğulluğunun idarə edilməsində kəskin reqlamentdən kənara çıxılmamasını, pedaqoji qayğının uşağa verilən tələblərlə incə şəkildə uzlaşdırılmasını nəzərdə tutur. Sonuncu istiqaməti uşaq qayğının bir təzahürü kimi dərk etməlidir.

2. Ətraf aləmlə sosial əlaqələrin və münasibətlərin genişləndirilməsi ideyası sosial qarşılıqlı əlaqə dairəsinin zənginləşdirilməsini, müxtəlif sosial münasibətlərin inkişafını, bu sistemdə uşağın öz sosial rolunun müəyyənləşdirməsini, özünümüəyyənləşdirmə üçün şəraitin yaradılmasını nəzərdə tutur. Bütün bunlar uşağa imkan verir ki, onlar ətraf aləmlə müxtəlif münasibətlərə girsin və özünün mənliyini qorusun.

3. Sosial dözümlülük ideyası uşaqlarda rastlaşdığı həyati çətinliklərlə mübarizəyə hazırlığı, onları əhatə edən mənfi sosial təsirdən yaxa qurtarmağın yollarının axtarılması bacarığının aşılanmasını nəzərdə tutur" [3, s.168].

Uşağın sosiallaşdırılması amilini, uşaq evlərində və internat məktəblərdə tərbiyə fəaliyyətinin mexanizmini qarşılıqlı fəaliyyət təşkil edir. Qarşılıqlı əlaqənin ümumi əsasları, pedaqoji prosesdə iştirak edənlərin münasibətlərinin yeni yanaşmasında dialoq və həmrəylik öndə durur.

Dialoq partnyorların mövqeyinin bərabərliyini, əlaqədə olan adamların bir-birinə müsbət münasibətini, partnyorun olduğu kimi qəbul edilməsini, ona hörmət və etibarı, səmimi münasibəti də nəzərdə tutur. Bu da imkan verir ki, dialoq iştirakçıları eyni situasiya haqqında bir fikrə gəlsinlər.

Qarşılıqlı əlaqədə olan tərəflərin inkişafı üçün ən səmərəli yol əlaqənin həmrəylik növüdür. Bu vaxt hər iki tərəfin müsbət cəhətlərinə istinad edilir. Belə münasibətlər fəal, xeyirxah və demokratik olmaqla, bir-birinə müsbət təsir göstərir.

Pedaqoji prosesin iştirakçılarının həmrəyliyi fəaliyyətin məqsədlərinin birgə müəyyənləşdirilməsini, gələcək işlərin birgə planlaşdırılmasını, qüvvələrin, vasitələrin, əşyaların hər bir iştirakçının imkanlarına müvafiq bölüşdürülməsini, işin nəticəsinin birgə qiymətləndirilməsini, yeni məqsəd və vəzifələrin müəyyənləşdirilməsini nəzərdə tutur.

Həmrəylik münasibətlərinin qurulması tərbiyəçi tərəfindən bir sıra şərtlərin gözlənilməsini tələb edir. Qarşılıqlı əlaqənin nəticələri barədə məsuliyyət böyüklər və uşaqlar arasında bölüşdürülür. Bu vaxt uşağın üzərinə düşən məsuliyyət payı onun yaş və şəxsi imkanlarına müvafiq olmalıdır.

Uşağa göstərilən kömək məqsədli olmalıdır, müəyyən situasiyadakı çətinliklərin həllinə dair kömək həm də yeni vərdişlərin aşılanmasını istiqamətləndirir. Bu növ kömək uşaqda təşəbbüskarlığın inkişafına səbəb olur. O, yalnız mürəkkəb situasiyalarda kömək üçün müəllimə müraciət edir.

"Həmrəylik münasibətlərinin yaradılması tərbiyəçidə formalaşdırılmış professional-pedaqoji mövqedən asılıdır. Uşaqlarla qarşılıqlı əlaqə prosesində yaranan mənfi emosiyalar tərbiyəçi tərəfindən ört-basdır edilməməli, əksinə, onlar bunu peşəkar səviyyədə dərk etməli və müzakirəyə qoymalıdırlar. Bu məqsədlə xüsusi seminarlar, pedaqoji konsilium təşkil olunmalıdır" [4, s.135].

Tərbiyə olunanlar arasında tam və sağlam şəxsiyyətlərarası münasibətlər – şəxsiyyətin harmonik inkişafının və insanlarla münasibətdə qiymətli sosial təcrübənin əsas göstəricisidir. Belə qarşılıqlı münasibətlərin formalaşdırılmasına tərbiyə olunanların yaş dövrü, qohumluq əlaqələri, uşaq evində yaşayış müddəti, uşaqların şəxsi keyfiyyətləri, uşaq evinin strukturu, qrupların formalaşdırılması tərzi və digər faktorlar təsir edir.

Qruplarda və ümumiyyətlə, uşaq evlərində yeniyetmələrin qarşılıqlı münasibətlərinə müs-

bət təsir böyüklərin kiçik uşaqlarla birgə fəaliyyətinin təşkilindən asılıdır.

İnternat tipli müəssisələrdə müxtəlif yaşlı uşaqların qarşılıqlı əlaqəsi təbiidir. O, adətən, kortəbii şəkildə əmələ gəlir, uşaqların özləri və ya pedaqoqlar tərəfindən təşkil olunur.

Tərbiyəçilərin və uşaqların fəaliyyətinin təyinatından, xarakterindən və şəraitdən asılı olaraq onlar müxtəlif birləşmələrə cəlb oluna bilərlər. Uşaqların imkanlarının aşkarlanması və şəxsiyyətinin zəruri tərəflərinin inkişafı, onun ünsiyyət dairəsinin tədricən genişlənib zənginləşdirilməsi, o cümlədən müxtəlif sosial rolların mənimsənilməsi məqsədilə uşaqların müxtəlif prinsiplər üzrə formalaşdırılmış daimi və müvəqqəti birliklərə daxil olmaları üçün şərait yaradılmalıdır.

**Problemin aktuallığı.** Dövlət və cəmiyyət ailə və onun möhkəmlənməsinə, yetişən nəslin tərbiyəsində başlanğıc kimi ailənin roluna xüsusi əhəmiyyət verir. Hər bir uşağın tərbiyəsi, sağlam böyüməsi də ailədən, onun möhkəmliyindən asılıdır. Bu gün uşaqların tərbiyəsində ailənin rolu getdikcə artır: Ölkəmizdə müxtəlif səbəblər üzündən dövlət himayəsinə götürülən uşaqların sayı artır, onların sosial inkişafı ailədə yox, uşaq evlərində və internat məktəblərində həyata keçirilir.

**Problemin elmi yeniliyi.** Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların tərbiyəsində o vəzifələr prioritet sayılır ki, onlar uşağın sosial münasibətlərin bütün sahələrində (iqtisadi, siyasi, mənəvi) tam iştirakını təmin edir.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə qeyd olunan fikirlər ümumtəhsil. internat məktəblərdə və uşaq evlərində işləyən müəllimlər, valideynlər və geniş ictimaiyyət üçün aktualdır.

**Ədəbiyyat:**


1. Azərbaycanda Dövlət Uşaq müəssisələrində olan uşaqların vəziyyətinin təhlili. / - Bakı: YUNİSEF, - 2000. – 143 s.
2. Брутман, В.И. Проблемы социальной защиты сирот, детей, оставшихся без попечения родителей, и юных одиноких матерей. / В.И. Брутман, С.Н. Ениколоров. - М: Педагогика, - 2004, - 182 с.
3. Панкратова, М.Т. Инновации в работе специалистов учреждений социально-педагогической поддержки. / М.Т. Панкратова. -М: Педагогика, 2021. - 358 с.
4. Ковальчук, А.В. Педагогическая коррекция агрессивного поведения подростков. / А.В.Ковальчук, Н.Т.Рукавишникова. -Ярославль: Наука, - 2020. - 342 с.
5. http://www.childrenuk.co.uk/chaug/aug2000/social_pedagogues.htm
6. http//www.auditorium.ru/aud/conf/conf45/forum/gb.php?step=view


**E-mail**: xalidetalibova@mail.ru
**Redaksiyaya daxil olub**: 16.09.2024.

# *TƏHSİLİN İDARƏOLUNMASI MƏSƏLƏLƏRİ*
# *ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ*
# *ISSUES OF EDUCATION MANAGEMENT*

*UOT 371*

***Əsmət İdris qızı İsmayılxanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının dosenti,*
*https://orcid.org/0000-0002-1151-4440*
*https://doi.org/10.69682/arti.2024.91(5).118-122*

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏHSİLİN İDARƏ OLUNMASININ BƏZİ PROBLEMLƏRİ

***Асмет Идрис гызы Исмаилханова***
*доцент кафедры общей педагогики*
*Азербайджанского Государственного Педагогического Университета*

## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАТЕЛЬНЫМ ПРОЦЕССОМ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Asmet Idris Ismailkhanova***
*associate professor at the*
*chair of General pedagogy of*
*Azerbaijan State Pedagogical University*

## SOME PROBLEMS OF EDUCATION MANAGEMENT IN SECONDARY SCHOOLS

**Xülasə**. Məqalədə ümumtəhsil məktəblərində təhsilin idarə olunmasının mühüm problemlərindən bəhs edilir. Müəllif qeyd edir ki, dünya təhsil sisteminə inteqrasiya ərəfəsində Azərbaycan təhsilinin idarə olunmasında çox mühüm problemlər meydana çıxmışdır ki, bu problemlər çətin olsa da tez bir zamanda həll olunmalıdır. Bunların bir qismi ənənəvi təhsil vaxtından yığılaraq qalmış, digər problemlər isə Təhsil İslahatı Proqramının qoyduğu tələblər sahəsində yaranmışdır.

Təhsilimizin bu günkü məzmunu istənilən peşələrdə insanların dünyagörüşünün düzgün formalaşmasına ciddi maneə törədir, onların savadlı mütəxəssis kimi yetişməsini tamamilə məhdudlaşdırır. Ənənəvi təhsildən donub qalan təhsil formaları, təhsil strukturları, idrakla real həyat, attestat və diplomla biliklərin real vəziyyəti, elmi-pedaqoji fəaliyyətdə hökmran olan mühafizəkarlıq qarşıdurma yaratmışdır. Müəllifin fikrincə, tarixi keçmişimizə sağlam təfəkkürlə nəzər salmalı, inkişaf etmiş Avropa ölkələrinin təhsil sisteminin idarə edilməsindəki mühüm cəhətləri dərindən öyrənməli və təhsilimizin yeniləşməsində idarəetmə sahəsində daha səmərəli strukturları müəyyən etməliyik. Ölkəmizin təhsil sisteminin idarə olunması strukturu ümumbəşəri dəyərlərə, milli zəminə, türk dünyasından və islam dinindən gələn mənəvi-əxlaqi keyfiyyətlərə əsaslanmalıdır.

***Açar sözlər***: *inteqrasiya, Təhsil İslahatı Proqramı, mühafizəkarlıq, ümumbəşəri dəyərlər, demokratiya, inzibati amirlik, lisey, gimnaziya, çoxvariantlılıq*

**Аннотация.** В статье рассматриваются важные проблемы управления образовательным процессом в общеобразовательных школах. Автор отмечает, что накануне интеграции в мировую образовательную систему в управлении образовательным процессом в Азербайджане возникли очень важные проблемы, которые хоть и сложны, но должны быть решены в скорейшем времени. Некоторые из них накопились с периода традиционного образования, в то время как другие возникли в результате требований Государственной программы реформы образования.

Сегодняшнее содержание азербайджанского образования серьёзно препятствует правильному формированию мировоззрения людей любых профессий, полностью ограничивает их развитие как специалистов. Формы образования, оставшиеся в наследство от традиционного образования, образовательные структуры, разница между познанием и реальной жизнью, аттестатами и дипломами и реальным состоянием знаний, консерватизм, преобладающий в научно-педагогической деятельности, создали конфликтную ситуацию.

По мнению автора, мы должны смотреть на своё историческое прошлое со здравым мышлением, изучить важные аспекты управления образовательной системой в развитых европейских странах, определить более эффективные структуры в области управления для обновления нашего образования.

Структура управления системой образования Азербайджана должна основываться на общечеловеческих и национальных ценностях, духовно-нравственных качествах тюркского мира и ислама.

***Ключевые слова***: *интеграция, Государственная программа реформы образования, консерватизм, общечеловеческие ценности, демократия, административное управление, лицей, гимназия, многовариантность.*

**Abstract.** The article addresses significant issues pertaining to the administration of educational process in high schools. Author highlights that, as Azerbaijan prepares to integrate into the global education system, significant challenges have emerged in the administration of the educational process. These issues, though complex, require prompt resolution. Some of these issues have been accumulating since the period of traditional education, while others have emerged as a consequence of the requirements set out in the State Education Reform Programme.

The current content of the Azerbaijani education system presents significant obstacles to the development of a global perspective among individuals from all professions, effectively limiting their potential for professional growth and development. The forms of education inherited from traditional education, the structure of the educational system, the distinction between theoretical knowledge and practical reality, the significance of certificates and diplomas, and the actual state of knowledge have created a situation of conflict.

Author believes that it is necessary to ensure a critical examination of our historical past, to investigate the salient aspects of the administration of the existing educational system in developed European countries, and to identify more effective structures in this field for the renewal of our education system.

The administration of Azerbaijan's education system should be based on universal and national values, the spiritual and moral qualities of the Turkic world and Islam.

***Keywords:*** *integration, State Program of Education Reforms, conservatism, universal values, democracy, administration, lyceum, gymnasium, multivariate.*

Dünya təhsil sisteminə inteqrasiya ərəfəsində Azərbaycan təhsilinin idarə olunmasında çox mühüm problemlər meydana çıxmışdır ki, bu problemlər çətin olsa da tez bir zamanda həll olunmalıdır. Bunların bir qismi ənənəvi təhsil vaxtından yığılaraq qalmış, digər problemlər isə Təhsil İslahatı Proqramının qoyduğu tələblər sahəsində yaranmışdır.

Prof. M. İsmixanov "Məktəbin idarə edilməsi" adlı dərs vəsaitində qeyd edir ki, "İdarəetmədə əsas problem təhsilin demokratik idarə olunmasıdır. Uzun müddət unudulan demokratiya indi bir zəruriyyət kimi meydana çıxmışdır. Ona görə ki, təhsilimizi idarə edən pedaqoji kadrların yol verdikləri əsaslı nöqsanların kökü ümumtəhsil müəssisələrindən başlanmışdır. Bunun da əsas səbəbi ondan ibarətdir ki, bu kadrlar demokratiya ruhunda tərbiyə olunmamışlar, bunun üçün ümumtəhsil müəssisələrində onlara heç bir şərait yaradılmamışdır". (2. s. 135)

Təhsilimizin bu günkü məzmunu istənilən peşələrdə insanların dünyagörüşünün düzgün formalaşmasına ciddi maneə törədir, onların savadlı mütəxəssis kimi yetişməsini tamamilə məhdudlaşdırır. Ənənəvi təhsildən donub qalan təhsil formaları, təhsil strukturları, idrakla real həyat, attestat və diplomla biliklərin real vəziyyəti, elmi-pedaqoji fəaliyyətdə hökmran olan mühafizəkarlıq qarşıdurma yaratmışdır. Müəllim, tələbə, şagird, valideynlər və idarəetmə orqanlarının işçilərinin cavabdehlik və məsuliyyət dairəsi aydınlaşdırılmamış qalmışdır. Əməyə düzgün qiymət verilməsinin mexanizmi hələ də yaradılmamışdır. Ölkəmizdə təhsil sisteminin məzmununda milli xüsusiyyətlərimiz yetərincə nəzərə alınmamış və bu işlərin elmi-pedaqoji strategiyasının işlənilməsi isə hələ də ləngiməkdədir.

Azərbaycan təhsilinin təşkilində və idarə edilməsində demokratikləşmənin həyata keçirilməsi tədbirləri səthi xarakter daşımış, əsasən inzibati amirlik metodu üstünlük təşkil etmişdir.

Bütün bu çatışmazlıqları aradan qaldırmaq üçün nə etmək lazımdır sualının bir cavabı vardır: tarixi keçmişimizə sağlam təfəkkürlə nəzər salmalı, inkişaf etmiş Avropa ölkələrinin təhsil sisteminin idarə edilməsindəki mühüm cəhətləri dərindən öyrənməli və təhsilimizin yeniləşməsində idarəetmə sahəsində daha səmərəli strukturları müəyyən etməliyik. Ölkəmizin təhsil sisteminin idarə olunması strukturu ümumbəşəri dəyərlərə, milli zəminə, türk dünyasından və islam dinindən gələn mənəvi-əxlaqi keyfiyyətlərə əsaslanaraq inkişaf etməlidir.

Prof. A.O. Mehrabov yazırdı:, "Təhsilimizin idarə olunmasını total eynilikdən qurtarmaq və yeniliyin bütün istiqamətlərinə diqqəti artırmaq lazımdır. Müasir şəraiti nəzərə alaraq təhsilin idarə olunmasının bir neçə variantından istifadə olunmalıdır. Təəssüflər olsun ki, ümumtəhsil müəssisələrinin rəhbərlərindən bəziləri müasirliyi nəzərə almır, köhnə idarəçilik üsullarından əl çəkmir, məktəbi köhnə üsulla idarə edirlər. Bu da o deməkdir ki, yenilik axtarmağa, köhnəlmiş sistemi dəyişməyə cəsarəti çatmır" (3. s. 3-10).

Lakin bir qrup rəhbərlər də vardır ki, onlar köhnə iş üslubunu dəyişməyə, məktəbin idarə edilməsində öz fikirlərini, ideyalarını həyata keçirməyə can atırlar. Bu sahədə mütəxəssislərlə aparılan müsahibələrə, söhbətlərə, verilən təkliflərə nəzər salsaq görərik ki, təhsilin idarə olunmasında maraqlı mülahizələr, fikirlər meydana çıxır.

Bir qrup fikir söyləyənlər bildirirlər ki, təhsil sistemində totalitar quruluş dağıdılmalı, sovet təhsil sisteminin bütün idarəetmə zənciri sındırılmalıdır. Onların fikrincə idarəetmədə tamamilə sərbəstlik olmalıdır.

İkinci qrup mütəxəssislər idarəetməni ictimai-dövlət idarəetmə ilə əvəz etməyin tərəfindədirlər. Onlar məktəb şuralarının işinə daha çox əhəmiyyət verərək məktəbin qlobal problemlərinin həllində məktəb şurasına daha çox səlahiyyət verilməsini israrla qeyd edirlər.

Digər bir qrupun fikrinə görə idarəetmə təhsilin məzmunundan irəli gəldiyinə görə ilk öncə təhsilin məzmunu yenilənməlidir, daha sonra təhsilin idarə edilməsi haqqında fikir söyləmək məqsədəuyğundur.

Bu qrupa daxil olanlar onu da qeyd edirlər ki, ilk növbədə dərsliklər, dərs vəsaitləri, tədris planları və proqramları yenilənməlidir. Ayrı-ayrı fənlər üzrə milli və regional xüsusiyyətlər nəzərə alınmalıdır.

Digər qrupun nümayəndələri məktəb rəhbərlərini demokratik ruhlu mütəxəssislərdən seçməyə üstünlük verirlər. Onların fikrincə əgər məktəb rəhbəri demokratik fikirli insandırsa və məktəbin idarəedilməsinin bir qismini şagirdlərə, şagird özünüidarə orqanına tapşırarsa, belə olan təqdirdə pedaqoji kollektivə kənardan məsləhətlər və göstərişlər vermək qalar. Belə şəraitdə məktəb rəhbərləri və pedaqoji kollektiv üçün təhsilin keyfiyyətinin yüksəldilməsinə diqqət yetirməyə böyük imkanlar yaranar.

Fikir söyləyənlərin hər birinin öz məntiqi açıqlaması olduğundan bu cür fikirlərdəki üstünlükləri nəzərə almaq vacibdir və onlardan yaradıcı şəkildə istifadə etmək lazımdır.

Əsas mühüm məsələ demokratik idarəetmədə ümumtəhsil müəssisəsinin tipinin dəyişdirilməsidir. Sovetlər birliyi dağıldıqdan indiyə qədər bütün ümumtəhsil müəssisələri bir-birinin bənzəri olan təhsil proqramları, planları, dərslik və dərs vəsaitləri ilə işləməyə davam etmişlər. Çünki Azərbaycan Respublikası Sovetlər İttifaqının tərkibində olarkən vahid təhsil sistemini olmuşdur və bu sistem hələ də qalmaqdadır. İttifaqın dağılmasından sonra müstəqillik qazanan ölkəmizdə ümumtəhsil məktəblərinin tipinin dəyişdirilməsi üçün daha böyük imkanlar yaranmışdır. Ölkəmizin ümumtəhsil məktəbləri nəzdində peşələr üzrə siniflərin ixtisaslaşması, lisey, müəllif məktəbi, gimnaziya mərkəz, bağça-məktəb, məktəb-ali məktəb tipli birliklər, fənlər üzrə dərinləşdirilmiş proqramla işləyən sinifləri olan məktəblər yaradılmışdır.

Bəs demokratik idarəetmə sistemi deyəndə nələr nəzərdə tutulur? Bu sistemə vahid resept vermək olduqca çətindir. Fikrimizcə, rəhbərlik-pedaqoji kollektiv, rəhbərlik-ictimai təşkilatlar, rəhbərlik-şagirdlər, müəllimlər-valideynlər, müəllimlər-şagirdlər sisteminə daha çox diqqət yetirilməlidir. Ümumtəhsil müəssisələrinin demokratik idarə edilməsində daha hansı məsələlər öz əksini tapmalıdır? Buna aşağıdakıları göstərmək olar:

- maliyyə müstəqilliyi və özünü maliyyələşdirilmə inkişaf etdirilməli;
- idarəetmə sahəsində müəllim, şagird, valideyn, ictimaiyyət nümayəndələri praktiki və psixoloji cəhətdən hazırlanmalı;
- ümumtəhsil müəssisələrinin rəhbərlərinin seçilməsi aşkarlıq şəraitində təşkil edilməli;
- qəbul edilmiş bütün qərarlar kollegial şəkildə həyata keçirilməlidir.

Ümumtəhsil müəssisələrinin demokratik idarəetmə fəaliyyətinin əsas vasitələrindən biri optimallaşdırmadır ki, bunun üçün aşağıdakı optimal variantlar əsas götürülməlidir:

- təhsil meyarları aydınlaşdırılmalı;
- bir neçə optimal variant seçilməli (yəni, çoxvariantlılıq);
- konkret şərait nəzərə alınmalıdır.

Demokratik idarəetmədə bir çox funksiyalar müəllimlərin, şagirdlərin və ictimai təşkilatların ixtiyarına verilir və əməyin elmi təşkili daima diqqətdə saxlanılır.

Təhsil müəssisələrinin idarəetmə orqanlarının təyin edilməsindənsə seçilməsinə üstünlük verilir. Burada ümumtəhsil müəssisəsi şurasının fəaliyyəti əsas götürülür və şurada şagirdlərin maraqlarının öyrənilməsi, məktəbdaxili qaydaların idarə edilməsi, kadrlarla aparılan işlər, ictimai rəyin öyrənilməsi, müəssisənin maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə komissiyalar təşkil edilir. Təşkil edilmiş bu komissiyaların hər biri onlara tapşırılmış sahələr üzrə işlər aparırlar. Ümumtəhsil müəssisələrinin demokratikləşdirilməsi dedikdə əsasən müəssisənin pedaqoji kollektivi ilə aparılan işlər, onlarının nüfuzunun artırılması və əməyinin qiymətləndirilməsi tədbirləri nəzərdə tutulur.

Müəllimlər arasında attestasiya keçirilərkən formallığın aradan götürülməsi əsasən diqqətdə saxlanılmalı, bunun üçün əməli tədbirlər həyata keçirilməlidir.

Ümumtəhsil müəssisələrinin demokratik idarə olunması məktəbdaxili idarəetmənin demokratik əsaslarla təşkil olunmasını tələb edir.

Şagirdlərin təlim-tərbiyəsinin demokratik əsaslarla yenidən qurulması müəssisənin ən vacib vəzifəsidir.

Eyni zamanda demokratiya ümumtəhsil müəssisələrinə rəhbərlikdə durğunluğu, mühafizəkarlığı, ətaləti, yaxud sosial həyatın, iqtisadiyyatın inkişafını, siyasi mövqeyi, tərəqqini ləngidən bütün əngəllərin aradan götürülməsi tələbini irəli sürür.

İdarəetmənin demokratikləşdirilməsini məktəb rəhbərliyi və müəllim-tərbiyəçi, valideyn və şagird arasında demokratik münasibətlərin, əlaqələrin inkişafı kimi də dəyərləndirmək olar. Bu proses yaxın məqsəddir.

İdarəetmənin demokratikləşdirilməsinin uzaq məqsədi isə müasir şəraitdə şagirdlərin təhsil-tərbiyəsi və inkişafında müsbət nəticələrin alınmasına imkan yaradan optimal pedaqoji prosesin təşkili prosesidir.

Təhsilin demokratik idarə edilməsində kollegiallıq və təşkilatçılıq vəhdət təşkil etməlidir.

Kollegial idarəetmə dedikdə buraya Məktəbin pedaqoji Şurası, Məktəb Şurası, Məktəb konfransı, metodbirləşmələr, gənclər təşkilatları, direktoryanı müşavirə, müəllimlərin ictimai təşkilatları, eyni zamanda valideyn komitəsinin və ictimaiyyətin nümayəndələri aiddir.

Bildiyimiz kimi ictimai özünüidarə orqanları ümumtəhsil müəssisəsinin təlim-tərbiyə prosesində, metodiki işlərdə, elmi-tədqiqat işində, iqtisadi, kommersiya, maliyyə-təsərrüfat və kadr fəaliyyəti üzrə əlverişli təkliflər verərək idarəçilikdə yaxından iştirak edirlər. Məktəb Şurası ictimai özünüidarə orqanı olmaqla öz işlərini Təhsil Nazirliyinin əsasnaməsi üzərində qurur və müəssisənin yığıncağı tərəfindən yaradılaraq fəaliyyət göstərir.

Məktəbdə fəaliyyət göstərən Pedaqoji Şura məktəbi, təlim-tərbiyə prosesini inkişaf etdirməklə yanaşı, həm müəllimlərin, həm tərbiyəçilərin peşə ustalığını yüksəltmək məqsədilə təşkil edilir və öz işini Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnaməyə uyğun olaraq qurur. Məktəbin idarə edilməsində pedaqoji Şuranın fəaliyyəti böyükdür. Belə ki, təlim-tərbiyənin keyfiyyətini artırmaq, qabaqcıl pedaqoji təcrübənin nailiyyətlərini tətbiq etmək, məktəbin iş planlarını və proqramlarını müzakirə edərək təsdiq etmək, pedaqoji kadrların hesabatlarını dinləyib müzakirə etmək kimi məsələləri pedaqoji Şura həyata keçirir. Pedaqoji Şura müəllimlərin, şagirdlərin özünüidarə orqanlarının fəaliyyətini izləyir, mövcud qlobal problemlərin həll olunması üçün məktəb şurasına göstərişlər verir.

Məktəbin idarə olunmasında demokratikləşdirmə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsində istər müəllimlərin, istər şagirdlər

və onların valideynlərinin, istərsə də ictimaiyyətin fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınmasında özünü göstərir. Müasir dövrdə ümumtəhsil müəssisələrinin müstəqilliyinin artması çox böyük əhəmiyyət daşıyır. Bu da təhsilin keyfiyyətinin yüksəlməsinə birbaşa təsir göstərir.

Ümumtəhsil müəssisələrinin pedaqoji kollektivi qarşısında dayanan məqsəd və vəzifələr, onların həyata keçirilməsi yolları daha ardıcıl inkişaf konsepsiyasında öz əksini tapmalıdır. Bu konsepsiyanın hazırlanması pedaqoji kollektivin bütün üzvlərinin, təlim vasitələrinin təkmilləşdirilməsini, müəssisənin qarşısında duran əsas strateji məqsədin inkişaf etdirilməsini təmin edəcək razılaşdırılan və tənzimlənən fəaliyyət proqramı olacaqdır.

**Problemin aktuallığı.** Problemin aktuallığı ondan ibarətdir ki, təhsilimizin bu günkü məzmunu istənilən peşələrdə insanların dünyagörüşünün düzgün formalaşmasına ciddi maneə törədir, onların savadlı mütəxəssis kimi yetişməsini tamamilə məhdudlaşdırır. Əsas mühüm məsələ demokratik idarəetmədə ümumtəhsil müəssisəsinin tipinin dəyişdirilməsidir. Təhsil müəssisələrinin idarəetmə orqanlarının təyin edilməsindənsə seçilməsinə üstünlük verilməlidir.

**Problemin elmi yeniliyi.** Müstəqillik qazanan ölkəmizdə ümumtəhsil məktəblərinin tipinin dəyişdirilməsi üçün daha böyük imkanlar yaranmışdır. Ölkəmizin ümumtəhsil məktəbləri nəzdində peşələr üzrə siniflərin ixtisaslaşması, lisey, müəllif məktəbi, gimnaziya mərkəz, bağça-məktəb, məktəb-ali məktəb tipli birliklər, fənlər üzrə dərinləşdirilmiş proqramla işləyən sinifləri olan məktəblər yaradılmalıdır.

**Problemin praktik əhəmiyyəti**. Müasir dövrdə ümumtəhsil müəssisələrinin müstəqilliyinin artması çox böyük əhəmiyyət daşıyır. Bu da təhsilin keyfiyyətinin yüksəlməsinə birbaşa təsir göstərir. Bu məqalə məktəbin pedaqoji kollektivinin demokratik idarəetmədə daha yaxından və fəal iştirak etməsinə zəmin yaradacaqdır.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004-cü illər). I kitab. -Bakı: Çaşıoğlu, -2005, -254 s.
2. İsmixanov, M.A. Məktəbin idarə edilməsi. Dərs vəsaiti. / M.A. İsmixanov, R.Ə. Bəxtiyarova. -Bakı: 2012. -235 s.
3. Mehrabov A.O. Təhsildə səriştəli yanaşma: mahiyyəti və əsas xüsusiyyətləri. Azərbaycan məktəbi. -Bakı, 2007, №1, -112 s.

**E-mail:** a.ismayilxanova@gmail.com
**Redaksiyaya daxil olub:** 23.09.2024

## *AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА*
## *METHODOLOGY OF TEACHING THE AZERBAIJANI LANGUAGE*

*UOT 372.8*

***Maya Rəhim qızı Qasımova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/ 0000-0001-9116-4331*
*https://doi.org/10.69682/arti.2024.91(5).123-128*

# ŞAGİRDLƏRİN ORFOEPİK VƏ ORFOQRAFİK VƏRDİŞLƏRİNİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN TƏŞKİLİNDƏ I SİNİF AZƏRBAYCAN DİLİ DƏRSLİYİNİN SON NƏŞRİNİN İMKANLARI

***Мая Рагим гызы Касумова***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# ВОЗМОЖНОСТИ ПОСЛЕДНЕГО ИЗДАНИЯ УЧЕБНИКА АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА I КЛАССА В ОРГАНИЗАЦИИ РАБОТЫ ПО ФОРМИРОВАНИЮ ОРФОЭПИЧЕСКИХ И ОРФОГРАФИЧЕСКИХ НАВЫКОВ УЧАЩИХСЯ

***Maya Rahim Gasimova***
*associate professor at the Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# POTENTIAL OF THE LATEST EDITION OF THE 1ST GRADE AZERBAIJANI LANGUAGE TEXTBOOK IN ORGANIZING WORK ON DEVELOPING PUPILS' ORTHOEPIC AND ORTHOGRAPHIC SKILLS

**Xülasə.** Məqalədə ibtidai sinif şagirdlərinin orfoepik-orfoqrafik vərdişlərinin formalaşdırlması baxımından son nəşr 1-ci sinif Azərbaycan dili dərsliyinin imkanları təhlil olunur. Qeyd olunur ki, müasir dövrdə ana dilinin tədrisi qarşıya şagirdlərdə bir sıra nitq, linqvistik və kommunikativ kompetensiyaların formalaşdırılmasını məqsəd qoyur. Bu kompetensiyalar ünsiyyət prosesində digər normalarla yanaşı, orfoepik-orfoqrafik normaların gözlənilməsini də tələb edir. Bu səbəbdən, təhsilin ilk pillələrindən başlayaraq, şagirdlərin orfoepik-orfoqrafik vərdişlərinin formalaşdırılmasının zəruriliyi vurğulanır. Məqalədə problem baxımından 1-ci sinif dərsliyinin imkanları araşdırılmaqla yanaşı, bu sahədə ibtidai sinif müəllimlərinə kömək məqsədilə konkret iş növləri təklif olunur.
***Açar sözlər:*** *ibtidai sinif şagirdləri, 1-ci sinif Azərbaycan dili dərsliyi, ədəbi dil normaları, orfoepik bacarıqlar, orfoqrafik bacarıqlar.*

**Аннотация.** В статье анализируются возможности последнего издания учебника Азербайджанского языка 1 класса с точки зрения формирования орфоэпико-орфографических навыков учащихся начальных классов. Отмечается, что обучение родному языку в современную эпоху ставит своей целью формирование у учащихся ряда речевых, языковых и коммуникативных компетенций. Эти компетенции требуют соблюдения орфоэпико-орфографических норм, наряду с другими нормами в процессе общения. Поэтому, подчеркивается необходимость формирования орфоэпико-орфографических навыков учащихся начиная с первых ступеней образования. В статье рассматриваются возможности учебника 1 класса с точки зрения проблемы, а также в помощь учителям начальных классов предлагаются конкретные виды работ в этой области.
***Ключевые слова:*** *ученики начальных классов, учебник Азербайджанского языка 1 класса, нормы литературного языка, орфоэпические навыки, орфографические навыки.*

**Abstract.** The article analyzes the possibilities of the latest edition of the textbook of the Azerbaijani language of the 1st grade in terms of the formation of orthoepic-spelling skills of primary school students. It is noted that teaching a native language in the modern era aims to form a number of students' speech, linguistic and communicative competencies. These competencies require compliance with orthoepic-orthographic norms, along with other norms in the communication process. Therefore, starting from the first stages of education, the need for the formation of students' orthoepic-spelling skills is emphasized. The article examines the possibilities of a grade 1 textbook from the point of view of the problem, and also offers specific types of work to help primary school teachers in this area.

***Keywords:*** *primary school pupils, 1st grade Azerbaijani language textbook, literary language norms, orthoepic skills, orthographic skills.*

Bu gün ana dilinin tədrisi şagirdlərdə bir sıra nitq, linqvistik və kommunikativ kompetensiyaların formalaşdırılmasını qarşıya məqsəd qoyur. Bu kompetensiyalar şagirdlərdə dilə şüurlu münasibətin tərbiyə olunmasını və ünsiyyət prosesində fonetik, leksik, **orfoqrafik, orfoepik**, morfoloji və sintaktik cəhətdən düzgün nitqin nümayiş etdirilməsini özündə ehtiva edir. Ana dili üzrə fənn kurikulumunda şagirdlərin ibtidai təhsil boyunca əldə edəcəyi orfoepik və orfoqrafik bacarıqlar bütün məzmun xətləri üzrə şaquli inteqrasiyada verilən alt standartlarda ifadəsini tapmışdır.

Tələffüzdə orfoepik, yazıda orfoqrafik normaların gözlənilməsinin böyük ictimai əhəmiyyəti vardır. Bu, eyni sözün müxtəlif formalarda tələffüz və yazılışının qarşısını alır. Dil vasitələrinin vahid, düzgün tələffüz və yazılışı ifadə olunan fikrin asan və tez anlaşılmasına, insanların bir-birini düzgün başa düşməsinə imkan verir.

Şagirdlərdə oxu və danışıq zamanı ədəbi dilin tələffüz normalarını gözləmək qabiliyyəti birdən-birə və özbaşına yaranmır. Dilin bu sahəsi ilə bağlı bacarıq və vərdişlərin formalaşdırılması üzrə işlər, hətta uşaq bağçasından başlayaraq böyük səbir və təmkinlə ardıcıl şəkildə aparılır. Hələ məktəbəqədər dövrdən uşaqlara səslə hərfin fərqi izah olunur. İbtidai sinfə qədəm qoymaqla şagirdlər artıq nitqin digər növünə – yazılı nitqə yiyələnməyə başlayırlar. Bununla da onlar şifahi nitqlə yazılı nitqin hər zaman üst-üstə düşmədiyini, dilimizdəki bütün sözlərin səs və hərf tərkibinin eyni olmadığını, bütün səslərin yazıda hər zaman uyğun hərflə işarə edilmədiyini dərk edirlər. Dərs prosesində müəllim, məqamı gəldikcə, dialekt və adi danışıq tələffüzü ilə orfoepik tələffüzün, sözün orfoepik tələffüzü ilə düzgün yazılışının tutuşdurulmasını təşkil etməlidir. Belə ki, davamlı şəkildə aparılan müqayisə nəticəsində şagirdlər tədricən danışıq, oxu və yazıdakı qüsurlarını aradan qaldırır, orfoepik-orfoqrafik vərdişlərə yiyələnirlər.

Orfoepik vərdişlərin formalaşdırılması ilə bağlı aparılan işlər şagirdlərdə düzgün orfoqrafik vərdişlərin inkişafına da güclü təsir edir. Məlumdur ki, yazıda baş verən orfoqrafik səhvlərin əsas səbəblərindən biri dialekt və şivələrdən qaynaqlanan qüsurlu tələffüzün yazıya köçürülməsidir (*aton, qeyidecem, öysürür, hancarı, bileysənmi, ürdək, nənön* və s.). Şagirdlərə orfoepik tələffüzün öyrədilməsi bu tipli orfoqrafik səhvlərin aradan qaldırılmasına da səbəb olur.

Şagirdlərin savadlı yazı və düzgün tələffüz vərdişlərinə yiyələnməsi fonetik bilikləri mənimsəmə səviyyələrindən də əhəmiyyətli dərəcədə asılıdır. Belə ki, insanlar arasında ünsiyyət vasitəsi olan dil danışıq səsləri vasitəsilə təzahür edir. İbtidai məktəbdə şagirdlərə danışıq səsləri ilə bağlı müvafiq bilik və bacarıqların aşılanmasının yekun məqsədi qrafika, orfoepiya, orfoqrafiya üzrə vərdişlərin inkişaf etdirilməsindən, dilin fonetik normalarına dair elmi-praktik bacarıqların yaradılmasından ibarətdir. I sinif Azərbaycan dili fənni üzrə müəllimlər üçün metodik vəsaitin təhlili göstərir ki artıq bu sinifdə şagirdlərdə:

4.1.1. Sait və samit səsləri fərqləndirir

4.1.2. Sözləri hecalara ayırır

4.1.3. Yazıda sadə orfoqrafik qaydalara əməl edir

4.1.4. Hərfləri əlifba sırası ilə sadalayır – standartlarının reallaşdırılması nəzərdə tutulur [7, 18].

Deməli artıq I sinifdən şagirdlər əsas linqvistik anlayışlar olan “səs”, “hərf”, “heca” ilə bağlı sadə biliklərə yiyələnir, eşitməyə əsasən sözdəki hecaların, hecalardakı səslərin sayını və ardıcıllığını müəyyənləşdirirlər ki, bu da ədəbi tələffüz və düzgün yazı bacarıqlarına yiyələn-

məyin vacib şərti hesab olunur. Çünki dilimizin orfoepik və orfoqrafik normalarının kökündə fonetikanın əsas məsələsi olan səs-hərf münasibətləri dayanır.

Araşdırdığımız problemlə bağlı apardığımız təhlil zamanı I sinif dərsliyinin 1-ci hissəsinin 12-ci səhifəsində "Bunları bilməliyik" rubrikasında *K* hərfinin iki səsi (*ke, ka*) ifadə etməsi ilə bağlı şagirdlərə müəyyən məlumatın verilməsini müəyyənləşdirdik. Rubrikada şagirdlərə misallar əsasında *k* hərfinin bəzən *ka* (*q* səsinin kar qarşılığı kimi: *karandaş, konfet, kukla*), bəzən də *ke* (*g* səsinin kar qarşılığı kimi: *kitab, kök, kələm*) səslənməsi izah edilir. Daha sonra həmin səhifədə verilmiş 3 çalışma ilə (A, B, C) şagirdlər həmin səslərin düzgün tələffüzü üzrə məşq etdirilirlər. Düşünürəm ki, ibtidai sinif müəllimi bu çalışmalarla kifayətlənməməli, adları [ka] və [ke] səsləri ilə başlayan əşya şəkilləri göstərərək adının ilk səsi eyni olan şəkilləri qruplaşdırmaq, dinlədikləri mətndən bu tipli sözlərlə bağlı misallar seçmək, müstəqil nümunələr tapmaq və s. yollarla *k* hərfinin iki cür tələffzünü möhkəmləndirməlidir.

Dərsliyin 2-ci hissəsinin 23-cü səhifəsində *K* hərfinin iki səsi ifadə etməsi ilə bağlı şagirdlərə bir daha xatırlatma edilir və yerinə yetirmələri üçün aşağıdakı çalışma təqdim edilir:

**E. "Ka" hərfinin işləndiyi sözləri seçib yazın.**

*kitab, kənd, konfet, park, kök, karandaş, kosmos*

Lakin qeyd etməliyik ki, çalışmanın şərtində "hərfinin" sözü "səsinin" sözü ilə əvəz edilməli idi. Bu hal I sinif üzrə metodik vəsaitdə də əksini tapmışdır. Belə ki, dördüncü məzmun xətti ("Dil qaydaları") üzrə 4.1.4. standartından çıxan təlim məqsədlərində şagirdlərdə *ke* və *ka* **hərflərini** (?) öz adı ilə adlandırmaq bacarığının formalaşdırılması məsələsi yer almışdır:

1.1.4. Hərfləri əlifba sırası ilə sadalayır.

• Hərfləri öz adı ilə (*be, ke, ka, el, em* və s.) adlandırır.

Məlumdur ki, hərfi biz yazırıq və görürük. Şagirdin eyni bir qrafik işarəsi olan hərfi hansı əlamətlərinə görə *ka* və ya *ke* hərfi adlandıracağı maraq doğurur.

Bununla yanaşı, I sinif dərsliyində şagirdlərə **"Sözlərin yazılışı"** rubrikası təqdim olunur ki, bu rubrikada bəzən fərqli tələffüz olunan sözlərin orfoqrafiya normalarına uyğun yazılışı nümayiş etdirilir. Təhlil nəticəsində müəyyən etdik ki, ilk olaraq bu rubrikaya dərsliyin 49-cu səhifəsində rast gəlirik. Bu da təbii haldır. Çünki ilk dərslərdə əsas məqsəd şagirdlərin ilkin oxu və yazı bacarıqlarının, kalliqrafik vərdişlərinin inkişaf etdirilməsi olduğuna görə "Hüsnxət", "Söz boğçası" rubrikalarının üstünlük təşkil etməsi məqsədəuyğundur. Dərslikdə sözlərin fərqli tələffüzü və düzgün yazılışı ilə bağlı rubrika materialları şagird kitabının 1-ci hissəsində aşağıdakı şəkildə paylanmışdır:

- 49-cu səhifədə yer almış rubrikada eynicinsli qoşa saitli *təə(ə:)ccüb, saa(a:)t* və müxtəlifcinsli qoşasaitli *müəllim* sözünün;
- 50, 56, 63-cü səhifələrində müxtəlifcinsli qoşasamitli *məşq(k), rəsm (rəsim), lovğa, dovşan, şaft(d)alı, püst(d)ə* sözlərinin, tərkibindəki *o* saiti *a* kimi tələffüz olunan *mo(a)lbert* sözünün;
- 58-ci səhifədə tərkibindəki *o* saiti *a* kimi tələffüz olunan *mikro(a)skop* sözünün, son samiti karlaşaraq tələffüz olunan *mikrob(p)* sözünün;
- 74-cü səhifədə tələffüz zamanı proteza hadisəsinə uğrayan müxtəlifcinsli qoşasaitli *təbiət* sözünün və son samiti fərqli tələffüz olunan *rəng (k), şimşək(x`), bulud(t)* sözlərinin;
- 79-cu səhifədə son samiti fərqli tələffüz olunan *kəpənək(x`), çanaq(x)* sözlərinin, daxilindəki saiti fərqli tələffüz olunan *parabü(i)zən* sözünün, defislə yazılan *al-əlvan* sözünün;
- 82-ci səhifədə son samiti fərqli tələffüz olunan *göbələk(x`), qanad(t),* ədəbi norma olmasa da bəzən səs düşümü ilə tələffüz olunan *dovşan, bənövşə* sözlərinin düzgün yazılışının öyrədilməsi nəzərdə tutulmuşdur.

Dərsliyin 2-ci hissəsinin:

- 13-cü səhifəsində son samiti karlaşaraq tələffüz olunan *dəniz(s)* sözünün, daxilindəki saiti fərqli tələffüz olunan *xo(ö)şbəxt* sözünün;
- 32-ci səhifəsində son samiti fərqli tələffüz olunan *bayraq(x), üzü(x`)* sözlərinin və orta samiti fərqli tələffüz olunan *üçrəng(k)li* sözünün;
- 33-cü səhifəsində son səsi fərqli tələffüz olunan *polad(t), dirək(x`)* və tələffüz zamanı eleziyaya (səs düşümü) uğrayan *neftçi(nefçi)* sözünün;
- 36-cı səhifəsində son səsi fərqli tələffüz olunan *rəqib(p),* orta samiti fərqli tələffüz olunan *məşq(k)çi* sözlərinin; tələffüz zamanı səs

düşümünə uğrayan *gimnast (gimnas)* sözünün, habelə *himn* sözünün;

- 38-ci səhifəsində orta saiti bəzən fərqli tələffüz olunan *muzey (müzey)*, tələffüz zamanı səs düşümünə uğrayan *turist (turis)*, tərkibindəki *o* saiti *a* kimi tələffüz olunan *ekspo(a)nat* sözlərinin;
- 39-cu səhifəsində son samiti fərqli tələffüz olunan *kömək(x`), torpaq(x)* sözlərinin;
- 70-ci səhifəsində bir hecası *n* samiti ilə bitib, digər hecası *b* samiti ilə başlayan *sün(m)bül*, ortasındakı *o* saiti *a* kimi tələffüz olunan *ko(a)mbayn* sözlərinin düzgün yazılışının şagirdlərə öyrədilməsi nəzərədə tutulmuşdur.

Qeyd etməliyik ki, dərsliyin "Sözlərin yazılışı" rubrikasında yer almamış, lakin "Söz boğçası" rubrikasında verilmiş bir çox sözlər də (*akvarium, məskən, pətək, kolluq, qərib, mərd, əlacsız, skafandr, kosmonavt, kainat, qəsr, canlanmaq* və s.) ədəbi normalar baxımından fərqli tələffüz edildiyinə görə onların da yazılışı şagirdlər üçün çətinlik yarada bilər. Bu səbəbdən müəllim hansı rubrikada verilməsindən asılı olmayaraq, məqamı gəldikcə şagirdlərə həmin sözlərin tələffüzündən fərqli yazıldığını sadə şəkildə izah etməli, imla qüsuruna yol verməlirinin qarşısını almalıdır.

I sinif dərsliyində şagirdlərdə orfoepik-orfoqrafik bacarıqların inkişaf etdirilməsi məqsədi ilə müəyyən tapşırıqlar yer almışdır. Qeyd etməliyik ki, dərslikdə bu tipli tapşırıqların sayı azlıq təşkil edir və həmin tapşırıqlar aşağıdakılardır:

**B. Şəxs adlarını düzgün yazmaqla cümlələri köçürün.**

*1. Kraliça qarını ağcanın yanına göndərdi. 2. Acgöz tacir yunşenə əmr etdi. 3. Közü necə aparacaqsan, biləndər.*(6, s.24)

**Ç. Nöqtələrin yerinə uyğun gələn hərfi seçin və sözləri dəftərinizə köçürün**.

*məş...çi (q/k) rəqi... (b/p) bayra... (q/x) üzü... (k/y ) pola... (d/t)* (6, s.42)

**C. Hansı sözlər böyük hərflə yazılmalıdır?**

*göl, şahdağ, yurd, xocalı, el-oba, məskən, şuşa, dəniz, göygöl, şamaxı, gəncə, diyar, xəzər, muzey, quba, şəhər, ölkə* (6, s.42)

**C. Səhv yazılmış sözləri düzgün yazaraq dəftərinizə köçürün.**

*ayilə, məsgən, balıx, qayıx, ocax, xöşbəx* (6, s.65)

İbtidai sinif müəllimi 1-ci sinif dərsliyində tapşırıqların azlığını nəzərə alaraq, şagirdlərin orfoepik-orfoqrafik bacarıqlarının formalaşdırılması məqsədilə maraqlı iş növləri, müxtəlif oyunlar, rəngarəng tapşırıqlar hazırlaya bilər. Müəyyən nümunələr gətirək.

Tapşırıq. Aşağıdakı cümlələrə uyğun gələn sözlərin düzgün yazılmış variantını seçib boşluqları doldurun.

*1. Nazlı dostları ilə .... çəkirdi.*
*məşqçi, məşkçi*
*2. .....idmançıları yarışa hazırlayırdı.*
*şaftalı, şafdalı*
*3. Adilin yarasına ... düşmüşdü.*
*doşan, dovşan*
*4. .....kökü çox sevir.*
*mikrob, mikrop*
*5. Aynişanın ən sevdiyi meyvə .... idi.*
*rəsim, rəsm*

1-ci sinif dərsliyində şagirdlər ad, əlamət, hərəkət, say bildirən sözlərlə tanış olurlar. İbtidai sinif müəllimi məqam yarandıqca həmin sözlərin düzgün tələffüz və yazılışı ilə bağlı iş aparmalıdır. Məsələn, say bildirən sözlərlə tanışlıq prosesində şagirdlərə aşağıdakı sanama mətni üzrə xəbərdarlıqlı imla yazdırmaq olar.

Bir, iki bizimki,
Üç, dörd qapını ört
Beş, altı daş altı,
Yeddi, səkkiz Firəngiz,
Doqquz, on qırmızı don.

Bu zaman müəllim *dörd(t), səkk(g)iz, doq(k)quz* saylarının düzgün tələffüz və yazılışı ilə bağlı lazımi xəbərdarlığı edir.

Şagirdlərə *K* hərfinin iki səsi ifadə etdiyini başa salmaq və bununla bağlı düzgün tələffüz vərdişləri aşılamaq üçün müəllim "Evini tapın" didaktik oyununu təşkil edə bilər. Bunun üçün 2 kardon evcik götürülür. Bu evciklərin birinin üzərinə *[Ka]*, digərinin üzərinə *[Ke]* qeyd olunur. Şagirdlər müəllimə yaxınlaşaraq, masanın üzərindəki şəkillərdən birini götürür, adını söyləyir və lazımı evciyə qoyur. Müəllim masanın üzərinə kassa, kirpi, konfet, kitab, kotlet, kətil, karvan, kartof, kompüter, kibrit, kosmonavt və s. şəkilləri qoya bilər.

Məlumdur ki, bu gün təlimin şagirdin idrak fəallığı üzərində qurulması tələb olunur. Bu səbəbdən müəllim elə tapşırıqlar qurmalıdır ki, yalnız bu və ya digər orfoqramla bağlı müva-

fiq biliklərin aşılanmasına deyil, həmçinin şagirdlərin düşünməsinə, təhlil etməsinə, qruplaşdırmasına, əqli nəticəyə gəlməsinə nail olsun. Məsələn, aşağıdakı tipli çalışmalarda şagirdlərdən verilmiş suallara əsasən sözləri tapıb, onların necə yazıldığını və tələffüz edildiyini göstərməyi tələb etmək faydalı olar: *1.Dağın aşağı hissəsinə nə deyilir?; 2. Şeir yazan adama nə deyilir?; 3.Qarpız əkilən yer necə adlanır?; 4.Taxıl hansı maşınla yığılır?; 5.Uçan nəqliyyat vasitələri hansılardır?; 6. Sapdan toxunan uzun və ya qısa boğazlı ayaq geyimi necə adlanır?*

Şagirdlər *yamac(ç), şa(y)ir, bost(d)an, ko(a)mbayn, verto(a)lyot, təyyarə, corab(p)* sözlərini yazırlar.

1-ci sinif Azərbaycan dili dərsliyində şagirdlər "Bunları bilməliyik" rubrikasında "Şəxs adları həmişə böyük hərflə yazılır" (6, 10); "Yer adlarının yazılışı" (6, 31); "Heyvanlara verilən adların ilk hərfi" (6, 46) başlıqları altında dilimizin müvafiq orfoqrafik qaydaları ilə sadə şəkildə tanış edilirlər. Şəxs adlarının böyük hərflə yazılışını öyrətmək üçün dərslikdə şagirdlərə üç tapşırıq təqdim olunur. Birinci tapşırıqda verilmiş sözlərin arasından şəxs adlarını seçib cümlədə işlətmək; ikinci tapşırıqda cümləları köçürüb şəxs adlarının altından xətt çəkmək, üçüncüdə isə səhv yazılmış (kiçik hərflə) şəxs adlarını düzgün yazmaq tələb olunur. Bu məqamda müəllim şagirdlərin marağını oyatmaq, onların idrak fəallığını, analitik təfəkkürlərinin inkişafını təmin etmək məqsədilə interaktiv təlim metodlarından olan "Auksion"dan istifadə edə bilər. Müəllim şagirdlərə növbə ilə cümlədə həm şəxs adı, həm də başqa əşyaların adı kimi işlənə biləcək sözlər sadalamağı təklif edir (*Bənövşə, Nərgiz, Lalə, Azad, Reyhan, Mirvari, Məlahət, İradə, Zümrüd, Almaz, İlham, Qorxmaz* və s.). Hər cavabdan sonra müəllim sayır: "bir, iki..." Bu zaman başqa iştirakçı tez yeni "təklif" verir, sonuncu "təklif" verən (yəni həmin sözlərlə bağlı yeni nümunə söyləyən) şagird qalib sayılır. Diqqət etmək lazımdır ki, nümunələr təkrarlanmasın. Sonda, tapılmış sözləri yazı taxtasına yazıb, hər birini müvafiq mənaya uyğun (həm şəxs əvəzliyi, həm də başqa əşya adı kimi) cümlədə işlətməyi təklif etmək olar.

1-ci sinif dərsliyində yer adlarının yazılışını öyrətmək məqsədilə şagirdlərə Xəlil Rza Ulutürkün "Azərbaycan" (6, s. 30) şeirindən yer adlarını seçmək; şeirə əsasən cümlələrdə verilmiş mavi boşluqlara yer adları əlavə etmək və yaşadıqları yerlə bağlı araşdırma apararaq orada hansı göllərin, dağların və s. olduğunu müəyyənləşdirməklə bağlı tapşırıqlar verilmişdir. Müəllim bu məqamda "Yer adları" didaktik oyununu təşkil edə bilər. Bu oyunu bütün siniflə və ya cütlərlə təşkil etmək olar. Bu zaman cütlərdən biri digərinə yer mənası ifadə edən bir söz (şəhər, dağ, göl, çay, dəniz və s.) deyir. Digər şagird həmin yerə verilən xüsusi ad söyləyir. Məsələn, şəhər

– *Bakı, Sumqayıt, Moskva* və s.; çay – *Araz, Kür, Samur, Arpaçay* və s.

1-ci sinfin Azərbaycan dili dərsliyinin təhlili zamanı mətnin və ya ayrı-ayrı sözlərin ədəbi tələffüz normalarına əsasən oxusunu tələb edən çalışmaya rast gəlmədik. Həmçinin dərsliklə işə istiqamət verən metodik vəsaitdə də bununla bağlı hər hansı bir tövsiyə, tədbir qeyd olunmamışdır. Dərslikdə daha çox sözlərin düzgün yazılışının öyrədilməsi diqqət mərkəzində tutulmuş, orfoepik normaların mənimsədilməsi, demək olar ki, nəzərə alınmamışdır. Göründüyü kimi, bu iş tamamilə müəllimin öhdəsinə buraxılmışdır. Yaxşı olardı ki, dərslikdəki mətnlərin yanında audio yazıları olan QR kodlar və ya audio səsləndirməni göstərən mənbələr yerləşdirilsin. Bu yolla şagird mətnin və ya ayrı-ayrı sözlərin düzgün tələffüzlə oxusunu dəfələrlə dinləyə və müvafiq bacarıqlar əldə edə bilər.

Əlavə olaraq qeyd etməliyik ki, şagirdlərə ədəbi tələffüz vərdişlərinin aşılanması bir tərəfdən müntəzəm, məqsədyönlü təlim vasitəsilə həyata keçirilirsə, digər tərəfdən əhatə olunduğu insanların danışıq tərzini öz nitqinə köçürməsi, təqlid yolu ilə baş verir. Bu səbəbdən ibtidai sinif müəlliminin üzərinə böyük məsuliyyət düşür. Belə ki, sinif müəllimi dərs və dərsdənkənar ictimai tədbirlərdə şagirdlərlə təmasda olarkən danışığını orfoepik normalar əsasında qurmalı, şagirdlərə düzgün tələffüz nümunəsi verməlidir. Düzgün tələffüz dərs prosesinin hər bir mərhələsində müəllimin diqqət mərkəzində durmalıdır. Prof. N. Abdullayev yazır: "Şagirdin nitqi, o cümlədən tələffüzü üzərində vahid məktəb nəzarəti o zaman səmərəli nəticə verə bilər ki, bu işə məktəbin bütün müəllimləri, hətta texniki işçiləri cəlb olunsun. Hamı, hər yerdə şagirdin danışığına nəzarət etsin, heç bir rişxəndə, təhqirə yol

vermədən, hörmət və nəzakətlə nitqdəki qüsurlara düzəliş versin" (1, s. 147).

**Problemin aktuallığı.** Gözəl nitq insanın şəxsiyyət kimi formalaşmasının vacib göstəricisidir. Bu baxımdan təhsilin ilk pillələrindən başlayaraq, şagirdlərin nitqinin bütün cəhətlərinin inkişafında səmərəli yolların axtarışına ehtiyac duyulur.

**Problemin elmi yeniliyi.** Məqalədə şagirdlərin orfoepik-orfoqrafik vərdişlərinin inkişafı baxımından yeni nəşr 1-ci sinif Azərbaycan dili dərsliyinin imkanları araşdırılmış, tətbiqi səmərəli ola biləcək iş növləri təklif edilmişdir.

**Problemin nəzəri və praktiki əhəmiyyəti.** Məqalə ibtidai sinif müəllimlərinə şagirdlərin orfoepik-orfoqrafik vərdişlərini formalaşdırmaq məqsədilə görüləcək işlərin məzmununu, forma və metodlarını daha da təkmilləşdirmək baxımından praktik istiqamət verə bilər.

**Ədəbiyyat:**


1. Abdullayev, N.Ə. Orfoqrafiya və orfoepiya təlimi məsələləri. / N.Ə. Abdullayev. – Bakı: ADPU mətbəəsi, –2008, – 150 s.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-IV siniflər). – Bakı: Mütərcim, –2008, –495 s.
3. Cəfərova, N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. / N.B.Cəfərova, M.R.Qasımova. – Bakı: ADPU, –2023, –528 s.
4. Kərimov, Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. / Y.Ş. Kərimov. – Bakı: Səda, –2013, –551 s.
5. Nurullayeva Ü., Allahverdiyeva N., Bayramova İ., Xanalıyeva A. Ümumtəhsil məktəblərinin 1-ci sinifləri üçün dərslik (1-ci hissə). –Bakı: "Şərq-Qərb" ASC, –2020, –96 s.
6. Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Allahverdiyeva N., Xanalıyeva A. Ümumtəhsil məktəblərinin 1-ci sinifləri üçün dərslik (2-ci hissə). –Bakı: "Çaşıoğlu Elm-İstehsalat MMC" ASC, –2020, –80 s.
7. Nurullayeva Ü., Bayramova İ., Zahidova Ş., Allahverdiyeva N., Xanalıyeva A. Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti. – Bakı: "Radius" MMC, –2020, –184 s.
8. Paşayeva, P.Ş. İbtidai siniflərdə fonetikanın tədrisinin elmi-metodik əsasları. / P.Ş.Paşayeva. –Bakı: Nurlan, –2007, –140 s.


**E-mail:**maya0866@gmail.com

**Redaksiyaya daxil olub:** 23.09.2021.

## *RİYAZİYYATIN TƏDRİSİ METODİKASI*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ*
## *METHODOLOGY OF TEACHING MATHEMATICS*

*UOT 372.851*

***Firədun Nadir oğlu İbrahimov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının professoru,*
*pedaqogika elmləri doktoru,*
*https: //orcid.org/0000-0002-0775-1048*
*https://doi.org/10.69682/arti.2024.91(5).129-140*

***Vüqar Əbülfət oğlu Abdurahmanov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının baş müəllim,*
*riyaziyyat üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0001-5181-9946*

# ANALİTİK VƏ EVRİSTİK FƏALİYYƏT NÖVLƏRİNİN OPTİMAL MÜNASİBƏTLƏRİNİ ÖZÜNDƏ EHTİVA EDƏN TƏLİM SİSTEMİNİN FORMALAŞDIRILMASI YOLLARI

***Фиредун Надир оглы Ибрагимов***
*профессор*
*Шекинского филиала Азербайджанского Государственного Педагогического Университета*
*доктор педагогических наук*

***Вугар Абульфат оглы Абдурахманов***
*старший преподаватель Шекинского филиала Азербайджанского Государственного*
*Педагогического Университета,*
*доктор философии по математике*

# ПУТИ ФОРМИРОВАНИЯ СИСТЕМЫ ОБУЧЕНИЯ, ВКЛЮЧАЮЩЕЙ ОПТИМАЛЬНОЕ СООТНОШЕНИЕ АНАЛИТИЧЕСКОЙ И ЭВРИСТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

***Firadun Nadir Ibrahimov***
*professor of the*
*Sheki branch under the Azerbaijan State Pedagogical University,*
*doctor of pedagogical sciences*

***Vugar Abulfat Abdurahmanov***
*senior lecturer at Şhaki branch under the Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in mathematics*

# WAYS OF FORMING AN EDUCATIONAL SYSTEM THAT INTEGRATES THE OPTIMAL RELATIONSHIP BETWEEN ANALYTICAL AND HEURISTIC TYPES OF ACTIVITIES

**Xülasə.** Məqalədə bildirilir ki, svilizasiyanın tələblərinə uyğun formalaşmış məkanda təhsilin həyata keçirilmə yolu kimi dərk olunan təlimin müxtəlif modelləri(formaları) adekvat təlim mühitini şərtləndirir, bu mühitdə qarşıya qoyulmuş məqsədin təhsilalan tərəfindən idrak tələbatının təmin olunma obyekti kimi dərk edilməsi seçilmiş təşkilat formasında əhatə olunan zaman kəsiyi üzrə onun davamlı-fəal öyrənmə fəaliyyətinin mövcudluğu üçün zəruridir. Tədqiqat işində şagirdmərkəzli təhsilalma formalarından biri kimi

dərk olunan “Analitik və evristik fəaliyyət novlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin formalaşdırılması yolları” arqumentləşdirilir və həmin yolların elmi-pedaqoji və psixoloji aspektdən interpretasiyası verilir.

***Açar sözlər:*** *təhsil məkanı; təlim mühiti; təlim nəticələri; qiymətləndirmə meyarları; SMART planlama texnikası; affektiv xüsusiyyətlər; emosional zəka; diferensasiya və fərdiləşdirmə, təhsilalan (şagird) mərkəzli təlim; daxili və xarici motivasiya; zehni inkişaf mərhələləri; açıq və qapalı düşüncə tərzləri.*

**Аннотация.** В статье утверждается, что разные модели (формы) обучения, воспринимаемые как способ реализации образования в пространстве, сформированном согласно требованиям цивилизации, определяют адекватную среду обучения, в этой среде осуществляется понимание цели, поставленной обучающимся как объект удовлетворения познавательных потребностей, согласно временному интервалу, охватываемому выбранной организационной формой, необходимой для существования непрерывно-активной учебной деятельности. В научно-исследовательской работе аргументируются «Пути формирования системы обучения, включающей оптимальные соотношения аналитического и эвристического каналов деятельности», под которой понимается одна из форм личностно-ориентированного обучения и дается трактовка этих путей с научно-педагогического и психологического аспектов.

**Ключевые слова:** *образовательное пространство; среда обучения; результаты обучения; критерии оценивания; техника планирования SMART; аффективные особенности; эмоциональный интеллект; дифференциация и персонализация, личностно-ориентированное обучение; внутренняя и внешняя мотивация; этапы психического развития; открытый и закрытый стили мышления.*

**Abstract.** The article discusses that various teaching models, understood as methods of delivering education in a space formed according to the demands of civilization, condition an adequate educational environment. In this environment, it is necessary for the learner to perceive the goal as an object of cognitive demand in the chosen organizational form and timeframe to ensure the existence of continuous and active learning activities. The research elaborates on “ways to form a teaching system that includes optimal relationships between analytical and heuristic activity types” as one of the student-centered forms of education and provides an interpretation of these methods from scientific-pedagogical and psychological perspectives.

***Keywords:*** *Educational space; teaching environment; teaching outcomes; assessment criteria; SMART planning techniques; affective traits; emotional intelligence; differentiation and personalization; student-centered teaching; internal and external motivation; cognitive development stages; open and closed thinking styles.*

***Tədqiqat mövzusunun aktuallığı.*** Təhsil insanların tələbatını ödəyən dəyər olduğundan onun svilizasiyanın çağırışlarına uyğun formalaşdırılması məntiqidir və sənaye inqilablarının tələblərinə uyğun təhsil sisteminin formalaşdırılması bəşərin təcrübəsində özünə yer almışdır. Təkzibedilməz həqiqətdir ki, cəmiyyətin hər bir inkişaf mərhələsində təhsilin həyata keçirilmə yolu olan təlimin müxtəlif modelləri formalaşdırılmışdır. Sözügedən modellər adekvat təlim mühitini şərtləndirir.

Təlim prosesinin baş tutmasının, onun mövcudluğunun əsas amili təhsilalanlarla təhsilverənlərin vahid məqsədlə bir araya gəlmələridir. Qarşıya qoyulmuş məqsədin təhsilalan tərəfindən idrak tələbatının təminolunma obyekti kimi dərk edilməsi seçilmiş təşkilat formasında əhatə olunan zaman kəsiyi üzrə onun davamlı-fəal əqli fəaliyyət məntiqlərinin-analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərinin mövcudluğu üçün zəruridir.

Biz əqli fəaliyyət məntiqlərinin-analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərinin özündə ehtiva edən təlim mühitini təhsilalanların yiyəlnməli olduqları bacarıqları özündə ehtiva edən təhsil məkanının məqsəd əsasında formalaşdırılmış altsistemi hesab edirik. Təlim mühitinin tənzimlənməsi pedaqoji problemdir və bu problem bir çox digər pedaqoji problemlər kimi həmişəyaşar təbiətlidir. Söylənilənlərə rəğmən iddia edirik ki, analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin (mühitinin) formalaşdırılması yollarının müəyyənləşdirilməsi aktual pedaqoji problemdir.

*Tədqiqat işinin metodoloji əsası.* Toplanmış tədqiqat materialları üzrə ümumiləşmələrin aparılmasında və bunların elmi şərhində “Sistem təhlili ideyası”na (L.Bertalanfi tərəfindən irəli

sürülmüş [1; 8]) əsaslanan "sistem-struktur" dialektik yanaşmasından (Dialektikanın xüsusi qolu kimi inkişaf etmiş elmi idrak metodundan [2;104]) metodoloji əsas kimi istifadə edilmişdir.

*Tədqiqat üzrə əldə olunmuş ümumiləşmələrin interpretasiyası.* Məlumdur ki, IV sənaye inqilabının çağırışlarına adekvat şəkildə təhsil məkanı formalaşmaqdadır. Belə bir məkanda təhsilin həyata keçirilməsinin səmərəli yollarının elmi-pedaqoji və texnoloji əsaslarla aşkarlanması aktuallıq kəsb edir. Əslində svilizasiyanın hər bir mərhələsində sözügedən tələbat yaranmış, onun ödənilməsinin yolları aranmış və sonuclanaraq müvafiq nəzəriyyələr, konsepsiyalar, paradiqmalar, yanaşmalar, metodik sistemlər gərgin elmi-tədqiqatların nəticələri qismində bəşər təcrübəsinə (məxsusiliyə dayanaraq söyləsək, pedaqoji təcrübəyə) daxil edilmişdir. Hazırda bizim suveren ölkəmizdə də svilizasiyanın tələblərinə uyğun Təhsil sisteminin bərqərar olması yönümündə islahatlar aparılır və "vətəndaşların keyfiyyətli təhsil almaları istiqamətində hüquqi baza bərqərar edilir" [3].

Subyektiv anlamımıza görə, çağdaş zaman kəsiyinin tələblərinə uyğun formalaşmış məkanda təhsilin həyata keçirilməsi yolu kimi dərk olunan təlim müxtəlif modellərdə (formalarda) mövcud olur, hansı ki, seçilmiş modellərin (formaların) təbiətinə müvafiq, məxsusi xüsusiyyətlərinə görə fərqləndirilməsi mümkün olan təhsilalma mühiti (təlim mühiti) yaranmış olur. Danılmazdır ki, "Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sistemi"nin bunların sırasında yeri vardır.

Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin bilavasitə və ya bilvasitə səmərəliliyini şərtləndirən amillər, bu sistemin tənzimlənməsinə yönəlir. Sözügedən təlim sistemində ehtiva olunan dialektika (böyük sistemlə onun ehtiva etdiyi kiçik sistemlər və kiçik sistemlərin öz aralarındakı invariant asılılıqlar-təsirlər) tənzimlənir və sistemin səmərəliliyi yüksəlmiş olur[4; 46]. Biz təhsilalanlarla təhsilverənlərin vahid məqsədlə bir araya gəlmələrini təlimin mövcudluğunun şərtləndirici amili hesab edirilk. Bu və ya digər formada təşkil olunan təlim prosesinin səmərəliliyi, uğurla sonuclanması bilavasitə məqsədin səmərəliliyindən, müəllimin məqsədinin təhsilalanların dərk olunmuş məqsədinə çevrilməsindən asılıdır. Burada məxsusi olaraq vurğulamaq yerinə düşər ki, təlimin məqsədlərini təhsilalananın idrak tələbatının təminolunma obyekti kimi dərk etməsi təşkilat formasında əhatə olunan zaman kəsiyi üzrə onların davamlı və fəal öyrənmə fəaliyyətinin mövcudluğu üçün zəruridir.

Əldə olunmuş tədqiqat materiallarının təhlili əsasında aparılan ümumiləşmələr söyləməyə əsas verir ki, təlim nəticəsi təhsilalanın bacarığının (və ya bacarıqlarının) formalaşdırılmasına yönələndə məqsəd yalnız biliyin qazanılmasına deyil, biliyin müxtəlif kontekstdə tətbiqi olaraq müəyyənləşir. Təlim nəticələri həm öyrənmə, həm öyrətmə, həm də qiymətləndirmə prosesində açar məqamdır. Düzgün formalaşdırılmış təlim nəticəsi şagirdlərin informasiyanı təkrar etməyə deyil, qazandıqları yeni bilik və bacarığı tətbiq edəcəklərini əks etdirməlidir. Unudulmamalıdır ki, effektiv təlim nəticələri şagirddən nə gözlənildiyini, seçilmiş təşkilat formasının sonunda hansı bilik və bacarıqlara yiyələnəcəyini təsvir edir.[5; 56]

Təlim nəticəsi təhsilalanın bacarığının (və ya bacarıqlarının) formalaşdırılmasına yönələndilməsini Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin formalaşdırılması yollarından biri hesab edirik, hansı ki, müasir dövrdə təlim nəticələrinin hazırlanması zamanı SMART planlama texnikasından istifadə edilir. SMART planlama texnikasında aşağıdakı tələblər diqqət mərkəzinə çəkilir: S (specifik) - spesifik olmalı, yəni təlim nəticələri düzgün müəyyənləşdirilib, dəqiq və aydın formada ifadə olunmalıdır; təlim nəticələri təşkilat formasının sonunadək hansı bilik və bacarığın əldə olunacağını göstərir; M (measurable) - təlim nəticələri ölçüləbilən olmalıdır, yəni təlim nəticəsi elə müəyyənləşdirilməlidir ki, nəzərdə tutulan bilik və bacarıq qiymətləndirilə bilsin; A (chievable) - əldə olunan bilən, yəni qoyulmuş hədəfə çatmaq nə asan, nə də çox çətin olsun. Məqsəd normadan bir qədər çətin, şagirdin çalışaraq əldə edə biləcəyi səviyyədə olmalıdır; R (realistic) - real imkanlar nəzərə alınmalı, yəni təlim nəticələri mövcud resursları, öyrənmə mühitini nəzərə alaraq realistik, ağılabatan şəkildə çıxarılmalıdır; T (time-

framed) - müəyyən vaxt müddətinin nəzərə alınması (mümkün qədər), yəni təlim nəticələrinin hansı müddətdə əldə olunduğunu göstərən xüsusi bir vaxt təyin edilməlidir. Burada məqsədə çatmaq üçün lazım olan addımların atılmasına kifayət qədər vaxtın ayrılması vacibdir. [5, s. 57]

Yeri gəlmişkən onu da qeyd edək ki, praktik pedaqoqların işində təlim nəticəsi ilə bağlı bir sıra çatışmazlıqlara yol verildiyini müşahidə etmək mümkündür. Bunların sırasında aşağıda özünə yer alanlar da vardır: 1. Bir təşkilat forması üzrə həddindən artıq sayda təlim nəticəsinin yazılması; 2.Təlim nəticəsinin şagirdlərə bildirilməməsi; 3.Təlim nəticəsinin çox mürəkkəb şəkildə formulə olunması; 4. Təlim nəticəsi ölçülə bilməyən fellərlə (bilir, bacarır, görür və s.) verilməsi; 5.Təlim nəticəsinin müəllimmərkəzli olması (yenə orada).

Dördüncü çatışmazlığa aydınlıq gətirmək məqsədilə bir qədər haşiyəyə yer verək. Məlumdur ki, təlim nəticəsində şagirdin nə öyrənəcəyi əks etdirilməlidir. Bu zaman Benjamin Blum taksonomiyasının fellərindən istifadə edilir. Blum taksonomiyasının təlim prosesində əsas funksiyalarından biri təlimin təşkilat formasının məqsədinin müəyyənləşdirilməsində rol almasıdır. Təşkilat formasının məqsədində öyrənməni önə çəkən amil məhz taksonomiyanın açar felləridir. Ölçülə bilməyən, qiymətləndirilməsi aydın şəkildə mümkün olmayan stativ fellərdən istifadə edərək təlim nəticəsi formalaşdırmaq doğru deyil.

Təhsilalanların öyrənmə prosesinin səmərəliliyini təmin etmək üçün bir çox alimlər-pedaqoq və psixoloqlar araşdırmalar aparmış və müxtəlif nəzəriyyələr hazırlamışlar. R. Qaneyə görə, öyrənmə müşahidə olunan davranışın nəticəsi kimi başa düşülür. Səmərəli öyrənməni təmin etmək üçün təlim prosesində baş verənləri anlamaq vacibdir. Təlim prosesinə təsir edən əsas daxili amillər şagirdin əvvəllər öyrəndiyi biliklər, zehni bacarıqlar və idrak strategiyalarıdır. R. Qanye buna insanın affektiv xüsusiyyətlərini də əlavə edir. Bunlar da bizim maraqlarımız, baxışlarımız və dəyərlərimizlə bağlı fikirlərimizdir. R. Qanye təlim prosesinin səmərəli təşkil olunması üçün öyrənmənin şərtlərini nəzərə alaraq aşağıda özünə yer alan addımları təklif etmişdir: 1)şagirdlərin diqqətini dərsə cəlb etmək; 2) şagirdlərin təlim nəticələrini elan etmək, 3)əvvəlki təlimdən qazanılmış bilik və bacarıqları stimullaşdırmaq; 4) dərsin mövzusunu təqdim etmək; 5) öyrənməni təmin etmək; 6) bilik və bacarıqların tətbiqini təmin etmək; 7) əks-əlaqə qurmaq; 8) təlim nəticələrini reallaşdırmaq səviyyəsini müəyyən etmək; 9) informasiyanı möhkəmləndirmək və bacarığa çevirmək [(bax: You Tube: https: //www.youtube.com; Robert Qanye: "Öyrənmənin şərtləri" nəzəriyyəsi/ TAIM 2024/ Nəsirli Sənan). Yeri gəlmişkən qeyd edək ki, burada təsvir olunan addımlarla fəal/interaktiv təlimin əsas təşkilat formasının mərhələləri arasında oxşarlığın olduğunu görmək çətin deyildir. Qənaətimizə görə, öyrənmənin şərtlərini nəzərə alaraq yuxarıda göstərilən addımların nəzərə alınması Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin formalaşdırılması yollarından hesab olunmalıdır.

Fikrimizcə, təhsilalan mərkəzli təlimin mövcudluğunu və onun səmərəliliyini şərtləndirən parametrlər sırasında sözügedən prosesin təhsilalanın fəaliyyətini motivasiya etməsi çox vacibdir.

Psixoloq Daniel Qoulman "Emosional zəka" nəzəriyyəsində Emosional İntellekti beş komponentə (özünüdərk, özünüidarəetmə, motivasiya, sosial məlumatlılıq, münasibətlərin idarə olunması) ayırır. Bu nəzəriyyənin müəllifi motivasiyanı. Emosional İntellektin komponenti hesab edir və onu insanı nailiyyətə sövq edən faktorlardan biri hesab edir. Onun fikrincə, motivasiya xüsusilə işlərin rəvan getdiyi məqamlardan başqa, çətin situasiyalarda davamlılıq göstərməyə və nəticədə məqsədə çatmağa imkan verir. Motivasiya daxili və xarici motivasiya olmaqla təsnif edilir [5, s. 144-145]. Yeri gəlmişkən qeyd edək ki, elmi mənbələrdə motivasiya sahəsinin beş tərkibli struktura (tələbatlar-təlimin mənası-motivlər-məqsəd-emosiya və hisslər) malik olduğu vurğulanır.[6, s. 167]

Realistik mövqedən baxanda insanı fəaliyyətə sövq edən hər iki-həm daxili, həm də xarici motivasiyanın kombinasiyasıdır. Aparılan son tədqiqatlar göstərir ki, bir tərəfdən daxili motivasiya fəaliyyətdə daha çox keyfiyyətə, digər tərəfdən isə xarici motivasiya isə kəmiyyətə müsbət təsir göstərir. Bu baxımdan hər ikisi birlikdə əhəmiyyətə malikdir. Motivasya iki prin-

sip üzərində qurulur: 1)problemlilik; 2) məqsədyönlülük [7, s. 333]. Söylənilənlərə rəğmən, əgər biz təlim prosesinin səmərəliliyini şərtləndirən mühitin formalaşdırılması yollarını arayırıqsa, sözügedən prosesdə yenin axtarışı ilə bağlı motivasiyanın yaradılmasına (mövcudluğunun təmin edilməsinə) biganə qala bilmərik.

Təhsilalanların öyrənmə motivasiyalarının olması üçün həm çoxlu öyrənmə fürsət və imkanlarına, həm daimi stimula, həm də dəstəyə ehtiyacları vardır. Bu baxımdan sinif fəaliyyətlərini effektiv şəkildə qurmaq və sinfi effektiv şəkildə idarə etmək vacibdir. Təhsilalanlar o vaxt təlim prosesinə cəlb olunurlar ki, müəllimin istənilən halda onları sevdiyini, onları mühakimə etmədiyini, onların ehtiyaclarına cavab verdiyini görürlər. Təhsilalanlar üçün bilik və bacarıqlarını sərbəst şəkildə ifadə edə bildikləri bir mühit arzuolunandır. Təhsilalan arxayın olmalıdır ki, bu sinifdə o, hər zaman risk edə bilər, yəni əmin olmadığı cavablar verə, eksperimentlər apara, yeni şeyləri tətbiq edə, suallar səsləndirə bilər və s. [5, s. 145-147]

Əlverişli öyrənmə mühiti sinif daxilində müxtəlifliyi dəstəkləməklə, bütün təhsilalanlara uğurlu olmaq üçün imkan yaradır. Hamı üçün səmərəli öyrənmə mühitini yaratmağa kömək edən strategiyalara bunlar aid edilə bilər: 1) Davranış üçün hamıya aydın minimum standartların müəyyənləşdirilməsi; 2) Bütün təhsilalanların dinlənilməsi üçün imkanın yaradılması; 3) Sinifdəki hər bir təhsilalanın xüsusi ehtiyaclarından xəbərdar olmaq; 4) Sinifdəki bütün təhsilalanlara fayda verəcək şəkildə dəstək verilməsi; 5) Təhsilalanlara öz öyrəndiklərini necə nümayiş etdirəcəklərini seçmələri üçün imkan yaradılması; 6) Bir təhsilalanın inkişafının digəri ilə müqayisə edilməsinə yol verilməməsi (Şəxsi inkişaf əsasdır!). [2, s. 155].

Fikrimizcə, motivasiya sferasının mövcudluğu da analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin formalaşdırılması yollarından biridir.

Hamı üçün səmərəli öyrənmə mühitinin formalaşması üçün "Təhsilalanlara bərabər imkanların yaradılması" mühüm tələb (prinsip) olaraq əldə rəhbər turulmalıdır. Sözügedən prinsipin gözlənilməsi sayəsində təhsilalanlara eyni təlim şəraiti yaradılır və bu proses onların potensial imkanlarının nəzərə alınması sayəsində mümkün olur, tənzimlənir[8; 62]. Bizim qənaətimizə görə, təhsilalanlara bərabər imkanların yaradılması üçün "Sorğu və araşdırma əsaslı öyrənmə", "layihə əsaslı öyrənmə", "Problem əsaslı öyrənmə" modellərinin tətbiqi, bu modellərin tətbiqi sayəsində konstruktivizm və koorporativlik diqqət mərkəzinə çəkilir, bu isə interaktivliyi (şagird mərkəzli təlimi) şərtləndirir.

İntellektual maraq ilə öyrənməni uzlaşdıran "Sorğu və araşdırma əsaslı təlim" elmi metodun tədris prosesinə uyğunlaşdırılmış modelidir. Belə ki, şagirdlər öyrənmə prosesində sual vermək, müşahidə etmək, hipotez (fərziyyə) irəli sürmək, müşahidə etmək, araşdırma aparmaq, nəticə çıxarmaq və nəticəni yoxlamaqla bir növ tədqiqat xarakterli fəaliyyətə cəlb olunurlar. Bu fəaliyyət özlüyündə şagirdlərə müxtəlif bacarıqlarını (məqsəd müəyyənləşdirmə, vaxtı və prioritetləri idarəetmə, informasiyanı emaletmə, komanda ilə işləmə, yazılı və şifahi ünsiyyət, tənqidetmə, problem həlletmə, dəyərləndirmə və s.) inkişaf etdirmək imkanı yaradır. [9; 91-96] "Sorğu və araşdırma əsaslı təlim" modeli təhsilalan mərkəzli yanaşmadır. İnformasiyanı passiv şəkildə qəbul etməkdən daha çox elmi məlumatın birbaşa təhsilalanın iştirakı ilə araşdırılmasını nəzərdə tutur. Elmi mənbələrdə vurğulanır ki, tədris prosesində "Sorğu və araşdırma əsaslı təlim" SE modelindən istifadə etməklə də həyata keçirilə bilər. "Sorğu və araşdırma əsaslı təlim" təkcə eksperimental yolla deyil, eyni zamanda mənbələr üzərindən araşdırma etməklə də həyata keçirilə bilər. Bu baxımdan sözügedən yanaşmanın müxtəlif fənlərdə tətbiqi mümkündür.

Hər nə qədər sorğu və araşdırma əsaslı öyrənmə təhsilalan mərkəzli təlim modeli olsa da, təhsilverənin rolu və funksiyası olduqca həlledicidir. Öyrənmənin baş verməsi və prosesin düzgün istiqamətləndirilməsi müəllimin səriştəsindən, yerində müdaxiləsindən çox asılıdır.

Bu prosesdə müəllimin funksiyasını aşağıdakı kimi təsvir etmək olar: 1) Mövzuya giriş üçün təhsilalanların diqqətini çəkmək və onları araşdırmaya sövq edəcək sual qoymaq və ya situasiya təsvir etmək; 2) Qeyd edilən sual, problem ətrafında təhsilalanları müzakirəyə, dialoqa təşviq etmək və bu prosesə rəhbərlik etmək; 3) Ehtiyaca görə təhsilalanları qruplaşdırmaq və ya bütün siniflə müzakirəni təşkil

etmək; 4) Müzakirələri diqqətlə izləmək və yanlış mülahizələri korrektə etmək, eyni zamanda onların daha yaxşı anlamaları üçün əlavə informasiya ilə təmin etmək; 5) Öyrənməni mənalı etmək üçün təhsilalanların mövcud təcrübələrindən istifadə etmək [5, s. 91-93].

"Sorğu və araşdırma əsaslı öyrənmə" ilə bağlı tədqiqatları ümumiləşdirəndə öyrənmə prosesi kimi onun əsas komponentlərini belə sadalamaq olar: yönləndirmə; əsas sualın qoyulması və hipotez (fərziyyə) irəli sürülməsi; araşdırma; nəticə; müzakirə.

Didaktikada yeni istiqamətlər içərisində Ceron Brunerin işləyib hazırladığı "Kəşflər etmək" yolu ilə öyrətmək konsepsiyası" diqqətəlayiqdir. Bu konsepsiyaya görə, şagirdlər öz kəşfləri ilə dünyanı dərk etməli, biliklərə yiyələnməlidirlər. Belə kəşflər şagirdlərdən əqli qüvvələrin gərginliyini tələb edir və məhsuldar təfəkkürün inkişafına olduqca səmərəli təsir göstərir. C. Brunerə görə, yaradıcı təlimin əlaməti təkcə müəyyən mövzu üzrə biliklərin toplanması və qiymətləndirilməsi, bunun əsasında müvafiq ümumiləşmələrin aparılması deyil, həm də öyrənilən materialın çərçivəsindən kənara çıxan qanunauyğunluqların aşkar edilməsindən ibarətdir. [10, s. 22], [11, s. 53-54]. Söylənilənlərə rəğmən, həm "Sorğu və araşdırma əsaslı öyrənmə"ni həm də ""Kəşflər etmək" yolu ilə öyrətmə"ni analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərinin özündə ehtiva edən təlim mühitininin formalaşırılması yollarından hesab olunması məntiqidir.

Təhsilalan mərkəzli öyrənmə modellərindən biri də "Problem Əsaslı Öyrənmə"dir (Project Based Learnig-PBL), yaradıcıları Qoedon, Rogers, Krajçik, Slavin, Torp və Seyqdir. "Problem əsaslı öyrənmə"dən problemyönlü situasiyalarda idraki qabiliyyətlərin inkişafına kömək üçün istifadə etmək, o cümlədən "*necə öyrənməyi öyrənmək*" son illərin təlim təcrübəsində özünə layiqli yer qazanmışdır [8, s. 22].

"Problem əsaslı öyrənmə" qrup şəklində aparıldığından təhsilalanlarda əməkdaşlıq bacarıqları aşılayır, koorporativliklə (Koorporativ təlimə aid öyrənmə modeli D.Conson və R. Conson tərəfindən yaradılmışdır [12;467], konstruktivizmin vəhdətini özündə ehtiva edən mühit formalaşmış olur [2, s. 104-106].

Eyni zamanda hər hansı problemi həll etmək, bunun üçün çalışmaq onlarda daxili motivasiyanı aktivləşdirir, öyrənmni mənalı bir fəaliyyətə çevirir [13, s. 210-214]. "Problem əsaslı öyrənmə" aşağıda özünə yer alan mərhələləri əhatə edir: problem ifadə edən açıq tipli sualın təqdim edilməsi; problemi aydınlaşdırmaq, müzakirə etmək; bilikləri təsnif etmək; mümkün həll yollarını ortaya qoymaq; nəticələri və həll yolunu bölüşmək.

Təhsilalanların müəyyən vaxt ərzində araşdırma aparmaqla, daha çətin sual və probləmə cavab axtarmaqla bilik və bacarıq əldə etdiyi "Təhsilalan mərkəzli təlim modelləri"ndən biri də "Layihə Əsaslı Öyrənmə" (Project Based Learning-PBL) modelidir. Bu təlim modeli ənənəvi öyrənmədən fərqli olaraq təkcə nəzəri biliklərin mənimsənilməsi ilə yekunlaşmır. Nəzəri biliklərdən istifadə etməklə hansısa məsələnin həllini tapmağı nəzərdə tutur. "Layihə Əsaslı Öyrənmə" biliklərlə onların tətbiqini uzlaşdıran, real həyat problemlərinə xitab edən bir modeldir. Eyni zamanda proses boyunca təcrübi olaraq bilikləri dərinləşdirmək, əməkdaşlıq, ünsiyyət, problem həlletmə kimi bacarıqların inkişafına imkan yaradır [5, s. 94].

PBL-də çətin və real problemlərin həlli yollarının tapılması şagirdlərin müxtəlif konsepsiya və prinsiplərin öyrənilməsi üçün istifadə olunur. Burada məqsəd şagirdlərin bilik və faktları informasiya kimi öyrənib danışması yox, bu bilikləri lazımi məqamda istifadə etməyi bacarmalarını təmin etməkdir. "Layihə Əsaslı Öyrənmə"də aşağıda qeyd olunan addımlar özünə yer alır: sualın (problemin qoyuluşu; plan tərtibatı; araşdırma və məhsul (məzmun, əldə olunan bilik, bacarıqlar) hazırlığı; skafoldinq (doğru istiqamət vermə) və monitorinq; nəticələrin yoxlanılması və prosesin (fəaliyyətin) dəyərləndirilməsi.

Vurğulamaq yerinə düşər ki, təlimin müxtəlif təşkilat formalarında layihələrin reallaşdırılması ilə "Layihə Əsaslı Öyrənmə" eyni deyil. Hər hansı təşkilat formasında layihənin reallaşdırılması təhsilalanlarda bilik və bacarıqlar formalaşdırılandan sonra onların tətbiqi üçün verilir, " Layihə Əsaslı Öyrənmə"də isə bilik və bacarıqlar layihənin reallaşdırılması zamanı baş verir. "Layihə Əsaslı Öyrənmə"ni bütün fənlərin tədrisində tətbiq etmək mümkündür. Sadəcə ola-

raq məsələlərə fənnin perspektivindən baxmaq və hansı problemin həll olunacağı barədə fikirləşmək gərəkdir. Biz həm "Problem əsaslı öyrənmə"ni, həm də "Layihə Əsaslı Öyrənmə"ni analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərinin özündə ehtiva edən təlim sisteminin formalaşırılması yollarından biri hesab etməyi məntiqi sayırıq.

Yuxarıda vurğulandığı kimi, təqdim olunan modellər şagirdləri kostruktiv fəaliyyətə təhik edir. Vurğulayaq ki, Konstruktivizm yeni biliklərin, İdeyaların sintezi yolu ilə əldə edilməsi haqqında nəzəriyyədir, XX əsrin əvvəllərindən başlayaraq J. Pyaje, L. Vıqotski, R. Siteyner, M. Montessari, S. Frene, C. Dyui, D. Kappan, Əbdəl-Həqq İsmət, Skart-Siter, Makkenin və başqaları tərəfindən irəli sürülmüşdür [12], [14]. D. Kappana görə, konstruktivizm-öyrənənlərin biliklərə özlərində əvvəllər mövcud olan və təcrübələrdən əldə etdikləri yeni ideya və ya nəzəriyyələrlə əlaqələndirməklə yiyələnməsi prosesidir [15, s. 2]. Konstruktivizm belə bir ideyaya əsaslanır ki, bilik qurulur, kəşf edilir, yaradılır. Konstruktivizm nəzəriyyəsini həyata keçirilməsi üç şeyi tələb edir: fəal şagird, sosial şagird və yaradıcı şagird.[12, s. 466]

Konstruktivizmin növlərinə (psixoloji və sosial) elmi mənbələrdə məxsusi yer verilir, hansı ki, bunlar J. Pyajenin [12, s. 466] psixoloji və L. Vıqotskinin [16, s. 241-242] sosial konstruktivizmi kimi təqdim edilir) əsaslanan bu təlim modeli şagirdin ilkin bilik və təsəvvürlərindən başlayaraq onu suala yönəldir, cavab üçün təhsilalanı fəaliyyətə sövq edir. Beləliklə, təhsilalanın özünün fəallığı ilə yeni bilik və bacarıqların inşasına çalışır.

Konstruktivizmin əsaslandığı ideyadan qənaətə gəlmək olur ki, analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərinin özündə ehtiva edən təlim sisteminin formalaşırılması yollarından biri də konstruktivizmin gözlənilməsidir.

Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərinin özündə ehtiva edən təlim sisteminin formalaşırılması yolları arasında *"Müvafiqlik prinsipi"nin gözlənilməsinin, diferensial yanaşmanın və fərdiləşmənin zəruri olduğu halların diqqət mərkəzinə çəkilməsinin, təhsilalanların düşüncə tərzlərinin, zəka çoxnövlülüyünün və zehni inkişafın mərhələliliyinin* gözardı edilməməsinin də məxsusi yeri vardır. Fikrimizcə, burada sözügedən anlayışların lakonik şəkildə interpretasiyasını vermək məramımıza uyğun faydalı iş olar.

Müvafiqlik prinsipi tələb edir ki, tədris materialının həcmi və məzmunu təhsilalanların zehni inkişaf səviyyəsinə, mövcud bilik, bacarıq və vərdişlərinə uyğun olsun.[8, s. 58]

Təlimin müvafiqliyi prinsipinin məzmunu öz-özlüyündə çox sadədir: müxtəlif yaş dövrlərində yalnız təhsilalanların imkanlarını-onlara "gücləri çatan çətinlik dərəcəsi"ndə biliklərin verilməsini nəzərdə tutur. Bəzi müəlliflərin (N.M. Boyko, Y.M. Majalite, İ.Y. Aleksaşina və b.) sözləri ilə desək, onu "təlimin asanlaşdırılması" kimi mənalandırıblar və psixoloji baxımdan səhv başa düşüblər. Halbuki psixoloji tədqiqatlar əsaslı surətdə göstərir ki, "materialı sadələşdirib asanlaşdırdıqca təhsilalanların idrak fəaliyyəti öz-özünə zəifləyib öləziyir". [6, s. 47-48]

Psixologiya və pedaqogikada "yaş imkanlar"ı anlayışının əmələ gəlməsi elmi fikrin böyük nailiyyəti olub. L.S. Vıqotskinin (Lev Vıqotski insanın zehni inkişafında sosial amilin, yəni ünsiyyətin, nitqin rolunun olduğunu və vacibliyini vurğulamış, "Sosial inkişaf nə-zəriyyəsi"nin ən vacib komponentlərindən biri kimi Yaxın İnkişaf Zonası(YİZ) anlayışına elmi şərh vermiş psixoloq alimdir) fikrincə, "...təlim bu və ya digər dərəcədə uşağın inkişaf səviyyəsi ilə uzlaşdırılmalıdır - bu, empirik surətdə müəyyən olunmuş və dəfələrlə yoxlanılmış faktdır. Onu inkar etmək mümkün deyil. Uşağa ancaq müəyyən yaşdan etibarən savad öyrətmək olar, uşaq yalnız müəyyən yaşda Cəbri öyrənməyə qabil olur-bunu sübut etməyə çox güman ki, ehtiyac yoxdur." [16, s. 3]. Müvafiqlik prinsipinin əsas qayəsi məhz bu baxımdan həmişə əhəmiyyətli olub, indi də əhəmiyyətlidir.

Elmi mənbələrdə pedaqoji və psixoloji yanaşmalara münasibətlərdə fikir müxtəliflikləri bütün zaman kəsiklərində mövcud olmuşdur, indi də bu tendensiya təzahür etməkdədir. Pedaqogika elmində təlimin inkişafetdiricilik funksiyası ilə bağlı dörd əsas konsepsiya (L.V. Zankov [17], D.V. Elkonin [18], V.V. Davıdov [19], A.H. Leontev [20] konsepsiyaları) bizə məlumdur. Fikrimizcə, bunlardan daha populyar olan və bütün təhsil pillələrində tətbiq edilən D.V. Elkonin - V.V. Davıdov konsepsiyasıdır.

Bu alimlərin bütün təhsil strukturları üçün hazırladığı təlim texnologiyası prinsipcə onunla fərqlənir ki, burada məktəblilərin nəzəri təfəkkürünün formalaşdırılmasına daha çox üstünlük verilir. Bu sistemdə həyata keçirilən təlim məktəblilərə yalnız bilik və praktik bacarıqları deyil, həm də elmi anlayışları, bədii obrazları və mənəvi dəyərləri öyrətməklə təhsilin nəzəri səviyyəsini xeyli yüksəldir.

Elkonin-Davıdovun təlim sistemində iki əsas metodik qaydaya əməl olunması tövsiyə olunur: 1) təlimin ilk mərhələsindən, şagird məktəbə gəldiyi gündən bu və ya başqa şeylər, anlayışlar öyrədilərkən onların mənşəyi və yaranma şəraiti haqqında nəzəri biliklər verilməlidir; 2) şagird nəzəri bilikləri təlim fəaliyyəti prosesində tədricən, mütəmadi olaraq mənimsəməlidir [12; 252].

Burada bir məsələyə toxunmaq da yerinə düşər. Müvafiqlik prinsipi barədə V.V. Davıdov bildirir ki, bu prinsip özünün praktik mənasına görə, inkişafetdirici təlim ideyasına ziddir [19]. Halbuki yeni pedaqoji təfəkkür baxımından aparılan əsaslı nəzəri-eksperimental araşdırmalar göstərir ki, müasir məktəb şagirdlərə təkcə gücləri çatan(müyəssər) biliklər verməklə kifayətlənə bilməz. Tədris materialının asanlaşdırılması mahiyyətcə mənimsəmə problemini həll etmir. Pedaqoji psixologiyada inkişafetdirici təlim prinsipi müvafiqlik prinsipinin alternativi kimi əmələ gəlmişdir. Müvafiqlik prinsipindən fərqli olaraq inkişafetdirici təlim prinsipi təlimin elə şəkildə qurulmasını nəzərdə tutur ki, bu zaman inkişafın tempi və məzmunu öyrədici təsirlərin təşkil olunması yolu ilə qanunauyğun surətdə idarə olunur [6, s. 53-54]

Məlum olduğu üzrə, "təlimin fərdiləşdirilməsi və diferensasiyası" anlayışının yaranması fərdi yanaşma nəzəriyyəsi və təcrübəsinin inkişafında yeni mərhələ kimi mövcud olmuşdur. Təlim nəəzəriyyəsi və təcrübəsində isə onlar mahiyyətcə özünəməxsus xüsusiyyətlərlə seçilən "təlim strategiyası" (Qroland) kimi formalaşdı və yeni pedaqoji texnologiyanın yaranması üçün əlverişli şərait yaradılmış oldu [9, s. 61-62].

Fərdi yanaşma prinsipi təlim prosesində iki yolla-təlimin fərdilşdirilməsi və diferensiasiyası yolu ilə həyata keçirilir. Hər bir şagird bənzərsiz şəxsiyyətdir, özünəməxsus fərdi xüsusiyyətlərlə seçilir. Bir tərəfdən, bu xüsusiyyətləri qorumaq, digər tərəfdən, onları daha da inkişaf etdirmək müasir məktəbin əsas vəzifəsi sayılır. Təlimin fərdiləşdirilməsi və diferensasiyası, hər şeydən öncə, bu vəzifənin həyata keçirilməsinə xidmət edir. Lakin həmin məsələnin ikinci bir köklü tərəfi də vardır: şagirdlərin fərdi xüsusiyyətləri təlim fəaliyyəti baxımından eyni mənalı deyildir. .Bu baxımdan, ilk növbədə, aşağıdakı xüsusiyyətləri ayırd edirlər (İ. Unt və başqaları): 1) təlimə qabillik (ümumi əqli qabiliyyətlər, eləcə də xüsusi qabiliyyətlər); 2) tədris bacarıqları; 3) həm proqram, həm də proqramdan kənar bilik, bacarıq və vərdişlərdən ibarət öyrənmə səviyyəsi; 4)idrak maraqları.[6;397-398]. Dünya miqyasında diferensasiyanın əsasən iki formasından (və ya üsulundan) istifadə olunur: 1) müəyyən bir mərhələdə məktəb ayrı-ayrı bilik sahələri, məsələn, fizika, riyaziyyat və s. üzrə şaxələnir; 2) icbari fənlərə seçmə yolu ilə öyrənilən fənlər əlavə olunur. Bu forma və üsulların qovşağında təhsilalanların xüsusi qabiliyyətləri, maraqları və peşə niyyətlərinə görə müxtəlif tipli məktəb və siniflər yaradılır [12, s. 163-164].

Təlimin fərdiləşdirilməsinin başlıca prinsipi Amerika psixologiyası və pedaqogikasında zənginləşmə prinsipi sayılır. Bütün şagirdlər üçün eyni olan standart proqramların onların fərdi xüsusiyyətlərinə görə yeni materiallarla zənginləşdirilməsi isə təlimin fərdiləşdirilməsinin başlıca vasitəsi kimi qiymətləndirilir. Onun aşağıdakı iki növünü fərqləndirirlər: 1) üfiqi və ya laterial; 2)şaquli və ya intensiv zənginləşmə. [6, s. 402] İ. Unt bu məsələləri açıqlayaraq tədris ilinin sinifdaxili fərdiləşdirilməsini təlimin fərdiləşdirilməsinin universal forması kimi qiymətləndirir. Fərdi tapşırıqların məzmununun və sisteminin müəyyən edilməsi bu gün ən aktual nəzəri-metodik problemdir. Bu problemin həllində təhsilalanların fərdi xüsusiyyətlərinin də səriştə ilə öyrənilməsi xüsusi əhəəmiyyətə malikdir.[9, s. 60-64]

Bir çox hallarda şagirdin məktəbdə öyrəndiyi biliklərin az bir qisminin yadda qalması və istifadə edilməsinin səbəbini "Çoxnövlü zəka" nəzəriyyəsinin müəllifi kimi qəbul edilən Hovard Qardner tədris prosesində onların individuallığının nəzərə alınmamasında, hamıya eyni şəkildə yanaşmasında görür. Unudulmamalıdır ki, insanlar fərqlidir və bu baxımdan təlim pro-

sesində şagirdlərin fərqliliyini nəzərə alaraq informasiyanın müxtəlif şəkildə ötürülməsi daha səmərəli öyrənmənin baş tutmasına imkan yaradır. H .Qardner göstərir ki, ilk növbədə, şagirdlərin öyrənmə özəlliklərini müəyyən etmək, sonra isə buna uyğun fəaliyyət seçərək biliyin ötürülməsi prosesini həyata keçirmək vacibdir. Bu baxımdan intellektin (zəkanın) növlərini və hər növə xas olan xarakterik xüsusiyyətləri bilmək müəllimlər, şagirdlər və ümumiyyətlə, bütün təhsil işçiləri üçün əhəmiyyətli ola bilər. Hətta şagirdlərin öz intellekti haqqında məlumatlı olması özünü tanımağa imkan yaradır və onun metakoqnitiv bacarıqlarını artırır. Bu da şagirdlərdə sərbəst öyrənmə bacarığını (öyrənməyi öyrənmək konsepsiyası) inkişaf etdirir.

Hovard Qardner apardığı tədqiqatlar nəticəsində intellekti 8 (bəzi mənbələrə görə, hətta 9) növ (verbal-linqvistik intellekt, məntiqi-riyazi intellekt, musiqi-ritmli intellekt, məkan-vizual intellekt, naturalist intellekt, bədən-kinestik intellekt, şəxslərarası intellekt, fərddaxili intellekt) altında təsnif edir. Eyni zamanda o qeyd edir ki, insan intellektinin dəqiq sayını müəyyən edən universal bir siyahı yoxdur. İnsan zəkası olduqca müxtəlif və rəngarəngdir. Müəllim sinifdə olan hər şagirdin zəka növünü müəyyənləşdirməli və onların öyrənməsini təmin etmək üçün müxtəlif strategiyalardan istifadə etməlidir. Lakin bu o demək deyil ki, hər bir təşkilat formasında şagirdlərin hər birinin intellektinə uyğun fəaliyyət seçilməlidir. Müəllimin müxtəlif intellekt növlərini əhatə edən strategiyalardan və ya bir neçə iş üsulundan kombinə edilmiş surətdə istifadəsi təlim prosesini səmərəli edir.

"Çoxşaxəli əqli qabiliyyətlər nəzəriyyəsi" şəxsə hansısa bir əqli qabiliyyətin uyğun gəldiyini müəyyənləşdirən "nəzəryyə növü" deyil. Bu, idraki fəaliyyət nəzəriyyəsi olub hər bir şəxsin bütün növ əqli qabiliyyət sahəsində bacarığının olmasını irəli sürür. Əlbəttə, bu 8 növ əqli qabiliyyət birlikdə hər bir insan üçün yalnız ona xas tərzlərdə fəaliyyət göstərir. Əqli qabiliyyətlər həmişə bir-biri ilə qarşılıqlı əlaqədə olurlar. Hər bir kateqoriya çərçivəsində qabiliyyətli olmaq üçün bir neçə yol vardır. Spesifik bir sahədə adamın qabiliyyətli sayılması üçün əlamətlərdən ibarət standart yoxdur. "Çoxşaxəli əqli qabiliyyətlər nəzəriyyəsi" insanların əqli qabiliyyətlər çərçivəsində, eləcə də əqli qabiliyyətlər arasında öz istedadlarını gostərmək yollarının zəngin rəngarəngliyini vurğulayır [8, s. 22].

Müasir dövrdə ən çox qarşılaşdırılan yanaşmalar sırasındayuxarıda qeyd etdiyimiz J. Piaje və L. Vıqotskinin yanaşmasıdır ki, bu iki alimlərin fikirlərində ortaq cəhətlər olsa da, köklü fərqliliklər var. J. Piaje uşaqların zehni inkişafının mərhələlərlə baş verdiyini vurğuladığı halda, L. Vıqotski onun bu yanaşmasını qəbul etmir və bildirir ki, zehni inkişafın əsasında sosial münasibətlər dayanır. J. Piajenin "Uşağın əvvəlcə zehni inkişafı formalaşır, sonra öyrənməsi baş verir" fikrinin əksinə olaraq Vıqotski deyirdi ki, "Öyrənmə insanın psixoloji və mədəni inkişafının vacib, universal aspektidir". Başqa sözlə, öyrənmə inkişafdan əvvəl gəlir. Yəni, öyrənmə baş verməlidir ki, inkişaf baş tutsun. J. Piaje kimi Vıqotski də uşaqlarda öyrənmənin daha çox oyun oynayarkən baş verdiyini düşünürdü və bildirirdi ki, dil və uşağın inkişafı bir-birinə əsaslanır, çünki uşaqlar oynayarkən daim dildən istifadə edirlər; rolları müzakirə edirlər, nəyəsə etirazlarını bildirirlər, bir-birinin səhvlərini düzəldirlər və s. və bu cür qarşılıqlı əlaqə biliyin-öyrənmənin əsasını qoyur.

Bu baxımdan Vıqotskinin əsas töhfəsi bizə təhsilalanların bilik və bacarıqlarının artmasında onların müəllimlər və yoldaşları ilə olan əlaqələrinin nə qədər vacib olduğunu göstərmək idi. L .Vıqotski bu nəzəriyyəni, əslində, o zamanlar geniş yayılmış psixoloji testlərə cavab olaraq formalaşdırmışdır. O, bu cür testlərdəki uşaqların müstəqil intellektual fəaliyyətlərinin analiz olunması tendensiyası ilə razılaşmır və bildirirdi ki, onlar yalnız uşaqda artıq formalaşmış olan zehni xüsusiyyətləri aşkara çıxardır, lakin hələ formalaşmaqda olan funksiyalar bu analizlərdən kənarda qalır Yaxın İnkişaf Zonası isə məhz uşaqlarda inkişaf etməkdə olan konsepsiyaları aşkara çıxarır.[16, s. 242-244]

"Məktəbdə tədrisin əsas məqsədi özündən əvvəlki nəslin etdiklərini təkrarlayan deyil, yeniliklər etməyi bacaran bir nəsil yetişdirmək olmalıdır", - fikrini ifadə edən Jan Piajenin "Zehni inkişafın mərhələləri nəzəriyyəsi" müəllimin ənənəvi informasiya vermək obrazını dəyişərək onun imicini uşaqlarda tədqiqat marağını oyadan, onların suallara özlərinin cavab tapmasına dəstəlkləyən kimi müəyyən edir. O inanırdı ki, bütün uşaqlar düşünmə qabiliyyətlə-

rinin inkişafı zamanı eyni mərhələlərdən keçirlər. İnkişafın hansı mərhələlərinin konkret hansı yaşda getməsi isə uşaqdan uşağa dəyişə bilər. J. Piaje zehni inkişafı uşaqların körpəlikdən yetkinliyə qədərki dövrdə düşünmə və problem həlletmə bacarıqlarındakı keyfiyyət dəyişikliyi kimi təsvir edir. O, zehni inkişafın 4 mərhələsini müəyyən etmişdir: hissi-hərəki; ilkin əməli; konkret əməli; formal əməli.

Piajenin Zehni inkişaf nəzəriyyəsinin təhsildəki tətbiqi təlimin Konkret əməli və Formal əməli inkişaf mərhələlərinə uyğunlaşdırılmasıdır. Yəni təlimin məzmunu öyrənənin inkişaf səviyyəsinə müvafiq olmalıdır. Digər tərəfdən bu nəzəriyyəyə görə, uşaqların öyrənmələri üçün təlimdə praktik təcrübələrə yer verilməlidir. Digər təkliflərə aşağıdakılar aiddir: əyani vəsaitlərdən, əşyalardan, modellərdən istifadə etmək; şagirdlərə informasiyanı artan çətinlik dərəcəsinə uyğun olaraq təsnif etmək, qruplaşdırmaq imkanının verilməsi, çərçivələr və iyerarxiyalar vasitəsilə köhnə biliklə yeni biliyi uyğunlaşdırmaq; məntiqi-analitik düşüncə tələb edən məsələlərin (problemlərin) təqdim olunması; sosial və mədənin məsələlərin müzakirəsinə imkan yaratmaq; faktlardansa, geniş konsepsiyaların öyrədilməsi və bunları öyrənənə uyğun, mənalı kontekst daxilində çatdırmaq.[5, s. 126]

Stenford Universitetinin psixologiya kafedrasının psixoloqu Karol Dvekin araşdırmaları göstərmişdir ki, bəzi şagirdlər ən xırda maneələrdə belə, sarsılıb təslim olduqları halda, digərləri qoyulan tapşırığa daha çox bağlanır. K. Dverk insanların öz öyrənmələrini və intellektlərinə olan baxışını iki termin vasitəsilə ümumiləşdirmişdir: 1) inkişafa açıq düşüncə tərzi; 2) inkişafa qapalı düşüncə tərzi. Qapalı düşüncə tərzinə sahib şagirdlər akademik çətinliklərlə qarşılaşdıqda çox tez ruhdan düşürlər, çünki fikirləşirlər ki, ya onların qabiliyyəti yüksək deyil, ya da vəziyyəti dəyişmək üçün heç bir şey edə bilməzlər. Ona görə də müəllimlər şagirdlərdən tez-tez "Mən bu fənni qavraya bilmirəm", "Bu mənlik deyil" kimi şərhlər eşidirlər. İnkişafa açıq düşüncə tərzində olan şagirdlər isə, əksinə, bu cür hallarda təslim olmurlar, əvəzində öz strategiyalarını dəyişdirir, yardım istəyir, əlavə mənbələrə baş vururlar.

K. Dvek müəyyənləşdirmişdir ki, şagirdlər xarakter və intellektlərinin dəyişilə biləcək bir şey olduğuna əmin olduqda daha yaxşı akademik fəaliyyət, nəticələr göstərə bilər və düzgün, lazımi müdaxilə edildikdə qapalı düşüncə tərzindən inkişafa açıq düşüncə tərzinə keçmək üçün şagirdlərə necə kömək etmək və ümumilikdə, inkişafa açıq tipli sinfi necə formalaşdırmaq olar? Bunun üçün aşağıdakı bir neçə strategiyanı sinifdə tətbiq etmək lazımdır. [5, s. 131-133]

İlk növbədə, şagirdlərə intellektin, zəkanın dəyişə bilən olduğunu, heç nəyin daş üzərində yazılmadığını, beynin elastik olduğunu bildirmək lazımdır.

Digər bir məsələ isə şagirdlərdə öyrənmə prosesində risk götürmək mədəniyyətini yaratmaqdır.Yəni şagirdlər səhv etməkdən qorxmamalı, öyrənmə yolunun səhvlərdən keçdiyini başa düşməli və etdikləri səhvlərə hədəfə çatmaq üçün lazım olan bir vasitə kimi baxmalıdırlar. Şagirdlərə öyrətmək lazımdır ki, hər yeni sinfə keçdikcə, öyrənmə prosesi mürəkkəbləşir və ilk cəhdlər uğurlu alınmaya bilər. Amma bundan qorxmaq lazım deyil, sadəcə səhvləri təbii bir hal görərək daha çox səy göstərməyə çalışmaq lazımdır.

Nəzərə alınması lazım olan digər bir məsələ şagirdləri tərifləyərkən düzgün tərifləmə növündən istifadə etməkdir. Ənənəvi fikrə görə, şagirdlərə "Çox ağıllısan", "Zəkalı uşaqsan",- demək onlarda stimullaşdırıcı effekt yaradır. Son araşdırmalar isə göstərir ki, bu cür təriflər şagirdlərə risklər etməyə imkan vermir, çünki onlar səhv edərək müəllimin gözündə daha əvvəlki kimi zəkalı görünməməkdən qorxurlar. Bu da onları nəticə etibarı ilə qapalı düşüncə tərzinə keçirir. Ona görə də müəllimlər şagirdləri tərifləyərkən onların intellektini, ağlını deyil, çəkdikləri zəhməti, göstərdikləri səyləri, cəhdləri, prosesə cəlb olunmalarını, istifadə etdikləri strategiya, üsul və yolları tərifləməlidirlər. İntellektin dəyişə bilən bir xüsusiyyət olduğunu bilmək həm müəllim, həm də şagirdlərə öyrənmə prosesini düzgün şəkildə qurmaq, sinifdə müvafiq öyrənmə mühiti yaratmaq, öyrənmədən həzz almaq imkanı yaradır [5, s. 132].

*Nəticə.* 1. Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərinin özündə ehtiva edən təlim sisteminin formalaşırılması yollarının müəyyənləşdirilməsində iki mühüm şərt diqqət mərkəzində saxlanılmalıdır: 1) təlim

prosesində müəllim tərəfindən qəbul edilmiş məqsəd (gözlənilən nəticəyə çevriləcək hərəki model) təhsilalanın məqsədinə çevrilməlidir, (yəni mənimsənilməsi planlaşdırılan təlim nəticəsi təhsilalanın idrak tələbatının təmin olunma obyektinə çevrilməlidir, bu halda təlim prosesi "təhsilalan mərkəzli proses"ə çevrilə bilər); 2) təlim sistemində tam hissə münasibətlərinin dialektikası reallaşmış olmalıdır. 2. Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərinin özündə ehtiva edən təlim sisteminin formalaşırılması prosesində aşağıda özünə yer alan ideyalara və uyğun strategiyalara önəm verilməlidir: 1) təhsilalanların öyrənmə motivasiyalarının olması(təlim prosesində motivasiya sferasının mövcudluğu); 2) şagirdlər tərəfindən intellektin, zəkanın dəyişə bilən, beynin elastik olduğunu dərk olunması; 3) müvafiqlik prinsipinin gözlənilməsi, diferensial yanaşmanın və fərdiləşmənin zəruri olduğu halların diqqət mərkəzinə çəkilməsi, təhsialanların düşüncə tərzlərinin, zəka çoxnövlülüyünün və zehni inkişafın mərhələliliyinin gözardı edilməməsi; 4) müəllimin müxtəlif intellekt növlərini əhatə edən strategiyalardan və ya bir neçə iş üsulundan kombinə edilmiş surətdə istifadəsi; 5) hamı üçün səmərəli öyrənmə mühitinin formalaşması üçün təhsilalanlara bərabər imkanların yaradılmasının mühüm prinsip olaraq əldə rəhbər turulması.

**Problemin aktuallığı.** Təlim mühitinin tənzimlənməsi pedaqoji problemdir və bu problem bir çox digər pedaqoji problemlər kimi həmişəyaşar təbiətlidir. Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin (mühitinin) formalaşdırılması yollarının müəyyənləşdirilməsi aktual pedaqoji problemdir.

**Problemin elmi yeniliyi.** Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərinin özündə ehtiva edən təlim sisteminin formalaşırılması yollarının müəyyənləşdirilməsində iki mühüm şərt mövcuddur.

**Problemin praktik əhəmiyyəti.** Analitik və evristik fəaliyyət novlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin (mühitinin) formalaşdırılması yollarının müəyyənləşdirilməsi praktikada pedaqoji prossesin tənzimlənməsində mühüm rol oynayır.

**Ədəbiyyat:**


1. Mirzəcanzadə, A.X. İxtisasa giriş (Neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti). / A.X. Mirzəcanzadə. -Bakı: Bakı Universiteti, -1990, - 432s.
2. İbrahimov, F.N. Təlimdə alqoritmik və evristik fəaliyyətin optimal münasibətlərinin əsaslarına dair oçerklər. / F.N. İbrahimov. -Bakı: Mütərcim, -1998. - 290s.
3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. -Bakı: Qanun, - 2010.
4. Шапоринский С.А. К проблеме взаимоотношение научного познания в обучении. - "Советская педагогика", -1966, -№ 2.
5. Metodika və Pedaqogika (Yenilənmiş çərçivə sənədi əsasında hazırlanmış vəsait). -Bakı: Maksima, -2024,- 182s.
6. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. / Ə.Ə. Əlizadə -Bakı: Pedaqogika , - 2004,-145s.
7. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat(Ali təhsil müəssisələri üçün dərs vəsaiti) / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. - Bakı: Mütərcim, - 2021, - 608s.
8. İbrahimov F.N. Ümumtəhsil məktəblərində riyaziyyatın didaktikası: Dərs vəsaiti / F.N. İbrahimov - Bakı: Mütərcim, - 2017 , - 711 s.
9. İbrahimov, F.N. Orta ümumtəhsil məktəblərində riyaziyyatın fəlsəfəsi, didaktikası, həyatakeçirilmə texnologiyası(dərs vəsaiti). / F.N. İbrahimov. -Bakı: "Mütərcim", - 2023, - 1373s..
10. Брунер Дж. Процесс обучения. -Москва, Изд-во АПН РСФСР, - 1962, - 82с.
11. Bruner J.S. The Process of Education. - Cambridge, Harvard Univ. Press, - 1966, - 92 s.
12. İbrahimov, F.N., Didaktika (Dərs vəsaiti). / F.N. İbrahimov, C. Feyziyev, S.R. Bədiyev. - Bakı: "Mütərcim", - 2022, - 623s.
13. Махмутов, М.И. Теория и практика проблемного обучения. / М.И. Махмутов - Казань: Татарское книжное издательство, - 1972, - 368с.
14. Clark L.H., Starr S. Secondary School Teaching Methods. - Schools of Education University of Hart Ford, Macmilian Company, -New York. - 1986, - 469s.
15. Delta Kappan İsmət. Konsruktivizm nəzəriyyəsi. - Beynəlxalq konfransın materialları. - Bakı, - 2004.
16. Выготский, Л.С. Избранные психологические исследования. / Л.С. Выготский -Москва, Изд-во АПН РСФСР, -1967, - 520с.

17. Занков, Л.В. Дидактика и жизнь. / Л.В. Занков -Москва, «Просвещение»,- 1968, -176с.
18. Эльконин Д.Б. Интеллектуальные возможности младших школьников и содержание обучения. В сб.: «Возрастные возможности усвоения знаний. Под ред. Д.Б. Эльконина и В.В. Давыдова. – Москва: Просвещение, - 1966, - 441с.
19. Давыдов В.В. Новое в науке о психологии школьника. Стенограмма лекции , - Москва, - 1983, - 176с.
20. Леонтьев А. Н., Гальперин П.Я., Эльконин Д.Б. Реформа школы и задачи психологии. - Москва, «Вопросы психологии», -1967, - № 6.

**E-mail:**firedun52@gmail.com
**E-mail:** abdurahmanov_v@mail.ru
**Redaksiyaya daxil olub:** 23.09.2024.

*UOT 372.851*

***Firidə Firudin qızı Mustafayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının kafedra müdiri,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0001-8264-9097*
*https://doi.org/10.69682/arti.2024.91(5).141-144*

# ŞAGİRDLƏRİN RİYAZİ NİTQİNİ İNKİŞAF ETDİRİLMƏSİNDƏ İNKİŞAFETDİRİCİ ÇALIŞMALARDAN İSTİFADƏ YOLLARI

***Фирида Фирудин гызы Мустафаева***
*заведующий кафедрой Шамахинского филиала Азербайджанского*
*Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# СПОСОБЫ ИСПОЛЬЗОВАНИЯ РАЗВИВАЮЩИХ УПРАЖНЕНИЙ В РАЗВИТИИ МАТЕМАТИЧЕСКОЙ РЕЧИ УЧАЩИХСЯ

***Firida Firudin Mustafayeva***
*head of the department of Shamakhi branch under Azerbaijan State, Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# WAYS OF USING DEVELOPMENTAL EXERCISES IN THE IMPROVEMENT OF PUPILS' MATHEMATICAL SPEECH

**Xülasə.** İnsan təbiətdən lazım olanları almaq üçün müəyyən zəruri bilik, bacarıq və vərdişlərə yiyələnməlidir. Bunun üçün məktəb, təhsil, təlim anlayışları yaranmış və hər birinin məzmunu və vəzifələri müəyyənləşdirilmişdir.

Riyaziyyatdan inkişafetdirici çalışmalar dedikdə aşağıdakılar nəzərdə tutulur: şagird bu məsələləri həll edərkən müşahidə, müqayisə aparmalı, müstəqil nəticə çıxartmalı, həllin mümkün üsullarını tapmağı, öz fikrini əsaslandırmağı, müəyyən qanunauyğunluğu aşkar etməyi bacarmalıdır. İbtidai siniflərin riyaziyyat təlimində oyunların, əyləncəli, maraqlı, məntiqi məsələlərin həlli prosesində şagirdlərin nitqini inkişaf etdirmək üçün imkanlar çoxdur. Məqalədə riyaziyyat təlimində riyazi nitqin inkişaf etdirilməsində inkişafetdirici çalışmalardan istifadə yolları geniş araşdırılmışdır.
***Açar sözlər:*** *inkişafetdirici çalışmalar, riyaziyyat təlimi, məntiq, təfəkkür, nitq, hesab əməlləri*

**Аннотация.** Человек должен приобрести определенные необходимые знания, умения и навыки, чтобы получить от природы то, что ему нужно. Для этого были созданы понятия школы, воспитания и обучения, определены содержание и задачи каждой из них.

Развивающие занятия по математике означают следующее: при решении этих задач учащийся должен наблюдать, сравнивать, делать самостоятельные выводы, находить возможные решения, обосновывать свое мнение, обнаруживать определенные закономерности. В математическом образовании начальных классов имеется множество возможностей для развития речи учащихся в процессе решения игровых, веселых, интересных, логических задач. В статье широко исследуются способы использования развивающих упражнений в развитии математической речи в математическом образовании.
***Ключевые слова:*** *развивающие упражнения, математическое обучение, логика, мышление, речь, арифметические действия*

**Abstract.** Man must acquire certain necessary knowledge, skills and habits to get what he needs from nature. For this purpose, the concepts of school, education and training were created and the content and tasks of each of them were defined.

Developmental studies in mathematics mean the following: when solving these problems, the student must observe, compare, draw independent conclusions, find possible solutions, justify his opinion, and discover certain regularities. There are many opportunities to develop students' speech in the process of solving games, fun, interesting, logical problems in the mathematics education of primary classes. In the article, the ways of using developmental studies in the development of mathematical speech in mathematics education are widely investigated.

***Keywords:*** *developmental studies, mathematics education, logic, thinking, speech, arithmetic operations*

İbtidai məktəblərdə riyaziyyat təliminin təkmilləşdirilməsi müasir məktəbin ən vacib problemlərindən biridir. Riyaziyyat təliminin təkmilləşdirilməsi isə çoxşaxəli prosesdir və ona görə də bu işə müxtəlif istiqamətlərdən yanaşmaq lazım gəlir. Ibtidai siniflərdə riyaziyyat təliminin məzmun və metodlarının təkmilləşdirilməsi ilə yanaşı şagirdlərdə yüksək maraq, təşəbbüskarlıq və fəallıq təmin olunmalıdır. Təcrübə göstərir ki, ibtidai siniflərdə riyaziyyat dərslərinin daha maraqlı olması və şagirdlərin fəallaşdırılması üçün səmərəli yollardan biri də inkişafetdirici çalışmalardan istifadə edilməsindən ibarətdir. İnkişafetdirici məsələlərdən istifadə zamanı şagirdlərin marağı, təşəbbüskarlığı, təfəkkür müstəqilliyi, fəallığı yüksəlir, özünənəzarət və riyazi əsaslandırma qabiliyyətləri formalaşır.

Riyaziyyatdan inkişafetdirici çalışmalar dedikdə aşağıdakılar nəzərdə tutulur: şagird bu məsələləri həll edərkən müşahidə, müqayisə aparmalı, müstəqil nəticə çıxartmalı, həllin mümkün üsullarını tapmağı, öz fikrini əsaslandırmağı, müəyyən qanunauyğunluğu aşkar etməyi bacarmalıdır.

Təlimin səmərəliliyinin yüksəldilməsində inkişafetdirici çalışmalar böyük potensial imkanları yaratdığına görə belə çalışmaların didaktik funksiyalarının dərindən öyrənilməsi vacibdir.

Riyaziyyat təlimində tətbiq edilən inkişafetdirici çalışmaları didaktik funksiyalarına görə aşağıdakı kimi qruplara ayırmaq olar:

1. Yeni biliyin verilməsinə xidmət edən çalışmalar.

2. Biliklərin tətbiqinə xidmət edən çalışmalar.

3.Şagirdlərin riyazi dünyagörüşünü möhkəmləndirməyə xidmət edən çalışmalar.

Yuxarıdakı təsnifat şərtidir, çünki eyni zamanda bir məsələ bir neçə didaktik funksiyaya malik ola bilər.

İnkişafetdirici təlim ideyaları məktəblilərin yaradıcı fəallığını artırmaq üçün dərsin hər mərhələsində müstəqil işlərin geniş tətbiqini tələb edir. Bununla belə, şagirdlərin ən yüksək fəallığı yeni materialın müstəqil mənimsənilməsi zamanı əvvəl qazanılmış bilikləri yeni tədris vəzifələrinin həllinə tətbiq etmə yollarını axtararkən daha qabarıq şəkildə meydana çıxır. Ona görə də təlim inkişafetdirici olmalı, uşağın əqli, zehni fəallığını biliklərlə zənginləşdirməli, idraki maraqlarını formalaşdırmalıdır. Bu dərslər əyani, obrazlı olmalıdır. Əyani təlim uşaqlarda görmə yaddaşını möhkəmləndirməyə və qətiyyətli olmağa kömək edir. K.D. Uşinski uşaq rənglərlə, formalarla, surətlərlə fikirləşir, buna görə də əyaniliyin köməyi ilə hər şey asan və daha möhkəm mənimsənilir - deyə əyaniliyin zəruriliyini əsaslandırırdı.

İbtidai siniflərin riyaziyyat təlimində oyunların, əyləncəli, maraqlı, məntiqi məsələlərin həlli prosesində şagirdlərin nitqini inkişaf etdirmək üçün imkanlar çoxdur. Buraya;

a) şifahi say;

b) şifahi hesablama;

c) əməllərin təriflərinin (mənasının) soruşulması;

d) əməllərin xassələrinin soruşulması;

e) vurma və bölmə cədvəllərinin soruşulması;

f) kəmiyyətlərin ölçü vahidləri cədvəllərinin soruşulması;

g) məsələ həllinin təhlili və sualların qoyuluşu;

h) həll olunmuş məsələnin tərs məsələsinin tərtib edilməsi;

i) ədədi ifadə tərtib edilməsi və ədədi ifadənin tələffüz edilməsi və s.

Ümumiyyətlə, təlim prosesində səsləndirilən bütün cümlə, ifadə və təklifləri bura aid etmək olar. Müəllimin vəzifəsi – şagirdin şifahi nitqindəki qüsurları vaxtında aradan qaldırmaqdan ibarətdir.

Şagirdlərin riyazi nitqinin inkişaf etdirilməsində natural ədədlərin nömrələnməsi və hesab əməllərinin təlimi böyük rol oynayır.

Natural ədədlərin nömrələnməsinin təlimində şagirdlər bir sıra riyazi terminlərlə tanış olurlar. Milyon dairəsində ədədləri nömrələmək üçün Azərbaycan dilində 13 termin (söz) kifayət edir. Həmin terminlərin köməyi ilə istənilən ədədi yazmaq və oxumaq mümkündür.

Azərbaycan dilində praktik olaraq istənilən ədədi adlandırmaq üçün 17 söz kifayət edir. Lakin müstəsnalıq təşkil edən sözlərin sayı doqquzdur: iyirmi, otuz, qırx, əlli, altmış, yetmiş, səksən, doxsan.

Məktəb təcrübəsində şagirdlərin nömrələmədə "ədədlə" "rəqəm" terminlərini qarışdırdıqları ən çox yayılmış xarakterik səhvdir. Bəzən yuxarı sinif şagirdləri, hətta müəllimlər həmin sözləri yerində işlətmirlər. Mətbuatda "ədəd" termini əvəzinə "rəqəm" terminini işlədilməsi də həmin səhvin genişlənməsinə səbəb olur. Məsələn, qəzetdə bu və ya digər sahənin planı faizlə və ya ədədlə (miqdarı) göstərilir və belə ifadə yazılır: "...biz gələn kvartalda bu rəqəmi (rəqəmləri) daha da artıracağıq"

Təlim prosesində müəllim sual verərkən bəzən düzgün olmayan ifadə işlədir. Məsələn, "435 ədədində neçə rəqəm var?". Halbuki bu sual belə olmalıdır: "435 ədədi neçə rəqəmlə yazılıb?" və ya "435 ədədinin yazılışında neçə rəqəm var?"

Hələ birinci sinifdə şagirdlər "ədəd" və "rəqəm" terminlərini və onların fərqini öyrənirlər. Burada "ədəd" və "rəqəm" terminlərilə əlaqədar fənlərarası əlaqədən istifadə edilməlidir. Belə ki, ana dilində "səs" və "hərf" terminləri ilə "ədəd" və "rəqəm" terminləri müqayisə edilməlidir, yüz dairəsində nömrələmədə şagirdlər "ikirəqəmli ədəd" anlayışı ilə tanış olurlar. Nömrələmədə toplama və çıxmaya hazırlıq elementləri olduğundan şagirdlər həmin əməlləri yaxşı mənimsəyirlər. Lakin əməllərin komponentlərinin adlarını (əsasən çıxma, vurma və bölmə əməllərində) düzgün işlətməkdə səhvə yol verirlər. Çünki həm onların adları asan tələffüz olunmur, həm də gündəlik həyatda onların tətbiqi ilə rastlaşmırlar.

Bu çətinliyi aradan qaldırmaq üçün əvvəlcə həmin terminləri adı ilə oynadığı rolu arasındakı uyğunluğu aşkar etmək, əhəmiyyətini göstərmək və əməlin məzmunu ilə əlaqələndirmək lazımdır. Bundan əlavə çətin mənimsənilən və tələffüz olunan terminlər tez-tez təkrar olunmalı və onların iştirak etdiyi riyazi mətnlər və ya mətnli məsələlərdən istifadə edilməlidir. Məsələn, "Azalan 16, fərq 5-dir. Çıxılanı tapın". "Hasil 24, birinci vuruq 6-dır. İkinci vuruğu tapın". "Bölən və qismət 16-dır. Bölünəni tapın" və s. bu kimi məsələlər.

Şagirdlərin riyazi nitqini inkişaf etdirmək üçün hesab əməlləri xassələrinin öyrədilməsi də böyük imkanlara malikdir. Həqiqətən, hər bir əməl xassəsinin simvolik şəkildə yazılması, onun sözlərlə ifadə edilməsi, çalışmalar həllində tətbiq edilməsi qarşıya qoyulan məqsədə xidmət edir. Çalışmaq lazımdır ki, şagird tərəfindən söylənilən hər bir xassə və ya ondan çıxan qaydalar həm məzmunu, həm də forma etibarı ilə düzgün və konkret olsun.

İbtidai siniflərdə şifahi hesablama vərdişlərinin möhkəmləndirilməsi ön plana çəkilir. Bunun üçün həm də hesab əməlləri xassələri, səmərəli hesablama üsulları tətbiq edilir. Deməli, hesablamada şagird öz fikrini dəqiq riyazi dildə ifadə etmək zərurəti ilə qarşılaşır.

Hesab əməlləri qaydası (alqoritmi) öyrədildikdən sonra, şagird hər bir alqoritmin icrasını izah edir və bu da onun riyazi nitqini tədricən inkişaf etdirir.

Təcrübə göstərir ki, bəzən sinif müəllifləri "şifahi say" ilə "şifahi hesablamanı" qarışdırırlar və bu nöqsan şagirdlərdə də özünü göstərir. Məsələn, "şifahi say" adı altında şifahi hesablamaq üçün 17+13, 21+19, 16+24 kimi misallar verir. Say nömrələmə ilə əlaqədardır, hesablama isə hesab əməllərinin yerinə yetirilməsi ilə əlaqədardır. Yuxarıda qeyd edilən səhvlərə bəzi metodik vasitələrdə də rast gəlmək olur.

İbtidai siniflərin riyaziyyat dərsliklərində, müvafiq metodik vasitələrdə "miqdar" və "say" terminlərinə tez-tez rast gəlirik. Lakin bəzən həmin terminlər sinonim kimi işlədilir və nəticədə qüsura yol verilir. Aydındır ki, saymanın nəticə-

si ədəddir və hesab əməlləri ədədlər üzərində yerinə yetirilir. Əgər miqdar – sayma nəticədirsə, onda "miqdar" sözü "say" sözü ilə əvəz edilməlidir. Məsələn, qutudakı qələmlərin sayı nə qədərdir?

Məlum olduğu kimi, ədəd və kəmiyyət anlayışları ibtidai siniflərin riyaziyyat kursunun əsas anlayışlarıdır. Lakin təcrübə göstərir ki, müəllimlər "kəmiyyət" terminınə heç də uyuşmur, "adlı ədəd" anlayışına üstünlük verirlər. Onların çoxu "kəmiyyət nədir və hansı əlamətlərə malikdir?" sualına aydın cavab verə bilmirlər. Belə ki, riyaziyyat elmində kəmiyyət anlayışına müxtəlif yanaşmalar mövcuddur və məktəbdə kəmiyyət anlayışının formalaşdırılması üçün həmin yanaşmalardan heç birinə tamamilə əsaslanmaq olmaz, çünki onların hər biri yüksək mücərrədliyə malikdir.

İbtidai siniflərdə kəmiyyətlərin öyrədilməsi üçün intuitiv yanaşmadan istifadə olunur. Ümumiyyətlə, kəmiyyət dedikdə ölçmə ilə əlaqədar əşya və hadisələrin hər hansı xassəsi başa düşülür. Eynicinsli kəmiyyətləri müqayisə etmək, toplamaq, çıxmaq olar, kəmiyyəti ədədə vurmaq və bölmək olar. Kəmiyyəti ölçmə nəticəsi ədəddir və ona kəmiyyətin ədədi qiyməti deyilir. Sayma və ölçmə əməliyyatları mahiyyət etibarilə fərqli olduqları kimi, ədəd və kəmiyyət anlayışları da bir-birindən fərqlənir. Məsələn, ölçmə nəticəsində parçanın uzunluğu 24 smdirsə, 24 sm ədəd deyil, kəmiyyətdir, 24 isə onun ədədi qiymətidir. İbtidai sinif şagirdlərində bu haqda konkret və dəqiq təsəvvürlər yaradılmalıdır.

Elmdə asan yol yoxdur. Lakin elə etmək olar ki, mümkün imkanlardan istifadə etməklə, uşaqlar maraqla oxusunlar, riyaziyyatın maraqlı, cazibədar elm olduğunu dərk etsinlər. Şagirdlərin riyazi nitqinin inkişaf etdirilməsində inkişafetdirici çalışmalardan yerində və düzgün istifadə edilməsi məqsədə uyğun hesab edilsin.

İbtidai siniflərin riyaziyyat kursu uşaqların təfəkkür, yaddaş, yaradıcılıq, nitq və müşahidə qabiliyyətlərinin inkişafına kömək göstərir, şagirdlərin fikrini yığcam, dəqiq, aydın və düzgün ifadə etmək qabiliyyətini artırır və onların məntiqi təfəkkürünün inkişafı üçün möhkəm zəmin yaradır. Müəllimin vəzifəsi riyaziyyatın tədrisi zamanı bu imkanlardan geniş istifadə etməkdir.

**Problemin elmi yeniliyi**. Riyaziyyat təlimində şagirdlərin riyazi nitqini inkişaf etdirilməsində inkişafetdirici çalışmalardan istifadə yolları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Riyaziyyat təlimində şagirdlərin riyazi nitqini inkişaf etdirilməsi məqsədi ilə inkişafetdirici çalışmalardan istifadə edilməsi yollarından çoxsaylı ibtidai sinif müəllimləri faydalana bilər.

**Problemin aktuallığı.** İnkişafetdirici çalışmalardan istifadə zamanı şagirdlərin marağı, təşəbbüskarlığı, təfəkkür müstəqilliyi, fəallığı yüksəlir, özünənəzarət və riyazi əsaslandırma qabiliyyətləri formalaşır. İbtidai siniflərin riyaziyyat təlimində oyunlar, əyləncəli, maraqlı, məntiqi məsələlər şagirdlərin nitqini inkişaf etdirdiyindən onun tədqiqi həmişə aktualdır.

**Ədəbiyyat:**


1. Əlizadə, X. Düşün tap. / X. Əlizadə. -Bakı, 2003. -68 s.
2. Kazımov Z.F, Tağıyeva S.C Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər). / Z.F. Kazımov, S.C. Tağıyeva. -Bakı, 2017. - 245 s.
3. Богомолова, О.Б. Логические задачи. / О.Б. Богомолова. -Москва, 2013.- 277 s.
4. Mustafayeva, F.F. Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər). / F.F. Mustafayeva. – Bakı, 2023. – 165 s.
5. Mustafayeva F.F. Riyaziyyat təlimində qrafik təsvirlərdən istifadə (I-IV siniflər). / -Bakı, 2023. -161 s.


**E-mail:** mustafayevafiride@gmail.com
**Redaksiyaya daxil olub:** 05.09.2024.

*UOT 372.851*

***Xumar Tofiq qızı Novruzova***
*Bakı Slavyan Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0007-1415-8457*
*https://doi.org/10.69682/arti.2024.91(5).145-151*

# MATRİSLƏR VƏ ONLAR ÜZƏRİNDƏ ƏMƏLLƏRİN ÖYRƏDİLMƏSİNDƏ İSTİFADƏ EDİLƏN PRAKTİK MƏZMUNLU MƏSƏLƏLƏR SİSTEMİNDƏ İKT-NİN TƏTBİQİ

***Хумар Тофиг гызы Новрузова***
*доцент*
*Бакинского Славянского Университета,*
*доктор философии по педагогике*

# ПРИМЕНЕНИЕ ИКТ В СИСТЕМЕ ПРАКТИЧЕСКИХ ЗАДАЧ, ИСПОЛЬЗУЕМЫХ ПРИ ОБУЧЕНИИ МАТРИЦАХ И ОПЕРАЦИЯХ НАД НИМИ

***Khumar Tofig Novruzova***
*associate professor of the*
*Baku Slavic University,*
*doctor of philosophy in pedagogy*

# APPLICATION OF ICT IN THE SYSTEM OF PRACTICAL CONTENT PROBLEMS USED IN TEACHING MATRICES AND OPERATIONS ON THEM

**Xülasə.** Məqalə riyaziyyatın praktik tətbiqlərinə həsr olunmuşdur. Matrislərdən iqtisadiyyat, tibb, proqramlaşdırma, psixologiya və digər elm sahələrində istifadə edilməsi onun təkcə riyazi elmlərdə deyil, həyatımızın bütün sahələrində vacib rol oynadığını göstərir. Məqalədə matrislər üzərində əməllərin yerinə yetirilməsində hazır riyazi paketlərdən və MS Excel proqramından istifadə yolları göstərilir. Bu isə, bir tərəfdən tələbələrin diqqətini məsələnin mahiyyətinə yönəldərək, əlavə hesablamaların qısaldılmasına, digər tərəfdən isə onların İKT bacarıqlarının inkişaf etdirilməsinə səbəb olur.
***Açar sözlər:*** *riyaziyyat, matris, IKT, sehrli kvadrat, MS Excel*

**Аннотация.** Статья посвящена практическим приложениям математики. Использование матриц в сферах экономики, медицины, программирования, психологии и других наук показывает, что они играют важную роль не только в математике, но и во всех сферах нашей жизни. В статье показаны способы использования готовых математических пакетов и программы MS Excel для выполнения операций над матрицами. Это, с одной стороны, направляет внимание студентов на суть вопроса, сокращает дополнительные расчеты, а с другой стороны, приводит к развитию их навыков работы с ИКТ.
***Ключевые слова:*** *математика, матрица, ИКТ, магический квадрат, MS Excel*

**Abstract.** The article is devoted to practical applications of mathematics. The use of matrices in the spheres of economics, medicine, programming, psychology and other sciences shows that they play an important role not only in mathematics, but also in all spheres of our life. The article shows ways to use mathematical packages and MS Excel to perform operations on matrices. This, on the one hand, directs students' attention to the essence of the issue, reduces additional calculations, and on the other hand, leads to the development of their skills in working with ICT.
***Keywords**: mathematics, matrix, ICT, magic square, MS Excel*

Cəbrin əsas mövzularından biri olan matrislər həyatımızın bütün sahələrində - iqtisadi və sosial-məişət xarakterli məsələlərin həllində, psixologiyada, mikrobiologiyada, rəssamlıqda, tele-radio verilişlərinin hazırlanmasında, fizikada, kimyada, marketinq sahəsində, maliyyə və iqtisadiyyatda, ümumiyyətlə, elm və texnikanın bir çox digər sahələrində tətbiq edilir. O cümlədən, matrislərin proqramlaşdırma sahəsində də geniş tətbiq edilməsi riyaziyyat elmində onun rolu və əhəmiyyətini artırmışdır. Gündəlik həyatımızda tez-tez matrislərlə qarşılaşırıq – statistik verilənlər toplusu, ilin təqvimi, tələbə və ya şagirdlərin müvəffəqiyyət cədvəli və s. Matrislər riyazi məsələlərin proqramlaşdırma ilə həlli üçün çox əlverişlidir. Obrazlı desək, matrislər obyektin riyazi modelləri və müxtəlif xarakterli məsələlərin alqoritmlərinin qurulması üçün istifadə olunan təməl daşlarıdır.

Qədim dövrlərdən insanlar matrislərdən sehrli və ya latın kvadratları şəklində istifadə edirdilər. Misir papirusları üzərində həkk edilmiş ilk sehrli kvadrat buna sübut ola bilər. Cəbrdə öyrəndiyimiz matrislərin ilk nümunəsi kimi qədim Misir kvadratları da insanların o dövrlərdə böyük heyrətinə səbəb olmuş, ona görə də həmin dövrün insanları onları sehrli kvadratlar adlandırmışdılar. Hətta sehrli kvadratlara bir çox ədəbiyyat və incəsənət nümunələrində də rast gəlmək olar. B.e. əvvəl II əsrdə qədim əlyazmalarda ilk sehrli kvadrat təsvir olunmuşdur.

| | | |
|---|---|---|
| 4 | 9 | 2 |
| 3 | 5 | 7 |
| 8 | 1 | 6 |

Bu kvadratda cəm 15-ə bərabərdir. Başqa bir qədim kvadratda isə cəm 34-dür. Qədim dövrlərdə insanlar ədədlərin bu cür yerləşməsini sehr adlandırırdılar. Belə kvadratlar Çində, Hindistanda yaradılmış və ərəblərin vasitəsilə XV əsrdə Avropaya gətirilmişdir. Belə ki, “Faust”-da cadugərin hazırladığı məlhəmin hazırlanma qaydası məhz sehrli kvadratda olan ədədləri göstərir, Dürerin “Melanxoliya” əsərində sehrli kvadrat təsvir edilmişdir. Bu kvadratlar elə hazırda cəbr elminin öyrəndiyi matrislərin ilk nümunəsi idi.

Ədədlərin müəyyən qayda ilə düzülüşü riyaziyyatda həmişə ən maraqlı və heyrət doğuran məsələlərdən biri olmuşdur. Hələ qədim dövrlərdən n-tərtibli sehrli kvadratların qurulması ideyaları insanların diqqətini cəlb etmişdir. İnsanlar sadə ədədlərdən ibarət sehrli kvadratların qurulması, onun vasitəsilə sadə ədədlərin tapılması və s. bu kimi məsələləri həll etməyə çalışmışlar. 1, 7, 13, 31, 37, 43, 61, 67, 73 sadə ədədlərindən düzəldilmiş 3 tərtibli sehrli kvadrat cəmi ən minimal ədədə - 111-ə bərabər olan kvadratdır. Belə kvadratların varlığını ilk dəfə 1907-ci ildə Genri Dyüdeni isbat etmişdir. Bu kvadrata Dyüdeni kvadratı adı verilib (1, s. 419).

| | | |
|---|---|---|
| 67 | 1 | 43 |
| 13 | 37 | 61 |
| 31 | 73 | 7 |

Dyüdeni kvadratındakı sadə ədədlər ardıcıl ədədlər deyildi. 1913-cü ildə C.N. Mansi isbat etdi ki, ən kiçik ardıcıl sadə ədədlərdən düzəldilmiş sehrli kvadrat 12 tərtiblidir. Bu kvadratda yerləşən ədədlər ilk ardıcıl 144 sadə ədəddən ibarətdir. Kvadratda sətir, sütun və diaqonallar üzrə alınan cəmlər isə 4514-ə bərabərdir (1, s.420).

L. Eyler sehrli kvadratların qurulması ilə uzun müddət məşğul olmuşdur. 1969-cu ildə Amerika riyaziyyatçıları cəmiyyətinin illik qurultayında iki əsas məsələyə baxılmışdı: bunlardan biri qruplar nəzəriyyəsinə aid idi, digərində isə Eylerin yunan-latın kvadratları ilə bağlı fərziyyəsinin doğru olmadığı bəyan edildi. Eyler göstərmişdi ki, 4-ə bölünməyən tərtibə malik olan (məsələn, tərtibi 10 olan) yunan-latın kvadratlarının qurulması qeyri-mümkündür. 177 il Eylerin bu fikri doğru sayılırdı. Lakin E. Parker, R. Bous və S. Şrikxend 10 tərtibli kvadratı quraraq bu fərziyyəni təkzib etmişdi. Qeyd edək ki, L. Eyler (1707-1783) sehrli kvadratlara həsr olunmuş “Yeni növ sehrli kvadratların tədqiqi” adlı geniş məzmunlu memuarında bu kvadratları latın hərfləri ilə düzəltdiyi üçün onları latın kvadratları da adlandırırlar. Kvadratların birində latın, digərində isə yunan hərflərini yazdıqda, onların superpozisiyasından yunan-latın kvadratı alınır (1, s.7-8). (şək. 1)

| | | | |
|---|---|---|---|
| a | b | c | d |
| b | a | d | c |
| c | d | a | b |
| d | c | b | a |

| | | | |
|---|---|---|---|
| α | *β* | γ | δ |
| γ | δ | α | β |
| δ | γ | β | α |
| β | α | δ | γ |

| | | | |
|---|---|---|---|
| aα | bβ | cγ | dδ |
| bγ | aδ | dα | cβ |
| cδ | dγ | aβ | bα |
| dβ | cα | bδ | aγ |

Şək. 1

Beləliklə, 16 xana a, b, c, d və α, β, γ, δ hərfləri ilə elə doldurulub ki, heç bir sətir, sütun və diaqonallardakı hərflər təkrarlanmır. Superpozisiyadan alınan sonuncu kvadratda olan latın və yunan hərflərinin kombinasiyaları da təkrar edilmir.

Sehrli kvadratların riyaziyyatçıların bu qədər böyük marağına səbəb olmaları onların çox geniş spektrdə tətbiq sahələrinin olması ilə əlaqədardır. Bir neçə məsələdə fikrimizi aydınlaşdıraq. Martin Qardnerin əyləncəli riyaziyyata həsr olunmuş kitabında bu məsələlərdən biri aşağıdakı kimi nəzərdən keçirilir (1, s.11-12):

Kembric universitetinin professoru, məşhur genetik Ronald Fişer 20-ci əsrin əvvəllərində ilk dəfə olaraq latın kvadratlarının kənd təsərrüfatında tətbiqi məsələlərini araşdırmışdır. Alim tərəfindən təklif edilən belə bir məsələyə baxaq:

7 növ müxtəlif gübrədən buğda əkimində ən az məsrəf və vaxt sərfi ilə necə istifadə oluna bilər? Daha doğrusu, elə bir eksperiment qoyulmalıdır ki, həm 7 növ gübrənin keyfiyyəti yoxlanılsın, həm də torpağın tərkibindəki dəyişikliklər eksperimentə təsir etməsin. Bunun üçün buğda əkilən sahəni 7×7 sayda xanalara ayırmalıyıq. Bu məsələdə əsas çətinlik onudan ibarətdir ki, torpaq sahəsinin ayrı-ayrı hissələri eyni məhsuldarlığa malik deyildir və bu dəyişiklik heç bir qanunauyğunluğa tabe olmur. Buna görə sahəni 49 kvadrata ayıraraq, gübrəni ixtiyarı qayda üzrə bu hissələrə səpməklə statistik nəticələr əsasında qoyulan məsələnin həllini tapmaq olar.

Fərz edək ki, bir deyil, 7 növ buğda var. Deməli, artıq 4-cü dəyişən kəmiyyəti daxil etməliyik – burada torpaq sahəsinin ayrıldığı kvadratların koordinatları - sətir və sütun nömrələri və gübrənin növü ilk üç dəyişən olaraq götürülür. Bu məsələ yunan-latın kvadratı ilə həll olunur. Buğdanın 7 növü yunan hərfləri ilə, gübrənin növləri isə latın hərfləri ilə işarə edilməlidir. Bu halda da sadə statistik hesablamalarla məsələni həll etmək olar.

Qeyd edək ki, L. Eylerin özü yunan-latın kvadratlarının qurulması məsələləri ilə uzun müddət məşğul olmuş və sonda bu qənaətə gəlmişdir ki, yalnız tək və cüt-cüt (4-ə bölünən) tərtibli kvadratların qurulması mümkündür. Bu mülahizə Eylerin yunan-latın kvadratları hipotezi kimi məşhurdur.

1901-ci ildə fransız riyaziyyatçısı Qaston Tarri 6-cı tərtib kvadratların qurulması üçün bütün variantları nəzərdən keçirərək, Eylerin hipotezinin doğru olduğunu göstərmişdi. Lakin sonralar İKT-nın sürətli inkişafı, elektron hesablamaların aparılması 10 tərtibli, daha sonralar isə 14, 18, 22 və s. tərtibli kvadratları qurmağa imkan yaratdı (1, s.12).

Beləliklə, yunan-latın kvadratları ilə kənd təsərrüfatı, iqtisadiyyat, biologiya, tibb, sosiologiya və s. sahələrdə eksperimentlərin qoyulması və nəticələrin alınması üçün əlverişli həll üsulları verir. Aydındır ki, yuxarıdakı misalda qurulan xana torpaq sahəsi deyil, həkim nəzarətinə gəlmiş xəstə, ağacın yarpağı, zaman, vaxt intervalı, insanlar qrupu və ümumiyyətlə, müxtəlif sahələrə və kateqoriyalara aid olan obyektlər ola bilər. Bu müxtəlifliyin özü ədədlərdən sehrli kvadratların qurulmasının həyatımızın bütün sahələrinə aid məsələlərin həlli üçün əlverişli bir vasitə olduğunu göstərir. Kvadratlardakı ədədlərin matrisin elementləri olduğunu nəzərə alsaq, matrislərin praktik həyatımızdakı rolu və əhəmiyyətini düzgün qiymətləndirə bilərik.

Matris sözünü elmə ilk dəfə 1850-ci ildə ingilis alimi Ceyms Cozef Silvestr gətirmişdir. Matris – latınca ilk mənbə, başlanğıc mənasını verir. Lakin XVII əsrdə isveçrəli riyaziyyatçı

Qabriel Kramer 1751-ci ildə xətti tənliklər sisteminin həlli üçün Kramer qaydası adlanan üsulu şərh etmişdir. Təxminən həmin dövrlərdə Qauss metodu da yaradıldı. Lakin bu sahədə XIX əsr riyaziyyatçıları U. Hamilton və A. Keli daha böyük işlər görmüşdü. 1859-cu ildə Artur Keli matrislər nəzəriyyəsini yaratmış, bu nəzəriyyə U. Hamilton, F. Frobenius, K. Veyerştrass, M. Jordan tərəfindən inkişaf etdirilmişdir. 1920-ci ildə Qeyzenberq kvant mexanikasında matrislərin tətbiqi nəzəriyyəsini, 1940-cı ildə isə Olqa Tauski Toqq təyyarələrin vibrasiyasının analizi üçün matrislərin tətbiqi nəzəriyyəsini hazırlamışdır. Kompüter ekranındakı təsvirlərin özü də matrislərdən ibarətdir, belə ki, hər bir nöqtə rəqəmsal formada bir ədədlə göstərildiyi üçün istənilən təsviri ədədlərdən təşkil olunmuş matris formasında göstərə bilərik.

Matrislərin aşağıdakı növlərini qeyd etmək olar (2):

1) Sətirlərinin sayı sütunlarının sayına bərabər olan kvadrat matris (m=n);

2) Vektor matris (yalnız sütun və ya yalnız sətirlərdən ibarət olan matris);

3) Kvadrat matrisin baş diaqonal üzərində olmayan elementlərinin hamısı 0-a bərabərdirsə, belə matris diaqonal matris adlanır ($a_{ij}=0,\ i\neq j$);

4) Diaqonal matrisin bütün elementləri 1-ə bərabərdirsə, belə matris vahid matris adlanır ($i=j,\ a_{ij}=1$) və ($i\neq j,\ a_{ij}=0$);

5) Diaqonal matrisdə baş diaqonal elementləri eyni bir ədədə bərabər olduqda, bu matris skalyar matris adlanır;

6) Sıfır matris ($a_{ij}=0$);

7) Üçbucaq matris – baş diaqonaldan bir tərəfdə yerləşən bütün elementlər 0-a bərabər olarsa;

8) Simmetrik matris ($i\neq j,\ a_{ij}=a_{ji}$);

9) Çəpsimmetrik matris ($i\neq j,\ a_{ij}=-a_{ji}$).

Matrislər praktik məsələ həllərində çox geniş tətbiq edilir: n sayda müəssisənin m sayda müxtəlif növ məhsul istehsalı, bu məhsullara sərf edilən k sayda xammalın qiyməti, müəssisənin gəlirinin hesablanması və s. kimi iqtisadi məsələlərin həllində matrislərdən istifadə əlverişlidir.

Matris mövzusunu praktik məsələlərlə bağlı olaraq öyrədilməsini aşağıdakı məsələlərdə nəzərdən keçirək:

Tutaq ki, sənaye, kənd təsərrüfatı və ticarət sahələrində resursların bölüşdürülməsi aşağıdakı cədvəllə verilmişdir (3):

| Resurslar | Sənaye | Kənd təsərrüfatı | Ticarət |
|---|---|---|---|
| İstilik | 5,4 | 8,4 | 6,9 |
| Su | 2,1 | 2,8 | 4,8 |
| Elektrik enerjisi | 3,6 | 5,9 | 4,4 |

Bu cədvəli aşağıdakı matrislə göstərə bilərik:

$$A=\begin{pmatrix}5{,}4 & 8{,}4 & 6{,}9\\ 2{,}1 & 2{,}8 & 4{,}8\\ 3{,}6 & 5{,}9 & 4{,}4\end{pmatrix}$$

Bu matrisdəki $a_{23}=4{,}8$ elementi göstərir ki, ticarətdə nə qədər su sərfiyyatı, $a_{13}=6{,}9$ elementi isə göstərir ki, ticarət obyektlərində 6,9 v. istilik sərfi olub. İlin müxtəlif aylarında və ya müxtəlif illərdə bu ədədlərin cəmini tapıb matrislər vasitəsilə göstərmək, onların fərqini tapmaqla müqayisə etmək üçün verilənləri kompüterdə təsvir etmək, hazır riyazi paketlərdən istifadə etmək olar. Məsələn, matrisin elementlərini daxil etməklə, toplama, çıxma, ədədə vurma, matrisə tərs matrisin qurulması və s. əməliyyatları icra etmək mümkündür. *Onlinemschool* tətbiqi ilə bu məsələlər əlverişli şəkildə həll edilir (şək. 2):






Şək. 2

Beləliklə, matrislər mövzusunu praktik məzmunlu məsələlər sistemi ilə daxil etməklə daha səmərəli həll üsulları tapmaq və tədris metodikasını təkmilləşdirmək olar. Ədədlərin matris formasında yazılışı onlar üzərində müxtəlif əməllərin yerinə yetirilməsi və beləliklə, matrislər cəbrinin köməyilə kompüterdə təsvir edilməsi üçün tədris prosesində səmərəli nəticə verir.

Determinantın xassələri mövzusunda tələbələrin ən çətin qavradıqları məsələ determinantın hər hansı bir sətir və ya sütun elementlərini hər hansı bir ədədə vurub onun başqa bir sətrin və ya sütunun uyğun elementləri ilə toplanması nəticəsində qiymətinin sabit qalmasıdır. Bu xassənin praktik tətbiqinə aid müxtəlif misal və məsələ həlləri nəzərdən keçirmək olar.

Tutaq ki, belə bir isbat məsələsi verilmişdir: 942, 471, 785 ədədləri 157 ədədinə qalıqsız bölünür. İsbat edin ki, bu ədədlərin rəqəmlərindən düzəldilmiş determinant da 157 ədədinə qalıqsız bölünür.

Tələbələri bir neçə qrupa bölüb, hər birinə bu tapşırığı müxtəlif yollarla həll etməyi təklif etmək olar. Belə ki, I qrup aşağıdakı üsulla məsələni həll edə bilər:

Məsələni həll etmək üçün belə bir matris qururuq:

$$A = \begin{matrix} 9 & 4 & 2 \\ 4 & 7 & 1 \\ 7 & 8 & 5 \end{matrix}$$

Aydındır ki, hər bir ədədi mərtəbə toplananlarının cəmi şəklində göstərmək olar:

$942 = 9\cdot 100 + 4\cdot 10 + 2$

$471 = 4\cdot 100 + 7\cdot 10 + 1$

$785 = 7\cdot 100 + 8\cdot 10 + 5$

Bu yazılış onu göstərir ki, hər bir ədədi almaq üçün onun birinci rəqəmini 100-ə, ikinci rəqəmini 10-a vurub üçüncü rəqəmin üzərinə əlavə edirik. Burada determinantın aşağıdakı xassəsindən istifadə edək: bir sətrin (sütunun) elementlərinin üzərinə digər sətrin (sütunun) elementlərinin hər hansı bir ədədə hasilini əlavə etsək, determinant dəyişməz. Axırıncı sütunun elementləri üzərinə 1-ci sütunun 100-ə, 2-ci sütunun 10-a hasilinin əlavə edək. Məlum xassəyə görə determinant dəyişməz, yəni axırıncı sütunu dəyişib, matrisi aşağıdakı kimi yaza bilərik:

$$\begin{matrix} 9 & 4 & 942 \\ 4 & 7 & 471 \\ 7 & 8 & 785 \end{matrix}$$

Üçüncü sütun elementlərinin hər biri şərtə görə 157 ədədinə qalıqsız bölündüyündən, 157-ni determinant xaricinə çıxartsaq, determinantın da bu ədədə qalıqsız bölündüyü aşkar olar.

II qrup yuxarıda alınan matrisin determinantını hesablayır:

$$det = 9\cdot 7\cdot 785 + 4\cdot 8\cdot 942 + 7\cdot 4\cdot 471 - 7\cdot 7\cdot 942 - 4\cdot 4\cdot 785 - 9\cdot 8\cdot 471 = 49455 + 30144 + 13188 - 46158 - 12560 - 33912 = 157$$

III qrup məsələni kompüter tətbiqi ilə həll edə bilər (şək. 3):




Şək. 3

Alınan nəticələrin müqayisəsi isbat prosesinin əyaniliyini təmin edir. Aydındır ki, bu isbat məsələsini üçtər tibli determinantı məlum üsullardan biri ilə tapıb (det(A)=157), asanlıqla isbat etmək olardı. Lakin bu məsələni belə tipdə isbat məsələləri üçün model kimi göstərib, dörd və daha çox tərtibli determinantlara tətbiq etmək olar.

Matrisin determinantının hesablanmasını Excel proqramının MDETERM funksiyası ilə də yerinə yetirmək olar. Bunun üçün müvafiq xanalara matrisin elementləri daxil edilir və MDETERM funksiyası seçilir. Funksiyanın arqumenti olaraq A10:C12 diapazonu seçilir və Enter düyməsi sıxılır. Əvvəlcədən kursorun yerləşdirildiyi boş xanalardan birində (B14) determinantın qiyməti əks olunur. Əməliyyatların sadəliyi baxımından MS Excel-də istənilən tərtibdə determinantın hesablanması səmərəlidir.

A matrisi aşağıdakı kimi verilibsə, onun determinantı belə tapılır:

det(A)=30+60+16-10-36-80= -20

$$\begin{matrix} 5 & 3 & 2 \\ 2 & 1 & 4 \\ 5 & 4 & 6 \end{matrix}$$

Excel-də bu determinantın qiyməti daha səmərəli yolla hesablana bilər. Bunun üçün proqramın riyazi funksiyalar bölməsinə aid olan MDETERM() funksiyasından istifadə etmək olar (şək. 4).




Şək. 4

Qeyd edək ki, Excel tətbiqi proqramının tərkibində riyazi funksiyalar bölümündə cəbrin bəzi mövzularında istifadə edə biləcəyimiz funksiyalar yerləşir. Proqramın tələbə və müəllimlər üçün əlyetərliliyini nəzərə alaraq, bunlardan bir neçəsini göstərək:

МОБР() –Tərs matrisi tapır;

MULTİNOM(число1;число2) - qiymətlər cəminə bərabər olan ədədin faktorialının qiymətlərin faktorialları hasilinə nisbətini tapır;

МУМНОЖ(массив1;массив2) – iki matrisin hasilini tapır;

МЕДИН(размер) – göstərilən ölçüdə vahid matrisi tapır və s.

n məchullu tənliklər sisteminin həlli matris tənliklərə gətirilərək, kompüter proqramlarının köməyilə həll edilə bilər. Lakin sistemin həllinin araşdırılması, bircins sistemin həllinin varlığı, Kramer üsulu, Qauss üsulu və s. kimi mövzular praktik cəhətdən geniş tətbiq sahəsinə malik olduğundan, müxtəlif müasir pedaqoji texnologiyaların tətbiqi ilə nəzərdən keçirilməli və izah edilməlidir.

Ümumiyyətlə, matrislər cəbri, n məchullu tənliklər sisteminin həlli mövzuları tələbələrə praktika ilə, həyatla bağlı olan məsələlər sistemi ilə izah edilərsə, daha yaxşı nəticələr əldə etmək olar.

Cəbrin yaranması və inkişafı tarixinin tədqiqi göstərir ki, bu elm məsələlərin kütləvi şəkildə həlli, digər elm sahələrinə aid olan məsələlər üçün ümumi həll metodlarının işlənib hazırlanmasına imkan verir. Bu isə öz növbəsində həmin məsələlərin İKT vasitəsilə reallaşdırılmasına gətirib çıxarır.

**Problemin nəzəri və praktik əhəmiyyəti** ali məktəblərdə cəbrin tədrisi prosesində İKT-nin tətbiqini reallaşdırmaqla ali və orta məktəb riyaziyyatı arasındakı fərqlərin aradan qaldırılması, tədrisin daha müasir üsullarla, yeni pedaqoji texnologiyalar əsasında qurulması ilə bağlı metodikanın hazırlanmasıdır.

**Problemin aktuallığı.** Cəmiyyət inkişaf etdikcə İKT sahəsinə tələbatın sürətlə artması, lakin pedaqoji universitetlərdə cəbrin tədrisində İKT təminatının zəif olması kimi ziddiyyətlərin həlli cəbrin tədrisi prosesinin səmərəli təşkili, İKT imkanlarından, riyazi paketlərdən, kompüter proqramlarından istifadəni nəzərdə tutan yeni tədris texnologiyalarına əsaslanan metodik sistemin yaradılmasını şərtləndirir. Bu isə tədqiqatı aktual edən səbəblərdən biridir.

**Ədəbiyyat:**


1. Гарднер, М. Математические досуги. / М. Гарднер. - Москва: Мир, - 1972. - 495 с.
2. Cabbarov, I.Ş. Ali cəbr kursu. Dərs vəsaiti. / İ.Ş. Cabbarov, M.M. Hümmətov. – Bakı: Mütərcim, - 2018. - 384 s.
3. Ахмедханова, А.И. Применение матриц в экономике: [Электронный ресурс] / А.И. Ахмедханова, В.А. Кожемякина, В.А. Мамаев. // Международный студенческий научный вестник. Ставропольский государственный Аграрный Университет, Физико-математические науки, - 2015. ч.4, №3, - с. 454-456. URL: https://eduherald.ru/ru/article/view?id=14118


**E-mail:** novruzovaxumar@gmail.com
**Redaksiyaya daxil olub:** 12.09.2024.

*UOT 372.851*

***Laura Faiq qızı Fətullayeva***
*mexanika üzrə elmlər doktoru, professor*
*https://orcid.org/0009-0006-2159-4671*
*https://doi.org/10.69682/arti.2024.91(5).152-157*

***Nəzakət Böyükağa qızı Məmmədova***
*Bakı Dövlət Universitetinin Tətbiqi analizin*
*riyazi üsulları kafedrasının dosenti,*
*riyaziyyat üzrə fəlsəfə doktoru,*
*https://orcid.org/0009-0006-4848-3269*

***Rəna Üzeyir qızı Orucova***
*Azərbaycan Dövlət Aqrar Universitetinin*
*Fizika və riyaziyyat kafedrasının dosenti,*
*riyaziyyat üzrə fəlsəfə doktoru,*
*https://orcid.org/0009-0000-5360-6880*

# PLASTİKİYYƏT NƏZƏRİYYƏSİ MƏSƏLƏLƏRİNİN HƏLLİNƏ ELASTİKİ HƏLLƏR ÜSULUNUN TƏTBİQİ

***Лаура Фаик кызы Фатуллаева***
*доктор наук по механике, профессор*

***Назакет Боюкага кызы Мамедова***
*доцент кафедры Математические методы прикладного анализа*
*Бакинского Государственогой Университета,*
*доктор философии по математике*

***Рена Узеир кызы Оруджова***
*доцент*
*кафедры Физики и математики*
*Азербайджанского Государственного Аграрного Университета*
*доктор философии по математике*

# ПРИМЕНЕНИЕ МЕТОДА УПРУГИХ РЕШЕНИЙ ДЛЯ РЕШЕНИЯ ЗАДАЧ ТЕОРИИ ПЛАСТИЧНОСТИ

***Laura Faik Fatullayeva***
*doctor of sciences in mechanics, professor*

***Nazakat Boyukagha Mammadova***
*associate professor of the department of Mathematical methods of applied analysis*
*at the Baku State University*
*doctor of philosophy in mathematics*

***Rena Uzeyir Orujova***
*associate professor of the department of physics and mathematics at the*
*Azerbaijan State Agrarian University*
*doctor of philosophy in mathematics*

# APPLICATION OF THE ELASTIC SOLUTION METHOD TO SOLVING PROBLEMS OF PLASTICITY THEORY

**Xülasə.** “Ədədi üsullar” və “Hesablama riyaziyyatı” fənlərinin tədrisi birbaşa olaraq riyaziyyatın fundamental sahələri ilə əlaqəlidir. Eyni zamanda təqribi hesablama üsulları tətbiqi elm sahələrində və riyazi modelləşdirmədə rast gəlinən bir çox məsələlərin həllində əvəzolunmaz rol oynayırlar. Təqdim olunan məqalədə plastikiyyət nəzəriyyəsinin mürəkkəb problemlərinin həllinə tətbiq olunan elastiki həllər üsulu araşdırılmış və bir praktiki nümunə üzərində üsul izah olunmuşdur.

***Açar sözlər:*** *elastiki həllər üsulu, çubuğun materialı, gərginlik, deformasiya, elastiklik modulu, qüvvə, ardıcıl yaxınlaşma prosesi.*

**Резюме.** Преподавание предметов «Численные методы» и «Вычислительная математика» напрямую связано с фундаментальными направлениями математики. В то же время приближенные методы играют незаменимую роль при решении многих задач, встречающихся в области прикладных наук и математического моделирования. В представленной статье исследован метод упругих решений, применяемый для решения сложных задач теории пластичности и пояснен метод на практическом примере.

***Ключевые слова:*** *метод упругих решений, материал стержня, напряжение, деформация, модуль упругости, сила, процесс последовательного приближения.*

**Summary.** Teaching the subjects “Numerical Methods” and “Computational Mathematics” is directly related to the fundamental areas of mathematics. At the same time, approximate methods play an indispensable role in solving many problems encountered in the field of applied sciences and mathematical modeling. The presented article examines the method of elastic solutions used to solve complex problems in the theory of plasticity and explains the method using a practical example.

***Keywords:*** *method of elastic solutions, rod material, stress, deformation, elastic modulus, force, successive approximation process.*

## Giriş

Məlumdur ki, plastikiyyət nəzəriyyəsi məsələlərinin həlli prosesi olduqca mürəkkəbdir. Bu zaman xüsusi törəməli qeyri-xətti diferensial tənliklər sinfi alınır. Həll prosesində yaranmış mürəkkəb məsələlərin analitik həlli bəzi hallarda çox çətin olur, hətta elə hallar olur ki, qoyulmuş məsələni həll etmək mümkün olmur. Bu səbəbdən plastikiyyət nəzəriyyəsi məsələlərinin, ümumiyyətlə, tətbiqi riyaziyyat (mexanika, riyazi fizika) və riyazi modelləşdirmə məsələlərinin həllinə təqribi üsullar tətbiq olunur [1, s. 2]. Belə üsullardan biri A.A. İlyuşin tərəfindən təklif olunmuş və elastiki həllər üsulu adlandırılmışdır [3]. Üsulun əsas ideyası ondan ibarətdir ki, plastikiyyət nəzəriyyəsi məsələsi elastikiyyət nəzəriyyəsinin xətti məsələsinin həllər ardıcıllığının qurulmasına gətirilir və bu ardıcıllıq plastikiyyət məsələsinin həllinə yığılır.

Elastiki həllər üsulunun iki müxtəlif modifikasiyası var:

1. Əlavə yüklənmə zamanı elastiki həllər üsulu;
2. Dəyişən parametrlər daxil olan elastiki həllər üsulu.

Üsulun birinci modifikasiyası plastiki deformasiyanın yaranmasına səbəb olan hər hansı əlavə həcmi və səthi yüklənmənin təsir etməsi zamanı tətbiq olunur. Elastikiyyət modulunun və Puasson əmsalının dəyişilməsi ikinci modifikasiyanın tətbiq olunmasına səbəb olur.

## Elastiki həllər üsulunun tətbiqi

Üsulun “Əlavə yüklənmə zamanı elastiki həllər üsulu” adlanan modifikasiya olunmuş formasının izahını və tətbiqini praktiki məsələ üzərində şərh edək. Üsulun “Dəyişən parametrlər daxil olan elastiki həllər üsulu” adlanan formasının izahat və tətbiqini sonrakı tədqiqatlarımızda verəcəyik.

Tutaq ki, en kəsiyinin sahəsi $A$ olan çubuq verilmişdir. Bu çubuğun uclarına $F$ qüvvəsi təsir edir (şəkil 1). Sadəlik üçün fərz olunur ki, çubuqdakı gərginlik vəziyyəti bir ox istiqamətindədir.




Şəkil 1. Çubuğun modeli.

Çubuğa monoton yüklənmə verildikdə onun materialı üçün gərginlik və deformasiya arasındakı əlaqə qeyri-xəttidir [4]:

$$\sigma = \phi(\varepsilon) \qquad (1)$$

Baxılan məsələ çubuğa $F$ qüvvəsi ilə təsir etdikdə çubuğun nisbi uzunluğuna deformasiyasının təsirini araşdırmaqdan və bu deformasiyanın təyinindən ibarətdir.

(1) düsturunu aşağıdakı formada yazaq:

$$\sigma = E\varepsilon - [E\varepsilon - \phi(\varepsilon)]$$

və yaxud

$$\sigma = E[\varepsilon - \omega(\varepsilon)\varepsilon], \qquad (2)$$

burada

$$E\omega(\varepsilon)\varepsilon = E\varepsilon - \phi(\varepsilon).$$

(2) asılılığını asanlıqla qrafiki göstərmək olar (şəkil 2). Məlumdur ki,

$$\omega(\varepsilon) = 1 - \frac{\phi(\varepsilon)}{E\varepsilon} = \begin{cases} 0, \sigma \le \sigma_T; \\ \dfrac{AB - AC}{AB} = \dfrac{BC}{AB}, \sigma > \sigma_T. \end{cases}$$

$BC$ parçası deformasiyanın qiyməti sabit olduqda elastiki-plastiki çubuğun gərginliyinin elastiki çubuğun gərginliyindən nə qədər kiçik olduğunu göstərir. Deməli, $\omega(\varepsilon)$ funksiyası çubuğun materialının möhkəmlik dərəcəsini xarakterizə edir.

$\varepsilon$ deformasiyasını $\sigma$ gərginliyi və (2) tənliyindəki $\omega(\varepsilon)$ funksiyası ilə ifadə edək. Nəzərə alsaq ki,

$$\sigma = \frac{F}{A},$$

onda alarıq:

$$\varepsilon = \frac{F}{EA} + \omega(\varepsilon)\varepsilon.$$




Şəkil 2. Gərginlik və deformasiya arasındakı əlaqə.

$F$ qüvvəsinin qiymətini qeyd etməklə, $\varepsilon$ -nun hesablanmış qiymətlər ardıcıllığını quraq:

$$\left.\begin{aligned} &\varepsilon_0 = \frac{F}{EA}; \\ &\varepsilon_1 = \frac{F}{EA} + \omega(\varepsilon_0)\varepsilon_0; \\ &\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots \\ &\varepsilon_n = \frac{F}{EA} + \omega(\varepsilon_{n-1})\varepsilon_{n-1}, n > 0 \end{aligned}\right\} \quad (3)$$

$\varepsilon_0$ başlanğıc yaxınlaşma olmaqla bərabər, eyni zamanda $E$ elastiklik modulu və $F$ qüvvəsinin verilmiş qiymətlərində elastiki çubuq üçün həll kimi də götürülür. Sonrakı hər bir addımda isə elastiki çubuq üçün yeni məsələ həll olunur. Bu zaman nəzərə alınır ki, çubuğa təsir edən $F$ qüvvəsinin qiyməti dəyişilir. Onda aşağıdakı münasibəti yazmaq olar:

$$F^* = F + EA\omega(\varepsilon_{n-1})\varepsilon_{n-1}, n > 0.$$

(3) həllər alqoritmi ilə qurulmuş ardıcıllıq qrafiki olaraq şəkil 3-də göstərilmişdir.

Doğrudan da, $\varepsilon_n$ deformasiya qiyməti $CB = \omega(\varepsilon_n)\varepsilon_n$ parçasının qiyməti vasitəsilə tapılır və sonrakı yaxınlaşmada hesab olunur ki,

$$\varepsilon_{n+1} = \varepsilon_0 + CB$$

və ya

$$\varepsilon_{n+1} = \varepsilon_0 + DA + AB = \varepsilon_n + AB.$$




Şəkil 3. $\varepsilon_n$ həllər alqoritmi ilə qurulmuş ardıcıllıq.

Şəkil 3-dən göründüyü kimi ardıcıl yaxınlaşma prosesi (iterasiya prosesi) deformasiyanın dəqiq qiymətinə yığılır. İterasiya prosesinin yığılması zamanı $\omega(\varepsilon)$ funksiyası kəsilməz hesab olunur və aşağıdakı şərti ödəyir:

$$0 \le \omega(\varepsilon) \le \omega(\varepsilon) + \varepsilon \frac{d\omega(\varepsilon)}{d\varepsilon} \le \lambda, \varepsilon > \varepsilon_T$$

, (4)

burada $\lambda < 1$ və sabitdir.

**Ədədi hesablamalar**

Nümunə olaraq çubuğun xətti möhkəmliyə malik olan materialının dartılma diaqramına baxaq (şəkil 4). Bu çubuq üçün gərginlik və deformasiya arasındakı asılılıq aşağıdakı kimi yazılır [5]:

$$\sigma = \begin{cases} E\varepsilon, \varepsilon \le \varepsilon_T; \\ \sigma_T + E_k(\varepsilon - \varepsilon_T), \varepsilon \ge \varepsilon_T, \end{cases}$$

(5)

burada $E = tg\alpha$, $E_{ki} = tg\beta$.




Şəkil 4. Çubuğun xətti möhkəmliyə malik olan materialının dartılma diaqramı.

(5) asılılığını (2) şəklində yazaq, bunun üçün (5) bərabərliyinin sağ tərəfinə $E\varepsilon$ hasilini əlavə edib, çıxaq:

$$\sigma = E\left[1 - \left(1 - \frac{\varepsilon_T}{\varepsilon}\right)\left(1 - \frac{E_k}{E}\right)\right]\varepsilon,$$

$\varepsilon \ge \varepsilon_T$ olduqda.

Beləliklə, alarıq:

$$\sigma = E[1 - \omega(\varepsilon)]\varepsilon,$$

burada

$$\omega(\varepsilon) = \begin{cases} 0, \varepsilon \le \varepsilon_T \\ \left(1 - \frac{\varepsilon_T}{\varepsilon}\right)\left(1 - \frac{E_k}{E}\right), \varepsilon \ge \varepsilon_T \end{cases}.$$

Fərz edək ki, $\frac{F}{(EA)} = 0{,}002$; $\varepsilon_T = 0{,}001$.

Çubuğun materialının möhkəmlik dərəcəsinin, yəni $\frac{E_k}{E}$ nisbətinin iterasiya prosesinin yığılma sürətinə təsirini qiymətləndirmək üçün müvafiq hesablamalar aparılır və aşağıdakı cədvəl qurulur. Qeyd etmək lazımdır ki, $\varepsilon_n$ qiymətləri $\frac{E_k}{E} = 0{,}5$ və $0{,}25$ hallarına uyğun olaraq hesablanmışdır.

**Cədvəl**

| $n$ | $E_k / E = 0{,}5;\ \varepsilon = 0{,}003$ | | $E_k / E = 0{,}25;\ \varepsilon = 0{,}005$ | |
|---|---|---|---|---|
| | $\varepsilon_n$ | xəta, % | $\varepsilon_n$ | xəta, % |
| 0 | 0,002 | 50 | 0,002 | 60 |
| 1 | 0,0025 | 16,67 | 0,00275 | 45 |
| 2 | 0,00275 | 8,33 | 0,0033125 | 33,75 |
| 3 | 0,002875 | 4,17 | 0,00373438 | 25,31 |
| 4 | 0,0029375 | 2,08 | 0,00405078 | 18,98 |
| 5 | 0,00296875 | 1,04 | 0,00428809 | 14,24 |
| 6 | - | - | 0,00446606 | 10,68 |
| 7 | - | - | 0,00459955 | 8,01 |
| 8 | - | - | 0,00469966 | 6,01 |
| 9 | - | - | 0,00477475 | 4,51 |
| 10 | - | - | 0,00483106 | 3,38 |
| 11 | - | - | 0,00487329 | 2,53 |
| 12 | - | - | 0,00490497 | 1,90 |
| 13 | - | - | 0,00492873 | 1,43 |
| 14 | - | - | 0,00494655 | 1,07 |

Cədvəldən göründüyü kimi möhkəmlik dərəcəsinin azalması ardıcıl yaxınlaşmaların sayının artmasına səbəb olur.

Sərhəd şərtlərini yalnız yerdəyişmələrdə verək $(u = v = w = 0)$ [6]. Fərz edək ki, gərginliklər aşağıdakı şərtləri ödəyirlər:

$$0 \le \omega(\varepsilon_u) < 1$$

və

$$0 \le \omega(\varepsilon_u) + \varepsilon_u \frac{d\omega(\varepsilon_u)}{d\varepsilon_u} \le 1 - \frac{k}{2G} = \lambda < 1,$$

$$\frac{d\omega(\varepsilon_u)}{d\varepsilon_u} \ge 0.$$

Onda elastiki həllər ardıcıllığı plastikiyyət nəzəriyyəsi məsələsinin dəqiq həllinə yığılır.

Yuxarıda verilmiş sonuncu şərtin ödənildiyi aşağıdakı mülahizədən alınır. Belə ki, $\sigma_u \sim \varepsilon_u$ diaqramı üçün toxunma əmsalı sıfırdan fərqli hesab olunur, yəni

$$\frac{d\sigma_u}{d\varepsilon_u} \ge k > 0.$$

Digər tərəfdən isə

$$\frac{d\sigma_u}{d\varepsilon_u} = 2G\left[1 - \omega(\varepsilon_u) - \varepsilon_u \frac{d\omega(\varepsilon_u)}{d\varepsilon_u}\right],$$

$$\frac{d\omega(\varepsilon_u)}{d\varepsilon_u} > 0.$$

Bu isə onu göstərir ki, sonuncu şərt ödənilir. Beləliklə, $\omega(\varepsilon_u)$ funksiyası yuxarıda verilmiş şərtləri ödəyir.

## Nəticə

Hesablama prosesinin başlanğıc mərhələsi olan fiziki və riyazi modellərin düzgün qurulması çox əhəmiyyətlidir. Keyfiyyətsiz seçilmiş fiziki model heç vaxt uğurlu riyazi modelə gətirib çıxarmır. Keyfiyyətsiz riyazi model isə effektiv ədədi üsulun tətbiqinə imkan vermir. Bu səbəbdən "Ədədi üsullar" fənninin tədrisi prosesində müəllim təkcə proqram çərçivəsində olan mövzularla kifayətlənməməlidir. Tətbiqi elm sahələrindən götürülmüş elə mürəkkəb, lakin elmi-praktiki əhəmiyyət kəsb edən məsələlər vardır ki, onlar nəinki məlum üsulların tətbiqini tələb edir, həmçinin yeni ədədi üsulların yaradılmasına imkan verir. Sonda onu qeyd etmək lazımdır ki, tətbiqi elm sahələrindən götürülmüş praktiki məsələlərin təqribi hesablama üsulları vasitəsilə həll olunması tələbə və magistrləri fənn proqramından kənar mövzularla tanış edir. Bu tip mövzulardan sərbəst iş, kurs işi, həmçinin diplom işi mövzuları kimi də istifadə etmək olar.

**Problemin aktuallığı.** Texniki tərəqqi istehsalatda xarici təzyiqlərə davamlı materialların yaradılmasını tələb edir. Ona görə də elastikiyyət və plastikiyyət nəzəriyyələrinin inkişafı, qarşıya çıxan texniki problem və məsələlərin həll olunması, yeni həll üsullarının işlənib hazırlanması, məlum üsulların tətbiq olunma sferasının genişlənməsi hər vaxt aktualdır.

**Problemin elmi yeniliyi.** Təqdim olunan məqalədə əsas məqsəd "Ədədi üsullar" fənninin tədrisinin tətbiqi elm sahələri və riyazi modelləşdirmə ilə sıx bağlı olduğunu araşdırmaqdır. Aydındır ki, korrekt qoyulmuş tətbiqi məsələnin ardınca onun düzgün qurulmuş riyazi modeli gəlir. Bu isə öz növbəsində effektiv ədədi üsulun seçilməsini, lazım gələrsə, məlum ədədi üsulların modifikasiyalarının yaradılmasını tələb edir.

**Problemin praktiki əhəmiyyəti.** Praktikada riyazi modelləşdirmənin müxtəlif metodları tətbiq olunur. Real verilənlərin daxil olduğu modelləri öyrənərkən dinamik modelləşdirmədən, mürəkkəb sistem və hadisələri tədqiq edərkən isə təkamül, simulyasiya və kibernetik modelləşdirmədən istifadə olunur. Plastikiyyət nəzəriyyəsi məsələləri kifayət qədər mürəkkəb və mücərrəd olduqlarından, onların riyazi modelləri tədqiq olunan orijinalın xassələrini düzgün (adekvat) əks etdirməlidir. Bu səbəbdən qarşıya qoyulmuş məsələnin həlli üçün keyfiyyətli (hesablama xətasının çox kiçik olması) ədədi üsulun istifadə olunması olduqca əhəmiyyətlidir. Məqalədən ali məktəb müəllimləri, tələbələr, magistrant və doktorantlar faydalana bilərlər.

**Ədəbiyyat:**

1. Каханер Д., Моулер К., Нэш С. Численные методы и программное обеспечение -М.: Мир, -1998. -575 с
2. Турчак Л.И. Основы численных методов. / Турчак Л.И. – М.: Наука, 1987. – 320 с.
3. Баженов В.Г., Кибец А.И., Петров М.В., Федорова Т.Г., Гоник Е.Г. Экспериментальное исследование упругопластического выпучивания подкрепленных цилиндрических оболочек с

заполнителем под действием поперечных сил. Вестник Чувашского Государственного Педагогического Университета им. И. Я. Яковлева, серия: механика предельного состояния, -2018, № 3 (37), -с.107-116.
4. Бойко Д. В., Железнов Л. П., Кабанов В. В. Исследование нелинейного деформирования и устойчивости овальных и эллиптических цилиндрических оболочек при осевом сжатии // Изв. РАН., Мех. тверд. Тела, -2009, № 5, -с.127-134.
5. Щербо А.Г. Основы теории упругости и пластичности. Учебно-методический комплекс. «Промышленное и гражданское строительство», -Новополоцк, 2008, -240 с.
6. Шуп, Т.Е. Прикладные численные методы в физике и технике. / Т.Е. Шуп – М.: Высш. шк., 1990. – 255с.

**E-mail:** laura_fat@rambler.ru
**E-mail:** nzkt.0304@mail.ru
**Redaksiyaya daxil olub:** 07.10.2024.

# *BİOLOGİYANIN TƏDRİSİ METODİKASI*
# *МЕТОДИКА ПРЕПОДАВАНИЯ БИОЛОГИИ*
# *METHODOLOGY OF TEACHING BIOLOGY*

*UOT 372.857*

***Könül Faiq qızı Mahmudova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org /0000-0001-7042-9257*
*https://doi.org/10.69682/arti.2024.91(5).158-161*

## BİOLOGİYA FƏNNİ ÜZRƏ İNTEQRATİV DƏRSLƏRİN HƏYATİ BACARIQLARIN FORMALAŞDIRILMASINDA ROLU

***Кёнуль Фаиг гызы Махмудова***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

## РОЛЬ ИНТЕГРАТИВНЫХ УРОКОВ ПО БИОЛОГИИ В ФОРМИРОВАНИИ ЖИЗНЕННЫХ НАВЫКОВ

***Konul Faig Mahmudova***
*associate professor of Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

## THE ROLE OF INTEGRATIVE BIOLOGY LESSONS IN THE FORMATION OF LIFE SKILLS

**Xülasə.** Təqdim edilən məqalədə biologiyanın təliminin təşkili zamanı fənnlərarası əlaqələrin müəyyən edilərək bu istiqamətdə fəaliyyətin təşkili, inteqrativ dərslərin təşkili vasitəsilə şagirdlərdə formalaşdırılan bacarıqlar, bu dərslərin planlaşdırılması ilə bağlı məsələlər araşdırılaraq nümunələr əsasında əsaslandırılmışdır.
***Açar sözlər:*** *inteqrativ dərs, qeyri-standart dərs, tədqiqat bacarığı, əməkdaşlıq, problem həlletmə, stimullaşdırma*

**Аннотация.** В представленной статье исследуются и обосновываются межпредметные связи при организации обучения биологии, построения деятельности в данном направлении, умения, формируемые у учащихся посредством организации интегративных уроков, вопросы, связанные с планированием этих уроков на основе образцов.
***Ключевые слова:*** *интегративный урок, нестандартный урок, исследовательские навыки, сотрудничество, решение проблем, стимуляция*

**Abstract.** The presented article examines and substantiates interdisciplinary connections in the organization of biology teaching, the construction of activities in this area, the skills formed in students through the organization of integrative lessons, and issues related to the planning of these lessons based on examples.
***Keywords:*** *integrative lesson, non-standard lesson, research skills, collaboration, problem solving, stimulation*

Son illər sərbəst dərs, qeyri-standart dərs anlayışları geniş istifadə olunur. Ölkədə tətbiq olunan müasir proqramlar bu cür dərslərin tətbiqini tələb edir. Və beləliklə də yeni məşğələ tipinin – inteqrativ dərsin tətbiqini zərurətə çevirir. Biologiya proqramının problem baxımından təhlili onu deməyə əsas verir ki, bu fənnin nəinki digər təbiət fənləri ilə, eləcə də ümum-

təhsil məktəblərində tədris olunan digər fənlərlə inteqrativ tədrisinə imkan verir. Bu baxımdan biologiyadan həyati bacarıqların formalaşdırılmasında inteqrativ dərslərin rolu, bu dərslərin təşkili yolları diqqət mərkəzində saxlanmışdır.

İlk növbədə onu qeyd etmək lazımdır ki, inteqrativ dərslər təşkil edilərkən, fənnin məzmunu və problemin həlli əsas götürülməli, dərsin strukturu və mərhələləri müəllim və şagirdə öz fəaliyyətlərini geniş şəkildə həyata keçirməyə imkan verməli, müəllimin əlavə mənbələrdən istifadəsinə, həyati problemlərin dərsə cəlb edilməsinə mane olmamalıdır. İnteqrativ öyrənmə konsepsiyası məhz şagirdlərin müxtəlif fənlər arasında məqsədəuyğun əlaqələr qurmaqla və real həyat problemlərinə tənqidi düşüncə ilə yanaşmaqla bağlıdır.

Müasir dövrdə inteqrativ kurikulumlara, inteqrativ dərslərə maraq göstərilir. Bu dərslərin özəlliyi əsas etibarilə təlimə yeni yanaşmada inteqrativliyin əsas prinsip kimi götürülməsidir. Ətrafda baş verən hadisələrin bir-birilə qarşılıqlı əlaqəsinin olduğunu, əslində hər bir fənnin ayrı-ayrılıqda deyil də bir hədəfə yönəldiyini , həyati əhəmiyyətli hadisə və prosesləri öyrənməyə yönəldiyini şagird anlamalıdır. Şagird müəllimin istiqaməti, dəstəyi əsasında öyrəndiyi bütün fənlərin bir-birilə əlaqəsinin olduğunu, şəxsiyyət kimi formalaşmasına xidmət etdiyini anlamalıdır. Bu baxımdan inteqrativ dərs modeli olduqca böyük əhəmiyyət kəsb edir.

Kurikulumların müxtəlif növləri içərisində inteqrativ kurikulum önəmli yer tutsa da Respublikamızda bu istiqamətdə bir sıra önəmli addımlar atılsa da buna tam nai olmamız üçün uzun illər bu istiqamətdə araşdırmanın aparılmasına ehtiyac vardır. İnteqrativ bir kurikulum olaraq Təbiət fənn kurikulumunu göstərə bilərik ki, bu da yalnız aşağı siniflər (V,VI siniflər) üçün nəzərdə tutulmuşdur. Bu istiqamətdə yalnız inteqrativ kurikulumun hazırlanmasına deyil, eyni zamanda da bu fənni yuxarı siniflərdə tədris edə biləcək innovativ təhsilverənlərin formalaşdırılması məsələsi gündəmə gəlir.

Biologiya fənni üzrə inteqrativ dərs modeli üzərində dayanaq. Bu dərslər şagirdlərdə nə kimi bacarıqların formalaşdırılmasına yol açar? Bu sualı cavablandırmaq üçün ilk növbədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları sənədində öz əksini tapan təfəkkürlə (yaradıcılıq (kreativlik), tənqidi təfəkkür, problem həlletmə, qərar qəbuletmə, müstəqil öyrənmə), fəaliyyətlə (ünsiyyət, əməkdaşlıq, rəqəmsal savadlılıq, informasiya savadlılığı, maliyyə savadlılığı) bağlı səriştələr və dəyərlərə (milli kimliyin dərki və milli iftixar hissi, fəal vətəndaş mövqeyi, şəxsi və sosial məsuliyyət, demokratiya və insan hüquqlarına hörmət, mədəni müxtəlifliyə hörmət) nəzər salaq. (https://e-qanun.az/framework/46052)

Yuxarıda sadalanan səriştələr və biologiyanın tədrisi zamanı formalaşdırılması müəllimlərdən kreativlik, yaradıcı yanaşma, tədqiqatçılıq və s. kimi bacarıq tələb edən inteqrativ dərsləri qurmaq iddialı bir addım hesab olunur. Çünki bunun üçün məlumat bazası yox səviyyəsindədir, bu istiqamətdə heç bir qurum tərəfindən sistemli məlumatlandırma, maarifləndirmə işi aparılmır, konkret bu dərslər necə, hansı mövzularda, hansı strategiyaya əsaslanmaqla aparıla bilər məsələsi sual altındadır. Lakin xarici ədəbiyyatların təhlili onu deməyə əsas verir ki, şagirdlərin həyata hazırlanmasında, onlarda həyat əhəmiyyətli bacarıqların formalaşdırılmasında məhz inteqrativ dərslər böyük əhəmiyyət daşıyır.

Lakin təkcə xarici ədəbiyyatın təhlili deyil, eyni zamanda şəxsi müşahidələrim də biologiyanın tədrisi zamanı təlim prosesində fənlərarası əlaqələrin müəyyən edilərək bu istiqamətdə fəaliyyətin təşkilinin şagirdləri ciddi şəkildə maraqlandırdığını deməyə əsas verir. Dərs prosesində müxtəlif fənlərin əlaqəsindən faydalanan şagirdlərdə bir müddət sonra rastlaşdıqları hər hansı bir problemi həll etmək üçün digər fənn üzrə biliklərini müstəqil olaraq xatırlamaq, aralarında məntiqi əlaqə qurmaq kimi bacarıqlar formalaşır. Bu məqamlarda müəllimin təlimin təşkilinə verilən tələblərə- şagirdləri dəstəkləməsi, fəaliyyətlərini stimullaşdırması, onların potensial imkanlarını nəzərə alması vacib amillərdən sayılır və şagirddə daha irəli getmək meyili güclənir.

Bu dərslər vasitəsilə şagirdlərdə aşağıdakı kimi bacarıqların inkişaf etməsinə kömək edir:

- Tədqiqat bacarığı və analitik düşüncə: İnteqrativ dərslər tədqiqatçılığa, analitik düşünməyə təşviq edir ki, şagirdlər fərqli məlumat

növlərini qiymətləndirməyi və mənbələri araşdırmağı öyrənir.

- Əməkdaşlıq: İnteqrativ dərslər şagirdləri əməkdaşlığa və komanda işinə öyrədir. Onlar fərqli fikirləri dəstəkləyərək və birlikdə işləyərək, diskusiya apararaq, məsələləri müzakirə edərək ortaq nəticəyə gəlməyi öyrənirlər.

-Problem həlletmə: İnteqrativ dərslər problemlərin həlli yolunu tapmaqla effektiv qərarlar verməyi öyrədir. Şagirdlər fərqli mənbələrdən gələn məlumatları qarşılıqlı şəkildə qiymətləndirərək tələbələr müxtəlif həll yolları tapmağı öyrənirlər.

Dərs prosesində fənlərarası əlaqənin yaradılması ilə inteqrativ dərs arasında bir fərqin olduğu aşkardır. Belə ki, fənlərarası əlaqənin hər dərs mütləq olaraq sistemli şəkildə həyata keçirilməsi kurikulumların əsas xüsusiyyətlərindən biridir. Müəllim dərs prosesində bunu sərbəst həyata keçirir. İnteqrativ dərs isə həm bir müəllim tərəfindən, həm də bir neçə müəllimin iştirakı ilə keçirilə bilər. Bir neçə müəllimin iştirakı zamanı biologiya dərsi olduğu üçün biologiya müəllimi əsas ev sahibi olaraq iştirak edir və digər fənn müəllimləri ilə birgə əsas məqsədə çatmaq istiqamətində birgə addımlar atırlar. Beləliklə də bu cür dərslərin keçilməsi təlim prosesinə ətraflı yanaşmanı təmin edir.

İnteqrativ dərslərin biologiyanın tədrisində rolunu, hansı bacarıqları formalaşdırdığını göstərdikdən sonra “Bu dərslər necə qurulmalıdır?” sualını cavablandıraq.

İlk növbədə bu cür dərslər nisbətən asanlıqla həyata keçirilə bilən olmaqla yanaşı tədqiqat əsaslı təşkil olunmalıdır. Bu dərslərin təkcə bir fənni deyil, bir neçə fənnə dair bilik bacarıq tələb etdiyini nəzərə alaraq, ya sinif səviyyəsində müəllim özü tək, ya da digər fənn müəllimləri ilə birgə tədris apara bilər. Bu mövzular ya bütöv bölməni, ya da bir dərsi əhatə edə bilər. Məsələn, biologiyadan ilk tibbi yardımla bağlı mövzunun tədrisini çağırışaqədər hazırlıq fənnini tədris edən müəllimlə birgə tədris etmək mümkündür. Beləliklə də həm biologiya, həm də çağırışaqədər hazırlıq müəllimləri standartın tələbindən asılı olaraq sinifdə birgə fəaliyyət göstərə bilərlər.

Bu fəaliyyətin əsas məqsədi şagirdləri müxtəlif fənlər arasında əlaqə qurmağa təşviq etməkdir. Məsələn, başqa bir nümunəyə baxaq. Müəllim şagirdlərə hansısa bir canlı haqqında araşdırma aparmağı tapşıra bilər. Şagirdlərə bu canlının xüsusiyyətlərini, Azərbaycanda və hansı digər dünya ölkələri ərazisində yayıldığını, kənd təsərrüfatı üçün ziyanı və faydasını və s. müəyyənləşdirməyi tapşıra bilər. Bu tapşırığı yerinə yetirmək üçün biologiya ilə yanaşı, coğrafiya və həyat bilgisi fənlərindən biliklər tələb oluna bilər.

Başqa bir nümunəyə baxaq: Tutaq ki, şagirdlər hansısa bir ölkəyə səyahət planlayır. Bu ölkəni araşdırılacaq problem baxımından müəllim özü də müəyyənləşdirə bilər. Bunun üçün şagirdlərin hansısa plan əsasında araşdırmalarına ehtiyac vardır. Bu plan aşağıdakı kimi olmalıdır:

- Gedəcəyiniz ölkədəki muzeylər, bu ölkənin görməli yerləri
- Bu ölkənin iqlimi
- Bu ölkənin pul nişanı
- Bu ölkənin faunası
- Bu ölkənin florası
- Bu ölkənin danışıq dili və əhalisi
- İnsan üçün təhlükəli olan heyvan növləri
- Müalicəvi əhəmiyyətli bitkiləri
- Yeməkləri və milli mətbəxi

Bu kimi mövzulara toxunmaqla şagirdlərdə tədqiqat bacarıqları formalaşmaqla yanaşı gələcəkdə hansısa ölkəyə səyahəti zamanı diqqət etməli məqamları nəzərə alacaq. Eyni zamanda bu dərsdə şagird təkcə bioloji aspektdən deyil, coğrafiya, tarix, həyat bilgisi, texnologiya və s. fənlərin aspektindən də yanaşmış olacaq.

İnteqrativ dərslərin planlaşdırılmasına ilin əvvəlində başlanılmalıdır. Bunun üçün ilk növbədə müəllim dərs ilinin əvvəlində illik plan tərtib edərkən aşağıdakıları nəzərə almalıdır:

-hansı məzmun standartlarının il ərzində reallaşdırılacağı

-Hansı sinifdə dərs deyəcəyindən asılı olaraq digər həmin siniflərdə tədris olunan fənləri

-Dərs deyəcəyi sinifdə biologiyanın həmin digər fənlərlə inteqrasiya imkanlarını

-Dərs deyəcəyi sinfin biologiya dərsliyi ilə inteqrasiya edəcəyi digər fənnin dərsliyi (məzmun)

-Biologiyadan seçdiyi mövzularla digər fənnin mövzuları arasındakı əlaqənin mövcudluğu (yoxdursa ancaq əlaqələndirmək mümkündürsə buna dair əlavə resursların seçilməsi)

-Digər fənni tədris edən müəllimlə uyğun dərs saatının seçilməsi (əgər hər iki müəllim dərsi birgə tədris edəcəksə)

-Məktəb üzrə hər iki fənnin metodbirləşmə rəhbəri ilə razılaşdırılması (dərslərin toqquşmaması baxımından)

Bütün yuxarıda qeyd olunanlar inteqrativ dərsin il ərzində planlaşdırılması məqsədilədir.

İnteqrativ dərsin planlaşdırılması özü də böyük məsuliyyət tələb edir. Bunun üçün əgər müəllim dərsi sinifdə tək tədris edəcəksə ilk növbədə tədqiqatçılıq bacarıqlarına malik olmalıdır. Belə ki, inteqrativ dərs yuxarıda da qeyd etdiyim kimi adi dərsdən fərqlənir. Bu fərq təkcə struktur baxımından deyil, həm də layihə əsaslı olması ilə müəllimdən təcrübə və ətraflı nəzəri bilik tələb edir.

İlk növbədə biologiya fənni üzrə mövzu müəyyənləşdirilir. Mövzu araşdırma tələb edən, inteqrasiya imkanları geniş olan olmalıdır. Mövzunun digər hansı fənlərlə əlaqəsinin olduğu araşdırılır.

İkinci nəzərə alınmalı cəhət mövzu ilə bağlı şagirdlərin hansı problem üzərində işləyəcəyidir. Elə bir problem qoyulmalıdır ki, şagirdlər bu problemə müxtəlif fənlərin aspektindən yanaşa bilsinlər.

Üçüncü nəzərə alınmalı cəhət bu mövzunun tədrisi üçün hansı resursların məktəbdə olduğu, hansıların şagirdlər üçün əlçatanlığı, elektron və çap resurslarının sayı, sinifdə istifadə imkanı nəzərə alınmalıdır.

Dördüncü nəzərə alınmalı cəhət bu problem üzərində hansı və neçə şagirdin işləyəcəyidir.

Beşinci nəzərə alınmalı cəhət nəticələrin hansı formada təqdim olunmasıdır.

Yuxarıda deyilənlərin həyata keçirilməsi məqsədilə müxtəlif siniflər üzrə biologiyadan şagirdlərdə - problem həlletmə, əməkdaşlıq, qərar qəbuletmə, müstəqil öyrənmə kimi həyati bacarıqların formalaşdırılmasına imkan verən məzmunun hazırda istifadədə olan digər fənlərin məzmunu ilə əlaqələndirilməlidir.

**Problemin aktuallığı.** İnteqrativ dərslər müəyyən canlının, bioloji bioloji proseslərin, hadisələrin hərtərəfli nəzərdən keçirilməsi, araşdırılması, ətraf mühit, sağlamlıq üçün əhəmiyyətinin hərtərəfli dəyərləndirilməsi üçün əlverişli şərait yaradır, sistemli biliyin, dünyanın vahid mənzərəsinin formalaşmasına dəyərli töhfə verir

**Problemin elmi yeniliyi.** Biologiya fənn proqramında formalaşdırılması nəzərdə tutulan həyati bacarıqların inteqrativ dərs modelindən istifadə olunmaqla tədrisi imkanları aşkara çıxarılmış, bu istiqamətdə tövsiyələr verilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilər.

**Ədəbiyyat:**


1. Y. Seyidli, X. Əhmədbəyli, N. Əliyeva. Ümumi təhsil məktəblərinin 6-cı sinifləri üçün biologiya fənni üzrə dərslik, Bakınəşr, 2021.
2. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün biologiya fənni üzrə təhsil proqramı (kurikulumu) VI- XI- ci siniflər, Bakı- 2013
3. Путюков Ю.А. Основы педагогической технологии. -М.: Просвещение, -2001. -181 с.
4. Orucov F.M. Biologiyanın tədrisində yeni texnologiyaların tətbiqi istiqamətləri: Metodik vəsait. -Bakı: Mütərcim, -2007, -139 s.
5. Верзилин Н.М., Корсунская В.М. Общая методика преподавания биологии. -М.: Просвещение, -1983, -384 с.
6. Методика обучения биологии. / В.С. Конюшко, С.Е. Павлюченко, С.В. Чубаро. -Мн.: Книжный дом, -2004.
7. Dervişoğlu, S., Yaman, M. ve Soran, H. Orta öğretim öğrencilerinin biyoloji dersine ve biyoloji konularına ilgilerinin belirlenmesi. Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi, 2004
8. https://e-qanun.az/framework/46052
9. https://e-qanun.az/framework/42543


**E-mail:** konul-mahmudova@mail.ru
**Redaksiyaya daxil olub:** 01.10.2024.

*UOT 372. 857*

***Elnurə Fazil qızı Səfərova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*biologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-4151-1750*
*https://doi.org/10.69682/arti.2024.91(5).162-165*

***Zərifə Rəsul qızı İsmayılova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*biologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-9700-0116*

## BİOLOGİYA DƏRSLİKLƏRİNƏ DİFERENSİAL YANAŞMANIN TƏTBİQİNDƏ YARADICILIĞA YÖNƏLMİŞ METODLARDAN İSTİFADƏ

***Эльнура Фазиль гызы Сафарова***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по биологии*

***Зарифа Расул гызы Исмайлова***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по биологи*

## ИСПОЛЬЗОВАНИЕ КРЕАТИВНО-ОРИЕНТИРОВАННЫХ МЕТОДОВ ПРИ ПРИМЕНЕНИИ ДИФФЕРЕНЦИРОВАННОГО ПОДХОДА К УЧЕБНИКАМ БИОЛОГИИ

***Elnura Fazil Safarova***
*associate professor of the Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in biology*

***Zarifa Rasul Ismayilova***
*associate professor of the Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in biology*

## THE USE OF CREATIVITY-ORIENTED METHODS IN THE APPLICATION OF A DIFFERENTIATED APPROACH TO BIOLOGY TEXTBOOKS

**Xülasə.** Şagirdlərlə istər fərdi işləyərkən, istərsə də cütlərlə və kollektivlə işləyərkən dərslikdən istifadənin əhəmiyyəti vacibdir. Bu zaman diferensial yanaşma və yaradıcı metodların tətbiqi əhəmiyyətlidir. Həmçinin dərsliklə işləyən zaman zəif oxuyan və istedadlı şagirdlər üçün perspektivli istiqamətlər nəzərə alınmalıdır. Biologiyanın tədrisi zamanı şagirdlərin biologiyanı və ya digər fənləri öyrənməyə marağının artması dərslikdə öyrəndiyi materialın yeniliyindən və əlçatan olmasından asılıdır. Məsələn zəif oxuyan şagirdlər üçün dərs materialının həcminin azaldılması, dərsliklərdəki verilmiş tapşırıqların çətinlik dərəcəsinin minimuma endirilməsi onların dərsdə fəal iştirakına, biologiya fənninə dair bilik, sosial – mədəni bacarıq və inkişafına səbəb olur.

Biologiya dərsliklərindən istifadə edərək yaradıcılığa yönəlmiş tapşırıqların verilməsi zamanı zəif göstəricisi olan hər bir şagirdin mövzunu öyrənməyə marağı artır, biologiyanı yavaş-yavaş, mərhələlərə uyğun olaraq mənimsəyir.

***Açar sözlər:*** *biologiya, dərslik, diferensial, metod, yaradıcı*

**Аннотация.** Важность использования учебника важна при работе с учащимися как индивидуально, так и в парах и группах. В это время важно применять дифференцированный подход и творческие методы. Также при работе с учебниками следует учитывать перспективные направления для слабых и одаренных учащихся. В ходе преподавания биологии повышение интереса учащихся к изучению биологии или других предметов зависит от новизны и доступности изучаемого материала в учебнике. Например, сокращение объема учебного материала для учащихся со слабыми навыками чтения, минимизация степени трудности заданных заданий в учебниках приводит к их активному участию в уроке, знаниям предмета биологии, социальным и культурным навыкам и разработка.

При задании творческих задач с использованием учебников биологии у каждого ученика со слабым показателем повышается интерес к изучению предмета, биологию он усваивает медленно, поэтапно.

***Ключевые слова:*** *биология, учебник, дифференциал, метод, креатив*

**Abstract.** The importance of using a textbook is important when working with students either individually or in pairs and groups. At this time, it is important to apply a differential approach and creative methods. Also, when working with textbooks, promising directions for weak and gifted students should be taken into account. During the teaching of biology, the increase of students' interest in learning biology or other subjects depends on the novelty and accessibility of the material they learn in the textbook. For example, reducing the amount of study material for students with poor reading skills, minimizing the degree of difficulty of the given tasks in the textbooks leads to their active participation in the lesson, their knowledge of the subject of biology, social and cultural skills and development.

During the assignment of creativity-oriented tasks using biology textbooks, the interest of each student with a weak indicator in learning the subject increases, he learns biology slowly, according to the stages.

***Key words:*** *biology, textbook, differential, method, creative*

Diferensial yanaşma dedikdə istər məktəb daxilində, istərsə də məktəb xaricində dərs sistemi çərçivəsində təhsilalan şagirdlərin ümumi və şəxsi inkişafını təmin etmək məqsədilə həyata keçirilən bir işdir. Diferensial yanaşma- məktəb daxilində eyni sinif və ya təlim şəraitində öyrənməsinə, intellektinə, təlim nailiyyətlərinə, qavramasına, təfəkkürünə, xarakterinə, dilinə, dininə və s. başqa fərdi xüsusiyyətlərinə görə bir-birindən fərqlənən şagirdlərlə müxtəlif metod və üsulların köməyilə işləmək və keçirilən dərslərin və mövzuların hər qrupa daxil olan şagirdə uyğun olaraq planlaşdırılması və tədris olunmasıdır. Eyni məkanda müxtəlif öyrənmə xüsusiyyətlərinə və tələblərinə görə bir-birindən seçilən qruplara-heterogen sinif deyirik və diferensial yanaşmanı bu mühitdə tətbiq etmək mümkündür. [1]

Əvvəllər diferensial yanaşmanın tətbiqi deyildikdə, bunun ancaq zəif və ya pis oxuyan şagirdlərə yönəlmiş proses olduğu düşünülürdü. Həmçinin, ən güclü oxuyan və ya istedadlı şagirdlərə də. Diferensial yanaşmanın tətbiqində əsas vəzifə və öncəlik bir- birindən maraq, meyl, qabiliyyət, bacarıq, dərketmə və idrak etməsinə görə fərqlənən təhsilalanlara təhsilin əlçatan və maksimum səviyyədə əhatəliliyini təmin etməkdir. Bunu elə təşkil etmək lazımdır ki, təhsil mühitində ən zəif oxuyan şagirddə belə oxumağa həvəs yaransın, fənn üzrə öz bilik və bacarıqlarını nümayiş etdirə bilsin.

İndiki zamanda məktəblərdə fəaliyyət göstərən müəllimlər artıq şagirdləri elə öyrətməyə can atırlar ki, sinif daxilində həm güclü, həm zəif şagirdlərin bilik və bacarıq səviyyəsi inkişaf etsin və güclənsin. Bu məqsədlə dərs keçən müəllim həmin şagirdləri bir neçə müvəqqəti tipoloji qruplarda birləşdirir. Təlim prosesini həmin tipoloji qrupların imkanlarına uyğun olaraq təşkil edir. Və bu fəaliyyətin effektivliyi özünü zəif şagirdin güclü şagirdə çevrilməsində göstərir.

Nümunəsini verdiyimiz tipoloji qrupları bir neçə yerə bölə bilərik: "yüksək-orta -aşağı təhsil səviyyəsinə malik şagirdlər". Şagirdlərin bu cür qruplara bölünməsi üçün şübhəsiz ki, meyarlar olmalıdır : [6]

- Şagirdlərin sahib olduğu biliklərin dərəcəsi
- Onların zehni işləmə qabiliyyəti
- Müxtəlif idrak proseslərindən istifadə
- Təhsil prosesində məlumatları təhlil və ümumiləşdirmək bacarıqları
- Sərbəst işləmə qabiliyyəti
- Zehni və intellektual fəaliyyətin performans səviyyəsi

Sinfin bu cür tipoloji qruplara ayrılması biologiyanın tədrisində diferensial yanaşma vasitəsilə səmərəli öyrənmə və öyrətmə üçün əlverişli mühit yaradır. Araşdırılan ədəbiyyatlar və aparılmış tədqiqat işlərinin nəticələrinə diqqət yetirsək görərik ki, həqiqətən də şagirdlərin belə qruplara ayrılmasının təlim prosesinin nəticələrinə olduqca müsbət tərəfləri vardır.

Müəllimin ən başlıca vəzifəsi və qayəsi ondan ibarətdir ki, o, dərs keçdiyi şagirdlərin maraqlarına, istəklərinə, bilik, bacarıq və vərdişlərinə uyğun öyrənmə şəraiti yaratsın. Həmçinin şagirdlərin müxtəlif səviyyələr üzrə inkişafını həyata keçirmək üçün düzgün seçilmiş planlaşdırma və təlim müəllimin əsas vəzifələrindən biridir. [4]

Düzgün və etibarlı təşkil olunmuş diferensial yanaşma çətin işdir, təkcə aşağı təhsil səviyyəli və ya xüsusi bacarıqlı şagirdlərin deyil, bütün şagirdlərin eyni zamanda da inklüziv şagirdlərin təhsil səviyyəsinin artırılmasına yönəlməlidir. Biologiyanın tədrisində diferensial yanaşmanın əsas məqsədi hər bir şagirdin biologiya fənni üzrə bilik və bacarıqlarının, kompetensiyalarının maksimum dərəcəyə gətirmək, təhsilalanların fərdi xüsusiyyətlərini göz önündə saxlayaraq onlarda səmərəli öyrənməni təmin etməkdir.

Məktəb biologiya dərsliyinin funksiyaları:

- Məlumatlandırıcı;
- Motivasiya;
- Özünə nəzarət;
- Nəzarət və düzəliş;
- İnkişaf;
- Tərbiyəvi;
- Fəaliyyət;

Əsas bilik mənbəyi kimi dərsliklər sinifdə diferensiallaşdırılmış mühit yaratmaq və şagirdlərə diferensial yanaşmanı tətbiq etmək üçün vacib elementlərdən biri hesab olunur və bu mühitin təşkili üçün pedaqoji yardım sistemi yaradılmalıdır:

✓ standart məşqlər;

✓ qeydlər (şifahi təqdimat, esse və s. hazırlamaq üçün);

✓ verilmiş tapşırıqları həll etmək üçün təlimatların mətni;

✓ edilə biləcək səhvlər haqqında xəbərdarlıqlar, tapşırığı yerinə yetirərkən düzgün olmayan yanaşmalar və s.;

✓ şifahi və ya yazılı təqdimatlar üçün ətraflı və ya qısa planlar;

✓ şagirdin etibar edə biləcəyi qaydalar, sxemlər, modellər tapşırıqları yerinə yetirmək;

✓ tapşırığı yerinə yetirmək üçün rəsmlər, diaqramlar, alqoritmlər şəklində məşqdə əlavə kömək;

✓ əvvəllər yerinə yetirilən oxşar tapşırıqların göstəriciləri;

✓ tapşırığın yerinə yetirilməsinin cavabları (açarları) və ya nəticələri;

✓ aparıcı suallar vermək;

✓ tapşırıqların özlərində fərqləndirici amillərin proqramlaşdırılması (tapşırıqlara daxil olan diferensiallaşdırıcı suallar);

✓ mürəkkəb tapşırıqda komponentlərin müəyyən edilməsi və s [2].

Dərslikdə öz əksini tapmış istinad materialları şagirdlər mühüm bacarıqlar formalaşdırır ki, onlardan biri də şagirdlərdə əks etdirmə bacarığıdır. Mövzuya aid cədvəllərin və sxemlərin, eyni zamanda şəkillərin və qrafiklərin dərslikdə əks olunması və təqdim edilməsi mühüm əhəmiyyət kəsb edir və şagirdin məntiqi təfəkkürünün və düşünmə qabiliyyətlərinin inkişafına kömək edir: [5]

✓ Sxemlər biologiya fənni üzrə mövzuya aid fikirləri və mülahizələri ümumiləşdirilmiş formada bir sistem kimi başa düşməyə imkan verir.

✓ Dərslikdə verilmiş mövzuya aid bir sxemin məzmununun müxtəlif mürəkkəblik dərəcələrini nəzərə alaraq, şagirdə istiqamətləndirici suallar vermək məqsədəuyğundur.

✓ Eyni zamanda biologiya dərsləri zamanı dərsliklər də öz əksini tapmasa da belə diaqramlarla işləmək, məlumatın öyrədilməsi və mətnin semantik emalı üzrə məqsədyönlü işin təşkili üçün mühümdür. Belə ki, verilmiş diaqramı təhlil edərək şagirdlər orada mövzuya aid aparıcı suallara cavab axtarırlar, suallar verir, plan qurur, beləliklə əsas məzmunu dərk etmiş olurlar .

Təsvirin vizual qavranılmasına əsaslanan tapşırıqlar üçün ümumi olan, şagirdin ətraf həyatının müasir reallıqlarını tanımaq və ya dərk etmək, incəsənət və mədəniyyət dairəsinə cəlb etmək, yəni ümumi mədəni inkişafdır. Biologiya dərsliyində təqdim olunan diferensiallaşdırılmış pedaqoji dəstək sisteminin əsas məqsədi həm

istedadlı, həm də zəif hazırlıqlı, həm də inklüziv şagirdlərin qabiliyyətlərini inkişaf etdirməyə, bacarıqlarını inkişaf etdirməyə kömək etmək arzusundadır. Bu, onlara müxtəlif vəziyyətlərdə biologiya resurslarından şüurlu şəkildə istifadə etməyə, biologiyanın gözəlliyini və zənginliyini yaşamağa kömək edəcəkdir.

Əgər biologiyanın tədrisi inklüziv siniflərdə həyata keçiriləcəksə, biologiya dərslikləri özünün əhatəliliyinə görə seçilməlidir, çünki dərslik həm istedadlı, həm də müəyyən səbəblərdən geridə qalan şagirdlərin təlim maraqlarını maksimum dərəcədə ödəməlidir. Bunun üçün təlim materiallarının seçilməsinə və dərsliyə daxil edilməsinə diferensial yanaşılmalı, hər bir sinifdə şagirdlərin inkişaf səviyyələri nəzərə alınmalıdır. Bildiyimiz kimi, inklüziv təhsil bütün uşaqların və şagirdlərin təhsil hüququnu nəzərdə tutur. Buna görə də ilk növbədə bu sahədə müəllimlərin köməkçiləri dərsliklərdir. İnklüziv şagirdlər üçün dərsliklərdə bir neçə xüsusiyyətlərə diqqət yetirmək lazımdır : [3]

- Şagirdlərə veriləcək tapşırıqlar məsləhətdir ki, daha kiçik hissələrə ayrılsın, şagirdlərin hər bir kiçik hissələrə diqqət yetirməsi belə olduqda asan olacaqdır;
- Dərslikdə həmçinin oyunlar, rollu oyunlar və simulyasiyalar kimi praktiki bacarıqların formalaşmasına yönəlmiş texnikalardan geniş istifadə olunmalıdır;
- Eşitmə qüsurlu və disleksiyalı təhsilalanlar üçün audio-vizual köməkçi vasitələrdən istifadə etmək;
- Görmə qüsuru olan şagirdlərə görə kitabın məlumatverici hissəsində çap hərflər daha böyük miqyasda olduqda, əyani vəsaitlərdə kontrast rənglər düzgün işlənildikdə, məsələn ağ və qara, əyani vəsaitlər ətraflı izah olunduqda təlim prosesi daha səmərəli alınır.

**Problemin aktuallığı.** Təlim prosesində diferensial yanaşma problemi, şagirdlərin müstəqil işlərindən istifadə edilməsi zərurəti aktuallaşdıqdan sonra yenidən gündəmə gəlmişdir. Ona görə də, bu halda ilk növbədə ön plana müstəqil işlər çərçivəsində sinifdaxili diferensiallaşdırma çəkilmişdir və təlimin diferensiallaşdırılması üzrə tədqiqatlar məhz bu müstəqil işlər çərçivəsi ətrafında cəmlənmişdir. Biologiya dərsliklərində də diferensial yanaşma tətbiq olunmalı və yaradıcı metodlardan istifadə şagirdlərin mənimsəməsinə müsbət təsir göstərir.

**Problemin elmi yeniliyi.** Biologiya dərsliklərində diferensial yanaşmanın tətbiqi, o cümlədən yaradıcı metodlardan istifadə, fotoşəkillər, rəsmlər təqdim olunan məlumatın vizual qavranılmasının, şagirdlərin fənni öyrənməyə marağını artırmağa, təxəyyülünü aktivləşdirməyə, emosional sfera, assosiativ əlaqələr, məntiqi təfəkkür, həmçinin aktiv fəaliyyətlə məşğul olmaq üçün vasitədir. Biologiya müəllimləri dərslikdən düzgün istifadə edərək diferensial yanaşmanı tətbiq etməli və yaradıcı metodlardan istifadə edərək dərsi praktik öyrədərək mənimsəmə keyfiyyətini artıra bilərlər.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Biologiya dərsliklərində diferensial yanaşma dedikdə istər məktəb daxilində, istərsə də məktəb xaricində dərs sistemi çərçivəsində təhsilalan şagirdlərin ümumi və şəxsi inkişafını təmin etmək məqsədilə həyata keçirilən bir işdir. Məqalədən ümumi təhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Allahyarova S. Diferensial yanaşma təlimdə geridə qalmanın aradan qaldırılması yolu kimi. - Bakı, - 2000, №2.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. - Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə dövlət proqramı (2006-2010-cu illər) - Bakı: Təhsil, -2006.
3. Azərbaycan Respublikasının Ümumtəhsil Məktəbləri üçün Biologiya fənni üzrə Təhsil Proqramı (kurikulum)/ tərt.ed. Ə. Urxan - Bakı, 2013..
4. Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu) // -Bakı, Azərbaycan məktəbi. 2010. № 2.
5. Biologiyanın tədrisi metodikasından laborator və seminar məşğələlər: Dərs vəsaiti / G.N. Hacıyeva, E.F. Səfərova, S.M. Axundova. – Bakı: Müəllim, -2020.
6. Bəylərov E.B. İstedadlı uşaqlar probleminə şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqları baxımından yanaşılmalıdır. // Azərbaycan müəllimi. - 2016.


**E-mail:** seferovaelnure@mail.ru
**Redaksiyaya daxil olub:** 10.09.2024.

*UOT 372.857*

***Xoşqədəm Qonaq qızı İbrahimova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-5987-3346*
*https://doi.org/10.69682/arti.2024.91(5).166-169*

# BİOLOGİYANIN TƏDRİSİNDƏ MƏSƏLƏLƏRİN TƏRTİBİ VƏ HƏLLİ TEXNOLOGİYASI

***Хошгадам Гонаг гызы Ибрагимова***
*доцент*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# ПОСТАНОВКА И ТЕХНОЛОГИЯ РЕШЕНИЯ ЗАДАЧ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ

***Khoshgadam Gonag Ibrahimova***
*associate professor*
*of Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# TECHNOLOGY OF FORMULATION AND SOLUTION OF PROBLEMS IN BIOLOGY TEACHING

**Xülasə**. Biologiya dərslərində məsələlərin həlli prosesi zamanı elmi biliklərin formalaşması, onların informativ və inkişafetdirici funksiyalarının əlaqələndirilməsi ən aktual problemlərdir. Məsələ həlli və təhlili biologiyanın əsas qanunlarını, düsturlarını başa düşməyə və yadda saxlamağa, onların xarakterik xüsusiyyətləri və tətbiqi yolları haqqında təsəvvür yaratmağa imkan verir. Tapşırıqlar praktiki və idrak əhəmiyyətli konkret məsələlərin həlli üçün maddi dünyanın ümumi qanunlarından istifadə etmək bacarıqlarını inkişaf etdirir.
***Açar sözlər:*** *məsələ həlli bacarıqları, məsələ həlli alqoritmi, məsələnin şərti, məsələnin təhlili, məsələnin mətni, məsələnin analizi, məsələnin həlli planı*

**Аннотация.** В процессе решения задач на уроках биологии наиболее актуальными проблемами являются формирование научных знаний и координация их познавательной и развивающей функций. Решение задач и анализ позволяют понять и запомнить основные законы и формулы биологии, составить представление об их характерных особенностях и способах применения. Задания развивают умение использовать общие законы материального мира для решения конкретных задач практического и познавательного значения.
***Ключевые слова***: *навыки решения задач, алгоритм решения задач, условие задачи, анализ задачи, текст задачи, анализ задачи, план решения задачи*

**Abstrakt.** During the process of solving problems in biology classes, the formation of scientific knowledge and the coordination of their informative and developmental functions are the most urgent problems. Problem solving and analysis allows to understand and remember the basic laws and formulas of biology, to create an idea about their characteristic features and ways of application. Tasks develop the ability to use the general laws of the material world to solve concrete problems of practical and cognitive importance.
***Keywords***: *problem solving skills, problem solving algorithm, problem condition, problem analysis, problem text, problem analysis, problem solution plan*

Dünya iqtisadiyyatının sürətli inkişafı təhsil sisteminin də daha yüksək tələblər əsasında inkişafını qarşıya qoyur. Bu məqsədə çatmaq üçün təlim fəaliyyətinin təşkili üçün elə üsul və formalar seçmək lazımdır ki, şagirdlərin təhsil ehtiyac və maraqlarına uyğun və idrak fəaliyyətini inkişaf etdirməyə istiqamətləndirə bilsin.

Müasir dünyada təbiət elmlərinin tədrisi xüsusi əhəmiyyət kəsb edir. Şagirdlərin təbiət hadisələri və qanunları haqqında biliklərini formalaşdırır, təbiəti tanımağın elmi metodlarını ortaya qoyur və eyni zamanda şagirdlərə təkcə təbii aləmi deyil, həm də öz fəaliyyətini anlamaq imkanını formalaşdırır.

Bu gün təbiət elmləri haqqındakı biliklər, ideoloji, mədəni və təcrübəyönlü xüsusiyyətlərin, intellektual və yaradıcılıq qabiliyyətlərin, tənqidi düşüncənin əsasında intellektin inkişafına, dəyər və şəxsi keyfiyyətlər sisteminin tərbiyəsini formalaşdırmağa yönəldilmişdir [1, s. 8-24].

Biologiyanın tədrisi texnologiyasında məsələlərin həlli mühüm yer tutur, çünki bu, biologiya fənni üzrə tədris materiallarının daha dərindən və effektli mənimsənilməsinin təmin edildiyi və əldə edilmiş bilikləri müstəqil tətbiq etmək qabiliyyətinin inkişaf etdirildiyi tədris metodlarından biridir [3, s. 49-50].

Biologiyanın tədrisində məsələlərin həlli texnologiyası şagirdlərdən biologiyanın qanunları və metodları əsasında düşünməyi, tətbiq etməyi tələb edən, bioloji bilikləri mənimsəməyə və təfəkkürün inkişafına yönəlmiş bir situasiyadır. Məsələ həlli praktiki tədris metodlarına aiddir, şagirdlərin fəal zehni fəaliyyətinə əsaslanaraq təlimverici, tərbiyəedici və inkişafetdirici funksiyaları yerinə yetirir.

Praktik məsələlərin həllinin ümumi prinsiplərini təlim fəaliyyətində kəşf edilməsi, mənimsənilməsi, praktik bacarıqların formalaşdırılması, reproduktiv, tətbiqi və yaradıcı xarakterli bioloji məsələləri həll etmək qabiliyyətini artırmaq biologiya müəllimlərinin qarşısında duran mühüm vəzifədir [2, s. 4-5].

Şagirdlər məsələ və çalışmaların həlli prosesində digər fəaliyyət sahələrində olan intellektual və yaradıcılıq qabiliyyətlərini, mövcud bilik və bacarıqlarını həyata keçirmək imkanı, bilikləri əsasında meyl və maraqlarını qiymətləndirmək kimi bir sıra bacarıqlar əldə edirlər:

- Praktik məsələlərin həllinin ümumi prinsiplərini təlim fəaliyyətində kəşf edilməsi, mənimsənilməsi, praktik bacarıqların formalaşdırılması;
- biologiyanın əsas nəzəri qanunlarına uyğun olaraq bilik sistemini formalaşdırmaq;
- reproduktiv, tətbiqi və yaradıcı xarakterli bioloji məsələləri həll etmək qabiliyyətini artırmaq;
- Məsələ həllinin məqsədi yalnız öyrənilmiş biliklərin istehsalatda və praktikada tətbiqi deyil, həm də biologiyanın əsas nəzəri qanunlarına uyğun olaraq bilik sistemini formalaşdırmaq və təfəkkürün inkişafına imkan yaratmaqdır.

Biologiya dərslərində məsələlərinin həlli prosesi zamanı elmi biliklərin formalaşması, onların informativ və inkişafetdirici funksiyalarının əlaqələndirilməsi ən aktual problemlərdir [2, s. 72-74].

Biologiyanın tədrisində nəzəriyyənin öyrənilməsi ilə yanaşı məsələ və çalışmaların həlli texnologiyası bacarıq və vərdişlərin inkişafında rolu danılmazdır. Çox vaxt sinifdə tapşırıqların köməyi ilə problemli vəziyyətlər yaradılır və şagirdlərin zehni fəaliyyətini aktivləşmək üçün problemlər qoyulur.

Müəllim də eyni zamanda qarşıda duran problemlərin həlli yollarını araşdırır və məsələ həlli prosesində tətbiq edir. Müəllimləri daha çox düşündürən sualların cavablandırılmasına, rastlaşdıqları problemlərin həllinə kömək edir. Bir sıra sualları qarşıya qoyur:

1. Biologiyanın tədrisində məsələləri necə həll etmək olar?
2. Məsələ həlli psixologiyasının əsaslarını nə təşkil edir?
3. Biologiya dərslərində məsələ həlli texnologiyası bacarıqları necə inkişaf etdirilir?

Tapşırıqların dəyəri, ilk növbədə, onların ehtiva etdiyi bioloji məlumatla müəyyən edilir. Buna görə də müasir biologiyanın əsasını qoyan klassik fundamental təcrübələri və kəşfləri təsvir edən məsələlərə, eləcə də biologiyaya xas olan tədqiqat üsullarını göstərən problemlərə xüsusi diqqət yetirilməlidir.

Təbiət hadisələrinin öyrənilməsinin əsas bioloji metodların bəzi konsepsiya-larını-ölçmələrə və fiziki kəmiyyətlər arasındakı funksional asılılığın riyazi tədqiqatlarına əsaslanan təcrübə, eksperimental məsələlərin köməyi ilə vermək məqsədəuyğundur [5, s. 114-116]. İstənilən məsələdə müəyyən şərtlərə (verilənlərə) əsasən

axtarılan suala cavabın tapılması (tələbləri) olur. Məsələnin strukturuna görə iki əsas hissəyə ayırmaq olar:

- məsələnin şərti (verilənlər);
- məsələ cavabının tapılması üçün sual (tələblər). Məsələnin şərtlərin və tələblərin ayrılması prosesinə məsələnin təhlili deyilir. Məsələlərin həllində alqoritmlərin istifadəsi məntiqi düşünmək, kəmiyyətlər arasındakı əlaqələri təhlil etmək, öyrənmədə vacib olanı vurğulamaq, problemləri həll etmək üçün optimal yollar tapmaq, fəaliyyətdə ardıcıl olaraq istənilən kəmiyyəti tapmağa aparan "addımlar"a bölmək bacarığını inkişaf etdirir [6, s. 13-14].

***Məsələlərin yerinə yetirilməsi alqoritmi nümunəsi:***

| *Fəaliyyətin ardıcıllığı* | *Fəaliyyətlərin yerinə yetirilməsi nümunəsi* |
|---|---|
| 1. Məsələnin mətnini oxumaq və anlamaq; | **Məsələ.** Orta yaşlı insanın bədən çəkisi 70 kq-dır. Qan insanın bədən çəkisinin orta hesabla 8%-ni təşkil edir. Qanın sıxlığı q=1,050 q/sm$^3$, hemoqlobin (Hb) tərkibi – 100 ml qanda 14 q; 1 qr hemoqlobinə təxminən 1,34 mq oksigen birləşə bilir. İnsan kiçik qan dövranı zamanı nə qədər oksigen daşıya bilər? |
| 2. Məsələnin təhlili; | Məsələnin məqsədi hemoqlobinin insan orqanizmində qaz mübadiləsini təmin etməkdə rolunu göstərməkdir. Kiçik qan dövranı ağciyərlərlə ürək arasındakı baş verən qan dövranıdır. Qanın ağciyərlərdən keçəcəyini və oksigenlə zənginləşəcəyini düşünsək, məsələnin sualına cavab vermək üçün əvvəlcə 70 kq ağırlığında insanın qanındakı hemoqlobinin miqdarını hesablamaq lazımdır, sonra isə bu miqdarda hemoqlobin ilə nə qədər oksigen birləşə bilər? |
| 3. Məsələnin şərtini və köməkçi verilənləri yazmaq; | **Verilir:**<br>m bədən = 70 kq<br>qan çəkisi= 8%<br>C (HB) = 100 ml qan üçün 14 q<br>r qan sıxlığı = 1.050 q/sm$^3$<br>C ($O_2$) = 1 q hemoqlobinə 1,34 mq<br>m ($O_2$) -?<br>1 ml = 1 sm$^3$ |
| 4. Məsələni analiz etmək və həlli planını seçmək; | 70 kq çəkidə olan orta yaşlı insanın bədənindəki qan:<br>hemoqlobinin miqdarı;<br>daşına bilən oksigen. |
| 5.Sualları tərtib edərək, hesablamaları aparmaq; | **Həlli:**<br>1. 70 kq çəkidə olan orta yaşlı insanın bədənində nə qədər qan var ?<br>m qan = 70 (kq) ·0,08 = 5,6 kq = 5600 q<br>2. Qanın həcmi nədir ? v = m:r<br>V qan = 5600 (q) : 1.05 (q/sm$^3$) = 5333 sm$^3$ = 5333 ml<br>3. 5333ml qanda nə qədər hemoqlobin var?<br>100 ml - 14 q<br>5333 ml - x q<br>x = 5333 (ml) ·14 (q): 100 (ml) = 742, 42 q<br>4. 70 kq çəkidə olan orta yaşlı insan kiçik qan dövranında nə qədər oksigen daşıya bilər?<br>m ($O_2$) = 742,42 q·1,34 (mq/q) = 994,8 mq = 0,994 q |
| 6.Alınmış nəticəni yoxlamaq; | Alınmış nəticəni yoxlamaq üçün məsələni tərsinə həll etmək lazımdır və cavab yoxlanılır. |
| 7.Cavab yazmaq. | 70 kq çəkidə olan orta yaşlı insan bir kiçik qan dövranında 0,994 q oksigen daşıya bilər. |

***Məsələ:*** DNT zəncirində 1120 adenin nukleotid var ki, bu da nukleotidlərin ümumi sayının 28%-ni təşkil edir. Bu zəncirdə neçə quanin, sitozin, timin nukleotidi var? Bu DNT

zəncirinin uzunluğunu və nisbi molekul kütləsini hesablayın.

***Verilir:*** A=1120 nuk =28% l(nuk)=0,34nm Mr (nuk)=345 Q-? S-? T-? l (zəncir)=? Mr (zəncir)=? ***Həlli:***

1. Çarqaff qaydasına və komplementarlıq prinsipinə əsaslanır və buna görə də:

T=A=1120 nukleotid və bu 28%

2. Bu zəncirdə Q, S faizini hesablayırıq.

Q=S=100%-(A+T)/2= 100-(28+28)/2=22% Q=S

Mr(zəncir)=(1120·2+880·2) ·345=1 380 000

3. Bu zəncirdə Q və S-nin miqdarını hesablayın:

1120 adenin -28%

X nuk. -22%

X=880 (nukleotid)

4. Zəncirin molekulunun uzunluğunu müəyyən edin:

l(zəncir)=(1120+880) ·0,34=6809(nm)

5. Nisbi molekul kütləsi təyin edin:

Mr (zəncir)=(1120·2+880·2) ·345=1 380 000

***Cavab: T=1120, Q və S -880***
***Uzunluq-6809(nm), Mp(zəncir)=1380000***

Biologiya dərslərində məsələlərin həlli şagirdlərin zehni yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyin ən vacib vasitələrindən biridir. Şagirdlər məsələ və çalışmaların həlli prosesində digər fəaliyyət sahələrində intellektual və yaradıcılıq qabiliyyətlərini, mövcud bilik və bacarıqlarını həyata keçirmək imkanı əldə edirlər. Bioloji tapşırıqlar məntiqi, təfəkkür və yaradıcı fəaliyyəti inkişaf etdirdiyi üçün öyrənmənin tərkib hissəsidir.

**Problemin aktuallığı**. Şagirdlərin məsələləri həll etmək bacarığına yiyələnməsi biologiya fənni üzrə biliklərin keyfiyyətinin yüksəldilməsi üçün ən mühüm şərtlərdən biri hesab edilir. Lakin təlimdə məsələ həlli bacarıqlarına tam nail olunmaması aktualdır. Tədris praktikasındakı məsələ həlli bacarıqlarının formalaşması üçün uyğun tələblərin olmaması, şagirdlər arasında daxili stimulun və idrak marağın olmaması ilə izah edilə bilər.

**Problemin yeniliyi**. Biologiya dərslərində məsələlərin həlli şagirdlərin zehni yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyin ən vacib vasitələrindən biridir. Şagirdlərin məsələ və çalışmaların həlli prosesində intellektual və yaradıcılıq qabiliyyətləri inkişaf edir və dərsin keyfiyyəti yüksəlir.

**Problemin praktik əhəmiyyəti.** Məsələ həll etmək bacarığı proqram materialının öyrənilməsinin dərinliyini və onun mənimsənilməsini qiymətləndirmək üçün ən yaxşı meyardır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün "Biologiya fənni üzrə təhsil (kurikulum)" (VII-XI siniflər). -Bakı: -2023. - 57s.
2. Болгова, И.В. Сборник задач по общей биологии с решениями для поступающих в вузы. / Болгова И.В. *-М.:* -"Издательство Оникс"-2006.-256 с.
3. İbrahimova, X.Q. Məktəb biologiya kursunda məsələ həllinin texnologiyası. dərs vəsaiti. / İbrahimova X.Q. -"Müəllim" nəşriyyatı. -Bakı: -2022.- 216 s.
4. İbrahimova, X.Q. Biologiyanın tədrisi metodikası (Ümumtəhsil məktəbləri üçün biologiya fənni üzrə təhsil proqramının-kurikulumun tətbiqi)dərs vəsaiti / İbrahimova X.Q. -Bakı:-ADPU-nun nəşriyyatı -2023. -319s
5. Муртазин, Г.М. Задачи и упражнения по общей биологии. Пособие для учителей. / Г.М. Муртазин. - М.:- Просвещение.- 1981. – 270с.
6. Рысьева Т.Г., С.В. Дедюхин С.В., Ю.А. Тюлькин Ю.А. Задачи по биологии: Задачник / сост. Т.Г. Рысьева Т.Г., Дедюхин С.В., Тюлькин Ю.А. –Ижевск: -Издательство "Удмуртский университет".- 2010.- 157с.


**E-mail:** xosqedem.ibrahimova59@gmail.com
**Redaksiyaya daxil olub:** 09.09.2024.

# *COĞRAFİYANIN TƏDRİSİ METODİKASI*
# *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ГЕОГРАФИИ*
# *METHODOLOGY OF TEACHING GEOGRAPHY*

*UOT 372.891*

***Təranə Mehman qızı İsmayılova***
*https://orcid.org/0000-0003-1122-9006*
*https://doi.org/10.69682/arti.2024.91(5).170-174*

## CİS TEXNOLOGİYASININ ŞAGİRDLƏRİN COĞRAFİYA FƏNNİNİN TƏDRİSİ ZAMANI KARTOQRAFİK BACARIQLARININ İNKİŞAF ETDİRMƏSİ VASİTƏSİ KİMİ

***Тарана Мехман гызы Исмаилова***

## ГИС-ТЕХНОЛОГИЯ КАК СРЕДСТВО РАЗВИТИЯ КАРТОГРАФИЧЕСКИХ НАВЫКОВ УЧАЩИХСЯ ВО ВРЕМЯ ПРЕПОДАВАНИЯ ГЕОГРАФИИ

***Tarana Mehman Ismayilova***

## GIS TECHNOLOGY AS A MEANS OF DEVELOPING PUPILS' CARTOGRAPHIC SKILLS DURING THE TEACHING OF GEOGRAPHY

**Xülasə.** CİS-in xüsusi didaktik funksiyası ərazinin üçölçülü modelinin qurulmasıdır. Onun istifadəsi məkan təfəkkürünün inkişafına kömək edir və müstəvidə yerləşən məlumatları üçölçülü formada göstərməyə imkan verir ki, bu da ənənəvi kağız xəritələri ilə işləyərkən mümkün deyil. Yaradılmış 3D modeldə tematik xəritələrin və ya təbəqələrin üst-üstə düşməsi ilə səbəb-nəticə əlaqələrini təhlil etmək üçün əlavə imkanlar yaranır.
***Açar sözlər:*** *coğrafiya, CİS texnologiyaları, 3D modeli, vizuallaşdırma, tərbiyəvi, inkişaf etdirici, informasiya, vizual-məcazi, bacarıq.*

**Аннотация**. Особой дидактической функцией ГИС является построение трехмерной модели местности. Его использование способствует развитию пространственного мышления и позволяет отображать информацию, расположенную на плоскости, в трехмерном виде, что невозможно при работе с традиционными бумажными картами. Наложением тематических карт или слоев на созданную 3D-модель возникают дополнительные возможности анализа причинно-следственных связей.
***Ключевые слова:*** *география, ГИС-технологии, 3D-модель, визуализация, воспитательная, развивающая, информационная, визуально-образная, умения*

**Abstract.** The special didactic function of GIS is the construction of a three-dimensional model of the area. Its use contributes to the development of spatial thinking and allows displaying information located on a plane in a three-dimensional form, which is not possible when working with traditional paper maps. By superimposing thematic maps or layers on the created 3D model, additional possibilities arise for analyzing cause-and-effect relationships.
***Keywords:*** *geography, GIS technologies, 3D model, visualization, educational, developmental, information, visual-figurative, skill.*

CIS texnologiyaları hazırda məktəblərdə coğrafiyanın tədrisində mühüm rol oynayır. Bu texnologiya hər bir şagirdin şəxsi keyfiyyətlərini üzə çıxarmağa kömək edir. CİS metodistlər tərəfindən çoxfunksiyalı, mürəkkəb və kartoqrafik tədris vasitəsi kimi qəbul edilmişdir. CİS ilə işləyərkən bir sıra funksiyalar aktivləşdirilir: vizuallaşdırma, tərbiyəvi, inkişaf etdirici, informa-

siya, vizual-məcazi, həmçinin bacarıqlar formalaşır. Vizual funksiya şagirdlərə coğrafi ideyaların üfüqlərini sensor qavrayış dərəcəsinə qədər zənginləşdirməyə və genişləndirməyə imkan verir, öyrənmə prosesini daha əlçatan etməyə imkan verir, eyni zamanda təfəkkür, müşahidə və idrak qabiliyyətlərinin inkişafı baş verir, tədris materialının mənimsənilməsini daha dərin və daha davamlı olmağa kömək edir.

CİS-in təhsil funksiyası bu texnologiyadan istifadə edən məktəblilər üçün ekoloji, estetik tərbiyə, milli sərvətlərə diqqətli münasibət problemlərini həll etməyə imkan verən müxtəlif vəzifələrin tədris prosesinə daxil edilməsidir. CIS məktəblilərin hisslərinə qavrayışın ifadəliliyi və emosionallığı ilə təsir edir, beləliklə, inkişaf funksiyasını həll edərkən onları qiymətləndirmə fəaliyyətinə daxil edir.

CIS-in sistemli, məqsədyönlü istifadəsi şagirdlərin zehni inkişafına kömək edir, inkişaf funksiyasını həyata keçirir. İlkin mərhələdə CİS texnologiyaları ilə sistemli iş zehni inkişafı nəzərdə tutur ki, onun əsas funksiyası tədqiq olunan obyekt və ya hadisəyə maraq oyatmaqdır. Bu mərhələdə iş verilmiş nümunəyə uyğun olaraq baş verir, yalnız əsas texnikaları mənimsədikdən sonra növbəti mərhələyə - müstəqil, yaradıcı problem həllinə keçid baş verir. Sistemli iş sayəsində informasiya-təbliğat funksiyaları da öz həllini tapır, hər bir tədris aləti kimi mühüm informasiya və semantik yük daşıyır.

Məktəblilərə coğrafiyanın tədrisində CİS-dən istifadənin ümumi məqsədi: səbəb-nəticə əlaqələrinin formalaşması, coğrafi obyektlərin və hadisələrin yerləşməsinin məkan təsviridir. İşin növü dərs formasının CIS ilə təşkilindən asılıdır: müstəqil, praktiki və ya ev tapşırığı.

"Coğrafi xəritə elm və sənətin sintezi, rəngkarlıq, qrafika, texniki təsvirlər, diaqramlar, müxtəlif yazı növlərini - piktoqrafik, ideoqrafik, əlifbanı birləşdirən çoxqatlı hadisədir" deyə B.B. Rodoman iddia edirdi. Anlayışlar və terminlər toplusu proqram tərəfindən müəyyən edilmiş kartoqrafik bilikləri təmsil edir. CİS-in köməyi ilə coğrafiyanın öyrənilməsi prosesində məktəblilər müxtəlif məlumat mənbəyi ilə işləməlidirlər: mətn (dərslik mətni, əlavə ədəbiyyat, ensiklopediyalar), kartoqrafik (topoqrafik və coğrafi xəritələr, qlobus), profillər, diaqramlar, çertyojlar, alətlər.

Coğrafiyanın tədrisində əsas bacarıqlardan biri coğrafi xəritəni oxumaq bacarığıdır. CİS-dən istifadə etməklə coğrafiya öyrənərkən şagirdin öyrəndiyi ilk şey coğrafi məlumatları rəqəmsal xəritədən oxumaq bacarığıdır. Kağız xəritəni öyrənmək funksiyaların yerləşdirilməsinin təhlili ilə məhdudlaşır, rəqəmsal xəritə isə təbəqələrdə daha ətraflı məlumatı göstərir. Çox vaxt xəritələrin oxunması prosesində bu və ya digər obyektin tapılmasına ehtiyac yaranır. Kağız xəritələrlə işləmək çox vaxt aparır və CİS müəyyən edilmiş parametrlər əsasında obyektlərin tez axtarışı üçün bir sıra alətlər təqdim edir. Müxtəlif rəqəmsal məzmunları ehtiva edən xəritələr, peyk şəkilləri birləşdirilə bilər.

Çox vacib kartoqrafiya bacarıqları xəritələrdən istifadə edərək ölçmə və hesablamalar aparmaq bacarığıdır. Çox vaxt xəritələrdən istifadə edərək ölçmə və hesablamaların aparıldığı praktiki tapşırıqlara kifayət qədər diqqət yetirilmir. Bu, xəritələrdən istifadə etməklə ölçmələrin aparılmasının və hesablamaların aparılmasının əmək tutumlu olması ilə izah olunur ki, bu da tədris vaxtından səmərəsiz istifadəyə gətirib çıxarır. CIS nəticələri müəyyən etmək və təhlil etmək üçün kifayət qədər vaxta imkan verən sürətli ölçmə vasitələri təqdim edir. Xəritələrdə obyektlərin coğrafi koordinatlarını təyin etmək bacarığı coğrafiyanın öyrənilməsində əsas bacarıqlardan biridir. CIS məktəblilərə bu bacarığı inkişaf etdirməyə və tətbiq etməyə imkan verir.

CİS-in xüsusi didaktik funksiyası ərazinin üçölçülü modelinin qurulmasıdır. Onun istifadəsi məkan təfəkkürünün inkişafına kömək edir və müstəvidə yerləşən məlumatları üçölçülü formada göstərməyə imkan verir ki, bu da ənənəvi kağız xəritələri ilə işləyərkən mümkün deyil. Yaradılmış 3D modeldə tematik xəritələrin və ya təbəqələrin üst-üstə düşməsi ilə səbəb-nəticə əlaqələrini təhlil etmək üçün əlavə imkanlar yaranır.

CIS proqram verilənlər bazasındakı xəritələr əsasında fərdi layihə, rəqəmsal xəritə qurmağa imkan verir. Simvol yaratmaq və onları redaktə etmək mümkündür. Bu, öyrənmə prosesini öyrənənlər üçün əyləncəli edir. Statistik tədqiqat metodundan istifadə etməklə CIS məktəblilərə xəritə təhlili ilə tanış olmağa imkan verir. Eyni zamanda, o, bu məlumatları müstəqil şəkildə yeniləmək imkanına malikdir.

Coğrafiya üzrə məzmun standartları şagirdlərdə ərazi oriyentasiyası, coğrafi xəritədən istifadə, statistik məlumatlar, hər cür coğrafi məlumatların izahı, axtarışı və nümayişi bacarıqları formalaşdırılması üçün zəmin yaradır.

CIS texnologiyalarının imkanları çox genişdir. Tematik xəritələrdə məqsədlərinizdən asılı olaraq asanlıqla çıxarıla və əlavə edilə bilən bir sıra tematik təbəqələr var. Hazır xəritələr və təbəqələrdən istifadə etməklə yanaşı, proqram onları redaktə etməyə və yeni məhsul yaratmağa imkan verir. Alətlər dəstinə müxtəlif hesablamaların aparılması (məsələn, tematik təbəqələrdə verilənlərin interpolyasiyası), kartoqramların, xəritə diaqramlarının qurulması əməliyyatları, statistik məlumatlarla işləmək üçün alətlər daxildir.

CİS çoxfunksiyalı və hərtərəfli kartoqrafiya tədris vasitəsi kimi qəbul edilir. CİS-lər görmə funksiyalarını yerinə yetirir, təhsil, inkişaf, informasiya öyrənmə funksiyalarını təmin edir. CİS ilə işləməyi mənimsədikcə tapşırıqların mürəkkəblik səviyyəsinin tədricən artması, öyrənilən obyektə marağın artmasına səbəb olacaq və məktəbliləri gələcək problemlərin həllinə müstəqil yaradıcı yanaşmaya təkan verəcəkdir.

Coğrafi informasiya sistemləri rəqəmsal tematik xəritələr şəklində mənbənin, əldə edilmiş və ya yekun məlumatların vizuallaşdırılması və emal nəticələrinin geniş spektrini təmin edir. CİS və coğrafi informasiyaya yiyələnmə ilə məktəblilər obyektlərin qarşılıqlı təsiri və yerləşməsi ilə bağlı suallara cavab ala, təbiət hadisələrinin səbəb-nəticə əlaqələrini izah etmək bacarığına yiyələnir, əldə etdikləri biliklərdən praktiki fəaliyyətdə istifadə edə bilirlər. CİS, şərti işarələrin dilindən istifadə edərək rəqəmsal xəritəyə təhsil məlumatının mənbəyi və məkan modeli kimi baxmağa və bununla da bir sıra digər məktəb fənlərinin qarşısında duran problemləri həll etməyə imkan verir.

Müasir təhsil prosesində ən vacib olanı müstəqil bilik əldə etmək, lazımi məlumatları toplamaq, fərziyyələr irəli sürmək, nəticələr çıxarmaq bacarığını formalaşdıran texnika və metodların, texnologiyaların istifadəsidir, beləliklə, təhsil üçün şərait yaradan universal təhsil fəaliyyəti formalaşdırır. Təhsil prosesində ümumi qəbul edilmiş yanaşma, idrakın aktiv formalarından istifadənin vacib olduğu təşkilatın layihə forması problemlərinin həllinə yönəlmiş sistemli-fəal yanaşmadır. Məktəb informasiya mənbəyinə çevrilir və bu məlumatı müstəqil əldə etməyi və onunla işləməyi öyrədir. Müəllim artıq bilik mənbəyi deyil, yeni biliklərin müstəqil mənimsənilməsinə yönəlmiş müxtəlif yaradıcı fəaliyyət üsulları ilə dərs deyən şəxsdir.

Bilik mənbələrinə görə metodların təsnifatında üç qrup metodlar fərqləndirilir: vizual, şifahi və praktiki.

**A. Bilik mənbələrinə görə fərqlənən tədris üsulları.**

**1. Şifahi üsullar.**

İnsanlar arasında ən mühüm ünsiyyət vasitəsi nitqdir. Tədris prosesini də onsuz təsəvvür etmək mümkün deyil. Bu qrupda üsullar məzmunun təqdimat formasına görə fərqlənir. Bu, materialın müəllimin nitqi şəklində təqdimatıdır: hekayə, izahat, həmçinin dərslik mətni ilə iş. Çox tez-tez tədrisdə dialoqdan istifadə olunur: uşaqlarla söhbət, dərslikdə təqdim olunan suallar və tapşırıqlarla işləmək. Şifahi metodlar öz rolunu itirməmişdir, çünki onlar təfəkkür və nitqin inkişafına, məktəblilərin şəxsiyyətinin emosional sferasının formalaşmasına əhəmiyyətli təsir göstərir.

Bu metodların əsas funksiyası əsas biliklərin yenilənməsi, ümumiləşdirilməsi və sistemləşdirilməsi, hədəf parametrlərinin formalaşdırılması zamanı təhsil məlumatlarının ötürülməsidir. Nitq şagird şəxsiyyətinin emosional sferasına böyük təsir göstərir. Şifahi metodlardan istifadə edərkən şagirdlərin idrak fəaliyyətində müstəqillik metodların daxili tərəfi - müstəqil fəaliyyətin müxtəlif səviyyələri ilə ifadə edilir. Xarici tərəf şagirdin nitqində özünü göstərir ki, bu da müəllimin izahatının məzmununu və ya dərsliyin mətnini yenidən düşünməkdə müstəqillik nümayiş etdirir. Əksər məktəblilər müəllimin və ya dərsliyin suallarını cavablandırarkən yaradıcılıq elementi əlavə edirlər. Dərslik materialını şifahi şəkildə təkrarlayarkən şagirdlər təfərrüatları buraxır, təqdimatın məntiqini yenidən təşkil edir, həyat təcrübəsindən götürülmüş yeni faktları təqdim edir.

Evristik söhbət, məktəblilərin fərdi xüsusiyyətlərini, reaksiya sürətini, təfəkkür, nitq, yaddaş, səviyyəni müəyyən etməyə imkan verən problemli sualların tərtibi ilə müstəqil yaradıcı fəaliyyətin təzahürü üçün böyük potensiala malikdir. Məktəblilərin zehni fəaliyyətinin təşkilin-

də potensialdan maksimum istifadə şifahi metodların təkmilləşdirilməsinin əsas istiqamətidir ki, bu da müəllimdən metodun daxili tərəfini idarə etməyi tələb edir. Buna məktəblilərə məntiqi əməliyyatları, dərslik mətninin məntiqi təhlili üsullarını öyrətməklə, problemli tapşırıqları həll etməklə nail olmaq olar. Bütün bunlar o deməkdir ki, məktəblilərə təhlil, müqayisə, sistemləşdirmə, ümumiləşdirmə öyrətmək lazımdır. Şifahi üsullar düşünməyi, fikrini ifadə etməyi, müşahidə olunan hadisələr haqqında danışmağı, paylaşmağı öyrənmək üçün lazımdır.

**2. Vizual üsullar.**

Tədrisin əsas prinsiplərindən biri vizuallıqdır. Bu, biliklərin mənimsənilməsini asanlaşdıran canlı təsvirlərdən əldə edilən məlumatlardır. İdrak prosesi reallığın vizual təsviri və şəkil və ya şərti sxemin qavranılması ilə məhdudlaşmır. Düşünmək, xassələri müəyyən etmək, diqqəti konkret görüntülərdən, obyekt və ya hadisənin digər obyekt və ya hadisələrlə daxili və xarici əlaqələrindən yayındırır, birbaşa vizual olaraq qəbul edilməyən cəhətləri üzə çıxarır. Eyni zamanda, idrakın əhəmiyyətli mərhələsi faktiki dərk edilən dünyanın qanunları üzərində qurulur. Düşüncə, təfəkkürlə əlaqə saxlayaraq, onu aktivləşdirir və konkretləşdirir.

Profillər də istifadə olunur - obyektlərin və ya hadisələrin şaquli müstəvidə yerləşdirilməsinin şərti təsviri. Onlar təbiət hadisələrinin şaquli paylanmasının əyani təsvirini yaradaraq xəritələrə əlavə kimi xidmət edir. Şəkillərin xarakterindən asılı olaraq şərti olaraq iki növ profil fərqləndirilir. Birinci profil rəsmdir, profil eskizdir. Bu sadə qrafik təsvirdir. Dağların, vulkanların və yer səthinin daxili quruluşunu təsvir edən kəsik rəsmlərindən də istifadə olunur. Daxili quruluş və ərazinin görünüşü arasındakı əlaqə blok-sxemlərlə uğurla çatdırılır. Onlar bölmələri perspektiv təsvirlərlə birləşdirir və səthin sxematik görünüşünü və daxili quruluşunu çatdıran ərazilərin təsvirlərini təmsil edir.

**3. Praktik üsullar.**

Təhsil standartının şərtlərində istifadə olunan üsullar dəyişir, və ən çox istifadə olunan praktiki tədris üsullarıdır. Coğrafi məlumatlar xəritələr, qrafiklər, müxtəlif modellərlə təqdim olunur. Şagirdlər apardıqları müşahidələrin nəticələrinə əsasən qrafiklər və diaqramlar qurur, xəritələrlə işləyirlər. Metodların mahiyyəti ondan ibarətdir ki, müəllim coğrafi obyektlərlə fəaliyyət üsullarını mənimsəmək üçün vəzifə qoyur və fəaliyyətlər təşkil edir, onlardan yeni biliklər çıxarmağı öyrədir: xəritələri oxumaq, təhlil etmək, müqayisə etmək, səbəb-nəticə əlaqələrini müəyyən etmək. Bacarıqların formalaşmasında praktiki üsullar böyük rol oynayır.

Fəaliyyətlərin ardıcıllığını izah edən, icra nümunəsini göstərən və yol boyu verilən tapşırıqları verən müəllimin rəhbərliyi altında təlim-tərbiyə işləri aparılır. Təlim işi bacarıqları möhkəmləndirməyə və təkmilləşdirməyə yönəlib, bəziləri bacarıqlara çevrilə bilər.

**B. Məktəblilərin idrak fəaliyyətinin xarakterinə görə təlim metodlarının təsnifatı.**

**1. İzahlı və illüstrativ üsul.** Vizual vasitələrdən istifadə edərək biliklərin mənimsənilməsinin təşkilini nəzərdə tutan müəllim tərəfindən təhsil məlumatlarının ötürülməsi üçün nəzərdə tutulmuşdur. Bu üsuldan istifadə edərək əsas bilik fondu yaradılır, bunun əsasında sonradan məktəblilərin müstəqil işi təşkil edilə bilər. Müəllim biliyi ötürür, şagirdlər isə onu hazır formada mənimsəyirlər. Bu üsul mənimsənilməsi biliklərlə zəif dəstəklənən nəzəri biliklərin tətbiqi zamanı zəruridir.

**2. Reproduktiv üsul**. Xüsusi coğrafi bacarıqları inkişaf etdirmək və bilikləri möhkəmləndirmək məqsədi daşıyır. Müəllimin rolu ondan ibarətdir ki, tapşırıqlar sistemi biliklərin və fəaliyyət metodlarının təkrar istehsalı üçün fəaliyyətləri təşkil edir. Metod sizə modelə uyğun hərəkət etməyi öyrədir. məktəblilərin bilik və bacarıqlarını tanış təlim şəraitində tətbiq etmək,

**3. Problemin təqdim edilməsi üsulu**. Əsas funksiyası mürəkkəb bilik yolunu nümayiş etdirmək, həqiqətə doğru hərəkət etmək və nümunə sual nümayiş etdirməkdir. Müəllim problem qoyur, onu aydın formalaşdırır, həll edir və alimin əsaslandırma xəttini açır. Məktəblilər təfəkkürün gedişatını izləyir, məntiqi əməliyyatları öyrənirlər, onların köməyi ilə problemləri həll edirlər.

**4. Qismən axtarış metodu.** Metodun məqsədi insanları tədricən yaradıcı fəaliyyətlə tanış etməkdir. Qismən axtarış metodu idrak prosesində fərdi addımları müstəqil yerinə yetirməyi öyrədir. Bəzi tədris materiallarının müstəqil mənimsənilməsi təklif olunur. Metod məktəbliləri idrak prosesinə tam daxil etmir, çünki

bu prosesin ayrı-ayrı mərhələləri onların şüurunda "sındırılır". İnsanların çoxu koqnitiv mərhələlər arasındakı əlaqəni anlamır və ya dərk etmir. Beləliklə, bu üsul şagirdləri yalnız müstəqil yaradıcı fəaliyyətə hazırlayır, lakin bunu tam təmin edə bilmir.

5. **Tədqiqat metodu.** Əsas vəzifə faktların öyrənilməsi, səbəb-nəticə əlaqələrinin mövcudluğunu güman etmək, onların düzgünlüyünü yoxlamaq və əsaslandırmaqdan ibarət olan yeni tədris materialının müstəqil öyrənilməsi yolu ilə məktəbliləri yaradıcı fəaliyyətə cəlb etməkdir.

Bu üsul çox nadir hallarda istifadə olunur, bu da bir sıra səbəblərlə izah olunur: eyni mövzuda hazır bilikləri mənimsəmək üçün lazım olanlarla müqayisədə çox vaxt sərmayəsi. Bundan əlavə, məktəblilər getdikcə mürəkkəbləşən tapşırıqları yerinə yetirərək tədqiqat işlərinə hazırlanmalıdırlar. Tədqiqat metodunu tətbiq etmək üçün xüsusi təhsil avadanlığı lazımdır – arayış kitabları, xəritələr seriyası və daha çox. Bu metodologiya zəif inkişaf etmişdir, onun tədris prosesində tətbiqi üçün kifayət qədər tam tövsiyələr yoxdur.

**Problemin aktuallığı.** CİS-in ən əhəmiyyətli komponentlərində biri də "məlumat"dır. Qrafik quruluşdakı coğrafi məlumatlar ilə təyin edici xüsusiyyətdəki özüdəlik və ya cədvəl məlumatları lazımlı qaynaqlardan toplana biləcəyi kimi, bazarda olan hazır haldakı məlumatlar da satın alına bilər. CİS yerəl məlumatı digər məlumat qaynaqlarıyla birləşdirə bilər. Beləcə bir çox təşkilat və quruluşa aid məlumatlar təşkil edilərək, yerəl məlumatlar dəqiqləşdirilir. Məlumat, ekspertlər tərəfindən CİS üçün təməl element olaraq qəbul edilərkən, əldə edilməsi ən çətin komponent olaraq da görülməkdədir. Məlumat qaynaqlarının dağınıqlığı, çoxluğu və fərqli strukturlarda olmaları, bu məlumatların toplanması üçün böyük zaman və xərc tələb etməkdədir. Necə ki CİS-ə istiqamətli qurulması hazırlanan bir sistem üçün xərclənəcək zaman və xərcin təxminən %50 deyil çoxu məlumat yığmaq üçün lazımdır.

**Problemin elmi yeniliyi**. CİS texnologiyası insanlar olmadan məhdud bir quruluşda olardı. Çünki insanlar gerçək dünyadakı problemləri tətbiq etmək üzrə lazımlı sistemləri idarə edər və inkişaf planları hazırlayar. CİS istifadəçiləri, sistemləri hazırlayan və qoruyan ekspert texniklərdən gündəlik işlərindəki performanslarını artırmaq üçün bu sistemləri istifadə edən kəslərdən ibarət olan geniş bir kütlədir. Başqa sözlə coğrafi məlumat sistemlərində insanların istəkləri və yenə insanların bu istəkləri qarşılamaları kimi bir müddət yaşanar. CİS-in inkişafı mütləq surətlə insanların yəni istifadəçilərin ona sahib çıxmalarına və mövqeyə bağlı hər cür analiz üçün CİS-i istifadə edə bilmə qabiliyyətlərini artırmağa və dəyişik intizamlara yenə CİS-in üstünlüklərini tanıtmaqla mümkün ola biləcək.

**Problemin praktik əhəmiyyəti.** CİS texnologiyalarından istifadə etməklə kartoqrafik bacarıqların inkişaf etdirilməsi metodlarının işlənib hazırlanmış modelindən istifadə etməklə coğrafiyanın tədrisinin praktiki tətbiqidir. Qiymətləndirmə işləri kartoqrafiya bacarıqlarının inkişaf səviyyəsini müəyyən etməyə imkan verən test tapşırıqları, praktik və nəzarət işləri, eləcə də nəzəri suallar şəklində yaradılmışdır. Tədqiqat materiallarından məktəblərdə müəllimlər, eləcə də gələcək mütəxəssislərin hazırlanması və yenidən hazırlanmasında istifadə oluna bilər.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir // - Bakı: Qanun, - 2013.
2. Əlizadə Ə. Ə. // Əsrin meqameyilləri: psixopedaqoji problemlər [Mətn]: III cild. – Bakı, 2008. – 501 s.
3. İnteqrativ kurikulum / Mahiyyəti və nümunələr. Müəllimlər üçün vəsait (müəllif qrupu) -Bakı, 2005. - 300 s. (İREX təşkilatının xətti ilə)
4. Məmmədov, Q.Ş. Ekologiya və ətraf mühitin mühafizəsi. / Q.Ş. Məmmədov, M.Y. Xəlilov - Bakı: Mütərcım,- 2005. - 880 s.


**E-mail:** teraneler@mail.ru

**Redaksiyaya daxil olub:** 25.09.2024.

## *XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ*
## *METHODOLOGY OF TEACHING FOREIGN LANGUAGES*

*UOT 372.881.111.1*

***Nigar Azad qızı Qasımova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/0000-0002-2458-2469*
*https://doi.org/10.69682/arti.2024.91(5).175-179*

# İNGİLİS DİLİNDƏ ÜMUMİLƏŞMƏ VƏ XÜSUSİLƏŞMƏ PROSESLƏRİ

***Нигяр Азад гызы Гасымова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ПРОЦЕССЫ ОБОБЩЕНИЯ И СПЕЦИФИКАЦИИ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

***Nigar Azad Gasimova***
*teacher of the Azerbaijan State Pedagogical University*

# GENERALIZATION AND SPECIFICATION PROCESSES IN ENGLISH

**Xülasə**. Dil mürəkkəb bir strukturdur, xarici faktorların təsiri ilə dilin daimi inkişafı və çətinləşməsi nəticəsində yaranan daxili problemlərin təsiri ilə dəyişikliklərə məruz qalır. Sözün bir neçə mənası ola bilər və zaman keçdikcə bəzi mənalar unudula və artıq istifadə olunmaya bilər. Çoxmənalılıq hər bir dildə təbii hadisədir və semantik dəyişmənin səbəblərindən biridir. Sözün mənasını elastik, dəyişən mexanizm kimi təsvir etmək olar. Sözün ilkin mənası vaxt ötdükcə genişlənə, ümumiləşə və əksinə mənanın daralması, xüsusiləşməsi baş verə bilər. Əksər hallarda sözün mənasının genişlənməsi sözün ilkin mənasının mücərrədləşməsi ilə müşayiət olunur. Dildə sözlərin çoxu konkret anlayışların adı kimi meydana çıxır. Sonra isə sözlərin ilkin mənası genişlənir və ümumiləşir. Sözün mənasının genişlənməsi sözün inkişafı tarixində ən geniş yayılmış xüsusiyyətlərdən biridir. Mənanın daralması tədricən gedən bir prosesdir, bu zaman söz ünsiyyətin ümumi sferasından xüsusi sferasına daxil olur.
***Açar sözlər**: sözün ilkin mənası, sözün yeni mənası, mənanın genişlənməsi, ümumiləşmə prosesi, mənanın mücərrədləşməsi, mənanın daralması, xüsusiləşmə prosesi*

**Аннотация.** Язык – сложная структура, подверженная изменениям влияния внешних факторов и внутренних проблем, возникающих в результате постоянного развития, усложнения языка. Слово может иметь несколько значений, и со временем некоторые значения могут быть забыты и больше не использованы. Многозначность – естественное явление в каждом языке и одна из причин семантического изменения. Значение слова можно описать как эластичный, изменяющийся механизм. Первоначальное значение слова с течением времени может расширяться, обобщаться, и наоборот, может происходить сужение, спецификация значения. В большинстве случаев расширение значения слова сопровождается абстрагированием первоначального значения слова. В языке большинство слов появляются как названия конкретных понятий. А потом первоначальное значение слов расширяется и обобщается. Расширение значения слова – одно из самых распространенных особенностей в истории развития слова. Противоположностью процесса расширения значения слова, обобщения является процесс сужения значения слова, специализации. Сужение значения – процесс постепенный, при котором слово из общей сферы общения переходит в особую сферу.
***Ключевые слова:** первоначальное значение слова, новое значение слова, расширение значения, процесс обобщения, абстрагирование значения, сужение значения, процесс специализации.*

**Abstract.** Language is a complex structure, subject to changes due to the influence of external factors, internal problems caused by the constant development of the language and its complication. The word can have several meanings, and over time, some meanings may be forgotten and no longer used. Polysemy is a natural phenomenon in every language and one of the reasons for semantic change. The meaning of the word can be

described as a flexible, changing mechanism. The original meaning of the word can expand, become general over time, and vice versa, a narrowing of the meaning, its specialization can occur. In most cases, the expansion of the meaning of the word is accompanied by the abstraction of the original meaning of the word. In the language, most words appear as the name of specific concepts. And then the original meaning of the words expands and becomes general. The expansion of the meaning of the word is one of the most widespread features in the history of the development of the word. The opposite of the process of expansion of the meaning or generalization is the process of narrowing of the meaning or specialization. Narrowing of meaning is a gradual process, during which the word enters from the general sphere of communication into its special sphere.

***Keywords:*** *the initial meaning of the word, the new meaning of the word, the expansion of meaning, the process of generalization, the abstraction of meaning, the narrowing of meaning, specification process*

Dil cəmiyyətlə birlikdə inkişaf edir və müxtəlif növ dəyişikliklərdən keçir. Sözlərin mənası xarici faktorların təsiri və dilin daxili strukturundakı rəqabət və tərəqqi nəticəsində dəyişir, inkişaf edir. Qloballaşma və yeni texnologiyalar dövründə yalnız neologizmlərə deyil, həm də sözlərin yeni mənasına çox böyük ehtiyac, tələbat yaranır. O sözlərin mənaları dəyişir ki, onlar köhnəlmiş əşyaları bildirir və bu sözlər üçün artıq yeni mənalar tapılır; müəyyən bir şeyi bildirmək üçün olan sözlər rəqabətə tab gətirməyib başqa əşya və hadisəni bildirməyə başlayır. Sözlərin mənalarının dəyişməsi müntəzəm və daimi olaraq gedən prosesdir. Yeni anlayışların yaranması ilə sözlərin mənalarının yenidən qavranması, yenidən dərk olunması hadisəsi baş verir.

Cəmiyyətin inkişafı, insanlararası münasibət və fəaliyyətlər sözlərin mənalarının dəyişməsində geniş yayılmış səbəblərdən biridir. Ətraf aləmin dəyişməsi sözlərin mənalarının dəyişməsinə səbəb olur, bunu da funksional semantika adlandırırlar. Məsələnin məğzi bundadır ki, bir şey köhnəldikdə və ya cəmiyyətin istifadəsindən çıxdıqda, bu əşyanın adı istifadədə qalır və daha sonra başqa bir əşyanı, predmeti adlandırmaq üçün istifadə olunur.(3, s.24-27) Bu zaman əvvəlki əşya ilə sonradan sözün adlandırdığı əşya arasında funksional bağlılıqdan başqa ümumi heç bir şey olmur. Buna misal olaraq "*pen*" sözünü göstərmək olar, hal-hazırda bu söz qələm, lakin əvvəllər isə "*quş lələyi*" mənasını ifadə edirdi.

İngilis dili, başqa dillər kimi dəyişikliklərə məruz qalır, çünki bu, ən geniş yayılmış dillərdən biridir. Bu dildə dünyanın hər bir nöqtəsində danışılır. Bu, sosial şəbəkələrdə ən məşhur dillərdən biridir. İnformasiyanın ötürülməsi və ünsiyyətin spesifikasının dinamik dəyişməsi nəticəsində bu dildə müxtəlif proseslər, o cümlədən sözlərin mənasının dəyişməsi baş verir. İngilis dilində daha çox müşahidə olunan proseslər sözlərin mənalarının genişlənməsi – ümumiləşmə prosesi və sözlərin mənalarının daralması – xüsusiləşmə prosesləridir.

Mənanın daralması (narrowing of meaning, specialization) prosesinin əksi mənanın genişlənməsidir (widening of meaning, extension of meaning, generalization). Əksər hallarda sözün mənasının genişlənməsi sözün yeni mənasının əvvəlki məna ilə müqayisədə daha çox mücərrədləşməsi ilə müşayiət olunur:

"*junk*" sözü əvvəllər dənizçilər tərəfindən istifadə olunurdu və bu sözün ilkin mənası "köhnə kəndir, ip" idi. İndi isə bu sözlə bütün "köhnə, lazımsız əşyalar" adlandırılır.

"*bird*" sözünün ilkin mənası "quş balası" olmuşdu. İndi isə "bird" sözü ilə bütün lələkləri və qanadları olan heyvanları, quşları adlandırırlar.

"*gambit*" sözünün ilkin mənası "şahmat" oyununda oyunçunun "qələbə üçün piyadanı qurban verməsi" olmuşdu. İndi isə "gambit" sözü ilə obrazlı şəkildə "üstünlük əldə edə bilmək, qələbə qazanmaq üçün edilən bütün ağıllı hərəkətləri, verilən istənilən qurbanları" adlandırırlar.

"*barn*" sözünün ilkin mənası "arpanın saxlanılması üçün yer" olmuşdu. İndi isə bu söz "saman, quru ot, dənli bitkilər, mal-qaranın saxlanıldığı ferma binası, anbar" mənasında işlədilir.

"*campaign*" sözünün ilkin mənası "hərbi yürüş, döyüş meydançasında hərbi fəaliyyət" olmuşdu. Hal-hazırda isə "campaign" sözü "nəticə əldə etmək üçün məqsədyönlü fəaliyyət" mənasında işlənir. Bu fəaliyyət isə həm hərbi, həm siyasi, həm də iş fəaliyyəti ola bilər.

"*fly*" felinin ilkin mənası "qanad vasitəsilə havada hərəkət etmək" olmuşdu. Hal-hazırda isə cəmiyyətin inkişafının nəticəsi olaraq daha geniş mənanı ifadə edir: "havada və ya kosmosda hərəkət etmək", "uçmaq".

Mənanın genişlənməsi, ümumiləşmə prosesini ingilis dilində bir çox sözlərdə müşahidə edirik:

- *Pants* - mens wide breeches extending from waist to ankle; pantaloons underpants (original meaning) → an outer garment that covers the body from the waist downwards, covering each leg separately, usually as far as the ankles; trousers (modern meaning). Şalvar – geniş kişi bridcisi beldən ayaq biləyinə qədər; dar şalvar, alt paltarı (ilkin məna) → üst geyim predmeti, bədənin aşağı hissəsini və ayrılıqda hər iki ayağı örtən şalvar (yeni məna).

XVII əsrdə İtaliyada "commedia dell arte" konsepti düşünülmüşdü, bu professional teatrın erkən forması idi. Əsas personajlardan biri Pantalone adlı qəhrəman idi. Onu ayağında çəkələk, əynində dar şalvar olan ağılsız yaşlı kişi kimi təsvir edirdilər. Köhnə fransız dili daşıyıcıları metonimiya vasitəsilə onu şalvarın öz adı ilə ad-landırmağa başladılar. Bundan sonra "pantalone" sözü ingilis dilinə "pantaloon" formasında alınma söz kimi daxil olur, "pants" kimi qısaldılır və "şalvar" mənasında işlədilir. Əvvəlki dövrlərdə britaniyalılar "pants" sözünü "alt paltarı" mənasında istifadə edirdilər. "Pants" sözünün kişi paltarına aid olması həmin dövrdə yalnız kişilərin şalvar geyinməsi tarixi ənənəsi ilə əlaqədar idi. XX əsrin əvvəllərində bu söz ilk dəfə hər iki cinsin geyimi mənasında işlədilməyə başlanır.

- Place – broad streets (original meaning) →a location or position in space (modern meaning) Yer – geniş küçələr (ilkin məna) → məkanda mövqe və ya yer (yeni məna). Söz təqribi XII əsrdən bəri istifadə olunur, bu söz latın sözü olan "platea" sözündən yaranıb və ilkin mənası "küçə", "həyət" olmuşdu. Sonra XIII əsrdən ingilis dilində bu söz "a particular part of space, definite location, spot, site" – "məkanın müəyyən bir hissəsi, müəyyən bir mövqe, yer" mənasında istifadə olunmağa başlanmışdı. "Place" sözü qədim ingilis dilində "stede" sözünün əvəzinə işlədilməyə başlandı, bu söz indi "stead" ("torpaq sahəsi, ferma"), "steadfast" (möhkəm, sabit, sədaqətli), "steady" (sabit, taraz, möhkəm, dayanıqlı) və "instead" (nəyinsə, kiminsə əvəzinə) formalarında işlədilir.

Əksər hallarda sözün mənasının genişlənməsi sözün ilkin mənasının mücərrədləşməsi ilə müşayiət olunur. Dildə sözlərin çoxu konkret anlayışların adı kimi meydana çıxır. Sonra isə sözlərin ilkin mənası genişlənir və ümumiləşir. Sözün mənasının genişlənməsi sözün inkişafı tarixində ən geniş yayılmış xüsusiyyətlərdən biridir. İngilis dilində ümumiləşmə prosesinə aşağıdakı nümunələri misal göstərə bilərik:

"Manuscript" sözünün ilkin mənası "əl yazısı" olmuşdur. Hal-hazırda isə bu söz həm əl ilə, həm də kompyuterdə yazılmış istənilən müəllif yazısını bildirmək üçün istifadə olunur. "Picture" sözünün indiki mənası "şəkil, rəsm, foto" mənalarında istifadə olunur. Bu sözün ilkin mənası "çəkilmiş bir şey" olmuşdur. "Salary" sözünün indiki mənası "müəyyən bir işə görə alınan aylıq ödəniş, maaş" mənasında işlədilir. Sözün bu mənası orta ingilis dili dövründə yaranmışdı. Sözün ilkin mənası "salt" (duz) olmuşdur. Qədim Romada insanlar ticarət üçün puldan yox, duzdan istifadə edirdilər. Roma imperiyası üçün işləyən əsgərlər hər gün ödəniş əvəzinə bir ovuc duz alırdılar. Öz işini yaxşı icra edən əsgərlər üçün deyilirdi ki, onlar qazandıqları duza layiqdirlər. Roma tarixçiləri yazırdılar ki, Romada əsgərlərin maaşı duz idi və "salary" sözü də buradan yaranıb. Konkret mənadan mücərrəd mənaya keçid ingilis dilində ən çox baş verən hadisələrdən biridir. Bunu "ready" (hazır) sözündə müşahidə edə bilərik. Bu sözün ilkin mənası "prepared for a ride" (səyahətə, gəzintiyə hazır) mənasında işlədilmişdi. Hal-hazırda isə "prepared for any action or situation" (istənilən fəaliyyətə, situasiyaya hazır) mənasında istifadə olunur. Digər bir misal kimi "journey" sözünü nümunə gətirə bilərik. "Journey" (səyahət, səfər) ingilis dilinə fransız dilindən alınma söz kimi daxil olmuşdu və ilkin mənası "one day trip" (bir günlük səyahət) olmuşdur. İndiki mənası isə genişlənib və "a trip of any duration" (istənilən müddət davam edən səyahət, səfər) mənasında işədilir.

"to arrive" feili ingilis dilinə fransız dilindən keçmiş alınma sözdür. İlkin mənası dar mənanı "to come to shore" (sahilə çatmaq) mənasını ifadə edirdi. Müasir ingilis dilində isə bu sözün mənası əhəmiyyətli dərəcədə genişlənmişdir və ümumi mənanı "to come" (istənilən yerə gəlmək – kəndə, şəhərə, universitetə, otelə, teatra və s. çatmaq) mənasını ifadə edir. Digər bir nümunə kimi "pipe" (boru) sözünü misal göstərmək olar. "Pipe" sözünün ilkin mənası "tütək, nəfəsli musiqi aləti"

(a musical wind instrument" olmuşdu. Hal-hazırda isə bu söz "a tube inside which liquid or gas flows from one place to another" (içində maye və qazın bir yerdən digər yerə axdığı boru), "any hollow oblong cylindrical body" (e.g. water pipe) – "istənilən içi boş uzunsov silindr struktur" (məs. su borusu) mənasında işlədilir.

Bütün köməkçi feillərdə: "have", "be", "do", "shall", "will" leksik mənanın genişlənməsi hadisəsi baş verib, çünki bu köməkçi feillər qrammatik məna daşıyır. Bu sözlər köməkçi feil kimi istifadə olunduqda onlar leksik məna daşımır, ancaq modal feil kimi və məna ifadə edən feil kimi istifadə olunduqda leksik məna daşıyır. İki cümləni müqayisə edək: "I have several books by this writer". ("Məndə bu yazıçının bir neçə kitabı var", və ya "Mən bu yazıçının bir neçə kitabına sahibəm".) İkinci cümlə "I have read some books by this author" (Mən bu müəlifin bir neçə kitabını oxumuşam). Birinci cümlədə "have" feili "possess" (sahib olmaq) mənasını ifadə edir, ikinci cümlədə isə o, heç bir leksik mənanı ifadə etmir, yalnız qrammatik məna ifadə edir və İndiki Bitmiş Zamanı (Present Perfect Tense) düzəldir.

Sözlər gündəlik həyatda nə qədər çox istifadə olunsa, o qədər çox mənanı ifadə edir. Sözlərin leksik mənalarının dəyişməsinin bir çox səbəbi mövcuddur. Səbəblərdən biri dilin təbiətidir, sözlər istifadə olunduğu həyat situasiyalarından asılı olaraq yeni mənalar qazanır. Cəmiyyətində baş verən mədəni və sosio-mədəni dəyişikliklərin təsiri nəticəsində dil daşıyıcılarının – sözlərin leksik mənaları dəyişir.

Sözün mənasının genişlənməsi elə bir prosesdir ki, bu zaman sözün mənası zaman keçdikcə ümumiləşir. Söz əvvəlki mənası ilə müqayisədə daha çox kontekstdə istifadə oluna bilir. Bəzən bunu semantik ümumiləşmə adlandırırlar. Semantik genişlənmə semantik daralma prosesinin antonimidir, çünki bu zaman əks proses baş verir. Semantik genişlənmə semantik daralma prosesi kimi uzun illər ərzində baş verir. Semantik genişlənmənin səbəbi həm ekstralinqvistik, həm də linqvistik səbəblər ola bilər, buna dünyagörüşünün dəyişməsi və ya dil analogiyası daxildir. Məsələn: Business – "biznes" sözü ilkin olaraq məşğulluğu bildirmək üçün istifadə olunurdu. Ancaq illər keçdikcə bu sözün mənası genişlənmiş və istənilən növ işi adlandırmaq üçün işlədilir.

Cool (havalı, dəbli) termin kimi caz musiqiçiləri arasında məşhur idi, çünki bu söz müəyyən musiqi tərzinə – "dəbli caza" aid idi. Zaman keçdikcə caz musiqisinin məşhurluğu artdıqca, bu söz digər kontekstlərdə də istifadə olunmağa başladı. "Playdough" sözünün ilkin mənası bu ticarət markasının adı idi, ancaq bu sözün mənası genişlənmiş və məhsulun özü də bu adla playdough (plastilin) adlanmağa başlanmışdır.

Sözlərin mənalarının genişlənməsi, ilkin olaraq sözün dildə yalnız bir leksik mənanı ifadə etməsini və dar mənada istifadə olunmasını nəzərdə tutur. Zamanla o, daha geniş mənaya sahib olub, birdən çox leksik mənanı ifadə edir və nitqdə daha çox istifadə olunur. Məsələn, ingilis sözü "wretch" ilkin olaraq yalnız "exile" (sürgün edilmiş adam) mənasını ifadə edirdi, ancaq indi bu sözlə "any miserable or vile person" (istənilən bədbəxt və ya alçaq, əclaf adamı) adlandırırlar.

"Paper" (kağız) sözü ilkin olaraq "an Egyptian plant", "papyrus" – "Misir bitkisi", "papirusu" bildirmək üçün işlədilirdi, indi isə bu sözlə "istənilən növ kağız" adlandırılır. "Journal" sözü əvvəl "daily paper" (gündəlik qəzet) mənasında işlədilmişdi, indi isə bu söz "istənilən periodik nəşri" bildirmək üçün istifadə olunur.

Fransız alimi Breal qeyd edirdi ki, əgər söz daha geniş sahədən daha xüsusi sahəyə daxil olursa, bu zaman sözün mənasının daralması və ya xüsusiləşməsi baş verir və söz daha fərqləndirilmiş anlayışı bildirməyə başlayır.

Mənanın daralması (restriction of the meaning, narrowing of the meaning, specialization) – tədricən gedən bir prosesdir, bu zaman söz ünsiyyətin ümumi sferasından xüsusi sferasına daxil olur. İngilis dilində söz nümunələri üzərində mənanın daralması və ya xüsusiləşmə proseslərini təhlil edək:

"*admiral*" sözünün ilkin mənası komandir, əmir olmuşdu, bu söz hal-hazırda silahlı qüvvələrin komandiri, hərbi dəniz silahlı qüvvələrinin komandiri, yüksək rütbəli dəniz kapitanı kimi konkret müəyyən olunmuş komandir növlərini ifadə edir.

"*alibi*" sözü müəyyən bir hadisə və ya cinayət baş verən zaman insanın başqa bir yerdə olması haqqında "sübut" mənasını ifadə edir. Əvvəllər isə bu söz ümumi mənanı ifadə edirdi, sözün ilkin mənası "başqa yerdə olmaq" idi.

"*girl*" sözü əvvəllər həm qız, həm də oğlan uşaqlarını bildirmək üçün istifadə olunmuşdu. XIV əsrin sonlarında "female child" (qız uşağı) xüsusi mənasını qazanmışdı. XV əsrin ortalarından isə "istənilən cavan evli olmayan qadın üçün "girl" sözü istifadə olunmağa başlanmışdır.

"*glide*" feilinin ilkin mənası asanlıqla, səssiz şəkildə hərəkət etmək olmuşdu, ancaq daha sonra uçuşu təsvir edən dəqiqləşdirici mənası meydana çıxdı. İndi bu söz "uçmaq, havada süzülmək" mənalarında da işlədilir.

"*echo*" sözü əvvəllər "səs" mənasında işlədilirdi, indi isə "təkrar olunan səs, exo – səthdən səs dalğaları ilə əks olunan əks-səda" mənasında istifadə olunur.

"*worm*" sözü əvvəllər istənilən növ həşəratı bildirmək üçün istifadə olunurdu. Halhazırda isə bu söz dəqiq, dar mənanı ifadə edərək "qurd, soxulcan" mənalarında işlədilir.

"*loan*" sözü əvvəllər "rütbəcə və sosial mövqeyinə görə daha yüksək insandan hədiyyə; borc alınmış əşya" mənalarında işlənmişdi. Halhazırda isə bu söz daha dəqiq, dar mənanı ifadə edir. Sözün mənası "əlavə faizi ilə qaytarılması tələb olunan, əsasən bankdan borc alınmış pul məbləği"dir.

İngilis dilindən misal gətirilmiş söz nümunələri üzərində sözlərin ilkin və yeni mənalarını izah edək:

- *Forest* – the royal forest (original meaning) → a dense uncultivated tract of trees and undergrowth, larger than woods (modern meaning). Meşə – kral meşəsi (ilkin məna) → sıx, meşədən daha böyük olan, yabanı ağacların və kolların olduğu ərazi (yeni məna).

"*Forest*" sözü ingilis dilinə qədim fransız dilindən XIII əsrin sonlarında keçmişdi. Bu zaman söz "extensive tree-covered district" – "geniş ağaclarla örtülü ərazi" mənasını verirdi, bu ərazi öz növbəsində kral ailəsinə məxsus idi və ovçuluq üçün istifadə olunurdu.

- *Starve* – to die (original meaning) → to be very hungry (modern meaning). Acından ölmək – ölmək (ilkin məna) → aclıq çəkərək ölmək (yeni məna).

"*Starve*" sözü "ölmək" mənasında "hunger" – "aclıq" sözü ilə birlikdə tez-tez istifadə olunurdu, çünki əvvəllər insanlar daha çox aclıqdan ölürdülər. Nəticədə XV-XVI əsrlərdə "starve" sözü acından ölmək mənasında "to become weak or die because there is not enough food to eat" istifadə edilməyə başlandı.

**Problemin elmi yeniliyi.** İngilis dilində söz nümunələri üzərində semantik dəyişmənin növləri olan mənanın genişlənməsi – ümumiləşmə prosesi, mənanın daralması – xüsusiləşmə prosesləri ətraflı şəkildə araşdırılmışdır. Müxtəlif sözlərin mənalarının genişlənməsi və daralması proseslərinin təhlili aparılmış və onların ilkin və müasir, yeni mənaları müqayisə edilmişdir.

**Problemin nəzəri və praktik əhəmiyyəti.** Bu tədqiqat işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, ingilis dilində semantik dəyişmənin növlərinin – mənanın genişlənməsi və mənanın daralması hadisələrinin konkret nümunələr üzərində araşdırılması, bu sözlərin ilkin və müasir mənalarının müqayisəsi ingilis dilində ümumiləşmə və xüsusiləşmə proseslərinin mahiyyətini dərk etməyə imkan verir. Tədqiqat işinin praktik əhəmiyyəti bu araşdırma materialının və burada göstərilmiş nümunələrin "Leksikologiya" fənninin tədrisi zamanı, praktik ingilis dili dərslərində istifadə olunmasının səmərəli nəticələr verə biləcəyindədir. Həmçinin bu tədqiqat materiallarından müasir ingilis dilində ümumiləşmə və xüsusiləşmə prosesləri ilə bağlı aparılacaq araşdırmalarda istinad edilə, ingilis dilində semantik dəyişmə prosesinin, leksik dil potensialının daha dərindən, hərtərəfli şəkildə tədqiq olunması üçün istifadə oluna bilər.

**Ədəbiyyat:**


1. Arnold I. V, Lexicology of modern English. -Moskva: Higher School, 1986. -293 s.
2. David.Stehling, Semantic Change in the Early Modern English Period. -London: "Anchor Academic Publishing" - 2013. -72s.
3. Elizabeth Closs Traugott, Regularity in semantic change . / E.C. Traugott, Richard B. Dasher. – Cambridge: "Cambridge University Press" – 2002. -362s.
4. The Oxford Dictionary of the English Etymology. / Ed.by C.T. Onions. - Oxford: "Oxford University Press" -1966, -1040 s.
5. The Concise Oxford Dictionary. / Ed.by C. Soanes, A. Stefenson. –Oxford: "Oxford University Press"- 2004, -1728 s.
6. Winfred P. Lehmann, Historical Linguistics. - Texas: " Holt, Rinehart and Winston" -1973, -273s.


**E-mail:** gasimovanigar90@gmail.com
**Redaksiyaya daxil olub:** 12.09.2024

# *TEXNOLOGİYANIN TƏDRİSİ METODİKASI*
# *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ТЕХНОЛОГИИ*
# *METHODOLOGY OF TEACHING TECHNOLOGY*

*UOT 372.8-51*

***Reyhan Tapdıq qızı Hacızadə***
*Azərbaycan Dövlət Pedaqoji Universitetin müəllimi*
*https://orcid.org/ 0000-0002-2287-2905*
*https://doi.org/10.69682/arti.2024.91(5).180-183*

## KORREKSİYAEDİCİ TƏLİM İXTİSASINDA “TEXNOLOGİYA VƏ ONUN XÜSUSİ MƏKTƏBLƏRDƏ TƏDRİSİ” FƏNNİNİ TƏDRİS EDƏRKƏN, TƏLİMİN TƏŞKİLİNƏ VERİLƏN TƏLƏBLƏR

***Рейхан Тапдыг гызы Гаджизаде***
*преподаватель Азербайджанского Государственного*
*Педагогического Университета*

## ТРЕБОВАНИЯ К ОРГАНИЗАЦИИ ОБУЧЕНИЯ ПО КОРРЕКТИРУЮЩЕЙ СПЕЦИАЛИЗАЦИИ ПРИ ПРЕПОДАВАНИИ ПРЕДМЕТА «ТЕХНОЛОГИЯ И ЕЕ ПРЕПОДАВАНИЕ В СПЕЦИАЛЬНЫХ ШКОЛАХ»

***Reyhan Tapdig Hajizade***
*teacher of the Azerbaijan State Pedagogical University*

## REQUIREMENTS FOR ORGANIZING TRAINING IN THE SPECIALIZATION OF CORRECTIVE EDUCATION WHILE TEACHING THE SUBJECT "TECHNOLOGY AND ITS TEACHING IN SPECIAL SCHOOLS"

**Xülasə.** Məqalədə, Korreksiyaedici təlim ixtisası üzrə təhsil alan tələbələrin, “Texnologiya və onun xüsusi məktəblərdə tədrisi” fənninə verilən tələblərdən bəhs edir. Xüsusi məktəblərdə bu fənni tədris edəcək gənc müəllimlər yiyələndikləri bilik və bacarıqları tətbiq edərkən, verilən tələblərə uyğun olaraq, hansı metod və üsullardan istifadə etməli olduğundan və alınan nəticələrin inkişafı təhlil edilmişdir.
**Açar sözlər:** *texnologiya fənni, əlliliyi olan uşaqlar, metodlar, üsullar, bilik və bacarıqlar, inklüzivlik, pedaqoq.*

**Аннотация.** В статье повествуется о требованиях к предмету «Технология и ее преподавание в специальных школах» студентов, обучающихся по специальности коррекционного образования. Также отмечено, какие методы и приемы следует использовать для полученныя знаний и умений молодыми учителями, которые будут преподавать этот предмет в специальных школах, и проанализировать развитие полученных результатов, согласно заданным требованиям,
***Ключевые слова****: предмет Технология, дети с ограниченными возможностями, методы, приемы, знания и умения, инклюзивность, педагог*

**Abstract.** The article talks about the requirements for the subject "Technology and its teaching in special schools" of students studying in the specialty of corrective education. When young teachers who will teach this subject in special schools apply their acquired knowledge and skills, according to the given requirements, which methods and methods should be used and the development of the obtained results was analyzed.
***Keywords:*** *technology subject, children with disabilities, methods, techniques, knowledge and skills, inclusivity, educator*

Azərbaycanda əlilliyi olan uşaqlarla bağlı bilik, münasibət və təcrübələr barədə aparılmış son tədqiqatlardan birində müəyyən edilmişdir ki, əlliliyi olan uşaqların təhsil imkanlarının təmin edilməsində hələ də seqreqasiya əsaslı modellərin tətbiqi üstünlük təşkil edir. [3] Münasibətlər, mühit və sistemlə bağlı əngəllər əlilliyi olan uşaqların təhsildə tam iştirakına imkan vermir. Təhsil müəssisələrinin fiziki baxımından əlçatanlığı təmin edilməyib, adi ümumtəhsil məktəblərində təhsil proqramı (kurikulum) əlilliyi olan uşaqlar üçün uyğunlaşdırıla bilmir və əlçatan deyil. İnklüziv təhsillə bağlı təriflər tibbi istiqamətə əsaslanır və cəmiyyətin bütün səviyyələrində maraqlı tərəflər arasında bu anlayış haqqında təsəvvürlər çox məhduddur. Əlillik və inkluzivlik ilkin pedaqoji hazırlıq və müəllimlər üçün ixtisasartırma proqramlarına əhəmiyyətli dərəcədə inteqrasiya edilməyib.

Korreksiyaedici təlim ixtisasında təhsil alan tələbələr "Texnologiya və onun xüsusi məktəblərdə tədrisi" fənnindən öyrəndiklərini tətbiq edərkən, çox real sinif mühitində olmaları vacibdir. Buraya məsələn, istehsalat təcrübəsi, məktəblərdə müşahidələr, müəllimlərlə söhbətlər, məktəblərə qıssa müddətli təyinatlar və ya praktika daxil etmək olar. Bundan başqa tələbələr bu fənnə dərindən yiyələnmələri və dərsi daha yaxşı planlaşdırılması üçün təlim nəticələri, onları necə öyrənməsi, bunu dərsin planı ilə necə əlaqələndirildiyi barədə biliklərə sahib olması vacibdir.

"Texnologiya və onun xüsusi məktəblərdə tədrisi" fənninin tədrisində başlıca olaraq şagirdlərdə əməyə maraq oyadılmalı, əmək tərbiyəsinin mahiyyəti, əməyə və əmək alətlərinə sevgi aşılanmalıdır. Burada əmək terapiyasının şagirdlərə müsbət təsirinin böyük rolu ondadır ki, şagird məqsədyönlü fəaliyyət göstərməklə, daxili təbiətini dəyişir, qabiliyyətini nümayiş etdirir. Bu zaman o, fiziki və əqli cəhətdən inkişaf edir, təkmilləşir və tikmə-biçmə, kəsib yapışdırmaq, plastilin və gil işi, səhnələşdirilmiş oyunlar, kulinar bacarıqlar, tikinti materialları ilə işlər, quraşdırma, əməkdaşlıq, sosial münasibətlər və özünəxidmət əməyi kimi yeni biliklərə yiyələnir.

"Texnologiya və onun xüsusi məktəblərdə tədrisi" fənnində hər bir müəllim mövzunun xarakterinə, şagirdlərin yaş və bilik səviyyələrinə uyğun gələn müasir təlim üsullarından istifadə etməlidir. Bu məqsədlə təlim prosesində müəllim tərəfindən şagirdlərin aktivliyini, maraqlarını təmin edən, fiziki hazırlıqlarını artıran və birgə fəaliyyət bacarıqlarını inkişaf etdirən metod və üsullara üstünlük verilməlidir. Eyni zamanda dialoq və əməkdaşlığı müəllim müxtəlif yollarla həyata keçirməli və psixoloji dəstək göstərməlidir. Burada şagirdin uğursuzluq qorxusu və inamsızlıq hissi aradan götürülür.

Müasir dövrdə pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün müəllimlərin təşkiledici, əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdlərin təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı əməkdaşlıq fəaliyyətləri əsasında aşağıdakı prinsiplər nəzərə alınmaqla qurulur.

**Pedaqoji prosesin tamlığı**: təlim məqsədlərinin kompleks şəkildə (öyrədici, tərbiyəedici, inkişafedici) həyata keçirilməsi başa düşülür.

**Təlimdə bərabər imkanların yaradılması:** uyğun olaraq şagirdlər üçün eyni təlim şəraiti yaradaraq pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir.

**Şagirdyönlülük:** şagirdi təlim prosesinin mərkəzində qalmağı tələb edir. Pedaqoji prosesdə tədris və təlim işi şagirdin maraq və tələbatlarının öyrənilməsi və təmin edilməsinə, onların istedad və qabiliyyətlərinin üzə çıxmasına yönəldilir. Şagirdyönlülük prinsipi şagirdlərin müstəqil həyata hazırlanmasına və peşə seçmələrinə maraq yaradır.

**İnkişafyönlülük:** şagirdlərin fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərin inkişaf səviyyəsi tənzim olunur. Nəzərdə tutulan bacarıqların mənimsənilməsi şəxsiyyətin inkişafını təmin edir, şagirdlərin müstəqil həyatda səmərəli fəaliyyət göstərmələri üçün zəmin yaradır.

**Fəaliyyətin stimullaşdırılması**: pedaqoji prosesin səmərəli və effektli qurulması, şagirdlərin təlimə olan motivlərini artırmaq üçün onların fəaliyyətlərində bütün irəliləyişləri müəyyənləşdirilir və dəyərləndirilir. Nəticədə şagirdlərin daha uğurlu təlim nəticələri qazanmaları təmin olunur.

**Dəstəkləyici mühitin yaradılması**: pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam, mənəvi-psixoloji mühitdə təşkil edilməsi, fəaliyyətin və səmərəliliyin yüksəl-

dilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Təlim yanaşması inklüziv müəllimlərin sinif otağındakı davranışını modelləşdirir. O, uşaqlara yönələn pedaqoji fəaliyyəti və bütün təhsilalanlara uyğunlaşmaq üçün sinif otağı mühitində, dərsin planlaşdırılmasında, tədris üslubunda və təlimatlandırmada hansı dəyişikliklərin edilə biləcəyini əks etdirir. Müasir təlim texnologiyalarının köməkliyi ilə təlimin təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici funksiyaları özünü daha qabarıq şəkildə büruzə verir və təlimin keyfiyyətinin yüksəldilməsinə səbəb olur.

"Texnologiya" fənni üzrə təlimin təşkilinə verilən digər əsas tələblər aşağıdakılardan ibarətdir.

**1. Dərsin məqsədinin dəqiqliyi**. Belə ki, şagirdlər bilik əldə edir, onlarda bacarıq və vərdişlər formalaşır, texniki yaradıcılıq qabiliyyətləri inkişaf edir.

**2. Təlim və tərbiyənin vahidliyi**. Təlimin tərbiyəedici xarakter daşıması bütün fənlərə aid olduğu kimi, texnologiya fənninə də aiddir. Bu dərslərdə şagirdlərə öyrədilən bir çox keyfiyyətlər aşılanır. Şagirdlərə əmək tərbiyəsi üçün əlverişli şərait yaranır.

**3. Tədris materiallarını düzgün seçilməsi.** Tədris materialı bir çox faktorları nəzərə alınmaqla seçilməlidir. Bura dərsin məqsədi, şagirdlərin keçmiş dərsdə əldə etdikləri bilik və bacarıqlar, onların fiziki inkişafları aiddir.

**4. Tədris metodlarının düzgün seçilməsi**. Əgər müəllim təlim metodları və üsullarını düzgün seçməzsə, dərsin məqsədinə nail olmaq qeyri mümkündür. Texnologiya dəsrində əsas mərhələ şagirdlərin praktiki işidir. Buna görə də, müəllim təlim metodunu və üsullarını düzgün seçməlidir.

**5. Dərsin təşkilinin dəqiqliyi**. Dərsdə vaxtın düzgün ayrılması, təlimə verilən əsas tələblərdəndir. Hər bir dərs onun təşkili və keçirilməsi dəqiq olmalıdır.

**6. İş zamanı şagirdlərin təhlükəsizliyinin təmin olunması**. Texnologiya dərslərində şagirdlər müxtəlif kəsici və deşici alətlərdən istifadə edirlər. Bu zaman təhlükəsizlik qaydalarına əməl olunmalıdır. Xüsusi məktəblərdə istər aşağı siniflərdə istərsə də yuxarı siniflərdə iş zamanı mütləq müəllim nəzarəti olmalıdır. Təhlükəsizlik və gigiyena qaydalarına riayət etmək təlimin təşkilinə verilən əsas tələblərdəndir.

**Öyrənmə sosial fəaliyyətdir**. Müəllimlər və pedaqoji təhsil alan tələbələr birgə tənqidi refleksiya fəaliyyətindən iştirak etməyə, inam və paylaşma mədəniyyəti formalaşdırmağa həvəsləndirilməlidilər. Öyrətmə prosesində müəllimin göstərdiyi pedaqoji məharət, ustalıq nəzərdə tutulur. Müəllim sinifdə işgüzar şərait yaradıb şagirdlərin müstəqil mühakimələrinə geniş meydan açırsa, hər mövzunun xarakterinə uyğun priyomlardan, çeviklik və interaktivliyin təmin edilməsindən istifadə edirsə deməli o, dərsi qura bilir. [1, s.95]

Öyrətmək özü mürəkkəb peşədir, müəllim dərsi hazırlayır, təlim ehtiyaclarını və öncəliklərini seçir və təlimdə olan potensial maneələrin öhdəsindən gəlmək üçün çevik üsul tətbiq etmək məqsədilə bu maneələri müəyyən etməlidir. Müxtəlif yollarla məzmunu çatdıra bilər və şagirdlərin işin öhdəsindən sərbəst şəkildə gəlməsi üçün şərait yaratmalıdır.

Kağız və kartondan, eyni zamanda fərqli materiallardan istifadə edərək texnologiya dərslərində bir çox əməliyyatlar aparılır. İlk öncə heç bir kəsici alətdən istifadə etmədən hazırlanan məmulat olan kağızqatlama üsulundan istifadə edərək müxtəlif fiqurların düzəldilməsi. Kağızqatlama, applikasiya işi, mozaika və burda istifadə olunan materiallar (müxtəlif materiallı xırda qırıntılar), təbiət materialları (daş, qum, ağac, yarpaq, palıd qozası, balıqqulağı və s.), plastik materiallar, tullantı materialları, plastilin, gil, taxta və s. istifadə etməklə əməli işlərin yerinə yetirilməsi şagirdlər üçün həm əyləncəli həm də maraqlı və yaradıcı olur. Applikasiya işi və mozaika şagirdlərdə kiçik matorikanın inkişafı və öz fantaziyalarının genişlənməsində böyük rol oynayır. Yapışdırma, quraşdırma, birləşdirmə, modelləşdirmə, yığma kimi əməliyyatları yerinə yetirmək şagirdlərin gələcək peşələrinin bir başlanğıcıdır. Həmin əməli işlər şagirdlərə politexnik biliklər aşılayır.

Prinsip olaraq, tələbatların inkişafı şagirdin real imkanlarından yüksəkdə durmalıdır. Belə olduqda ziddiyyət əmələ gəlir, onun inkişafının hərəkətverici qüvvəsi kimi çıxış etməsi mümkün olur. Tələbatların təmin olunma ob-

yekti kimi dərk olunan məqsəd öz tələbləri ilə inkişafı qabaqlamalıdır.

Həmin tələblər təlim prosesinin məntiqinə uyğun, şagirdin gücüçatan ölçüdə və çətinlikdə olmalıdır. Təlim prosesi qarşısına qoyulmuş vəzifələrlə şagirdlərin real imkanları arasındakı əsas ziddiyyətdən sonrakı dəyişikliklər xüsusi əhəmiyyət daşıyır.

Hər bir dərsin sonunda müəllim şagird nailiyyətlərinin və özün qiymətləndirmə apardıqda aşağıda verilmiş suallar ortaya çıxır.

Şagirdləri nə üçün qiymətləndiririk?

1.Şagird qarşısına qoyulan tapşırığı nə dərəcədə yerinə yetirib?

2. Şagirdin tədris nailiyyətlərini əldə etməsini dəstəkləyən müvafiq metodlar hansılardır?

Müəllimin özünütəhlili: Bütün şagirdlər nəzərdə tutulan biliklərə yiyələnə bilirlərmi? Dərs planı nəzərdə tutulan tədris nəticələrini dəstəkləyirmi? Kim üçün nə yaxşıdır və nə yaxşı deyil? "Texnologiya və onu xüsusi məktəblərdə tədrisi" fənnini tədris etmək üçün daha yaxşı üsul varmı?

**Problemin aktuallığı.** "Texnologiya və onun xüsusi məktəblərdə tədrisi" fəninin tədrisinə verilən tələblərə münasibətin bildirilməsi aktual bir məsələdir.

**Problemin yeniliyi**. Məqalədə xüsusi qayğıya ehtiyac olan şagirdlərin texnologiya dərslərində fəaliyyətinin inkişafı üçün istifadə olunan metod və üsullar diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Ağayev Ş.O., R. T. Hacızadə və başqaları İbtidai siniflərdə şagirdlərin texnologiyadan idrak bacarıqları. "MM-S" müəssisəsi. -Bakı, 2019. -220 s.
2. Əlizadə, Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. / Əlizadə Ə. -Bakı: "Pedaqogika", -2004. -432 s.
3. Grimes, Stevens, Dela Cruz "Azərbaycanda əlilliyi olan uşaqlarla bağlı olan biliklər, münasibətlər və təcrübələr" UNESKO-nun Statistika İnstitutu. -2018.
4. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramı. UNİCEF-in Azərbaycandakı nümayəndəliyi "Regional inkişaf" İctimai Birliyi. -2019.


**E-mail**: reyhan.hacizad@mail.ru

**Redaksiyaya daxil olub:** 05.09.2024.

# *İNKLÜZİV TƏHSİL, KORREKSİYA PEDAQOGİKASI*
# *ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ, КОРРЕКЦИОННАЯ ПЕДАГОГИКА*
# *INCLUSIVE EDUCATION, CORRECTIONAL PEDAGOGY*

*UOT 376*

***Sahilə Abdüləzim qızı Orucova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*https://orcid.org/ 0009-0001-3926-480X*
*https://doi.org/10.69682/arti.2024.91(5).184-189*

## İNKLÜZİV TƏHSİLİN BƏZİ SOSİAL-PSİXOLOJİ CƏHƏTLƏRİ

***Сахила Абдулазим гызы Оруджева***
*доцент*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

## НЕКОТОРЫЕ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

***Sahila Abdulazim Orujova***
*associate professor of the*
*Azerbaijan State Pedagogical University*
*doktor of philosophy in pedagogy*

## SOME SOCIO-PSYCHOLOGICAL ASPECTS OF INCLUSIVE EDUCATION

**Xülasə.** İnklüziv təhsil insanlar arasında fərq qoyulmadan keyfiyyətli təhsilə bərabər çıxışı nəzərdə tutur. Məhz təhsilin bu növü əlilliyi olan insanlara sağlam həmyaşıdları kimi bərabər inkişaf imkanlarını təmin edə bilir. İnklüziv təhsil əlliliyi olan hər bir şəxsə maksimum uyğunlaşma və sosial mühitə tam inteqrasiya üçün zəruridir. İnklüziv təhsil insanların birlikdə öyrənməsini dəstəkləyən yeni demokratik təhsil yanaşmasıdır. İnklüziv təhsil yalnız əlilliyi olan şagirdlərə aid deyil. O, fərqli ana dilində danışan, fərqli sosial-mədəni dəyərlərə malik, imkansız və xüsusi qayğıya ehtiyacı olan şagirdləri də əhatə etmək məqsədi daşıyır.
***Açar sözlər:*** *inklüziv təhsil, sosial-psixoloji aspektlər, sosial qavrayış, sağlam və əlilliyi olan şagirdlər.*

**Аннотация.** Инклюзивное образование предусматривает равный доступ к качественному образованию без дискриминации среди людей. Именно такой тип образования может предоставить людям с ограниченными возможностями равные возможности развития с их здоровыми сверстниками. Инклюзивное образование необходимо для максимальной адаптации и полной интеграции в социальную среду каждого человека с ограниченными возможностями. Инклюзивное образование – это новый демократический подход к образованию, который поддерживает совместное обучение людей. Инклюзивное образование применимо не только к учащимся с ограниченными возможностями. Его цель – охватить учащихся, которые говорят на другом родном языке, имеют другие социально-культурные ценности, находятся в неблагоприятном положении и нуждаются в особой заботе.
***Ключевые слова:*** *инклюзивное образование, социально-психологические аспекты, социальное восприятие, здоровые и имеющие инвалидность ученики*

**Abstract.** Inclusive education means equal access to quality education without discrimination among people. It is this type of education that can provide people with disabilities equal development opportunities with their healthy peers. Inclusive education is necessary for maximum adaptation and full integration into

the social environment of every person with disabilities. Inclusive education is a new democratic approach to education that encourages people to learn together. Inclusive education does not only apply to students with disabilities. It aims to reach students who speak a different mother tongue, have different socio-cultural backgrounds, are disadvantaged and need special care.

***Keywords:*** *inclusive education, socio-psychological aspects, social perception, healthy and disabled people.*

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra siyasi və sosial-iqtisadi sahələrdə olduğu kimi, təhsil sferasında da köklü islahatlar aparır, dünyanın qabaqcıl ölkələrinin təhsil məkanına uğurla inteqrasiya edir. Təhsil sahəsində islahatların aparılması üçün bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən YUNESKO ilə sıx əməkdaşlıq edilir. 24 avqust 2005 -ci ildə YUNESKO ilə təhsil sahəsində əməkdaşlığa dair Qarşılıqlı Anlaşma Memorandumu imzalanmışdır.

Memorandumda təhsildə hamı üçün bərabər imkanların yaradılması, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, təhsilin bütün pillələri üzrə kurikulumların təkmilləşdirilməsi, müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi əsas prioritetlər kimi nəzərdə tutulmuşdur. Memoranduma əsasən "Azərbaycanda inklüziv təhsilinin inkişafı" layihəsinin icrası labüd hesab edilmişdir. Bu layihənin əsas məqsədi xüsusi qayğıya möhtac olan uşaqlara ümumi təhsil müəssisələrində təlim-tərbiyə almaq imkanlarının yaradılması olmuşdur.

YUNESKO inklüziv təhsili uşaqlar arasında fərq qoyulmadan keyfiyyətli təhsilə bərabər çıxışı nəzərdə tutan bir fenomen kimi təqdim edir. Onun təməlində humanizm, intellekt və yaradıcılıq qabiliyyətlərinin inkişafı, şəxsiyyətin intellektual, etnik, emosional və fizioloji cəhətlərinin mütənasibliyi dayanır. Məhz təhsilin bu növü əlilliyi olan insanlara sağlam həmyaşıdları kimi bərabər inkişaf imkanlarını təmin edə bilir. İnklüziv təhsil əlliliyi olan hər bir şəxsə maksimum uyğunlaşma və sosial mühitə tam inteqrasiya üçün zəruridir. İnklüziv təhsil insanların birlikdə öyrənməsini dəstəkləyən yeni demokratik təhsil yanaşmasıdır. 2009-cu ildə qəbul olunmuş "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində də inklüziv təhsilin vacibliyi vurğulanır və qeyd edilir ki, dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, iqtisadi və sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və inklüziv siniflərdə təlimin təşkilində ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

İnklüziv təhsil mühitində heç bir fərq qoyulmadan bütün öyrənənlərin birlikdə fəaliyyəti nəzərdə tutulur. İnklüziv təhsil yalnız əlilliyi olan şagirdlərə aid deyil. O, fərqli ana dilində danışan və fərqli sosial-mədəni mühitlərdən olan şagirdləri, imkansız və xüsusi qayğıya ehtiyacı olan şagirdləri əhatə etmək məqsədi daşıyır.

İnklüziv təhsil probleminə aid olan elmi araşdırmaların təhlili onun aşağıdakı prinsiplərini ayırd etməyə imkan verir: həm şagird, həm də müəllimlərin hamısı tərəfindən cəmiyyət üçün bərabər dəyərlərin tanınması; bütün növ təhsil müəssisələrinin təlim və mədəni həyatında şagirdlərin iştirakının artırılması və imkan daxilində əlilliyi olan bəzi şagirdlərin ictimai həyatdan təcrid səviyyəsinin azaldılması; təhsil mühitinin bütün təhsil alanların ehtiyaclarını tam ödəyə bilməsi üçün yenidən qurulması, biliklərin əldə edilməsinə maneələrin aradan qaldırılması; bütün təhsil alanların məktəb həyatında tam iştirakının təmin edilməsi.

Bununla belə təhsildə inklüzivlik öyrənmə prosesi iştirakçılarına yüksək tələblər verir. Belə ki, əlilliyi olan təhsilalanlardan səy, intellektual və psixoloji imkanlarından maksimum yararlanmaq, sağlam şagirdlərdən – anlayışlı, dözümlü, diqqətcil, yardım etməyə hazırlıqlı olmaq tələb olunur. Yəni, insanlıq və əxlaqi keyfiyyətlərin yüksək səviyyədə reallaşdırılması hər iki tərəfdən gözlənilir. Sağlamlıq imkanları məhdud olan şagirdlərin birgə təhsil prosesində intellektual, fiziki və psixo-emosional imkanlarına yeni və artan tələblər qoyulmasına baxmayaraq belə təhsil mühiti onlarda güc, özünə inam, güvən və nikbinlik yaradır. Bununla belə əlilliyi olan bir şagirdin inklüziv təhsil şəraitinə inteqrasiyası özünün və digər həmyaşıdlarının psixoloji xüsusiyyətləri haqqında bilik tələb edir. Çünki əlil-

liyi olan bir insanın ətraf mühitlə qarşılıqlı təması və özünə münasibət xüsusiyyətləri, özünü dəyişdirmək istəyi çox vaxt onun öyrənməsinə və özünü dərk etməsinə mane ola bilir. Əlilliyi olan şagirdlər üçün şəxsiyyətlərarası münasibətlərin qurulmasında problemlərin mövcudluğu xarakterikdir. Onlarda özünü qavrama, özünü tanıma və başqalarını anlamadakı qeyri-adekvatlıq, dünya, ətrafdakılarla münasibətdən narazılıq və bütövlükdə sosial-psixoloji uyğunlaşmanın pozulması baş verir. Əgər qrupda belə bir şagird varsa, qrup tərəfindən qəbul və ya qəbul edilməmə problemi çox kəskin xarakter alır. Bununla belə inklüziv təhsillə əlaqəli problemlər sağlam şagirdlərlə əlilliyi olanlar arasındakı münasibətlərdə ümumi sosial problemlərdən təcrid olunmur. Əlilliyi olan uşaqların cəmiyyətə sosial inteqrasiyası ideyası bu gün əksər insanlar tərəfindən sözdə dəstəklənir. Lakin müşahidə və araşdırmalar əlilliyi olan və sağlam şagirdlər arasındakı münasibətlərin qeyri-müəyyənliyini göstərir.

Əlilliyi olan uşaqların cəmiyyətə sosial inteqrasiyasından, bərabər imkan və hüquqlar ideyasının təbliğindən söz açarkən, onların özlərinin sosial mühitdə iştirakını artırmaqla bağlı fikirlərə münasibətini açıqlamaq lazımdır. Əlil uşaqlar sağlam uşaqlarla birgə yaşamalı, sağlam həmyaşıdları ilə eyni strukturlarda təlim-tərbiyə almalı, fəaliyyət göstərməli, yoxsa, təcrid olunmuş, məhz bu qəbildən olan uşaqlar üçün xüsusi yaradılmış təhsil müəssisələrində təlim-tərbiyə almalıdır sualına əlilliyi olan uşaqlar birgə təhsilə üstünlük verir. Əlilliyi olan uşaqların sağlam uşaqlarla birgə təhsil almalarının əleyhdarlarının arasında "sağlam uşaqlar onsuz da əlilliyi olan həmyaşıdlarını anlamayacaq", "İstənilən müəssisədə əlillərə münasibət yaxşı deyil" fikrində olanlar hələ də var. Lakin inteqrasiya fikrini müdafiə edənlər: "Hamı bərabər olmalıdır", "Əlillər də sağlamlar kimi insandır", "Əlil və sağlam insanlar birgə yaşayıb işləməlidirlər ki, bir-birilərini anlaya bilsinlər", "Elə edilməlidir ki, əlilliyi olanlar özlərini doğma kollektivdən təcrid edilmiş, yarımçıq hiss etməsinlər", "Sağlam həmyaşıdları ilə qurulan münasibətlər əlilliyi olan uşaqlarda mənəvi məmnunluq yaradacaq". Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olur ki, inteqrasiya ideyasını müdafiə etməklə əlil uşaqlar maddi vəziyyətlərinin yaxşılaşdırılmasına yönələn sosial-iqtisadi meyarlara arxalanmır, onlar sosial-psixoloji problemlərə, sağlam insanlarla ünsiyyət, münasibət qurmağa önəm verirlər.

Sosial məsafəni müəyyənləşdirərkən aydın olur ki, sağlam uşaqlar əlilliyi olan uşaqlarla ünsiyyət qurmağa o zaman üstünlük verirlər ki, bu əlaqələr sıx-sıx olmasın və ya "bərabər" əsaslar zəminində qurulsun. Daha yaxın əlaqələrin qurulmasını tələb edən situasiyalar iyerarxik nərdivanda əlilliyi olanın daha yüksək mövqeyini nümayiş etdirən vəziyyət kimi mənfi münasibət yaradır. Ümumiyyətlə, bir çox sağlam insanların əlillərlə sıx təmasda olmağa hazır olduğunu deyə bilmərik. Münasibətlərin bu səviyyəsi mürəkkəb xarakter daşıyır və sadəcə olaraq əlilliyi olan insanlara qarşı sırf mənfi münasibətin ifadəsi deyil. Sağlam insanlar tez-tez əlilləri daha bədbəxt, kədərli, düşmən, şübhəli, qəzəbli, qapalı hesab edirlər, yəni onların "bədbəxtliyi" tanınır (və hətta bəlkə də həddindən artıq qiymətləndirilir).

Əlilliyi olan şagirdlərin cəmiyyətdən, cəmiyyətin də onlardan uzaqlaşmasının başlıca səbəbi "biz və onlar" sosial-psixoloji fenomeninin mahiyyətinə əsaslanır. Sağlam insan (istənilən fəaliyyətdə problem yaratmayan, öz yükünü daşıya bilən) və "əlillər" (fərqli, anlaşılmaz, digərləri üçün "yük") kateqoriyasına ayırması ayrı seçkiliyin yaranmasına rəvac verir." Fərqli" insanlara adətən daha mənfi keyfiyyətlər aid edilir, "sağlam"lara isə ən yaxşı keyfiyyətlərin xas olduğu düşünülür. Bu cür düşüncə isə sosial stereotiplərdə öz əksini tapır.

Mövcud ədəbiyyatın təhlili göstərir ki, əlilliyi olan şagirdləri ən çox incidən digər insanların onlarla ünsiyyət tərzidir. Baxmayaraq ki, bu ünsiyyət prosesində sağlam insanların heç də pis niyyətləri olmur. Bəzən onların xeyirxah məsləhətləri, diqqət və qayğıkeşliyi belə əlilləri incidə bilir. Sosioloqların apardığı araşdırmaların nəticəsi sübut edir ki, insanların yalnız üçdə ikisi (61%) inanır ki, əlilliyi olan insanlarla adi insanlar kimi ünsiyyət qurmaq lazımdır. Lakin insanların üçdə biri, yəni, 30%-ə qədəri əlillərin fərqli olduğunu düşünür. Bununla belə hər onuncu şəxsdən (9%) biri cavab verməkdə çətinlik çəkir, yəni onlar da sağlam şagirdlərlə əlilliyi olan şagirdlərin bərabərliyinə şübhə ilə yanaşırlar. İnsanların dörddə biri (24%) əlilliyi olanların özlərini insanlar arasında tam rahat

hiss etmədiklərini bildirir. İnsanların üçdə ikisi (66%) əlillərlə heç bir "fikir ayrılığına" qapanmadan özlərini adi qaydada aparır. İnsanların təxminən yarısı düşünür ki, xarakter etibarı ilə sağlam və əlilliyi olan şagirdlər fərqlidir. Bəs bu fərqliliklər nədən ibarətdir? Bir qayda olaraq insanlar adətən neqativ deyil pozitiv fərqlilikləri qeyd edir. Amma mənzərə təzadlı alınır. Fikri soruşulanlar əlil şagirdlərin cəsarət və müsbət yönlərini qeyd edir. Bu cür uşaqlarda həyat eşqinin, dözümlülük, xeyirxahlıq və insanpərvərlik, həssaslıq, mərhəmət və şəfqət hisslərinin daha yüksək olduğu vurğulanır. Lakin bunu bütün əlilliyi olan şəxslərə, xüsusilə də qadın cinsin nümayəndələrinə aid etmək olmur. Bu cür münasibət bəzən onlarda aqressiya yaradır. Respondentlərin çox az bir qismi qeyd edir ki, əlilliyi olan şagirdlər ünsiyyətdə əsəbilik və müvazinətsizlik, şıltaqlıq, utancaqlıq və özünə inamsızlıq göstərir. Onlar əlilliyi olan şagirdlərin sağlam yoldaşlarına həsəd aparması və həyata küsmələrini qəbul etmirlər. Onlar, hətta, fiziki qüsurlu şagirdlərin xüsusi qabiliyyətləri, istedadları və yüksək intuisiyaları, əzmkar və qətiyyətli olduğunu vurğulayırlar. Respondentlərin bir qismi hesab edir ki, həyatlarının çox hissəsini dörd divar arasında keçirməyə məhkum olan uşaqlardan yüksək nəticələrin gözlənilməsi o qədər də doğru olmazdı. Qeyd etmək yerinə düşər ki, əlliliyi olan uşaqlara bu cür münasibətlər yalnız bizim ölkədə deyil, digər ölkələrdə də mövcuddur. Xarici ölkə tədqiqatçıları problemi sosial qavrayış prizmasından təhlil etməyə çalışırlar. Yəni, insanların başqalarını qavraması, özünü onun yerində təsəvvür etməsi, anlaması, qiymətləndirməsi və s. Sosial qavrayış nəzəriyyəsi amerikalı psixoloq J. Brunerə məxsusdur. Bu nəzəriyyəyə görə qarşıdakı insanı qavramaq təkcə həmin insanın xüsusiyyətləri ilə bağlı deyil, həm də onu dəyərləndirənin həyat təcrübəsi və məqsədləri ilə bağlı olur. Yəni, sosial qavrayış insanların digərlərini anlaması, başa düşməsi və öyrənmə sayəsində insan şüurunda onun obrazının yaradılmasıdır. Sosial qavrayış həm də qarşıdakı insanın xarici görkəminin, şəxsi xüsusiyyətlərinin qavranılması və müqayisəsi əsasında onun davranış və hərəkətlərinin təsviri və proqnozlaşdırılmasıdır. Bu aspektdən əlliliyi olan şagirdin sağlam həmyaşıdları tərəfindən sosial qavranılması, ilk növbədə, onlar arasında olan zahiri fərqliliklə bağlı olur və insanların anlamında müəyyən gərginlik yaradır. Tarixi inkişaf prosesində sağlam insan modeli formalaşıb. İnsanlar bu standartlardan kənara çıxmaları "özlərinə aid olmayan" kimi qəbullanır və fərqlilikləri olan insanlara mənfi keyfiyyətləri rəva görürlər. Sosial qavrayış yalnız qarşıdakının zahiri görkəminin dərk edilməsi ilə sərhədlənmir. Yəni, şəxsin digər insanları anlaması, təsvir etməsi və dəyərləndirməsinin başqa yolları da mövcuddur. İnsanın həm xarici görünüş və davranış reaksiyalarının qavranılması ilə yanaşı, onun daxili aləminin, yəni, sosial-psixoloji xüsusiyyətlərinin də nəzərə alınması labüddür. Belə olduqda insan özünü başqasının yerinə qoya bilir, onda empatiya hissi təzahür edir.

Əgər qarşı tərəfin aşkar fiziki qüsurları varsa burada identifikasiya kifayət qədər çətinləşir. Əlilliyi olan şagirdin sağlam həmyaşıdları tərəfindən daxili aləminin, yəni sosial psixoloji xüsusiyyətlərinin qavranılması birgə fəaliyyət, öyrənmə və ünsiyyət prosesində baş verir, sonra isə insanın xarici görünüşü arxa plana keçir. Bu etapda empatiyanın formalaşması baş verə bilər. Mütəxəssislərin fikrincə, empatiya başqa bir insanın problemlərinin real qavranılmasına deyil, qavrayış obyektinə emosional dəstək istəyinə əsaslanan başqa bir insanı başa düşmək, özünü onun yerinə qoymaq, problemlərə onun prizmasından baxmaq metodudur. Qeyd etmək lazımdır ki, şagirdlər eyni vəziyyəti fərqli uşaqların prizmasından təsəvvür etdikcə, onların hər birinin davranışını başa düşdükcə empatiya hissi yüksəlir. Empatik qabiliyyətlərə, qeyd etdiyimiz kimi, başqasının əldə etdiklərinə emosional cavab vermək, onun emosional vəziyyətini anlamaq, özünü onun düşüncələrinə, hisslərinə və davranışlarına zehni olaraq həkk etmək bacarığı aid edilir. Əlilliyi olan bir şagirdə empatiyanın təzahürü qrupdaxili münasibətlərin ən önəmli cəhətlərindəndir. Birgə fəaliyyət prosesində sağlam və əlilliyi olan şagirdlər arasında yaranan emosional bağlılıq (cazibə) önəmlidir. Cazibə (latınca attrahere-cəlb etmək, cəzb etmək) sabit müsbət münasibətə əsaslanan birinin qarşı tərəfdən qavranılmasının xüsusi formasıdır. Bu prosesdə şagirdlər nəinki bir-birini anlayır, həm də aralarında müəyyən bir emosional bağlılıq yaradırlar. Əlaqə prosesində fərqli hisslər formalaşa

bilər: rədd, ikrah hissi, simpatiya, antipatiya, sevgi və s.

Psixoloqlar emosional bağlılığın müxtəlif səviyyələrini qeyd edirlər: simpatiya, dostluq, sevgi. Dostluq şagirdlərin sabit qarşılıqlı səmimiyyəti, mehribanlığı ilə xarakterizə olunan münasibət növüdür. Şagirdlərarası qavrayışa əhəmiyyətli dərəcədə mənfi təsir göstərən bir məfhum stereotipdir. Stereotipləşdirmə mövcud sabit bir fikrə əsaslanan görüntüdür. Məsələn, əlliyi olan şagirdlərdə mütləq hansısa bir çatışmazlıqlar mövcuddur qavrayışı. Stereotipləşdirmənin əks təsirlərini aradan qaldırmaq mümkündürmü? Cavab birmənalıdır – ünsiyyət və birgə fəaliyyət prosesində mümkündür. Əgər bunlar varsa stereotiplər aradan qalxacaq.

Sosial qavrayışın mühüm komponentlərindən biri də insanın başqasının hərəkət və davranışlarının səbəb və nəticələrinin təhlili əsasında onu dərk edib qiymətləndirməsidir. Başqalarını sosial qavrama bacarığı ya qarşıdakı insanın daimi müşahidəsi və onun davranışlarının təhlili əsasında, ya da bir şəxsə və ya bir qrup insana aid olmayan, lakin öz düşüncəsində yaratdığı xüsusiyyətlər kimi meydana çıxır. Hər hansı bir münasibətdən asılı olmayaraq iştirakçıların hər biri qarşı tərəfi dəyərləndirərkən çalışır ki, onun davranışlarının qavranılmasının dəqiq sistemini qursun. Gündəlik həyatda insanlar digərlərinin davranışlarının mahiyyəti haqqında yetəri qədər məlumatlı olmadığından, davranışların baş vermə səbəblərini yanlış təsəvvür edə bilər. Bu əlilliyi olan insanlara münasibətdə də özünü göstərə bilir. Yəni, bəzən əlillərin davranışları təhlillər əsasında dəyərləndirilə, bəzən də məhz əlil olduqları üçün bu cür hərəkət edə bilərlər kimi düşünülür. Bu o zaman baş verir ki, insanın qarşı tərəf haqqında məlumat çatışmazlığı olur. Odur ki, düşünülə bilər ki, sağlam və əlilliyi olan şagirdlər arasındakı münasibətlərdə yaranan problemlər daha çox inklüziv təhsil şəraitində baş verən sosial qavrayış hadisələrindən qaynaqlanır. Bu problemlərin sosial-psixoloji cəhətdən təhlili fərqliliyi olan insanların münasibətlərinin düzgün tənzimlənməsinə imkan verən proqramlar hazırlanıb reallaşdırılmasına imkan verir. Odur ki, inklüziv təhsil prosesindəki sosial və təhsil mühiti elə qurulmalıdır ki, hər bir əlilliyi olan şagird digərlərindən asılı olmadan, fəal, məsuliyyətli və yaşadığı cəmiyyətin bərabərhüquqlu vətəndaşı ola bilsin.

Son illər, istər dünyada, istərsə də ölkəmizdə təhsil sahəsində uğur qazanan, yüksək intellekti olan və sağlamlıq imkanları məhdud, fiziki qüsurlu şagirdlərin birgətəhsil almalarının mümkün olması üçün çox işlər görülmüşdür. İnklüziv təhsil mühitinin yaradılması yalnız əlilliyi olan şagirdlərin təhsilə cəlbi və təhsil mühitinə uyğunlaşdırılması ilə məhdudlaşmır, çalışılır ki, onların sosial fəallığı və sosial məsuliyyəti artırılsın. Bu sistemin vacib komponenti sağlamlıq imkanları məhdud olan şagirdlərin psixoloji cəhətdən sağlam şagirdlərlə birgə təhsil və fəaliyyət göstərmə imkanlarının artırılmasıdır. Əlilliyi olan şagirdin əqli inkişafı və sosial adaptasiyası subyekt-subyekt münasibətlərinin reallaşdırılmasını nəzərdə tutur. Bu zaman psixoloji dəstək hər iki tərəf üçün önəmlidir. Dəstəyin başlıca vəzifəsi diaqnostika, məsləhət, qarşılıqlı yardımın təşkili ilə bağlıdır. Humanizmə, əqli və yaradıcılıq qabiliyyətlərinin inkişafına əsaslanan, sağlamlıq imkanları məhdud olan şagirdlərə sağlam həmyaşıdları kimi böyümək və cəmiyyətin tamhüquqlu üzvü olmaq imkanı verən, sosial qavrayış xüsusiyyətləri ilə şərtlənən inklüziv təhsil bir sıra problemlərlə qarşılaşır. Təbii ki, qısa müddət ərzində hamının əlilliyi olan şagirdlərə müsbət münasibət bəsləməsi o qədər də real görünmür. Lakin, inklüziv təhsil mühiti əlilliyi olan şagirdlərin yalnız psixoloji və tibbi reabilitasiyası üçün deyil, həm də sağlam uşaqlarla ünsiyyət, tolerantlıq, empatiya, dostluq hisslərinin, qarşılıqlı yardım istəyinin formalaşdırılması üçün də geniş imkanlara malikdir və təhsilin bu formada təşkilinə zərurət yaradır.

**Problemin aktuallığı.** Demokratik cəmiyyət tələb edir ki, bütün insanlar bərabər hüquqlara sahib olmalıdır. Odur ki, mənəvi-psixoloji, sosial və fiziki sağlamlığından asılı olmayaraq hər bir insanın təhsildən kənarda qalmaması ideyası bu gün də öz aktuallığını qoruyub saxlayır.

**Problemin yeniliyi.** Məqalədə inklüziv təhsil prosesinin bəzi sosial-psixoloji aspektləri müəyyənləşdirilir və onlardan çıxış yolları açıqlanır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə inklüziv təhsillə maraqlanan valideyn, tərbiyəçi, müəllim və araşdırmaçılar üçün faydalı ola bilər.

**Ədəbiyyat:**

1. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı". -Bakı:14 dekabr -- 2017.- №3498
2. "İnklüziv təhsilin təşkili Qaydası"// Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il .-11 fevral 43 nömrəli qərarı
3. Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədi. -Bakı: Demokratik Təşəbbüslər institutu, -2018. -18 s.
4. Актуальные вопросы обеспечения инклюзивного образования в Российской Федерации// Материалы VII Международной научно-практической конференции, 25-27 октября,- 2023 года

**E-mail:** sahile.orucova@yahoo.com

**Redaksiyaya daxil olub:** 18.09.2024.

*UOT 376*

***Adilə Ağaməmməd qızı Mürsəlova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/ 0000-0002-6190-4201*
*https://doi.org/10.69682/arti.2024.91(5).190-193*

# SENSOR POZULMALARI OLAN UŞAQLARIN REABİLİTASİYA VƏ ADAPTASİYA İŞİNİN TƏŞKİLİ

***Аделя Агамамед гызы Мурсалова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ОРГАНИЗАЦИЯ РЕАБИЛИТАЦИИ И АДАПТАЦИИ ДЕТЕЙ С СЕНСОРНЫМИ НАРУШЕНИЯМИ

***Adila Aghamammad Mursalova***
*lecturer at the Azerbaijan State Pedagogikal University*

# ORGANIZING REHABILITATION AND ADAPTATION OF CHILDREN WITH SENSORY DISORDERS

**Xülasə.** Ailədə problemli uşağın mövcudluğu ailə üzvlərinin çiyinlərinə maddi, psixoloji, emosional və fiziki yük qoyur. Belə ailələr stress, depressiya və nevrozların ailə üzvləri arasında yaranmasını şərtləndirən risk qrupuna aid edilir. Ailə qarşısında duran iqtisadi çətinliklər, çox vacib sistemli tibbi reabilitasiya və sosial-psixoloji xidmətin tam yoxluğu və ya kifayət qədər inkişaf etməməsi, onun strukturundakı əsas iqtisadi, reproduktiv, tərbiyə, psixoloji, terapevtik funksiyaların strukturunda olan problemlərdir. Uşağın ailədə sosial realizəsi perspektivi və uşaqların taleyi bir qədər aydın deyil. Xəstə uşağın ailə üzvləri müstəqil olaraq situasiyanı dəyişməkdə acizdirlər.
***Açar sözlər:*** *reabilitasiya, inteqrasiya, sosiallaşma, adaptasiya, sosial-psixoloji xidmət, psixo-sosial amillər*

**Аннотация.** Наличие проблемного ребенка в семье накладывает материальную, психологическую, эмоциональную и физическую нагрузку на плечи членов семьи. Такие семьи относятся к группе риска, что обусловливает возникновение стрессов, депрессий и неврозов среди членов семьи. Экономические трудности,стоящие перед семьей -это полное отсутствие или недостаточное развитие очень важной системной медицинской реабилитации и социально-психологической службы, проблемы в структуре основных экономических, репродуктивных, воспитательных, психологических, терапевтических функций в ее структуре. Перспектива социальной реализации ребенка в семье и судьбы детей несколько неясны. Члены семьи больного ребенка бессильны самостоятельно изменить ситуацию.
***Ключевые слова:*** *реабилитация, интеграция, социализация, адаптация, социально- психологическая служба, психосоциальные факторы*

**Abstract.** Having a problem child in the family puts a material, psychological, emotional and physical burden on the shoulders of family members. Such families belong to the risk group, which causes the occurrence of stress, depression and neurosis among family members. The economic difficulties facing the family are the complete absence or insufficient development of a very important systemic medical rehabilitation and socio-psychological service, problems in the structure of the main economic, reproductive, educational, psychological, therapeutic functions in its structure. The prospect of the child's social realization in the family and the fate of the children are somewhat unclear. Family members of a sick child are powerless to change the situation on their own.
***Keywords:*** *rehabilitation, integration, socialization, adaptation, socio-psychological service, psycho-social factors*

**Aktuallıq.** Sensor pozulmaları olan uşaqların sosial reabilitasiya və adaptasiyası müasir dövrdə təlim-tərbiyə və inkişaf psixologiyasının nəzəri və praktik məsələlərindən biridir. Məktəbəqədər və məktəb yaşlı sensor pozulmaları olan uşaqların reabilitasiya və sosiallaşmasını günün tələblərinə uyğun inkişaf etdirmək üçün bu işin həm pedaqoji, həm də psixoloji əsaslarını müəyyən etmək çox vacib şərtlərdən biridir. Sensor pozulmaları olan uşaqların reabilitasiya və sosiallaşmasının pedaqoji əsasları kimi müvafiq pedaqoji qanunauyğunluqlar, pedaqoji ziddiyyətlərin təzahür xüsusiyyətləri, pedaqoji prosesdə istinad olunan ümumpedaqoji prinsip, metod və üsullarla yanaşı, həm də spesifik pedaqoji cəhət və xüsusiyyətlər də nəzərə alınmalıdır və aktuallıq təşkil edir.

Ailədə problemli uşağın mövcudluğu ailə üzvlərinin çiyinlərinə maddi, psixoloji, emosional və fiziki yük qoyur. Belə ailələr stress, depressiya və nevrozların ailə üzvləri arasında yaranmasını şərtləndirən risk qrupuna aid edilir. Ailə qarşısında duran iqtisadi çətinliklər, çox vacib sistemli tibbi reabilitasiya və sosial-psixoloji xidmətin tam yoxluğu və ya kifayət qədər inkişaf etməməsi, onun strukturundakı əsas iqtisadi, reproduktiv, tərbiyə, psixoloji, terapevtik funksiyaların strukturunda olan problemlərdir. Uşağın ailədə sosial realizəsi perspektivi və uşaqların taleyi bir qədər aydın deyil. Xəstə uşağın ailə üzvləri müstəqil olaraq situasiyanı dəyişməkdə acizdirlər. Məlumatlara görə sensor pozulmalı uşağı olan ailələrin 70%-i ixtisaslı defektoloq, psixoloq və digər reabilitasiya mütəxəssislərinin yardımına ehtiyac duyurlar.

Məktəbəqədər yaşlı sensor pozulmaları olan uşaqların ənənəvi olaraq reabilitasiya işində birinci yeri tibbi aspekt təşkil edir. Bu zaman ailə mütəxəssislərin verdiyi təqdimat, göstəriş və təyinatları yerinə yetirən icraçı rolunu oynayır.

Bütün bu psixo-sosial amillərin, həyat şəraitinin, mikrososiumda qarşılıqlı fəaliyyət və münasibətlərin təşkilində, uşağın özünü dərk etməsində onun ailəsi ikinci dərəcəli rol oynayaraq dolayısı ilə inkişafda iştirak edir.

Məktəbəqədər yaşlı sensor pozulmaları olan uşaqların fiziki və psixi inkişafı ləngiyir, psixo-fizioloji, koqnitiv, motivasiya, emosional-iradi sahə, eləcə də, şəxsiyyətin formalaşmaması onların reabilitasiya və sosiallaşmasına çox böyük təsir göstərir. {1, 62}

Reabilitasiya proseslərinin məzmununun təşkili, strategiya, taktika və aksentləri bir-birindən öz istiqamətlərinə görə fərqlənir, nəticədə problemli uşağın şəxsiyyətinin inkişafını müəyyən edən bioloji və sosial amillərin qarşılıqlı əlaqədə olan vahid sistemi kimi özünü göstərir.

Xroniki patologiyanın mövcudluğu ailənin bir çox həyat fəaliyyəti sferalarına, eləcə də uşağın həmyaşıdları və ailə üzvləri ilə ünsiyyətinə, təlim-tərbiyə və əmək fəaliyyətinə, özünə xidmət bacarığının formalaşmasına və s.-yə çox böyük təsir göstərir. Buna görə də, sensor pozulmaları olan uşağın reabilitasiyası dar, birtərəfli xarakter daşımayıb, xəstəliyin inkişafına təkan verən sosial-psixoloji aspektləri nəzərə almadan, mütəxəssislərin səylərini yalnız bir istiqamətə, məsələn, görmə və ya eşitmə qüsurunun dərman müalicəsi, yaxud qüsurun protezləşdirilməsinə yönəltməklə təşkil etmək olmaz. {2,45} Sensor pozulmaları olan uşaqların kompleks reabilitasiya işinin xarakteri özündə inkişafın psixi, fiziki pozulmaların, öz davranışına nəzarətin, eləcə də özünəxidmət bacarığının, hərəkətin, bələdləşmənin, təlim, ünsiyyət və gələcək üçün əmək fəaliyyəti vərdişlərinin yaradılması və bərpasını birləşdirir. Bu baxımdan, sensor pozulmaları olan uşaqların reabilitasiyası dedikdə, bura uşağın həyatında, onun ailəsində pozitiv dəyişiklikləri, uşağın sosial əhatəsinin digər nümayəndələri və müxtəlif mütəxəssislərin səylərinin inteqrasiya və koordinasiyasını aid etmək olar.

Respublikada fəaliyyət göstərən tibbi-psixoloji-sosial mərkəzlərin mövcud olmaması kompleks reabilitasiya işinin təşkilini vacib edir. Məhz belə mərkəzlərdə sensor pozulmaları olan uşaqların reabilitasiyası hər bir uşaq şəxsiyyətinin təkrarolunmaz unikal, fərdi xüsusiyyətlərinin yaranmasını təmin edən təlim-tərbiyə prosesinin subyekti, bərabərhüquqlu və yaradıcı tərəfdaşı kimi qiymətləndirilərək, onların böyüklər və həmyaşıdları ilə qarşılıqlı fəaliyyətinin spesifik formalarının psixoloji cəhətdən konstruktivləşdirilməsi metodundan istifadə etməklə həyata keçirilməsi məsləhət görülür.

Sensor pozulmaları olan uşaqların sosial reabilitasiya və adaptasiya prosesini şərti olaraq əsasən dörd mərhələyə ayırmaq olar:

**I mərhələ**. Məktəbəqədər yaşlı sensor pozulmaları olan uşağın dezadaptasiya səviyyəsinin müəyyənləşdirilməsi. Bu mərhələdə komp-

leks diaqnostika strategiyasının işlənib hazırlanması həyata keçirilir. Uşaqların ilkin diaqnostikası həkim-psixiatr, defektoloq və psixoloq tərəfindən aparılır, ana (valideynlə) ilə söhbət edir və müxtəlif metodlarla uşağı müayinə edilir, təqdim edilən sənədlərə: göndəriş (əgər varsa), uşağın xarakteristikası (əgər varsa), ambulator kartı və s.-ni nəzərdən keçirilir. Sonra xəstəliyin gedişi və digər tibbi məlumatların təhlilinə aid bütün informasiyalar uşaqların əqli və fiziki çatışmazlıqlarının kompleks reabilitasiya kartındakı "tibbi reabilitasiya"qrafasında qeyd olunmalıdır.

Müayinə aparan həkim diaqnozlaşdırma mərhələsində xəstəliyin dərəcəsi və xarakteri, təzahürü, uşağın həyat fəaliyyətinin məhdudiyyətləri, qüsurların beynəlxalq nomenklaturasına uyğunluğu, reabilitasiya işinin potensialı müəyyənləşdirilir. {3, 290}

Uşağın ilkin müayinə və diaqnozu əsasında reabilitasiyanın istiqamətləri və əsas iş formaları seçildikdən sonra, uşaq həkim pediatr tərəfindən müayinə edilir və rəy verilir, sonra həkim öz təyinatını verərək, əks göstərişləri müəyyən edib, digər mütəxəssislərlə məsləhətləşmələr və yaxud əlavə müayinələrin aparılmasını təyin edir. Bunlardan sonra bütün mütəxəssislər kompleks şəkildə reabilitasiya işinə başlayırlar.

Aparılmış kompleks diaqnostika əsasında uşaq və onun ailəsi üçün fərdi proqram hazırlanır və xidmətin konkret formaları, istiqamətləri, eləcə də korreksiya-reabilitasiya işinin metod və formaları müəyyənləşdirilir.

Qeyd etmək lazımdır ki, ilkin mərhələyə çox böyük əhəmiyyət verilməlidir, çünki kor və ya kar uşaq və onun ətrafındakıları ilə korreksiya işi, sonrakı təsir strategiyası məhz bu mərhələyə əsaslanır. Sensor pozulmaları olan uşaqla və ətrafındakılarla korreksiya işi məqsədlərin qoyulması, mütəxəssislər və ailə tərəfindən vahid yanaşmalar və təsir strategiyaları artıq bu mərhələdən başlanır.

**II mərhələ.** Sensor pozulmaları olan uşağa və onun ailəsinə göstərilən konkret reabilitasiya xidmətləri. Bu mərhələdə qarşılıqlı korreksiya təsir sisteminin formalaşdırılması və uşağın reabilitasiya tədbirlərinə qatılması həyata keçirilir. Korreksiya işi fərdi proqram və cədvəl əsasında, qrup və ya fərdi şəkildə aparılır. Məşğələlərin, prosedur və məsləhət saatlarının vaxt cədvəli hər bir uşaq üçün çox ciddi tutulur. Reabilitasiya tədbirlər sistemi zədələnmiş orqanizmin həyat fəaliyyətini fəal şəkildə bərpasından ibarətdir. Tibbi təsir tədbirləri reabilitasiya işinin digər tərəfləri ilə: psixoloji, pedaqoji və sosial- paralel olaraq təşkil edilir. Reabilitasiya işində həmçinin müxtəlif hərəkət trenajorlarından, hovuz, hidro-masaj, iynəbatırma, sensor otaqdan və s-dən də istifadə yaxşı nəticələrin əldə olunmasına səbəb olur.

Sensor pozulmaları olan uşaqlarla korreksiya işində defektoloqun ənənəvi qrup və fərdi məşğələlərindən başqa, təlimin əlavə vasitələri ilə korreksiya məşğələləri də təşkil olunur. Bu məşğələlərin korreksiya istiqamətini kor uşaqlarda motorika, eşitmə, görmə, məkanda bələdləşmə qavrayışının, nitqin inkişafı və bu uşaqların sosial-məişət adaptasiyası və peşə yönümü təşkil edir. (4, s. 112)

Sensor pozulmaları olan uşaqlarla korreksiya işinin qarşısında duran əsas vəzifə onları maksimal və kamil sosial inteqrasiya imkanlarını təmin etməkdir. Məhz bu vəzifə bütün kompleks reabilitasiya tədbirlərinin yerinə yetirilməsinə yönəldilməsini tələb edir. Kompleks reabilitasiya tədbirləri arasında eşitmə, görmə pozulması olan uşağa və onun ailə üzvlərinə göstərilən psixoloji reabilitasiya və psixoloji dəstək xüsusi rol oynayır.

Psixoloji reabilitasiya dedikdə, sensor pozulmaları olan uşağın mühitə və cəmiyyətə uğurla adaptasiya edilməsinə imkan verən müxtəlif növ psixi fəaliyyətin, psixi funksiyaların yaradılmasına, ona uyğun sosial rolu qəbul etmək və yerinə yetirməsinə, özünürealizənin ən yüksək mərhələsinə çatmağa yönəldilmiş xüsusi və məqsədyönlü tədbirlər sistemi başa düşülür.

Psixoloji reabilitasiyanın əsas vasitəsi məsləhət, psixoloji treninq, psixokorreksiya və psixoterapiyadır. Sensor pozulmaları olan uşaqlarla psixoloji reabilitasiya işi üçün ən rasional metodlardan oyun terapiyası, psixodramlar, musiqi terapiyası və digərlərindən istifadə etmək olar. Burada ayrıca olaraq ailə psixoterapiyasının aparılmasını da qeyd etmək lazımdır. Ailə psixoterapiyasının aparılmasında əsas məqsəd xəstə uşağın ailədə statusunu ailə üzvlərinin ona münasibəti, müalicə və sosiallaşması məsələlərini aydınlaşdırmaqla münasibətləri sistemləşdirmək və onlara psixoloji cəhətdən dayaq durmağı aşılamaqdır. Ailə psixoterapiyasını qarşılıqlı münasibətlər proseslərinin əsas qruplarla, onun vasitəçiliyi ilə şəxsiyyətlərarası münasibətlərin xarakterinin dəyişməsi və ailədə emosional pozulmaların aradan qaldırılması kimi baxmaq lazımdır.

Qeyd edilən bu mərhələdə uşağın sosial dez-adaptasiyasının korreksiyası zamanı diqqət təkcə uşağa deyil, həm də onu yeni sosial şəraitə uyğunlaşdıran böyüklərin: valideyn, tərbiyəçi, müəllim xüsusi psixopedaqoji hazırlığına yönəldilməlidir.

Bəzən valideynlər bir məqsədi: özlərini və qüsurlu uşağını, ailə üzvlərini ətrafdakıların ikrah və töhmətindən qorumağı güdərək, özünə və qüsurlu uşağına kömək etmək, onu bu vəziyyətdən çıxarmaq əvəzinə, bütün güc və səylərini uşağının hamı kimi olmasını sübut etməyə çalışırlar. Buna görə də bu mərhələdə valideynlərə situasiyanı olduğu kimi başa düşməyə və onu qəbul etməyə, qarşılıqlı fəaliyyət (ailə münasibətlərinin korreksiyası) situasiyasını yaratmağa kömək etmək çox vacibdir.

**III mərhələ.** Sensor pozulmaları olan uşağın və onun ailəsinin cəmiyyətə inteqrasiyası. Bu mərhələnin əsas məqsədini sosiumda uşağın pozitiv və məhsuldar qarşılıqlı fəaliyyət siste-minin qurulması təşkil edir. Bunun üçün məktəbdə və ya reabilitasiya mərkəzlərində inteqrativ mühit modelləşdirilir və uşağın ünsiyyət dairəsinin genişləndirilməsi təmin olunur. Bundan əlavə uşağın və ailəsinin cəmiyyətin neqativ tendensiyalarına qarşı sosial-psixoloji adaptasiyasının səviyyəsini artırmaq və ətrafdakılara əlil uşağa düzgün yanaşmanı təlim etmək istiqamətində məqsədyönlü şəkildə iş təşkil etmək məsləhət görülür.

İnteqrasiya prosesində birinci planda məktəbəqədər və məktəb yaşlı sensor pozulmaları olan uşağı və onun ailəsini cəmiyyətin düzgün olmayan, neqativ münasibətlərinə və təsirlərinə hazırlamaq durur. Yalnız bundan sonra geniş mənada sosial inteqrasiyaya keçmək olar. Bu cür iş prosesində uşaq özü müstəqil olaraq normal inkişaf edən həmyaşıdları kollektivinə daxil olmağı bacarar, şəxsi sosial məkanını genişləndirər və diskomfort hiss etməz və ətrafındakılar üçün sosial cəhətdən uyğun hesab edilə bilər. Belə bir yanaşma :qarşılıqlı inam və mərhəmət hissi uşaqda gərginliyi azaldır, rasional təşkili olunmuş təlim-tərbiyə prosesində kor və ya kar uşağın mədəni-təhsil imkanları normal uşaqlarla demək olar ki, bərabərləşir. Hər bir sensor pozulmaları olan uşağın şəxsiyyət kimi qəbul olunmaq perspektivləri yüksəlir. Sensor pozulmaları olan uşaqların cəmiyyətə inteqrasiyası üçün vacib şərtlərə aşağıdakılar daxildir:

- Uşaq şəxsiyyətinə inam, real dərk olunmuş davranış motivlərinin formalaşdırılması, münaqişə situasiyalarının təhlili, sensor pozulmaları olan uşaqlara münasibətdə müəllim şəxsiyyətinin nümunəsi, həmyaşıdları ilə münasibətdə müəllimin pozitiv yanaşmanın irradasiyası.
- Təlimin əyani dayağı, şərhlərin idarə edilməsi, əqli fəaliyyətin mərhələli formalaşdırılması, mühafizəedici təlim yüklənməsi, alınmış nəticələrin qiymətləndirilməsi.
- Sensor pozulmaları olan uşaqların cəmiyyət tərəfindən qeyri-şərtsiz, emosional qəbul edilməsi, fəaliyyət və ünsiyyətə pozitiv təhrik.

**Problemin elmi yeniliyi.** Reabilitasiya zamanı sosial pedaqoq, həkim və digər mütəxəssislərin və valideynlərin birgə işi sensor pozulmaları olan uşaqlarda dünyagörüşünün genişlənməsi, sosial və əmək, sanitar-gigiyenik vərdişlərin yaradılması, müstəqil və fəal ünsiyyət bacarığı, cəmiyyətdə olmaq marağı və həvəsi formalaşdırmaq, onları cəmiyyətə uyğun olmağı öyrətmək məqsədlərini yerinə yetirir.

**IV mərhələ.** Ailəyə sosial dəstək.

**Problemin praktik əhəmiyyəti.** Əvvəldə göstərdiyimiz kimi sosial reabilitasiya zamanı həm uşaq, həm də onun ailəsi müxtəlif profilli mütəxəssislərdən yardım alırlar. Bundan başqa bu mütəxəssislər hər bir ailəyə, hər an məsləhət, konsultasiya etmək, kömək etməyə hazır olmalıdır. Sosial reabilitasiya prosesində mütəxəssislərlə sensor pozulmaları olan uşaq ailələrinin sıx əməkdaşlığı və qarşılıqlı fəaliyyəti tibbi-pedaqoji-psixoloji və eləcə də, ailənin sosial cəmiyyətə inteqrasiyasını asanlaşdıran, onu düzgün istiqamətləndirən şərtlərdən biridir.

**Ədəbiyyat:**

1. Ağayeva T.H. Eşitmə qüsurlu uşaqların psixokorreksiyası. -Bakı, 2015. -145 s.
2. Ağayeva T.H. Görmə funksiyasının pozulmaları və onun psixokorreksiyası, -Bakı, 2017. -164 s.
3. Ağayeva T.H. Kar uşaqlarda ana dilinin təlimi və nitq qüsurlarının korreksiyası, -Bakı, 2015. - 343 s.
4. Астафева В.М. Социальная адаптация и интеграция детей с нарушениями слуха, / В.М. Астафьева. -Москва: АРК и ПРО, -2000, - 246 s.
5. Богданова Т. Г. Сурдопсихология. / Т. Г. Богданова. -Москва, Академия - 2002, -235 s.

**E-mail:** loqoped55@mail.ru
**Redaksiyaya daxil olub:** 09.09.2024.

*UOT 376*

***Lalə Xanoğlan qızı Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Xüsusi təhsil kafedrasının müəllimi*
*https://orcid.org/0009-0004-0683-7191*
*https://doi.org/10.69682/arti.2024.91(5).194-197*

# AUTİZMLİ UŞAQLARDA EXOLALİYANIN ARADAN QALDIRILMASI ÜZRƏ İŞİN İSTİQAMƏTLƏRİ

***Лала Ханоглан гызы Мамедова***
*преподаватель кафедры Специального образования*
*Азербайджанского Государственного Педагогического Университета*

# НАПРАВЛЕНИЯ РАБОТЫ ПО УСТРАНЕНИЮ ЭХОЛАЛИИ У ДЕТЕЙ С АУТИЗМОМ

***Lale Khanoghlan Mammadova***
*teacher of the Special education departament at the*
*Azerbaijan State Pedagogical University*

# DIRECTIONS OF WORK ON ELIMINATION OF ECHOLALIA IN CHILDREN WITH AUTISM

**Xülasə.** Autizm sindromu olan uşaqlar üçün geniş nitq qüsurlarının olması tipikdir. Autizm sindromu olan bəzi uşaqlar nadir hallarda və məqsədsiz olaraq təsadüfi sait və ya samitləri tələffüz etmək üçün nitq qabiliyyətinə malikdirlər. Bir çox autizmli uşaqlar başqalarından eşitdiklərini mexaniki olaraq təkrarlayırlar. Bu cür təkrarlanma 2-3 yaşa qədər davam edir. Lakin autizmli şəxslərdə exolaliya daha uzun çəkir. Uşaqların nitqində exolaliyanı azaltmaq üçün onun səbəbini araşdırmaq lazımdır. Exolaliya halı uşaqda müşahidə olunduqda artıq valideyn mütəxəssisə müraciət etməli və düzgün korreksiya işi tətbiq olunmalıdır. Çünki exolaliya vaxtında üzərinə düşülməzsə yetkin yaşlara qədər davam edən problemdir. Hər bir fərdi vəziyyətə görə exolaliyanın müalicəsi bir mütəxəssis tərəfindən təyin edilməlidir (loqoped, psixoloq, psixo-pedaqoq və s.). Terapevtik bir proqramı təyin edərkən uşağın yaşını, inkişaf xüsusiyyətlərini və patologiyanın şiddətini nəzərə almaq lazımdır.
***Açar sözlər:*** *Exolaliya, nitqin pozulması, söz və səslərin təkrarlanması, korreksiya işi, nitq ünsiyyəti*

**Аннотация.** Для детей с синдромом аутизма характерны обширные нарушения речи. Некоторые дети с синдромом аутизма обладают речевой способностью произносить случайные гласные или согласные нечасто и без цели. Многие дети-аутисты механически повторяют то, что слышат от других. Такое повторение длится до 2-3 лет. Однако у аутистов эхолалия протекает дольше. Чтобы уменьшить эхолалию в речи детей, необходимо выяснить ее причину. При обнаружении у ребенка случая эхолалии родителю следует обратиться к специалисту и провести правильную коррекцию. Потому что эхолалия – это проблема, которая сохраняется до взрослой жизни, если ее вовремя не обнаружить. Лечение эхолалии должен назначать специалист для каждой отдельной ситуации (логопед, психолог, психопедагог и др.). При назначении терапевтической программы необходимо учитывать возраст ребенка, особенности развития и тяжесть патологии.
***Ключевые слова:*** *эхолалия, нарушение речи, повторение слов и звуков, коррекционная работа, речевое общение*

**Abstract.** It is typical for children with autism syndrome to have extensive speech impairments. Some children with autism syndrome have the speech ability to pronounce occasional vowels or consonants infre-

quently and without purpose. Many autistic children mechanically repeat what they hear from others. Such repetition lasts up to 2-3 years. However, echolalia takes longer in autistic individuals. To reduce echolalia in children's speech, it is necessary to investigate its cause. When the case of echolalia is observed in a child, the parent should consult a specialist and the correct correction should be applied. Because echolalia is a problem that lasts until adulthood if it is not caught in time. Echolalia treatment should be prescribed by a specialist for each individual situation (speech therapist, psychologist, psycho-pedagogue, etc.). When prescribing a therapeutic program, it is necessary to take into account the child's age, developmental characteristics and the severity of the pathology.

***Keywords:*** *Echolalia, speech disorder, repetition of words and sounds, correction work, speech communication.*

Exolaliya sözünü eşitdikdə, bu bir çox valideynlər tərəfindən, problem kimi qəbul edilir. Günümüzdə, exolaliya anlayışı problem olaraq başa düşülür. Lakin, exolaliya tam normal dil inkişafının bir hissəsidir. Bu inkişaf prosesi, normal uşaqda, 18 aydan başlayır 2 yaş yarıma qədər öz inkişafının pik səviyyəsinə çatır. Nitq pozulmaları həm normal inkişaf edən uşaqlarda, həm də erkən autizm sindromu və əqli geriliyi olan uşaqlarda baş verə bilər. Qeyri-ixtiyari olaraq eşidilən səslərin təkrarı, söz və ifadələrə exolaliya deyilir. Bu zaman uşaq cavab vermək əvəzinə, qarşısındakının dediyini təkrarlayır. Uşaqlar, exolaliyanın yaranma mərhələsində, gündəlik həyatda başqalarından eşitdikləri sözləri, cümlələri imitasiya edirlər. Bu eşitdikləri film, mahnı sözləri də ola bilər. Doğma dildən əlavə, digər dildə eşitdikləri sözləri belə, təkrar edə bilər və həmin dili öyrənə bilərlər. Exolaliyanın inkişafı normal olan uşaqlar, əvvəlcə qulaq duyumu ilə böyüklərin nitqini təkrar edir. 3 yaşa qədər ki dövrdə isə, öz istəklərini ifadə edə bilirlər. Həmçinin, ünsiyyətdə iştirak edir, dialoq qurur və sual verə bilirlər. Patologiyanın inkişaf etdiyi bir neçə amil var. Bunlara daxildir:

- beyinin ön hissəsinin zədələnməsi;
- genetik xəstəliklər;
- oliqofreniya;
- nevroloji pozğunluqlar;
- beyində neoplasm (Rəfiyeva L., 2020:53).

Xəstəliyin səbəbinin müəyyən edilməsi düzgün terapevtik taktikanın seçilməsində əsas rol oynayır.

İlkin olaraq exolaliya yenicə danışmağa başlayan körpə uşaqlarda da rast gəlinir. Bu əsasən müvəqqəti olur. Qısa zamanı əhatə edir. Hətta bu zamanı valideyn hiss etməyə də bilər. Əsasən uşağın 7-10 aylığında hiss olunur. Amma bu təkrarlanma böyük yaşlarda olursa, deməli uşağın psixologiyasında problemlər var.

Exolaliyanın əsasən üç növü var; yubanmış exolaliya, sürətli exolaliya və əvvəlcədən qabaqlanan exolaliya (Əzizova Z.M., 2008:76).

*Yubanmış exolaliya* zamanı uşaq deyilən kəlməni və ya cümləni istədiyi yerdə və zamanda deyir. Yəni o an təkrarlamır.

*Sürətli exolaliya* zamanı uşaq eşitdiyini o anda deyir.

*Əvvəlcədən qabaqlanan exolaliya* zamanı uşaq eşidəcəyi sözü əvvəlcədən deyir. “Salam”. “Necəsən?” kəlmələrini ilk gördüyü adama deyir. Sanki insanı qabaqlayır.

Autizm sindromu olan uşaqlar üçün geniş nitq qüsurlarının olması tipikdir. Autizm sindromu olan bəzi uşaqlar nadir hallarda və məqsədsiz olaraq təsadüfi sait və ya samitləri tələffüz etmək üçün nitq qabiliyyətinə malikdirlər. Bir çox autizmli uşaqlar başqalarından eşitdiklərini mexaniki olaraq təkrarlayırlar. Bu cür təkrarlanma 2-3 yaşa qədər davam edir. Lakin autizmli şəxslərdə exolaliya daha uzun çəkir. Bəzən bütün həyatları boyu exolaliya davam edir. Autizmli şəxslərdə exolaliya 2 formada özünü göstərir:

- Anında yaranan exolaliya;
- Gecikmiş exolaliya (Маккернен Т., 2020:34).

*Anında yaranan exolaliya* zamanı uşaq eşitdiyi səsləri, sözləri dərhal təkrarlamağa başlayır. Məsələn uşağa “yemək yeyirsən” sualını verdikdə o eyni şəkildə “yemək yeyirəm” cavabını verir.

*Gecikmiş exololiya* zamanı isə uşaq günlər, aylar əvvəl eşitdiyi sözləri təkrarlayır. Bu zaman beyinə siqnal gec çatır.

Uşaqların nitqində exolaliyanı azaltmaq üçün onun səbəbini araşdırmaq lazımdır. Exolaliya halı uşaqda müşahidə olunduqda artıq valideyn mütəxəssisə müraciət etməli və düzgün korreksiya iş tətbiq olunmalıdır. Çünki exolaliya

vaxtında üzərinə düşülməzsə, yetkin yaşlara qədər davam edən problemdir. Hər bir fərdi vəziyyətə görə exolaliyanın müalicəsi bir mütəxəssis tərəfindən təyin edilməlidir (loqoped, psixoloq, psixo-pedaqoq və s.). Nəticə birbaşa onun peşəkar savadından asılıdır. Terapevtik bir proqramı təyin edərkən uşağın yaşını, inkişaf xüsusiyyətlərini və patologiyanın şiddətini nəzərə almaq lazımdır.

Exolaliya pozuntusu autizmli uşaqların 85%-də müşahidə edilir. Normal uşaqda exolaliyanın inkişafı normal gedir. Uşaq öz ünsiyyətini tənzimləyə bilir. Autizmli uşaqlarda isə bu əksinədir. Əgər uşaq danışmırsa, öncə exolaliyanı əldə etməkdə və onun inkişaf prosesində həm biz mütəxəsssislərin, həm də valideynlərin kompleks dəstəyinə ehtiyac duyurlar. Çünki, autizmli uşaqların nitqləri robot şəklində olur. Sözlər arasında məna əlaqələri olmur. Konkret sözləri modelləşdirir, etiketləyirlər. Məs; çölə çıxmaq istədikdə, “çölə çıxmaq istəyirəm” demək əvəzinə “ayaqqabını göstərmək”, su istədikdə, “su istəyirəm” demək yerinə “stəkanı gətirmək” kimi və s. Belə uşaqlar, exolaliya əldə etdikdən sonra, bizim dediyimiz hər şeyi təkrarlaya bilərlər. Lakin təkrarladıqları sözün, funksional mənasını anlamırlar. Bəzən, hətta belə uşaqlar, telefonla çox vaxt keçirdikdə, başqa dildə olan sözləri də təkrar edirlər. Bu uşağa görə dəyişir. Bəzən, bəzi uşaqlar sadə sözləri öyrənirlər. məs; meyvə, tərəvəz, rənglər. Lakin, belə uşaqlarda da analiz-sintez qabiliyyəti zəif olur. Ona görə də nitqlərində axıcılıq olmur.

Nitqi olmayan, autizm diaqnozu ilə gələn uşaqlarda, ilkin mərhələ olaraq, əsas iş, uşaqda exolaliya əldə etmək və onu inkişaf etdirmək olur. Və belə uşaqlarda, exolaliya əldə edildikdən sonra, bir çox valideynlər düşünür ki, artıq loqopedik məşğələyə ehtiyacı yoxdu. Lakin bu qərar yanlışdı. Çünki, exolaliyanın əldə edilməsi, ilkin və ən önəmli mərhələ olsa da növbəti mərhələ, exolaliyanı inkişaf etdirməkdir. Hansı ki, bu mərhələ olduqca ciddi disiplin tələb edir.

Zehni inkişafı zəif olan uşaqlarda erkən dövrdə exolaliyanın funksiyaları aşağıdakılardır:

➢ **Söhbəti davam etdirmək** - məsələn, uşaq artıq dialoqun mübadilə ifadələrindən ibarət olduğunu bilir, lakin öz söz ehtiyatı azdır və uyğun sözləri tapmaqda çətinlik çəkir. Buna görə körpə həmsöhbətlə ünsiyyətə hazır olduğunu göstərmək üçün eşitdiklərini təkrarlayır;

➢ **Razılığını bildirmək** - psixoloqların müşahidələrinə görə, artıq “yox” sözünü öyrənmiş, lakin hələ də “hə” sözünü bilməyən uşaqlarda exolaliya baş verir. Eşitdiklərini təkrarlayaraq, qarşı tərəflə razılaşdıqlarını ifadə edirlər;

➢ **Nitqin qazanılması** - xarici dil öyrənərkən tələbə sözü başa düşmək və yadda saxlamaq üçün dəfələrlə təkrarlayır. Danışıq dilini yeni öyrənməyə başlayan uşaq da eyni şəkildə davranır (Морозов С.А., 2002:27).

Psixikasının təbiətinə görə, autizmli uşaqlarda exolaliyaya daha çox rast gəlinir. Son araşdırmalara görə, bu uşaqlarda exolaliyanın təzahürləri yaxşı əlamət sayıla bilər, çünki bu uşağın ünsiyyətə meyilli olduğunu göstərir. Autizmli uşaq exolaliya olduğu mərhələdə bir mütəxəssis yanına gəlirsə, buna çox pozitiv yanaşılır, mütəxəssis kimi sevinirlər. Çünki, uşaqda təkrarlama var. Və bu da uşağın çox sayda söz ehtiyatını birləşdirə biləcəyini göstərir. Bəs exolaliya nə zaman mütəxəssisi narahat edir? Exolaliya, uşağın ünsiyyətinə müdaxilə etdikdə. Yəni, exolaliyanın inkişafında pozuntu olduqda. Uşaq mənasını bilmədiyi sözləri təkrar edir. Fərqli situasiyalarda, həmin yerə uyğun olmayan sözlər işlətməsi. Avtobusda, maşında özözünə mahnılar oxuması. Danışarkən məna əlaqələri olmaması və s.

Lakin, bir çox vaxt exolaliya bizim məqsədimizə xidmət edə bilər. Exolaliya pozuntusu yaşayan uşağınız varsa, öncə bilməlisiniz ki;

**1)** exolaliya sözünün bir məqsədə xidmət etdiyini müəyyənləşdirməlisiniz;

**2)** uşağınızın niyyətinin nə olduğunu, yəni, nə istədiyini müəyyənləşdirməlisiniz;

**3)** uşağınıza bu konteksdə nə deməli olduğunu öyrətməyin yollarını tapmalısınız. Bu yanaşma, exolaliyanı aradan qaldırmağa çalışmaqda daha təsirli olacaq ünsiyyət əhəmiyyətli dərəcədə məhdudlaşır (Шипицина Л.М., 2001:135).

Uşaqlarda exolaliya zamanı görüləcək işləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**1.** Exolaliyanı aradan qaldırarkən ilk olaraq uşağa susmağı öyrətmək lazımdır. Yəni müəllim əvvəlcə səs, heca, söz, cümlələrdən başlamalıdır. Özü səsi deyərkən uşağa sus dinlə deyir.

**2.** Müəllim sözün əvvəlini uşağa söyləyir sonunu uşaq bitirir. Bu zaman birinci şəkil

uşağa göstərilir. İkinci dəfə isə müəllim sadəcə söyləyir.

**3.** Cümlə ilə bu çalışmanı etmək olur. Məsələn; Almanı .., Qapını ... və s.

Bu proqrama uyğun çalışmalar davam edilə bilər. Amma uşağın lüğət ehtiyatını artırmaq və özünə inam yaratmaq mütləq lazımdır. Bu zaman psixoloji yardım da olsa yaxşı olar.

Beləliklə, exolaliya müxtəlif yollarla özünü göstərə bilən ümumi nitq pozuntusudur. Bunun öhdəsindən gəlmək üçün uşağın ona ünvanlanan nitqi dinləyib başa düşmələri və ona verilən suallara cavab verə bilməsi zəruridir. Exolaliyanın öhdəsindən gəlmək işində nitq terapevti, psixoloq və valideynlərin qarşılıqlı təsiri mühüm rol oynayır.

**Problemin aktuallığı.** Uşağın nitq funksiyasının inkişafı bir neçə mərhələdə baş verir. Əqli və intellektual inkişafla birbaşa bağlıdır. Müxtəlif xəstəliklərlə uşaqda nitq pozğunluğu - exolaliya müşahidə olunur. Bu xəstəlik eşitməli söz və ifadələrin nəzarətsiz təkrarlanması ilə xarakterizə olunur. Bütün bu prosesləri nəzərə alaraq autizmli uşaqlarda exolaliyanın aradan qaldırılması üzrə işin istiqamətləri bu və ya digər şəkildə tədqiq edilsə də, bu sahədə onun məqsəd və vəzifələri öyrənilməmiş, ümumiyyətlə açıq qalmışdır. Apardığımız tədqiqat bu problemin öyrənilməsinə və həlli yollarının araşdırılmasına həsr edilmişdir.

**Problemin elmi yeniliyi.** Bu məqalədə, ilk dəfə olaraq, autizmli uşaqlarda exolaliyanın aradan qaldırılması üzrə işin istiqamətləri araşdırılmış, məqsəd və vəzifələrinin əhəmiyyəti və həlli yolları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən təkliflər və nəticələr autizmli uşaqlarda exolaliyanın aradan qaldırılması üzrə işin müvəffəqiyyətlə həyata keçirilməsini təşkil etmək və uşaqların inkişafında nəzərə alınmasına köməklik göstərməkdir. Bu məlumatlar vasitəsilə istər müəllimlər, istərsə də valideynlər uşaqların inkişafı, tərbiyəsi və təhsilini müvəffəqiyyətlə həyata keçirilməsini təşkil edə bilər.

**Ədəbiyyat:**


1. Ağayeva, T.H. Ümumtəhsil məktəblərində loqopedik işin təşkili: / T.H. Ağayeva. - Bakı: ADPU, - 1999. - 236 s.
2. Əzizova, Z.M. Loqopediyanın nəzəri əsasları haqqında ümumi məlumat: / Z.M. Əzizova, R.Q. Cəfərova, Ş.N. İsmayılov. - Mingəçevir: MMC, - 2008. - 202 s.
3. Hüseynova, N.T. Loqopediya: / N.T. Hüseynova. – Bakı: ADPU, - 2018. - 296 s.
4. Hüseynova, N.T. Xüsusi pedaqogika: / N.T. Hüseynova, L. Rüstəmova. – Bakı: ADPU, - 2006. - 115 s.
5. Korreksiya işlərinin həyata keçirilməsi: / L. Rəfiyeva, M. Məmmədova, E. Yusifova, S. Abbasova - Bakı, - 2020. - s. 141
6. Маккернен, Т. Аутизм: Практическое руководство для персонала. / Т. Маккернен, Д. Мортлок. - Мн.: Белорусский Экзархат Белорусской православной церкви, - 2000. - s. 112
7. Морозов, С.А. Детский аутизм и основы его коррекции: Материалы к спецкурсу. / С.А. Морозов. - М.: Сигналъ, - 2002. - s. 108
8. Никольская, О.С. Аутичный ребенок: Пути помощи. / О.С. Никольская, Е.Р. Баенская, М.М. Либлинг. - М.: Теревинф, - 2000. – s. 336
9. Шипицина, Л.М. Детский аутизм: Хрестоматия: учебное пособие для студентов высших и средних педагогических, психологических и медицинских учебных заведений. [Сост.. Изд. 2-е.] / Л.М. Шипицина. - СПб.: Дидактика Плюс, - 2001. – s. 368


**E-mail:** lale_memmedova95@bk.ru
**Redaksiyaya daxil olub:** 04.09.2024.

***PSİXOLOGİYA***
***ПСИХОЛОГИЯ***
***PSYCHOLOGY***

*UOT 159.9*

***Limunət Şəfi qızı Əmrahlı***
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*https://orsid.org/0009-0003-3152-873X*
*https://doi.org/10.69682/arti.2024.91(5).198-203*

## İNFORMASİYALARIN MƏNİMSƏNİLMƏSİNDƏ KOQNİTİV BACARIQLARIN ROLU

***Лимунет Шафи гызы Амрахли***
*доктор философии по психологии, доцент*

## РОЛЬ КОГНИТИВНЫХ УМЕНИЙ В УСВОЕНИИ ИНФОРМАЦИИ

***Limunat Shafi Amrahli***
*doktor of philosophy in psychology, associate professor*

## THE ROLE OF COGNITIVE SKILLS IN THE ASSIMILATION OF INFORMATION

**Xülasə.** Məqalədə müasir informasiya kommunikasiya sistemlərində verilən informasiyaların mənimsənilməsində koqnitiv bacarıqların rolundan bəhs edilir. Göstərilir ki, hazırda istər yaşlı, istərsə də gənc nəsildə elektron vasitələrlə verilən informasiyaların mənimsənilməsində bir sıra çətinliklər yaranır. Çətinliklərə səbəb informasiyaların müxtəlif təsvir formaları, istifadə edilən simvollar və s. ola bilir. Məqalədə həmin çətinliklərin həllində koqnitiv bacarıq və səriştələrin rolu əsaslandırılır. Bu sahədə təhsil sistemi qarşısında duran vəzifələr şərh edilir. Aparılmalı olan işlərin istiqamətləri göstərilir.
***Açar sözlər:*** *informasiya, kommunikasiya, mənimsəmə mərhələləri, koqnitiv çətinlik, koqnitiv bacarıq, səriştə, koqnitiv əməliyyat, koqnitiv fəaliyyət*

**Аннотация.** В статье рассматривается роль когнитивных умений в усвоении информации, предоставляемой в современных информационно - коммуникационных системах. Показано, что в настоящее время как пожилые люди, так и молодые испытывают трудности в усвоении информации, предоставляемой электронными средствами. Эти трудности вызывают разные описательные формы информации, используемые символы и т.п. В статье обоснована роль когнитивных умений и компетенций в решении указанных трудностей. В этой области раскрыты задачи, стоящие перед системой образования. Указаны направления предстоящих работ.
***Ключевые слова:*** *информация, коммуникация, этапы усвоения, когнитивная сложность, когнитивные умения, компетентность, когнитивная операция, когнитивная деятельность*

**Abstract.** The article discusses the role of cognitive skills in the absorption of information provided in modern information communication systems. It is shown that currently both the old and the young generation have a number of difficulties in the assimilation of information provided by electronic means. Difficulties are caused by different forms of information, used symbols, etc. The article justifies the role of cognitive skills and competencies in solving those difficulties. In this field, the tasks facing the education system are explained. The directions of the works to be carried out are indicated.
***Keywords:*** *information, communication, mastering stages, cognitive difficulty, cognitive ability, competence, cognitive operation, cognitive activity.*

Hazırda dünyada informasiya-kommunikasiya texnologiyalarından istifadə təcrübəsi böyük vüsət alıb. Cəmiyyətin bütün sahələrində elektronlaşma sürətlə inkişaf edir. İstər şəxsi, istərsə də işgüzar münasibətlər, eləcə də sosial şəbəkələrdəki əlaqələrin böyük bir qismi elek-

tron vasitələrlə həyata keçirilir. Xüsusilə, telefon cihazları getdikcə təkmilləşərək böyükdən-kiçiyə, siyasətçi və elm xadimlərindən tutmuş, uşaqlara qədər hər kəsin həyatının ayrılmaz hissəsinə çevrilib. Bununla belə, hələ də müasir kommunikasiya vasitələrindən səmərəli şəkildə yararlana bilməyən, ən sadə qurğulardan, İnternet portallarından, saytlarından istifadə etməkdə çətinlik çəkən insanlar var. Onlar yaşlı əhali arasında çoxluq təşkil etsələr də, birmənalı olaraq bu çətinlikləri məhz onların yaşı ilə əlaqələndirmək doğru deyil. Burada yaş amili ilə yanaşı fərdiyyətin koqnitiv imkanları da mühüm amildir. Elektron vasitələrlə verilən informasiyaların mənimsənilməsində maneə yaradan amil də daha bu sahədə çox koqnitiv çətinliklərin olmasıdır.

"Koqnitiv çətinlik" anlayışının mahiyyəti, onun kommunikativ əlaqələrdə özünü necə göstərməsi müasir dövrdə koqnitiv psixologiyada geniş öyrənilir. Məsələn, hazırda dövlət qurumları vətəndaşlara öz xidmətlərini elektron portallar vasitəsi ilə təqdim edir. Elektron portallardakı xidmətlərin bir çoxunda problemi operativ şəkildə həll etmək mümkündür. Halbuki, sadə vətəndaşlar üçün onlar üzərindən əməliyyatların aparılması bir çox çətinliklərlə müşayiət edilir. Problemi aradan qaldırmaq üçün ilk növbədə fərdlərin koqnitiv sahəsində bir sıra istiqamətlər üzrə dəyişmələr getməli, yeni funksiyalar yaranmalıdır. Bu dəyişmələri yalnız koqnitiv bacarıqları inkişaf etdirməklə yaratmaq mümkündür.

Koqnitiv bacarıqların inkişafı hər bir kəsdən özünüfəallaşdırma tələb etdiyinə görə şəxsiyyətin üç mühüm sahəsi yenidən formalaşmalıdır: dəyər-motivasiya sahəsi dəyişməli, yeni təfəkkür tərzi və yeni koqnitiv quruluşlar yaranmalıdır. Digər mühüm amil müasir koqnitiv fəaliyyətə verilən tələblərlə bağlıdır. Koqnitiv fəaliyyətin səmərəli nəticələri fərdlərin sahib olduqları koqnitiv quruluşla bağlıdır.




***Şəkil 1. Koqnitiv əməliyyatların aparılması üçün vacib olan quruluşlar***

Şəkildə verilmiş modeldən də aydın olur ki, müasir İKT üzərində aparılan əməliyyatlarda yaranan koqnitiv çətinliklərdə daha çox psixoloji amillər özünə yer alır. Hansı ki, müasir insan bu kimi çətinliklərin öhdəsindən gəlməyi bacarmalıdır.

Hələ koqnitiv psixologiyanın praktikaya tətbiq edildiyi ilk illərdə həmin prosesin necə baş verməsi izah edilməyə başlandı. U. Nasser [1], L.V. Mak Kinnon [2], M.İ. Pozner [3], C.R. Anderson [4], V.M. Veliçkovski [5] və b. artıq koqnitiv sistemlərin öyrənilməsindən koqnitiv texnologiyaların yaradılmasına doğru getməyin yollarını göstərirdilər. Bu tədqiqatçılara görə, koqnitiv sistemin təbiətində olan mövcud təsəvvürlər əsasında koqnitiv tədqiqatların nəticələri praktikaya yönəldilməli idi. Bu sahədə milli və beynəlxalq proqramlar (Nano, Info, Bio və Coqno, New and Emerging Science and Technology və d.) həyata keçirilməlidir.

Dünyada və Azərbaycanda bu prosesin tənzimlənməsinə həsr edilmiş çoxsaylı tədqiqatlar aparılıb. C. Kelli [7], C.R. Gilford [8], B.

Bernşteyn [9], Ə.S Bayramov [10], Ə.Ə. Əlizadə [11], A.N. Qusev, N.N. Volkova [12], N.M. Amosov [13], R.V. Cabbarov [14], M.S. Əliyev [15], L.Ş. Əmrahlı [16] və b. təfəkkürdən - şəxsiyyətə qədər koqnitiv sistemin, proseslərin, konstruktların necə qurulmasını, şəxsiyyətin özününizamlamasını və özünüreallaşdırmasını, eləcə də digər məsələləri izah edirlər. Belə aydın olur ki, elektron informasiyalardan səmərəli şəkildə yararlanmaq üçün istifadəçilər aşağıdakı koqnitiv bacarıqlara və səriştələrə sahib olmalıdırlar: *texnoloji səriştə, virtual yaradıcılıq, koqnitiv özünüfəallaşdırma, koqnitiv funksiyalar, süni intellekt, yeni stereotiplər [16, s. 14].*

Əlbəttə ki, səriştələrin formalaşması öz-özünə baş vermir. Bunun üçün şəxsiyyətin özünüfəallaşdırma, özününizamlama, özünüidarəetmə kimi quruluşları formalaşmalıdır. Sosial-koqnitivizmin nümayəndəsi A. Bandura bu sahədə müasir şəxsiyyət psixologiyasının ən aktual problemlərindən olan özünüidarəetmənin konsepsiyasını yaradıb. O, insanların öz davranışlarına şüurlu şəkildə nəzarət etməyə qabil olduqlarını sübut edir. A. Banduranın qənaətinə görə, özünüidarəetmənin funksiyası şəxsiyyətin daxili qüvvələri tərəfindən yaradılaraq ətraf mühit tərəfindən müdafiə edilir. Daxili təsirlər isə insanın yerinə yetirdiyi hərəkətləri nizamlayır. O əminliklə bildirir ki, *"ali intellektual qabiliyyətlər, məsələn simvollar üzərində əməliyyatlar bizə ətraf aləmə təsir göstərmək üçün güclü silah verir. Gələcəkdə davranışın istiqamətləndiricisi olması üçün bu sosial təcrübə verbal və obrazlı reprezentasiyalarla qorunub saxlanılır" [6, s. 379].*

Bütün bunlar, qeyd edildiyi kimi, fəallaşma tələb edir. Fəallaşmaq üçün insan sosial proseslərə düzgün qiymət verməli, perspektivlərə inanmalı, öz mövqeyini ortaya qoymaqdan çəkinməməli, insan azadlığı ilə bağlı dünya və ölkə səviyyəsində qəbul edilmiş aktları əsas tutaraq öz hüquqlarını müdafiə etməyi bacarmalıdır. Fəallaşmanın ən sivil yolu - bəşəriyyətin texnoloji mədəniyyətinə əsaslanan elektron sistemlərlə birbaşa, maneəsiz, intellektual qaydada və peşəkar əlaqələrin qurulmasıdır. Beləliklə, elektron kommunikasiyadan istifadə tələbləri artdıqca, onun çatışmazlıqlarının aradan qaldırılmasına diqqət də artacaq. O zaman bir sıra vətəndaşlara əlçatmaz və ya "sim-sim qapısı" kimi görünənləri daha əlçatan edir.

Bu işlərin görülməsi üçün təhsil sisteminin üzərinə mühüm vəzifələr düşür. Hələ məktəb illərindən şagirdlər yeni informasiya texnologiyaları ilə işləməyə alışdırılmalı, üzləşdikləri koqnitiv çətinlikləri dəfetmə yolları öyrədilməlidir. Əsas diqqət yetirilməli olan sahə isə təhsil subyektlərində koqnitiv bacarıqların formalaşdırılmasıdır.

*"Bacarıq" dedikdə - insanın (subyektin – şagirdin, müəllimin) hərəki və ya əqli imkanlara yiyələnməsi üçün icra etdiyi hərəkətləri müvafiq qaydada yerinə yetirməsi başa düşülür [16, s. 8].* Bu zaman yeni bacarıqlarla yanaşı yeni biliklər və vərdişlər də yaranır. Bacarıqlar təlim prosesində yerinə yetirilən mümarisələr: çalışma, tapşırıq, oyun, təmrin, test, layihə və s. vasitəsi ilə formalaşır. Bütün hallarda bacarıq bilik və hərəkət baxımından bacarılanlardır. Əgər bacarıq varsa, o, həmişə və hər yerdə bacarıqdır. Bu fikir onu ifadə edir ki, insan artıq bacarığa çevrilmiş hərəkətləri müxtəlif situasiyalarda tətbiq edə bilməlidir. Bacarığın tətbiq edilməsi vasitələri müxtəlif ola bilər, lakin onun nəticələri gözlənildiyi kimi olmalıdır.

Bacarığın başlıca əlaməti - insanın konkret situasiyada özünün bilik və vərdişlərini tətbiq edə bilməsidir. Buna "icraetmə bacarığı" və ya "tətbiqetmə bacarığı" da deyilir. Bacarıqlı insan müvafiq bacarıqlar sistemindəki hərəkətləri dəqiq mənimsəmiş, onu müxtəlif vaxtda, müxtəlif situasiyada tətbiq etməyi bacaran insandır. Bacarıqların əsas qruplaşmasına bunlar daxildir: dərketmə (koqnitiv) bacarıqları; ümumi təlim və ya əmək bacarıqları; konstruktiv bacarıqlar; təşkilati bacarıqlar; texnoloji bacarıqlar; kommunikativ bacarıqlar və s. *"Koqnitiv bacarıq" (dərketmə) bacarığın bir növüdür. Burada söhbət bilavasitə insanın dərketmə sahəsinə aid olan bacarıqlarından gedir. Ona görə də koqnitiv bacarıqlara daha çox əqli keyfiyyətlərə şamil olan bilik, bacarıq və vərdişlər sistemi kimi yanaşmaq daha düzgündür [16, s. 12].*

Beləliklə, biz koqnitiv bacarıqlar haqqında müəyyən ümumiləşdirmə apara bilərik. "Koqnitiv bacarıq" - dərketmə fəaliyyətində subyektin sensor siqnalları dəqiqliklə qəbul edərək onları qavraması, əvvəllər mənimsədiyi bilik, bacarıq və vərdişlərlə üzərində əməliyyatlar aparması, yeni əqli nəticəyə gəlməsi və bu biliklərə uyğun olaraq yerinə yetirilməli olan hərəkətləri

icra etmək bacarığının mənimsənilməsidir. Koqnitiv bacarıqlar koqnitiv (təlim) fəaliyyətdə formalaşır. "Koqnitiv fəaliyyət" - (cognitive activity) psixologiyada "anlamaq, qavramaq, dərhal başa düşmək" mənasında işlədilir. Koqnitiv fəaliyyət anlayışı özünəməxsus koqnitiv proseslərlə tənzimlənən informativ quruluşdur. O, insanın bu və digər həll yolu ilə biliklər əldə etdiyi, nəticə olaraq nəyi isə anladığı, təqdim etməyə (interpretasiyaya) nail olduğu fikri fəaliyyətidir. *"Koqnitiv fəaliyyət - insanın bu və digər həll yolu ilə biliklər əldə etdiyi, nəticə olaraq nəyi isə anladığı, təqdim etməyə (interpretasiyaya) nail olduğu fikri fəaliyyətidir. Bu, diqqət, hafizə, emal sürəti və icra funksiyaları (əsaslandırma, planlaşdırma, problemi və çoxsaylı tapşırıqları həlletmə) kimi bir çox müxtəlif və mürəkkəb beyin fəaliyyətlərini (və ya idrak funksiyalarını) özündə birləşdirən geniş bir anlayışdır" [17].*




***Şəkil 2. Koqnitiv fəaliyyətin əsas komponentləri***

Digər tərəfdən, koqnitiv fəaliyyət – subyektin konkret həll yoluna gələrək, yaxud biliklər əldə edərək nəyisə anlamağa aparan əqli fəaliyyətidir. Koqnitiv fəaliyyətdə informasiyaların işlənməsinin müxtəlif sistemləri iştirak etdiyindən onun səmərəliliyi informasiyanın hansı kanallarla daxil olmasından da asılıdır.

Təhsil sistemində şagirdlərin koqnitiv fəaliyyətində onlarda formalaşdırılmalı olan koqnitiv bacarıqların bir neçə təsnifatlaşdırılması aparılmışdır. H. Qardner [18], P.Y. Qalperin [19], A.Q. Asmolov [20], F.İ. Qaaz [21], A.O. Roik [22] və b. apardıqları tədqiqatlarda, bir tərəfdən intellekt tipinin xüsusiyyətləri (H. Qardner), digər tərəfdən dərketmə fəaliyyətində hər kəs üçün səciyyəvi olan əməliyyatların gedişi, mərhələləri (P.Y. Qalperin, A.Q. Asmolov) və qurulması mexanizmləri (F.İ. Qaaz, A.O. Roik) aydınlaşdırılır. Digər tərəfdən L.Ş. Əmrahlı [16], Ə.M. Abbasov [23], S.R. Bədiyev [24], N.Y. Kərəmova [25], C. Bayrak, Ş. Yücesoy, E. Ağaoğlu [26], S. Eryılmaz [27] və b. tərəfindən təlim fəaliyyətində onun təşkili xüsusiyyətləri, bu prosesi stimullaşdıran və ləngidən amillər izah olunur:

- fəaliyyətin məqsədini anlamaq, yerinə yetiriləcək hərəkətlərin quruluşunu, qaydalarını, istiqamətlərini bilmək, məzmun və texniki baxımdan yaxşı bələd olmaq, onlara əməl etmək, strategiyasını, planını qurmaq, modelləşdirmək, sxemləşdirmək, tapşırıqlar və müstəqil işlər əsasında məqsədə doğru istiamətləndirmək;
- fəallıq göstərmək, nümunə əsasında hərəkətlərin qoyulmuş vaxtda, keyfiyyətlə yerinə yetirilməsinə nəzarət etmək, texniki baxımdan düzgün icra edərək səmərəli nəticəyə gəlmək;
- hərəkətlərinin icrasında tapşırığın həlli üsullarının seçilməsinə və özündə yeni koqnitiv quruluşların formalaşmasına yaradıcı yanaşmaq;
- bacarıqlarını obyektiv qiymətləndirmək, dəkredilmiş əqli nəticəyə gəlmək.

Hətta ən yüksək səviyyədə inkişaf etmiş vərdiş və ya bacarıq da həmişə qarışıq (variativ) olub biri digərindən asılıdır. Bu anlayışlarda eyniyyət də yoxdur, lakin onlar biri-birini tamamlayır. Vərdiş edilmiş hərəkətlər üç mənbədən qidalanır:

- uyğun hərəkətlər hansısa təsir altına düşərək ardıcıl təkrarlanır, nəticədə bu hərəkətlər avtomatik icra edilir, alışma, uyğunlaşma, hərəkətlərə adaptasiya baş verir;

- orqanizmindəki dəyişkən daxili vəziyyət: çoxsaylı əzələ vahidləri, onların qan təchizatı və d. sistemlərdə fasiləsiz olaraq oyanıqlıq qeydə alındıqda avtomatlaşmış hərəkətlər baş verir;

-fəaliyyət zamanı beyindəki axtarıcı aparat daim, fəal şəkildə tapşırığın daha yaxşı həll yolunun hazır sistemi ilə rastlaşana qədər bu axtarış davam edir, sistem fəallaşaraq real hərəkətlərə qoşulur.

- qazanılan hər bir yeni bacarıq - artıq mənimsənilmiş vərdiş və əvvəlki bacarıqlar əsasında yerinə yetirilən hərəkət vasitələrinin cəmini ifadə edir.

Bu bacarıqların mənimsənilməsi üç mərhələdən keçir.

***Birincisi*** *- koqnitiv mərhələ: kodlaşdırma yerinə yetirilir, faktlar naboru yadda saxlanılır.*

***İkincisi*** *– assosiativ mərhələ: problemin başa düşülməsindəki səhvlər azalır, hərəkətin uğurla yerinə yetirilməsi üçün vacib olan elementlər arasındakı əlaqə güclənir, asosiativ mərhələdə bacarıqların uğurla reallaşdırılması baş verir.*

***Üçüncüsü*** *- standart ardıcıllıqla bacarıqlara yiyələnmə mərhələsində prosedur avtomatlaşmış, sürətli olur [16, s. 19].*

Yekunda bacarığın formalaşması insanda özünənəzarəti artırır. Hərəkətlərin hazır nümunələr əsasında idarə edilməsini asanlaşdırır. Bacarıqları daha asan formalaşdırmaq üçün fərd tərəfindən özünün real hərəkətlərini müqayisə etməyə imkan verən hazır obrazlar olmalıdır. Bunlar şagirdlərə müxtəlif priyom, vasitə və yollarla təqdim edilir. Psixologiyada bu məsələlər həm də "koqnitiv üslub" anlayışı altında öyrənilir. H.A. Vitkin, C.A. Moor, D.R. Qudenouf, P.V. Kox [28], M.A. Xolodnaya [29] və b. tədqiqatları bu mövzuya həsr olunub.

Göründüyü kimi, Koqnitiv bacarıqlar bilavasitə müasir dövrdə insanın fəaliyyətində tələb olunan bacarıqlardır. Bu bacarıqlara ayrı-ayrı idrak prosesləri kontekstindən deyil, kompleks yanaşılır. Hər bir bacarığın quruluşunda bütün idrak prosesləri və onların aralıq mərhələləri, o cümlədən emosiya, iradə, davranış, fəaliyyət və kommunikasiya vardır. Koqnitiv fəaliyyət isə elə bir prosesdir ki, nəticədə insanda yeni təsəvvürlərin spontan inkişafı baş verir. Yaranmış yeni anlayış, təsəvvür, obraz və hərəkət konstruksiyaları əsasında yeni əqli biliklər, hərəkət vərdişləri, konstruksiyalar əmələ gəlir. Yeni biliklər və hərəkət konstruksiyaları insanın özünün-özünə, ətraf aləmin reallıqlarına münasibətini dəyişir. Bu dəyişmələr hazırda koqnitiv anlayışlarla ifadə edilir. Həmin anlayışları biz bu məqalədə daha çox koqnitiv bacarıqlar kimi kontekstində izah etdik. Çünki məhz koqnitiv bacarıqların yaranması və inkişafı müasir insanın istər təlim, istərsə də əmək fəaliyyətinə koqnitiv xarakter verir. Fəaliyyətin koqnitiv xarakteri isə qabiliyyət, xassə, koqnitiv üslub, yaradıcılığın səmərəli həlli yolları və b. amillərlə bağlıdır.

**Problemin aktuallığı.** Tədqiqatın aktuallığı, ilk növbədə insan təfəkkürünün, düşünmə, mənimsəmə proseslərinin müasir texnologiyalara uyğunlaşdırılması zərurəti ilə bağlıdır. Məhz informasiyaların ötürülməsi vasitələri dəyişdiyindən insanın görmə qavrayışı və buna uyğun olaraq hafizəsi, təfəkkürü, bütövlükdə şüuru da dəyişməli olur. Bu da informasiyaların mənimsənilməsinin kəmiyyət və keyfiyyətinə yeni tələblər qoyur. Bu tələblərin ödənilməsi üçün hələ kiçik yaşlardan başlayaraq fərdlərdə koqnitiv bacarıqlar formalaşdırılmalıdır.

**Problemin elmi yeniliyi.** Müasir məktəbin başlıca funksiyası – təhsil vermək, bu əsasda şəxsiyyət formalaşdırmaqdır. Təhsil sistemində aparılan qiymətləndirmədə çox zaman şagirdlərin ümumi təlim nəticələri əsas götürülür. Bu nəticələrin yüksək olmasının hansı amillərdən asılılığı pedaqoqlar tərəfindən dərindən təhlil edilmir, əsaslı nəticələr çıxarılmır. Məqalədə şərh edilənlər pedaqoqları bu mövzu ətrafında düşünməyə, şagirdlərdə koqnitiv bacarıqların inkişaf etdirilməsi üçün müvafiq elmi mənbələrlə tanış olmağa, həmçinin problemin əhəmiyyətini dəyərləndirməyə imkan verir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə fəal dərsin gedişində şagirdlərdə formalaşdırılmalı olan bacarıqların psixoloji xarakteri aydınlaşdırılır. Təlim uğurlarında, informasiyaların mənimsənilməsindəki bu bacarıqların rolu izah olunur. Bu baxımdan məqalədə verilən materiallar məktəb rəhbərləri, təhsil menecerləri, fənn müəllimləri və praktik psixoloqlar üçün əhəmiyyətlidir.

**Ədəbiyyat:**


1. Neisser, U. Cognitive Psychology/ U. Neisser. - N. - Y: Appleton, -1967. - 351 p.
2. Mac Kinnon D.W. Creativity: Edu f multi-faceted phenomenon URL// hipp:// www. rsad.//
3. Pozner, M. I. Attention as a coqnitive and neural system// Current Directons in Psuchological Ccience, 1992. - p.11-14.
4. Андерсон, Дж. Р. Когнитивная психология. / Дж.Р. Андерсон -СПб.: Питер, - 2002. - 496 с.
5. Величковский, Б.М. Когнитивная наука. / Б.М. Величковский.-М.: Смысл, -2006. - 448 с.
6. Бандура А., Роттер Дж. Социально-когнитивное направление в теории личности// Теории личности. -СПб. : Питер, -1997. - с. 373-431.
7. Келли Дж. Когнитивное направление в теории личности // Теории личности. -СПб.: Питер, - 1997. - с. 431-478.
8. Gilford, C.P. Three Faces of Intellekt // The Amerikan Psuchologist, 1959. -p. 469-479.
9. Bernstein, B. Class, codes and control. / B. Bernstein. - London and New York: Routredge group, - 2003. - 212 p.
10. Bayramov, Ə.S. Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri. / Ə.S. Bayramov. - Bakı: Maarif, - 1967. - 350 s.
11. Əlizadə, Ə.Ə. İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər. / Ə.Ə. Əlizadə. - Bakı: ADPU-nun mətbəəsi, - 2005. - 391 s.
12. Gusev, A.N. Cognitive Style Differences in Detection and Discrimination of Sensory Signals // A.N. Gusev, N.N. Volkova. / Известия Иркутского государственного Университета, ФГБОУ ВО «ИГУ», том 35, 2021.- с.22-28.
13. Амосов, Н.М. Моделирование мышления и психика. / Н.М. Амосов. - Киев: Наукова думка, - 2016. - 302 с.
14. Cabbarov, R.V. Özünükerçəkləşdirmənin psixologiyası / R.V. Cabbarov. - Bakı: - 2016. - 260 s.
15. Əliyev, M.S. “Özünənənəzarət sahəsi” anlayışı və onun konseptual modeli / M.S. Əliyev. - Bakı: ADPU, - 2001. - 148 s.
16. Əmrahlı, L.Ş. Koqnitiv bacarıqlar: fəal dərsin son akkordları. / L.Ş. Əmrahlı. -Bakı: Təhsil, - 2016. - 157 s.
17. G.Lininson. Bernstein: Codes and social class// https:// www.file:///C:/Users/user/Downloads/EER745274copy.pdf//
18. Гарднер, Г. Структура разума: теория множественного интеллекта. Пер. с. Анг. -М.: - изд. И. Д. Виляме, 2007. - 512.
19. Галперин, П.Я. Психология мышления и учение о поэтапном формировании умственных действий // Психология как объективная наука: избранные психологические труды / - Воронеж: НПО МОДЕК, 1998. - с. 272-317.
20. Асмолов А. Г. Деятельность и установка / А.Г. Асмолов. - М.: МГУ, - 1979. - 152 с.
21. Гааз, Ф.И. Педагогическая психология / Ф.И. Гааз. - М.: Академия, 2003. - 240 с
22. Роик, А.О. Кодирование особенностей когнитивной деятельности в ритмическом рисунке ЭЭГ / Автореф. дисс. соис. уч. степ. канд. биолог. наук.) / М.: РАН, 2012. - 25 с.
23. Abbasov, Ə.M. İnformatika və kompüterləşmənin əsasları / Ə.M. Abbasov. - Bakı: MSV Nəşr, - 2006. - 880 s.
24. Bədiyev, S.R. Şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsində yeni təlim texnologiyalarından istifadə: / ped. elm. nam. dissertasiya.) / - Bakı: TPİ-nin kitabxanası, - 2008. - 139 s.
25. Kərəmova, N.Y. Emosional gərginliyin koqnitiv proseslərə təsirinin əqli inkişaf səviyyəsindən asılılığının tədqiqi: / biol.elmləri üzrə fəlsəfə dok. diss... avtoref. ) / -Bakı: AMEA, - 2010. - 34 s.
26. Eğitim psikolojisi / C.Bayrak, Ş. Yücesoy, E. Ağaoğlu [ve b.]. - Ankara: Anadolu University, - 2016. - 267 s.
27. Eryılmaz, S. 10-11 yaşındaki öğrencilerin benlik kavramları ile bilişsel performansları arasındaki ilişki / S. Eryılmaz. - İstanbul: Maltepe Üniversitesi, Sosyal Bilimler Enstitüsü, - 2008. - 119 s.
28. Witkin, H.A., Moore, C.A., Goodenough, D.R., and Cox, P.W. «Field dependent and field independent cognitive styles and their educational implications», Review of Educational Research (47:1), Winter 1977, p. 1-64
29. Холодная, М.А. Когнитивные стили. О природе индивидуального ума. -СПб.: Питер, -2004. - 384 с.


**E-mail:** limunet@mail.ru

**Redaksiyaya daxil olub:** 09.09.2024.

*UOT 159.9*

***Solmaz Qüdrət qızı Həsənli***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org 0000-0001-5931-482X*
*https://doi.org/10.69682/arti.2024.91(5).204-208*

# VAROLUŞÇU (EKZİSTENSİAL) TERAPİYA VƏ PSİXOTERAPEVT-PASİENT MÜNASİBƏTLƏRİNİN MAHİYYƏTİ

***Солмаз Гудрат гызы Гасанлы***
*доцент*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# ЭКЗИСТЕНЦИАЛЬНАЯ ТЕРАПИЯ И ПРИРОДА ОТНОШЕНИЙ ПСИХОТЕРАПЕВТА И ПАЦИЕНТА

**Solmaz Gudrat Hasanli**
*associate professor of the*
*Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in pedagogy*

# EXISTENTIAL THERAPY AND THE NATURE OF THE PSYCHOTHERAPIST-PATIENT RELATIONSHIP

**Xülasə.** Psixoterapiya insanın psixi strukturu ilə əlaqəli bir prosesdir. Psixoterapiya zamanı terapevtlər bir neçə yanaşmalardan istifadə edir ki, bunlardan biri də varoluşçu (ekzistensial) yanaşmadır. Məqalədə varoluşçu terapiyanın yaranması, onun özünəməxsus xüsusiyyətləri, məqsədi, mahiyyəti təhlil olunmuşdur. Eyni zamanda, məqalədə varoluşçu terapiyada psizoterapevt-pasient münasibətlərinin əsas cəhətləri analiz edilmişdir.
***Açar sözlər:*** *varoluşçu terapiya, psixoterapevt, pasient, özünüdərketmə, psixoterapevt-pasient münasibətləri.*

**Аннотация.** Психотерапия – это процесс, связанный с психическим строением человека. В ходе психотерапии терапевты используют несколько подходов, одним из которых является экзистенциальный подход. В статье проанализировано возникновение экзистенциальной терапии, ее уникальные особенности, цель и сущность. При этом в статье проанализированы основные аспекты взаимоотношений психотерапевта и пациента в экзистенциальной терапии.
***Ключевые слова:*** *экзистенциальная терапия, психотерапевт, пациент, самосознание, отношения психотерапевт-пациент*

**Abstract.** Psychotherapy is a process related to the mental structure of a person. During psychotherapy, therapists use several approaches, one of which is the existential approach. The article analyzed the emergence of existential therapy, its unique features, purpose, and essence. At the same time, the article analyzed the main aspects of the psychotherapist-patient relationship in existential therapy.
***Keywords:*** *existential therapy, psychotherapist, patient, self-awareness, psychotherapist-patient relationship*

"Exsistentia" latınca "mövcudluq", "varoluş" deməkdir. Ekzistensial nəzəriyyə çoxəsrlik fəlsəfədir. Buraya şəxsi azadlıq və seçim daxildir. Bu fəlsəfi yanaşma insanların öz varlığının

mənasını özlərinin seçdiyini iddia edir. Avropalı filosof Soren Kierkegaard ekzistensial nəzəriyyənin ilk filosoflarından biri hesab olunur. Azadlıq mütəfəkkirləri adlandırılan Fridrix Nitsşe və Jan Pol Sartr bu nəzəriyyənin davamçılarıdır və onlar öz yanaşmaları ilə varoluşçu ideyaları inkişaf etdirmişlər. Bu filosoflar düşünürdülər ki, özünü dərk etmək və özünə hörmət etmək insanın şəxsiyyətini tanımaq üçün yeganə yoldur. Onlar şəxsi inkişafın gərəkli olduğuna inanırdılar, çünki hər şey daim dəyişir, həyat daima inkişaf edir. Yeganə sabit olan, insanın kim olmaq istəyi və kim olmaq istəyinə qərar vermək məsuliyyətidir. Varoluş fəlsəfəsinə görə, nə olacağımız böyük ölçüdə öz əlimizdədir, biz heç vaxt yaşadığımız şəraitin qurbanı deyilik.

Varoluşçu psixoterapiyanın təməli ekzistensial düşüncəyə əsaslanır. Ekzistensial fəlsəfənin üslubu olmadığı kimi, ekzistensial terapiyanın da üslubu yoxdur. İnsan varlığının mahiyyəti ilə maraqlanan bütün mütəfəkkirləri ekzistensialistlər adlandırmaq olar. Buna görə də bu mütəfəkkirlər arasında daha çox qəbul edilən müasir Avropa ekzistensialist mütəfəkkirləri ilə yanaşı qədim yunan mütəfəkkirləri də vardır.

Martin Heideggerin (1889-1976) varoluşçu psixoterapiya sahəsində önəmli fəaliyyətləri vardır. Heidegger psixoterapiya ilə maraqlanmasa da, onun varoluşçu düşüncəsi iki isveçrəli psixiatr Lüdviq Binsvanqer (1881-1966) və Medard Boss (1903-1990) tərəfindən qəbul edilmiş və pasientlərin problemlərini anlamaq üçün istifadə edilmişdir. Avstriyalı psixiatr Viktor Frankl (1995-1995) 20-ci əsrin ortalarında Avropa və Amerikada varoluşçu psixoterapiyanı yayan əsas nəzəriyyəçi hesab olunur. Nitsşenin "niyə yaşadığını bilən insan istənilən vəziyyətdə demək olar ki, hər şeyə dözə bilər" və "məni öldürməyən hər şey məni daha da gücləndirir" sözləri Franklın yanaşmasına misal olaraq göstərilə bilər. Ona görə, bu terapiyanın əsas məqsədi insanlara həyatın mənasını tapmağa kömək etməkdir. İsveçrədə psixiatrist R.D.Lainq (1927-1989) pasientlərinin problemlərini daha yaxşı başa düşmək üçün bəzi ekzistensial ideyalardan istifadə etdi. Varoluşçu psixoterapiyanın İsveçrədə inkişafına ən önəmli töhfə mütəfəkkir və psixoterapevt Emmi van Deurzen tərəfindən verilmişdir. O, varoluşçu psixoterapiya və konsultasiya üzrə ilk kursları yaratdı və 1998-ci ildə bu yanaşma ilə bağlı ilk kitabı nəşr etdirdi. Həmin il Emmi van Deurzen Ekzistensial Analiz Cəmiyyətini qurdu. Bu cəmiyyətə ekzistensial psixoloji məsləhət və psixoterapiya sahəsinə önəmli töhfələr verən praktik psixoterapevt və psixoloq Ernesto Spinelli rəhbərlik edirdi. Psixoloq Rollo Mey (1909-1994) "Varlıq" kitabının redaktorluğu ilə varoluçu ideyaların Amerikaya çatmasına şərait yaratdı. Frankl ilə birlikdə psixoloq R.Mey varoluşçu psixoterapiya konsepsiyasına əsaslanan humanist terapiya praktikasının formalaşmasına kömək etdi. Psixiatr İrvin Yalom varoluşçu psixoterapiyaya fəaliyyətləri ilə marağı artırdı. Son illərdə psixiatr İrvin Yalom varoluşçu psixodinamikanın dörd əsas parametrini açıqladı: ölüm, mənasızlıq, izolyasiya (təcrid), ən yaxşı seçim etmək üçün azadlıq və ya məsuliyyət.

İrvin Yalom tərəfindən varoluşçu psixoterapiya önəmli dərəcədə inkişaf etdirildi və dərinləşdirildi. O, ölümə məhkum insanlar və xərçəng xəstələri ilə işləyirdi. İ.Yalomun yanaşmasında vazkeçilməz şərt insanın öz ölümünü qəbul etməsinə münasibətdir, xüsusən də ölüm yaxın olduqda. Yalom varoluşçu terapiyanı insan davranışında dəyişikliklərə səbəb olan məhsuldar "qarşılıqlı təsir və bu qarşılıqlı təsirin əks olunması" kimi göstərirdi. Onun təcrübəsində səylər ilk növbədə xəstələrin yalnızlıq, ölüm, itirilmiş illərlə bağlı ekzistensial narahatlığı qəbul etməsinə, bunun pasient və terapevt tərəfindən "burada və indi" necə yaşandığını başa düşməsinə yönəldilir. Əksər hallarda bu proses güclü mənəvi dəyişikliklərə, keçmiş təcrübənin yeni aspektlərini dərk etməyə səbəb oldu.

Varoluşçu yanaşmanın ilk mərhələsi hər kəsin özünü dərk etmək qabiliyyətinə malik olmasıdır. Özünü dərk edən insan özünü ifadə edə və doğru seçim edə bilər. Özümüzü tanıdığımız dərəcədə mənəvi cəhətdən sağlam bir fərd oluruq. Onun üçün insan bu reallıqları anlamalıdır.

1. Biz ölümlü varlıqlarıq və həyatda istədiyimiz hər şeyi etməyə vaxtımız yoxdur.

2. Seçimlərimiz və davranışlarımız bizə aiddir, ona görə də taleyimizi idarə edə bilərik.

3. Həyatı mənalandırma fərdin özünəməxsusdur və onun öz səylərinin məhsuludur.

4. Varoluşçu narahatlıq həyatın hərəkətverici qüvvəsidir. Əlimizdə olan variantlar haqqın-

da məlumatlılığımızı artırdıqca, məsuliyyət hissi də artacaq.

5. Bütün insanların həyatı boyu yalnızlıq, mənasızlıq, boşluq, günahkarlıq və təcrid hissləri yaşaması təbiidir.

6. Başqa insanlarla münasibətdə olsaq da, əslində yalnızıq.

Bu təməllər əsasında şüurumuzu genişləndirmək və ya məhdudlaşdırmaq bizim öz azad iradəmizdən asılıdır.

Müasir dünyanın ən böyük problemi olan metropol həyat, insanın iş və emosional həyatının mənasızlaşması, mənasızlıq hissi varolmanın boşluğudur. 20-ci əsrdə baş verən müharibələr, soyqırımlar və insanlar üzərində dəhşətli təcrübələr bu problemləri daha da dərinləşdirdi. Varoluşçu terapiyanın məqsədi, insanları ağrı, sevgi, ümid və ümidsizlik kimi emosional vəziyyətlərdə məna və məqsəd tapmağa yönləndirməkdir.

İnsan daim yetkinliyə və müstəqilliyə doğru yönəlmək istəsə də, inkişaf prosesinin gətirdiyi məsuliyyətlərin təzyiqi altında əzilir. O, davamlı olaraq ailədən, mühitdən və toplumdan asılı olmağın verdiyi güvən və rahatlıq ilə böyümənin gətirdiyi gərginlik, məsuliyyət və üzərinə düşən vəzifələri arasında mübarizə içərisindədir.

Ekzistensial yanaşma "insan olmanın anlamı" anlayışı üzərində qurulmuşdur. Varoluşçuluq fərdlərə insan olmasından dolayı hiss edilən hörməti, insan davranışının yeni aspektlərinin araşdırılmasını və insanları müxtəlif anlama metodlarını dəstəkləyir. Özünü dünyadan təcrid olunmuş və yalnız hiss edən, bu yalnızlıqdan narahat olan insanlar varoluşçu yanaşmanın əsas hədəfidir.

Bu terapiyanın əsas məqsədi pasienti öz həyatı haqqında düşünməyə, müxtəlif alternativlərdən xəbərdar olmağa və onlar arasında qərar verməyə yönləndirməkdir. Birinci məqsəd pasientin öz məsuliyyətini qəbul edərək psixoloji problemlərin yaranmasındakı rolunu anlaması və bu vəziyyəti dəyişdirmək gücünə sahib olduğunu qəbul etməsidir. Pasientlər şəraitin və ətraf mühit amillərinin rolunu olduğu kimi qəbul etdikdə, həyatlarını şüurlu şəkildə formalaşdırmağa başlayırlar. Varoluşçu yanaşma pasientin həyatın mənası və dəyərini qavraması prosesidir. Ümumiyyətlə, varoluşçu terapiyanın məqsədi həyatın mənasını aydınlaşdırmaq, üzərində düşünmək və anlamaqdır. Yaşanılan problemlər ilə üzləşiləcək və sərhədlər müəyyənləşdiriləcəkdir. Terapevtin əsas vəzifəsi pasienti mənalı bir varoluş yaratmaq üçün variantları araşdırmağa yönləndirməkdir. İnsan heç vaxt içində olduğu şəraitin passiv qurbanı olmur. O, hər vəziyyətdən müsbət həll yolları tapmağı bacara bilən öz həyatının memarıdır.

Avropa ölkələrində varoluşçu terapiya geniş tətbiq olunur. Varoluşçu terapistlər diaqnostik meyarlardan istifadə etmir, insanları qruplaşdırmır və terapiya üçün gələn insanları müəyyən bir xəstəliyi olan pasientlər kimi görmürlər. Onlar pasientlərin gərginlik və problemlərinə hər kəsin qarşılaşa biləcəyi "həyati problemləri" kimi baxır. İnsan "psixoloji problem" yaşamır, o özü həyatında psixoloji gərginlik vəziyyət yaradır.

"Psixi sağlamlıq" deyilən vəziyyət varoluşçu yanaşmaya görə mümkün deyil. Qayğısız, stressiz və balanslı bir həyat üçün səylərimiz problemlərimizin qalıcı olmasına səbəb ola bilər. Problemlərimizlə üzləşməklə və seçimlərimizlə bağlı məsuliyyəti qəbul etməklə biz problemlərə, həyatın gətirdiyi gərginliklərə qarşı daha böyük nəzarət hissi əldə edirik. Təbii ki, həyatın sükanını öz əlinə almaq, onu idarə etmək ciddi cəsarət və qətiyyət tələb edir.

Varoluşçu terapist müalicə üçün konkret məqsədlər qoymaqda maraqlı deyil. İmkanları aktivləşdirmə varoluşçu terapiyanın ümumi məqsədi kimi ifadə edilə bilər. Pasientlər çox vaxt həyatlarının çərçivəyə alınmış və ya məqsədsiz olmasından şikayətlənirlər. Pasientlərin insanlararası münasibətləri zəif ola bilər, yaxud özlərini şəraitin və başqalarının qurbanı kimi görə bilərlər. Onlar həyatlarında dəyişiklik etmək ehtiyacı hiss etsələr də, bunu reallaşdırmaq üçün bir yol tapa bilmirlər. Pasientlər düşünə bilər ki, onların dəyişməsi mümkün deyil və özlərini küncə sıxışmış hiss edirlər. Reallıq budur ki, müalicə sayəsində pasientlər əvvəllər düşündüklərindən daha çox iradəyə malik olduqlarını anlayır və gələcəyi hər zaman dəyişmə ehtimalının olduğunu başa düşürlər. Bizim qarşılaşdığımız bir çox problemlərə baxmayaraq, hər zaman bu problemlərə necə reaksiya verməklə bağlı seçimimiz var. Terapiya zamanı pasientlər anlayır ki, həm indi, həm də keçmişdə, həm də gələcəkdə verəcəkləri qərarlara görə məsuliyyət daşıyırlar. Burada pasientlər seçimin asan olmadığını, seçim etməklə bir şeyə hə, digərinə isə

yox dediklərini və seçim etməməklə də seçim etdiklərini qəbul edirlər.

Varoluşçu psixoterapiyanın həm fərdi, həm də qrup formalarında ən çox diqqət psixoterapevt-pasient münasibətlərinin keyfiyyətinə verilir. Bu münasibətlər köçürmə (transfer) baxımından deyil, pasientlərin real vəziyyəti və hazırda pasientləri narahat edən qorxular baxımından nəzərdən keçirilir. Varoluşçu terapevtlər pasientləri ilə münasibətlərini varlıq, orijinallıq və öhdəlik kimi sözlərdən istifadə edərək təsvir edirlər. Fərdi varoluşçu terapiya iki real insanı əhatə edir. Varoluşçu psixoterapevt kabus kimi "reflektor" deyil, pasientin varlığını anlamağa və hiss etməyə çalışan bir insandır. R.Mey hesab edirdi ki, hər hansı bir psixoterapevt varoluşçudur, o, bilik və bacarıqlarına baxmayaraq pasient ilə eyni münasibəti qura bilir.

Varoluşçu psixoterapevtlər pasientlərə öz düşüncə və hisslərini aşılamır və əks-transferdən istifadə etmirlər. Bu, pasientlərin psixoterapevtlərlə əlaqə yaratmaq üçün müxtəlif üsullara müraciət edə bilmələri ilə bağlıdır ki, bu da onlara öz problemlərini həll etməyə imkan verir. Yalom gizli "infuziyaların" önəmindən danışır. Söhbət psixoterapiyanın həmin anlarından gedir ki, terapevt pasientlərin problemlərində təkcə peşəkar deyil, həm də səmimi, insani iştirakını göstərir və bununla da bəzən standart seansı dostca görüşə çevirir. Yalom araşdırmasında belə vəziyyətləri həm psixoterapevt, həm də pasient baxımından analiz edir. Beləliklə, o, pasientlərindən birinin onun xarici görünüşünə, baxışlarına və dediyi təriflərə kimi kiçik detallara nə qədər önəm verdiyini öyrənəndə heyrətə gəlir. O yazır ki, pasient ilə yaxşı münasibət qurmaq və bu münasibəti saxlamaq üçün psixoterapevtə təkcə vəziyyəti idarə etmək deyil, həm də qayğıkeşlik, müdriklik və psixoterapevtik prosesə mümkün qədər hakim olmaq bacarığı kimi keyfiyyətlər lazımdır. Psixoterapevtin pasient üçün güvənilən və maraqlı olması, ona qarşı mehriban davranması onların birgə səylərinin müsbət nəticələnəcəyinə səbəb olur.

Psixoterapevtin əsas məqsədi pasientin maraqlarına uyğun münasibətlər qurmaqdır, buna görə də psixoterapevtin öz fikirlərini açıqlaması varoluşçu psixoterapiyada əsas məsələlərdən biridir. Varoluşçu psixoterapevtlər öz düşüncələrini iki şəkildə açıqlayırlar. Birincisi, onlar öz pasientləri ilə varoluşla bağlı narahatlıqlarla barışmaq və ən yaxşı keyfiyyətlərini qorumaq cəhdləri barədə danışa bilərlər. Yalom çox nadir hallarda terapiyalarında öz düşüncələrini açıqlamaqda səhv etdiyini düşünür. O, "Qrup Psixoterapiyasının Nəzəriyyəsi və Təcrübəsi" əsərində qeyd edirdi ki, öz düşüncə və yanaşmalarını pasientləri ilə paylaşdığında onlar həmişə bu düşüncə və yanaşmalardan faydalanırlar. İkincisi, onlar seansın məzmununa diqqət yetirməkdənsə, psixoterapiya prosesinin özündən istifadə edə bilərlər. Terapevt-pasient münasibətlərini yaxşılaşdırmaq üçün "burada və indi" haqqında düşüncə və hisslərdən istifadə edilməlidir.

Bəlkə də bir terapevtin edə biləcəyi ən vacib müdaxilə susmaqdır. Çünki başqalarının dediklərini ancaq özümüz susanda eşidə bilirik. Eyni zamanda, varoluşçu terapevt pasientini və onların düşüncələrini sorğulamaqdan çəkinmir. Pasientdən nə yaşadıqlarını və nə dediklərini dəqiq ifadə etmələri istənilir. Pasientin həyata baxışını üzə çıxarmaq üçün terapevt pasientin dediyi hər fikrə aydınlıq gətirir. Əsas məqsəd budur ki, bu proses vasitəsilə pasient üçün vacib məqamlar üzə çıxsın.

Psixoterapevtik qrup seansları zamanı pasient A.-nın göstərdiyi davranışlara əsaslanaraq qrup üzvləri onu infantil kimi qiymətləndirirlər. O, fəallığını, öz üzərində işləmək, başqalarına kömək etmək istəyini nümayiş etdirir, hisslərini və emosiyalarını coşğun bir şəkildə ifadə edir və qrup müzakirəsinin istənilən mövzusunu həvəslə dəstəkləyirdi. Eyni zamanda, bunlar yarı qeyri-ciddi, yarı ciddi xarakter daşıyırdı ki, bu da onu daha dərindən təhlil etməyə imkan vermirdi. Bu cür "oyunların" ölümə yaxınlaşmaq qorxusu ilə bağlı ola biləcəyini irəli sürən psixoterapevt onun nə üçün təcrübəli yetkin qadın və ya kiçik qız olmağa çalışdığını soruşur. Onun cavabı bütün qrupu təəccübləndirir: "Mən balaca olanda mənə elə gəlirdi ki, nənəm mənimlə həyatın mənfilikləri, problemləri arasında dayanıb. Sonra nənəm öldü və onun yerinə anam keçdi. Sonra anam öləndə böyük bacım çətinliklərlə mənim aramda qaldı. İndi bacım uzaqda yaşayanda birdən anladım ki, artıq mənimlə həyatın probmlemləri arasında sədd qalmayıb, mən onunla üz-üzə dayanmışam, övladlarım üçün özüm də elə bir maneəyəm.

Varoluşçu terapevt pasientə öz yaşadıqlarını, təcrübəsini təhlil edib anlamaq üçün vaxt verir. Terapevt pasientlə özünü ifadə etmək üçün güvənli münasibət qurmağa çalışır. Terapevtin məqsədi pasient üçün həyatın nə demək olduğunu anlamaq və pasientin yaşadıqlarına soyuqqanlı münasibəti təmin etməkdir. Bu proses vasitəsilə pasient özü haqqında mənfi düşüncələrini təhlil etməyə başlayır, nəticədə əvvəllər düşündüyündən daha çox imkanlara sahib olduğunu anlayır və özünə qarşı məsuliyyətlərini qəbul edir. Psixoterapevt pasient üçün yaxşı olacağını düşündüyü bütün düşüncələri bir kənara qoyur, çünki hər hansı dəyişikliklə bağlı qərar vermək hüququ pasientə məxsusdur.

**Problemin aktuallığı.** Varoluşçu terapiya günümüzdə metropol həyatın gətirdiyi yalnızlıq, sosial təcrid, yadlaşma, həyatın mənasızlığı və monoton həyatın dilemmalarını həll etmək məqsədi daşıyır. Varoluşçu psixoterapiya istiqamətinin mahiyyətini bilmək, terapevt və pasient münasibətlərinin xüsusiyyətlərindən xəbərdar olmaq günümüzün mütəxəssisləri, eyni zamanda gələcək mütəxəssislər üçün aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, məqalədə ekzistensial psixoterapiyanın mahiyyəti açıqlanmış, elmi mənbələrə əsasən ümumiləşdirmələr aparılmış və problemlə bağlı elmi yanaşmalar irəli sürülmüşdür.

Məqalədə irəli sürülən fikir və mülahizələrdən ali məktəblərin uyğun ixtisaslarında təhsil alan tələbələrin faydalanmaları və gələcək praktik fəaliyyətlərində nəzərə almaları, eləcə də psixoterapiya sahəsində çalışan mütəxəssislərin problemlərin varoluşçu terapiya yolu ilə həlli imkanına sahib olmaları **məqalənin praktik əhəmiyyətini** təşkil edir.

**Ədəbiyyat:**

1. Əliyev R.İ. Psixologiya tarixi.- Bakı. 2006.
2. Бурлачук Л.Ф. Психотерапия. -Питер, 2012.
3. Романин А.Н. Основы психотерапии. Учебное пособие. -Москва,1997.
4. Yalom İ.D. Varoluşçu Psikoterapi. -Ankara, 2018.
5. Frankl V.E. İnsanın anlam arayışı. -İstanbul, 2019.

**Email:**solmazhasanli@hotmail.com
**Redaksiyaya daxil olub:** 09.09.2024.

*UOT 159.9*

***Tünzalə Rəcəf qızı Musayeva***
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun*
*Sosial psixologiya şöbəsinin böyük elmi işçisi,*
*psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0003-3074-5364*
*https://doi.org/10.69682/arti.2024.91(5).209-212*

# İDARƏETMƏ PROSESİNDƏ SOSİAL-PSİXOLOJİ İQLİM

***Тунзала Раджаф гызы Мусаева***
*старший научный сотрудник отдела социальной психологии*
*Института Философии и Социологии НАНА,*
*доктор философии по психологии*

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ КЛИМАТ В ПРОЦЕССЕ УПРАВЛЕНИЯ

***Tunzala Rajaf Musaeva***
*senior researcher of the department of Social psychology at the Institute*
*of Philosophy and Sociology of ANAS*
*doctor of philosophy in psychology*

# SOCIO-PSYCHOLOGICAL CLIMATE IN THE MANAGEMENT PROCESS

**Xülasə.** Məqalə idarəetmə fəaliyyətində psixoloji mühitin öyrənilməsinə həsr olunmuşdur. İşçilərin emosional vəziyyətinə, motivasiyasına və davranışlarına təsir edən qarşılıqlı əlaqəli amillərin məcmusu araşdırılır. Xüsusilə qeyd olunur ki, psixoloji iqlim həmkarları, rəhbərliyi və tabeliyində olanlar arasında münasibətləri müəyyən edir, onların etimad səviyyəsini müəyyənləşdirir.
***Açar sözlər:*** *idarəetmə, psixologiya, fəaliyyət, psixoloji iqlim, kollektiv*

**Аннотация.** Статья посвящена исследованию психологического климата в управленческой деятельности. Исследуется совокупность взаимосвязанных факторов, влияющих на эмоциональное состояние, мотивацию и поведение сотрудников. Особо отмечается, что психологический климат определяет отношения между коллегами, руководством и подчиненными, определяет уровень их доверия.
***Ключевые слова:*** *управление, психология, деятельность, психологический климат, коллектив*

**Abstract.** The article is devoted to the study of the psychological climate in management activities. A set of interrelated factors affecting the emotional state, motivation and behavior of employees is investigated. It is especially noted that the psychological climate determines the relationship between colleagues, management and subordinates, determines the level of their trust.
***Keywords:*** *management, psychology, activity, psychological climate, collective*

Müasir idarəetmə fəaliyyəti son dərəcə mürəkkəb, çoxaspektli sosial proses olub, müxtəlif səviyyələri, altsistemləri, bölmələri əhatə edir. Təsadüfü deyildir ki, son illərdə idarəetmə fəaliyyətinin ayrı-ayrı aspektlərinə müxtəlif bilik sahələrinin marağı getdikcə artır. Bu baxımdan qeyd edilməlidir ki, idarəetmə problemlərini araşdıran tədqiqatçılar idarəetmə prosesində, onun nizamlanmasında sosial-psixoloji məqamlara xüsusi diqqət yetirirlər. İndiki şəraitdə həmin məqamlara diqqətin artması tamamilə məqsədəuyğundur. İlk növbədə, idarəetmə fəaliyyəti müxtəlif keyfiyyətləri, o cümlədən sosial-psixoloji keyfiyyətləri olan insanlarla iş aparılmasını nəzərdə tutur. Müasir elmi-texniki tərəqqi və ictimai həyatda baş verən ciddi dəyişikliklər işçilərin dünyagörüşünə, əhval-ruhiyyəsinə, davranışına, fəaliyyətinə özünəməxsus

şəkildə təsir göstərir, bir sıra hallarda sosial-psixoloji gərginlik məqamlarını artırır. Tədqiqatlar göstərir ki, idarəetmənin səmərəliliyini yüksəltməyin mühüm istiqamətlərindən biri məhz kadrların, işçilərin sosial-psixoloji xüsusiyyətlərinin nəzərə alınmasıdır. İdarəetmə kimi mürəkkəb və ziddiyyətli prosesdə insan amilinin fəallaşdırılması kompleks problem kimi ən müxtəlif aspektlərin, o cümlədən sosial-psixoloji aspektlərin rolunu gücləndirir. Nəhayət, insanların sosial-psixoloji keyfiyyətləri birdəfəlik müəyyənləşmiş, dəyişilməz, nüfuzedilməz fenomen deyildir. Onların ictimai maraqlara və tələbatlara uyğun tərzdə formalaşdırılması və təkmilləşdirilməsi olduqca vacibdir [2]. Bu baxımdan sağlam əsaslarda qərarlaşan idarəetmə fəaliyyəti canlı nümunələr təqdim edə bilər, şüurlu və məqsədyönlü tənzimləmə imkanlarını artıra bilər.

Sosial idarəetməni həm münasibətlər sistemi kimi, həm də qarşılıqlı fəaliyyət forması kimi nəzərdən keçirmək olar. Birinci halda sosial ierarxiya, nəzarətin, hakimiyyətin diapazonu, status, rol və s. nəzərdə tutulur. İkinci halda isə söhbət nəzarət metodlarından, səlahiyyətlərin necə bölüşdürülməsindən, rəqabətdən, irəliləmədən, liderlikdən, münaqişələrdən və s. gedir ki, bunları da idarəetmənin dinamikası adlandırmaq olar [6]. Hər iki halda təzahür edən hadisə və proseslərin hətta az bir hissəsini nəzərə alsaq, deyə bilərik ki, sosial-psixoloji məsələlər idarəetmə prosesinin çox vacib xarakteristikası qismində nəzərdən keçirilməlidir. Belə ki, insanları bilmək səmərəli idarəetmə fəaliyyətinin əsasıdır, zəminidir. İnsanlarla işləməyi bacarmaq əslində menecerin, rəhbər şəxsin çox mühüm keyfiyyətidir. Müasir şəraitdə – bazar münasibətlərinin və strukturlarının möhkəmləndiyi bir şəraitdə yeni işgüzar qarşılıqlı münasibətlərin, qarşılıqlı surətdə bir-birini dərk etmək məsələlərinin rolu daha da artır. İnsanların psixologiyasını hərtərəfli, dərindən öyrənmədən onların təbii imkanlarının zənginliyini, mənəvi, intellektual və fiziki potensialını yetərincə dərk etmək, onlarla işləməyin perspektivlərini aydın görmək sadəcə olaraq mümkün deyildir. Qarşılıqlı dərketmə özünüdərketmə problemini xüsusilə aktuallaşdırır. Çox zaman özünüdərketmə başqa insanları qiymətləndirməkdən çətin olur. Özünə ətrafdakı adamların gözü ilə baxmağı bacarmaq özünüdərketmədə prinsipal əhəmiyyətə malikdir, bu, başqaları üçün başa düşülən olmağımıza kömək edən (və ya mane olan) məziyyətləri (nöqsanları) aydın görməyimiz üçün xüsusi əhəmiyyət kəsb edir.

Mürəkkəb idarəetmə fəaliyyətində müxtəlif aspektlərin, o cümlədən sosial-psixoloji aspektlərin uğurla əlaqələndirilməsi və getdikcə optimallaşdırılması mühüm nailiyyətlərə yol açan başlıca istiqamətlərdən biri olaraq qalır. Ayrı-ayrı müəssisə və təşkilatlarda normal sosial-psixoloji mühitin olmaması ciddi gərginliyin mövcudluğuna dəlalət edir. Belə şərait işçilərə mənfi təsir göstərir, onların fəaliyyətinin pisləşməsinə, əhval-ruhiyyəsinin korlanmasına gətirib çıxarır. Nəticədə əmək məhsuldarlığı zəifləyə və işin bir sıra parametrlər üzrə göstəriciləri pisləşə bilər. Belə hallarda vəziyyətin nizamlanmasına ciddi ehtiyac yaranır.

Nizamlanma prosesində idarəetmə aparatının təşkilinə, menecerlərin, ümumiyyətlə, idarəetmə işçilərinin seçilməsinə və yerləşdirilməsinə xüsusi diqqət yetirilməlidir. Təsadüfi deyildir ki, mütəxəssislər işçi heyətin idarə olunmasında kompleks amillərin fəaliyyətini xüsusi olaraq vurğulayırlar. Məsələn, A.İ.Koçetkova işçi heyətin idarə olunmasının psixoloji əsaslarını araşdıraraq belə qənaətə gəlir ki, kol-lektivlərin mənəvi-psixoloji iqlimini yaxşılaşdırmaq üçün əvvəlcə mövcud iqlimin vəziyyəti real qiymətləndirilməli, sonra isə işçi heyətin idarə olunması sistemi səmərəli qurulmalıdır. Bu halda münaqişələrin idarə olunması diqqətdə saxlanılmalıdır [8].

Qeyd edək ki, idarəetməyə dair ilk əsərlərdə adətən təşkilatın ahəngdar fəaliyyətinin əhəmiyyəti nəzərə çapdırılırdı. Təşkilatdaxili münaqişələr son dərəcə neqativ hadisə kimi qiymətləndirilirdi. Müasir şəraitdə isə idarəetmə nəzəriyyəçiləri etiraf edirlər ki, təşkilat daxilində münaqişənin olmaması nəinki mümkünsüzdür, həm də arzuolunmazdır. Münaqişə disfunksional olduqda şəxsi məmnunluğun, qrup əməkdaşlığının, təşkilatın effektivliyinin aşağı düşməsinə gətirib çıxarır. Lakin münaqişə funksional olub, təşkilatın fəaliyyətinin səmərəliyini də şərtləndirə bilər. Bir sıra hallarda münaqişə müxtəlif nöqteyi-nəzərləri, alternativləri və ya problemləri üzə çıxarmağa kömək edir, əlavə informasiya əldə edilməsinə imkan yaradır. Deməli, münaqişənin rolu əsasən onun nə dərəcədə

səmərəli idarə olunmasından asılıdır. Adətən müəssisə və təşkilatlarda münaqişələr şəxsiyyətlər arasında, şəxsiyyətlə qrup arasında, habelə qruplar arasında təzahür edir [7].

İdarəçilik fəaliyyətində psixoloji amillər insanların sosial hadisələri düzgün qiymətləndirməsini asanlaşdırır. Onların təsir gücü isə idarəetmə aparatının düzgün təşkil edilməsindən, menecerlərin və digər idarəçilik işçilərinin seçilib yerləşdirilməsi səviyyəsi ilə müəyyən olunur. Bu göstəricilərin yüksək olduğu kollektivlərdə işçilərin səmərəli fəaliyyətini təmin etmək mümkün olur. Məlum kollektivin rəhbər işçiləri yüksək psixoloji keyfiyyətlərə malik olduqda, həmin keyfiyyətləri tabeçilikdə olan işçilərdə formalaşdırmağa cəhd göstərirlər. Müasir elmi-texniki tərəqqi sayəsində idarəetmədə də mühüm dəyişikliklər baş verir, əmək prosesi daha mürəkkəb xarakter kəsb edir. Eyni zamanda bu cür əməyin insanların psixi vəziyyətinə təsiri də güclənir, nəticədə onların psixi cəhətdən yüklənməsi, əsəb gərginliyinin və zehni fəaliyyətin çoxalması müşahidə olunur.

Nəzərə alınmalıdır ki, avtomatlaşdırılmış və yüksək səviyyədə mexanikləşdirilmiş istehsal şəraitində işçilər öz vəzifələrini yerinə yetirərkən böyük həcmdə informasiya alır, onu yenidən işləyir və müvafiq yerlərə çatdırmalı olurlar. Belə vəzyiyyətdə psixoloji keyfiyyətlərin rolu və əhəmiyyəti də artır. Təsadüfi deyildir ki, rəhbər işçinin, menecerin öz tabeliyində olan işçilərin psixoloji xüsusiyyətlərini və imkanlarını lazımi qədər bilmədiyi və nəzərə almadığı hallarda iş yerlərində qəza halları və keyfiyyətsiz məhsul buraxılışı baş verir. Bu o deməkdir ki, kollektivdəki işçilərin psixoloji, fizioloji və ümumi intellektual göstəricilərini bilmək çox vacibdir. Belə olduqda onların fəaliyyətini səmərəli idarə etmək olar. İdarəetmə prosesində psixoloji iqlimin əsas komponentləri - güvən və dəstək; açıq fikirlilik və ünsiyyət; stress və gərginlik səviyyəsi; inkişaf və irəliləmə imkanları; tanınma və mükafatlandırma hesab olunur [5].

Sosial-psixoloji iqlim uğurlu əmək kollektivinin formalaşmasında mühüm rol oynayır. Kollektiv daxilindəki atmosferi müəyyənləşdirir, üzvləri arasındakı münasibətlərə, həmçinin işin səmərəliliyinə təsir göstərir. Sosial-psixoloji iqlimə işçilər arasındakı münasibətlər, qarşılıqlı etimad və dəstək səviyyəsi, qərar qəbuletmə dərəcəsi, ünsiyyət səviyyəsi və münaqişə və ya işçi münasibətlərinin şiddəti kimi müxtəlif aspektlər daxildir. Müsbət sosial-psixoloji iqlim səmərəli ünsiyyətə, komandadakı problemlərin həllinə, işçilər arasında qarşılıqlı anlaşmaya və dəstəyə kömək edir. Güclü və vahid bir komandanın formalaşmasına kömək edir, burada hər bir üzv özünü vacib və dəyərli hiss edir, buna görə də bütün qrupun xeyrinə işləməyə hazırdır. Mənfi sosial-psixoloji iqlim, əksinə, qrupun uğurlu işinə mane ola bilər. Münaqişələrə, inamsızlığa və təsirsiz ünsiyyətə səbəb ola bilər. İşçilərin psixoloji rifahı onların məhsuldarlığına, iş keyfiyyətinə, təşkilata sadiqliyinə və əməkdaşlığa hazırlığına müsbət təsir göstərir. Müsbət psixoloji iqlimdə olan işçilər tez-tez yüksək effektivlik və əməkdaşlığa meyl nümayiş etdirirlər. Əksinə, mənfi psixoloji iqlim işçilərin motivasiyasını ciddi şəkildə azalda bilər. Belə bir şəraitdə işçilər tez-tez stress yaşayır, onlar öz vəzifələrini tam yerinə yetirə bilmirlər və tez-tez münaqişələrə meyilli olurlar. Mənfi psixoloji iqlimdə olan işçilər tez-tez öz işlərindən etibarsızlıq və narazılıq hissləri yaşayırlar ki, bu da məhsuldarlığın azalmasına səbəb ola bilər. Buna görə də kollektivdə işçilərin motivasiyasına töhfə verəcək müsbət psixoloji iqlimin yaradılması vacibdir. Bunun üçün qrup və ya kollektivdə rahat atmosfer və əməkdaşlıq təmin edilməli, həmçinin işçilərin karyera məqsədlərinin inkişafı və nail olunması üçün şərait yaradılmalıdır. Bu da öz növbəsində qrupdakı stress və münaqişə səviyyələrini azaldır, sağlam və təsirli bir iş mühiti yaratmağa kömək edir.

**Problemin aktuallığı.** Sosial-psixoloji iqlim hər bir işçinin və bütövlükdə bütün kollektivin rifahına təsir göstərir. Qrupda əlverişli mühitin yaradılması həm rəhbərlikdən, həm də qrup üzvlərindən asılıdır. Əlverişli sosial-psixoloji iqlimdə işçilərin iş potensialı artır və buna görə də təşkilat planlaşdırılan nəticələrə daha tez nail olur.

**Problemin yeniliyi.** İdarəetmə prosesində sosial-psixoloji iqlim öyrənilmiş, işçilərin emosional vəziyyətinə, motivasiyasına və davranışlarına təsir edən qarşılıqlı əlaqəli amillərin məcmusu göstərilmiş və sosial-psixoloji iqlimin insanların psixoloji rifahına təsiri müəyyən olunmuşdur.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar üçün faydalı ola bilər.

**Ədəbiyyat:**


1. Babayeva, L.R. İdarəetmə psixologiyasında ünsiyyət amilinin rolu. // - Bakı: Bakı Dövlət Universiteti, Psixologiya jurnalı, - 2012, - №4, - s.59-67
2. Quliyeva Ş.T. İdarəetmə psixologiyası və sosiologiyası. / Ş.T. Quliyeva. - Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, - 2018. - 222 s.
3. Məmmədov F. "İdarəetmə mədəniyyəti" Xarici ölkələrin təcrübəsi. / F. Məmmədov. – Bakı: "Apostrof" Çap Evi, -2012. - 671
4. Лымарева О.А. Социально-психологический климат, как один из важных факторов влияния на удовлетворенность трудом и мотивацию персонала. / О.А. Лымарева, Н.М. Пирогов // Экономика и бизнес: теория и практика, – 2016. – №11. – С. 45-50.
5. Грядовой Д.И., Кикоть В.Я. Социальное управление. Теория, методология, практика / Д.И. Грядовой, В.Я. Кикоть // Юнити-Дана, 2012 г. – 312 с.
6. https://sushica.ru/sut-psixologiceskogo-klimata-kursovoi/
7. https://scienceforum.ru/2016/article/2016018843
8. https://moluch.ru/archive/285/64309/


**E-mail:** tunzala.rm@gmail.com

**Redaksiyaya daxil olub:** 10.09.2024.

*UOT 159.9*

***Gültəkin İbrət qızı İsmayılova***
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun*
*Sosial psixologiya şöbəsinin böyük elmi işçisi,*
*psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0001-7740-321X*
*https://doi.org/10.69682/arti.2024.91(5).213-216*

# İNFORMASİYA CƏMİYYƏTİ ŞƏRAİTİNDƏ İCTİMAİ RƏYİN FORMALAŞDIRILMASI

***Гюльтекин Ибрат гызы Исмаилова***
*старший научный сотрудник отдела социальной психологии*
*Института Философии и Социологии НАНА,*
*доктор философии по психологии*

# ФОРМИРОВАНИЕ ОБЩЕСТВЕННОГО МНЕНИЯ В УСЛОВИЯХ ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА

***Gultakin Ibrat Ismayilova***
*senior researcher of the department of Social Psychology*
*Institute of Philosophy and Sociology of ANAS,*
*doctor of philosophy in psychology*

# FORMATION OF PUBLIC OPINION IN THE CONDITIONS OF INFORMATION SOCIETY

**Xülasə.** Məqalə müasir informasiya cəmiyyətində ictimai rəy fenomeninin öyrənilməsinə həsr edilmişdir. İnformasiya cəmiyyətində ictimai rəyin əsas xüsusiyyətlərinin müəyyənləşdirilməsi kütləvi kommunikasiyaların öyrənilməsi yolu ilə həyata keçirilir. İctimai rəyin formalaşması prosesi məlumatın təfsirinə təsir edən müxtəlif amillərin kompleks qarşılıqlı əlaqəsini əhatə edir
***Açar sözlər**: kütləvi şüur, analitik nəticə, sosial qrup, informasiya müharibəsi, manipulyasiya*

**Аннотация.** Статья посвящена изучению феномена общественного мнения в современном информационном обществе. Выявление основных особенностей общественного мнения в информационном обществе осуществляется путем изучения массовых коммуникаций. Процесс формирования общественного мнения предполагает сложное взаимодействие различных факторов, которые влияют на интерпретацию информации.
***Ключевые слова:** массовое сознание, аналитический вывод, социальная группа, информационная война, манипуляция*

**Abstract.** The article is devoted to the study of the phenomenon of public opinion in modern information society. Identification of the main characteristics of public opinion in the information society is carried out by studying mass communications. The process of public opinion formation involves a complex interaction of various factors that affect the interpretation of information
***Keywords:** mass consciousness, analytical result, social group, information war, manipulation*

İctimai rəy sosial-siyasi sferada əksəriyyət tərəfindən paylaşılan mühakimələr şəklində və kollektiv davranış nümunələrdə reallaşan psixoloji, sosial-psixoloji və sosial amillərin mürəkkəb qarşılıqlı təsirinin nəticəsidir. "İctimai rəy" anlayışının məzmununu dəqiq ifadə etmək bir sıra çətinliklər doğurur. Əsas çətinlik fenomenin daxili quruluşunun mürəkkəbliyindədir, təhlil zamanı bir çox fərqli aspektləri nəzərə almaq və onları yekun tərifdə dəqiqləşdirmək lazımdır.

İctimai rəy cəmiyyətdə böyük sosial əhəmiyyət kəsb etsə də, onun müxtəlif ictimai sistemlərdə rolu və əhəmiyyəti birmənalı deyil. Buna hələ keçmiş əsrlərin mütəfəkkirləri diqqət yetirərək, ictimai rəyin tarixi proses subyektlərinin fəaliyyətinə fəal təsirini vurğulayırdılar. İctimai rəyin ilk təriflərindən birini alman filosofu Hegel "Hüquq fəlsəfəsi" əsərində verib. Hegel ictimai rəyi "gerçəkliyin düzgün meyllərini" əks etdirən və bir çoxunun xüsusi fikri ilə əlaqəli olan "universal, əsas və doğru" kimi şərh edir. Heqel ictimai rəyin bir sıra struktur elementlərini ayırır: ictimai rəyin mövcudluğu şərtləri; ictimai rəyin obyekti (məzmunu); ictimai rəyin daşıyıcısı; ictimai rəy kimi çıxış edən mühakimənin xarakteri; "ümumi" və "xüsusi" fikirlərin nisbəti, həqiqət və yalanın ictimai rəydə birləşməsi və əksi [3].

Məlumat əldə etmək asanlığı və sosial mediada özünü ifadə etmək qabiliyyəti cəmiyyətin daha çox qütbləşməsinə səbəb ola bilər. İnformasiya cəmiyyəti şəraitində ictimai rəyi idarə etmək daha çətindir, çünki fərqli məlumat mənbəyi mövcuddur və insanlar fikirlərini başqaları ilə asanlıqla paylaşa bilərlər. İctimai rəyin təzahürü sahəsi siyasət, iqtisadiyyat, hüquq, elm, mənəviyyat, mədəniyyət, din və ictimai həyatın digər tərəfləridir. Bu fenomenin hərtərəfli öyrənilməsi onun əsas əlamətlərini müəyyən etmişdir: ictimai rəy müxtəlif ictimai problemlər üzrə ya razılıq mövqeyini, ya da qınama mövqeyini ifadə edir, baş verən hadisələrə münasibət bildirir; ictimai rəy konkret vəziyyətə və ya məsələyə aiddir; ictimai rəy yalnız ictimaiyyətin real vəziyyəti əks etdirən və ya gerçəkliyi təhrif edən informasiyaya çıxışı olduqda yaranır; ictimai rəy daimi ola bilməz, vaxt keçdikcə dəyişilir. İnsanlar həmişə rasional düşünmürlər: mühakimələrində və hərəkətlərində duyğu, qərəz və stereotipləri rəhbər tuta bilərlər [6].

Cəmiyyətin vəziyyətinin inteqrativ göstəricisi kimi ictimai rəy sosial sistemin təşkili və sabitlik dərəcəsini əks etdirir, sosial dəyərlər sisteminin təhlili yolu ilə empirik şəkildə qeydə alınır. Onun daxili məzmunu, dolğunluğu nəsillərin psixoloji və sosial təcrübəsi, tarixi-mədəni mühit, dərin arxetiplər vasitəsilə ötürülən norma və dəyərlər sistemi ilə müəyyən edilir. İctimai rəy müxtəlif mənşəli hadisələrin birləşməsidir. Təhlil apararkən bütün elementləri nəzərə almadan hadisənin bir tərəfini interpretasiya etmək qeyri-mümkün olur, çünki tarixi zaman kəsiyində ictimai şüurun konkret vəziyyəti özünü aydın şəkildə göstərir. O, diqqəti müəyyən tərəflərə, mövcudluq proseslərinə yönəldir. İctimai rəyin məzmunu bu proseslərin dərk edilməsinin, sosial qrupun, ümumiyyətlə xalqın mənafeləri nöqteyi-nəzərindən qiymətləndirilməsinin göstəricisidir.

İctimai rəyin sosial nəzarət, ekspressiv, məsləhət və direktiv funksiyalarını qeyd etmək olar: 1. sosial nəzarətçi kimi, ictimai rəy hökumət qərarlarının qəbul edilməsinə və yerinə yetirilməsinə nəzarət edə, onların həyata keçirilməsinə kömək edə və ya ləngidə bilər; 2. Ekspressiv funksiya —cəmiyyətin həyatının faktlarına və hadisələrinə münasibətdə mövqeyin ifadəsidir; 3. məsləhət funksiyası - ictimai rəy bu və ya digər sosial, iqtisadi, siyasi, ideoloji, dövlətlərarası problemlərin həlli yolları barədə məsləhətlər verir. Cəmiyyətdə məsləhət funksiyası geniş şəkildə həyata keçirilir, əhali arasında aparılan sorğuların nəticələri cəmiyyət tərəfindən bu və ya digər problemlərin həlli yollarını seçmək üçün istifadə olunur. İctimai rəy müxtəlif mövqelərin zəif və güclü tərəflərini üzə çıxarmaqla cəmiyyətdə düşünülmüş qərarlar qəbul etməyə məcbur edir; 4. direktiv funksiya ondan ibarətdir ki, ictimaiyyət sosial həyatın bu və ya digər problemləri üzrə, məsələn, seçkilər, referendumlar zamanı xalqın iradəsi ilə imperativ xarakter daşıyan qərarlar qəbul edir. Bu funksiyanın həyata keçirilməsi bir çox şəraitdən asılı olduğundan, heç də birmənalı deyil. Referendum keçirilməsi zamanı xalqın iradəsi nümunə ola bilər [4].

Eyni zamanda ictimai fikirin məzmunundan asılı olaraq qiymətləndirici, analitik, konstruktiv və tənzimləyici rəyləri ayıra bilərik. Qiymətləndirici rəy bu və ya digər problemlərə və ya faktlara münasibət bildirir. Burada analitik nəticələrdən daha çox emosiyalar var. Analitik və konstruktiv ictimai rəy bir-biri ilə sıx bağlıdır: hər hansı qərarın qəbul edilməsi dərin və hərtərəfli təhlil tələb edir, lakin məzmununa görə analitik və konstruktiv fikirlər üst-üstə düşmür. Tənzimləyici ictimai rəy qanunla yazılmamış normaların, prinsiplərin, ənənələrin, adətlərin və s. bütöv bir məcmuəsi ilə təsir edir. Müsbət və ya mənfi fikirlər formasında çıxış edən ictimai rəyin strukturunu ona xas olan mərhələlərin ardıcıl dəyişməsi şəklində təsəvvür etmək olar. Mərhələlərin belə bir dəyişməsi onun dina-

mik quruluşudur. İctimai rəyin dinamik strukturu aşağıdakı mərhələləri əhatə edir:

▪ 1-yaranma: böyük bir qrup insanın problemə olan marağının geniş bir təzahürü və məlumatların aktiv axtarışı ilə xarakterizə olunur. Bir insanın fikirlərini ifadə etmək, qiymətləndirmə, digər insanlar ilə mübadilə etmək ehtiyacı yaranır;

▪ 2-formalaşma: insanlar, qruplar arasında fikir mübadiləsi aparılır, nəticədə eyni fikrə malik böyük ictimai qruplar formalaşır. Həmfikir və əks nöqteyi-nəzərdən olan insanların axtarışı və birləşməsi baş verir. Bu proses həm kortəbii, həm də tam şüurlu baş verir;

▪ 3-fəaliyyət: lider rəy ortaya çıxır, qanuniləşdirilir, dövlət orqanları tərəfindən istifadə olunur, problem diqqət mərkəzində qalır, bu fikir aydın şəkildə ifadə edilir;

▪ 4-tənəzzül: bu mərhələdə insan kütləsinin problemə olan marağının azalması, fikir qarşıdurmasının kəskinliyi itirilir, qrupların sosial tərkibi daralır, lakin problemin özü də maraq doğurur;

▪ 5-dəyişmə: ictimai rəyin keyfiyyətinin dəyişməsi baş verir, kütləvi şəkildə bu, ayrı-ayrı insanların və ya qrupların müxtəlif mühakimələrinə çevrilir, problem aktuallığını itirir, onun haqqında artıq danışılmır [7].

Xüsusi vurğulamaq lazımdır ki, ictimai rəy yalnız bir sıra şərtlər yerinə yetirildikdə, yəni insanların sosial maraqları olduqda yaranır. Mühüm praktiki əhəmiyyətə malik, insanların iqtisadi, siyasi, mənəvi maraqlarına toxunan problemlər daimi maraq mərkəzindədir. İctimai rəy mübahisə, diskussiya şəraitində yarana bilər, cəmiyyətin müxtəlif problemlərinə dair inkişafın müxtəlif mərhələlərində ola biləcək bir neçə ictimai fikir mövcud ola bilər. Kütləvi informasiya vasitələri tərəfindən ictimai şüur müxtəlif növ manipulyasiyalara məruz qalır. Bu halda insanların gizli idarə olunması məqsədi ilə informasiyanın qəsdən təhrif edilməsi nəzərdə tutulur. İctimai rəyə təsir etməyin manipulyativ xarakteri kütləvi şüurun siyasi maraqlar naminə idarə edilməsi cəhdindən irəli gəlir. Bu mövzu müasir dünyada informasiya-psixoloji müharibələr çərçivəsində aktuallıq kəsb edir. İnformasiya qarşıdurmasında iştirak edən ölkələr rəqib ölkənin ictimai rəyini idarə etməyə, yaxud, əhalini çaşdırmağa çalışırlar. Bu hallar informasiya müharibəsinin bir hissəsi kimi müasir siyasi kommunikasiyaların ictimai münasibətlər sisteminə də daxil olmuşdur [2].

Beləliklə, bir tərəfdən, manipulyasiya mexanizminin ictimai rəylə işə salınması sosial əhəmiyyətli informasiyanın axtarışı və istehlakını aktivləşdirir, digər tərəfdən isə müxtəlif manipulyasiyalar məqsədi ilə informasiyanın ictimai şüura transformasiyasına yol verilir. Kütləvi informasiya vasitələri, ictimai şüurun formalaşması amili kimi, subyektiv mövqedən dərk olunan informasiya vasitəsilə dünyanın mənzərəsini əks etdirir. Yeni dövr - qlobal sivilizasiyamızın inkişafında hər bir insana, şəxsiyyətinə aid olan müəyyən bir mərhələdir. İctimai rəyin obyektiv mövcudluğu sosial tənzimləmə prosesində kütləvi qiymətləndirmə və praktik fəaliyyətdə özünü göstərir. Bu baxımdan, ictimai rəy kollektiv psixologiyaya xas bir fenomen olaraq ictimai şüurun bir atributu, təzahür formalarından biri kimi çıxış edir. Ümumiyyətlə, informasiya cəmiyyətində ictimai rəyin formalaşması mürəkkəb, daim dəyişən prosesdir və bu prosesə təsir edən amilləri bilmək ictimaiyyətlə səmərəli qarşılıqlı əlaqə yaratmağa imkan verir.

**Problemin aktuallığı.** İctimai rəyin necə formalaşdığını anlamaq vətəndaşlara qərar qəbul etməkdə daha fəal iştirak etməyə, maraqlarını müdafiə etməyə və ölkənin siyasi həyatına təsir göstərməyə imkan verir.

**Problemin yeniliyi.** İnformasiya cəmiyyətində ictimai rəyin formalaşmasının öyrənilməsində elmi yenilik informasiya texnologiyalarının inkişafı və sosial proseslərin dəyişməsi ilə əlaqədar yaranan yeni çağırışlara cavabların daim axtarılmasıdır.

**Problemin praktik əhəmiyyəti.** Daha balanslı qərarlar qəbul etməyə, səmərəli ünsiyyət qurmağa və cəmiyyətdə baş verən sosial prosesləri daha dərindən anlamağa imkan verir.

**Ədəbiyyat:**

1. Грачев, Г.В. Информационно – психологическая безопасность личности: состояние и возможности психологической защиты. / Г.В. Грачев. -Москва.: Изд-во РАГС, - 1998 - 125 с. http://licman.narod.ru/books/psychology/01/gratchov.htm
2. Непомнящий А. В. Психология в обеспечении информационной безопасности личности и общества // - Москва.: Известия ЮФУ. Технические науки, - 2005. №7. с. 1-7

file:///C:/Users/Acer/Downloads/psihologiya-v-obespechenii-informatsionnoy-bezopasnosti-lichnosti-i-obschestva.pdf

3. Липпман, У. Общественное мнение / Липпман У. — Москва.: Институт Фонда "Общественное мнение", -2004. - 382 с.
4. Сулейманова, Ш.С. Информационные войны: историяи современность: Учебное пособие. / Ш.С. Сулейманова, Е.А. Назарова – Москва.: Международный издательский центр «Этносоциум», -2017. -124 с.
5. Серов А. Дезинформация как инструмент внешней политики ряда зарубежных стран // - Москва.: Зарубежное военное обозрение, - 2019. № 8. С. 14.
6. Чернов, А.А. Становление глобального информационного общества: проблемы и перспективы. / А.А Чернов. – Москва.: Издательско-торговая корпорация «Дашков и К», - 2003 – 232 с.

**E-mail:** gulya.alibekovaa@mail.ru

**Redaksiyaya daxil olub:** 04.09.2024.

UOT 159.9

**Mətanət Fariz qızı Həsənova**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
*https://orcid.org/0000 0003 4998 6895*
*https://doi.org/10.69682/arti.2024.91(5).217-220*

# EKSTREMAL SİTUASİYALARDA İLKİN PSİXOLOJİ YARDIMIN XÜSUSİYƏTLƏRİ

**Матанат Фариз гызы Гасанова**
*старший преподаватель Азербайджанского Университета Языков*

# ОСОБЕННОСТИ ПЕРВИЧНОЙ ПСИХОЛОГИЧЕСКОЙ ПОМОЩИ В ЭКСТРЕМАЛЬНЫХ СИТУАЦИЯХ

**Matanat Fariz Hasanova**
*senior lecturer at the Azerbaijan University of Language*

# FEATURES OF INITIAL PSYCHOLOGICAL ASSISTANCE IN EXTREME SITUATIONS

**Xülasə.** Bir çox insanın məlumatlı olmadığı ilkin psixoloji yardım yalnız hadisə və fəlakətlərdə deyil, ani stress yaradan hər cür travmadan sonra da tətbiq edilməli erkən psixososial müdaxilədir. İlkin psixoloji yardım zamanında tətbiq olunduqda stressin təsir dərəcəsini azaldır və uzun müddətli travmatik stress problemlərinin qarşısını alır. Məqalədə ekstremal situasiyalarda ilkin psixoloji yardımın prinsipləri, qaydaları öz əksini tapmışdır. Böhrana müdaxilə yanaşmasının effektivliyi insanların fiziki və psixi sağlamlığının qorunması üçün çox vacibdir. Çünki böhrandan sağlam şəkildə çıxa bilən şəxs böhrandan sonra ciddi psixi problemlər yaşama riski ilə üzləşir.
***Açar sözlər:*** *travma, ilkin psixoloji yardım, ekstremal situasiya, təbii fəlakət*

**Аннотация.** Многие люди не осознают, что первичная психологическая помощь – это раннее психосоциальное вмешательство, которое следует применять не только при происшествиях и катастрофах, но и после любой травмы, вызывающей внезапный стресс. Ранняя психологическая помощь снижает воздействие стресса и предотвращает долговременные проблемы травматического стресса. В статье рассматриваются принципы и правила оказания первой психологической помощи в экстремальных ситуациях. Эффективность подхода кризисного вмешательства имеет решающее значение для защиты физического и психического здоровья людей. Потому что человек, который может выйти из кризиса здоровым, рискует получить серьезные психические проблемы после кризиса.
***Ключевые слова:*** *травма, первичная психологическая помощь, экстремальная ситуация, стихийное бедствие*

**Abstract.** Many people do not realize that primary psychological care is an early psychosocial intervention that should be used not only in accidents and disasters, but also after any trauma that causes sudden stress. Early psychological intervention reduces the impact of stress and prevents long-term traumatic stress problems. The article discusses the principles and rules of providing psychological first aid in extreme situation. The effectiveness of the crisis intervention approach is critical to protecting people's physical and mental health. Because a person who can come out of a crisis healthy is at risk of developing serious mental problems after the crisis.
***Keywords:*** *trauma, initial psychological assistance, extreme situation, natural disaster*

Ekstremal şəraitlərin birbaşa və ya dolayısı ilə fərdi və sosial təsirləri var. Bu şəraitlər insan tələfatı ilə yanaşı, sosial həyata da mənfi təsir göstərə bilər. Fəlakətlərin nəticələri fəlakətin şiddətindən, baş verdiyi yerdən, cəmiyyətin

və cəmiyyətdəki fərdlərin dözümlülüyündən asılıdır (İlgen 1995).

Travmatik hadisə zamanı və sonrasında verilən reaksiyalar normal reaksiyalar kimi qəbul edilsə də, ümumiyyətlə fərdlərdə etibarsızlıq, qorxu, təəccüb, kədər, günahkarlıq və qəzəb kimi hisslərə səbəb ola bilər. Bu reaksiyaların növü, müddəti və şiddəti şəxsin fərdi-psixoloji xüsusiyyətlərindən asılı olaraq dəyişir.

Travmadan sonra insanlar öz reaksiyalarını müxtəlif davranış, fiziki və psixoloji üsullarla büruzə verirlər. Təbii fəlakətlərə məruz qalanların yaşaya biləcəyi ümumi psixoloji problemlərə şok, etibarsızlıq, çarəsizlik, qəzəb, ümidsizlik, günahkarlıq, kədər, unutqanlıq, şübhəli inanclar, diqqət və konsentrasiya problemlərinə səbəb ola biləcək ani emosional dəyişikliklər aiddir (2).

Ekstremal situasiyada həssas vəziyyətdə olan və xüsusi yardıma ehtiyacı olan şəxslər aşağıdakılardır:

1. Uşaq və yeniyetmələr.
2. Sağlamlıq problemləri və ya əlilliyi olanlar.

İlk öncə uşaqlar və yeniyetmələrə ilkin psixoloji yardım tətbiq edərkən diqqət etməli olduğumuz cəhətləri nəzərdən keçirək. Uşaqların böhranın mənfi nəticələrinə (məsələn, dağıntılar, xəsarətlər və ya ölüm, aclıq və susuzluq və s. şahidi olmaq) necə reaksiya vermələri onların yaş xüsusiyyətləri və psixofizioloji inkişaf mərhələsindən asılıdır. Ekstremal situasiyada uşaqlar valideynlərinin və digər böyüklərin onlarla ünsiyyət tərzindən çox təsirlənir. Məsələn, kiçik uşaqlar ətraflarında baş verənləri anlamırlar və valideynlərinin dəstəyinə ehtiyac duyurlar. Ətrafında sakit, təmkinli bir yetkin olduqda uşaqlar ekstremal situasiyanın neqativ təsirinin öhdəsindən daha yaxşı gəlirlər.

Ailələr uşaqlara kömək etmək üçün nə edə bilər? Körpələr üçün aşağıdakı dəstək tədbirlərindən istifadə etmək olar:

-Körpələri isti və təhlükəsiz saxlayın;

-Yüksək səs-küydən və qarışıqlıqdan kənarda saxlayın;

-Körpənizi qucaqlayın;

-Mümkün qədər müntəzəm qidalandırın və yatızdırın;

-Sakit və yumşaq səslə danışın.

Kiçikyaşlı uşaqlar üçün isə aşağıdakı dəstək tədbirlərindən istifadə etmək olar:

-Onlara birlikdə çox vaxt keçirin və diqqət, qayğı göstərin;

-Onlara tez-tez sizinlə birlikdə təhlükəsizlikdə olduqlarını xatırladın;

- Baş verən neqativ hadisələrə görə onların məsuliyyət daşımadıqlarını izah edin;

-Azyaşlı uşaqları valideynlərindən, qardaş-bacılarından və sevdiklərindən ayırmayın;

-Gündəlik rejimlərə və planlara mümkün qədər riayət edin;

-Baş verənlərlə bağlı suallara qorxu yaradacaq detallara varmadan sadə cavablar verin.

-Qorxurlarsa və ya valideynlərini qucaqlayırlarsa, mütəmadi yaxınınızda tutun;

-Barmaq əmmə və yataq islatma kimi erkən yaşda görülən davranışları olarsa belə səbirli olun;

-Oyun və istirahət üçün fərqli imkanlar yaradın;

Böyükyaşlı uşaqlar və yeniyetmələr üçün aşağıdakı dəstək tədbirlərindən istifadə etmək olar:

-Onlarla birlikdə olmaq, ünsiyyət qurmaq üçün vaxt ayırın;

-Gündəlik rejimlərinə davam etmələrinə kömək edin;

-Baş verənlər haqqında real məlumatları paylaşın və mövcud vəziyyəti danışın;

-Kədər bir duyğudur və hər insan yerində və zamanında yaşamalıdır. Onların baş verən hadisələr qarşısında güclü olmasını gözləməyin;

-Onların düşüncələrini və qorxularını mühakimə etmədən dinləyin;

-Qaydaları və gözləntilərinizi aydın və dəqiq şəkildə ifadə edin;

- Onlarla üzləşdiyi təhlükələr barədə danışın, onlara dəstək olun və problemdən ən az zərərlə xilas ola biləcəkləri yolları müzakirə edin;

-Başqalarına kömək etmələrinə icazə verin və ya yaxşılıq etmələri üçün təşviq edin (3).

Ekstremal şəraitdə valideynlər yaralıdırsa, çox əsəbi və ya şokdadırlarsa uşaqlara baxa biləcək vəziyyətdə deyillərsə, ailənin müvafiq qurumlardan kömək almasını və uşaqlara dövlət qayğısı ilə təmin edə bilərsiniz

Mümkün olduğu qədər uşaqları valideynləri bir yerdə olmasına nəzarət edin və onların ayrılmasına imkan verməməyə çalışın. Məsələn, əgər valideyn tibbi yardım üçün xəstəxanaya aparılırsa,

ya uşaqları valideynlərlə aparsınlar ya da valideynlərin haraya gedəcəyini öyrənib uşaqları da ora aparsınlar, ailəni yenidən birləşdirsinlər.

Böhranın yaratdığı xaotik mühitdə böyüklər çox vaxt məşğul olurlar və uşaqların gördüklərini və ya eşitdiklərini nəzərə almırlar. Buna görə də, uşaqları narahat edici görüntülərdən və ya danışılan söhbətlərin mənfi təsirindən qorumağa çalışın.

Uşaqlar üçün deməli və etməli olduğunuz məqamlar:

- Təhlükəsizliklərini təmin edin

-Uşaqları zərərçəkən insanların və ya kütləvi dağıntıların şahidi olmayacağı məkanda yerləşdirin;

-Hadisə ilə bağlı kədərli, fəlakətli söhbətləri eşitməməsinə diqqət edin;

-Onların hadisə ilə bağlı fikirlərini dinləyin;

-Göz səviyyəsində danışmağa çalışın və anlaya biləcəkləri söz və ifadələrdən istifadə edin;

-Özünüzü adla təqdim edin və onlara kömək etmək üçün orada olduğunuzu bildirin;

-Onların adlarını, haradan olduqlarını və ailələrinə çatmaq üçün onlara lazım ola biləcək hər hansı məlumatı öyrənin;

-Əgər onlar ailələrinin yanındadırlarsa, uşaqlara qayğı göstərə bilməsi istiqamətdə ailələrə maarifləndirici dəstək olun;

-Uşaqlarla vaxt keçirirsinizsə, onların yaşlarına uyğun olaraq söhbət etməyə və maraqları ilə bağlı oyunlar oynamağa çalışın (1).

Unutmayın ki, uşaqların da problemlərin həll olunması istiqamətində öz mübarizə üsulları var. Bu resursların nə olduğunu öyrənin və onları mənfi mübarizə strategiyalarından qaçmağa və müsbət mübarizə strategiyalarından istifadə etməyə təşviq edin.

Ekstremal situasiyada sağlamlıq problemləri və ya fiziki və ya əqli qüsuru olanlar şəxslərə dəstək göstərilməsi zamanı nəzərə alınmalı məqamlar vardır. Xroniki (uzunmüddətli) sağlamlıq problemləri olan, fiziki və ya əqli qüsurlu (ağır psixi pozğunluqlar da daxil olmaqla) və ya qocalar xüsusi yardıma ehtiyac duya bilər. Bu yardıma təhlükəsiz yer tapmaq, əsas dəstək və sağlamlıq xidməti göstərmək və ya onlara özlərinə qulluq etməkdə köməklik etmək aiddir. Böhran hadisəsini yaşamaq yüksək qan təzyiqi, ürək xəstəliyi, astma, narahatlıq və digər sağlamlıq və psixi pozğunluqları daha da ağırlaşdıra bilər. Hamilə və süd verən qadınlar hamiləliklərinə və ya özlərinin və ya körpələrinin sağlamlığına mənfi təsir göstərə biləcək güclü stress yaşaya bilərlər. Özbaşına hərəkət edə bilməyən və ya eşitmə və görmə problemləri olan insanlar ailələrini tapmaqda və ya mövcud xidmətlərdən istifadə etməkdə çətinlik çəkə bilərlər.

Sağlamlıq problemləri və ya əlilliyi olan insanlara kömək etmək üçün diqqət edə biləcəyiniz bəzi məqamlar bunlardır:

-Onlara təhlükəsiz yer tapmağa kömək edin.

-Onlara yemək, içmək, təmiz su tapmaq, özlərinə qulluq etmək və ya yardım qrupu tərəfindən ləvazimatlarla təmin etmək, sığınacağa yerləşdirmək kimi ilkin, əsas ehtiyaclarını ödəməyə kömək edin. İnsanlardan sağlamlıq problemlərinin olub-olmadığını və ya müntəzəm olaraq qəbul etdikləri dərmanların olub olmadığını soruşun. Onlara tibbi xidmətlərdən yararlanmağa kömək edin.

-Kömək etdiyiniz həmin şəxsin yanında qalın və ya getməlisinizsə ona kömək edəcək başqa birini tapın. Şəxsə uzunmüddətli yardım üçün müvafiq dövlət müəssisəsi ilə əlaqə saxlayın.

-Onlara ehtiyacları olan hər hansı xidmətdən necə yararlana biləcəklərini söyləyin (3).

**Problemin aktuallığı.** Ekstremal situasiyalarda insanların psixoloji yardıma və psixoloji dəstəyə ehtiyacı ola biləcəyi şübhəsizdir. Önəmli olan isə ilkin psixoloji yardımın prinsip və qaydalarını bilmək və onlara əməl etməkdir. Bu baxımdan ilkin psixoloji yardımın kimlərə və necə tətbiq edilməsi məsələlərinin araşdırılmasına ehtiyac vardır. Kömək etmək istəyi hər bir insanın təbii istəyidir. Vaxtında uzadılmış əl insana həyatdakı ən dəhşətli hadisələrin öhdəsindən gəlməyə kömək edə bilər.

**Problemin elmi yeniliyi.** Müasir dövrdə aktuallığı ilə seçilən ilkin psixoloji yardımın müxtəlif aspektləri – prinsipləri, tətbiqi qaydaları, müxtəlif yaş qrupunda olan insanlara ilkin psixoloji yardımın tətbiqi qaydaları sistemli şəkildə öz əksini tapmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ilkin psixoloji yardımla bağlı aparılan araşdırmalarda, əhalinin maarifləndirilməsində istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Nuray A., Yeşim Ü. Afetlerde Psikososyal Destek Rehberi. -İstanbul, -2023. -75 s.
2. Cavadov R.Ə, Tağıyeva G.B. Ekstremal şəraitlərdə psixoloji xidmət. -Bakı: ADPU – nun mətbəəsi, -2006, -258 s.
3. Psikolojik İlk Yardım: Amaçları, Uygulanışı, Hassas Gruplar ve Uyulması Gereken Etik Kurallar. -Ankara. -2019. -362 s.
4. Psixoloji yardım haqqında Azərbaycan Respublikasının qanunu. -Bakı. -2018.

**E- mail:** metaneth2@gmail.com
**Redaksiyaya daxil olub:** 24.09.2024.

*UOT 159.9*

***Püstəxanım Məmmədkərim qızı Balayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının baş müəllimi*
*https://orsid.org/0009 0000 0868 1734*
*https://doi.org/10.69682/arti.2024.91(5).221-225*

# MƏKTƏBLİLƏRDƏ GENDERLƏ BAĞLI DƏYƏRLƏRİN FORMALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

***Пюстеханым Мамедкерим гызы Балаева***
*старший преподаватель кафедры Общей педагогики*
*Азербайджанского Государственного Педагогического Университета*

# НАПРАВЛЕНИЯ ФОРМИРОВАНИЯ ГЕНДЕРНЫХ ЦЕННОСТЕЙ У ШКОЛЬНИКОВ

***Pustakhanim Mammadkarim Balayeva***
*head teacher of the department of General pedagogy of the*
*Azerbaijan State Pedagogical University*

# DIRECTIONS FOR THE FORMATION OF GENDER-RELATED VALUES IN SCHOOLCHILDREN

